# QABİL

## ƏSƏRLƏR

VI

OĞLU MAHİRDƏN
XATİRƏ



## QISA TƏRCÜMEYİ-HAL

**ŞAİR QABİL** – Qabil Allahverdi oğlu İmamverdiyev 12 avqust 1926-cı ildə Bakıda, dəmiryolçu ailəsində anadan olmuşdur. 1944-1948-ci illərdə V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun filologiya fakültəsində ali təhsil almışdır. Moskvada M.Qorki adına Ədəbiyyat İnstitutunun nəzdində iki illik ədəbiyyat kursunun müdavimi olmuşdur. Əmək fəaliyyətinə 1948-ci ildə, Yardımlı qəsəbə orta məktəbində Azərbaycan dili və ədəbiyyat müəllimi kimi başlamışdır. Sonrakı illərdə "Azərbaycan müəllimi", "Ədəbiyyat və incəsənət", "Kommunist" qəzetlərində, Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində, "Azərbaycan" jurnalında müxtəlif vəzifələrdə çalışmışdır. Azərbaycan Yazıçılar Birliyi Ağsaqqallar Şurasının sədri olmuşdur. Qabil ədəbiyyata 4 aprel 1944-cü ildə, "Ədəbiyyat qəzeti"ndə çap olunan "Gəl, baharım" adlı şeiriylə gəlmişdir. "Qabil İmamverdiyev", "Qabil Nikbin", "Qabil" təxəllüsləri ilə yazıb-yaratmışdır. Yaradıcılığının şah əsəri sayılan "Nəsimi" mənzum romanı 1976-cı ildə Azərbaycan SSR Dövlət Mükafatına layiq görülmüşdür. "Azərbaycan SSR Əməkdar İncəsənət xadimi", "Azərbaycan Respublikasının Xalq şairi" fəxri adlarını almışdır. "Şöhrət" və "İstiqlal" ordenləri ilə təltif olunmuşdur. Azərbaycan və rus dillərində 100-dən çox kitabı çap edilmişdir. Qabil 4 aprel 2007-ci ildə vəfat etmişdir. Azərbaycan Prezidenti İlham Əliyev, dövlət və hökumət rəsmilərinin iştirakı ilə Rəşid Behbudov adına Mahnı Teatrında vida mərasimi keçirilmişdir. 1-ci Fəxri Xiyabanda dəfn edilmişdir.

Tərtib edən:
**Mahir Qabil oğlu İmamverdiyev**

Redaktoru:
**Mahir Qabil oğlu İmamverdiyev**

Korrektorlar:
**Bəyim Mahir qızı İmamverdiyeva**
**Nofəl Aftandil oğlu Mehdiyev**

Bədii tərtibat:
**Zaur Qafarzadə**

**Qabil.** "Əsərlər". VI cild.
Bakı, "Adiloğlu"nəşriyyatı, 2017, 528 səh.

*"ƏSƏRLƏR" yeddi cildliyinin 6-cı cildinə Xalq şairi Qabilin "Ömür həbləri" romanı və müxtəlif illərdə yazdığı məqalələri daxil edilmişdir. Redaktə və korrektə zamanı həmin dövrün qrammatik qaydaları nəzərə alınmışdır.*

**İSBN 978-9952-25-106-7**

© M.Q.İmamverdiyev, 2017

# QABİL

## ƏSƏRLƏR

(YEDDİ CİLDDƏ)

## VI

## CİLD

BAKI - 2017


MİRMÖVSÜM AĞA

# ÖMÜR HƏBLƏRİ

## ROMAN

**Əvvəl nə idiksə,**
**Yenə də şimdi hamanız.**

*Mirzə Ələkbər Sabir*

Ucsuz-bucaqsız qəbiristanlıq. Başdaşları yonan balta səsləri, sinə daşları cilalayan aqreqat uğultusu. Ordan-burdan, adda-budda, mehin səmtinə görə aşkar və qırıq-qırıq eşidilən yasin sədaları və ağlaşma...

Təzə ölü gətirən maşın karvanı...

Qəbirlər arası çalın-çarpaz, düyün-düyün, dolam-dolaşıq cığırlarda – çiyinlər üstündə yırğalanan al-qırmızı örtüklü mafə...

Məzarlar... məzarlar... məzarlar...
Qazıblar... qazırlar... qazarlar...

– Yəni mən də öləcəyəm?

Qəbiristanlığı qəhqəhə başına götürür:

– Bu da təzə çıxdı? Sən adam deyilsən? Adam qalsın bir qırağa, sən canlı deyilsən?

– Canlıyam...

– Yaxşı, qurtardı-getdi də.

– Deməli, hökmən öləcəyəm?

– Yox, əbədiyyətə qovuşacaqsan.

– İstəmirəm.

– Mən ölüm, istə!

– Bəlkə, bir möcüzə baş verdi?

– Nə möcüzə?

Məzarlar uğunub gedir:

– Möcüzə də. Məsələn, növbə mənə çatar-çatmaz, əcəl başımın üstünü, hə... hə... kəsdirər-kəsdirməz, bir də gördünüz ki, bir dərman çıxdı, bir həb tapıldı və bu həbi sınaqdan ke-

çirmək üçün ilk dəfə mənə verdilər. Onsuz da siz əhliqüburun[1] buyurduğu kimi, əbədiyyətə qovuşuram də. Və onda gördünüz ki, mən ölmədim. Ömrüm bir "n"... qədər uzandı. Sonra yenə ayrı bir əhvalat baş verə bilər. Sonra haqqında sonra fikirləşərik. Şair yaxşı deyib:

Səhərin qeydinə qallıq
Səhər, inşallah...

Ucsuz-bucaqsız qəbiristan fikirli-fikirli sükuta dalır. Sonra sükut pozulur:

– Əşşi, buna bax ey! Bundakı yaşamaq həvəsinə, ölməməzlik inamına bax ey! Biz hərif olduq. Düzdülər sinəmizə dəmir-beton təbəqələri, dəlmə-deşiklərini diqqət və səylə dönə-dönə suvadılar (əlbəttə ki, ruhumuza hörmət naminə), üstündən də tökdülər üç ton torpağı, təpə düzəldib həmin təpəni bellərlə möhkəm-möhkəm bərkidib hamarladılar, dövrəsinə təzədən iri daşlar düzdülər (Bəs necə?! Birdən durub qaçarıq...) və dedilər: Rahat yat, məzarın nurnan dolsun. Ay doldu ha. İynə gözü boyda bir deşik qoydunuz ki... Sonra da elə oradanca biriniz məzuniyyətə, biriniz ezamiyyətə, biriniz görüşə, biriniz yarışa, biriniz Ağdama, biriniz hamama, bir neçəniz də dərd əlindən vurmağa... Əlbəttə, bizim ruhumuzun şərəfinə. Heç olmasa bu xarabada allahın o sərin Xırdalan pivəsiynən isti noxud olsaydı, dərd yarı idi. Yoxsa heç dözüləsi şey deyil... biz hərif olduq. Gərək ölməyəydik:

Ölüm pis hər şəkildə...
Ölüm pis hər fəsildə.

---

[1] Qəbiristan əhli, ölülər

Qışda qar-boran, çovğun-qiyamət – necə öləsən?! Yazda təbiət oyanır, aləm cana gəlir, gül gülü çağırır, bülbül bülbülü, tər xiyar çıxır... o da ki, araqnan aləmdir – necə öləsən?! Yayda paltarlar dəyişir, nazilir, cavanların tunc bədənləri, qızların gül əndamı, adamı dəli-divanə edən tərpənişi, titrəyişi, yolunu gözləyən qızıl qumlu, qartal qayalı çimərliklər, uca yaylaqlar, qalın meşələr, bağlardan-bağçalardan bazarlara axışan əlvan-əlvan dadlı meyvələr. Di öl görüm, necə ölürsən! Payızda təbiət filosof, şair olur, müdrikləşir, dalğın-dalğın xəyala dalır. Meşələr qızıllaşır, dərələr-təpələr, yamaclar, düzlər axırıncı dəfə gözəlləşir, yaşıllaşır. Zirvələrin saçına təkəm-seyrək dən düşür. Yollara-cığırlara duman gəlir, çən düşür. Bulud-bulud üzüm bağları, sərgi-sərgi meyvə bağları öz barını, bəhərini insanlara bəxş edir, dükan-bazara doldurur, süfrələrə düzür. Toylar-düyünlər, məhsul bayramları biri-birinə calanır. Həyat, mühit, təbiət, gözəllərin çöhrəsi yeddi rəngdə bərq vurur, cilvə göstərir. İnsaf da yaxşı şeydir, adam payızda necə ölsün axı? Yox, qardaş, sən ki, bu perpetum mobile – daima öz-özünə işləyən mühərrik eşqinə, yaşamaq dərmanı, ömür həbləri sevdasına düşmüsən, elə lap yaxşı eləmisən düşmüsən. Olmaz ki, bu barədə bir şey yazasan?  Burada bir başqa məsələ də var axı.

İşıqlı dünya, yaşamaq, soyuq Xırdalan pivəsi, isti Masallı noxudu, narın Naxçıvan duzuynan nə qədər şirin olsa da, ömrün mənası illərin sayıyla, yaşın çoxluğuyla da ölçülmür. Bu – beş dəfə beş iyirmi beşdir! Sən yaz "Ömür həbləri" barədə!

– Yazmağına yazaram. Ancaq...

– Ancaq nə? Qorxursan çap eləməzlər. Eləməzlər, eləməzlər də... canın sağ olsun. Arxivin yoxdur?

– Yox ey, söhbət...

– ...

Ucsuz-bucaqsız qəbiristan sükutü bürünür. Düşünürəm. Gözümü yumub xəyala dalıram. Fikrimdən görün nələr keçir:

* * *

Şəhər... İdarələrdə, müəssisələrdə, tikinti meydanlarında, apteklərdə, səhiyyə ocaqlarında, sənayə, təsərrüfat, mebel, kitab, mədəni mallar mağazalarının çoxunda, ərzaq mağazalarının az bir qismində nahar fasiləsidir.

Kolxoz bazarlarından birində səs-küy, vurnuxma, şıdırğı alqı-satqı. İş yeri bazara yaxın olan adamlar bura axışır. Xırda qəlyanaltılarda, ucuz qiymətli yeməkxanalarda uğultu... növbə...

Həndəvərdə fırlanan alverçilər dodaqaltı – nazik, cır, yoğun və xırıltılı səslərlə camaata az tapılan cürbəcür şey-şüy, mal – xarici tiyədən (lezviya) tutmuş şubayacan təklif edirlər. Sahə müvəkkili – milis kapitanı və milis starşınası da bu axındadır, ancaq elə-belə... Özləriyçün... Hava soyuqdur. Tək-tək qar atır. Birdən şəhərin üstündə kiçicik cib dəftərçəsinin vərəqləri boyda ağ vərəqlər uçuşur. İlk baxışda bunu antisanitariya – havaya sovrulan zir-zibil bilib əhəmiyyət vermirlər. Müştəriyə göstərmək məqsədiylə əyninə çox bahalı şuba geymiş alverçi qadın Raziyyə görür ki, həmin kağızlardan biri şubanın ora-burasına qonhaqondadır və qonsa, nə bilmək olar, malı zay etdi, etdi... Fövrən kağızı göydə qapır. Açır, baxır: kağızda üç həb şəkli çəkilib: biri kiçik, biri ondan bir az böyük, biri də o birindən. Biri çəhrayı, biri mavi, biri yaşıl. Birinin üstündə çəkilib 5 rəqəmi, birinin 10, birinin də 15. Hər üç rəqəmin də altında qızılı rənglə, aydın əl xəttiylə yazılıb: "Ömür həbləri".

Raziyyə:

– Nə, nə? Ömür həbləri?

Düzü, mən dava-dərman işinə baxmıram. Aptekçi İsrafil üç-dörd dəfə mənə demişdi ki, istəyirsən "importnu medikament" verim, xırıd elə. Baş qoşmamışdım. Həb-məb, maz-

muz nədi ki, qazancı da nə ola?! İsrafilin başına at təpmişdi ki, sirrini-sövdasını kağıza yazıb göyə sovursun? Yaxşı, bəs bu üç rəng nədi, 5, 10, 15 nə tapmacadı? Deyəsən, özgə haqq-hesabdı. Gör nə qədər kağız uçur?

Alverçilər Raziyyəni dövrələyirlər:

A:

– Bu nə hoqqadı?

B:

– Doluyublar cammatı.

V:

– Uşaqların işidi.

Q:

– Siz öləsiniz, qurğu-zad olar, boşlayın bu kağız qırıntılarını. Onsuz da əskimiz tüstüləyir...

Raziyyə:

– Bəlkə kosmonavtlar atır bu vərəqləri? Bəlkə yuxarıda möcüzə-filan?! Amma yox! "Ömür həbləri!" xalis bizim sözdür, Azərbaycan dilidir. Bizim də ki, camaatdan hələ ora çıxanı olmayıb.

Raziyyənin gözü birdən milis kapitanına və starşinaya sataşır.

Raziyyə:

– Budu ey, hökumət adamları boş-boş veyllənir. Hamısını deyə bilmərəm, amma bunlar yüz əlli yeddi faiz veyllənir, lap eləcənə (gəncəlilər demişkən) sülənir. Məqamdı, qoy silkələnsinlər.

Alverçi qadın və başqaları milis işçilərinə yaxınlaşanda artıq onların da əlində kağız quşcuqlar var idi.

Kapitan:

– Bu nədir, əşşi?

Starşina:

– Yoldaş kapitan, təcili məlumat vermək lazımdır.

Raziyyə:

– Hə də, belə özbaşınalıq olar? Belə həlləm-qəlləmlik olar?

Starşina:

– Sən bir dayan görək. Ürəyi yanan tapıldı bu hökümətə.

Kapitan üzünü starşinaya tutur:

– Nə məlumat, ə?! Görmürsən ki, bu kağızlar ağ-ağ sülh göyərçinləri kimi şəhərin üstündə qanad açıb? Yəni, məlumat veriləsi adamların, idarələrin gözü-zadı yoxdur?

Sirli, balaca kağızlar hər yerə düşür, adamların çiyninə, başına, ovcuna, lap gözünün içinə qonur... qonur...

Starşina:

– ÇP ÇP-dir, rəsmi məlumat verməliyik.

Kapitan:

– Onda sən qal, mən gedim.

Starşina:

– Mən qalım neyləyim?

Kapitan:

– Ə, həmişə neyləmişdin? Möcüzə göstərməyəcəksən ha.

Starşina:

– Möcüzə odu hey – şəhər dəyib bir-birinə. Ömür həbləri. Pah atonnan.

Kapitan:

– Hələ dəyməyib, ancaq deyəsən, bərk dəyəcək. Getdim.

* * *

Bazar dairəsində yüngülvari bir həyəcan... Adamlar kağızları kəpənək tutan kimi tutur, oxuyur, bir-birinə göstərir, gülür, çiynini çəkir, gözünü bərəldir, barmağını dişləyir.

Starşina qeyri-ixtiyari fit çalmaq istəyir. Camaat, bazar, meyvə-tərəvəz, kartof-soğan cərgələri, qənarələrdən asılmış şaqqalar, duzlu xiyar, pomidor, kələm çəlləkləri, tığ vurmuş

balqabaqlar fışdırığı dodaqlarına yaxınlaşdıran starşinanın başına fırlanır... "Ömür həbləri"nin yağmuru altında fırlanır.

* * *

Şəhərdə nahar fasiləsi qurtarhaqurtarmaqdadır. Gözlər saatlardadır.

Tikinti meydanlarından ikisinə lap yaxın yeməkxana. Küftə, lülə, borş, kotlet, şnisel. Axırıncı qaşıqlar, axırıncı tikələr, axırıncı qurtumlar. Açıq nəfəsliklərdən içəri düşən sehrli kağızlar qabaqdan qalan xörəklərə, bulaşıq qab-qacağa, stollardakı qat-qarışığa qonur, rəng və əhəng ləkəli, yağlı-qara kombinezonlara qonur, fəhlə qızların, qadınların səliqə-səhmanı, sığalı pozulmuş tozlu, qumlu, sementli saçlarına qonur, gözlərinin içinə girə-girə fırlanır...

Suvaqçı qız rəngsaz qıza deyir:

– Azz, azz, bu nə kağızdır elə? Üç həb şəkli – çəhrayı, mavi, yaşıl. Birinin üstündə 5, o birinin 10, o birinin də 15 yazılıb, sonra da oxu, bax, "Ömür həbləri". Yəni belə çıxır ki, bu həblər ömür uzadır? İyirmi bir yaşım var. Guya həb olmasa, otuz-otuz beş yaşına çıxa bilmərəm? Elə sən də. Həm də ki, nə qədər yaşasaq, elə buyuq. O ki qaldı bəxtə, taleyə; o istəsə, ömrün hər dəqiqəsində adamın üzünə gülər, istəsə, gülməz.

Rəngsaz qız:

– Çox yaşasaq, çox da iş görərik, fayda verərik. Gün görərik. Gün ey...

Rəfiqəsini qucaqlayır, qızın əlindən qaşıq düşür. Kağızlardan biri yağlı xörək qaşığının dalına yapışıb. Rəngsaz qız yenə:

– Yox ey, axı bu nə olan şeydir? Bunu kim satır, neçəyə satır, hansı alimin kəşfidir? Hansı nüsxəylə (reseptlə) hansı aptekdə verilir? Hər şeydən maraqlısı da – nə əcəb hökumət...

Suvaqçı qız:

– Bu həblərin üstündə bir qırğın düşsün ki: cehizinə mürgə daraşan qarımış qızlar... qulaqlarını tut, mən də tuturam. Hə... Heç kəsi bəyənməyə-bəyənməyə qocalan subaylar, pulgirlər, cibgirlər – özü də böyük hərflə, geniş mənada cibgirlər, ər dəyişməkdən, arvad dəyişməkdən yorulmayanlar, kinli-küdurətlilər, kəmfürsət qisasçılar – xülasə, belə-belə işləri başa çatdırmaq üçün, davam etdirmək üçün ömrü azlıq edənlər arasında ay toz qopacaq ha...

Rəngsaz qız:

– Bəs yaxşı əməllər üçün, xeyirxah işlərdən ötrü ömrü azlıq edənləri niyə demirsən?

Suvaqçı qız:

– Deyirəm, niyə demirəm. Bu millətin hamısı ucdantutma miningit deyil ki?! Məsələn, sənin ömrünü uzatsalar neynərsən?

Rəngsaz qız:

– Mənim boş söhbətə qulaq asmağa təhrim yoxdur. Fasilə qurtarıb, gedək. Arvadların dalınca... baxmaqdan boynu biryanlı olmuş Qafar onsuz da əlimizdən yığıb, bəhanə axtarır haqqımızı kəsməyə...

* * *

Həmin yeməkxana. Başqa bir stol arxasından qalxan fəhlələr.

Betonçu:

– Ömür həbləri çıxıb, deyirlər.

Qaynaqçı:

– Görəsən, acıdır, yoxsa şirin?

Yeməkxana tamam boşalır. Stolların üstünü təmizləyən arvadın bir əlində əsgi, o biri əlində kağız quşcuq – “Ömür həbləri” – var.

Tikintilərdə uğultu, elektrik qaynaqlarından qopan qızıl ulduz şabaşı. Göydə ağır-ağır fırlanan qar dənələri, yüngül-yüngül, seyrək-seyrək uçuşan kiçicik cib dəftərçəsinin vərəqləri boyda vərəqlər.

* * *

Ümumi maşın axınında bir maşın. Maşında bütün zəruri cihazlarla, rabitə vasitələriylə bərabər televizor ekranı var. Ekipaj – sürücü qarışıq beş nəfərdir. Adi paltarda, otuz beş əlli yaş arasında yorğun, ayıq, qətiyyətli, fikirli və cəsarətli beş adam. Sürücünün özü də adi sürücü deyil...

Beş nəfərdən birincisi:

– Təcili kalliqrafik ekspertiza müəyyənləşdirib, təsdiq elədi ki, kiçicik cib dəftərçəsinin varağı boyda kağızdakı çəhrayı, mavi, yaşıl həb şəkillərini də, beş, on, on beş rəqəmlərini də eyni əl çəkib, "Ömür həbləri" sözlərini də eyni əl yazıb. Xətt çox qəribə xətdir. Nə solaxay işidir, nə qolay... Nə rəssam vərdişidir, nə xəttat (keçmişdə xəttatlıq – son dərəcə aydın və gözəl xətlə yazı yazmaq ayrıca sənət idi) işidir, nə savadsızın kağız üstündəki qarışqa rəddidir, nə uşaq xəttidir, nə qoca... Bu xətt qələm tutub yazı yaza bilən adi insan barmaqlarının hərəkətindən xaric söhbətdir.

Beş nəfərdən ikincisi:

– Görünür, Fantomasın, Robotun, Çelovek-nevidimkanın, Qar adamın, qulyabanının və nəhayət, Məlikməmmədin işidir.

Beş nəfərdən üçüncüsü:

– Hər halda bu işin, bu hoqqanın sahibi hər kimdirsə, hər nədirsə ağılsızdır. İndi belə-belə şeylərə inanan hanı? Şeyx Nəsrullah əyyamı keçmiş ola.

Beş nəfərdən dördüncüsü:

– Əvvəla, Şeyxin proqramı çox aydın və düz xətt üzrə idi. Həb söhbəti isə dolaşıqdır. Bu işin, əməlin sahibinə gəldikdə isə, o, qətiyyən ağılsız deyil. O – Naməlum bilirsinizmi nədən istifadə eləyib? O istifadə eləyib çox incə və eyni zamanda okean gəmisinin lövbər zəncirindən də möhkəm inam telindən. İnsan həmişə inanmaq istəyir. Xüsusilə yaxşılıqla, işıq və qanadla bağlı bütün qeyri-adiliklərə! Təsəvvür edin ki, nağıllar, əfsanələr olmasaydı nə olardı? Bizim xəyallarımız, arzularımız, bizim çətin yollarla böyük məqsədlərə çatmaq həvəsimiz toyuqdan hündürə uça bilməzdi.

Beşinci nəfər – sürücü:

– Mən "Ömür həbləri"ni real, konkret bir şəxsin işi hesab edirəm. Növbəti, adi, əlbəttə, bir az sensasiyalı xuliqanlıq, provokasiya...

Birinci nəfər:

– Yox!

* * *

Maşın asta gedir. Axşam düşə-düşməyə... Şüşəsilənlər eyni ritmlə saat kimi çıqqıldayır. Heç kəs dinmir... Maşın şəhəri, onun küçələrini, meydanlarını, döngələrini dolanıb kənara çıxır.

Sürücü:

– Ekran, ekran! – maşındakı televizor ekranı işıqlanır və göstərir:

...Biri-birindən aralı, seyrək evlər. Budaqlarında qar lülələnən ağaclar. Qəbiristan və tək-tək qəbir daşları. Həmin həndəvərdə fabrik. Fabrik tərəfdən gələn ucaboy, cavan oğlanın qabağını iki nəfər kəsir. Maşın sürətini artırır. Qarlı yolda təkərlər tez-tez yerində fırlanır (Sirena olmaz). Bəlkə bu adamların qarşılaşması "həblərlə" bağlıdır?! İki nəfərdən biri oğlandan əl-qolla nə isə tələb edir, zorla ciblərini yoxlamaq

istəyir. Oğlan onu itələyib özündən rədd edir (O biri nəfər kənarda sakit dayanıb). İtələdiyi sürüşüb yıxılır, qalxıb bir də ucaboy oğlana girişir. Bu səfər qəzəblənən gənc yol kəsən adamı bərk vurur. Maşının bu əlbəyaxaya çatmasına saniyələr qalanda; kənarda sakit dayanmış ikinci adam qoynundan fövrən çıxardığı kortiki (hərbi dənizçi qəməsi) ucaboy oğlanın kürəyinə saplayır. Qatil və qarətçi aradan çıxmaq istəyincə yaxalanırlar.

* * *

Bıçağın ucu sinəsindən çıxmış meyiti müşahidə edənlər heyrət və təəccüb içindədirlər. Oğlanın pal-paltarında, ağappaq qar üstündə bir qətrə qan yoxdur. Bu heç. Meyit üstünə əyilmiş, onun şəklini çəkən adamların nəfəsini hiss edər-etməz ayağa qalxır. Əli-qolu bağlı canilər də məəttəldir. Təcili yardım və orqan maşınından düşənlər ucaboy oğlanı əhatə edirlər. Həkim (məhkəmə ekspert həkimi) bıçağı oğlanın kürəyindən çəkib çıxarır. Heç bir yara-filan yoxdur. Feldşer kortikin çıxdığı, girdiyi yeri yodlamı, spirtləmi sürtə-sürtə:

– Ay pir olmuş, yoxsa sənin kürəyinə həzrəti Fatimə əl çəkib? Adə, adamın dögənək olmuş dabanına tikan batanda ufuldayır, pes (yəni, “bəs”) sənə bu boyda yarımxəncəli yortublar, heç qıdığın da gəlmiyib? Sən yoxsa adam döyülsən? Müqəvvasan?

Oğlan:

– Deyəsən, kürəyim balaca gizildəyir. Elə bil gicitkən sürtüblər.

Feldşer:

– Ba atonnan, gicitkənə bax ey!..

Həkim:

– Feldşer, yaralını maşına əyləşdirin!

Oğlan:
– Mən yaralıyam?
Operativ işçi:
– Müayinə vacibdir. Bu, gözbağlıcadır.
Hamı diqqətlə bıçağa baxır. O, qarın şövqündən par-par parıldayır, tiyəsi tük salır, zərli dəstəsi aləm! Oper bıçağı biləsən-bilməyəsən budağa toxundurur, budaq üzülüb düşür. Ətrafı qar tozu bürüyür.

* * *

Xəstəxana. Üzlərdə-gözlərdə intizar... Rentgenoloq bıçaqlananla birgə baş həkimin kabinetinə daxil olur. O, əlindəki neqativə və şəklə baxıb məlumat verir:
– Fikir verin. Kortik kürəkdən girib sinədən çıxıb. Lakin, heç bir əzələ, toxuma, damar zədələnməyib. Ancaq, ürək ərtafında bu dairəyə nəzər salın.
Hamı baxır. Qara plyonkada açıq-aşkar çəhrayı rəngdə, üstündə beş rəqəmi yazılmış həb görünür.
Oper:
– İzinə düşdüyümüz həb! Ömür həbləri...
Baş həkim:
– Aha, yadıma düşdü. Buyur, baxın, yoldaş ma... – mayor demək istəyir, sonra fikirləşir ki, bəlkə demək olmaz, – Mansur!
Oper:
– Mənim adım Mansur deyil.
Həkim:
– Üzr istəyirəm. Ancaq, Mansur da ola bilərdi sizin adınız. Nə olub “Mansura”a, gül kimi adam adıdır “Mansur”.
Operi gülmək tutur...
Həkim həm xalatının cibindən, həm də siyirmədən kiçicik cib dəftərçəsinin vərəqləri boyda vərəqləri operə göstərir:

– Bütün günü məşğuluq. Axı bu nə demək? Necə yəni ömür həbləri? Bu oğlanın da bədənində həmən həb! Həyatda, təbabətdə, türkəçarədə, elmdə belə şey olmayıb, ola da bilməz. Adamı doğrayalar, o da durub deyə ki: “Elə bil kürəyimi gicitkən daladı”.

Oper:

– Bu, fövqəladə hadisədir. Oğlan, sənin adın?

Oğlan:

– Qismət.

Oper:

– Danış.

Qismət:

– Mən, baxın, o görünən gön-dəri məmulatı fabrikində işləyirəm. Komsomol komitəsinin katibiyəm. İdman həvəskarıyam. Planı, öhdəliyi həmişə yerinə yetirirəm. Maaşım yaxşıdır, tez-tez mükafat da alıram. Atam, anam, bir də şikəst bacım var. Atam pensiyaya təzə çıxıb; elə bu fabrikdə işləyirdi. Anam fəhlə yeməkxanasında silib-süpürəndir. Nişanlıyam. Bu gün maaş günümüz idi, kvartal (rüblük) mükafatı da almışdım. İşdə bir az ləngidim. Çölə çıxanda gördüm hər yer ağdır, hava da qaralmaq istəyir. Yolda gördüm ki, bir nəfər əli əsalı, gözlüklü, başında nimdaş, xurmayı papaq...

Oper, həkim, feldşer və başqaları:

– Hə... hə!

Qismət:

– Əynində bir qədər dəbdən düşmüş palto, təxminən səksən yaşlı, ortaboylu bir qoca elə hey büdrəyir, sürüşür, bu səkidən o səkiyə keçə bilmir. Hə də, aydın məsələdir, kişinin qolundan tutdum. Bir az gedəndən sonra...

Qoca:

– Çox sağ ol, mənim balam, daha özüm gedə bilərəm.

Mən:

– Baba, mən tələsmirəm, qoy lap evinizəcən aparım sizi.

Qoca:

– İstəməz. Qabiliyyət qaş-göz arasında da bilinir. Sən ki, o zəlil bacının nazını çəkirsən, qulluğunda durursan, əvəzini alacaqsan...

Mən:

– Siz kimsiniz, hardan bilirsiniz ki, mənim şikəst bacım var? Yoxsa atam deyib, yoxsa onun dostu, tanışısız?

Qoca:

– Necə fikirləşirsən, necə yozursan, elə də olsun. Mən sənə nə bağışlayım?

Mən:

– Əşşi, mən neyləmişəm axı, nə də bağışlayasan?

Qoca:

– Sən ki, bax indi – bu günlərdə o zamanın komsomolu kimi komsomola sidqilə inanırsan, sənin ki, ürəyinlə dilinin arasında uçurum yoxdur... sən ki, barmaqlarını gön doğrayan dəzgah aparmış atanın, qab yumaqdan, zir-zibil atmaqdan ürəyi ağzına gələn ananın başına dolanırsan... nişanlını qədimlərin (bu gün gülməli görünən) cavanları kimi istəyirsən – sənə zaval yoxdur.

Mən:

– Axı, siz mənim tərcümeyi-halımı, xasiyyətimi, dilimi-ürəyimi haradan bu şəkil yerli-yataqlı bilirsiniz? Bir də, axı, nə üçün adi, normal adamlıq, insani keyfiyyət heyrətlərə səbəb olmalıdır?

Qoca:

– Mənim balam, sən düz deyirsən. Amma əfsuslar olsun ki, bu saat, bu gün adamlar məhz çox adi, çox zəruri, çox qanuni şeyi şükürlə, heyrət və təəccüblə, kövrəkliklə qarşılayır... Al, ağzını şirin elə. Məzəli, ürək basan şirnidir.

Mən:

– Çox sağ olun, ağzınız şirin olsun.

Oper:

– Sonra, sonra... Qoca əhvalatı uzandı, deyəsən.

Qismət:

– "Çox sağ olun" deyib, şirnini alıb udmağımla qocanın gözümün qabağında yoxa çıxmağı bir oldu. Əsası ayaqlarına, ayaqları əsasına dolaşan baba yerə batdı bilmədim, göyə çıxdı bilmədim. Bir sözlə, qeybə çəkildi, lap nağıllardakı kimi.

Operativ maşının sürücüsü (əslində elə o da operdir):

– Necə yəni "qeybə"? Dəqiq danış! İfadə verirsən sən!

Feldşer sürücüyə deyir:

– İfadə nöş verir o? Cinayətkardı, dustaqdı, şahiddi begəm? Kişinin oğlu deyir: "Qeyb". Qeyb, yəni qiyabi institut, qiyabi təhsil, yəni görünməyən, ortada olmayan.

Qismət:

– Tüklərim biz-biz oldu. Məni tər basdı. Bu nəydi? Xof içində yoluma düzəldim. Adi hallarda mənə bir balaca vahiməli görünən qəbiristan həndəvəri indi heç vecimə deyildi. Elə bu arada iki nəfər qabağımı kəsdi. Məndən nə istəyib-istəmədiklərinin fərqinə varmadım. Elə bildim ki, qeybə çıxan kişi bu səfər iki cavan şəklində gözümə göründü. Gerisini özünüz bilirsiniz, görübsünüz. Kürəyimdə balaca gizilti hiss etmişdim ki, gəlib çatdınız.

Oper:

– Bəlkə qabağını kəsənlər də elə gözünə görünüb: qallüsinasiya... Qarabasma.

Qismət:

– Xeyr, onlardan birinə ilişdirdiyim yumruqdan barmaqlarım göynəyir.

Başqa bir oper acıqla:

– Görəsən, o iki nəfər, lap o yumruqladığın... qeybə çəkilməyib ki?

Feldşer operin kinayəli sözlərinə:

– Hər dana-duna, gədə-güdə, xuliqan-muliqan İsa peyğəmbər-zaddı ki, istəyəndə hazır olsun, istəyəndə qeyb olsun?

Qatili, qarətçini gətirirlər. Qismət onları həmən-həmən tanıyır. Hamı onlara diqqətlə baxır. Nə diqqətbazlıqdır?

Yumruq zərbəsindən xosunvay (bu təhrif olunmuş məşhur elarası jarqonun etimoloji mənbəyi, əsli, bilirsinizmi, nədir? “Hüseyn, vay!”) olmuş göz altı... Leykoplastla göz altına üstəgəl işarəsi kimi yapışdırılmış tənzif... tənzifə hopmuş qan... Barmaqlar dodaqlara söykənib...

* * *

İnzibati bina. Böyük, təlqinedici, işıqlı bir kabinet. İnzibati orqanların bütün səlahiyyətli nümayəndələri bura cəm olub...

Prokuror:

– Bu işdə ancaq ictimaiyyətin köməyinə arxalanmalıyıq.

Kriminalist:

– Yəni, hansı işdə?

Prokuror:

– Vərəqləri yazanı, yayanı tapmaq işində.

Kriminalist:

– Tutaq ki, tapdıq və müəyyən elədik ki, bu mənim işimdir. Nə olsun? Bu vərəqlərdə hökumətin əleyhinə, vətəndaşların şəxsiyyətinə toxunan, onların həyatını təhlükə qarşısında qoyan bir şey varmı?

Milis rəisi:

– Var! Başıpozuqluq, adi həyat tərzinin ritmini qırmaq, fikri, düşüncəni işdən-gücdən yayındırmaq.

Küçədən tükürpərdən tormoz səsi və fəryad eşidilir. Kabinet boşalır. İnzibati işçilər daş dolu ZİL-in yoldan çıxıb yarıaşmış vəziyyətdə kənarda dayandığını və maşının dal

tərəfində on-on bir yaşlı bir oğlan uşağının həyəcanla, özünü itirmiş halda üst-başını çırpdığını görürlər. Camaat uşağı dövrəyə alır. Sürücünün dili söz tutmur. Sürücünün dili qorxudan yox, sevincdən və heyrətdən söz tutmur.

Səslər:

– Bu ola bilməz! Bəlkə maşın həmən bu uşağı vurmayb?

– Xeyr, bu uşağı vurdu, gözümlə gördüm. Özü də görən bir məndim ki?..

– Canım, o cür ağır yüklü "samosval" saatda yetmişnən camışın üstündən keçsəydi, camış olardı əncil.

– Heç burnu da qanamayıb.

– Heç dırnağı da qopmayıb.

– Ağrısını sonra biləcək.

– Bu sözləri deyiblər yüngül maşın adamın xətərsiz yerinə lap yüngülcə toxunanda. Maşının dal təkərləri uşağın sinəsindən keçdi.

– Hələ zərbə... Hələ sürət... Hələ ağırlıq... Hələ zəif və zərif uşaq bədəni... Onun heç yuyulub kəfənə tutulası bir şeyi qalmamalıydı. Siz ölməyəsiniz, kinonun özündə heç belə kadr çəkmək mümkün olmazdı.

– Şoferi tutmazlar!

– Atasını da yandırallar!

– Yandırmazlar, ancaq bir balaca ütərlər... qəsd yoxdur, axı..

– Elə "qəsd yoxdu" deyilmi işləri korlayan? Xüsusi ağırlaşdırıcı hal olmasa... nə bilim, nə olmaz.

Milis camaatı bir az nəzakət, bir az məzəmmət, bir az kobudluqla hadisə yerindən dağıdır. DAM (QAİ) əməkdaşları yer və tormoz yolunun, maşının, sürücünün və sehrlə gül kimi sağ-salamat qalmış uşağın şəklini çəkirlər.

Müstəntiq:

– Bala, adın?

Uşaq:

– Ümid.

– Neçə yaşın var?

– On.

– Neçənci sinifdə oxuyursan?

– Dördüncü sinifdə.

– Kimin var evdə?

– Atam, anam, bir də mən. Atam rəngsazdır, anam qənnadı fabrikində işləyir. Bu gün anam işə çıxmayıb. Xəstələnib. Məni çörək almağa göndərdi, birinci dəfə... Həmişə mən deyərdim qoy gedim alım. Deyərdi ki, yox, balacasan hələ, nigaran qalaram, təksən. Ümid bala, qorxuram. Deyərdim ki, ana, nədən qorxursan? Məgər adamı nadinc, güclü uşaqlar incidəndə, döyəndə soruşurlar ki, neçə bacın, neçə qardaşın var? Anam gülərdi. Cavab verirdi ki, Ümid bala, sən düz deyirsən, ancaq mən nigaran qalıram ki, qalıram.

Bu gün anam məcbur oldu məni çörəyə göndərsin. Əmilər! İndi anam bərk narahatdır, qoyun gedim evə.

Müstəntiq:

– Bu saat, bala, bu saat səni maşınla evinizə aparacağıq.

– Yox, özüm gedərəm. Anam sizi görsə, qorxar, elə bilər ki, mən bir pis iş görmüşəm. Mən çörək almağa getmişdim. Çörəyim hanı? – Yan-yörəsinə baxır, kövrəlir. Yarıaşmış daş dolu maşının yanında toz-torpağa bulaşmış çörəyi görür. Çörəyə sarı getmək istərkən, başqa bir nəfər gedib çörəyi götürür, tozunu çırpıb, üfürüb uşağa verir.

– Al, bu da sənin çörəyin, özün kimi sağ-salamat.

Müstəntiq həmin şəxsə işarə edir ki, kənara çəkilsin.

Müstəntiq:

– Hə, Ümid bala, sən çörək almağa getmişdin, çörəyi aldın...

– Çörəyi aldım.

Uşağın danışdığı əhvalat əyanilәşir, səhnələşir, canlanır:

* * *

Çörək dükanı. On-on beş nəfərlik növbə. Ümid üçüncüdür. Növbə sırası yavaş-yavaş uzanır. İyirmi yeddi-otuz yaşlarında bir qadın. Üzünün cizgilərindən, rəngindən, geyimindən o, nə isə, elə bil, mətbəə adamına oxşayır. Boyu uca, solğun çöhrəsi yaraşıqlıdır. Qucağında südəmər, yanında ətəyindən bərk yapışmış üç-dörd yaşlı qız.

Ümid:

– Xala, gəlin irəli, alın çörəyinizi, ya da hansından istəyirsiniz, göstərin, alıb verim sizə.

Qadın:

– Çox sağ ol, oğlum, özüm dayanıb alaram.

Səslər:

– Əli qundaqlı, yanı uşaqlı adamsan, növbə nədir ey...

Tək-tük səslər:

– Necə yəni "növbə nədir" ? Növbə elə növbədir.

Qadın əksəriyyətin təkidi ilə Ümiddən irəli keçir, çörək alır. Ümid də alır, kənara çəkilirlər. Qadın qolundakı çantayla, əlindəki isti çörəklə, qucağındakı südəmərlə, yanındakı körpəylə avara olarkən yerə pul salır və təbii ki, xəbəri olmur. Ümid pulları görür: biri-birinə bükülmüş, xırda qatlanmış iyirmibeşliklər. Həmin pulları uzunsaçlı, boylu-buxunlu, 25-27 yaşlı bir nəfər də görür və tez ayağını basır pulların üstünə. Ümidlə onun baxışları bircə anda toqquşur... O, Ümidə işarə edir ki, "səs eləmə". Bu, hədə-qorxudur. Uşağa lezviya göstərir. Lezviyanı öz gözləri qabağında dolandırır, yəni ki, arvada xəbər eləsən gözlərini yazacağam. Bütün bunlar bir an çəkir. Ümid uzaqdan-uzağa tükü tən bölən ülgücdən qorxmur.

Qadın:

– Vay... mənim pullarım! Əlimdə dörd iyirmibeşlik vardı. Alıcı məntəqəsinə evdən şey aparmışdım... səhər-səhər. Bir

uşağım da xəstəxanadadır... İndi mən Ağaquluya nə cavab verəcəyəm evdə. Ay camaat, necə oldu mənim pullarım?! Harda salıb itirdim mən canı ölmüş? – Qadının ətəyindən yapışmış balaca qız, əlbət ki, heç nə başa düşməsə də, anasının həyəcanından ürküb ağlayır.

Pulun üstünə basılmış ayaq, iri, qara, palçıqlı, kobud çəkmə... görünür, pulların ucu görünür. Aşkar hiss olunur ki, bu məsələni Ümiddən başqaları da bilir, duyur. Ancaq arvadlı-kişili növbədən səs çıxmır.

Ümid:

– Xala, ay xala, odu, sənin pulun bu əminin çəkməsinin altında... Gözləyir ki...

Qadın və camaat uşağın göstərdiyi səmtə çevrilərək:

– Nə, nə? Necə, necə?

Pulu tapdalayan adam sağ əlindəki lezviyanı Ümidin gözlərinə toxundurar-toxundurmaz qucağı qundaqlı, ətəyi uşaqlı qadının ani baxışları altında titrəməyə düşür, sağ qolu yanıb, qarala-qarala közərən, tüstüsü acı kösövə çevrilir.

Adamları heyrət və dəhşət bürüyür. Qadının qucağındakı südəmər körpə və ətəyindən yapışmış üç yaşlı qız bir cüt göyərçinə dönüb çörək dükanının qapı-pəncərəsindən uçub gedir.

Bütün bunlar bir an çəkir. Hamı, cin dəmirdən ürkən kimi qadından aralı dayanır, təkcə Ümiddən başqa. Qadın camaata baxır, başını yelləyir. Hərbi-rəsmi keçid paltarlı, beli tapançalı bir nəfərə gözü sataşır və ona deyir:

– Nə qiyamət yaraşır sizə bu hərbi geyim, bu ulduzlu zabit paqonları, bu qobur, bu tapanca... Başa düşürəm: neyləyəsiniz ki, silaha əl atmağa ixtiyarınız yoxdur. Nizamnamə ilə (ustavla) belə-belə mülki işlərə, küçə, dükan-bazar hadisələrinə qarışmaq heç borcunuz da deyil... Amma insafən silah sizə yaman yaraşır... Bir tərəfdən də ki... atalar deyib: "Yüz gün

yaraq, bir gün gərək". Gözləyirsiniz ki, bir fövqəladə hərbi vəziyyət yaransın, əhvalat baş versin, onda istər-istəməz silaha əl atasınız? Bağda, bostanda quşları, dovşanları, tülküləri, çaqqalları qorxuzmaq üçün uyuq-müqəvva düzəldirlər. Bəs, axı, siz bu gül balanı cəsarətinə görə, əslində sadəcə olaraq adamlığına görə şikəst etmək istəyən canini qorxuzmaqdan ötrü bu dəm-dəstgahınızla bir müqəvvacan da olmadınız?! Yoxsa "belə-belə xırda şeylər" mahiyyətcə içdiyiniz hərbi anda aid deyil? Siz Vətənə, xalqa, onun silahlı qüvvələrinə sədaqətli olmağa, heç bir dövlət və hərbi sirr verməməyə, lazım gəlsə canınızdan keçməyə and içmisiniz! Ancaq, mən şəxsən sizə inanmıram. İnanmıram ki...

Hərbi qulluqçu:

– Axı, sizin nə ixtiyarı...

O, sözünü deyib qurtarmağa macal tapmamış qadının baxışları altında hərbi libası, silahı yoxa çıxır və sağ qolu hələ də caninin tüstülənən qoluyla eyniləşir.

Bədən bir. Sifətin yarısı bunun, yarısı onun...

Şaşqınlıq, çaşqınlıq, çaxnaşmayla adamlar dükandan bayıra tökülüşür, satıcılar da. Qalır bir qadın, bir də Ümid.

Qadın:

– Bəs, sən məndən qorxmadın?

Ümid:

– Yox. Siz olmasaydınız, mən kor olacaqdım.

Qadın:

– Sən isə olmasaydın, mənim pulum gedəcəkdi. Ən vacibi isə – yer üzündə iki nəfər cani hələ də yaşayacaqdı. Hərbi paltarlı adam daha təhlükəli idi. Sağ ol, sən igidsən!

Ümid:

– Mən nə igidlik eləmişəm ki?! Bəs, hər yerdə bizə demirlər ki, adam gərək cəsarətli olsun? Düz olsun? Qocaya, qadına, uşağa, şikəstə kömək etsin?

Qadın:

– Çoxu çox vaxt, çox yerdə buna əməl edirmi? Get evə, anan səndən nigaran qalar. Al, bu həbi ud, həm ağzın şirin olar, həm də əsəblərin sakitləşər.

Ümid:

– Çox sağ olun! (Həbi udur)

Qadın:

– Ümid, sənə bir bloknot bağışlayıram, evdə açıb baxarsan.

Qadın gözdən itir. Yenə bir anda çörək dükanı adamla dolur. Yenə növbə. Yenə uşağa çatır, o, çörək alıb çıxır".

* * *

Yenə yolun kənarında yanpörtü dayanmış içi daş dolu maşın. Bir az ondan aralı təcili yardım. Bir az ondan aralı Qərbi Almaniyada buraxılmış, şəhərdə hələlik yeganə olan "Reanimobil" – loru dildə "ölüdirildən maşın". Reanimasiya maşınında qeyri-xəstəxana şəraitində ən ağır cərrahiyyə (mürəkkəb) əməliyyatı aparıb, xəstəyə yüksək tibbi səviyyədə yardım göstərib onu həyata qaytarmaq üçün tam lazımi mikromühit var, texnika, cihaz, alət, dərman, nə bilim kompressorlar və sair var. Bunlardan, bir sözlə, "Reanimobil"dən (naxçıvanlılar demişkən) düz-əməlli istifadə edən də var? Həmin maşını sürən də nəzərə alınsa, var? AFR-də demirəm, burda var?

Cavab:

– Necə yəni "var"? Yəqin olar də. "Reanimobil" məsciddən gətirilmiş prokat ehsan samovarı deyil ki, elə çayçı olan da, olmayan da puçunu bursun...

Bir az da aralıda başqa operativ maşınlar görünür.

Yenə operlər... yenə müstəntiq, məhkəmə həkimi, xəstəxananın baş həkimi, məzəli feldşer. Yük maşını şoferinin

rəngi yavaş-yavaş özünə gəlir. O görür ki, maşınla üstündən keçdiyi uşaq tamamilə sağ-salamatdır, paltarında heç şinlərdən naxış izləri də qalmayıb.

Müstəntiq:

– Ümid bala, səni Allah saxlayıb. Əslində heç bilmirəm kim saxlayıb, nə saxlayıb, necə saxlayıb? Yox, elə Allah olar bu!

Səni Allah saxlayıb
Bir cani kəsərindən,
Bir maşın xətərindən.

Feldşer:

– Ay müstəntiq, naçannik, sən əməlli-başlı adamsanmış ki, Allaha inanırsan, şe`rlə danışırsan, sözə söz yaraşdırırsan.

Müstəntiq özünü eşitməməzliyə qoyur və uşaqdan soruşur:

– Deyirdin ki, o qadın, o xala, o bacı...

Feldşer müstəntiqin sözünü kəsir:

– Cin-şəyatin, məlakə, hipnoz, gözbağlıca, avariynaya pəri.

Müstəntiq:

– ... Sənə bloknot da bağışlamışdı? Hanı o bloknot? Nə yazılıb orda?

Ümid bloknotu cibindən çıxarır. Bloknot uşağın əlində yavaş-yavaş vərəqlənir, vərəqləndikcə orada yazılmışlar dalğalı, əks-sədalı səslə oxunur. Bu səs – cavan, qoca, qadın və uşaq səslərinin qarışığından yaranmış təlqinedici sehrli səsdir:

“Mən qocayam. Ömrün, həyatın acısını, şirinini dadmış, haqsızlıq və namərdlik torunda haqqın qızıl balıq kimi necə çırpınıb qana boyandığını görən qoca!

Vicdanına, məsləkinə, hər şeydən əvvəl öz düzlüyünə inanan şəxslərin güzgünü tərlədən son nəfəsədək vuruşduqlarını görən qoca!

Bu vuruşun qət`i qələbəsinə qovuşmaq üçün qısa ömürdən, amansız əcəldən möhlət, aman istəyən adamların arzusunu gözündən oxuyan arif bir qoca!

Ürək qırmayan, xüsusən də ki, uşaq, qoca və əlacsız xəstə ürəyini qırmayan, imdad və yardım diləyənə hay verib əl yetirən, yalandan üzə durmayan adamla namusu, qeyrəti, vətəni uğrunda canından keçən adam arasında heç bir təfavüt görməyən müdrik bir qoca!"

Bloknot vərəqləndikcə böyüyür, az qala geniş formatlı ekran boyda olur. Həmin fonda qədimli-bugünlü, nağıllı-reallı, həm çoban, həm aşıq, həm misgər, həm zərgər, həm neftçi, həm daşyonan, həm bağban, həm dəqiq elmlər alimi – yəni ümumiləşdirilmiş qoca surəti canlanır. Bloknot vərəqlənir. Bu səfər orada yazılanlar cavan oğlan səsiylə oxunur:

"Mən cavan, qüvvətli, igid bir oğlanam. Bicliyim, çoxbilmişliyim, siyasətim yoxdur. Qolumun qüvvətinə, ürəyimin düzlüyünə arxalanıram. Ona arxalanıram ki, canımda, qanımda baharın – ömür baharının selləri, suları oynayır. Gözlərimdə bahar şimşəkləri parlayır, köksümdə, ruhumda, ovqatımda haylı-haraylı şəlalələr çağlayır. Mən mərdliyin, kişiliyin, kişi hüsnünün, kişi səbatının, kişi dözümünün, kişi ehtirasının – cavanlıq qürurunun timsalı deyiləm. Lap elə özüyəm!

Mən vətənin dünənini, bugününü, sabahını qorumaq naminə müqəddəs əsgər andı içənlərin vahid rəmziyəm. Mən ata-analara oğul, bacı-qardaşlara qardaşam. Mən arzulara, istəklərə, sürülərə, meyvə bağlarına, taxıl zəmilərinə, pambığın bəyaz ümmanına, çay kollarına, kəhrəba salxımlara dolu yağdırmağa amadə olan bütün qara buludları qovub dağıtmağa qadir sehrli bir nəfəsin sahibiyəm. Mən bürokratla, vəzifəpərəstlə, rüşvətxorla, öz ana dilini bilməyənlə, xalqını, elini obasını tanımayanla, gözüylə görən... sarıqulaqla, toy-

larda (əlbəttə, bir para toylarda) bir şüşə araq üstündə, bir baxış üstündə, bir oyun havası üstündə adam doğrayan adamcıl arasında heç bir fərq görmürəm. İş mənim özümə qalanda, pişik cırmağından tutmuş misdən tökülən beşbarmaq zərbəsinədək mənim cismimə heç nəyin dəxli yoxdur. Mən öz sehrimlə layiqli adamların layiqli ömrünü vaxtsız ölümdən, şikəstlikdən, amansız xərçəngdən qorumağa gəlmişəm. Lakin və lakin... Görünür ki, "lakin"siz, qeyd-şərtsiz heç bir iş aşmır, düzəlmir.

Bloknotdakı yazıların fonunda, sətirlər arxasında 18-20 yaşda boylu-buxunlu, sərt, qətiyyətli, iti baxışlı bir azərbaycanlı gəncin surəti, əksi canlanır. Bloknot vərəqlənir, ətrafda bir izdiham əmələ gəlmişdir. Əli bloknotlu uşaq izdihamın tən ortasında əllər üstündə görünür.

* * *

Bloknot vərəqlənir. Yazılar 8, 9, 10, 11 yaşında uşağın – oğlan və qız uşağının səsiylə oxunur:

"Mən babalarımın, nənələrimin, ata-analarımın, müəllimlərimin, böyük qardaş və bacılarımın sabahıyam. Daha yaxşı günlər, daha yaxşı adamlar görmək mənə qismət olacaqdır. Uçan nimçələrlə kainatın məchul nöqtələrindən planetimizə xoş niyyətlə gələn, bəşəriyyətin bir-biriylə didişib-boğuşmasını uşaq savaşı kimi ələ salan, ən müasir, ən kamil kosmik və hərbi texnikamızı uşaq oyunçağı... sayan insanlarla görüşüb tanış olmaq, onların bu planetin hər şeyindən faiq (üstün) olduğunun, nə üçün olduğunun sirrini öyrənmək mənə qismət olacaqdır. Mən təmizliyin, saflığın, bakirliyin qızıl qönçəsiyəm!

Mən bu vaxtımda, bu yaşımda böyüklərin himayəsinə, köməyinə, qayğısına, çörəyinə, paltarına, dəftərinə, kitabına, göstərişinə, məsləhətinə, tərbiyəsinə, havadarlığına, müda-

fiəsinə, xoş sözünə, xoş üzünə, sığalına, nəvazişinə möhtacam. Mən xətanın, riyanın, qurğunun, tələnin, böhtanın, şərin, namərdliyin, "günah" deyilən sözün nə demək olduğunu hələ... bilməyən məxluqam. Məni incitmək, qəlbimi qırmaq, ac-susuz qoymaq, göz yaşlarıma dözmək, gücsüzlüyümdən, hər şeyə inanmağımdan istifadə etmək böyük günahdır. Günahmı, yox, cinayətdir! Leninqradın blokadasında hamıdan az ölən biz uşaqlar olmuşuq – böyüklərin boğazından kəsdiyi son tikənin hesabına... Məni indi – dünyanın bu düz vaxtında atasız-anasız qoymaq, bundan daha pisi – dirigözlü yetim qoymaq, sərxoş bağırtılarla bağrımı yarmaq, qol-qıçımı sındırıb, sonra da "özü yıxılıb" – deyə həkimə aparmaq dəhşətin dəhşətidir. Mən heç... Mən özüm barədə danışmıram. Mən təxəyyüldən, arzudan, ideal və fantaziyadan gələn sehrli uşağam. Mənə, istəsə də, istəməsə də heç kim heç nə edə bilməz. Mənə sözün hərfi (fiziki) mənasında heç nə bata bilməz. Belə niyyətə düşənlər baxışlarım altında şil olar, iflic olar, bir parça ətə dönüb qalar. Mən balalarının qayğısıyla, həvəsiylə, sabahıyla qanadlanan böyükləri, valideynləri və qohumluq dərəcəsindən asılı olmayan konkret hamiləri... qəfil güllədən, gözlənilməz ayrılıqdan, vaxtsız ölümlərin hər növündən xilas edən, uşaqlarından arzu-kam götürmək üçün, onları böyük mənada bir yana, bir yerə, bir körpüyə, bir limana aparıb çatdırmaq üçün ömürdən möhlət istəyənlərə əlavə ömür bəxş etməyə qadir olan sehrəm, ecazam, qüvvəyəm".

Bloknot vərəqləndikcə sətirlərin fonunda 8, 9, 10, 11 yaşlarında bir üzü oğlan, bir üzü qız qəribə bir uşaq surəti canlanır. Sağlam, gümrah, qara saçlı, qızılı və xurmayı saçlı, qaragözlü, alagözlü, gah saçı qırmızı lentli, gah boynu qızıl qalstuklu oğlan. Bu surət də əlində bloknot vərəqlənən Ümidin surətiylə birləşir.

* * *

Milis və digər inzibati orqan işçiləri, könüllü və könülsüz yanğınsöndürən dəstələr xahişlə, dilə tutmaqla, təkidlə, fıştırıqla sinəsindən yüngülvari basıb yüngülvari itələməklə yanğınsöndürən maşınlardakı güclü nasosların, şlanqların haqq-hesabıyla camaatı dağıtmaq, aralamaq, avtomobil altından salamat çıxmış Ümidi aradan çıxarmaq, onun əlindəki danışan bloknotu yox etmək, sehrli səsləri susdurmaq üçün səy göstərsələr də xeyri olmur. Sonsuz maraq və heyrət onların özlərini də sövq-təbii bu nağıl səhnənin tamaşaçısına, danışan bloknotun eşidəninə çevirir.

Bloknot vərəqlənir, sətirlər 20, 25, 30, 35, 40, 45 yaşında qadın səsiylə oxunur:

“Mən qadınam! Təmiz, saf, sədaqətli oğlanların sevgilisi, igid, qədirbilən övladların anası, namuslu ərlərin ömür-gün, tale sirdaşı. Böyük şairlərin, rəssamların, heykəltəraşların, bəstəkarların dühası və möcüzəli sənətiylə əbədiyyətə qovuşan mənəm! Mən kişi qürurunun zəmanəti, kişi ocağının hərarətiyəm. Kim deyibsə, deyirsə, deyəcəksə ki, bütün fitnə-fəsadlara bais mənəm, səhv edib, edir, edəcək! Əlbət, bizlərin də pisi, bədi olub, var, olacaq. Mən qadın adını, qadın şərəfini, qadın ləyaqətini qıran, ləkələyən üzdəniraqları kül etməyə qadir bir sehrəm. Həm də yalnız qadınlarınmı dadirəsiyəm (dada yetəni) mən? Qadınlı-kişili, qocalı-cavanlı, uşaqlı-böyüklü bütün yaxşıların sehrli havadarıyam mən! Həmin bloknotu əlində tutan bu uşağa fikir verin! Hamınız gördünüz ki, daş dolu ağır maşın onu necə vurdu, onu da gördünüz ki, heç burnu da qanamadı. Bu mənim sehrim, əməlimdir. Çörək dükanında onun gözünə növbədə dayanan uşaqlı qadın kimi göründüm. Bilə-bilə yerə pul saldım, onu imtahana çəkdim. Bu mərd uşağın qara gözlərini cani ülgücündən xilas etdim.

Sonra... gön-dəri fabrikindən axşamüstü çıxıb evlərinə qayıdan, cibi maaş və mükafatla dolu cavan fəhləni hifz etdim. Nə üçün? Bu gün çoxunun həsrət qaldığı, təşnə olduğu adi rəftara görə, nəzakətə görə, sadəcə adicə, zəruri adamlığına görə. Onun gözünə əldən-ayaqdan düşmüş qoca kişi kimi göründüm, qəhrəmanlığını yox, qabiliyyətini sınadım. Onu quldur, qarətçi qətlindən qurtardım. Yoxsa ürəyindən kürəyinə xəncər işləyən diri qalar? Ancaq o fəhlə qalmalı idi. Sadəcə olaraq adam olduğu üçün.

* * *

Bloknot vərəqləri bu zaman, necə deyərlər, kötüyündən qopa-qopa və hər bir vərəq on bir vərəqə çevrilərək saysız ağ göyərçinlər kimi havaya qalxır, şəhərin üstündə uçur. Camaat kağızları tutub oxuyur. Kağızların hamısında üç rəngdə həb şəkli çəkilib, ortasında 5, 10, 15 rəqəmi və "Ömür həbləri" sözləri yazılıb...

* * *

Toxuculuq kombinatı. Gecə növbəsi. Sexlərdən biri. Dəzgahlar aramsız işləyir. Hər dəzgahın üstündə gündüz işığı yanır. Saçlarını (hər şeydən əvvəl texniki təhlükəsizliyə görə) güllü ləçək altında gizlətmiş Sitarə bir növbədə bir neçə dəzgahı idarə edir. Yorğunluqdan qızın başı hərlənir. Həm də o, fikirlidir, həyəcanlıdır. Növbə rəisi – döşündə SSRİ Ali Sovetinin deputatı nişanı, yaraşıqlı, mehriban, 40 yaşında Aludə xanım gəlir. Aludə Sitarənin gözlərinə bu gün nədənsə çox birtəhər görünür... Bu həm odur, həm də deyəsən yox. Qız fikirləşir ki, yorğunluq əlamətidir. Aludədir də. Necə yəni?

Aludə xanım:

– Gecən xeyir, Sitarə!

Sitarə:

– Gecəniz xeyir, Aludə xanım!

Aludə xanım:

– Gözümə birtəhər dəyirsən.

Sitarə:

– Elə siz də mənə bu gecə birtəhər görünürsünüz.

Aludə xanım:

– Yorğunluqdandır. Gecə elə gecədir ki, var. Get bizim o arakəsmədə bir az dincəl, mən səni əvəz edərəm. Yorğunluqla, üstəlik yuxusuzluqla zarafat olmaz. Dəzgahlar lap saatdır. Ancaq elə bu "saatın" yeknəsəq çaq-çuqudur də adama yuxu gətirən.

Sitarə:

– Çox sağ olun, Aludə xanım, yorğunluq söhbəti deyil. Bir az fikirliyəm.

Aludə xanım:

– Səni görən kimi hiss elədim. Bəs səbəbi?

Sitarə:

– Bilirsiniz ki, mən xalq məhkəməsində xalq iclasçısıyam. Beş gündü bir işə baxırdıq. Müttəhim rüşvət üstündə yaxalanmışdı. Hakim ona cinayəti müqabilində çox-çox yüngül "qulaqburması" verməklə kifayətlənmək istəyirdi. Mən hökmə qol çəkmədim. O biri içlasçı da (zorba kişi idi) tərəddüd elədi, elədi, axırda bilmədim məndənmi utandı, ya vicdanından, xülasə, o da hökmə qol çəkmədi. Beləliklə, hökm bizim hökmümüz oldu, hakiminki yox...

Aludə xanım:

– "Bizim" deyəndə, yəni sənin, sənin vicdanının, cəsarətinin. O biri iclasçıya da təsirin hökmü oldu. Get dincəl, mən burdayam. Bir də belə dəzgahların əllisi birdən cəhənnəmə dayanır-dayansın, sınır-sınsın... qurban olsun adama. Get dincəl!

Sitarə:

– Dünən kombinatın yaslisinə getmişdim, görüm, nə var, nə yox, körpələr neynəyir? Nə görsəm yaxşıdır?

Aludə xanım:

– Nə?

Sitarə:

– Gördüm ki, körpələr qarışıb biri-birinə, ikisi-üçü də xarablayıb, elə xarabına da bulaşıb qalıb: biri ağlayır, biri maddım-maddım adamın üzünə baxır, biri sınıq, tozlu oyuncağı ağzına soxur... Müdirə yox, tərbiyəçi də bir bığıburmanı buraxıb yaslinin içinə, özü üçün laqqırtı vurur, mazaqlaşır, nə bilim, nə zəhrimar edir. Dedim, ay bacım, bəs belə şey olar? Dedi "sənə borc deyil. İki ildən yuxarıdı ərdəsən, elə həmən həmənsən ki, qalmısan. Paxıllığından bilmirsən ki, kimə ilişəsən, neynəyəsən. Çıx bayıra".

Aludə xanım:

– Sitarə, tərbiyəçi uşaqlara baxmadığına görə ona cəza verdirərik, lap yaslidən, biryolluq lap kombinatdan qovdurarıq. Ancaq, qəlbə toxunduğu üçün onun o qurdlu ürəyini çıxardıb ödü ağzına gələ-gələ özünə yedizdirsəm, yenə də ürəyim soyumaz, Sitarə!

Sitarə:

– Başa düşürəm, Aludə xanım!

Aludə xanım:

– "Ömür həbləri" söhbəti ki, var ha... şəhərə yayılıb... kaş, doğru olmuş olaydı – birini ələ keçirib verəydim sənə. Hər halda ömür həbləri ömrün zərəri üçün yox, xeyri üçündür. Bəli, bu həbin birini verəydim sənə, yaşayaydın, qismətini gözləyəydin. Allahın kərəmiylə, həkimlərin müalicəsiylə ana olaydın. Ciyəri yanaydı sənin könlünü qıranların. Sən yaxşı adamsan, çıraqla axtarılası adamsan, Sitarə!

Sitarə:

– Yaxşı adamın baxtı olmur!

Aludə xanım:

– Olur! Yaxşı adam öz məqsədinə düzlüklə, çətinliklə, üzü küləyə, ağzı yoxuşa gedə-gedə nail olur. Yaxşı adamın qisməti daşdan çıxır. Yaxşı adam cilddən-cildə girməyi, min dilli olmağı bacarmır. Ona görə də elə bilir ki, baxtı yoxdur, amma (Qazax, Gəncəbasar demişkən – əmbə) əslində var! Səndən işi keçməyə-keçməyə, səndən asılı olmaya-olmaya adamlar bir ağızdan sənə "yaxşı adam" deyirsə, elə bunun özü taledir, xoşbəxtlikdir də.

Sitarə:

– Eh, Aludə xanım, bunlar hamısı sözdür. Sözün də bahasına adama bir stəkan qazlı su vermirlər...

Aludə xanım:

– Qazlı su vermirlər, ancaq mən sənə bir dənə həb verim, at. At, gör, nə aləmdir.

Aludə xanım Sitarəyə yaşıl rəngli bir həb verir. Sitarə gündüz işığında həbin üstündə 15 rəqəmini görür.

Sitarə:

– Aludə xanım, 15 nə deməkdir?

Aludə xanım:

– Yəni həbin tərkibində 15 cür vitamin var.

Sitarə:

– Elə-belə, susuz atım?

Aludə xanım:

– Su gərək deyil, ud getsin, çeynəmə!

Sitarə:

– Aludə xanım, olmaya siz məni ələ salırsınız: məhkəmədə ədalətsiz bir hökmə qol qoymamaq, yaslidəki biabırçılığı tərbiyəçinin üzünə demək – nə böyük, nə minnətli şeymiş ki, bunlara görə siz mənə "yaxşı adam" deyirsiniz. Axı bunlar adi məsələdir, insanın adi sifətidir.

Aludə xanım:

– Düzdür! Ancaq bu "adi şey", bu "adi sifət" o qədər, o qədər azalıb, azalıb ki, harada, haçan bu sifətdə adama rast gəlirsən, az qalırsan ayağının altında qurban kəsəsən, yaxasına Qızıl ulduz taxasan. Mənim də gücüm bu həbə çatdı. Allah eləməsin, "ələ salmaq" nədir, deyirsən. Mənim aləmimdə ələ salmaq ən iyrənc, ucuz namərdlikdir. Nə isə...

Sitarə:

– Aludə xanım, siz heç SSRİ Ali Sovetinin deputatına oxşamırsınız axı...

Aludə xanım:

– Niyə, nöş, neyşə?

Sitarə:

– Niyəsini, nöşününü, neyşəsini deyə bilmərəm. Ancaq deputata oxşamırsınız. Deputat açarla qurulan uşaq oyuncağı kimidir, tutuquşudur, başqaları bir yana, heç özcə karına da gələ bilmir. Qanun əsasında hüququnu, səlahiyyətini başa düşən kimi deputatlıqdan geri çağrılır. Akademikdən tutmuş kolxozçuyadək, kosmonavtdan tutmuş çəkistədək belədir. Əlbəttə ki, insanlar təbiətən müxtəlif, xasiyyətcə fərdi olduqlarına görə deputatla deputatın da arasında fərq var; adamlıqdan, cövhərdən gələn fərq!..

Aludə xanım:

– Əvvəla, belə deyil. İkincisi, belə danışmağın nə sənə, nə mənə, nə də başqasına xeyri var. Sən bir deputat kimi mənim barəmdə, məsələn, nə fikirdəsən?

Sitarə:

– Əlbəttə, yaxşı fikirdəyəm.

Aludə xanım:

– Elə isə mənim kimi deputatlar az deyil.

Sitarə:

– Nə üçün deputatların əksəriyyəti birbaşa zəhmət adam-

larından olur? Nə üçün fəxri adların, ulduzların, orden və medalların ən şərəflisi, ən əlası çox tez, çox asanlıqla zəhmətkeşə, əli qabarlıya verilir?

Aludə xanım:

– Nə üçün?

Sitarə:

– Onların başını qatmaq, əzablarını unutdurmaq, şirnikləndirmək, birini bəzəyib-bəzəyib, qaldırıb-qaldırıb mininə göstərmək üçün və ən vacibi beyinlərini təhlil, götür-qoy, müstəqil təfəkkür qabiliyyətindən ayırmaq ("otklyuçat" mənasında) üçün, əllərinə yazılı kağız verib kameralar, mikrofonlar, tribunalar önündə tutuquşu kimi (tutuquşu yaxşıdır, o höccələmir) danışdırmaq üçün.

Aludə xanım:

– Əsla, əsla, əsla! Adam əgər adamdırsa, fiziki cəhətdən sağlamdırsa, ağlı başındadırsa təbliğat və təşviqatsız, deputatsız və fəxri adsız hökmən bir faydalı işin qulpundan yapışıb, yapışır, yapışacaq, ictimai, siyasi quruluşdan asılı olmayaraq. Zəhmət cazibəsindən kənarda adam yoxdur. Zəhmətkeş – fəhlə, kolxozçu və sair və sair olmasa ən böyük nəqşələr, kəşflər, ixtiralar kağızlar üstündə və laboratoriyalar küncündə qal oğlu qal olar. Maddi nemətlər yaradan, xalqı alimli-şairli yedirən, geydirən, təzə evlərə köçürən, alimlərin ixtiyarında olan ən dəqiq cihazları istehsal edən zəhmət adamına hər şey hamıdan əvvəl və çox layiqdir, özü də ki, bizim Vətənimizdə. Sən deyirsən ki, zəhmət adamı tutuquşudur. "Tutuquşu" söhbəti fərdiyyətdən, xarakterdən gələn söhbətdir. Şairdən tutmuş şaxtaçıya qədər, bağça müdirəsindən tutmuş böyük bir hüquqşunasa qədər hamı tutuquşu ola da bilər, olmaya da bilər. Zəhmət adamı çox böyük çoxluq təşkil etdiyinə görə ona xalq da deyirlər. Xalq tutuquşu deyil, xalq dilləndi, xalq tərpəndi – Allah göstərməsin. Məsələn, sən toxucu qız, əyrici

fəhlə özünü tutuquşu hesab eləmirsənsə, (yaxşı da edirsən) onda özün kimi, özündən də artıq oğul və qızları gözünün qabağına gətir. Din də zəhməti, zəhmətin ən müqəddəs barını idealizə edib, çörəyə üstünlük verir. Məhəmməd peyğəmbər buyurub ki, çörək olan yerdə Qur`ana and içmək lazım deyil. Çörək Qur`andan irəlidir.

Sitarə:

– Aludə xanım, siz doğrudan da deputatsınız, böyük xalq elçisi, işıqlı dövlət xadimisiniz. Bu sexdə, bu dəzgahlar arasında, elə bilin ki, biz iki nəfər yox, yüzlərlə adamıq. Və siz də...

Aludə xanım:

– Və mən də mühazirə oxuyub təbliğat aparıram (istehza).

Sitarə:

– Allah eləməsin, ümumiyyətlə də, xüsusiyyətlə də mən adam ələ salmaqdan iyrənirəm. O ki, qaldı sizi ələ salmaq olsun, Aludə xanım! Aludə xanım, Sevil Qazıyeva kim idi?

Aludə xanım:

– Azərbaycanda maşınla pambıq yığmaq hərəkatının ilk bayraqdarı, ilk mexanizator qız. Necə ki? Guya indiyə kimi bunu bilmirdin, Sevili tanımırdın, hə?

Sitarə:

– Sevilə – ilk bayraqdara nə oldu? Nə üçün oldu? İş başında faciəli... nümunə... Sevilin yolu... Sevilin bacıları... Sevilin adına... Sevilin heykəli... Sevilin portreti... Sevil adına priz... Sevilə həsr edilmiş (bütün janrlarda layiqli, səmimi) bədii əsərlər... Aludə xanım, Sevilə nə oldu, nə üçün oldu? Hansı zərurət, hansı əqidə və etiqad fanatizmi, hansı alternativsiz (yəni ikinci çıxış yolu, başqa variantı mümkün olmayan) ölüm-dirim ayağı, məqamı dünyanın bu düz vaxtında o qızın hörüklərini bunkerin ağzına verdi?! Bu nə idi? Babək, Cordano Bruno, Spartak, general Karbışev, Qafur Məmmədov, Nəsimi, Mehdi Hüseynzadə, Fuçik, Lorka, Musa Cəlil, Nəbi-

nin Həcəri, Zoya, Hüseynbala, Komarov, Matrosov, Əfqanıstan dağlarının, dərələrinin, gədiklərinin, keçidlərinin sirli labirintlərində həlak olan Sovet əsgərlərinin – öz beynəlmiləl borcunu yerinə yetirən qəhrəman, şəhid uşaqların fədakarlığı ilə yanaşı qoyulan fədakarlıq idimi Sevilin ölümü?

Aludə xanım:

– Sözsüz və sözsüz!

Sitarə:

– Keçməz və keçməz!

Aludə xanım:

– Əmək cəbhəsi, əmək rəşadəti, Vətən eşqi, komsomol çağırışı.

Sitarə:

– Xeyr! İnsan təkcə okeanda, dənizdə, dəryaçada, göldə, su anbarında, hovuzda, hamam vannasında boğulmur ki... İnsan ceyran südündə də, şərbətdə də, narınc suyunda da, xülasə ona boy verməyən ən ətirli, ən dadlı hər növ mayedə də boğula bilər. Bu sözlərin sözaltı mənası, şifri belədir ki, Sevil şöhrət içində boğuldu, hay-küy selində qərq olub getdi. Bu – "qoltuğa vermək", "dəliyə yel, əlinə bel" deyil ha! İş başında, iş başında faciəli... və sair... və ilaxır... Hansı cəbhə, hansı döyüş, hansı ölüm-dirim meydanı, 60-cı illərdə SSRİ-nin taleyini həll edən hansı çıxılmaz tarixi şərait Sevildən qanı bahasına, gəncliyi qiymətinə qəhrəmanlıq tələb edirdi? Nə hökumət, nə konkret bir şəxs Sevili məcbur etməmişdi ki, o, gecəyarı, ay işığında, projektor işığında, ürəyinin işığında işə çıxsın. Rus demişkən, "kstati"... elə Sevilin ürəyinin işığını söndürən həmən "ürəyinin işığı" sözləri oldu.

Aludə xanım:

– Sözünün canı!

Sitarə:

– Sözümün canı odur ki, mən kor-koranəlik, tutuquşuluq,

üzr istəyirəm, beyninə, şüuruna sığal və tərifdən kölәlik, nə bilim nəyi vurulmuş psixologiyasının, əhvali-ruhiyyəsinin əleyhinəyəm. Mən Sevilin özünün öz əliylə qırdığı, hədər qırdığı nakam ömrünə yana-yana ağlayıram. Aludə xanım, mən gecə növbəsində hörüklərimi ləçəkləyib bu uğultulu, polad dişli, caynaqlı, qarmaqlı dəzgahların arasında dolaşdıqca, ayaq üstə bir anlıq mürgüləyəndə, bu bir anlıq mürgünün bir anlıq səksəkəli röyasında... Sevilin qanlı çöhrəsini, dişli çarxlara ilişmiş qanlı hörüklərini görür, diksinib, uçunub gözümü açıram. Hər dəfə... Hər dəfə... Elə bilirəm ki, mən də...

Aludə xanım:

– Yox, Sitarə, sənə heç nə olmayacaq, sənə zaval yoxdur.

Sitarə:

– Allah ağzından eşitsin. Bir söz xəbər alım. Sizin adınız nə üçün Aludədir? Siz nəyə, kimə aludəsiniz?

Birdən bir anlığa sexdəki neon (gündüz) lampalarının işığı o qədər güclənir ki, Sitarənin gözləri qamaşır. Qız gözlərini yumub açınca görür ki, Aludə xanım yanında yoxdur. Çağırır:

– Aludə xanım, Aludə xanım, necə oldunuz, hara getdiniz? Bəlkə adınızın nə üçün Aludə olduğunu soruşmağım qəlbinizə dəydi?

* * *

Sitarə səsinə, ününə heç bir cavab almayınca təəccüblə ətrafına göz gəzdirir. Bir anlıq çökən şimşəkvari kəskin parıltı elə bil onun müsahibini – SSRİ Ali Sovetinin deputatı, növbə rəisi (və yaxud, tutaq ki, sex rəisi) Aludə xanımı gizlətmək, qeyb etmək üçünmüş.

Toxucu dəzgahlar ritmlə işləyir. Toplar, saplar, yumaqlar, ilmələr, valiklər, roliklər, dişli-dişsiz çarxlar hərlənir.

Sitarə:

– Yəni, Aludə xanım elə tez, cəld sexdən çıxdı ki, mən onu görə bilmədim? Ola bilər. Bəlkə təcili çağırıblar, işarəylə çağırıblar, eşidib-görməmişəm. Qulaqlarım, baş-beynim çaqqaçukla elə dolub ki... nə isə, saat (gecə) dördə işləyir, yuxunun lap şirin vaxtıdır. Eh... guya birinci gecədir ki, yuxusuz qalıram. Fikirli-fikirli, qüssəli-qüssəli oxuyur:

Onsuz da yuxuma qatıbdır haram
Dünən bir acı dil, bir ilan dili.
Onsuz da xiffətdən mən boğuluram,
Boy vermir könlümün ümman nisgili.
Onsuz da ciyərim alışır-yanır,
Odun da üstünə yağmı tökərlər?
Sinəmdə bir körpə dağı dayanır,
Dağın da üstünə dağmı çəkərlər?
Onsuz da bu nazik saplar içində
Sap kimi nazilir, süzülürəm mən.
Bu əlvan sarğılar, çarxlar içində
Üzülür, üzülür, üzülürəm mən.

Sitarə oxuya-oxuya dəzgahlardan birinə lap yaxın dayanır, – saplar kilkə düşüb nədir – deyə o, əlini düyməyə uzadıb dəzgahı dayandırmaq istərkən müvazinətini itirir, ləçəyi açılır, üzüaşağı tökülən hörükləri dəzgaha ilişir.

...Bir ağız tükürpərdici bağırtı... Səhər açıla-açılmaya... sex adamla doludur... Hamı Sitarənin eybəcər şəklə düşmüş qanlı üzünü, başının hörüklərə yapışmış hələ də titrəyən dərisini, üryan beynini təsəvvürünə gətirib əlləriylə üzünü, gözünü qapayır... Həkim və şəfqət bacısı hələ də işləməkdə olan dəzgahı dayandırırlar, Sitarəni qucaqlarına alırlar.

Heyrət – ağlasığmaz heyrət! Tibb adamlarının xalatı ağappaqdır... Qızın burnu da qanamayıb, bircə teli də qırılmayıb. O, elə bil, yuxudan ayılıb, gözlərini ovuşdura-ovuşdura

adamlara anlaşılmazlıqla baxır.

Sitarə:

– Aaa... səhər açılıb ki. Xeyir ola, nə əcəb bura toplaşmısınız? Mitinq eləyəcəyik? Aaa!.. Həkimlər də gəlib. Görünür ki, mitinq çox təsirli olacaq, həm sarı simdə... həm zildə... Birdən ürəyi gedən, halbahal olan olsa, hər ehtimala qarşı – dərman, iynə, oksigen yastığı – xülasə ilk yardım də!

Həkim Rəhim:

– Sitarə xanım, nə mitinq, nə oksigen yastığı? Biz sənin müdhiş çığırtına töküldük bura. Gəldik gördük dəzgah səni qaldırıb diri gözlü didir, dağıdır, parçalayır. Fəqət, şükürlər... sən sağ-salamatsan. Sənə dirilik suyu içirdiblər nədir? Yəni sən heç bir ağrı-filan, sızıltı, gizilti hiss eləmirsən öz bədənində, canında?

Sitarə:

– Bir balaca əzginəm, zarafat bilirsiniz? Gecə növbəsidir də. Səhərəcən dəzgahlar arasında yuxusuz... Bəs hanı Aludə xanım, yəqin sizi bura o çağırıb?

Nəzarətçi Nəzirə:

– Sən nə danışırsan, aaz, Aludə xanım iki gündür Moskvada SSRİ Ali Sovetinin sessiyasındadır. Bəs sən ona pul verib (o da almadı) bir-iki xırda-xuruş almağı öz dilinlə xahiş etmədin?

Sitarə:

– Bilmirəm, Aludə xanım burada idi.

Nəzarətçi Nəzirə və başqaları:

– Səni qara basıb, gözünə cin-şəyatin görünüb. Bu heç. Dəzgah ağzından sağ-salamat xilas olmağın möcüzədir.

Sitarə:

– Necə yəni məni qara basıb? Cin-şəyatin adamın gözünə SSRİ Ali Sovetinin deputatı sifətində də görünə bilərmiş?

Hamı gülür, hamı gülsə də, heyrət heyrətliyində qalır.

* * *

Nəfəslik (fortoçka)... Oradan içəri (sexə) səhərin qarlı-şaxtalı təmiz havası axır. Hava axınıyla bərabər Aludə xanımın səsi axıb gəlir:

“Bəli, mən gözə görünmüşəm, lakin işıqdan, dəmirdən, bismillahdan qorxub yoxa çıxan cin-şeytan, qulyabanı, al-anası və qalyusinasiyasının başqa “personajları” kimi yox, xalq elçisi kimi, hökumət üzvü kimi gözə görünmüşəm! Mən adi həqiqətlərin, istək və arzuların qeyri-adi əksiyəm, ifadəsiyəm. Mən... mən... mən... bu şəhəri nehrə kimi çalxalayacağam. Yağı yağ üstə çıxacaq, ayranı ayranlıq olacaq. Mən... Ömür həbləri...”

Səs qırılır. Bütün kombinat çölə axışır...

* * *

Ümidin maşınla vurulduğu həmən yer. Daş dolu maşın yolun qırağında yanpörtü... Yenə camaat... Ümid yenə də əlində bloknot tən ortada dayanıb. Bloknot vərəqlənir. Vərəqlər ağ əbaya, ağ qurşağa, ağ əmmaməyə çevrilir. Bu libas və qiyafədə camaatın gözünə Şeyx Nəsrullah görünür.

Camaat:

– Pahoo... bu lap teatr oldu ki.

Səslər:

– “Ölülər”?

Səslər:

– Hə də... “Ölülər” olanda nə olar?

Səslər:

– Bir şey omaz.

Səslər:

– Bəs axı küçənin ortasında bu nə tamaşadır, bu nə haqq-hesabdır?

Adamları aralayıb, lap irəli çıxaraq Şeyx Nəsrullahı yaxalamaq istəyən iki-üç milis nəfərinin əli havanı yarıb, boşda qalır, heç bir cismə, varlığa, əşyaya toxuna bilmir. Onlar gözlərini ovuşdurub yaxşı-yaxşı baxırlar. Necə ki, necə, korzad deyillər ki. O boyda boylu-buxunlu, əmmaməli, əbalı adamı görmürlər? Yəni onları qara basır? Yox, bu qara olmadı, bu ağ oldu. Şeyxə yaxınlaşdıqca, elə bil sabun köpüyündən üfürülmüş, biri-birinin içindən çıxıb, biri-biriylə birləşən yüz min dənə salxımvari, qövsi-qüzeh rəngli şar topasına əl atırsan... əlinə heç nə gəlmir, əlində heç nəm də qalmır...

Şeyx Nəsrullah:

– Camaat, bəli, mən Şeyx Nəsrullaham. Ancaq o Şeyx yox, ölü dirildən yox. Mən, bax, sizə, siz dirilərə ömür bəxş etməyə gəlmişəm və yaxud ömrünüzü bir müddət uzatmağa gəlmişəm. Hər kimin ki, ömrü nə qədər uzadıldı, həmən müddət ərzində, həmən şəxsə heç nə olmur, heç nə!

Səslər:

– Sübut.

– İnanmırıq.

– Belə şey olmaz.

– Bu, elmə ziddir.

– Sən, əstəfürullah, Allahsan ki, ömür uzadasan?!

– Sən köhnənin dələduzusan, fırıldağısan.

Bu səfər milisli-milissiz Şeyxə kütləvi hücum çəkmək istəyirlər. Xəyal etmək olar ki, bu dəqiqə min əl onun əbasını, özünü parça-parça edəcək. Lakin yox, əllər yenə də havada qalır...

Şeyx Nəsrullah:

– Əvvala, mən ərz elədim ki, o Şeyx deyiləm. İkincisi, o Şeyx olanda nə olar ki? Allah ona min rəhmət eləsin. O barədən ki, o Şeyx özünün bəd əməllərini icra etmək üçün nə qədər zəhmət çəkmişdi, dəridən-qabıqdan çıxmışdı, incəliklə, ustalıqla yollar düşünmüşdü, nə qədər mürəkkəb qurğular

qurmuşdu. O Şeyx – mühitinin, zəmanəsinin işıqsız, dekorasiyasız, rekvizitsiz, butaforsuz, qrimsiz səhnəsində olduqca qorxulu, dedikcə inandırıcı, düşündükcə dərin, mürəkkəb rolda çıxış etmişdi. Hər bir addımını, hərəkətini o dövrün, o adamların, lap elə o ölülərin psixologiyası, düşüncə tərziylə, etiqad və fanatik kor-koranəliyi ilə bağlamışdı. Mənasını bütün incəlikləriylə başa düşdüyü, bütün bəlağətiylə əzbər bildiyi Qur`an əyələrindən həm bihuşdarı kimi, həm təlqin və təsdiq kimi, həm qılınc və qalxan kimi istifadə etmişdi. Nədi... nədi... nə var... nə var... Bəs indi necə? İndi heç necə. İndi çox asan, çox rahat. İndi rəis, müəllim, idarə və müəssisə rəhbəri, alim, qəssab, inzibati orqan işçisi, həkim, mağaza müdiri – xülasə kim tənbəllik eləməsə, günün günorta çağı heç bir oyun-zad çıxarmadan "bacıları" (özündən asılı vəziyyətə salaraq...) basır maşına, odu ha getdi. Getdi ey, dəxli yoxdur. Nə isə, bu, heç. Sözümün üstünə qayıdıram ki, mən təzə Şeyxəm. Heç bir fırıldağım da yoxdur. Məsələn, hamı olmasa da milis işçiləri və həkimlər təsdiq edə bilər ki... ürəyindən girib kürəyindən bıçaq çıxan oğlan ölməliykən ölmədi. Gözləri lezviya ilə tökülüb kor qalası bu uşaq salamat qaldı. Üstündən paravoz boyda maşın keçən bu uşaq bir ovuc sümük unu olmalı ikən olmadı. Bir baxın o hörüklü qıza! (Şeyx Sitarəni göstərir. Toxucu qızın canlı portreti açıq havada camaatın üzünə baxır). Nə imiş məgər, Əzrail köpəkoğlu hərif-zad idi ki, öz qurbanının hörüklərindən tutub, polad əjdahanın polad dişlərinə ilişdirsin, sonra da rəhmi gəlsin, ya da peşman olsun, açıb buraxsın və qızın da başından bir tük əskik olmasın?! İnandırıcı deyil, hə? Olmaz də. İnandırıcı bir şeyiniz qalıb ki. Ha... ha... ha...

Qar yağır. Hər tərəf sürətlə ağardıqca, bayaqdan ağ əbalı, ağ qurşaqlı, ağ əmmaməli Şeyx ağ fonda dönüb qara libasda görünür və deyir:

– Bütün bunlar, bu hadisələr, bu xoşbəxt nəticəli faciələr bilirsinizmi nədir, ay camaat?!

Camaat:
– Nədir?
Şeyx:
– Reklamdır.
Camaat:
– Yəni?
Şeyx:
– Yəni mən üç növ, əslində eyni növ, fəqət təsir qüvvəsi müxtəlif müddətli həb satıram – ömür həbləri – 5, 10, 15 illik. Bu həblərin hər birini satın alan şəxs Allahın ona bəxş etdiyi, alnına yazdığı ömürdən əlavə 5, 10, 15 il yaşayacaq. Həmən əlavə ömrün müddətində o, heç yüngülcə, ötəri zökəm də olmayacaq. Əlavə ömrə qədər düçar olduğu bütün, hətta yüz faiz əlacsız xəstəliklər vücudundan, canından rədd olacaq. İki dəfə ağır infarkt keçirmiş olsa da, əlavə ömür müddətində üçüncü infarkt heç bir qələt eləyə bilməyəcək. Xərçəng-filan da elə. Hər kəs ömür həbləri ala bilər. Puluna minnət. Ancaq "pul" deyəndə, kağız pulu xəyalınıza gətirməyin! Qızıl lazımdır – cingiltili, sarı qızıl! Beşlik, onluq, imperial, kəmər, boyunbağı, bilərzik, qolbaq, stəkanaltı, şamdan, çəngəl, bıçaq, qaşıq, "podsiqar", qızıl xaç, qur`anqabı, qızıl teşt... hər kim bir qızıl teşt və ya bir qızıl teşt ağırlığında qızıl versə 15 illik ömür həbi əldə bilər.

* * *

Güclü çəpəki qar yağır. Camaat sıxlaşır. Soyuqdur. Nəfəslərdən buğ çıxır. Adamlar ayağının birini götürüb birini qoysa da, soyuğu hiss etmir. Hamı qulaq kəsilib. Bu zaman camaatın içindən bir nəfər irəli çəkilir (Məhz çəkilir). O, saçı-saqqalı ağarmış, üst-başı hisli-paslı qalayçı Əlbəndədir. Lap elə bil muzey eksponatıdır.

Əlbəndə:

– Rəhmətliyin nəvəsi, sən hardasan-burdasan, necəsən-yaxşısan?! Müharibədən sonra məxluqda heç mis-misənə qalmayıb, sən də qızıl teştdən danışırsan. Qızıl teştə bax ey! Biz oturub bu zəmanəyə yaraşmayan qalayçıxanada, misgərxanada milçək tuturuq, gözləyirik ki, ağzı-burnu əyilmiş, yamyaşıl paxır bağlamış satıldan, aftafa-ləyəndən, sərnicdən, sərpuşdan, birəllidən, dolçadan, səhəngdən, badyədən, (mis) qırmızı samovardan, məcmeidən, məclis – xeyir-şər qazanından gətirən olsun, döyəcləyib, sürtüb, ağardıb beş-on qəpik çörək pulu qazanaq... sən də başlamısan ki, qızıl teşt, yox bir qızıl tiyan – qır tiyanı. Ya şeyx, heç sən özün qızıl teşt görmüsən?

* * *

Əlbəndə də, izdiham da birdən-birə şeyxin yerində qırx-qırx beş yaşlı, yaraşıqlı, sinəsində SSRİ Ali Sovetinin deputatı nişanı işıldıyan bir qadın görür. Toxuculuq kombinatının fəhlə və qulluqçuları, xüsusən Sitarə:

– Aludə xanım, Aludə xanım – deyə-deyə, çağıra-çağıra həyəcanla qadının üstünə atılır və təbii ki, səndələyib yerə yıxılırlar. Çünki, Aludə xanım da Şeyx Nəsrullah kimi gözdə cismanidir, təmasda, toxunmaq məqamında havadır, boşluqdur, xəyaldır.

Aludə xanım:

– Bilin, eşidin, görün, agah olun! O Şeyx də, bu mən də eyniyik. Kənardan, aralıdan gözlə baxanda əyani, yaxınlaşıb əl atanda xəyali surət! Məxluq! Qüvvə! Bu qüvvə konkret obraz və şəxs qismində gözə görünməsə, siz camaat ona inanmayacaqsınız. Yox əgər, bu obraz, bu surət, bu qüvvə real inscins (sizin kimi) olsa, əl atan kimi yaxası, boğazı ələ keçsə, tutub aparacaqlar lazımi yerə... Siz də qalacaqsınız gözünüzü

döyə-döyə, əlbəttə, ən yaxşı halda... Ömür həbləri satan bu “aptekçi”, bu varlıq, bu qüvvə sizin gözünüzə on yaşında oğlandan tutmuş, yüz yaşında kişiyə kimi, on yaşında qızdan tutmuş, yüz yaşında qarıya kimi – hər cinsdə və hər sinndə görünə bilər. Ömür həbləri satan bu “aptekçi”, bu qüvvə sizin gözünüzə uzaq və yaxın qohumlarınızın, dostlarınızın, tanışlarınızın, iş yoldaşlarınızın, məşhur əsər qəhrəmanlarının, yüksək rütbəli məsul işçilərin, vəzifəli şəxslərin surətində görünə bilər və görünməyə də bilər. Qorxmayın. Bu, nağıllardakı, əfsanələrdəki qara qüvvə, şər qüvvə deyil. Əksinə...

Əlbəndə (qalayçı):

– Başa düşdük, ya şeyx, yox ey, ya xanım, şərtin, sözün, qızıl teşt söhbətin yarımçıq qaldı ki... Sifətini dəyişdin axı... Dəyişmə də bu sifətini. Bir sifətdə qal də! Az dürəng görürük? Qızıl teşt nə yerdə qaldı?

Aludə xanım:

– Şərt qətidir. 5 illik çəhrayı həb 5 kiloqram qızıla, 10 illik mavi həb 10 kiloqram qızıla, 15 illik yaşıl həb 15 kiloqram qızıla satılır. Varındı, gəl! Yoxundu, get!

Əlbəndə:

– Necə yəni yoxundu, get?!

* * *

Bu səfər Aludə xanımın surətini cavan, qüvvətli, enlikürəkli, alovdan, bərqdən gözlərini qoruyan çeşməyini, daha doğrusu, çeşməkli üzlüyünü alnına qaldırmış poladəridən surəti əvəz edir. Yenə ümumi həyəcan... heyrət... və tam sükut. Poladəridən qalayçıya müraciətlə:

– Atam-qərdeşim, yoxundu, get də! Burda təəccüblü, başa düşülməyən, qazaxlılar demişkən, qanılmayan nə var? Necə ki, yoxundu – bağ almırsan... necə ki, yoxundu – maşın almır-

san... necə ki, yoxundu – kooperativə yazılmırsan... necə ki, yoxundu – həftə səkkiz, mən doqquz turist səfərlərinə çıxmırsan... necə ki, yoxundu – başqa-başqa fikrə-xəyala düşüb dişini dəyişmirsən... necə ki, yoxundu – qonşuları zinhara gətirib vur-çatlasın qonaqlıqları uc-uca calamırsan... necə ki, yoxundu – onu qatıb bunu qarışdırmırsan... necə ki, yoxundu – onu vurub bunu yıxmırsan... atam-qərdeşim, eləcə də ömür həbini də alma də! Yoxundu – nə 5, nə 10, nə də 15 illiyini alma də! Səni kim məcbur edir? Neynirsən əlavə ömrü? Tutaq ki, yaşadın, yüz dənə də əlavə mil-misənə qalayladın, hə, nə olsun? Skolko polojeno, stolko-to i jivi sebe na zdorovye.

İzdihamda gülüş dalğası... Əlbəndənin hisdən, qalay, miss tozundan, qələvi (kislota) turşusundan dırnaqlarının sədəfi itmiş yaba əlləri titrəyir, poladəridənin boğazından yapışmaq istəyir. O, qəzəblə:

– Məşədi İbad demişkən "Heyvan oğlu heyvan", bunun bir qabiliyyətinə, danışığına bax, fəhlə! Elə doğrudan da fəhləsən! Fəhlə gəlmisən, fəhlə də gedəcəksən. Səndən əvvəlkilər də danışdı, amma heç gör ürəyə toxundu? Mən ömrüm boyu adamları paxırlı qablarda xörək yeyib, su içib zəhərlənməkdən hifz eləmişəm. Ata-babalarımızdan qalma qab-qacağı, dirrik avadanlığını par-par parıldadıb göz oxşatmışam. Mənə təkcə qalayçı yox, mis zərgəri, mis allahı Əlbəndə deyərlər:

Poladəridən:

– Ay kişi, elə sən də fəhləsən də, bəs nöş fəhləni ələ salırsan?

Əlbəndə:

– Mən fəhləni ələ salmıram. Sənin kimisinin əlindən cin atına minirəm. Səni silkələsələr, ora-burandan bir xalvar yalan tökülər. Sənin planın da, vədin də, öhdəliyin də, döşündəki o dəmir-dümürün də yalandır. Sabah sənə desələr ki, daha polad əritmə, keç makaron fabrikinə, keçərsən?

Poladəridən:

– Keçərəm. Bizə polad da lazımdır, makaron da. Özü də harda yazılıb ki, makaron bişirmək şərəfsiz işdir.

Əlbəndə:

– Bunlar qalsın səninçün. Bilirik ki, polad poladdır, makaron makaron. Nəinki makaron bişirmək, hətta həyətlərdən zibil daşımaq da şərəfsiz iş deyil, nöş də olsun! Üç şey şərəfsizlikdir: 1. Vətənə xəyanət; 2. Oğraşlıq; 3. Rüşvətxorluq. Bu yolun yolçularından yerdə qalan bütün nalayiq sifətləri gözləmək olar. Bəli, sənə desələr ki, polad əritmə, makaron bişir – bişirərsən. Ancaq, mən yox. Qalayçılıq, misgərlik mənim təsdiqimdir, pasportumdur, tanınma nişanlarımdır. Necə ki ağ şanı, qara şanı, sarı sabahı əncir, xartut Abşeronun, Bakının təsdiqidir, pasportudur, başa düşdün? Sən nə haqq ilə mənim təsdiq olunmuşumu ələ salırsan? Təpənə dəysin sənin ömür həblərin. Əvvəla, yaşım keçib, ikincisi məndə qızıl hanı? Üçüncüsü və axırıncısı: sən qoyduğun şərtə, məzəndəyə qalsa, bir nəfər düz, təmiz, əlinin zəhmətiylə dolanan köpəkoğlu ömür həbi ala bilməyəcək. 5 kilo, 10 kilo, 15 kilo qızıla bax ey! İnnab istəmirsən ki?..

* * *

"İnnabi" oyun havası çalınır... Dairələnmiş camaat qeyri-ixtiyari rəqsə başlayır. Dairə genişlənir, aralıq boşalır. Poladəridənin surətini şəhər prokurorunun surəti əvəz edir. Allah, Allah, prokuror məşhur və mərhum komik Lütfəli Abdullayevə necə də oxşayır.

Əlbəndə aralığa çıxıb, bütün bu nağıla, həngaməyə, tez-tez bir-birini əvəz edən ələgəlməzlərə istehza mənasında uzun qollarını ölçə-ölçə, çoxdan zağarı getmiş xurmayı papağını gözünün üstünə endirib "İnnabı" oynayır və düz gəlib proku-

rorun surətinin qabağında çömbəlib şırıqqayla çırtıq çala-çala meyxana deyir... Nağaralar ritmlə çırtmalanır.

Əlbəndə:

Ay camaat, mən bu yaşa gəlmişəm,
Hər oyunun cik-bikini bilmişəm,
Çox hoqqabazlar dolayıb gülmüşəm,
Bu hoqqadan, amma çaşıb qalmışam,
Görmədiyim işdi ömür həbləri,
Ləbləbi-kişmişdi ömür həbləri.

Bir dənəsin ağzına at, qorxma day,
Pələnglə bir qəfəsdə yat, qorxma day,
Bozbaşına lap ağu qat, qorxma day,
Lap göyə çıx, lap yerə bat, qorxma day,
Əcəl sənə çatmaz, ömür həbləri,
Ölüm sənə batmaz, ömür həbləri.

Bir sifətdə satan görünmür hələ,
Bir sifətdə qalan görünmür hələ,
Satan çoxdu, alan görünmür hələ,
Altı dolu kalan görünmür hələ,
Gətir qızıl teşti, ömür həbləri,
Pənc qoşa, cüt şeşdi ömür həbləri.

Əlbəndə prokurordan nəsə soruşmaq istəyir, alverçi qadın Raziyyə onun sözünü ağzında qoyur.

Çox qəribədir ki, o qədər camaat, o boyda səs-küy olan yerdə, cilovsuz həyəcanların baş alıb getdiyi yerdə bir nəfər ağzını açan kimi hamı susur, hamı dinləyir. Əvvəla, danışan adam elə bil linzada böyüdülür, iri planda (gözəgörünməz aparatla) irəli çəkilir. İkincisi də, danışanın səsi (lap asta da-

nışsa da) mikrofonsuz-filansız hamıya aydın-aşkar yetişir. Nədir bunun sirri, kim yaradır bu nizam-intizamı? Kim, nə? Kim yaradacaq, nə yaradacaq? Yeniliyə təşnə qulaqlar, qeyri-adiliyə təşnə gözlər. Qəlibsiz, əndazəsiz, ölçüsüz təxəyyülə, təfəkkürə təşnə beyinlər. İllərdən bəri pas atıb korşalmış bıçağın çarxa çəkiləndə ətrafa saçdığı qığılcımlar kimi qığılcımlar saçan hisslər, duyğular... Belə çıxır ki, saat əqrəblərinin tərsinə də hərəkət etmək olar. Belə çıxır ki, möcüzə var, onun burulğanı var, həmin burulğana hər kəs öz bildiyi kimi atıla bilər.

Alverçi Raziyyə:

– Vətəndaş prokuror, iki sual olar?

Prokuror:

– Olar.

Raziyyə:

– Birincisi, buyurun görək, arvad xeylağına da ömür həbi satılacaq, ya yox?

Prokuror:

– Necə yəni "satılacaq, ya yox". Bəs toxucu dəzgahın çarxlarına ilişib parça-parça olmalıykən, ömür həbinin gücünə dipdiri, sağ-salamat qalan Sitarə əhvalatını eşitmədin? Aludə xanım ona 15 illik ömür həbi verib də. Sitarə alnına yazılmış ömründən əlavə yarasız-xorasız, infarktsız, tənzifsiz, cərrahiyyəsiz, bir sözlə, ölüm-itimsiz yaşayacaq.

Prokuror boylana-boylana izdihamın içində Sitarəni axtarır ki, Raziyyəyə göstərsin. Sitarə zahir olur:

– Mən burdayam, yoldaş...

Raziyyə:

– Azz, sən dayan görüm, kor deyilik, görürük burdasan. (Prokurora) Sitarə kov deyil, vətəndaş prokuror! Əvvəla, o, faydalı əməklə məşğul olur, istehsalat qabaqcılıdır. İkincisi, ona ömür həbini satıb-zad eləməyiblər. Sizdən az əvvəl gözümüzə bir arvad göründü ey... yaxasında da deputat ni-

şanı. O dedi ki, ömür həbi, özü də lap "vışşisi" Sitarəyə elə-belə, şağanlılar demişkən, hovayi verilib, reklam üçün. Vətəndaş prokuror, bəlkə siz elə həmin arvadsız, ya həmin arvad siz kişisiniz? (Gülüşmə)

Prokuror qəzəblənib qadına hücum çəkmək istəyir, lakin real varlıq olmadığı üçün bu mümkün olmur.

Raziyyə:

– Vətəndaş prokuror, sualımı bir də təkrar edirəm: Arvad xeylağına da işindən, peşəsindən, xülasə hər şeyindən asılı olub-olmayaraq ömür həbi satılacaq, ya yox?

Prokuror:

– Bəli, satılacaq. Cingiltisi qulaq oxşayan, parıltısı göz oxşayan qızılına minnət.

Arşın gətir, bez apar,
Tabağ gətir, qoz apar.

Raziyyə:

– Pasport, ayrı bir sənəd, arayış-filan, həkimdən kağız, qan analizi lazım deyil ki? Bəlkə həbi alıb atan kimi o dünyalıq oldum, it də getdi, ip də.

Prokuror:

– Qızıldan başqa heç nə lazım deyil. Vaxtımızı alma!

Raziyyə:

– Vaxta bax ey. Guya kabinetdə-zadda oturub bu kişi. Kişi yox ey, belə yel prokuror. Deputat arvad da, Şeyx Nəsrullah da, poladəridən də yel... yel...

Müstəntiq:

– Yoldaş prokuror, xahiş edirəm təcili sanksiya verəsiniz, tutaq bu pozğun alverçini. Həm də o, ictimai yerdə siyasi səhvə yol verdi. Necə yəni "prokuror da yeldir, poladəridən də yeldir".

Prokuror:

– Əvvəla, Raziyyənin alverçiliyini bilirdinizsə, görürdünüzsə, niyə siz və müvəkkillər alver edən yerdə onu tutmurdunuz? O ki bu saat heç nə alıb-satmır, hamı kimi ömür həblərinin alqı-satqı şərtləriylə, qiymətiylə maraqlanır.

Raziyyə:

– Vətəndaş prokuror, atam balası, di də, bazarda məni necə tutaydılar bu sümsüklər, haqq alırdılar axı!

Prokuror:

– Raziyyə, sən danışma. (Sonra yenə müstəntiqə və onun yanında görünən milis rəisinə) İkincisi, nəinki alverçi Raziyyə, dəqiq, mürəkkəb kimyəvi proseslərə, saat kimi işləyən cihazlara laboratoriya şəraitində nəzarət edən bir zərif, qəşəng, alim qadın pozğun ola da bilər, olmaya da bilər. Raziyyənin pozğunluğunu sübut edə bilməsəniz, sizin özünüzün həbsə alınmadığınız üçün sanksiya verilməlidir. Üçüncüsü, Raziyyə düz deyir. Mən prokuror da, o deputat Aludə xanım da, poladəridən fəhlə də bir "hübabıq ki, həvadən doludur pir əhənimiz". Biz havayıq, yelik. Biz sıxılmış havayıq. O qədər sıxılmışıq ki, qeyri-adi enerjiyə çevrilmişik. Bu enerji bütün dişli adamları hərəkətə gətirəcək və saf, laxlaq, çürük dişləri aşkar edəcək.

* * *

Camaatı dağıtmaq mümkün olmur. Ara-bərədə tum, vafli, pirojna, peraşki, qutab olmayan yerdən qutab, hətta qarlı havada bu yerlərdə dəb olmayan dondurma satanlar görünür.

Raziyyə:

– Adə, şokoladnı eskimo varundu?

... :

– Var.

Raziyyə:

– Görüm birini, ürəyim yanır.

O, dondurmanı alır, açır və yalaya-yalaya prokurordan soruşur:

– Bəlkə bu ömür həbləri camaatın varını-yoxunu əlindən almaq, özünü də tutub dama basmaq üçün bir tələdir, hə?

Prokuror:

– Yox!

* * *

Lakin "yox" sözünü prokuror deyil, şəhər sovetinin sədri söyləyir. O, cavan kişidir, zorba adamdır.

Camaat:

– Aaaa. Yoldaş Hüseynəli Hüseynəliyevdir ki bu.

Səslər:

– Borc istəmişdik hökumətdən, nə oldu?

– Ev yeri nə oldu?

– Uşaq bağçasının binası nə oldu?

– Kolxoz yerində üç xüsusi qaraj tikiblər, neynəyək? Sizin qərarınızı gözləyək, məhkəməyə verək, söküb dağıdaq, neynəyək?

Mahnı eşidilir:

Bəs bizim toyumuz nə vaxta qaldı...

Camaat sədrin üstündə yeriyir. Sədr:

– Bu pritenziyaların bura yeri deyil.

Feldyeger (mühüm, gizli, surğuclu sənədlər, məktublar daşıyan silahlı qasid, kuryer) Hacıağa tapançasını qoburdan çıxarır.

Feldyeger Hacıağa:

– Səni məndən yaxşı tanıyan yoxdu. Əə, lotu, bəs haradı yeri, hə?

O, şəhər soveti sədrinin üstünə yeriyir. Kənardan, aralıdan atəş açmaq olmaz, adam sıxdır, güllə başqalarına dəyə bilər.

O, tapançanın lüləsini sədrin sinəsinə dirəyib tətiyi çəkir. Çığırtı. Lakin hava boşluğunda heç bir cismə-filana sədəmə toxunmur. Yenə ümumi heyrət.

Sədr:

– Ay feldyeger Hacıağa, səni də mən yaxşı tanıyıram. Köhnənin cəlladısan, köhnənin muzdla ölüm hökmü (məhkəmənin) icra edən qansızısan! Əlbəttə, indi yox. Sən feldyegerliyə silah gəzdirmək xətrinə girmisən. Gördün mənə nə ehtirasla atəş açdın, adam güllələməkdən həzz alan adamcıl. Qoy tapançanı qoburuna. “Bura bu pritenziyanın yeri deyil” deyəndə, demək istəyirəm ki, mən o şəhər soveti sədri deyiləm, onun surətiyəm, əyani-xəyali əksiyəm, bildin, feldyeger?

Raziyyə sədrə (Hüseynəli Hüseynəliyevə) üz tutur. O, eskimonu yalayıb qurtarıb, əlində qalıb taxtası. Taxta Raziyyənin əlindən ta sədrin gözünün içinə kimi uzanır.

Raziyyə:

– Vallah, indi özün bilərsən, necə sədrsən – həqiqisən, xəyalisən, artistsən, gözbağlıcasan-nəsən. Ancaq adam diliylə başa sal görək, ömür həblərini almaq istəyən neynəsin, hara gəlsin, kimin yanına gəlsin, tək gəlsin, cüt gəlsin, neynən gəlsin, necə gəlsin, haçan gəlsin? Zarafat deyil, həbin lap ucuzu 5 kilo qızıladır. Hardadır bunun bazar-dükanı? Bu alqı-satqı alanla satanın arasında möhkəm sirr kimi qalacaq, ya dönüb olacaq “Günün ekranı”?

Səslər:

– Sən hələ ağzının dondurmasını sil, yaxşı sil, eskimo taxtasını da tulla, deşdi kişinin gözünü.

Səslər:

– Kişinin gözü onsuz da xəyalidir, gözəgörünən gözdür. Güllə ona batmadı, taxta – dondurma taxtası neynəyəcək.

Raziyyə:

– Gedin özünüzə vedrə bağlayın, cibində siçan da oyna-

mayan avaralar. Mənim eskimo yeməyimə şəbədə eliyənlərə bir bax! Hökumət gətirib burda satır onu, "znaçit zakonnı" alıb yemək olar.

Şəhər soveti sədri:

– Eşidin, bilin. Hər kəsin ki, həblərə müvafiq qızılı hazır oldu və fikri qətiləşdi, onun qulağına siqnallar, səslər gələcək. Səslər sizi maqnit, cazibə qüvvəsiylə lazımi yerə istiqamətləndirəcək, aparacaq. Səslər ömür həbləri müştərilərinin qulağına fərdi, ayrı-ayrılıqda gələcək, müxtəlif vaxtlarda gələcək. Ömür həbi almağa gedən adam tək getməlidir, silahsız (istər odlu, istər soyuq) getməlidir. Onsuz da maqnit və sehr zonasında silah təsirsizdir. Ömür həbi almağa çağırılan şəxslər satıcıdan başqa, heç kəsin gözünə görünməyəcəklər. Beləliklə, bu müddətdə hər cür qətl-qarətdən, təqib və güdülməkdən, nəzarət altına alınmaqdan asudə olacaqlar, hər cür xətadan, bəladan xali olacaqlar. Təkrar edirəm, alqı-satqı ərzində.

* * *

Şəhər soveti sədri Hüseynəlinin surətini on yaşlı, boynu qızıl qalstuklu məktəbli qız Gülsurət əvəz edir.

Qız:

– Ömür həbi üçün ancaq gecədən-gecəyə Qobustan qoruğunun dərinliklərinə... Yanardağa... sahillərdəki danışan, gülən, oxuyan, rəqs edən qayalara... yoldan, izdən, əldən-ayaqdan uzaq daş karxanalarına... bağlar içində, kənd qıraqlarında xərabə hamamlara, lal, kar, cinli Suludərəyə, qəbiristan (fəxri dəfn xiyabanları və şəhər dairəsindəki qəbiristanlıqlar sayılmır) həndəvərlərinə – bir sözlə, belə-belə yerlərə getmək lazım gələcək. Daha doğrusu, səslər, siqnallar müştəriləri həmin istiqamətlərə yönəldib aparacaq... Bəs nəqliyyat, minik?

Ancaq piyada! Atla, eşşəklə, arabayla, qazalaqla, şarabanla, faytonla, mühərriksiz velosipedlə də mümkündür.

Səslər:

– Çətin olacaq.

Gülsurət:

– Məcburi deyil, zor deyil. Tərəddüd edənlərin, könülsüzlərin lap bir ton qızılı olsa da, qulağına səs-siqnal gəlməyəcək.

Səslər:

– Ay bala, bu sözlərlə ki, bu cümlələrlə ki, bu əda və amiranəliklə ki, bu dillə ki, sən danışırsan, bu nə uşaq ağlıdır, nə uşaq dilidir.

Səslər:

– Ay qızım, niyə belə qorxulu, vahiməli, xaraba yerləri seçmisiniz axı? Özü də nə üçün gecə? İndi, gün-günorta çağı bu qədər adamın içində zəhrimiz yarılır, o ki qaldı...

Gülsurət:

– Altı yaşında uşaq opera yaza bilər, on yaşında uşaq gözəl rəssam ola bilər, on üç yaşında uşaq Fransa Akademiyasının mükafatını ala bilər, on dörd yaşında uşaq gözəl bədii əsər yaza bilər, on iki-on beş yaşında uşaq yeni riyazi düstur (formula) kəşf etdiyinə görə birdən-birə doktor, professor ola bilər, mən ciddi şəkildə beş-on kəlmə söz deyə bilmərəm?! Bu belə. Ağciyərlərə, qorxaqlara, səksəkəlilərə, ruhi və cismani şikəstlərə (cismani şikəsti səhv dedim, o özü bilər), qara-quraya inananlara nəinki ömür həbi, heç aspirin də satmaq lazım deyil. Qorxaq üçün bir saatlıq ömür də çoxdur. Qoy qorxaqların zəhri yarılsın. Elə mən də bunu istəyirəm.

* * *

Qaranlıq gecə. Qumlu, qayalı, vahiməli, kimsəsiz sahil. Zülmətdə dənizin rəngi qətiyyən seçilmir, hənirtisi gəlir,

ancaq qoxusu, ətri duyulur, xırdaca ləpələrin şappıltısı eşidilir. Bağların, bağ evlərinin arasıyla dənizin üstünə çıxan enişvari qumlu yolla yük maşını gedir, işıqsız gedir. Maşının dalınca bir qədər aralı məsafədə motosikl gedir, o da işıqsız gedir. Qaranlıqda qumlu yol ağarır. Yüyürüklü, beşikli (lyulka) motosikl milisə məxsusdur.

Motosikli sürür kapitan, yedəkdə əyləşib leytenant, yüyürükdə mayor.

Kapitan:

– Qayıq aparırlar.

Mayor:

– Bu qaranlıqda, bu intervalda, bağlı kuzovun içini necə gördün?

Kapitan:

– Səsə fikir verin, yoldaş mayor, səsdən bildim. Təkərlər yol qırışlarında atılıb-düşdükcə maşın silkələnir, boş qayıq kuzovda danqıldayır. Ayrı səs deyil bu.

Leytenant:

– Bəlkə danqıldayan heç qayıq deyil, başqa şeydir?

Kapitan:

– Məsələn?

Leytenant:

– Tabut.

Mayor istehzayla:

– Ola da bilər. Tabut, içində də armud.

– Tabut a, tabut a!

...Bütün ətrafdan – qum təpələrindən, kimsəsiz bağ mənzillərindən, su quyularından, yel dəyirmanlarının cırıltısından, dənizin dərinliklərindən, yerdən-göydən səslər gəlir.

– Tabut a... tabut a... tabut a...

Hər üç milis zabiti vahimə içində ixtiyarsız, əllərini qobura aparır... Ancaq, lap hövllənmiş, cavan, təcrübəsiz, əsəbləri

bərkiməmiş leytenant tapançanı qoburdan çıxarır, tətiyi çəkib, zülmət gecənin “tabut a...”, “tabut a...” səslənən boşluğuna atəş açmaq istəyəndə, mayor biləyindən tutur.

Mayor:

– Neynəyirsən? Hara atırsan?

Leytenant:

– Tabut maşınını dayandırmaq lazımdır.

Zülmət səmada, özü də lap alçaqda karusel şəklində, alümin rəngində tabutlar hərlənir.

Leytenant:

– Bu nədir, yoldaş mayor? Adam az qalır dəli olsun. Bu nədir?

Mayor:

– Bu bizim daşa dönmüş vicdanımızdır.

Leytenant:

– Axı başımızın üstündəki tabut karuselidir, nə vicdan?

Mayor:

– Bəs bilmirsən ki, vicdan mənəvi keyfiyyət olub, ancaq əməllərdə görünür? Təsəvvürlərdə təzahür edir? Vicdan maşınla, vertolyotla, əli avtomatlı namərddən (ovçu ovçudur) imdad diləyən ceyranın ağlar gözləri kimi də, gecəyarı şirin yuxuda ikən bir ailəni böyükdən-kiçiyə doğrayan balta kimi də, harınlıqdan qış günü on kilo dadsız, təzə, şitillik pomidoruna verilən rüşvət pulu kimi də, başımızın üstündə hərlənən bu tabutlar kimi də təzahür edə bilər, üsyan, qiyam qaldıra bilər.

Leytenant:

– Yoldaş mayor, bağışlayın, mənim vicdanımda nə daş, nə ceyranın ağlar gözləri, nə balta, nə qış günü satılan bahalı qırmızı pomidor, nə də tabut var. Özüm də milis məktəbini təzə qurtarmışam.

Kapitan bir balaca arxaya çevrilib motosikli yavaşıdaraq istehza ilə leytenanta:

– Əşşi, nə danışırsan?

Leytenant (hər ikisinə):

– Maşın uzaqlaşır, maşında qayıq var, qayığı suya salıb açıq dənizə çıxacaqlar, brakonyerlərdir, maşını dayandırmaq lazımdır.

Mayor:

– Bəlkə maşındakı qayıq deyil, ya tutaq ki, qayıqdır, özgə niyyət üçündür. Bir də ki, elələri silahlı olur. Canlarının qorxusundan atəş aça bilərlər.

Leytenant:

– Bəs bizimkinə nə gəlib?

Mayor:

– Zərurətsiz, qeyd-şərtsiz silaha əl atmağa ixtiyarımız yoxdur. Sən ki, bu məsələnin bütün maddələrini əzbər bilməlisən, təzəsən.

Leytenant:

– Axı biz operativ tapşırıq almışıq və tədbir görməliyik?

Mayor:

– Qulaq as, oğlan, cinayətkarı cinayət başında yaxalamasan, nə ona bir şey sübut edər, nə də onu zərərsizləşdirə bilərsən, nə də o söz...

Leytenant:

– Hansı söz?

Mayor:

– O söz ki, motosikllərdə belimin donqarı çıxıb. Vicdanla, gül kimi, tərtəmiz yaşamışam və heç kimin boynuna minnət qoymadan düz də eləmişəm, peşman da deyiləm. Ancaq görürəm, yox, gözüm baxa-baxa çox arzularım, istəklərim solub gedir, hələ arvad-uşağı demirəm... Ömür həbi alıb şairlər demişkən, ric`ətə çıxmaq istəyirəm. Beşcə il əlavə yaşamaq, əlavə ömür ric`əti! Ömür həbi almaq üçünsə cinayətkarları cinayət başında yaxalamaq lazımdır. Başa düşdün?!

Leytenant:

– Cinayətkarı cinayət törətməzdən əvvəl yaxalamaq lazımdır, əlbəttə, mümkün vəziyyətdə, məsələn, indiki kimi. Yoldaş kapitan, motosikli tərpədin, maşına çataq.

Kapitan:

– Əvvəla, özündən yaşda və rütbədə böyüklərə ağıl öyrətmə! İkincisi, işıqsız gedirik, bərk sürmək olmur.

Leytenant:

– İşığı yandırın!

Mayor:

– Olmaz, işığa güllə atarlar.

Leytenant:

– Bəs bu içi dolu, böyrümüzü deşən qoburlar hansı gün üçündür?

Kapitan:

– Bu çölün düzündə parta-part salaq? Qabırğamızı da verək havayı gülləyə?

Leytenant:

– Yoldaş kapitan, siz irəli baxın, sükan arxasında geriyə baxmaq olmaz. Onsuz da yolu yaxşı seçmirsiniz. Onsuz da yolunuz qaranlıq içində qaranlığa gedir. Geriyə baxa-baxa yox, irəlini görə-görə danışmaq məsləhətdir. (Mayora) Başa düşə bilmirəm, yəni siz də, sərçəni gözündən vuran təcrübəli orqan işçisi də şəhəri ağzına götürmüş bu gülünc şayiəyə – ömür həblərinə inanırsınız? Yaxşı, bunu özünüz bilərsiniz. Bəs indiyə kimi düz yaşamağınızın, təmizliyinizin əvəzini, motosikllərdə üzü küləyə... ikiqat olmağınızın əvəzini natəmizliklərmi, nadürüstlüklərmi, harınlıqlamı, rüşvət eşqinə düşməklərmi və ən dəhşətlisi – kəmfürsət olmaqlamı çıxmaq istəyirsiniz? Hə?!

Kapitan geri çevrilərək leytenanta:

– Sən nə haqla, nə cürətlə yoldaş mayorla rütbə-vəzifə pilləsini unudub bu tonla danışırsan?

Leytenant:
– İrəli baxın, siz irəli baxın!
Mayor:
– Düz deyir. Sən irəli bax, mənim öz dilim var. Sən sür!

* * *

Qaranlıqda ağaran yola elə bil birdən-birə qətran tökürlər. Motosikl daşa ilişir. Qabaq təkər sükan hissəsi qarışıq əyilir... Leytenantın burnu kapitanın peysərinə dəyib qanayır. Gecə... sahil... sükut... Yük maşınının izi-tozu da görünmür.

* * *

Ala-torana az qalır. Şiddətli külək qopur. Yer-göy bir-birinə qarışır. Qumlar havaya sovrulur, dəniz nər-nər nərildəyir. Dağ boyda, qorxunc, heybətli əjdaha dalğalar...

* * *

Motosikl dalğanın çata bilmədiyi yerdə, demək olar ki, qum altında qalmışdır. Mayorun, kapitanın, leytenantın sir-sifəti qumdan görünmür, görünürsə də çox gülməli görünür. Tufan getdikcə şiddətlənir, dəniz tüğyan edir.
Kapitan (küləkdən ikiqat əyilmiş):
– Yol... ma... ("yoldaş mayor!" demək istəyəndə ağzına qum dolur).
Mayor (o da təxminən həmən vəziyyətdə):
– Sözünü de, kapitan. Yəqin ratsiya sıradan çıxıb.
Leytenant:
– Bəli, antenna qırılıb, düşüb itib. (Bütün bu sözlər bərkdən, qırıq-qırıq, kəsik-kəsik deyilir).

Kapitan:

– Motosikli qoyub gedək, burda öldük lap!

Leytenant:

– Biz yox ey... ölənlər öldü, ey dadi-bidad. Dəniz qan elədi, qan.

Mayor:

– Bəli, brakonyerləri dəniz uddu, deyəsən. Onları cinayət başında – qayığı suya salanda yaxalasaydıq, dalğaların əlində boğulmazdılar.

Leytenant:

– Eh, ay yoldaş mayor, belə baxanda nə fərqi: dalğaların əlində boğulmayacaqdılar, boğulacaqdılar bizim əlimizdə. Xüsusən boğulacaqdılar ömür həbləri almaq eşqinə düşən sizin əlinizdə.

* * *

Səhər. Nərildəyən dənizin ələk-vələk sahili. Göz işlədikcə orda-burda növbənöv balıq və suiti ölüsü, mazutlu taxta-tuxta, qayıq parçaları görünür. Dalğaların süpürləmək istədiyi bir neçə cavanlı-qocalı qadın tufanlı dənizlə əlbəyaxa ola-ola saç yolur, şivən qoparır. Bəzi qadınların üzündə təzə, qanlı şırımlar görünür... Ulartıya çevrilən səs-sədalarla, deyəsən, ad çəkilir, dənizdən adam çağırılır...

Qadın səsi:

– Ay Ələbbas, ay Ələbbas, ay anası ölmüş!!!

Qadın səsi:

– Qeytər mənim qərdeşimi, ver mənim atam oğlıni, qanni-qadalı dəhənz, uyy... vaxsey, dilim qurusun... heç olmasa ölüsünü...

Qadın səsi:

– Sənə "anam" deyib həmişə Kərim. Ana da balaya qı-

yarmı, Xəzər?! Sular səhrasında yandı ciyərim. İnsafın-mürvətin heç varmı, Xəzər?!

Qadın səsi:

– Ay bircə bacımın bircə yadigarı, ay bədbəxt, besiretün nöş bağlandı axı sənün? Didim, adə, götür ədaxlüvi, gedün şəhərə, gezün-dolanun özüüzçün, bu xalx kimi. Didün yox, ay xala, qoy bir də vırım özimi dəryayi-leşgərə... bir də qalar toydan sonraya. Qaldı. Toydan soraya yox, qiyamətə qaldı.

Qadın səsi:

Alışıb yannam, ay dəniz,  
Yasa boyannam, ay dəniz,  
Səninlə hər gün üzbəüz  
Ağlar dayannam, ay dəniz!

* * *

Axşama yaxın. Sulara mavi xara çəkilib. Göylərə innabi xara sərilib. Çöp də tərpənmir. Təbiət bahara can atır. Budaqlardan tumurcuq hənirtisi gəlir. Kənd evlərinin arasıyla burulan yolla dörd cənazə aparılır. Tabutlar mafələrdədir, mafələr çiyinlərdədir. Mafələrdən ikisinin üstünə mavi çiçəklər, mavi gözlər, mavi göylər, mavi dənizlər rəngində xara salınıb. Mafələrdən ikisinin üstünə isə toy-nişan xonçalarının, gündoğanın və günbatanın rəngində innabi örtük çəkilib. Mərasim. Dəfn mərasimi. Qadın görünmür. Kişilərdi. Qocalı-cayıllı. Cayılların çoxu aerodrom kepkadadır, tək-tük başqa cür kepka qoyan da, başıaçıq da var. Yanıqlı, düşündürücü, həyatın fəlsəfəsindən danışan ərrəhman sədaları. Camaat ləngərlə gedir. Dörd mafə cüt-cüt qoşalaşdıqca, elə bil mavi dənizlə innabi üfüqlər biri-birinə qovuşur. Dəstə qəbiristana çatır.

* * *

Dənizin dərinlikləri. Sular sakitdir. Xırda-xırda ləpələr qayığın yan-yörəsində şappıldayır. Sübh açıla-açılmaya. Tünd bənövşəyi rəngli nəhəng dəryada tənha bir qayıq. Qayığın yükü ağırdır. O, sahilə üzür, gah motorla, gah avarla.

Əliqulu:

– Mayak deyəsən görünür axı.

Səttar:

– Hə, hə, görünür. Şükür Allaha ki, bu dəfə də salamat qayıdırıq.

Mərdan:

– Tələsmə hələ. Sahiləcən çox şey ola bilər. Dənizə nə etibar...

Əşrəf:

– Xeyirriyə danış.

Əliqulu:

– İnşallah, xeyir olar. Hələ dəryanın gözü toxdur. Dörd igidi təzə udub... Bu səfər ovumuz da qurbanı olduğumun kəraminnən... əntiqədir. Allahnan olaq, uşaqlar.

Mərdan gülür.

Əliqulu:

– Nəyə gülürsən?

Mərdan:

– Sözüm yoxdur, ürəyimizi Allahnan eliyək deyirsiz, eliyək. Bəlkə ürəyimizi (ağzım əyilməsin) Allahdan vacib rıbnadzorla, uçastkovıyla eliyək? Çox qansızdılar. Nə qədər vermək olar, nə qədər yarı bölmək olar? Axı adam nə qədər öz qanı bahasına qırağa çıxardığı balığın yarısını, kürünün hamısını özgəsinə verib yana-yana qalar?!

Əşrəf:

– Dilimiz qıssadu, qədeş, neyniyek, əlacımız nödü? Biz

brakonyerik, cinayətkarıq, oğruyuq. Cinayət məcəlləsi başımızın üstündə tükdən asılıdır.

Dənizin üstündə üfüq boyu qövsi-qüzeh kimi nəhəng bir əyri qılınc par-par parıldayır... Qılınc hərəkət eləyə-eləyə gəlib düz qayığın üstündə yellənir.

Əliqulu:

– Düz deyirsən, biz brakonyerik, hər hansı bəraət, vəkil müdafiəsi və qanun xaricindəyik. Ancaq vicdan xaricində deyilik.

Səttar:

– Vicdan xarici nödü, ay qədeş?

Mərdan qapazı ilişdirir Səttara:

– Əh... maygülü, mını də bilmirsən? "Vicdan xarici", yəni importni vicdan. İmportni mal olmur? Kostyum, siqaret, toyuq, pivə.

Səttar bıçaq çıxarıb qeyzlə Mərdanın üstündə qalxır:

– Özüvi ələ sal, çaqqal, yortaram, ağlun gələr başuva.

Qayıq ləngərlənir. Əliqulu onlara acıqlanır. Qayığa azca su dolur.

Əliqulu:

– Bəli, uşaqlar, biz vicdan xaricində deyilik. Kolxozun, sovxozun, hazırlığın, kökəltmə məntəqəsinin, camaatın qoz kimi sanılı mal-qarasını, qoyun-quzusunu oğurlamırıq. Kök heyvanla arıq heyvanı, ana ilə balanı, erkək ilə dişini dəyişdüyüş etmirik. Yalandan akt bağlamırıq ki, canavar dağıtdı, sel apardı, qayadan uçdu – düz burulmadı... çattadı-patdadı, şişdi, köpdü... Biz hökumətimizin, dövlətimizin bir iynəsinə də əl vurmuruq. Qanuni vəzifəmizi yerinə yetirmək, asan, mümkün olan işi yoluna qoymaq üçün rüşvət almırıq. Xülasə, biz bədbəxtlər hər gün, hər saat ölümlə göz-gözə dayanıb, ruzumuzu bu qanlı-qadalı, bu xeyir-bərəkətli dəryadan çıxarırıq. Allahdan başqa heç bir revizor bu dərya-anbarda yeyinti,

artıq-əskik aşkar edə bilməz. Heç bir SƏDM[1] ("OBXSS") bu dərya-anbarın qapısını möhürləyə bilməz.

Əşrəf:

– Əliqulu qədeş, sənin sözdərün qızıl kimidü. Ancaq qanun qanundur. Sovet hökuməti hər şeyi – dənizi, çayı, hamam suyunu, dağı, meşəni, gölü, yerin altını, üstünü çoxdan milə keçirib.

Əliqulu (gülür):

– Adə, qabiliyyətin olsun. "Milə keçirib" nədir, diginən milliləşdirib. Əşşi, indi heç "milliləşdirib" də demirlər, deyirlər: "Dövlətindir, əlini çək!" Yaxşı, hamısı düz. Bəs dünyanın qarnını doyduran bu boyda SSRİ bizim tutduğumuz beş-on balıqla sınıq çıxacaq? Tutaq ki, biz tək deyilik, SSRİ sularına daraşmış minlərlə brakonyerik, oğruyuq. Ancaq biz kişiyik, heç kimin cibinə girmirik. Dünənki mafələrdə, nə bilirsən, sabah bizim cənazəmiz getməyəcək. Yaxşı, bəs heç Allaha, hökumətə, qanuna rəvadır ki, sən ürəyini yeyə-yeyə ölümü, türməni gözünün qabağına gətirə-gətirə ov ovlayasan, sahilə çıxcağın, pişik sərçəni marıttayan kimi milis üstünə cuma, hər şeyini arxayın-arxayın, boynuna minnət qoya-qoya tutub əlindən ala, "hökumətə veriləcək" adı ilə aparıb yeyə, restoranlara və alverçilərə satdıra... Sən də qalasan dişin dilini kəsə-kəsə. Kimdi əsl namərd, əsl oğru?

Səttar:

– Oğrunun da mərdi, namərdi olar?

Mərdan:

– Olar! İndi lap qurdları ulayıb, ömür həbi eşqinə düşəndən bəri.

Əşrəf:

– Özüm ölüm, uşaqlar, bu səfər qəmiş olsalar, çaxacağam kəllələrinə, sıxacağam ürəklərinə. Belgiyiski parabeldə çəm-

[1]Sosialist əmlakını dağıdanlarla mübarizə üzrə şöbə. Rusca OBXSS.

xəm yoxdu, mən ölüm, çaxdın – feso! Ağdam bazarından alıb göndəriblər mənimçün.

Qayıq sahilə çatır. Sahildə SƏDM... Əşrəf tətiyi çəkir. Əliqulu onun dirsəyinə vurur, güllələr boşa gedir.

* * *

Sahil... Balıq dolu qayıq. Sübhün qan-qırmızı ilk şəfəqlərində balıqçıların tunc, kişi sifəti daha da qızarır. Həmən şəfəqlər orqan işçilərinin yüngülcə titrəyən əllərindəki yalın tapançalarında əks olunur və sınır.

Birinci əməkdaş:

– Brakonyerlik – bir cinayət, ayrıca maddə...

İkinci əməkdaş:

– Qeyri-qanuni odlu silah gəzdirmək – iki cinayət... ayrıca maddə...

Üçüncü əməkdaş:

– Rəsmi geyimli dövlət nümayəndələrinə xidməti vəzifələrini yerinə yetirərkən kütləvi (qruppavoy) şəkildə basqın etmək – üç cinayət... ayrıca maddə...

Sükut... dəniz qızılı, gümüşü zümrüdü, yaquti şəfəqlərdə cilvələnir. Xırda ləpələr ilan üstünə gedən körpə kimi SƏDM işçilərinin ayaqlarıyla oynayır.

Birinci əməkdaş:

– Hə, nə deyirsiniz, ya yükünüzü təslim edin, ya dəyərini nəqd pulla ödəyin, ya gedək.

Əşrəf:

– Nəqd pul? Pulu hələ ki, Leninqradda "monetnı dvor"da kəsirlər, Xəzər dənizinin içində yox.

İkinci əməkdaş:

– Əə, onnar sənin öz üstuaa. Yükün hamısı bizə lazım deyil. Ancaq ikra, kürü, qandın, hı?

Əşrəf:

– Qanmaz adundu, canavar, balıq 4-ə, 5-ədir, ikra 40-a, 50-yə...

Üçüncü əməkdaş:

– Milis və prokurorluq müstəntiqlərindən, məhkəmələrdən, barmaqlıqdan can qurtarmaq neçəyədir?

Mərdan:

– Bəs siz heç bu açıq alverdən, açıq qarətdən, naxal rüşvətdən və bizim cinayətimizin üstünü açıq ört-basdır etməkdən qorxmursunuz?

Birinci əməkdaş:

– Bu sualı biz də sizə eyniylə verə bilərik! Biz Azərbaycan SSR Elmlər Akademiyasının Kommunist küçəsindəki əsas binasının baş qapısını bax bu şəkildə, yalın tapançayla kəsdirib Akademiyanın prezidentindən pul, kürü istəmirik ki, sizdən istəyirik də...

Əliqulu:

– Yaxşı, gedin, iki saatdan sonra gəlin filan yerə... Kürünü hazırrayaq, pul da düzəldək.

* * *

Sahildə xəlvət yer. Gülən qayaların həndəvəri. Qayaların yarığında, oyuğunda, bütün bu sahil qövsündə sular dumdurudur. Lakin bu sular diri-diri, çapalaya-çapalaya qarnı yarılıb kürüsü çıxarılan balıqların qanıyla qızarır. Havanın, səmanın, dənizin linzasında, sahil relyefinin fonunda adama gülən kimi görünən qayalar ağlayır.

Əllərdə bıçaqlar
Parladı par-par.
Doğranıb töküldü
Gümüş balıqlar.
Zərərə, ziyana,
Zaya baxın bir!

Oğrudan oğruya
Paya baxın bir!
Ətrafı qətlgah
Sandı ləpələr.
Qorxub, qayalara
Sindi ləpələr.
Dənizin gözündən
Axdı duzlu su.
Süd kürü şor suda
Qaralsın gərək.
Gülən qayaların
Göz yaşıydı bu,
Qaya dözməyənə
Dözərmi ürək?

Əşrəf bir əlində qanlı bıçaq, bir əlində tapança:

– Yox, yox, belə hərifliyə, müftəbazlığa, gözgörəsi oğraşlığa mən dözmürəm.

Əliqulu:

– Gizlət tapançanı, az sox gözümüzə, özün də qızışma! Dözə bilmirsən, get zavodda, mədəndə, sovxozda, hansı cəhənnəmdə istəyirsən işlə, çestinə toxunmasınlar, buna bax bir!

* * *

Qaranlıq bir gecə. Göz gözü görmür. Ləpədöyən. Rəqs edən qayalar. Dəniz tərpəndikcə, ləpələr oynaşdıqca bu qayalar sanki rəqs edir. İki qayanın arasındakı yarıqdan işıq gəlir. İşıq nizə kimi qaranlığın sinəsinə sancılır. İşığa doğru müxtəlif istiqamətlərdən üç nəfər silahsız, mülki paltarda SƏDM əməkdaşı və dörd nəfər brakonyer irəliləyir. Əməkdaşlar bir-birindən çox az aralı, ləpir-ləpirə, daban-dabana gəlsələr də, biri-birini görmürlər, biri-birlərindən xəbərsizdilər. Onların

hər biri özünü bu kimsəsiz sahildə təhlükəsiz hesab edir: qulaqlarına ayrı-ayrılıqda gələn siqnallar onları bu sahilə ömür həbi almağa gətirir. Əməkdaşlar çala-çuxura düşdükcə, qoltuqlarındakı ağ-ağ torbalar cing-cing cingildəyir. Biri-birinin gözünə görünməyən müştərilər...

İki qayanın arasından süzülən işıq zərif, musiqili qadın səsinə çevrilir. İşıq səs:

– İşığımın və səsimin istiqamətində gəlin! Qorxmayın, su əvvəl topuğunuza, sonra dizinizə, sonra qurşağınıza çıxacaq. Bir az üşüyəcəksiniz, əlbəttə, mən balıqçıları demirəm, onlar su quşudur. Mən sizin qeydinizə qalıram, yoldaş orqan işçiləri! Su qurşaqdan yuxarı qalxmayacaq, sonrası sonra... gəlin!

SƏDM və brakonyerlər lap-lap (vot-vot) çiyin-çiyinədirlər, ancaq (şərtə görə) bir-birlərini qətiyyən görüb tanımırlar.

* * *

Büllur zal. Zal nəhəng akvarium içindəki qayaya oxşayır. Zal dənizin içindədir. Yuxarı başda 17 yaşında ilahə bir qız əyləşib. Necə ki, brilyant, həm dəruni şövqünün, həm xarici mühitin təsiriylə min cür bərq vurur – bu qızın da çöhrəsi, dənizin qaranlığı, göylərin zülmətiylə əhatə olunmuş büllur zal içində – salxım-salxım, asma-asma büllur qəndillər, avizələr, çilçıraqlar işığında – gah ehtiras saçıb şəhvət təlqin edən, gah ceyran məsumluğu, bənövşə həzinliyi bəxş edən, gah laübali su pərisini xatırladan, gah sərt, dözümlü, çox amansız və çox ədalətli xalq hakiminə dəlalət edən şəkildə, surətdə görünür.

İlahə qız:

– Ey SƏDM əməkdaşları, ey brakonyerlər, görsənin. Agah olun biri-birinizə!

Həmin saniyə balıqçılar – Əliqulu, Əşrəf, Səttar, Mərdan və üç əməkdaş bir-birini görür, tanıyır. Və hər iki tərəfi anlaşılmaz çaşqınlıq, həyəcan bürüyür. İlahə qız davam edir:

– Narahat olmayın, burada siz istər-istəməz bir-birinizə heç nə eləyə bilməzsiniz. İşdi şayəd mənə qarşı ürəyinizdə bəd fikriniz olsa, bu fikirdən könüllü-könülsüz vaz keçin.

Əşrəf:

– Allah eləməsin, əyib dögü? Sənin kimi ceyran balaya kim qıyar, azzz! Mən ölüm, bu boyda dəryanın nəqqədər ki, balığı var, satıb xərcdərəm səninçün. Çaqqal-çuqqala yidirtməkdənsə...

Əməkdaş dişi bağırsağını kəsə-kəsə Əşrəfə yavaşca:

– Sənə göstərrəm çaqqal-çuqqalı, qalsın qulluğunda. (Bərkdən) Özünü yaxşı apar, qədeşliyinə salma!

İlahə qız:

– Yoldaş dövlət, hökumət nümayəndəsi, eybi yoxdur, nə olar ki, cavan oğlandır, məndən xoşu gəlir də, gözünü yummayacaq ki... (hamıya) Sizi bura kim çağırıb və niyə çağırıb?

Xorla:

– Bizi bura sizin səsiniz çağırıb, qoyduğunuz şərtlərə görə, ömür həbi almağa gəlmişik, nəqd qızılla. Aləm ömür həbi sorağındadır. İlk dəfə bu xoşbəxtlik bizə qismət olacaq.

İlahə qız:

– Düzdür, sizi mən çağırmışam. Ancaq nə bilirsiniz ki, bu xoşbəxtlik sizə qismət olacaq?

Əliqulu:

– Ay qızım, ay anam-bacım, keçəl halva yeyər, puluna minnət. Bu mənim qızılım (torbanı cingildədir, başqaları da eynən). Bu torbada 10 illik həbin haqqı var, nə zülmnən yığmışam onu, Allah bilir (kövrəlir). Bir də, ay qızım, qulağıma gələn siqnallar məni bura məxsusi həb almağa dartıb gətirib də.

İlahə qız:

– Balıqçılar, irəli gəlin! Birinci balıqçı, adın, atanın adı, familin?

Əliqulu:

– Familim yoxdur, qızım, hələ-belə Əliquli Qasıməli oğli.

İlahə qız:

– Torbanı görüm!

Əliqulu:

– Buyur.

Qız torbanın ağzındakı düyün düşmüş ipi çətinliklə açır. Torba başı aşağı çevrilir, onluqlar, beşliklər, tək-tük imperiallar gözqamaşdırıcı bir təpəcik əmələ gətirir. Büllur zalın özündən gələn bərq, qəndillərindən süzülən işıq və həyəcanlı gözlərin parıltısı qızıl təpəciyini döndərib eləyir qorxunc, qan-qan deyən bir dəniz. Hər dalğası müdhiş bir əjdahaya çevrilib, sağ-salamat çıxmağa zərrə qədər zəmanət verməyən bu dəryada Əliqulu otuz ildən artıqdır ki, brakonyerlik edir, hökumətin qanununu pozur, cinayət törədir, dövlətin xalq malı elan edilmiş təbii sərvətini şəxsi mənfəəti üçün dağıdır. Bəli, o cinayət edir – qanı, canı bahasına, ölümdən qorxmayan cəsarəti bahasına cinayət edir. Dəniz qeyzlənir, dalğalar ağzı köpüklənə-köpüklənə deyir:

– Biz Əliquludan heç nə iddia etmirik. Biz onu Allah xatirinə namərd, qorxaq, cibgir, oğru, rüşvətxor, hazıra dadanan parazit bilmirik. Dərya sonsuz... balıq saysız... qanun amansız... Biz biziksə, nemətimizi, sərvətimizi igidlərə halal edirik. Biz dalğalarıq, biz ümmanıq. Biz süni surətdə balıq yetişdirmə, balıq artırma, kürü tökdürmə... (hökumətin bilavasitə maya qoyduğu, ixtioloqlar, əmələlər saxladığı) məntəqələrinin, stansiyalarının gölləri, hovuzları deyilik. Əliqulu gedib oralara ilişmiş olsaydı, o başqa söz, onda onun qanı halal olardı.

İlahə qız:

– Ey Əliqulu, sənin bu qızıllarına ən bahalı – 15 illik həb

düşür. Sənin bu qazancın qanun xaricində olsa belə, mənim qənaətim və qərarıma görə ana südü kimi halalındır. Axı, yazılmamış qanun (nepisannıy zakon) da var. Yazılmamış qanun insaf, vicdan, görən göz, duyan ürək, dərin, azad düşüncə deməkdir. Yazılmamış qanun yazılmış qanunun mavi yuxusu, yaşıl küçəsi, taybatay açılmış bəyaz darvazasıdır... Mən yazılmamış qanuna əsasən sənə təsir qüvvəsi 15 il çəkən yaşıl ömür həbi satıram. Qızıllarını da özünə qaytarmaq şərtiylə satıram. Bunun özü də yazılmamış qanundur. Ancaq bir sualıma cavab verməlisən, verə bilməsən, hər şey batil olacaq.

Əliqulu:

– Buyur!

İlahə qız:

– Məlumun olsun ki, ömür həbini udandan sonra Allahın sənə bəxş etdiyi ömürdən əlavə 15 il də yaşayacaqsan. Özü də bilirsən necə yaşayacaqsan? Məsələn, dəryanın tən ortasında boynuna dəyirman daşı keçirib səni gəmidən itələsələr də, ölməyəcəksən. Haqq-hesabını buradan götür. Hə, de görüm, belə ömürdən sən necə kam alacaqsan? Hansı istək və arzunu həyata keçirəcəksən? Qızıllarını da özünə qaytarıram, zarafat deyil.

Üzlərdə heyrət, həyəcan, intizar... Əməkdaşların çaşqın üzləri, uçunan bədənləri...

Əliqulu:

– Mən balıqçılıqdan əl çəkən deyiləm. Ancaq bundan sonra dəryaya yazılmamış qanunla yox, yazılmış qanunla tor atacağam. Gedəcəyəm balıqçılıq sovxozlarının birinə. Elə bilmə ki, qorxumdan, brakonyerliyə tövbə etdiyimdən gedəcəyəm. Sən ki, mənim halal olmağıma, bu qızılları ölümlə gizlənpaç oynaya-oynaya qazanmağıma qiymət qoyursan – ona görə gedəcəm sovxoza. Tükü-tükdən seçə bilən o gözlərinin xətrinə gedəcəyəm sovxoza. Meşin qapılı kabinetlərdə əyləşib dəvəni yüküylə yeyən, əlini ağdan qaraya vurmayan ixtiyarlı, zəli-

rüşvətxorlarla mənim kimi oğruya zərgəranə, loğmananə fərq qoya bilməyinə görə gədəcəyəm sovxoza. Söhbət fərq qoya bilmək də deyil, söhbət bu fərqi faş, bəyan etməkdədir ki, bunu da ancaq sən edə bilərdin, ey sirri-Xuda!

Əməkdaşlar narahat, əsəbi görünürlər. Əliquluya nifrətlə baxırlar. Az qala onu parçalamaq istəyirlər.

Birinci əməkdaş:

– "Gedəcəyəm sovxoza" deyə-deyə bu dəniz banditinin qoyduğu minnətə bax!

İlahə qız:

– İcazəsiz danışmayın, danışanda da ləyaqətlə danışın! Paqonlarınızın rəsmiyyətini qoruyun.

İkinci əməkdaş:

– Məhkəmədir?

İlahə qız:

– Məhkəmə sizə kar eləməz. (Əliquluya) Hə, sonra.

Əliqulu:

– Mənim ölməzliyimi, cismani sağlamlığımı, mənəvi ləkəsizliyimi təmin edən bu 15 illik sehrli ömrümün son dəqiqəsinədək insanı insanlıqdan, kişilikdən, vətəndaşlıqdan çıxaran hər kəsə, hər şeyə qarşı meydan oxuyacağam. Qisas alacağam bütün haqsızlardan, bihesablardan. İntiqam alacağam şəxsən mənə heç nə eləməyən, eləyə bilməyən bihesablardan! (danışa bilmir, kövrəlir, qəhərlənir)

İlahə qız:

– Necə qisas alacaqsan, kişi? Onları tin dalından vuracaqsan, ya üzbəüz – sinələrindən?

Əliqulu:

– Xeyr, elə yox! Onları rüsvayi-cahan edəcəyəm. Bu quruluşu, bu hökuməti camaatın gözündən salan, məhz özlərinin nifrətə layiq vücudları, hərəkətləri ilə bu quruluşa qarşı, gül kimi qanunlarımıza qarşı xalqın, zəhmətkeşlərin, kolxozçu və

ziyalıların qəlbində açıq nifrət, ikrah, inamsızlıq oyadan rəsmi və qeyri-rəsmi tapançalılarla, yəni yol kəsənlə heç fərqi olmayan, ondan daha pis əksər orqan işçiləriylə, kərtənkələlərlə, timsahlarla (qurban olum əsl kərtənləyə, əsl timsaha) döyüşəcəyəm. Mənim ömür həbi sayəsində üstünlüyüm ondan ibarət olacaq ki, ifşa etdiyim, maskasını yırtdığım qaragüruh nə məhkəmə salonundan, nə kadrlar şöbəsindən, nə ilk, nə qeyri-ilk partiya (mən bitərəfəm, söhbət məndən getmir) təşkilatından, nə tin dalından mənə heç bir şey eləyə bilməyəcək. Mən bu işi təkbaşına görməyəcəyəm. Yox, bax, bu balıqçı uşaqlarla, öz yoldaşlarımla, yoldaşlarım da yoldaşlarıyla, yodaşları da yoldaşlarıyla birləşəcəyik, birləşəcək. Birləşəcək bütün yaxşılar, təmizlər, düzlər. Axı bu hökumət əslində düzlərin, təmizlərin, bərabərlərin hökumətidir, axı biz sovet adamlarıyıq. Hökumətin dükanında, hökumətin kötüyünün üstündə, hökumətin baltasıyla, hökumətin verdiyi əti doğrayıb, əynində hökumətin xalatı, hökumətin daş tərəzisində satan qəssab “bu hökumətimizdən olmaz” deyə-deyə bu hökuməti ələ salır. Həqiqi professordan (həqiqi, həm də əxlaqi keyfiyyət mənasında) on dəfə firavan yaşayan qəssabı, ictimai həyatımızın bütün həlledici nöqtələrində möhkəm duran belə qəssabları neynəyək?

* * *

Büllur zal da, İlahə qız da, çilçıraqlar və çilçıraqlardan süzülən işıq da yaşıldır. Balıqçılar da yaşıldır. Təkcə SƏDM əməkdaşları yaşıl səltənət içində qapqara görünürlər. Elə bil yaşıl mürəkkəblə yazılan bir yazı ortada üç sətir qara tuşla yazılır, sonra yenə yaşıl xətt davam edir. Şimşək çaxır, göy gurlayır, tufan coşur, dəniz coşur, qayalar Cəngi üstündə yallı gedirlər. İlahə qız bu coşğunluq və yaşıllıq səltənətində on beş illik ömür həbini Əliquluya verir. Yaşıl həb İlahə qızın yaşıl

yarpağa bənzər əlinin-ovcunun içində böyüdülmüş şəkildə görünür. Qız işarə edir, Əliqulu həbi götürüb udur.

* * *

Brakonyer Əliqulu böyük bir yaşayış məntəqəsinə vəlvələ salıb. Əliqulu Qulliverə çevrilib. Onun hər barmağından onlarca ədalətsiz, qəddar, başıboş, ürəyi daş rüşvətxor xalq hakimi, müstəntiq, prokuror, partiya və sovet orqanları işçisi, həkim, müəllim, milis, böyük təsərrüfat rəhbərləri, dövlət və xalq nəzarəti işçiləri, nazirlik və baş idarə başçıları, böyük baza anbarlarının, pambıq zavodlarının, iri, gur kolxoz bazarlarının direktorları asılıb, dara çəkilib... göyərib, qaralıb, boğulub... Əliqulu nəhəng əllərini havada silkələyir və hər növ əlvan, alabəzək həşəratı, paraziti aləmə göstərir. Əliquluya güllələr sıxılır, bıçaqlar dirənir, beşbarmaqlar söykənir, zəhər qatılmış yemək-içmək dürtülür. Xeyr! 15 illik ömür həbi Əliqulunun təhlükəsizliyinə yaşıl zəmanət verir.

* * *

Əliqulu bir meydançada dayanıb. Yaşı altmışı keçmiş bir qadın başındakı bahalı şalı açıb Əliqulunun ayaqları altına atır:

– Haram pula alınmış oğul hədiyyəsi mənə lazım deyil.

Qoca kişi başından təptəzə xurmayı papağı götürüb Əliqulunun ayağı altına atır:

– Sən demə, nəvəm bunu rüşvət puluyla tikdiribmiş mənimçin, istəməz!

Cavan oğlan maşın açarlarını və sənədlərini Əliqulunun ayağı altına tullayır:

– Qaynatam bu maşını kolxozçuları bazarda soya-soya, daimi möhtəkirlərə şərait yarada-yarada yığdığı pulla alıb,

qorxusundan bəxşiş adıyla adıma saldırıb. Gərək deyil.

Gəlin boynunun, boğazının, qulaqlarının, barmaqlarının zər-zibasını, qolunun qızıl qolbaqlı saatını Əliqulunun ayağı altına tökür:

– Bu soxaya qalmışlardan cəzasız, cavabsız, əvəzsiz qalan qanların və çıxmayan yerdən çıxarılan, axmayan yerdən axıdılan qanların (ərim xalq hakimidir) iyi gəlir. Gərəyim deyil.

10-12 yaşlı oğlan xarici markalı, tamaşalı, iki təkərli velosipedi Əliqulunun yanında yerə yıxır. Uşaq ana dilində danışa bilməyən ruslaşmış azərbaycanlı balasıdır:

– Отец часто приносит домой много денег – вот такими пачками. Во дворе мне ребята говорят, что твой отец, мол, зарабатывает нечестно! И вот этот велосипед на котором катаешься куплен за нечестные деньги.

... Adamlar gəlir, gəlir və sair və ilaxır...

Gözlərdə yaş giləl定nir – təmizlik, asudəlik şəbnəmləri, saflıq şehləri, vicdan əzabından xilas olmaq sevincinin göz yaşları. Bu göz yaşları brakonyer Əliqulunun dövrəsində artıq alçaq təpəyə dönmüş qızıl zəncirlərin, boyunbağıların, kəmərlərin, qolbaqlı saatların, brilyant üzüklərin, sırğaların, qaş-daşlı medalyonların üstünə gilə-gilə damcılayıb cız-cız cızıldayır...

* * *

Həmən meydança. Qulliverləşmiş Əliqulu yenə ortadadır. Onun qarşısında neçə-neçə qızıl medala “layiq” görülmüş kamal attestatları, hər profildə ali təhsil diplomları, namizədlik və doktorluq elmi dərəcələrinin diplomları, hətta tək-tük akademik diplomu, bağ kupçiləri (notarial sənəd), kooperativ mənzil orderləri qalaqlanıb. Haramla, əyriliklə, saxtakarlıqla, layiq olmamaqla əldə edilib qanuniləşdirilmiş bu sənədlər, əsl sahiblərinin əlindən qapılan bu sənədlər özbaşına alışıb yan-

mağa başlayır və zəbanə çəkən tonqala çevrilir. Tonqalın ətrafında savadsız, qorxaq, tamahkar müəllimlərin ali məktəblərə ötürdüyü abituriyentlər – gələcəyin savadsız, mənəvi keyfiyyətsiz müəllimləri, həkimləri, hüquqşünasları, iqtisadçıları və sair və ilaxır eybəcər vicdanlı, eybəcər sifətli adamlar rəqs edir, qızışa-qızışa oxuyur:

Dolan-dolan dolanbac,
Dolanmayan dolanmaz.
Girdin ki, dolanmağa,
Dursan, heç kəs inanmaz,
Həə... həə... hə...

Dolandırıblar səni,
Sən də dolan, dolandır.
Dolanmağın təhrini
Sən də özgəyə qandır!
Həə... həə... hə...

Dolan, sayma heç kəsi,
Bacarmayan dolanmır.
Bu boyda yer kürəsi
Görmürsən ki, dayanmır?!
Həə... həə... hə...

Düz adamın gözünə
Barmağını sox, dolan!
Bir qoz... elin sözünə,
Gözü-könlü tox dolan!
Həə... həə... hə...

Ağıl nədir, huş nədir?!
Dolan gəl a, dolan gəl?!
Bilik nədir, baş nədir?!
Dolan gəl a, dolan gəl!
Həə... həə... hə...

Tonqala bax, tonqala,
Qorxusu yoxdur, dolan!
Dolan, əşşi, az qala
Tonqala dönsün cahan.
Həə... həə... hə...

Gördü-götürdü dünya,
Dolan "gördü-götürlə"!
"Qoydu-götürdü" dünya,
Dolan "qoydu-götürlə"!
Həə... həə... hə...

Tonqala əvvəl tək-tək, sonra bir az bərk, sonra şıdırğı yağmur yağır. Yağmur yağdıqca tonqal daha da alovlanır, çünki bu yağmur nə yağışdır, nə də qar. Tonqala bahalı qadın paltarları – şubadan tutmuş gecə köynəyinədək... Xarici redikül, çanta, ayaqqabı, çətir, yelpik, corab, nadir tapılan ətir, gül yağı, lap güngörməz geyimlər... yağır. Alovlar zəbanə çəkdikcə yanan şeylər dillənir, onlar tüstülənə-tüstülənə balacalaşan, kömürləşən insan kəllələrinə çevrilir.

– Biz çoxdan bu günə düşməliydik. Biz haram pulla, rüşvətlə, gözüylə görməkdən... heç də fərqlənməyən... namussuzluqla əldə edilmişik. Biz bütün dövrlərdə, bütün quruluş və cəmiyyətlərdə, xüsusən bizim quruluş və cəmiyyətimizdə bir nömrəli parazit sayılan rüşvətxor əməllərinə əşyayi-dəlilik. Rüşvətlə pərvazlanan qadından sədaqət ummayın! Rüşvətlə

dil açan körpədən fərasət ummayın! Rüşvət puluyla ailə saxlayan kişilərdən geci-tezi kişilik gözləməyin!

Əliqulu bu odlar, bu yağmurlar, bu şeirlə edilən coşğun, ahəngar, həyasız etiraflar, səslər içində dəlidir. Yağmur davam edir. Rüşvət qənimətləriylə alovlanan bu cəhənnəm tonqalına bu səfər nə yağsa, yaxşıdır? Ətrafı "inqəə, inqəə..." bürüyür, gözə körpə görünmür, "inqəə, inqəə..." tük ürpərdir. Bu "inqəə, inqəə..." körpə qığıltısı fonunda əmziklər, balaca süd şüşələri, bələklər, təpiş-tüpüş əlvan, yumşaq məstlər (tapoçki), ağ-ağ, mavi-mavi göbələk papaqlar, naxış-naxış, güllü-güllü paltarlar, cürəbəcürə səslənən şaxşaxlar və yüz növ alabəzək oyuncaqlar, həm tək körpə, həm əkizlər üçün yumşaq, müasir, əla "təkərli yüyürüklər" (kolyaska) tonqala yağdıqca yağır. Əks-sədalı, dalğavari, vibrasiyalı çağa səsləri:

– İstəmirik bunları, qoy hamısı yansın! Lazım deyil. Rüşvətxor ata qayğısı qayğı deyil. Qoy bizi aparıb versinlər hökumətə, nə qədər ki, təmizik. Hökumət ölməyib, böyüdər bizi. O, çox-çox çətin, ağır şəraitdə körpələr ərsəyə yetirib, indiyə nə var ki.

* * *

Alverçi qadın Raziyyə görünür. O, tonqalda çırta-çırtla yanan şeylərə baxır, təəccüblənir, bir şey başa düşmür. Gözünə brakonyer Əliqulu sataşır. O, Raziyyəyə çox azman görünür. Tonqal bu azmana nisbətdə çöpləri yanan kibrit qutusuna oxşayır.

Raziyyə:

– Aaa, vaxsey! Bu boyda da kişi olar? Lap öküz öldürəndüva.

Yenə tonqala baxır və görür ki, burada yanan və yanmaq üçün tonqala tökülən şeylərin, demək olar ki, çox bir qismini camaata o satmışdır:

– Aaa, bu nödü, bu nödü, həyif bulardan, xalx bılari mənnən ot (od) qiymətinə, allah bilə, neçə qat artığına alıb. Odu ey, o şubanı da tanıyıram, o kristallonu da tanıdım, gör necə fırıltıyla yandı, o importni iqruşkanı da tanıdım. Bılar nöş yanır axı? Düzdü, mən haqqımı almışam, cəhənnəmə yansın, gora kül olsun, ancaq nöş yanır axı?! Özü də bu şeylər göydən yağır ey, bismillah, yoxsa məni qara basır? (Əliqulu görüb ona baxır). Görəsən, bu boyda zırpıya qədeş disəm noolar? Baxışdiyüz, qədeş!

Əliqulu:

– Nə var, ay Raziyyə?

Raziyyə:

– Necə, Raziyyə? Mənim adımı hardan bilirsən sən?

Əliqulu:

– Bilirəm də. Bədənimdə gəzişən ömür həbinin sehriylə. Azz, səndən çox bahasına (səndə günah yoxdur, həqqən!) az şey almışam? Amma, türkün sözü, mənimkilər yanmalı deyil.

Raziyyə:

– Yox ey, bu şeylər nöş yanır? Xalxın başına at təpib nədir?

Əliqulu:

– Xalxın başına heç milcək də qonmayıb.

Raziyyə:

– Əşşi, bir dayan görüm, bütün bu çırtaçırtla yanıb kül olan malları didim ki, camaata mən satmışam, od qiymətinə. Nöşün ki, mən, ən azı üçüncü ələm. Mal da əldən-ələ keçdikcə üstünə qoyulur. Mən də üstünə qoymalıyam ki, (qudurmaqçın yox, yaşamaqçın) beş-üç manat qazanım. Hələ uni (onu) demirəm ki, it-qurtun da ağzına bir şey atmalıyam. Atmaram, özümü götürüb atarlar "stadion"dan qırağa. Məni boğduqca mən də qoyuram üstünə, axırda təpik camaata degir genə...

Əliqulu:

– Səndən camaat heç nə almır, almaz, ala da bilməz. Sənin müştərilərin əli haram pulla oynayan bir ovuc qansorandır.

(Bir ovucmu?..) O ki, qaldı bazarda və ya hardasa sənin – sən alverçinin dövrəsində hərlənən itə-qurda... – əslində müqəddəs qanun keşikçilərinə – onların sabunsuz kəndiri əskikdir. Ağılsızlığının, iradəsizliyinin, ehtiyacının üzündən sən alver edirsən, atasız körpələrini qorxa-qorxa, ürkə-ürkə dolandırırsan. Düz yolda saymıram səni! Ancaq duru yerindən sənin beş-on manatına, boğazına şərik çıxanları hansı dəftər-kitaba yazaq?

* * *

Rəqs edən qayalarla, dalğalı dənizlə dövrələnmiş yenə həmən büllur zal. Və İlahə qız...

İlahə qız:

– İrəli gəl!

Brakonyer Səttar irəli çıxır.

İlahə qız:

– Görüm!

Səttar ağ torbanı başı aşağı çevirir. Qızıllar səsləndikcə parıldayır, parıldadıqca danışır.

– Bəli, bu məbləğə sənə də 10 illik ömür həbi düşür. Bu zavalsız əlavə ömürdən necə istifadə edəcəksən? Qızılın olmasa da, sən hünər və cəsarətinə görə ömür həbinə layiqsən!

SƏDM əməkdaşlarından biri:

– Bu düz deyil. Onda gərək bütün məşhur oğrular, seyf açanlar, muzdlu qatillər, bank və lombard, əmanət kassası aparanlar, inkassator maşınına basqın edənlər – cəsur adamlar kimi ömür həbinə havayı layiq görülsünlər. Qanunla qadağan edilən hər iş, hər hərəkət, hər əməl, hər jest cinayətdir. Nə cəsarət? Nə dəniz? Nə balıq? Pullu, pulsuz nə ömür həbi? Bu nə söhbətdir?!

İlahə qız:

– Sizi danışdıranda danışarsınız, mane olmayın. (Səttara) Hə!

Səttar:

– Ömür həbindən, belə bax, mənim keyfim necə istəyir elə də istifadə edəcəyəm. Yox bir, üstəlik səninlə müqavilə də bağlamalıyam? Qulağıma çatan səsin, maqnit dalğalarının, sehrin hökmüylə bura gəldim. Yoxsa mənə ömür həbi gərək deyil. Öz halal ömrümü adam balası kimi yaşasam bəsdir. İyirmi yedi yaşım var, hələ dərman dadı bilmirəm, neynirəm ömür həbini, boynuma minnət-zad qoyma!

Səttarın ağ torbasından İlahə qızın qarşısına tökülən qızıllar qayıdıb bir-bir torbaya dolur, torbanın ağzı bağlanır... torba havaya qalxır, fırlana-fırlana Səttarın qucağına düşür.

İlahə qız:

– Ey balıqçı Səttar, acıdillik də rüşvətxorluq və qarətçilik kimi bir şeydir. Çox pis, qorxulu, ziyanlı, mənəvi qüsurdur. Ürək sındırandan nə istəsən gözləmək olar... Baxtından küs, ömür həbi zəhərə şəkər qatmaq kimyasına malik deyil. Sənə 100 illik ömür həbi versəm də xeyri yoxdur. Həmişə dilinin bəlasıyla əlbəyaxada, qeylü-qalda olacaqsan.

Səttar:

– Həqiqət acıdır?

İlahə qız:

– Həqiqət acıdır, ancaq onun tərkibindəki zəhər lazımi ölçüdədir, qədərindədir və zərərsizdir. Mən sehrəm, istəsəm, sənin dilini ağzında ülgücə döndərərəm, doğrar tökər damağını. İstəsəm, səni daşa döndərərəm, istəsəm suitiyə çevirib buraxaram suya. Fəqət, yox, qəsdim bu deyil. Qızıllarını özünə qaytardım. Sənə bir saniyə də əlavə ömür düşmür. Əlavə – zirehli, sehrli ölüm-itimsiz ömürlə yaşamaq təkcə özün üçün yaşamaq demək deyil ki... Başqasını da qoruyasan gərək, başqasını da qanadlandırasan gərək! Sən mənimlə – mənim kimi

gözəl-göyçək bir qızla, özündən on yaş kiçik ilham, şeir ilahəsiylə, həm də qeyri-adi bir varlıqla, sehr və ecazla belə kobud, acı danışanda, gör, başqalarıyla, öz evinin içindəkilərlə, xüsusilə səndən gücsüz və asılı olanlarla necə danışırsan. Get burdan, yox ol!

Büllur zala süd kimi duman çökür, duman çəkilir və balıqçı Səttar daha görünmür.

* * *

İlahə qız:

– Balıqçı Mərdan, irəli!

Mərdan da qızıl torbasını sehrli qızın qarşısında yerə endərir.

– Hə, bu qızıllara beş illik ömür həbi düşür. Niyyətin?

Mərdan:

– Deməli, bu beş ildə mənə heç biz zaval toxunmayacaq? Nə cür istəsəm o cür yaşayacağam? Nə cür istəsəm o cür qazanacağam?

İlahə qız:

– Bəli.

Mərdan:

– Sərbəstlikdən, gen-bolluqdan, azadlıqdan, arxayınlıqdan, təhlükəsizlik, təqibsizlik və asudəlikdən o yana niyyət olar, ay nağıl qız, ay ceyran?! Əgər bu Yer kürəsini boşaldıb, tərtəmiz silib-süpürüb, nakəslərin, natəmizlərin, paxılların, yalançıların, rüşvətxorların ixtiyarına versələr – Yer kürəsi nəzarətsiz-filansız ancaq onlara məxus olsa; mənim balaca ağlım belə kəsir ki, onlar "öz yer kürələrində" yenə azad və sərbəst ola bilməyəcəklər. Daxili narahatlıq, xof, səksəkə onları həmişə at döşünə salınmış adama döndərəcək. Hə, nağıl qız, mən bir nəfər milyonçu rüşvətxor tanıyırdım. Müştərim idi,

ona qızıl balıqdan tutmuş hər növ balıq (lap diri-diri), kürü aparırdım, təşəkkür edə-edə od qiymətinə alırdı. Parnik və ya şüşəlikdə, xülasə, süni istiliklə yetişdirilən pomidor bazara təzə-təzə, az-az ayaq açırdı. Bir gün bazarda həmən kalan müştərimə rast gəldim. Mən onu gördüm, o məni görmədi. Dedim öz-özümə ki, baxım görüm kişi necə bazarlıq edəcək.

Hamının gözü önündə bazar səhnəsi canlanır:

– Neçəyədi pomidor?

– On manata.

– Əşşi, belə qiymət olar?

– Olar! Nöşün ki, onu hasilə yetirənə kimi atam yanıb, külfətin də, uşaqların da atası yanıb. Bu bir. Bir tərəfdən də bu məz-məzədir, süfrəyə yaraşıqdır, doyumluq deyil, pulun yoxdu, havayı apar.

Müştəri ürəyində: "Ay bədbəxt, elə bilirsən yoxumdur, ya qiymət çənə-boğazı eləyirəm səniynən, bütün bu bazarı alardım..." Sonra pomidor satana:

– Yaxşı, iki dənə çək uşaq üçün.

İkinci, üçüncü, dördüncü bazar... Həmin adam taksiylə gəzib hər bazardan azca-azca pomidor alır.

– Hə, nağıl qız, kamerada oturub cəzasını çəkən adam qorxa-qorxa bahalı pomidor alan bu müştəridən min dəfə asudədir. Pomidor kiçicik – söz məsəli əlamətidir. Yoxsa nə pomidor ey. Söhbət səksəkəli, kölgəli, bir özün üçün, bir də el gözünə yaşamaqdan gedir, mən ölüm! (da... dvoynaya jizn...)

İlahə qız:

– Sonra, sonra? Bu azdır. Əlavə ömürdən istifadə üçün bu sözlər keçməz! Boş-boş özünçün veyillən ki, azadam, sərbəstəm...

Mərdan:

– Məni bura ömür həbi almağa sənin səsin çağırıb. Bu səs hər adamın qulağına gəlmir. Yaxşının da, pisin də lap kəllə-çarxı, lap tamam-dəsgahı, lap əlası var. (Pisin əlası?! Bəli!) Sən

həmən o "LAP"ları seçib çağırırsan. Bu barədən mən veyil ola bilmərəm. Veyildə yatır olmaz. Mən hüzuruna (əlbət, minnət-zad qoyub eləmirəm) bir torba qızıl gətirmişəm və bu var-dövləti yüz faiz qanunsuz olsa da, yüz faiz ölümlə göz-gözə dayana-dayana qazanmışam. Başını nə ağrıdım. Əliqulu qədeş kimi mən də gedib girəcəyəm balıqçılıq sovxozuna, axşamlar da oxuyacağam balıqçılıq texnikumunda. Toy eliyəcəyəm, iki ildir nişanlıyam.

İlahə qız:

– Bəs bir belə pulun ola-ola niyə indiyə kimi toy eləməmisən?

Mərdan:

– Heydər bəylə Sonanın sözü olmasın, Gülsabah deyir ki, nə qədər ki, oğurluqla balıq tutursan, lap qədim yunanların dəniz allahı Poseydon da olsan, sənə gəlməyəcəyəm. Xudanəkərdə, başına bir iş gəlsə deyəcəklər "cinayət başında öldü". Həmişə əlim ürəyimin üstündə, gözüm dənizdə... bu sözləri nişannım Gülsabah deyir ey.

İlahə qız:

– Əcəb ağıllı qızdır sevgilin. Qəşəngdir?

Mərdan:

– Könül sevən məsələsi.

İlahə qız:

– Sözsüz.

Mərdan:

– Bir də ki, mən bu əlavə ömrümdə hər cür bihesablıqla kəlləláşəcəyəm. Nöşün ki, haqsızlıqla kəlləláşmək çətinlərin çətinidir, məqsədlərin məqsədidir, niyyətlərin niyyətidir.

SƏDM əməkdaşı Mərdana:

– Gözlə, başın yarılar.

İlahə qız əməkdaşa:

– Polada, qranitə, yerində, haqlı kəllə vurulsa yarılmaya-

caq, pambıq və ya ot tayasına haqsız, lüzumsuz vurulan kəllə yarılacaq. (Mərdana) Qızıllarını özünə qaytarıram, götür.

Büllur zal, hər şey çəhrayılaşır. İlahə qız, ovcunda çəhrayı həb...

– Buyur, balıqçı oğlan!

Mərdan həyəcan içində çəhrayı həbi İlahə qızın çəhrayı ovcundan titrək barmaqlarıyla götürüb udur. O dəqiqəcə hər şeyə, hər yerə, hər üzə çəhrayı rəng çökür.

İlahə qız:

– Balıqçı Əşrəf, irəli!

Qapqara saçlarına təkəm-seyrək dən düşmüş, enlikürək, pələnggöz... şirbilək balıqçı sanki gözəgörünməz qanadlarla sehrli İlahə qızın hüzuruna gəlir. Ona ümidlə, ümidsizliklə, anlaşılmazlıq və və... ehtirasla baxır. Əşrəf də əlindəki ağ torbanı qızın önündə cingildədir və qızın işarəsiylə torbanın ağzını açıb qızılları yerə tökür.

İlahə qız:

– Bəli, bu qızılların bahasına on illik ömür həbi düşür. Hə, imtahan götürən müəllim demişkən, əsaslandır görək: su söndürməyən, od yandırmayan, bıçaq kəsməyən, güllə batmayan, cərəyan keçirməyən, sanksiya, hökm, tapşırıq, xəbərdarlıq, bütün dərəcələrdə töhmət təsir etməyən bu əlavə – zirehli ömründən necə istifadə edəcəksən?

Əşrəf:

– Dənizə lap arxayın, lap qorxusuz çıxacağam. Daha böyük, daha güclü dalğalara davam gətirən, yaşıl dərinliklər üçün etibarlı (balığın çoxu və əlası dərində olur) gəmi bağlatdıracağam. (Üzünü SƏDM əməkdaşlarına tutur). Bu qan soranlardan heç qorxmayacağam. Əlavə ömrümün son saniyəsinədək möhürlü, ixtiyarlı, paqonlu, sanksiyalı – hazırın naziri olan, ortada yeyib qıraqda gəzən (qıraqda gəzsə eybi yox), adamın gözünün odunu ala-ala adamın gözünün içinə mey-

dan oxuyanları, Sovet hökumətinin inanıb etibar etdiyi bu atasından, anasından bixəbərləri harda gördüm, bir-bir tutub dənləyəcəyəm. Qanun "keşikçiləri"! Sizin lap...

İlahə qız:

– Ucuz, qeyri-bərabər, qəfil, namərd qisasçılıqdan, toxunulmazlıqdan, zavalsızlıqdan sui-istifadə, filosoflar demişkən, qeyri-obyektivlik, xüsusən də ki, qudurğanlıq... ömür həbinin kimyasına, cövhərinə... daxil deyil.

Əşrəf:

– Arxayın ol! Mən qudurğan olmamışam, ola da bilmərəm. Nöşün ki, qudurğan gedib quyruğunu buzlu suya salmaz. Nöşün ki, Sovet hökuməti qudurğanın ciyərini gec-tez kürəyinin ortasından çəkib çıxarır. Sovet hökuməti, baxıb görürsən ki, adama inanır, bəli, inanır, qaldırır, qaldırır, baxır... baxır, qaldırır, axırda görür ki, yox, olmadı, qaldırdığı adam başladı hey... hey... qudurmağa (lənkəranlı burda deyərdi "qudurmaya"), həmən o qaldırılan uca nöqtədən, mərtəbədən, pillədən həmən o quduran adamı başı üstə... gur-gurumbaz... dibi görünməyən uçurumun dibinə elə buraxır ki, olur: Fatihə! Mən də Əliqulu qədeş kimi balıqçılıq sovxozuna gedəcəyəm. Nöşün ki, hər nə qədər özümü igid və halal kimi qələmə versəm də, brakonyerlik qədəğəndir. Hökumətlə qoz-qoz oynamaq olmaz. Hər şey xalqın malı olsa da, yenə bu malın sahibi-ixtiyarı hökumətdir.

İlahə qız:

– Yığışdır qızıllarını doldur torbana!

Əşrəf:

– Nöş?

İlahə qız:

– Götür də.

Əşrəf:

– Bəs ömür həbini havayı verirsən?

İlahə qız:

– İstəsəm, havayı da.

Əşrəf:

– Bəs onda nə üçün sənin səsin lütün qulağına gəlmir?

İlahə qız:

– Lütdən Allah da bezardı, bəndə də. Lütün nəyini mühakimə edəcəksən, harasından yapışıb məhşər ayağına çəkəcəksən, nə üçün çəkəcəksən? Lütün hansı xeyirxahlığından söhbət açacaqsan? Elə bilirsən xeyirxahlıq və fədakarlıq üçün məqam, fürsət, risk, şərait, mənəvi bütövlük, cəsarət, qürrə (qürur yox, qürrə – özünə güvənmək), özünütəsdiq (samoutverjdenie) lazım deyil? Çox-çox lazımdır! Lüt bədbəxt evdən işə, işdən evə xəlvət küçələrlə gedib-gəlir ki, tanış-bilişə rast gəlməsin, tünlüyə, basabasa girmir ki, birinin qoluna toxunar, qatığını dağıdar...

Əşrəf:

– Deməli, sənin səsin kimlərin ki, qulağına çatmır – onlar lüt və bədbəxtdir? Deməli, yüz minlərlə, on minlərlə vətəndaş – uşaqlı-böyüklü, cavanlı-qocalı, oğlanlı-qızlı, arvadlı-kişili məxluq – halal zəhmətlə yaşayan kütlə bədbəxtdir, nə ətdir, nə balıq? Ay nağıl qız, ağ olmadı bu?

İlahə qız:

– Yox, ağ olmadı bu. Alimlər təcrübəni bağlı, qapalı laboratoriyalarda aparır, kütlədən (hətta mütəxəssislər dəstəsindən) gizli... Yalnız nəticəni (hər nəticəni də yox) kütləyə elan edir. Hər kimyəvi reaksiyaya baş qoşulmur, hər cücərti müşahidə edilmir, hər heyvan üzərində instinkt, refleks xarakterli – cərrahiyəli müşahidə aparılmır. Hər insan orqanizmi təbabət aləminin heyrətinə səbəb olmur. Sınaq üçün, eksperiment üçün, nəticəyə gəlmək üçün, qənaət hasil etmək üçün xüsusilikdən ümumiliyə, təkdən çoxa gedib çıxmaq lazımdır. Məsələn, mənim səsim tutaq ki, ticarət işçisinin qulağına niyə

gəlsin? Onun gəlir mənbəyi məlum, siçovul təbiəti aşkar. Hər kimi də aparıb o işə qoysan elə olacaq. Əgər işdi, şayəd, elə olmaq istəməyən bir zati-ali tapılsa, ondan ticarət işçisi "olmaz". Göz qabağındakı yara hər nə qədər lükküldəsə də, təlqini cəhətdən o, sənə qorxulu (əslində qorxulu olsa da) gəlmir, çünki sən onu görürsən və lap elə sağaldırsan da. Gündüz gündüzdü, aşkar aşkardı, açıq açıqdı. Hünər gözə görünməyən illəti aşkar etməkdir. Babaların, ataların, oğulların qan tökə-tökə, oddan-alovdan keçə-keçə yaratdığı bizim bu təkrarsız cəmiyyətimizin canlı, dipdiri hüceyrələrini öldürən mikroblarla mübarizə deməkdir – ömür həbləri! Baş kəsəndə də insafı, mürvəti yaddan çıxarmayanlara, vicdanını, qeyrətini, abır-həyasını tapdalamayanlara qiymət deməkdir – ömür həbləri. Mənim səsim çox vacib nöqtələrdə dayanan cəmiyyətimizin bünövrə kərpicləri – qırmızı kərpicləri sayılan adamların qulağına gələcək... Yoxsa taksi sürücüsünün, nə bilim alverçi Raziyyənin qulağına mənim səsim niyə gəlsin? Hanı onların bir torba qızılı ki, mən də soruşum: "Bunları necə qazanmısınız?" Bu nöqtədə Raziyyələr, taksi sürücüləri, su, kvas, dondurma, meyvə-tərəvəz satanlar və sair xırda-mırdalar (düzdür, böyük də xırdadan əmələ gəlir) ilk mübarizə hədəfi olmamalıdır. Bu nöqtədə "asandan çətinə", "sadədən murəkkəbə" əhvalatı tamamilə əksinə olmalıdır. Qızılı məhək daşına sürtürlər: olur ya hə, ya da yox. Qara metala-dəmirə nə məhək? Şübhə doğuran şeyi yoxlayarlar ki, həqiqət aşkar olsun. Ömür həbi məhəkdir, balıqçı Əşrəf! Ən vacib nöqtələrdə, ən mürəkkəb ayrıclarda dayananlar – sağlamlığımız, təlim-tərbiyəmiz, ali təhsilimiz, hüquq və asayişimiz, konstitusiya və məcəllələrimiz etibar edilən şəxslər (bütün sahələr üzrə məs`ullar) rüşvət qızıllarla, bilmir ki, daha nə alsın, neynəsin, hansı kefə baxsın? Qalıb ömür həbləri. "Kişilər" bu həbi də alsalar, udsalar hər şey olur ca-bə-ca –

yerbəyer. Mənim səsim qarşı-qarşıya dayanan fövqəladə pislərin, qeyri-adi yaxşıların qulağına çatacaq. Elə-belə pis adam, yaxşı adam, halal, haram təzə söhbət deyil. Səməd Vurğun demişkən "bu saat, bu dəm..." rüşvət Azərbaycan Sovet Sosialist Respublikasını ağzına alıb gedir, taun kimi yayılır. Ömür həbləri möcüzəli bir dərmandır. Kiminə mükafatdır, bəxşişdir, qızılları da özünə qaytarılmaq şərtiylə. Kiminə də cəzalar cəzasıdır, qızılları da müsadirə edilmək şərtiylə.

Əşrəf (fikirli, dalğın, zərifləşmiş, ziyalılaşmış halda):

– Başa düşdüm, nağıl qız, başa düşdüm. Məni fövqəladə yaxşılardan hesab etdiyin üçün sənə baş əyirəm. Məni ayıltdın. Mənim özümü özümə tanıtdın. Ancaq, gör bu aləm nə günə qalıb ki, brakonyer Əşrəf fövqəladə yaxşı sayılır, nə var, nə var, qanunsuz da olsa, cinayət də olsa, çörəyini kişi kimi qazanır, özünə qaytarılan qızılları dalğalarla döyüşə-döyüşə qazanır. Adiliyin heyrət doğurması dəhşətdir.

İlahə qız:

– Bəli, kişi kimi.

Əşrəf:

– Nağıl qız, o qədər məni dərinə çəkdin ki, hüsnü-camalın, gül əndamın yadımdan çıxdı. Mən həyasız deyiləm, ola da bilmərəm. Sehrin qabağında nə naxallıq? İcazə ver, səni qucaqlayım, öpüm, lap belə alım səni, nə olar?

İlahə qız:

– İrəli gəl.

Əşrəf lap irəli çıxır. Büllur zal mavilik içində üzür. Maviyə boyanmış İlahə qız mavi ovcunun içindəki mavi ömür həbini Əşrəfə verir:

– Al, nuş elə bu mavi iksiri, izn verirəm, sonra məni öp, qucaqla, evlənməyimiz barədə də fikirləşərik.

Əşrəf həbi İlahə qızın titrək, mavi barmaqları arasından alıb udur. Dənizin içində rəqs edən qayalar mavi karusel kimi

fırlanmağa başlayır. Karuselin ortasında büllur zal, zalın içində SƏDM əməkdaşları, brakonyerlər (Səttardan başqa) və İlahə qız süzür. Mahnı:

Dəniz mavi, qaya mavi, biz mavi,
Bu mavilik ümmanında üz, mavi.
Mavi həblə dolan mavi, gəz mavi,
Mavi sapa mavi arzu düz mavi,
Xəyal mavi, fikir mavi, söz mavi,
Ey bu mavi uydurmadan bəhs açan!
Həqiqətlər maviləşər bəs haçan?

Əşrəf qollarını açıb İlahə qızı qucaqlayıb dodaqlarını dodaqlarına sıxır... lakin qollar havadan asılı qalır, dodaqlar boşluğa dirənir, mavillik də, büllur zal da, İlahə qız da yox olur, ətrafı zülmət bürüyür.

* * *

Dəniz zülmətdə seçilmir, ancaq səsi gəlir. Çox cüzi bir işartı, zəif şüa fonunda rəqs edən qayalar. Adama elə gəlir ki, qayalar sahildə yox, suyun ortasındadır, özü də hərəkətdədir. Külək qalxır, dalğalar güclənir. Üç əməkdaş, üç brakonyer qayaların üstündədir, külək onları bükür, açır, burum-burum burur. Dənizdən bir qadın əli çıxır... Əldə əl fanarı... Kişilər vahimə içində çığırışır... Fanardan üzlərə, sifətlərə aydın işıq düşür. Əməkdaşlar da, balıqçılar da tir-tir əsir. Fanar üzləri işıqlaşdırdıqca səslənir. Səs toxuculuq kombinatının növbə rəisi, SSRİ Ali Sovetinin deputatı Aludə xanımın səsidir. Aludə xanımın səsi:

– Ey balıqçı Əliqulu, Mərdan, Əşrəf, siz asudəsiniz, gedə bilərsiniz. Haqqı nahaqdan ayırmaq işinə elə birinci dəfə sov-

xozdan başlayın.

Adamlar:

– Axı, necə oldu büllur zal, bu səs nağıl qızın səsi deyil. Heç fanar da danışar? Bayaqdan bizə bir qur`an söz deyən, ömür həbi bəxş edən, üstəlik qızıllarımızı da özümüzə qaytaran o ceyran qızın səsi hara, əl fanarından gələn yaşlı qadın səsi hara? (Bunu balıqçılar deyir).

Aludə xanımın səsi:

– Yadınızdan çıxmamalıydı ki, sizi çağıran səslər, gözünüzə görünən surətlər şərtidir, nisbidir, zahiridir, dəyişəndir. Siz mahiyyətə və məqsədə, cövhərə və məğzə fikir verin. Hə, balıqçılar, siz asudəsiniz, gedin!

Əliqulu:

– Necə yəni "gedin"!? Bizi ələ salırsan, ey səs?

Əşrəf:

– Biz heç bilirsən hardayıq, ey səda!

Mərdan:

– Dənizin ortası, dalğalar göyə qalxır, qayaların oyuqlarında, yarıqlarında su burum-burum burulur, göz-gözü görmür, bir o tək əldəki fanarın nazik işığından başqa. İndi suya düşənin bir tikəsi heç bir aydan sonra da ələ gəlməz.

Aludə xanımın səsi:

– Qorxmayın. Sizə heç bir şeyin dəxli yoxdur. Ömür həbləri hər üçünüzü qeyri-adiləşdirib... ölümsüzləşdirib.

Əliqulu:

– Uşaqlar, atıldıq ey suya.

* * *

Sosialist Əmlakını Dağıdanlarla Mübarizə (SƏDM) şöbəsinin rəisi mayor Məhərrəm Məhərrəmov:

– Bəs biz?

Aludə xanımın səsi:

– Siz özünüz bilərsiniz. Bacarırsınızsa üzün, çıxın gedin. Ancaq hələ ömür həbinə layiq görülmədiyiniz üçün bu dəli-divanə, bu zülmət dəryada sizin təhlükəsizliyinizə zəmanət verilə bilməz.

Rəis:

– Yəni ömür həbinə layiq görülməyə də... bilərik? Axı, biz bura ömür həbi almaq üçün çağırılmışıq. Bura qulağımıza gələn səsin cazibəsiylə istiqamətlənmişik. Ömür həbi-zad istəmirik. Torbalarımızı da götürün, şərait yaradın, çıxıb gedək.

Aludə xanımın səsi:

– Rüşvət?!

Rəis:

– Rüşvət niyə? Eşitdiyimiz sədanın diqtəsiylə, ömür həblərinin "alqı-satqı" şərtinə müvafiq olaraq məzəndəni gətirmişik də.

Külək beş dəfə artıq güclənir, dalğalar beş dəfə artıq şahə qalxır. SƏDM əməkdaşlarının qorxu və təlaşı, həyəcanı beş dəfə artıq çoxalır. Aludə xanımın səsi kəsilir, fanar tutan qadın əli fanar qarışıq gözdən itir... Lakin nə tufan, nə qayaların üstündən gurultuyla belədən-belə aşan dalğalar əməkdaşları saman kimi süpürüb, qov kimi götürüb suya ata bilmir. Çünki onların çiyinlərindəki, vicdanlarındakı günahlar o qədər ağırlıq salıb ki... bu ağırlıq altında ayaqları topuqdan yuxarı qranit qayalara işləyib... sarı palçığa asanlıqla pərçim olubmuş kimi pərçimlənib qalıb. Təbiət ilk dəfədir ki, öz əliylə öz yaratdığının ayaqlarına qandal vurur. Daş qandallar! Külək bu qandalların "həlqələrinə" dolduqca, qandallar danışır. Gah kəlmə-kəlmə danışır, gah anlaşılmaz sözlər deyir, gah küləyin əks səmtinə tutulan yüzlərlə boş butulka ağzının çıxardığı səs kimi səs çıxarır.

* * *

Danışan qayalar pərakəndəliyi... Aralıqda Qırmızı guşəni[1] xatırladan bir otaq. Burada qırmızı rəng, qırmızı işıq hökm sürür... Qırmızı örtüklü stol arxasında SSRİ Ali Sovetinin deputatı, yaxasında nişan Aludə xanım əyləşib. O, xalq hakimi həddindədir, pozasındadır, təkcə iclasçılar çatışmır.

Aludə xanım:

– Milis mayoru Məhərrəm Məhərrəmov, irəli!

Mayor adi, gündəlik formada yox, lap rəsmi keçid (paradnaya forma) geyimindədir. Paqonlarındakı, papağının hörmə qaytanlarındakı, kokardasındakı zər, qırmızı rəng qırmızı işıq fonunda təlqinedici görünür. O, irəli çıxır. Aludə xanımın qarşısında dayanır, əlindəki ağ torbanın ipini bir qədər əsəbi açır. Hiss ediləcək dərəcədə saymazlıq... və həyəcanla torbadakıları qırmızı örtüklü stolun üstünə əndərir. Mahud parça cingiltini udsa da, boğsa da, qızıllar qırmızı işıqda parıldayır. Bu qorxunc parıltı qaranlıqda, dəmir yol keçidində biri yanıb, biri sönən qırmızı işıq siqnallarını xatırladır... "xəbərdar, qatar gəlir!"

Aludə xanım qızılları diqqətlə, nifrətlə, qəzəblə süzür, xəyalında sürətlə sayır:

– Bəli, siz bu qızıllara on beş illik ömür həbi ala bilərsiniz.

Məhərrəmov:

– "Ala bilərsiniz niyə?", elə alırıq də. Haçandır burada avara olub qalmışıq.

O biri əməkdaşlar da qurcalanır, Aludə xanıma eşitdirir:

– Hə də, hə də, yoldaş mayorla haqq-hesabı qurtarın ki, bizə də növbə çatsın, həb payımızı alıb gedək işimizə-gücümüzə.

Əməkdaşlardan biri o birisinə:

---

[1]Sovet dövrü bütün idarə və təşkilatlarda olan siyasi xarakterli otaq.

– Əə, pay niyə? Cingildəyə-cingildəyə sarı veririk ey... Mən ölüm, “pay”a bax. Bir torba qızıla, qan bahasına...

Aludə xanım replika verir:

– Düzdür, qan bahasına, qandan daha artıq vicdan bahasına.

Əməkdaşlar:

– Canım, nə qan? Nə vicdan?

Aludə xanım:

– Yaxşı, siz də gətirin torbalarınızı.

Əməkdaşlar da torbalarını açıb qızıllarını qırmızı örtüklü stolun üstünə əndərirlər.

Aludə xanım:

– Sizin də hər birinizə on beş illik ömür həbi düşür. Rəisinizdən heç də az zəhmət çəkməmişsiniz... Özünüzü heç də ondan az oda-közə vurmamısınız...

Əməkdaşlar Aludə xanımın sözündəki istehzanı, səsindəki qəzəbi başa düşməyərək və ya başa düşmək istəməyərək:

– Çox düzgün buyurursunuz və elə isə çürüdün bizimlə haqq-hesabı.

Rəis Məhərrəmov (əməkdaşlara):

– Əvvəla, hövsələli, təmkinli olun. İkincisi, bura bazar deyil. Üçüncüsü, kiçik rütbə elə milisdə də hərbidəki kimidir. Çəkilin kənara!

Aludə xanım tez-tez qızılları ovuclayıb buğda dənələri kimi barmaqları arasında süzür.

Rəis:

– Siz bu qızıllarla “Sim-sim, qapınını aç” deyən Əlibaba kimi əylənirsiniz. Oyuncaqla əylənərlər, qızılla əylənəməzlər, qızılla uçub qonarlar ala ulduza.

Aludə xanım:

– Bəs siz burada nə gəzirsiniz? Bu qədər qızılınız ola-ola...

Əməkdaşlardan biri:

– Olmadı ki...

Aludə xanım Məhərrəmova:

– Yaxşı, deyin görək, bu qızılları nə yolla, necə qazanmısınız?

Məhərrəmov əlini cibinə salır, plombir çıxarır. Plombir ovuc içində, barmaqlar arasında sürtülməkdən par-par parıldayır.

– Baxın, bu yolla – bu plombirlə möhürləmək, başını bağlamaq yoluyla qazanmışıq. Sexləri, anbarları, mağazaları, bazaları, kafe, bufet, qəlyanaltı və restoranları, nəyi və haranı istəsək möhürləmək yoluyla qazanmışıq. Kimin və haranın, üzr istəyirəm, zibili yoxdur ki?! Hər kimin də ki, zibilini aşkar etmişik, həmən zibil dönüb qızıla, axıb cibimizə. Zibili qızıla döndərən ictimai kimyaya, cövhərə, aşqara əhsən!

Aludə xanım:

– Bəs dəniz?

Məhərrəmov:

– Əlbəttə, dənizin qıfılı yox, açarı yox, qapısı, pəncərəsi yox, balığın sayı yox, fakturası yox. Biz brakonyerlərin balıq ovu ləvazimatını sənədləşdirib müsadirə edir, özlərini cinayət başında yaxalayır və ovlarını aktla, protokolla dövlətə təhvil veririk, özlərini də məsuliyyətə cəlb edirik.

Aludə xanım:

– Məsələn, indi burdan gedən brakonyerlər barədə nə kimi tədbir görmüsünüz?

Məhərrəmov:

– Siz onları himayəniz altına alıb, havayı ömür həbi verəndən sonra, üstəlik qızıllarını da özlərinə qaytarandan sonra, üstəlik ovsun oxuyub onları sağ-salamat sahilə ötürəndən sonra biz nə tədbir görə bilərdik?

Aludə xanım:

– Keçməz! Heç olmazsa özünüzü gicgici boşboğaz kimi də... gözdən salmayın, mayor Məhərrəmov!

Məhərrəmov qəzəblə Aludə xanımın üstünə yerimək istəyir, bədəni silkələnir... ayaqları qayaya işləyib.

– Qızılları necə qazanmısınız? Pul yox ey, qızıl. Qızıl saxlamağın ayrıca maddəsi var.

Məhərrəmov:

– Bura məhkəmədir?

Aludə xanım:

– Siz məhkəmə sayırsınız? Prokuror tanıyırsınız? Raykom, şəhərkom, MK bilirsiniz? Çəkinsəniz, çəkinsəniz ola bilər ki, hər ehtimala qarşı bir balaca DTK-dan çəkinərsiniz.

Məhərrəmov istehza və qeyzlə:

– Bir də sizin bu Fantomas pəstahınızdan, İnkir-Minkir hoqqanızdan. Sizin nə ixtiyarınız var yaxanıza SSRİ Ali Sovetinin deputatı nişanını taxıb, gecəyarı, dəryanın ortasında, qayaların oyuğunda orqan işçilərini sehrli, işgəncəli tələyə salıb mühakimə edəsiniz?

Üç nəfər SƏDM əməkdaşı çırpınıb Aludə xanımı dağımdağım etmək istəyir. Danışan qayalar onları elə buxovlamayıb ki, tərpənə bilsinlər.

Aludə xanım:

– Məhərrəmov, tutaq ki, ticarətdə işləyib əliəyrilik, oğurluq etsən, mən buna dözərəm. Hökumətin daşını, kərpicini, taxta-şalbanını, hər növ az tapılan, çox tapılan tikinti, sənaye materialını xımır-xımır yesən, həm Vətəndə hazırlanan, həm valyuta ilə, yəni qızılla xaricdən alınan texnikasını dağıdıb zay etsən, hərraca qoysan... dözərəm. Rüşvətlə mənzil orderi, notarius sənədi versən, dözərəm. Rüşvətlə bağ, ev yeri, həyətyanı sahə, minik maşını, vəzifə, daha nə bilim nə versən, yenə dözərəm...

Danışan qayalar səslənir:

Min cürə rəzalətə,
Min cürə cinayətə,

Min cürə azğınlığa,
Min cürə pozğunluğa
Özümüzə haqq verib,
Haqqı çox nahaqq verib
Dözərəm, ay dözərəm.

Dalğalar qayaları döyəcləyir və deyir: "Dözərəm ay, dözərəm ay, dözərəm". Əksinə, qayalar şillələndikcə deyir: "Dözmərəm ay, dözmərəm".

Əməkdaşlar (xorla Aludə xanıma):

– Necə yəni "dözərəm"? Bütün sovet vətəndaşlarının borcudur ki, əliəyriləri, oğruları, kommunist əxlaqının hər cür antipodlarını ifşa etsin. Siz isə – SSRİ Ali Sovetinin deputatı bu qədər cinayətə dözür, göz yumursunuz və ya bu fikirdəsiniz?

* * *

...Oğurluq mallarla yüklənmiş maşınlar SƏDM əməkdaşlarının gözlərinin içindən keçir... Gözlər qoşa qapılı darvazaya oxşayır. Maşınlar bir qapıdan girir, o biri qapıdan çıxır. Əslində qanuni, vaxtında möhürlənmiş, lakin rüşvətdən sonra möhürü qırılıb qeyri-qanuni açılmış neçə-neçə anbar, sex qapısı nəhəng əllər kimi əməkdaşların üzünü mis səsi verən şillələrlə şillələyir. Sexlərdə "solaxayı" (levıy) istehsal edilən parçalar kəfənə çevrilib əməkdaşlara sarınır. Sonra ağ parçalar açılır, zil qara parçalar onların bədəninə bürünüb əməkdaşları qara kabuslara döndərir. Sonra qara parçalar açılır, qıpqırmızı parçalar alov dillərinə dönüb onları yalayır. Əməkdaşlar yana-yana, başılovlu özlərini söndürməyə su axtarırlar. Dəniz görünür – qapqara, vahiməli, dalğalı dəniz. SƏDM əməkdaşları dənizə atılır. Həm zərif, həm də qüvvətli bir əl öz canının hayına qalan mayor Məhərrəmovun boğazından yapışır. Rəis dəhşətə gəlir.

Məhərrəmov:

– Vay, dədə, su pərisi! Kömək edin, bu saat çəkib məni aparacaq dərinliyə.

"Su pərisi":

– Naçannik, dərinlik lazım deyil, elə bura da dərindir. Ancaq səhvin var, mən su pərisi deyiləm, bilirsən kiməm mən?

Məhərrəmov:

– Kimsən?

"Su pərisi":

– Üstüaçıq bazara gedən yolun üstündə balaca bir qarışıq mallar mağazası vardı, bəlkə indi də var...

Məhərrəmov:

– Hə, nə olsun, boğuldum, burax, sahilə çıxım, fikirləşib yadıma salım o mağazanı.

"Su pərisi":

– Səni boğulmağa qoymayacağam. Elə burada fikirləş, yadına sal.

Məhərrəmov:

– Hə, hə, yadıma düşdü... ...nömrəli mağaza. Orada yeyinti, çatışmazlıq olduğuna görə, hər dəfə təftişin aşkar etdiyi mənimsəmə, əyər-əskik ört-basdır edildiyinə görə, solaxay (levıy) mal tutulduğuna görə bir neçə ay bundan əvvəl həmən mağazanı plomblamış, müdirini məhkəməyə vermişdim. Deyəsən, o, beş il iş aldı. Hə, nə olsun, məni niyə dərinliyə dartırsan, su pərisi?! Boğuluram, sahilə dönək.

"Su pərisi":

– Yalan deyirsən, naçannik, məsələ burasındadır ki, səni o mağazaya cəlb eləyən mən olmuşdum, mən. Mən sənin toruna düşən mağaza müdirinin arvadıyam. Təzə toy eləmişdik. O, gündüz işləyir, axşam oxuyurdu. Mən də maliyyə-kredit texnikumunu təzə bitirmişdim. İxtisasım üzrə hələ iş tapa

bilməmişdim, bekar idim, gəlib ərimə kömək edirdim. Hər halda profilim ticarətlə, əmtəə və sairlə əlaqədar idi. Sən təsadüfən mağazaya girdin, elə-belə... hətta adi, mülki paltarda. Məni gördün, görən kimi də, elə bil bədəninə cərəyan buraxdılar. Əhvalat da buradan başladı. Doğrudan da, axı mən gözələm, özü də təzə gəlin... Səndə nə günah, naçannik!

"Su pərisi" Məhərrəmovu qucaqlayır. Rəis suitiyə toxunurmuş kimi çimçəşir. Su pərisi sifətdən olduqca gözəldir və eynən mağaza müdiri arvadının surətidir. "Su pərisi" Məhərrəmovu bir qədər də dərinliyə çəkir. Dalğalar qara həyula kimi ağ dişlərini rəisə qıcıyır. "Su pərisi" onu yarımcan etsə də, nəfəsini kəsilməyə qoymur, əqlini, şüurunu, huşunu qətiyyən uçurmur.

– Hə, naçannik, bir mənə baxdın, bir ərimə baxdın... başa düşdün ki, sən girən kol deyil. Bir şey hiss eləsə, ərim səni pişik balası kimi boğar. Bir də... mənim öz ismətimə nə gəlmişdi ki! Elə hamı sürüşkən olmaz ki... Sən həssas adamsan, naçannik, başa düşdün ki, mən sənin kimisinin əllisini ərimin dırnağına dəyişən-zad deyiləm. O harada yazılıb ki, gözəl həmişə xain, kifir həmişə sadiq olmalıdır? Nə isə, keçdin ayrı varianta. Mağazanı qurdaladın, qurdaladın, bəli, zibil də tapdın. Əməliyyatının nəticəsi tamamilə doğru çıxdı, ərimi basdılar dama.

Məhərrəmov:

– Bizdə "dam" yoxdur, "spetsizolyator" (xüsusi təcridxana) var, islah-əmək düşərgəsi var.

"Su pərisi":

– Ana qurban sənin o zərif canına. Nə yaxşı, nə münasib yer tapmısan nəzakətli olmağa, naçannik? Ancaq, bilirsən bu saat sən nə üçün dəryanın qoynunda və mənim pəncəmdəsən?

"Su pərisi" ağzından od püskürən yeddibaşlı əjdahaya çevrilir. Məhərrəmov ölüb-dirilir.

Əjdaha:

– Onun üçün ki, sən həmən qarışıq mallar mağazasını dövlət mənafeyi barədən... yoxlamadın, mağaza müdirini dövlət mənafeyi barədən məsuliyyətə cəlb etmədin. Mən – mağaza müdirinin gəlin arvadı sənə təslim olsaydım, hər şeyi ört-basdır edəcəkdin; ehtirasın sönənə kimi. Ondan sonra ərimi həm sarıqulaq, həm də oğru sifətində noxtalayacaqdın. Yenə hökumətə xəbər verməyəcəkdin; bir şey qoparıb, gedib girişəcəkdin başqasına. Sənin hökumətə, dövlət və xalq əmlakına, xalqın özünə (xalqa bax ey, xalq...) ürəyin yanmır, çünki ürəyin yoxdur.

Mənzərə dəyişir. Su pərisi, əjdaha, dənizin ortası yox olur. Sahildən aralı danışan qayalar labirintində Kapitan Nemonun sarayını xatırladan həmən zal. Dənizin nəriltisi artıb, gecənin zülməti qatılaşıb. Yenə Aludə xanım, SƏDM rəisi və iki əməkdaş.

* * *

Aludə xanım Məhərrəmova:

– Siz dilimdən çıxan “dözərəm” sözündən özünüzü bilməməzliyə vurub yapışmayın. Siz soruşun ki, əgər filan, filan şeylərə dözərəmsə, bəs nəyə dözmərəm? Mən dözmərəm qanun keşiyində dayanan adamın, oraq-çəkicli, qırmızı bayraqlı dövlət, hökumət nümayəndəsinin cibgirliyinə. Mən dözmərəm müsadirə edilmiş oğurluq mallar hesabına, oğrudan oğurlamaq hesabına, bax, bu torba-torba qızılı yığmağa! Siz oğrudan, cibgirdən, qarətçidən (brakonyer toya getməlidir) ona görə iyrənc və parazitsiniz ki, heç bir riskə getmədən, bilavasitə (birbaşa) heç bir təhlükə qarşısında qalmadan rahat-rahat, həyasız-həyasız duru yerindən aparırsınız, ey əlində qanun qılıncı oynadanlar!

Əməkdaşlar:

– Bu sözlər ancaq yoldaş rəisə aiddir, yoxsa?

Aludə xanım:

– Hamımıza aiddir, qızıllılar! Sizin biriniz deyin, aylıq maaşınız neçədir?

Əməkdaş Hətəm:

– Əlimizə təmiz gəlir 163 manat 40 qəpik.

Aludə xanım susur...

Əməkdaş Hətəm:

– Niyə susdunuz, ey qeyri-adi hakim? Bu pula altı baş ailəni saxlaya bilərsiniz? Nağılda demirəm, həyatda!

Aludə xanım:

– Lazımdırmı altı baş ailənin bu şəkildə yaşamağı? Sizin cinayətdən çıxan haram tikəniz neçə-neçə "altıbaş"ları zay edib, edir. Gecəyarı şəhərin, ictimai mühitin, camaatın, hər bir vətəndaşın asayişi, rahatlığı, təhlükəsizliyi etibar edilən gecə milisi əgər qətiyyən sərxoş olmayan, öz yoluyla gedən, ağzından cüzi spirt qoxusu gələn (ola bilər də) fağır, mədəni bir yoldaşı zorla yaxalayıb, yerə yıxıb, pal-paltarını toz-torpağa sürtüb, onu əməlli-başlı səfil-sərxoş kökünə salıb, döyə-döyə ayıltma məntəqəsinə aparıb, ciblərini soyursa, üstəlik iş yerinə də yazıb onu rüsvay edirsə... Əgər gecə milisi qadınla, qızla gedən bir kişinin, gəncin yanında maşını əyləyib, qəsdən həmən adama cavabsız buraxıla bilməyən söz deməklə onu təbdən çıxarıb əlbəyaxaya çəkirsə, sonra maşına basıb aparıb başına "qanunla" min əndərbəla gətirirsə və belə-belə şeylərdən çıxardığı çörəklə altı baş ailə saxlayırsa, saxlamasa yaxşıdır. (Məhərrəmova) Deyək ki, şəxsən sənə on illik ömür həbi satdım. Əlavə, ölüm-itimsiz ömrünün ərzində neynəyəcəksən?

Məhərrəmov:

– Necə deyərlər, anbarlarda siçan-siçovul tələsi güdməkdən əl çəkəcəyəm. Ümumiyyətlə, lap elə xüsusiyyətlə marığa

yatmaqdan, pusduqa dayanmaqdan, qapı-pəncərə plomblamaqdan əl götürəcəyəm və... keçəcəyəm mərdi-mərdanə işə, maraqlı işə, birbaşa kişilik, risk, cəsarət, şəxsi fədakarlıq tələb edən işə – UQRO-ya – cinayət axtaran şöbəyə. Arxayın olandan sonra ki, mənə heç bir qırma-barıt, qurşun, baltanın həm küpü, həm ağzı, ling, daş, ağac, rels parçası, zəhər, it dişi, xəncər, bıçaq, beş-barmaq kar eləməyəcək, bəli, girişəcəyəm qətliqarətçilərə, ən ağır canilərə və ən ağır şəraitdə, ən təhlükəli vəziyyətdə. Yüngüllərini, çaqqal-çuqqallarını, bəzən heç taqsırı olmayanlarını ilişdirib, soyub buraxacağam. Beləliklə, ömür həblərinin gücünə mürəkkəb, mühüm, Ümumittifaq əhəmiyyətli əməliyyatlardan qalib və sağ-salamat çıxa-çıxa adımı, şöhrətimi qaldıracağam ala ulduza, uçan boşqablardan biri ala ulduza enib, məni götürüb məchul planetlərdən birinə qonaq aparacaq. Hər əməliyyatdan sonra, hər qanlı-qansız cinayətin üstünü açandan sonra milisin bütün instansiyalarında deyəcəklər: "Sağ ol!" Deyəcəm: "Borcumuzdur". Deyəcəklər: "Borc öz yerində, ancaq siz hər dəfə canınızdan keçirsiniz, yoldaş Məhərrəm Məhərrəmov". Deyəcəyəm, rəsmi təzimlə deyəcəyəm: "Borcumuzdur". Ömür həblərinin sehriylə, şəkilləri küçələrə vurulan "osobıy opasnıy pristupnik"ləri çox rahat dənləyə-dənləyə rütbələr, nişanlar, fərmanlar, üstü yazılı qızıl qol saatı, zərif, yaraşıqlı (imennoy) tapança alacağam. Pul mükafatlarından imtina edib (ayıb deyilmi) başımı utana-utana aşağı salacağam. Heç bir əlaqədar və qeyri-əlaqədar təşkilatdan çəkinmədən, heç bir... yoldaşdan-filandan çəkinmədən, tüpürməyim gələndə "bığla saqqal" arasında gir-girinc olmadan yaşayacağam, alnıaçıq, üzüağ...

Aludə xanım əməkdaşlara:

– Siz necə? Siz ömür həbi alandan sonra neynəyəcəksiniz?

Onlar:

– Biz də elə. Yəni biz yoldaş mayordan ağıllıyıq ki, çoxbil-

mişik ki, başqa şey fikirləşək? Nə üçün də fikirləşək. Razılıq versə, yenə də təzə şöbədə onunla birgə işlərik. Xüsusilə, biz də rəisimiz kimi yaşayacağıq, ömür həbi alandan sonra.

Aludə xanım (çılğınlıqla):

– Yox, yox, yox! Siz yaşamayacaqsınız! Heç cür, heç bir variantda yaşamayacaqsınız! Nə cismən, nə mənən! Nə ömür həbiylə, nə qeyri-ömür həbiylə! Sizlərdən biri mənə Fantomas dedi, yəni müasir elmi-texniki tərəqqi əsrinin sehrkarı, cadugəri! Ələ saldı məni, lap yaxşı. Çoxdankı qənaətim idi: ağır cinayətə görə ağır cəzanı hökmən camaatın gözü qabağında vermək lazımdır ki, adamlar öz gözləriylə görsün, inansın ki, filankəs cəzasına çatdı və başqalarına da ibrət dərsi olsun. Bu gün çoxları Ali məhkəmənin çıxardığı ölüm hökmünün icrasına, yerinə yetirilməsinə şübhə edir. Bilirəm ki, quruluşumuzun, sosialist cəmiyyətimizin baş xətti – humanizm idealı – belə şeylərə, orta əsr inkviziyası vəhşiliyinə yol vermir. Fəqət, indi ki, mən sehrkaram, nağılam, Fantomasam – Sovet hökumətinin humanist qanunlarını pozmaq məsuliyyətini öz üzərimə götürmək şərtiylə elə buradaca, istədiyim kimi cəzalandıracağam sizi!

Aludə xanımın yaxasındakı deputat bayrağı qaranlıqda bir parça üfüq qızartısına oxşayır.

– Mən – Aludə xanım, SSRİ Ali Sovetinin deputatı, toxuculuq kombinatının növbə rəisi bütün Sovet xalqı adından, Sovet Hökuməti adından, onu (hökuməti) quranların, qoruyanların, uğrunda həlak olanların adından və öz adımdan hökm oxuyuram:

"Qanunun bir nömrəli, rəsmi səlahiyyətli, dəm-dəsgahlı, silahlı keşikçisi olduğu halda... onu alt-üst edən üç nəfər SƏDM əməkdaşı əllərində qızıl torbaları tutduqları vəziyyətdə bu – danışan qayaların üstündə təpədən-dırnağa, çiyin-çiyinə daşa dönsünlər! Qeyd: torbalardakı qızıl heç bir kimyəvi-fiziki

dəyişikliyə uğramadan öz kəmiyyətində və keyfiyyətində qalsın! Qalsın, necə bir əşyayi-dəlil! Qızıllar sehrləndiyinə görə heç kəsə “nə yoğurdum, nə yapdım, hazırca kökə tapdım” mənasında qismət olmayacaq!

Yenə qeyd: Saçından dırnağınacan daşa dönəcək bu adamların yalnız gözləri canlı qalsın! Daş içində dipdiri gözlər! Tamaşa üçün qalsın! O gözlər nə yaşarsın, nə sulansın, nə qırpılsın! O gözləri kiçicik qum zərrəsi də zədələməsin! O gözlərin içinə tüpürmək qəti qadağan edilsin. O gözlər baxmalıdır! O gözlərə baxılmalıdır!

Sübh açılır... Danışan qayalarda üç daş insan silueti görünür.

* * *

Xəstəxana... Cərrahiyyə şöbəsi... Təkərli xərəkdə ağır xəstə... Kor bağırsaq iltihabı – appendisit (peritanit təhlükəsi həddində)... İki nəfər şəfqət bacısı təlaş içindədir. Onlar xərəyə ağır-ağır, əclafanə bir soyuqqanlıqla yaxınlaşan cərrah həkimə deyirlər.

Birinci bacı:

– Doktor, tez olun, ləngiməyin!

Doktor İnsafsızov:

– Bəs xəstənin sahibi, adamı niyə görünmür, ləngiyir, yubanır?

İkinci bacı:

– Adamı yubandı, yubanmadı, nə dəxli var? Siz yubanmayın, siz! Bəlkə binəvanının heç kimi, kimsənəsi yoxdur. Necə yəni “adamı”, adamı siz, biz, vicdanımız!

İnsafsızov:

– Xəstə bıçaq altında, stol üstündə getsə, sizin vicdanınızın verəcəyi iltizam (raspiska) etibarlı sayılarmı?

Birinci bacı:

– Xəstə cərrah bıçağı altında yox, sizin qurd nəfsinizin bıçağı altında gedəsidir – bir çox başqaları kimi.

İnsafsızov:

– Mən sizi məhkəməyə verərəm.

İkinci bacı:

– Cəllad! Xəstənin adamına bax ey... Böyük xalq oğlu, doktor Nəriman Nərimanovun şərəfli adını daşıyan institutun şərəfsiz məzunu!

İnsafsızov:

– Siz siyasi səhv buraxırsınız.

Xəstə zarıyır. Başqa bir həkim – doktor Babatzadə İnsafsızova yaxınlaşır və ona deyir:

– Doktor Amansız, bəlkə siz həyəcanlısınız, yorğunsunuz; izn verin xəstəni mən kəsim, ölür ey.

İnsafsızov:

– Adamı gəlməsə, dilindən kağız verməsə (beş barmağını açır) mümkün deyil. Ölər, qalar üstümdə.

Doktor Babatzadə:

– Üstünüzdə bilmirəm, vicdanınızda hökmən qalacaq. Əgər xəstə tibbi müdaxiləsiz ölsə! Məsuliyyəti üzərimə götürürəm (şəfqət bacılarına tələsik göstərişlər verir).

* * *

Xəstə xilas edilir. Babatzadə İnsafsızovun qoluna girir.

Babatzadə:

– Doktor, bu dərəcədə olmaz axı, ucdantutma hamıdan ummazlar ki, istəməzlər ki, almazlar ki! Demirəm, alma!

İnsafsızov:

– Bəs, nə deyirsən?

Babatzadə:

– Deyirəm ki, bəlkə birinin mümkünü, kimsəsi yoxdur, canı da əldən gedir, belə olduqda, gərək nəfsini basıb, xəstəyə kömək əlini uzadasan. Nə qədər tamahkar, acgöz, qəddar olsaq da, üstümüzdə adımız var axı. Həkim! Həkim güllə altında yatanı da (xəstədirsə) müalicə etməyə borcludur.

İnsafsızov:

– Çağrılmış bayatılar... Sən almırsan?

Babatzadə:

– Alıram, gətirib özü verəndən alıram. Hər gətirəndən də yox! Hər yüngül müalicə üçün də yox! Bir də mən vicdanımın qarşısında, səninlə müqayisədə ona görə babatam ki, mən xəstəni sağaldandan sonra alıram, naz eləyə-eləyə, gətirib VERƏN şəxsi ərklə məzəmmət eləyə-eləyə alıram. Ancaq, daha sənin kimi yox də! Necə yeyirsən o yığdığını? Doğrudan da, elə İnsafsızovsan ki, İnsafsızov!

Doktor İnsafsızov:

– Hər kəs öz işini yaxşı bilir.

Doktor Babatzadə:

– Yox, Amansız, (Amansız İnsafsızovun adıdır), elə bəla burasındadır ki, sən öz işini yaxşı bilmirsən, gec-tez ən ağır cəzaya boyun əyməli olacaqsan.

Şəfqət bacılarının müdaxiləsi:

– Belələrini indiyə kimi ifşa etmədiyimizə görə bizə daha ağır cəza verilməlidir.

– Bunlar boş sözdür, ritorikadır. (İnsafsızova) Çıxart xalatını!

İnsafsızov:

– Mən sizi məhkəməyə çəkə bilərəm, siz nə ixtiyarla, hansı subordinasiya ilə (rəsmiyyət və səlahiyyət dairəsində "böyük-kiçik" əhvalatı) mənimlə bu pərdədə, bu zildə danışırsınız? Siz çıxarın xalatlarınızı. Hələlik xalatlarınızı!!!

* * *

Hava təzəcə qaralır. İnsafsızov və Babatzadə xəstəxanadan çıxıb gedirlər. İlk yol ayrıcında biri sağa burulur, biri sola... bu burulhaburulda Babatzadə:

– Yox, həmkar, net, kolleqa, sən yüz faiz cəhənnəmliksən. Xilas üçün, təmizlənmək üçün, geriyə dönmək üçün nə sap boyda cığır, nə çöp boyda körpü qoyubsan.

İnsafsızov:

– Ətəyində namaz qılınası pak-pakizə vücuduna qurban, artist! Allah sənə artistlik verib, mənə verməyib, neynəyim? Bil ki, aktyorluq səhnədə sənətdirsə, artislik həyatda tülkülükdür. Mahiyyətcə – tülküylə canavarın arasında – səninlə mənim aramda heç bir fərq yoxdur. Canavar da yırtır, tülkü də sökür. Nə sən kələm xırtıldadansan, nə mən kələm ot-ələf göyşüyənəm, doktor Babatzadə, di, xudahafiz!

* * *

Birdən-birə, yəni həkimlərin biri sağa, biri sola dönən kimi yerlərindəcə donub qalırlar. Onların qulağına səs gəlir. Bu məqamda İnsafsızov və Babatzadə biri-birini görmür, biri digərinin qulağına gələn səsi eşitmir. Açıq havada simsiz-teleqrafsız, adamsız-zadsız sənə kəlmə-kəlmə, aydın-amiranə, nüfuzedici imla deyilsin, özü də bilməyəsən deyən kimdir? Həkimlər kiçik çillədə, qarlı gecədə, xəlvət dərədə canavar əhatəsindəki adam vəziyyətindədir. İnsafsızovun qulağına gələn səs Şeyx Nəsrullahın səsidir. Babatzadənin qulağına gələn səs isə Abbas Səhhətin səsidir.

Şeyx Nəsrullahın səsi:

– Həkim Amansız İnsafsızov, məni yaxşı eşidirsiniz?

İnsafsızov?

– Bəli, fəqət, ancaq, lakin siz kimsiniz?

Şeyxin səsi:

– Mən Şeyx Nəsrullaham, Şeyx cənabları.

İnsafsızov (xof  içində):

– Nə Şeyx cənabları?

Şeyxin səsi:

– "Nə" yox, "kim"! İkincisi, Mirzə Cəlil deyəndə ağzınıza çullu dovşan yerləşmir, niyə tanımırsan məni? Savadın yoxdur? Yüz ildir elə hey məni ifşa edirsiniz. Mənəm də! Mən... Kefli İsgəndər... Nazlı... Mir Bağır ağa... Şeyx Əhməd...

İnsafsızov:

– Tanıdım. Bu nə deməkdir? Sən yüz il əvvəl səhnədə yaranmış şərti surət idin, uydurma bir əhvalat idin, dövranını sürüb getdin, indi sən necə şeyx ola bilərsən və məni hardan tanıya bilərsən? Mənim çox nadir olan familimi haradan bilə bilərsən?

Şeyxin səsi:

– Mən səhnəyə həyatdan gəlmişəm, qətiyyən şərti deyiləm. Görürəm ki, bu quruluşun, bu inkişafın, bu mədəniyyətin, bu rifahın, bu hüquqların... fonunda mən çox bəsit, primitiv, sadəlövh, "naivnıy", cılız və zəifəm, gülüncəm. Əə... nə Şeyx Nəsrullah, əə?! Sənin kimi İnsafsızovların yanında mən kiməm?

... İstehzalı qəhqəhələr...

– İnsafsızov, xülasə, sənə xobəxtlik üz verir, qorxma, yığ torbaya qızıllarını, gəl ömür həbi almağa. Gecəyarı gəl! Sahilə yaxın bağlarda bir hamam var. Şeyxlərin vaxtında abad idi... İnsafsızlovların vaxtında xaraba... Xaraba, qeyri-xaraba. Gəlməlisən ora. Orada görüşərik. Mənim səsim səni gözü yumulu, öz iradəndən asılı olmayaraq qəmərilər (lunatik) kimi xaraba hamama gətirib çıxaracaqdır.

İnsafsızov:

– Axı sən... axı mən qara basmağa, qallüsinasiyaya inanmıram, mən cərraham. Ömür həbi! Hə, hə, eşitmişəm, yaxşı şeydir. Ancaq onu almaq məcburidirmi? Ey səs, ey səda sahibi, cavab ver, gözə görün! (onun qulağına radioqəbuledicidən gələn kimi uğultulu, fıştırıqlı, xırıltılı səslər gəlir).

* * *

Babatzadə səs eşidir, eşitdikcə sehrlənir. Həqiqət, qeyri-həqiqət, zaman, məkan, ölü, diri, şərtilik, qeyri-şərtilik anlayışları onun beynində, təsəvvüründə biri-birinə qarışır – xaos.

Abbas Səhhətin səsi:

– Doktor Üzüyola Toyagetməli oğlu Babatzadə.

Babatzadə:

– Buyur, ağa, insaflı olanda da adamı lağa qoyurlar. Məşədi İbad demişkən, mənim atamın adını haradan bilirsən? Sən kimsən?

Abbas Səhhətin səsi:

– Mən Abbas Səhhət – Abbasqulu Molla Əliabbas oğlu Mehdizadəyəm.

Babatzadə:

– Necə? Abbas Səhhət?

Od tutub qırmızı atəşlə yenə yandı üfüq,
Şəfəqin qırmızı rəngiylə işıqlandı üfüq.

Həmən Abbas Səhhət? Böyük Sabirin böyük dostu Abbas Səhhət?

Abbas Səhhətin səsi:

– Elədir ki, var, özüdür ki, var. Doktor Üzüyola, gərək onu da soruşaydın ki, 1918-ci ildə Gəncə qəzasında, Gəncənin özündə millət yatalaqdan tut kimi töküləndə... canını bu

millətin xilası yolunda fəda eləyən, simvolik bir məzarı qalan, ya qalmayan Abbas Səhhət? Səsimi eşidirsənsə, özünü xoşbəxt bil! Sahil bağlarındakı xərabə hamamda görüşənədək.

Babatzadə:

– Dəhşət, möcüzə! Altmış il əvvəl ölən siz, bu dəqiqə necə danışa bilərsiniz?

Səhhətin səsi:

– Səs göylərə yazılır.

Babatzadə:

– Niyə məni vahiməli yerə, gecə yarı, kimsəsiz bağlar içindəki uçuq hamama çağırırsınız? Şərtilik şərtilikdirsə, məsələn, gül kimi Lenin adına sarayda görüşək də. Xalqımızın, öz doğma xalqımızın oğlanları ilə tanış olarsınız: geyimli-kecimli, səxavət kanı, dürr mə`dəni. O zaman boynu qalstuklu bəlkə də tək siz idiniz. İndi isə aləm! Lenin sarayındakı tədbirlərin tənəffüslərində spirtli içkidən başqa, lap bülbül dilindən hazırlanmış tava kababından tutmuş hər cür yeməklər – buterbrodlar, qutablar, yüksək keyfiyyətli ağartı məhsulları, şirniyyat və məzəli içkilər, şirələr, əla növ tütün məmulatı, yüksək mətbəə səviyyəsində buraxılmış kitablar satılır. Xalqımızın oğul və qızları bilirsiniz nə şövqlə şiru edir bu ləziz, bayırda heç tapılmayan və ya az tapılan nemətlərə! Niyə, kitab da alan olur. Bir qismi elə həqiqətən kitabsevər kimi, bir qismi kitabı alır seviztək şkafa düzməkdən ötrü, bir qismi də acığınnan.

Səhhətin səsi:

– Acığından?

Babatzadə:

– Bəli, elə bu stollar üstündəki yeməklərə də camaatın bir qismi acından yox, acığından girişir. Çünki bütün qapıları bağlayıb tədbirin axırınadək bir nəfəri saraydan qırağa buraxmırlar. Ləzgi demişkən, ulmaz! Gedək Lenin adına saraya, orada

sizə qanacağım dairəsində hörmət edərəm. Elə bilirəm ki, çıxıb getmək istəyəndə də "ulmaz!"ın sizə dəxli olmaz. Müstəsnalıq, istisnalıq üçün, fövqəladəlik üçün bu müasir tikintidə hər şey nəzərə alınıb. Möhtərəm həmkar, doktor Abbas Səhhət, Lenin adına sarayı qoyub, niyə uçuq hamamda görüşək?

Səhhətin səsi:

– Yox, elə uçuq hamam, gecəyarı! Xof, vahimə özü insanı ayıldan, silkələyən, xəlbirləyən, ona döyünən ürəyi, hissi-həyəcanı qaytaran amildir. Xovf (xof) mənən kirəc bağlamış damarları... üfürüb təmizləyən yüksək təzyiqli axındır. Nə üçün sərxoş qorxu, xof, vahimə bilmir? Çünki gözü də, beyni də, sinir dəsgahı da dumanlıdır. Xof, qarabasma, qayibanə səs – bütün bunlar profilaktik tədbirlərdir, əlbəttə, qənaətimə görə; bəlkə mənim qənaətim, təsəvvürüm köhnəlib? Bəlkə yuxarıda dediklərim sizin bu real, sərt, işgüzar, pərdəsi götürülmüş dünyanızda "bəbə", "inqə-inqə"... söhbətidir? Mən Lenin adına sarayda ruhən, mənən olmuşam. Nəsiminin bayramında oradaydım. Belə təntənə altı yüz ildə bir dəfə olur. Sizin günlərin namidar şairi Səməd Vurğunun təvəllüd dəsgahında da oradaydım – Lenin adına sarayda. Bu möhtəşəm, incə zövqlə tikilmiş bina da gözəldir, burada keçirilən dünyəvi, Azərbaycanı dünyaya tanıdan tədbirlər də, məclislər də əladır, böyük sənət sahiblərinə verilən qiymət də qiyamətdir. Lenin adına saraya cəm olan camaatın şəxsində xalqımın çox-çox irəliyə getməsi də, tərəqqi naminə hər barədən yüksəlişi də gözəldir. Elə bunlar böyük Sabirin, məhzun Hadinin və mənim arzum, diləyim deyildimi? Bəs necə? Ey həmkar Üzüyola Babatzadə! Təkrar edirəm, saydıqlarımın hamısı gözəldir. Ancaq bir şeydən başqa... Nə isə. Bu bir şeyin isə nədən ibarət olduğunu Lenin sarayı kimi işıqlı, gur, qorxusuz-ürküsüz bir yerdə deyə bilməyəcəyəm. Xülasə, sənə xoşbəxtlik üz verib. Təlqinin qüdrətiylə sənə ömür həbi satacağam.

Babatzadə:
– Zorla?
Səhhətin səsi:
– "Satacağam" – bu hələ mənim şəxsi fikrimdir. Ömür həbinin dəyərini ödəməkdən əlavə, ona layiq də görülməlisən.
Babatzadə:
– Bəlkə heç mənim pulum yoxdur, layiq oldum-olmadım; hələ zor qalsın bir kənara, havayı verəcəksiniz?
Səhhətin səsi:
– Pulun (xalis qızılın) olmasaydı, səsim qulağına çatmazdı. (Səhhətin səsi burada itir).

* * *

Gecənin bir aləmi. Doktor İnsafsızov sahil bağlarının arasıyla yüz yerə burulan cığırlarla gedir. O, qəmərilər kimi, yəni aylı gecələrdə yuxulu-yuxulu, pişik keçə bilməyən yerlərdə yeriyən ruhi xəstələr kimi yeriyir. Yox, o, qəməri-filan deyil, o, akustik (səs) impulslarla idarə olunur. Həkim bir qədər də gedəndən sonra günbəzləri ağaran qədim hamamı görür. Uçuqzad da deyil. Amansız (həkimin adı) hamama lap yaxınlaşanda qulağına açıq-aşkar zurna-qaval, balaban, klarnet, qaboy, tar, kamança, piano, kanon, akkordion, gitara, qarmon səsləri gəlir və bu ətraf yerlərin birində dünyaya gəlmiş, bu gün elə həqqən dəbdə olan xanəndə Məmmədbağır Bağırzadə oxuyur:

Nəbiyəm, Koroğluyam,
Azərbaycan oğluyam.

İnsafsızovun fikri bir anlığa (qəssab piy hayında, keçi can hayında olduğuna baxmayaraq) Moskva-80, bütün dünyanı

heyrətdə qoyan, sovet hökumətinin və xalqının başını ucalardan ucalara ucaldan yay olimpiya oyunlarına gedir. Bəs nə üçün gecə-gündüz Dədə Qorqudun, Babəkin, Nəsiminin, Xətainin, Koroğlunun, Nəbinin, Həzinin, Mehdinin adlarını hər saat saqqız kimi çeynəyən oğullarımızdan, diş qurdalamaqdan ötrü bir nəfər tapılmadı ki, heç olmasa allahın at çapmağında, ox atmağında çempion olsun? Bunlar ki, bizim qədim, milli, ənənəvi oyunlarımız, igidliklərimizdir! Naxçıvanlılar demişkən: Bə nə oldu? Bu haylı-küylü, dostlu-düşmənli dünyəvi tədbir məgər qəflətən idi, təsadüfi idi? "Koroğlular", "Babəklər", "Nəbilər" və respublika idman haqq-hesablarının şefi aləmdən xəbərsiz idilər? Hara baxırdılar?

Qaqarin kosmosa uçanda, təbiidir ki, camaat heyrətdən, həyəcandan, fərəhdən bir-birinə qarışmışdı. Bir nəfər bir nəfərə yaxınlaşıb astaca xəbər alır:

– Nə olub belə?

– Əşşi, necə yəni "nə olub", kosmosa, göyün yeddinci qatına adam uçub. Özü də bizim adam! Sən də soruşursan ki, "nə olub?"

– Vallah, mən Montindəydim, ona görə xəbərim olmayıb.

Bəli, məhz bu "Koroğlular", "Babəklər", "Nəbilər" "Montində" olduqları üçün, Azərbaycan xalqı televiziya ekranlarında Olimpiya oyunlarını barmağını sora-sora izlədi, izlədi, gözlədi... Xeyr a!.. Sabir elə Sabirdi:

Qonşu sorur barmağının kirini...

...İnsafsızov daxili monoloqunu bitirəndən sonra yenə musiqi sədalarına, xanəndə avazına, çal-çağıra daldı. Fikirləşdi ki, əcəba, bu nə həngamədi bu gecəyarı, bu kimsəsiz yerdə? Hamamın içində keyfə baxan bu adamlar kimdir? Axı mən buralarda nə gəzirəm, nə ömür həbi? Müasir, sentiment olmaqdan uzaq, real adamam, həkiməm, elmliyəm, nə üçün

qulağıma gələn bir səsin, qeyri-real bir təlqinin əsiri olub düşmüşəm bu bərri-biyabana?! Yəni geri qayıda bilmərəm?

Həkim geri dönmək istəyirkən... qüvvətli bir hava axını yenə onun yönünü xaraba hamama tərəf çevirir. İnsafsızovun əlində çox əntiqə, çox bahalı, üstü ziqiymət qaş-daşlarla rövnəqlənmiş, üç qapaqlı qızıl podsiqar bərq vurur, qaranlığa şəfəq saçır. İnsafsızov düşünür ki, heç rəvadır aparıb nəğd sərvətini – məhz sərvətini (malını yox, mal ucuz səslənir) aparıb verəsən nisyə söhbətə?! Ömür həbi nədir, əə? Düşüb camaatın dilinə-ağzına. Bilmirəm bu, qazdan ayıq hökumətin gözü-qulağı haradadır? İşi-gücü xalxın əlini, cibini güdməkdir; əsl psixoloji, əxlaqi, ideoloji diversiya isə qalıb bir yanda. (əlindəki podsiqara baxır) Əsl ömür həbi elə budur.

Nuri-çeşmanımmısan,
Ey pul, ya canımmısan?!

Vallah, mən ədəbiyyatçı deyiləm, ancaq nə isə... Sabir müəyyən mənada Nizamidən də, Füzulidən də böyükdür.

İnsafsızov hamamın qapısına çatar-çatmaz, başı əmmaməli, beli qursaqlı, biləyində təsbeh, əlində Qur`an Şeyx Nəsrullah cənabları onu qarşılayıb qoluna girir, içəri çəkir...

Şeyx:

– Doktor, xoş gəlib, şəfa gətiribsiniz. Buyurun, buyurun!

İnsafsızov diqqətlə Şeyxə baxır: yox ey, elə əsl Şeyxənadır ki, var. Gözünü açandan bəri səhnədə gördüyü Şeyx. Ancaq, bu Şeyxin dili, danışıq tərzi çox aydındır, sadədir və müasirdir.

– Doktor Amansız, buyurun, sizi gözləyirik.

İnsafsızov:

– "Gözləyirik", yoxsa gözləyirəm?

Şeyx:

– Gözləyirik, gözləyirik.

* * *

Sahil bağlarındakı hamamın içi. Hər şey göz qamaşdırır. Altıkünclü büllur hovuza büllur fəvvarə tökülür. Şeyx Nəsrullah xəli-xalçayla yaraşıqlanmış taxt üstündə bardaş qurub. İnsafsızov Şeyxlə üzbəüzdür (ayaq üstə). Şeyxə yaxınlaşmaq istəyir, amma tərpənə bilmir. Hovuzun dövrəsində şıdırğı rəqs. Əcaib işıq fonunda əcaib insan fiqurları atılıb düşür. Həmən fiqurların bəziləri İnsafsızovun lap burnunun ucunda hərlənir, hərləndikcə də sifətləri, üzlərinin cizgiləri, baxışlarının fərdiyyəti aydınlaşır, konkretləşir.

Fiqur:

– Doktor, mənəm də! Ayaqqabı fabriki yandı ha, mən də yananlardandım ey! Özü də sağalmağa ən ümidlisi, ən çox şansı olan idim. Elə məhz sən də bunu bildiyinə görə başladın tibbi yardımı “sürtməyə”. Başladın “Adamı gəlsin, belə eliyək, yiyəsi gəlsin, elə eliyək”. Mənim də şəhərdə adamım nə gəzirdi? Uzaq rayondan gəlib girmişdim texniki peşə məktəbinə, oradan da fabrikə. Fabrikin direktoru ya canının dərdindən, ya yazığı gəldiyinə görə dedi ki, Qiyasın adamı elə mən, ay doktor! Məhəl qoymadın. Direktor səni söydü, hədələdi. Sən də onu “diversant” adlandırdın. Bəlkə də diversant idi. Nə isə. Acığa düşdün, neynədin, neynəmədin... məni öldürdün ara yerdə. Düzdür, elələri vardı ki, elə fabrikin içində, o gözgörəsi cəhənnəmdə kitabları bağlandı. Ancaq sənin insafın olsaydı, mən ölməzdim. Sənə nə verə bilərdim, nə və nə üçün verməliydim? Sağaldaydın da məni, qoymayaydın öləydim; cavan oğlandım.

İnsafsızov (qeyri-ixtiyari, hövlündən rusca):

– Ojoq vtoroy stepeni, perexodom v tretiy. Koneçno mojet bıt mojno bılo çto-to predprinimat. Necə yəni “qoymayaydın ölüm”? Məgər sən ölüsən?

Qiyas qorxunc bir skelətə çevrilib şaraqqa-şuruqla İnsafsızovun qabağında müdhiş hərəkətlər göstərir. Bütün fiqurlar skelətə çevrilib "Fəridə" rəqsinin ahənginə uyur. Dairə İnsafsızovun dövrəsində daralıb genəldikcə, rəqs şıdırğılaşdıqca, işıqlar rəngdən-rəngə düşüb əcaibləşdikcə İnsafsızov dəli olur. O eşidibmiş ki, adamı qara basanda "bismillah" deməlidir. "Bismillah" köməyə gəlmir. İnsafsızov bərkdən, yırtıcı bağırtısıyla "rədd olun" deyib qızıl podsiqarı skeletlərə tuşlayır. Dəhşətli bir qəhqəhə... Bu, Şeyx Nəsrullahın qəhqəsidir.

Şeyx Nəsrullah:

– Doktor, niyə xoflanırsan? Niyə bu zavallılara atəş açmaq istəyirsən? Özü də nədən? Qızıl podsiqardan! Sənin öz pasientlərin – xəstələrindi bunlar. Yazıqları bir yol həmən əlində parlayan o qızıl, pul, mal-dövlət tamahıyla öldürdüyün bəs deyilmiş, indi də skeletlərinə divan tutmaq, şəhid ruhlarını məhv etmək istəyirsən? Sən öldürdün, mən diriltdim. Sən həkim ola-ola, Sovet həkimi ola-ola, öz quruluşunuzun adamı ola-ola, kommunizm eşqiylə istehsalatın, zəhmətin, elmin bütün sahələrində fanatik bir inamla can qoyanları rüşvət vermədiklərinə görə də yox, vermək imkanları olmadığına görə candan edirsən. Mən isə feodalizmin, fanatizm və xurafat, zülm, zülmət, nadanlıq dünyasının tipik, yırtıcı nümayəndəsi ola-ola, hər cür rəzil fırıldaqlarımda belə yenə də müsbət emosiyaya əl atmışdım. Gözü bağlıların, avamların ölüsünü diriltmək vədiylə, həyata qaytara bilmək föhşü ilə, gözbağlıcası ilə zühur etmişdim. Donuq aləmə həyat, dirilik, yaşamaq vəlvələsi salmışdım. "Ölülər" karnavalı, devizi hər halda diri öldürmək yox, ölü diriltmək idi, doktor İnsafsızov! Yoxsa dirigözlü adamı qəsdən müalicə etməyib öldürmək?!

İnsafsızov:

– Sən fırıldaqdın. Ölü dirilməz, diri ölər.

Şeyx:

– Ölüm haqdır, həkimin cəlladlığı nahaqdır. Ver əlindəki qaş-daşlı podsiqarı! Onun müqabilində sənə beş illik ömür həbi düşür – maddi cəhətdən təminatın var.

İnsafsızov:

– Mənə ömür həbi lazım deyil. Elə bu da ölü diriltmək kimi bir fırıldaqdır. Kimin günü-güzəranı əladırsa, keyfi kökdürsə, neyniyir ömür həbini? Dünyanın da ki, dərdi-bəlası, azar-bezarı, əcəli-mayallağı, yenə Sabir demişkən, kasibi-bədbəxti qoyub dövlətlidən yapışmaz! Kasıbdan allah da, halalca arvadı da bezardır. Elə bilirsən bu şaqqa-şuruqla hay-küy salan skeletlərə mən baisəm?

Skeletlər həkimin dövrəsində dairəni daraldır və xorla:

– Sən baissən!

– Sən günahkarsan!

– Sən canisən!

– Qanımız batdı!

– Hələ neçə-neçə qan batacaq...

Bir skelet o birilərindən ayrılıb irəli çıxır, üzünü gah Şeyxə, gah həkimə tutur:

– Şeyxəna, mən onilliyi qızıl medalla qurtarmışdım. Cəmi-cümlətanı bircə fəndən qəbul imtahanı verib, "beş" alıb, Politexnik İnstitutuna qəbul olunub, tələbə vəsiqəmi alıb cibimə qoyub, arxayın-arxayın, sevinc və həyəcan içində sentyabrın birini gözləyirdim.

Skeletin sözünü qeyzlə yarımçıq qoyan İnsafsızov:

– Skelet bala, sən o qızıl medalı mənim başıma qaxılan rüşvətsiz almışdın? İnsafsızov olsam da, insafım var. Sənin biliyin, ümumi səviyyən həqiqətən qızıl medallıq idi, adamın allahı var. (üzünü Şeyx Nəsrullaha tutur.) Ancaq kimdi bunu qiymətləndirən? İstəsəydilər, səni yüz yerdə dolaşdırıb heç adi attestat da verməzdilər. Atan əlini cibinə saldı, beş bu podsiqar dəyərində maya qoydu. Atan əslində əlini öz cibinəmi

saldı? Xeyr, başqalarının cibinə saldı, başqaları da başqalarının, o başqaları da başqalarının...

* * *

Hamamın içində İnsafsızovun, Şeyx Nəsrullahın, skeletlərin gözündə altı kadr canlanır.

Birinci kadr:

Orta məktəbi qızıl medalla bitirmiş skelet oğlanın atası (medal ərəfəsində) partiya, sovet, həmkarlar, inzibati, nəzarət və yuxarı mətbuat təşkilatlarındakı əlaqədar yoldaşlarla görüşür, pıçıldaşır, sağollaşır. (Pantomima)

İkinci kadr:

– Skeletin atası məktəb direktorunun evində, kabinetində görünür, onunla görüşür, pıçıldaşır, sağollaşır. (Pantomima)

Üçüncü kadr:

– Skeletin atası maarif şöbəsi müdiriylə həm idarəsində, həm evində görüşür, pıçıldaşır, sağollaşır. (Pantomima)

Dördüncü kadr:

Skeletin atası yazıdan imtahan aparan, yazı işlərini yoxlayan müəllimlə, assistentlə, bu nöqtədə əlavə kim lazımsa, onunla görüşür, pıçıldaşır, sağollaşır. (Pantomima)

Beşinci kadr:

– Skeletin atası Maarif nazirliyinin əlaqədar instansiyalarındakı məsul və nüfuzlu yoldaşlarla kabinetində, evdə, yasda, toyda, bağda, lap dağda, sanatoriyada, xəstəxanada (çünki bəzən məsul və nüfuzlu şəxslər "sezon" vaxtı özlərini xəstəliyə vurur) görüşür, pıçıldaşır, sağollaşır. (Pantomima)

Altıncı kadr:

Skeletin atası institutun qəbul komissiyasındakı şəxslərlə, rektorun "nümayəndəsiylə", imtahan veriləsi tək bircə fənnin xozeyinləriylə görüşür, pıçıldaşır, sağollaşır. (Pantomima)

Şeyx Nəsrullah (gözləri kəlləsində, İnsafsızova):
– Həmişə belə olur?
İnsafsızov:
– Xeyr, həmişə belə olmur. Görürsən ki, mində bir adamın bəxtinə böyük uduşlu, uğurlu lotereya bileti düşür...
Şeyx:
– Aydındır. Mən cücə plovu, bir qarın dadlı xörəyi aşkarda yeməmək üçün, adi adam olduğumu gizlətmək üçün Şeyx Əhmədlə əlli hoqqa çıxarıb – "Nə cücə plov?" – deyə-deyə yahu-fəryad qopara-qopara təbdən çıxırdım. Sizin isə qırmızı bayraqlı, oraqlı-çəkicli təzə dünyanızda, ilk Sosialist Dövlətinizdə, fəhlə-kəndli hökumətinizdə bütün bu əhvalatlar səhnəsiz, qrimsiz, butaforsuz, rekvizitsiz, sağdan-soldan tuşlanan, nizamlanan əlvan işıqlarsız BAŞ VERİR! Bəh... Bəh!!!
İnsafsızovun istehzalı təbirincə desək, skelet bala şaraqqa-şuruqla silkələnib tələb edir ki, ona qulaq assınlar və üzünü Şeyx cənablarına tutub sözünə davam edir:
– Atam kimə nə verib, nə qədər verib – bilmirdim. Mən həqiqi əlaçı idim.
Şeyx:
– Əlaçının qeyri-həqiqisi də olur?
Skelet bala:
– Olur, özü də əlasından.
Şeyx:
– Pisin də, saxtanın da, qeyri-həqiqinin də əlası olar?
Skelet bala:
– Olar!
Şeyx:
– Əla!
İnsafsızov:
– Əla!
Skeletlər (xorla):

– Əla!

Skelet bala (davam edir):

– Xalis qızıl medallıq idim. Söhbət bu dəqiqə bunda deyil.

Skeletin qapqara, qorxunc göz çuxurlarının yerində ağappaq, inci kimi, Qırmızı dənizin dibindən indicə çıxarılmış, (lənkəranlılar demişkən, "saf-sadığ") mirvari dənələri kimi göz yaşları qaynayır:

– Dedim ki, sentyabrın birini... auditoriyanı gözləyirdim. Küçəni keçərkən qəflətən məni maşın vurdu, gətirdilər bu doktorun işlədiyi xəstəxanaya. Təcili cərrahiyyə əməliyyatı tələb olunurdu ki, daxilə qanaxmanın qarşısı alınsın və mən ölməyim. Doktor sürtdü ki, sürtdü ki, adamın gəlsin, dilindən kağız versin. Bu dəqiqə səni kəsdim, olmadı belə, oldu elə, sonra? Mən taqətsizliyimdən heç həkimə cavab verə bilmədim. Mən tək idim, tək övlad, tək göz... Atama xəbər çatdı. Atam arif idi: bir əliylə verəndə, o biri əliylə alırdı. O, işini əvvəlcədən bərk tutdu. Həmən bu podsiqarı gətirib İnsafsızova verdi. Cərrahiyyə o dəqiqə başlandı. Lakin... gec idi... mən öldüm. Atam podsiqarı həkimdən geri istəmədi... Bu İnsafsızov mənim qatilimdir, Şeyxəna!

Skeletlər:

– Mənim də.

– Mənim də.

– Mənim də.

Sahil bağlarındakı hamamda bir vur-çatlasındır ki, gəl görəsən. Skeletlər Şeyx Nəsrullaha xitabən İnsafsızovun dövrəsində yallı gedə-gedə oxuyur:

Belə zülm olmaz axı,
Bir belə zillət, ya Şeyx!
Kaş avamlıqda qalaydı
Elə millət, ya Şeyx!

Etmərik əsla təəccüb,
Ala Allah rüşvət.
Yaraşarmı həkimin
Şəninə rüşvət, ya Şeyx?!

Gəlirin yoxdur, nolar[1],
Alma maşın, saxlama can[2].
Cızığından o yana
Eyləmə cürət, ya Şeyx!

Yemə yağlı, nə olar ki,
Maaşın azdı əyər.
Sadə ömr et, kişi ol!
Hökmüdü zinət? Ya Şeyx!

Nə alırsan, nə verirsən,
Yumuruq gözümüzü.
Kim görüb can ilə alver –
Belə vəhşət, ya Şeyx!

Qırmızı cəllada
Məxsus xələt rəngi ikən.
Geyinib cəlladımız
Qar kimi xəl`ət... ya Şeyx!

Həkimin caniyə yox haqqı
Soyuq baxmağa heç...
Qatilə – xəstəsə –
Göstərməli şəfqət, ya Şeyx!

---

[1] nə olar
[2] aşna

Bir tamah ucbatına
Sür-sümük olduq bir ovuc.
Neçin oldu belə tale
Bizə qismət, ya Şeyx!?

Qəbr evində başa düşdük ki,
Yox İnkir-Minkir.
Var, bu dünyada var hər şey...
Budu söhbət, ya Şeyx!

Şeyx Nəsrullah əlinin işarəsiylə rəqsi, musiqini, oxumağı dayandırır. Skeletlər müxtəlif əcaib-qəraib pozalarda donub qalırlar.

Şeyx Nəsrullah:

– Ölülər, sizin sözünüzdən belə çıxır ki, bu əyyam, bu dövr, bu quruluş, bu cəmiyyət dibi görünməyən qaranlıq uçurumdan, boşluqdan ibarətdir ki, orada iynə gözü boyda işıq ucu görünmür, heç bir insaf, mürüvvət, vicdan sahibi görünmür. Hamı, hamı, hamı İnsafsızovdur! Bütün həkimlər və xüsusən cərrahlar qatildir, rüşvət leylacıdır.

Skeletlərdən biri:

– Leylac, yəni azarkeş, "bolelşik".

Gülüşmə. Qəhqəhə. Bu qəhqəhələrdən hamam tağlarının suvağı əlçim-əlçim qopub tökülür. Bir suvaq, mala parçası İnsafsızovun başını yüngülcə zədələyir, sifətində nazik qan zolağı görünür. Şeyx sözünə davam edir:

– Yəni ehtiyacın oldu-olmadı, lazım gəldi-gəlmədi, rüşvət gərək alasan? Əslində, Nuh əyyamından tutmuş rüşvətə bəraət qazandıran heç bir qeyd-şərt olmayıb, yoxdur. Dünyaya gəldikdə o nə xalis pisdir, nə xalis yaxşıdır. Əz-on cümlə sizin dünyanız, quruluş və cəmiyyətiniz. Ola bilməz ki, hamı qansız İnsafsızov olsun.

Skeletlərdən biri:

– Yox, İnsafsızov qansız deyil. Baxın, doktorun başından əməlli-başlı qıpqırmızı qan axır. Yox, onun qanı var.

Şeyx Nəsrullah:

– Zarafata salmayın.

Skeletlərdən bir başqası:

– Şeyxəna, siz əməlli-başlı təbliğatçısınız ki... xarakterik və qeyri-xarakterik... tipik və qeyri-tipik əhvalatlar... qaranlıq və işıqlı cəhətlər... qara boyaların qatılaşdırılması... nailiyyətlərimizi görə bilməmək, görmək istəməmək. Bəli, sözünüzün canı budur də...

Şeyx:

– Xeyr, bu deyil. Sizin ələ sala-sala "təbliğat" dediyiniz mənada deyil. Tərəqqini, inkişafı, tarix təkərinin heç kimdən asılı olmadan həmişə irəli fırlanmasını ancaq naqisül əql, nadan və mənəvi kor inkar edə bilər. İnsafla danışmaq lazımdır, necə olur ki, o zülmət, cəhalət, nə bilim, nə... nə... aləmində, gözlərin kor, qulaqların kar, beyinlərin kif və küt vaxtında, qılıncımın dalı da, qabağı da kəsən bir mühitdə, Kefli İsgəndər kimi bir nəfər cəsarət və hünər, əql və bəsirət sahibi tapılıb mənimlə döş-döşə dayana bilir, sözünü deyə bilir, şələküləmi yığışdırıb gecəynən aradan çıxmağa məcbur edə bilir. Siz isə bu azad fikirli, azad sözlü aləmdə hər şeylə barışa-barışa qəbrə gedirsiniz? Yoxdurmu sizin öz İsgəndərləriniz?! Çoxdur! Lakin... Bax bu "lakin" məsələsinə gələndə mən pəs! O mətləbə idrakım, fəhmim, o nöqtəyə əlim çatmır.

* * *

Həmən hamam. Həmən şərait. Həmən tar-kaman, zurna qaval. Həmən skeletlər. Yalnız bir fərq var. Fərq budur ki, Şeyx Nəsrullahın yerində məktəbli Ümid dayanıb. Bu həmən

Ümiddir ki, çörək dükanındakı kişiliyinə görə ona ömür həbi bəxş edildi, üstündən daş dolu maşın keçdi, ölmədi.

Skeletlər:

– Şeyx necə oldu?

İnsafsızov:

– Nə canım qurtardı onun uzunçuluğundan. Bu uşaqla işimiz asan olacaq. Ancaq ondan ömür həbi verən olar? İşdi, şayəd, versə də, havayı verər?

Həkim birdən elə bil diksinir. "Bismillah" deyib Ümidə baxır və soruşmaq istəyir ki, bəs sən haradan göbələk kimi çıxdın? Bu dəm başına daş-kəsək yağır, çalğı alətləri mıxlı yeşik taxtalarına, çarpayı dəmirinə, paslı, dəlik-deşik ləyənə, tasa, vedrəyə, teştə çevrilir. Skeletlər at, eşşək, it, pişik sümüklərinə dönür və bütün bu util İnsafsızovun əl-ayağına batır, baş-gözünə çırpılır. Ümid bu xaosun içində aydın görünür. O, əlini havada gəzdirir, sehrin qüdrətiylə əvvəlki mənzərə bərpa olunur. Hamamın içində yenə altıkünc büllur fəvvarəli hovuz, musiqi, skeletlər (formaca skelet, məzmunca canlı adam). Ümid İnsafsızova başa salır ki, "bismillah" sözünü bir də fikrinə, dilinə gətirməsin. İnsafsızov dərk edir ki, o Şeyx də, bu uşaq da adi əhvalat deyil. Şeyx çox düz danışır, real düşünür, yaralı yerlərə toxunurdu. Bunlar öz yerində; yəni ömür həbi almaq məcburidir? "Məcburidir" sözünü İnsafsızov ürəyində yox, bərkdən deyir.

Ümid (uşağa yaraşmayan əda, amiranəlik və qətiyyətlə):

– Bəli, məcburidir. Keçmişdə hər kimin ki, yüz manat pulu vardısa, onun boynuna məcburi ziyarət düşürdü: Kərbəlaya, Məkkəyə, Xorasana.

İnsafsızov:

– Bah atonnan, əşşi keçmişin yüzlüyünün dəyərinə, alıcılıq qabiliyyətinə, bərəkətinə bax ey! İndi iki-üç xarici ölkəyə, xüsusən də kapitalist ölkələrinə atüstü turist putyovkası ilə getmək üçün heç bu podsiqar da kifayət eləməz.

O, podsiqarı əlində oynadır, qızıl qutu daş-qaşları ilə birgə bərq vurur. Birdən podsiqar həkimin əlindən çıxır. Havada qızıl qövs cıza-cıza Ümidin əlinə gəlir. İnsafsızov quruyub qalır. Bura sirkdir, nədir?

Ümid:

– Deyirlər ki, keçmişdə yaxşı atlar var imiş... O yaxşı atları yaxşı kişilər mindilər, getdilər... Bəli, o kişilər keçmişin yüzlüyü ilə ona görə ziyarətə getməliymişlər ki və gedirmişlər ki, o yüzlük əsasən halal imiş – ƏSASƏN. Bərəkətli imiş. (Bəs kişilər müqəddəs yerlərə özgə pulla heç gedərdilərmi?) O ki qaldı harama – o yüzlüklərin də içində haramı, lap it ətindən də haramı tapılırdı. Halal-haram anlayışı olub, var, olacaq da. Ancaq haramın bugünkü kimi gözgörəsi ayaq tutub yeriməsini görən olmayıb. Bu özüyeriyən (samoxodnıy) haram həyasız siçovullardır. Bu həyasız siçovullar ən mırnov pişikləri də vecinə almır. Nə pişik, adamı da saymır. Ona görə də sənin çox bahalı əntiqvarının nə alıcılıq qabiliyyəti var, nə bərəkəti. Ona görə ki, sən qorxa-qorxa, çəkinə-çəkinə, canına nuş olmaya-olmaya yeyirsən. Aşkara çıxanda isə sənin cəsarətin məhz iyrənc siçovul quduzluğuna bənzəyir.

İnsafsızov:

– A bala, məndən nə istəyirsən, tayım deyilsən, tuşum deyilsən. Ver podsiqarımı, çıxım gedim bu xarabadan.

Ümid:

– Podsiqarsız gedə bilməzsən?

İnsafsızov:

– Gedərəm, fəqət niyə gedim? Sənin üç qəpiklik yazıpozanın yadından çıxıb partanın üstündə qalanda yarı yoldan dalınca qayıdırsan. Mən niyə malımı qoyub gedim? Podsiqarı bəri elə görüm, küçük! Sən heç küçük də deyilsən, küçük belə hürməz: "alıcılıq qabiliyyəti", "ziyarət", "halal-haram", "kişilər", "sıçovullar"...

Ümid:

– Yaxşı, hələ bir təcrübə elə gör, bu hamamdan çölə çıxa bilərsən, ya yox?

İnsafsızov hara çevrilirsə, hara addım atmaq istəyirsə, skeletlərin barmaqları xəncər-bıçağa dönüb bədəninə sancılır. İnsafsızov qana boyana-boyana Ümidin qənşərinə gəlir. Ümid bircə hərəkətlə həkimin qanaxmasını kəsir. Gülə-gülə podsiqarı əlində oynadır.

Ümid:

– Bu podsiqara beş illik ömür həbi düşür. İrəli gəl, lap yanıma gəl, Amansız əmi!

İnsafsızov hərəkətə gəlib addımlaya bilmir.

Ümid:

– Yeriyə bilmirsən? Bu dəqiqə yeriyərsən. Unutma, burada sən mənim sehrli iradəmdən asılısan; kobudluğu, aqressivliyi qoy bir yana! (İnsafsızov irəli gəlir) Ancaq səninçin beş illik əlavə ömür azdır.

İnsafsızov:

– Ay bala, ay məktəbli, ay pioner, ay cin-şeytan, ay robot, ay elektromaqnit, ay bütöv və yarımkeçirici, mən heç beş günlük də əlavə ömür həbi istəmirəm. Nə qədər ömür edərəm, edərəm.

Ümid:

– Yox, sənə təmiz, insan kimi, vətəndaş və Sovet VƏTƏNDAŞI kimi, həkim müqəddəsliyi ilə yaşamaq üçün hökmən əlavə ömür həbi verilməlidir, daha doğrusu, satılmalıdır. Özü də beş illik yox, on beş illik. On beş illik həbin dəyərini isə bu podsiqar ödəyə bilmir.

İnsafsızov:

– Hələlik beş illik həb verin, sizin, sənin müşahidən və nəzarətinlə yaşayım, sonra, allah qoysa, on, on beş illiyindən də alaram.

Ümid:

– Ömür həbi analgin, pentalgin, asperin və sair bu

qəbildən deyil ki, istədiyin vaxt gedib aptekdən alasan; bəzən heç onlar da tapılmır. Ömür həbiylə zarafat olmaz. Get evə, nə qədər qızılın, qızıl pulun varsa, yığ hamısını, gətir bura.

İnsafsızov (əsə-əsə):

– Bu gecə vaxtı mən şəhərə necə gedim, nəynən gedim, nəynən gəlim?

* * *

İnsafsızov əynində ağ xalat qaranlıq səmada uçur. Skeletlər də onunla bərabər uçur; mühafizə dəstəsi kimi.

İnsafsızov evinə girir. Hamı yatıb. O, hər dəlmə-deşiyi ələk-vələk edir, nə qədər SARI var hamısını yığıb götürür, ağ xalatda, qaranlıqlar qoynunda uça-uça yenə skeletlərin səmavi mühafizəsi altında qədim müsəlman hamamına gəlir.

* * *

Hamamın içərisinə sübhün ilk şəfəqinə oxşar zəif şüa, şəfəq süzülür. Şəfəq fonunda pioner otağına, pioner guşəsinə bənzəyən bir şərait... Ümidin əynində ağ köynək, boynunda qızıl qalstuk. Üstünə qırmızı örtük çəkilmiş uzunsov stol. Stolun üstündə pioner təşkilatına aid materiallar, kitabçalar, qəzetlər, jurnallar. Qızıl saçaqlı bayraqlar, şeypurlar, zınqırovlu təbillər. Sübhün şəfəqi yavaş-yavaş çoxalır, aydınlaşır. Bir şəfəq min bir şəfəqə çevrilir... Şəfəqlər içindən Leninin portreti zahir olur. Ümid portret önündə pioner salamı verir. Şeypurlar car çəkir, təbillər vurulur.

Ümid:

– Lenin işi uğrunda mübarizəyə həmişə hazır ol!

Əks-səda:

– Həmişə hazır!

Bu əks-səda dənizin dalğalarından qopub, kimsəsiz sahil bağlarının üstüylə qanad çala-çala hamama dolur, günbəzlərin akustika vaakumunda (boşluğunda) burula-burula "həmişə hazır, həmişə hazır!" nidalarıyla Ümidin qulaqlarında, bütün varlığında əzəmət və qətiyyətlə gurlayır. Ümid farağat vəziyyətindədir. Qızıl şəfəqlərə boyanmış Leninin portreti qarşısında.

Bu zaman İnsafsızov bütün xəzinəsiylə, varidatıyla skeletlərin mühafizəsi və müşayiətiylə pioner guşəsinə daxil olur. Ümidin işarəsiylə skeletlər gözdən itir. Qalır bir həkim, bir də pioner.

Ümid:

– Hə, Amansız əmi, doktor İnsafsızov, varidatını qoy bu qırmızı stolun üstünə, podsiqarın yanına.

İnsafsızov:

– Başüstə. Ancaq xahiş edirəm podsiqarı qaytar.

Ümid:

– Sən müalicə olunacaqsan. On beş il nə yeyib-içəcək, nə də papiros çəkəcəksən... Neynirsən podsiqarı?

İnsafsızov:

– Pioner quzu! Özün məni rüşvətxorluqda ittiham edə-edə bəs nə üçün müalicəyə görə qarət edirsən? İkincisi, mən sağ-salamatam, heç bir müalicəyə ehtiyacım yoxdur. Zorən təbib eşitmişdim, zorən xəstə yox. Üçüncüsü, şərtə görə, qulağıma gələn səsin təlqininə görə bu var-dövlətimin hesabına mənə ömür həbi satmalısınız. Ömür isə sehrindən, əlavəsindən, qeyri məziyyətlərindən o yana, nəfəs alıb nəfəs vermək deməkdir. İnsan ki, nəfəs aldı, deməli, diridir. Diri yeməlidir də, içməlidir də, papiros qalsın bir yana. Məgər müalicədə xəstənin ağzını tikirlər? Həkim mənəm, ya sən? Ay pioner balası!

Ümid:

– Həkim, əlbəttə, sənsən. Qulaq as! İran şahının qanının

tərkibində həyat üçün təhlükəli olan bir haqq-hesab əmələ gəldiyinə görə dövri olaraq Avropa ölkələrindən birində, bəlkə də İngiltərədə onun qanını qismən-qismən buraxıb, əvəzinə eyni qrupdan olan təmiz qan vururmuşlar və məlumdur ki, dədələrinin ehsanına yox, kurul-kurul valyutaya... Can şirin, qızıl da ki, onda.

İnsafsızov:

– Hə, nə olsun?

Ümid:

– Çox şey olsun. Şahın bədənində gedən iltihab prosesi onun ancaq və ancaq qanını çürüdürmüş. Fəqət sənin vicdanında, ürəyində, beynində, mənəviyyatında gedən proses bütün adamlığını zəhərləyib, tüpürcəyindən tutmuş ifrazınacan zəhərləyib, gözünün bəbəklərindən tutmuş ayaq dırnaqlarının mayasına qədər zəhərləyib. Zəhərləyib... zəhərləyib...

* * *

Rezonans... Hamamın içindən yamyaşıl zəhər axır, hər şeyi quruda-quruda, torpağı külə döndərə-döndərə axır, dənizə doğru axır... Lakin dənizə çata bilmir. Çınqıllı qumlar – filtrlər Xəzəri zəhərlənməyə qoymur. Bu, hərfi mənada ətraf mühiti çirkləndirən zavod, mədən, DRES çirkabı deyil. Bu zəhər ayrı zəhərdir. Çınqıllı qumlar sinəsini gör nə həyəcanla qabağa verir?!

Ümid İnsafsızovun gətirdiyi qızılları qırmızı örtüklü stolun üstünə səpələyir. Təpə yaranır, təpənin üstündə podsiqar.

...İnsafsızov ağ xalatda, tam real, normal şəraitdə öz həkim kabinetində xəstə qəbul edir. O, düyməni basır, çöl tərəfdən qapının üstündə tablo-lövhə işıqlanır: "Следующий!"

Həkim:

– Hə, sən xəstəsən, yaran bağlanmayıb, bülletenliksən. Ancaq, blankımız yoxdur, qandın? On gündən sonra olacaq.

Bildin də, on gün. (O, xəstəyə on barmağını göstərir. Yəni on manat ver, ya get gətir.)

Xəstə:

– Axı, ay həkim...

Həkim:

– Qurtardıq. (Düyməni basır: "Следуюший" – tablo yanır).

...Ümid qızıllara baxır. Bu qızıllar qanunsuz, tibbi əsassız verilən bülletenlərdən gəlsəydi, dərd yarı olardı. O mənada yarı olardı ki, cinayətin törədilməsi üçün əslində xəstə olmayan "xəstə" özü məntiqi şərait yaradır. "Bəli də, qanunu pozuram, sənə bülleten düşməyə-düşməyə verirəm, haqqımı alıram. Nə qanunsuz istə, nə də ver". Ümid düşünür: "Bəs ayaq üstündə güclə dayanan, yaralarının qanı tənzifə hopan, xəstəliyini öz dilinlə təsdiq etdiyin adamdan qanuni, zəruri, məcburi bülleten üçün də rüşvət? Yatmamağa, ölməməyə, ailəyə, istehsalata, həyata qayıtmağa əməlli-başlı ümidli olan vətəndaşları tamah ucundan dirigözlü qəbrə göndərmək? Yığdıqlarının da mahiyyət etibarilə səksəkə əlindən heç xeyrini görməmək! Bəli, bu zəhər ayrı zəhərdir".

Ümid İnsafsızova müraciətlə:

– Hə, dedim ki, sən ("siz" yox, sən) başdan-başa zəhərlənmisən. Sənin hər şeydən əvvəl, hər şeydən sonra, ümumiyyətlə, xüsusiyyətlə bu saniyəyə qədərki ömrün zəhərlənib. Qızılların müalicə haqqı kimi götürülür, rüşvət niyə olur, camaatı öz arşınınla ölçmə! Müalicə bundan ibarət olacaq ki, sən təmizlənməsi mümkün olmayan zəhərlənmiş ömründən xilas edilməlisən.

İnsafsızov (vahiməylə):

– Yəni ölməliyəm, intihar etməliyəm? Sən pionersən, ya cadugərsən?

Ümid:

– Hər nə cür istəyirsən, o cür başa düş! Sən mənim iradəmlə indiki ömrünlə vidalaşacaqsan. Çevriləcəksən bu skeletlərdən birinə. (skeletlər görünür) Sən ağ xalatlı skelet olacaqsan.

İnsafsızov:

– Sən neofaşistsən, Pinoçet oğlu Pinoçet! Mən – doxsan beş kilo ağırlığında (paltarsız, ayaqqabısız, xalis diri çəki – "jivoy ves"), damarlarımda az qala altı atmosfer təzyiqində guppa-gupla qan dövr eləyən adam, skeletə dönüm? Özü də öz xoşumla?

Ümid:

– Xoşunla yox, xoşumla. Bu saat "jıvoy vesin" də düzələcək...

İnsafsızov:

– Bəs müalicə, bəs qızıllarım, bəs ömür həbi?

Ümid:

– Səni aparıb sahildə çoxdan-çoxdan yarıya qədər quma batmış nəhəng bir gəminin çürümüş gövdəsinə bağlayacağıq. Tufan qopacaq – skeletlərin tufanı, haqqın-ədalətin, minimum insaniyyət tufanı. Quruluşumuzun, Vətənimizin, Səadətimizin yolunda inqilabçılar, igidlər, qəhrəman, təmiz ata-balalar qanından rəng almış qızıl bayraqların, qızıl qalstukların tufanı! Həmən o tufan səni o qədər çırpacaq ki, o qədər qırmaclayacaq ki... ətin gedəcək, sümüyün qalacaq. Məsəl də var ki, əti sənin, sümüyü mənim. Elə ki, qaldı sənin skeletin (Ümid ətrafdakı skeletləri göstərir), o, müəyyən və bəlkə də qeyri-müəyyən vaxt ərzində küləklərlə, tufanlarla, doluyla, qarla, yağışla, təmiz hisslərin, duyğuların axarıyla tərtəmiz təmizlənəcək... Ondan sonra bu ömür həbləriylə sənə tamam təzə ömür bəxş ediləcək. Sən təzə adam kimi dünyaya gələcəksən, ölümsüz, zəmanətli təzə ömür sürəcəksən.

İnsafsızov:

– İstəmirəm, yox, lazım deyil, mən gözgörəsi skelet olmaq istəmirəm. Mən yaşamaq istəyirəm.

Skeletlər səslənir:

– Yaşamaq istəyirdik.

Hamam günbəzləri əks-səda verir.

Ümid qırmızı örtüklü stolun arxasında ayağa qalxır, pioner salamı verir, şeypur və barabanlar səslənir. Ümidin əllərinin hərəkətiylə İnsafsızov özü barəsində çıxarılan hökmü yerinə yetirməkçin hamamdan çıxıb bağlar arasıyla sahilə gəlir. Köhnə gəminin gövdəsinə zəncirlənir.

Kadr:

Tufan qopur, qum sütunları göyə dirənir. İnsafsızovun necə skeletləşdiyi, necə əcaib bir fiqura döndüyü görünür. Tufan, qum yağmuru şiddətlənir. İnsafsızov tamam skelətə dönən kimi zəncirdən azad olur. Göydən sehrlə enən ağ xalat onun çiyninə düşür. Ağ xalatlı skelet bu aralarda vurnuxub dolanmağa, gözə görünməyə başlayır.

* * *

Həm kolxoz bazarı, həm də onun həndəvərində alverçilərin, möhtəkirlərin yığnaq yeri. Qucağında isti dağlı çörəyi, əlində xarici siqaret blokları, əsasən xüsusi maşınlara cuman sırtıq, sürtük, kökündən tərbiyə görməmiş uşaqlar! Şüşələri sınıq, qapıları qırıq, dəstəkləri kəsilmiş telefon-avtomat kabinələri. Stalinin, Stalinin və oğlunun, hind filmlərindən kadrların, artistlərin, Zeynəb Xanlarovanın əlvan şəkilləri ilə bəzədilmiş pinəçi dükanı, səkiyə çıxarılmış yük maşınları, küçədə zir-zibilli bir həyət qapısında görməmiş-görməmiş (ya da satlıq) mıxdan asılmış yarım qoyun cəmdəyi. Üzü tüklü, barmağı üzüklü aerodrom kepkalılar... Elə bil bu mühit böyük, müasir, yaxşı, gəzməli-görməli yerləri olan şəhərin xaricindədir. Əslində bütün böyük şəhərlərin belə "xarici mühiti" var. Məhrəm milis nəfərlərinin siluetləri. Qaş qaralanda

aydın səma nə rəngə düşürsə, bax, o rəngdə bir pərdə. Pərdə arxasından alverçi Raziyyənin kiməsə, kimlərəsə müqavimət göstərə-göstərə çığırtısı eidilir. Qadınla əlbəyaxa olan milis nəfərlərinin kölgələri.

Raziyyənin səsi:

– Buraxın məni, qansızlar. Verəndə yaxşıyam, verməyəndə pis? Buraxın görüm, alçaqlar!

Küçənin ortasına cürbəcür xarici xırdavat (lezviya, saqqız, balzam, xına və sairə) səpələnir.

Raziyyənin səsi:

– Bu zülmü allah götürməz. Bahalı maldan keçmişəm xəmxırd çaq-çukuna. Bunu da əlimdən alıb küçəyə vızıldadırsınız?! O bığıburma Tuz Həsiyə, Hüsüyə, Kazıma girişə bilmirsiz, gücünüz mənə çatır? Məni əsir-yesir eləmisiz, bu mənim dörd balacamın ruzusudur, annadız?

Bazar nəzarətçiləri... sahə inspektoru... starşina... milis kapitanı... (Pərdə götürülüb) Onlar Raziyyəni şöbəyə aparmağa cəhd edirlər. Qadın müqavimət göstərir. Raziyyə zibil içində, toz içində, bu "xarici mühit" içində çiçək kimidir... Səliqə, sığal görməyən dağınıq saçları onu daha cazibədar göstərir. Nə alverçiliyi, nə milislə kobud əlbəyaxa, söyüşmə, nə jarqon ifadələri, nə özü demişkən, dörd uşaq anası olmaq... onun hüsnünü pozmamışdır.

Raziyyə:

– Ay cigəri yanmışlar, uşağımın böyüyü hələ bu il beşdə oxuyacaq. Onları siz gəlib dolandıracaqsınız? Vaxt tapdız məni sürüməyə. Bu zülmü nə allah götürər, nə hökumət.

Starşina:

– Allahı bilmirəm, hökümət götürər.

Raziyyə:

– Götürməz. Hökumət zülm tərəfdarı deyil.

Starşina:

– Hökumət faydalı əməklə məşğul olmayan, yüngül yolla qazanc əldə eləyən parazitlərin də tərəfdarı deyil.

Raziyyə:

– Əvvəla, bu yüngül yolu allah sənün anova, arvaduva, bacuva qismət eləsün, sən də baxıb görəsən yüngül yoldu, yoxsa yox. (Ağlayır) Kül olsun o oğraş Qulaməlinin başına ki, bizi atıb getdi, mən məcbur oldum ki, qurşanım alverə. Qulaməlinin hər qolundan bir sənin boyda starşina çıxardı. Mənim taylarım xanım-xatındır. Kef eliyillər özləriyçin, ya ərləriynən, ya da... babal yuya bilmərəm. Kül Qulaməlinin başına ki, arvadının burub burda qolunu sındırırlar. O da hansı cəhənnəmdəsə, hansı qəhbəninsə qucağındadır. Starşına, o ki qaldı parazitliyə, mən parazit deyiləm. Mən məcburiyyət, acizlik üzündən, təhsilsizlik, ixtisassızlıq, sabahı görməmək üzündən, adicə ehtiyac üzündən səhv yoldayam. Müştəri çağırmaqdan səsim hambal Dadaşın səsinə dönüb. Qoy mənim bu halım ərinə, ərinin var-dövlətinə, gəlhagəlinə, lap elə hamballığına arxalanan, piy basmış, piy basmamış, əlindən-g......n bir iş gəlməyən bütün qadınların və xüsusən qadın anaların gözünə görünsün! Ancaq yenə təkrar edirəm, mən parazit deyiləm. Sənsən əsl parazit, ay starşina, əlin cibində, tapançan qoburunda gəzib "haqqını" yığırsan. Haqqın olmaya-olmaya "haqqını" yığırsan. Yox, sən həm də alçalırsan, dilənirsən. Gözünnən gəlsin bahalı "talkat" eləyəndə ("tolkat" – itələmək, satmaq mənasında) cibinə dürtdüklərim. İndi yoxdur, öldürməyəcəksən ki? Saqqızdan, lezviyadan, landakolordan (saç boyası), Vyetnamski balzamdan özümə nə qalır ki, sənə nə verim, zaraza!

Starşina:

– Möhtəkirliyin bir yana, hələ vəzifə başında hökumət nümayəndəsini...

Raziyyə:

– Əşşi, bəsdi. "Vəzifə başında"?! Vəzifə başında bilirsən kim idi? Şəkillərini də hər daş-divara, qapı-bacaya vurmuşdular ey... şəkil kimi bir igid oğlan! Yoxsa sən?! Yüz matahım ola, yüz il kişi görməyəm, yenə sənə heç... Həmən o milisioner oğlan – milis serjantı Məmməd Əsgərov, bədbəxt oğlu bədbəxt, vətəndaşı ölümdən xilas etmək üçün əlbəyaxa olur bir sərxoş, gözünü qan tutmuş dəli-qudurmuşnan. O əli qurumuş da nə sənə, nə mənə... doqquz gülləsini necə ki, nallayır anası qara geymişin lopuna – serjant dönür olur igid milis serjantı... "Vəzifə başı" buna deyərəm. Yoxsa sən? Sən bilirsən nəyə oxşayırsan? Siçan tutmağı Nadir şahın vaxtında unutmuş kababxana pişiyinə.

Starşina "ismin bütün hallarında hallandırıldığına" görə, yəni söyüldüyünə görə təbdən çıxıb Raziyyəni vurmaq, saçlarından tutub küçəylə sürümək istərkən milis kapitanı kənardan özünü yetirib onların arasına girir (starşinaya).

– Boşla görək!

Starşina (Raziyyəni dartışdıra-dartışdıra):

– Yoldaş kapitan, görmürsünüz özünü necə aparır? Bu həyasız bizi də təhqir edir, postda həlak olanı da ələ salır. Bu, nə bilim haranın .....si.

Kapitanın sözünə baş qoşmayıb, özünə tabe olmayıb, starşina Raziyyənin saçından yapışa-yapışmayada mayor rütbəli bir nəfər qadın milis zabiti qəflətən maşından düşür. Tam rəsmiyyət və qətiyyətlə starşinaya əmr edir:

– Qadından əl götürün! Gedin şöbənizə! Mənim adımdan – mayor Səməndər qızının adından rəisinizə deyin ki, sizi bazar dairəsi məntəqəsindən götürsün! Sahil bağlarındakı xüsusi obyektə göndərsin. Özü bilir. Siz gecədən gecəyə həmin obyekti qoruyacaqsınız...

Starşina (dərhal Raziyyədən əl çəkərək):

– Oldu, yoldaş mayor!

Kapitan:

– Axı, siz yoldaş mayor, hər halda bir bilək... görək də...

Mayor Səməndər qızı:

– Bəs bayaqdan görmürsünüz qadınla rəftarı? Hər kim olsa, hər necə olsa, qadın qadındır. Bunu görmək üçün sizə teleskop lazımdır yoxsa? Şəxsən siz yenə sağ olun, yoldaş kapitan, insaflısınız, centlmensiniz!

Kapitan:

– Axı, siz yaxşı bilirsiniz ki, bu qadın hökumətimizin yaratdığı imkanların heç birindən istifadə etmək istəmir. Körpə uşaqları var – körpə uşaqları üçün yasli var, bir az böyüdülər, bağça var, oxumaq vaxtı gəldi – məktəb var, günü uzadılmış məktəb, internat məktəb, xüsusi xarakter və profilli məktəblər. Təmiz, rahat, açıq alınla, gözükölgəsiz yaşamaq istəyirsə – yaşına, cinsinə, sağlamlıq dərəcəsinə, savadına, qabiliyyətinə görə münasib iş nə çox, əmək meydanı nə çox! Yoldaş mayor, siz qadınsınız, mən üzr istəyirəm, rəsmiyyəti qoyaq bir yana, sizi tanımasam da rütbəcə məndən yuxarı olduğunuza görə sizi eşitməliyəm. Məgər adamın dili bir dəfə qaynar süddən yanıb qabar olanda ömrü boyu soyuq suyu da üfürə-üfürə içməlidir? Məgər bir qadın ərində gün görməyib raziyyələşəndə o deməkdirmi ki, ikinci dəfə yaxşı adama rast gələ bilməz, onun tale kitabı bağlandı? Raziyyə cavan, əlli-ayaqlı, dilli-dilavər (bir az da ifrat), yaraşıqlı qadındır. Onun mühitini – bazar mühitini, peşəsini – alverçi peşəsini dəyişsən, özünü həm daxilən, həm zahirən səliqə-səhmana salsan, o Raziyyə nəinki dörd, lap on dörd uşaqla da ərə gedib əsl taleyini tapa bilər. O ki, qaldı starşinaya, onu kobudluğuna görə lap sizli-mənli sistemdən götürdək. Ancaq, mahiyyətcə o da haqlıdır. Lazımsızlıqla mübarizə aparır. Hər bir insan isə cana gəldikdə, səbr termometrinin müəyyən bir dərəcəsində kobudlaşır, kütləşir, lap qanmazlaşır.

Mayor Səməndər qızı:

– Sözünüz, fikriniz haqdır, həqiqətdir. Ancaq yoldaş kapitan və sən yoldaş starşina, unutmayın ki, "həqiqət" sözünün "necə", "nə cür" suallarına cavab verən sifəti də, təyini də (qammatik kateqoriya) var. (Kapitan və starşina farağat durublar. Raziyyə çaşıb qalıb) Məsələn: Necə həqiqət? Acı həqiqət. Həqiqətin acılığı isə istiot, soğan, xinin, zəhər, öd acısı deyil. Bu cavan ananın, gəlinin düşdüyü vəziyyət – acı həqiqətdir. Nə isə... başımıza adam yığılmaq istəyir. Dağılışaq. Bu qadın mənimlə baş idarəyə getməlidir.

Raziyyə:

– Vaxsey, nə baş idarə?! Sən allah, əyləş maşına, yeri get. Arvaddan nə mayor ey? Gözüm sənnən su içmir, bacı. Yenə hər kimdi, hər nədi, kişi-kişidi. Bu üzünü mürdəşir yumuşlar yenə tanışdı, bazar adamıdı, ətimi yesələr də, sümüyümü özgəyə verməzlər. Səni and verirəm o cuvanəzən canuva, cuvanəzən canuva yaraşmayan incə belindəki tapançaya, min maşınuva, çıx get. Biz burada özümüz dil taparıq. Yox bir, "Baş idarə!"

Səməndər qızı Raziyyəyə nə cür baxışla baxırsa, o, dinməz-söyləməz maşına minir. Maşın tərpənir. Sürücü on-on iki yaşlı uşaqdır, milis paltarındadır. Maşın şəhərdən çıxır. Raziyyə heyrət və qorxu içindədir. Yol sanki sonsuzluğa doğru uzanır.

Əvvəldə təsvir edilən lövhələri, əhvalatları xatırlayın. Qarlı gün... Çörək dükanı... Çörək təzə boşaldılıb... Növbə... Növbədə əliuşaqlı, ətəyi uşaqlı qadın... Qadının əlindən pul düşür... Bir dələduz ayağını pulun üstünə basır... Bunu çoxu görür... Heç kəs qorxusundan dinmir... Hətta tapançalı, boylu-buxunlu hərbiçi də... Yalnız bir uşaq qadını ayıq salır, açıq, him-cimsiz... Dələduz adam uşağın gözlərini lezviya ilə "yazmaq"anında... əliuşaqlı, ətəyi uşaqlı qadın dələduzun qollarını qapqara tüstülənən kösövə döndərir... Qadın uşağa bir həb

verir... Həmən uşaq (indi maşını sürən) İnsafsızovu möcüzəli cəzaya məhkum etmiş qızıl qalstuklu Ümiddir. Milis mayoru qadın isə həmən əliuşaqlı, ətəyi uşaqlı qadındır.

Raziyyə:

– Məni hara aparırsınız?

Ümid:

– Xala, heç yerə.

Raziyyə:

– Necə "heç yerə", axı aparırsınız.

Səməndər qızı:

– Səni sədəcə olaraq onların əlindən xilas etdik. Düş, get evinə.

Raziyyə maşından düşür. Ağlına gəlmir ki, desin "məni qapımızacan aparın". Yox, ağlına gəlmir. Maşın uzaqlaşır. Bura şəhərin mərkəzindən uzaqdır. Axşam düşür. Raziyyə öz-özünə:

– Bu gün mənimki heç gətirmədi. Elə bil üstümə it ağzı açıldı. O qonşu Turabın ya özü, ya arvad-uşağı, ya lap iti, pişiyi səhər-səhər qabağıma çıxdı – vəssalam. Haçandı bazarda başımı girləyirdim, heç kəsin də məndə işi olmurdu. İndiyəcən nə kapitan, nə starşina mənə ilişib-zad eləməyiblər. Bu gün bilmirəm gözlərinə necə görükdüm, suvaşdılar canıma. İllah-illah, starşina. Qoymadı çax-çuxumu eliyim. Qazandığım on beş manat ola, olmaya. Uşaqların yanına əlim ətəyimdən uzun gedirəm. O mayor arvaddan da, o boyda maşını sürən bu boyda uşaqdan da başım çıxmadı. Milis paltarlı uşaq, olsa-olsa, mənim Səftərimdən üç yaş böyük olar. Səftər heç sankə sürə bilmir, addımbaşı yıxıl ki, yıxılasan. Vallah, burda sirr var. Allah axırını xeyir eləsin, allaha qurban olum (kövrəlir). Atacağam daşını o bazarın, bu xırdavatçılığın. Bir tərəfdən kapitan (o, starşinadan yaxşıdır) düz deyir, insaf da yaxşı şeydir. Bura xaric deyil ki, adam avara qala, yiyəsiz qala! Mayor arvad yaman xoşuma gəldi. Kişiləri qabağında mil da-

yandırdı. Canıyanmış zabitəliydi, gözlərində elə bil, ovsun vardı, həm də qəşəng idi. Milis geyimi ona bir az da yaraşıq verirdi. Ancaq, kapitan da, elə mayor xanım da dedi ki, mən özüm də babətəm...

Əl boyda güzgü çıxarır, güzgüyə nəfəs verib silir, öz-özünə tamaşa etmək, saçlarını qəfil bir həvəslə sahmana salmaq istəyir. Əlindəki güzgü böyüyür, böyüyür... Güzgüdən ona lap indicə ayrıldığı milis mayoru qadının surəti görünür. Lakin qadın adi paltardadır. Qucağında südəmər körpə, yanında da həmən avtomobili sürən on-on iki yaşlı oğlan... Raziyyə xoflanıb güzgünü salır. Güzgü sınmır. Güzgüdəki qadın surəti dilə gəlir:

– Raziyyə!

Ətraf... kimsəsiz (iş vaxtı çoxdan qutardığı üçün) tikinti meydanları, qülləli kranların şəbəkələri, hələ çərçivələri, qapıları salınmamış qapı-pəncərə boşluqları əks-səda verir:

– Raziyyə, ay Raziyyə, sənə xoşbəxtlik üz verib... Qulağına gələn bu səsin istiqamətində gəl sahil bağlarına, gəl, sənə sehrli ömür həbi satılacaq. Raziyyə, huyyy! Sən dərddən, qüssədən, məcburiyyətdən, ehtiyacdan, codluqdan, alverçi damğasından, milis təqibindən xilas olacaqsan.

Güzgüdən Ümid boylanır, Ümid dillənir:

– Raziyyə xala, ey əslən, ruhən təmiz məxluq, ey zir-zibil içinə düşmüş qızılgül! Gəl xaraba qalmış sahil bağlarına, gəl uçub-dağılmış, cin-şəyatin yığnağı müsəlman hamamına! Yox, yox, cin-şəyatin yoxdur, olmayıb, olmayacaq. Var vicdan və vicdan əzabı. Var xof. Xof yaxşı şeydir. Var qorxaqlıq. Qorxaqlıq pis şeydir. Var təsəvvür və təxəyyül ki, yaxşı şeydir. Raziyyə xala, gəl sahil bağlarına!

Raziyyə:

– Ya Əmirəlmö`minin, ya qərib İmam Rza, mən havalanıram. Başıma hova gəlir (şağanlılar demişkən). Bismillah! Bismillah!

“Bismillah” deyən kimi güzgü və güzgüdəki surətlər yox olur, səslər kəsilir. Lakin...

* * *

Raziyyə tək-tənha bağlar arasıyla min yerə burulan cığırlardan biriylə avtomatik idarəetmə dəqiqliyi ilə düz hamamın içinə girir. Qızıl qalstuklu Ümid və uşaqlı qadın onu qarşılayır. Raziyyənin içəri girməsiylə, bayırda tükürpərdici kişi fəryadı eyni məqama düşür. Bu fəryad, bu yoğun səslə qoparılan fəryad Raziyyəyə tanış gəlir... “Bu ki, starşinanın səsidir. Balam, onun buralarda nə iti azıb? Nöş qışqırdı? Mən özüm burada nə gəzirəm?”

Fəryad qopan kimi uşaqlı qadının dodağı qaçır. Ümidə göz vurur.

Raziyyə (uşaqlı qadına):

– Siz mənə lap tanış gəlirsiz, bu oğlan da. (Əliuşaqlı qadın bir anda milis zabiti qiyafəsində görünür).

Raziyyə:

– Bismillah! Bismillah!

“Bismillah!” deyən kimi mənzərə dəyişir, olur bir az əvvəldə təsvir edilən alverçilər; avaralar yığnağı “xarici mühit”. Raziyyə bu mühitdə – müasir, böyük şəhərə, onun səliqə-səhmanlı, güllü-çiçəkli, heykəlli-abidəli meydanlarına, möhtəşəm, qədim, ürəkaçan təzə imarətlərinə, zəhmətkeş, ağıllı, işli-güclü adamlarına yaraşmayan mühitdə özü-özünü kənardan yaxşı-yaxşı görür. Görür ki, dörd gözlə o yan-bu yana baxır, drujinniklərin, kapitanların, starşinaların kölgəsindəki siluetindən, ayaq səsindən diksinə-diksinə, uçuna-uçana gah dodaqaltı, gah bərkdən müştəri çağırır:

– Platforma, cinsi, şuba, norka, kristallon, lezviya...

Bu zaman suvaqçı qız, rəngsaz qız onu arxadan qucaqlayır, o diksinib çığırır.

Suvaqçı qız:

– Qorxma, bizik.

Raziyyə:

– Siz kimsiniz?

Rəngsaz qız:

– Sənə ürəyi yanan bacılarınıq. Qoşul bizə. Durub indi sənə sənin kimi olmağının pisliyini, bizim kimi olmağımızın yaxşılığını sübut edək? Sən hansı quruluşda, hansı zəmanədə yaşayırsan, qadası?

Fəhlə qızlar yox olur. Sahil bağlarındakı hamamın içi. Qırmızı örtüklü həmən stol... Stolun üstündə İnsafsızovun qızılları. Ümid və mayor Səməndər qızı.

Səməndər qızı:

– Raziyyə, yaxın gəl!

Raziyyə yaxın gəlir.

Hamamın çölü. Starşina şöbə rəisinin əmriylə buradakı "obyektə" "keşikçi" göndərilib... Əslində, ədalətli sehrkarın iradəsiylə ölümə məhkum edilməkçin göndərilib. Belə ki, milis starşinası qaranlıqda, kimsəsiz bağların içində hərlənən həkim İnsafsızovun ağ xalatlı skeletiylə qarşılaşır, tükürpərdici bağırtı qoparır və həmişəlik susur.

Raziyyə:

– Dayanın, bu səs starşinanın səsidir, o məni tutmağa gəlib. Bəs nə üçün çöldə vəhşi kimi bağırdı və susdu? Bir çıxım görüm (lənkəranlılar demişkən) nə işdu?

Səməndər qızı (amiranə):

– Olmaz! Qulaq as, Raziyyə! Biz xeyirxah cadugərlərik. Cəmiyyətimizlə, bərabərlik prinsipimizlə, inqilabi nailiyyətimizlə, kommunist əxlaqımız və idealımızla bir araya sığmayan yaramazlıqların kökünü kəsirik. Nə qədər nadürüst, haqsız, qudurğan, harın və tamahkar varsa, onları cəzalandırırıq. Əslində, biz ağın qaraya, qaranın ağa qarışmasına, ya-

lanın, ikiüzlülüyün, rüşvətin az qala işıq sürətiylə hərəkətinə və bunlardan törəyən min cürə əhvalata dözə bilməyən yanar ürəklərin üsyanıyıq! Biz yaxşı adamlara, taleyin – məcburiyyətin, ehtiyacın hökmüylə hətta qanunu pozub cinayət yoluna düşən adamlara ömür həbləri satırıq ki, onlar əlavə ömürlərindən adam kimi, vətəndaş kimi istifadə edə bilsinlər. Biz həyatda başını itirməyən, çətinliyə təslim olmayan, bütün mənəvi üstünlüklərin zirvəsi sayılan şəxsi ləyaqətini papiros kötüyü kimi ayaqlar altına tullamayan, hərəkətlərində, insafa qalsa, cinayət tərkibi olmayan, ən böyük bicliyi, ən müdrik diplomatlığı düzlükdə görən mərd adamlara ömür həbi satırıq.

Raziyyə:

– Hə, hə, yadıma düşdü. Ömür həbləri: beş, on, on beş illik. Orası da yadıma düşdü ki, ancaq kalan qızılı olan adamların qulağına səs gəlir ki, "gəl ömür həbi almağa". Anam-bacım, nə qızılım var, nə gümüşüm. Məni səhv çağırmısınız. Deyirəm də, bu gün səhərdən mənimki gətirmir ki, gətirmir. Uşaqlarım öldü nigarançılıqdan.

Ümid:

– Raziyyə xala, bu dəqiqə sən uşaqlarının gözünə elə görünürsən ki, onlar səni evdə bilir, qucağında da lap balacası...

Səməndər qızı:

– Raziyyə, gedə bilərsən.

Raziyyə:

– Hara?

Səməndər qızı:

– Hara istəyirsən.

Raziyyə:

– Bəs bayaqdan deyirdüz bayıra çıxmaq olmaz? Bəs ömür həbi? Bir də bu zülmətdə tək-tənha, payi-piyada hara gedib çıxa bilərəm? Ağazz, baxmaram paqonuva-zaduva, yapışaram saçunnan.

Səməndər qızı:
– Sən çölə çıx, səbrli ol, mədəni ol. Hər şey ürəyincə düzələcək, heç ruhun da inciməyəcək.

* * *

Qaranlıq, ins-cinssiz sahil bağları... Yox, deyəsən, səma biləsən-bilməyəsən ağarmaq istəyir. Raziyyə hamam dairəsindən bir balaca aralanan kimi qarşısına bir adam çıxır. O, demək olar ki, qorxub eləmir. "Adam adamdan qorxmaz" ki... düşünür. Adam qadının bu qənaətini ucadan təkrar edir və rədd eləyir, Raziyyəni adıyla çağırır. Adam:
– Təəssüf ki, elə məhz adam adamdan qorxur:

Cin görür, şeytan görürəm, qorxmuram,
Quli-biyaban görürəm, qorxmuram,
Harda bir insan görürəm, qorxuram.

... Sabir! Sabir!
Raziyyə:
– Sabir "müsəlman" deyib.
Adam:
– Ay bərəkallah, sən lap kökündən vurdun.
Raziyyə:
– Axı, sən kimsən?
Adam (hava işıqlanır):
– Mən Abbas Səhhətəm.
Raziyyə:
– Bağışlayın, "sən" dedim. Sizin Abbas Səhhət olmağınıza yüz faiz inanıram. Lap dərs kitabındakı şəklinizin eynisiniz. Ancaq buyurun görək siz bu həndəvərdə həkim kimi, müəllim kimi, şair kimi, cadugər kimi... maska taxmış, geymiş kar-

naval əhli-keyfi kimi peyda olmusunuz, ya necə?

Abbas Səhhət:

– Mən vətəndaş kimi zühur etmişəm, görüm ki, vətən övladımızın kefi-halı, o zamandan bəri əqli, zövqü, şövqü necədir, nə şəkildədir? Xəyalımızda yaratdığımız, arzularımızda yaşatdığımız şəxslər həqiqətə dönübmü, dünyaya gəlibmi?

Raziyyə:

– Dönübmü? Gəlibmi?

Aydınlaşan dənizin dibindənmi, ağarmağa başlayan dan yerindənmi qəflətən bir nəfər zahir olur.

Zahir olan:

– Möhtərəm, incə, işıqlı şair, insanpərvər həkim, mən sizin səsinizin cazibəsiylə buraya gəlmişəm. Mən həkim Üzüyola Toyagetməli oğlu Babatzadəyəm.

Abbas Səhhət:

– Çox əcəb.

Raziyyə (Səhhətə):

– Mirzə əmi, mən bu kişini tanıyıram. (Babatzadəyə). Sən həkimsən. Elə deyilmi? Bir dəfə uşaqçun süd qaynadırdım. Nə isə, şaqqur-şuqqur süd ayağıma töküldü. Evdə adam da yox idi ki, körpəni yanında qoyum, telefonum da yox idi ki, "skoru"ya zəng eliyəydim. Cızdağım çıxa-çıxa qapdım uşağı, üz qoydum lap yaxındakı xəstəxanaya. Başımı itirdiyimdən əlimdə, üstümdə bir qara qəpik də yox idi. Sən məni sorğu-sualsız, danışıqsız müayinə və müalicə etdin. Müalicə sonranın işi oldu. Yardım göstərdin ey, yardım! Körpəmi bir "sestra"ya tapşırdın. Gecə yarıyadək – növbən qurtaranadək yanıq yerinə ürəklə, doğma kimi məlhəmlər qoydun, sürtgülər sürtdün. Hər nə lazımdı elədin. Dedin ki, günaşırı işləyirəm, günaşırı gəl sarğını dəyişməyə. Sonra da məni xəstəxananın həyətinə çıxardın. Elə bildim, əsas mətləbə keçmək istəyirsən – haqq almaq mətləbinə və istəsəydin, sənə halal

idi. Ancaq yox! Maşın axtarırdın ki, məni mindirib evimə yola salasan. Bir boş-bekar təcili yardım maşını tapdın. Şofer dedi ki, "qlavvraç"ın icazəsi olmadan apara bilmərəm. Sən çox əla bilirdin ki, bu şoferə sərfəli iş olsa heç SSRİ Səhiyyə nazirinin özündən belə, icazə-filan istəməz – nə "qlavvraç"? Sən əlini cibinə saldın, şoferə pul verdin, motor xoda düşdü. Dedim ki, doktor, sən ki, mənə bu boyda xəcalət verdin, allah məni sənin yanında xəcalətli qoymasın. Sən də dedin ki, xəcalətli düşmənin olsun. Xəstəyə yardım və hər növ qayğı nəinki adam həkiminin, lap mal həkiminin də borcudur.

Abbas Səhhət ( Raziyyəyə):

– Özü də belə bir quruluşda, bizlərin arzu elədiyimiz ağ günlü Vətəndə. Həkim Babatzadə sonra nə dedi?

Raziyyə:

– Dedi ki, haqq vermək məcburi deyil, vacib deyil.

Səhhət:

– "Vacib deyil" dedi, ya "lazım deyil" dedi?

Raziyyə:

– "Vacib deyil" dedi.

Səhhət:

– Gərək "lazım deyil" deyəydi.

Raziyyə:

– Mirzə əmi, həkim, şair! Dünyada Nobel mükafatından böyük mükafat yoxdur. Mən o mükafatı gözüyumulu verərdim bu Babatzadəyə. Qəlbi qaraların, acgözlərin, kəmfürsətlərin, həyasızların içində Babatzadə bilirsiniz kimdir?

Səhhət:

– Kimdir?

Raziyyə:

– Aləm!

Səhhət:

– Nə üçün nisbətdə götürürsən?

Raziyyə:

– Bu yaxınlarda ayaqqabı fabriki yanmışdı. Elələri vardı ki, onları təcili müalicə ilə ölümün əlindən almaq olardı. İnsafsızov Amansız adlı bir həkim (əslində o, bir deyil) yaralılara kömək əlini uzatmadı. Umdu, istədi, tələb etdi.

Səhhət (qəsdən):

– Nə?

Raziyyə:

– Rüşvət!

Bu zaman səhər toranında əcaib bir şey şaqqa-şuruqla keçir. İnsafsızovun ağ xalatlı skeleti.

Raziyyə:

– Bəli, bu barədən Babatzadə aləmdir.

Səhhət:

– Elə sən də aləmsən. Səndə möhtəkirlikdən, alverçidən, xırdavatçıdan heç bir əsər-əlamət yoxdur. Sənin düşüncən dərin, fikrin işıqlıdır, gözünün içinəcən gül kimi, tərtəmizsən.

Raziyyə:

– Mən heç əsl alverçinin özünü də cinayətkar hesab etmirəm. Mən alverə şərait yaradanları cinayətkar hesab edirəm. Süni surətdə, bilə-bilə mal qıtlığı törədənləri cinayətkar bilirəm. Bəli, söhbət gedir çıxır əlaqədar yoldaşlara. İndi də ki, bu ömür həbləri əhvalatı çıxıb... o quldur əlaqədarların qurdu ulayıb.

Səhhət:

– Hə, hə, ömür həbi. (Babatzadəni və Raziyyəni qucaqlayır) Bəli, aləm, aləm! Ümid müqayisəyə qalıb. Müqayisəyə qalanda isə sən – həkim Babatzadə idealsan! Bizim dövrdə ideal başqa şeyə deyərdilər. Sən bu gün üçün idealsan və ömür həbin məndədir. Al, qəbul et. Ən bahalı, ən uzun müddətli – on beş illik ömür həbidir bu. Nisbətsiz, müqayisəsiz, toyagetməlisiz, üzüyolasız, babatsız bir həkim kimi, insan kimi yaşa, xidmət et! Səndə bu keyfiyyətlər çox asan yaranacaq. Çünki

hüceyrələrin, mayan, cövhərin insaf-mürüvvət suyuna çəkilib. Ömür həbinə məhz bunun üçün layiq görülürsən. Sən alovların içindən, uçqunların altından yaralıları, salamətləri, yarımcanları dartıb xilas edəndə burnun da qanamayacaq, qolun da sıyrılmayacaq. Xərçəng xofunu ürəklərdən qovanda süni gülüşün, yalançı təsəllin təbiiləşəcək. Sən həkim Babatzadə yox, həkim Səməndər olacaqsan.

Babatzadə ömür həbini Abbas Səhhətdən alır, udmaq istəyəndə dayanır.

– Möhtərəm həkim, namidar şair, nadir mütərcim, böyük Sabirin böyük dostu! Bəs axı, bu ömür həbləri xalis qızıla satılır. Düzdür, məndə  qızıl var. Ancaq, Babatzadə olduğuma görə  azdır. Beş illik həbin dəyərini güc-bəla ödəyə bilər. Siz isə mənə on beş illik... Bir də axı, ömür həbləri satanın səsi məhz qızılı çox olanların qulağına yetişməlidir, yetişir də. Buna əsasən ömür həblərini İnsafsızov kimiləri gərək almış olaydılar. Əksinə, onlar daşa dönür, skeletə çevrilir, qızılları da...

Səhhət:

– Sənə verdiyim bu ömür həbinin dəyərini o qızıllar ödəyir. Sənə də, Raziyyə, on beş illik ömür həbi bəxş edirəm. Cinayətkarlardan, rüşvətxorlardan, qəddarlıq və acgözlüklə varlananlardan müsadirə edilmiş qızıllar hesabına. Qəbul et, qızım, “ideal” sözü işlətdin ha... ideal uğrunda ölümlə üz-üzə dayan, Vətən uğrunda ölümlə üz-üzə dayan. Sənin bugünkü Vətənin yaxşı Vətəndir, qədrini hamınız bilsəniz, qayda-qanunlarını hamınız qorusanız. Şəxsi səadətinin, balalarının yolunda özünü oda-közə vur. Bəxtini bir də sına, adamın dili həmişə qaynar süddə yanmaz ki... Alveri at! Get qoşul fəhlə qızlara!

Abbas Səhhət qeyb olur. Üfüqlər qızarır. Fəhlə qızların xoru kimsəsiz bağların üstündə qanad açır:

Od tutub qırmızı atəşlə yenə yandı üfüq,
Şəfəqin qırmızı rəngiylə işıqlandı üfüq.

* * *

Azərbaycan Sovet Sosialist Respublikasının Maarif Nazirliyi. Nazirin kabineti. Kollegiya. Həmən nazirliklə bağlı söhbət, fikir, təsvir, lövhə və ifşa hədəfləri respublikamızın bütün, bütün, bütün nazirliklərinə, Baş idarələrinə, Dövlət Komitələrinə paralel və analoji şəkildə aiddir. Bu nazirliklə digər nazirliyin, bu baş idarəylə digər baş idarənin arasındakı fərq mahiyyət etibarilə bir kiloqram pambıqla bir kiloqram qurğuşunun çəkisi kimidir. Biri gözə çox görünür, çox yer tutur, biri əksinə, ancaq o da bir kiloqramdır, bu da.

Nazirlərə, sədrlərə gələndə isə, yenə təsvir edilən Maarif naziriylə (hal-hazırda onun nazir olub-olmamasının dəxli yoxdur) onların, yəni qeyri-nazir və sədrlərin arasında, çox cüz`i də olsa, yaxşı mənada analogiya var, paralel var. Siyasət və senzuranı qoyaq bir kənara. Əlbəttə ki, dünya xali deyil... ola da bilməz. Eşq olsun təskinliyə!

Kollegiya. Uzun stolun hər iki tərəfində tanış sifətlər görünür. Dağ rayon xalq maarif şöbəsinin, Bağ rayon xalq maarif şöbəsinin, Aran rayon xalq maarif şöbəsinin, Yaylaq rayon xalq maarif şöbəsinin, Qışlaq rayon xalq maarif şöbəsinin, Dərə rayon xalq maarif şöbəsinin, Təpə rayon xalq maarif şöbəsinin, Eniş rayon xalq maarif şöbəsinin, Yoxuş rayon xalq maarif şöbəsinin, şəhər dairəsindəki RXMŞ-lar, şəhərdən kənar RXMŞ-lar, Dərə-Təpə rayon xalq maarif şöbəsinin, Düzənlik rayon xalq maarif şöbəsinin, Subtropik rayon xalq maarif şöbəsinin müdirləri görünür, hamı ciddidir, gərgindir. Hamı müzakirə olunan məsələnin çox vacibliyini, mühümlüyünü him-cimlə, qaş-gözlə, əl-qolla, biri-birinin böyrünü ka-

randaşla, barmaqla dürtmələməklə, dodaqaltı "bəli", "elədir", "düzdür", "ay canım, əlbəttə ki" deməklə təsdiq edir. İşgüzar bir şərait. Uzun stolun başında nazir. Nazirin üzündə köhnə cəbhəçi qüruru, müəllim nuraniliyi, ata qayğısı, alim müdrikliyi, öz arşınından irəli gələn, öz inamından doğan sadəlövhlük... Və Vətəndaş ləyaqəti.

Nazir:

– Maarif şöbəsinin müdirləri, necə deyərlər, bizim yerlərdəki akademiyaların prezidentləri...

Elə bil, qeybdən gələn bir səs nazirin sözünə, ağzından çıxan sonuncu kəlməyə istehza ilə müdaxilə edir. Səs böyük kabinetin açıq nəfəsliklərinin hansı birindənsə içəri dolur. Reproduktordan, mikrofondan, rupordan, lap samovar dudkeşindən axan səs kimi. Səs kişi səsinə də oxşayır, qadın səsinə də. Səs intellekt sahibinin aydın, rəvan səsinə də oxşayır, nəşəxorun boğuq, yoğun-nazik xırıltılı səsinə də...

Səs:

– Prezidentə bax ey, prezidentlərə bax ey! Canuvuzi yiyim, ay prezidentlər. Gözüvə dönüm, ay nazir müəllim, nə yaman prezident tanıyansanmış.

...Səs kəsilir. Hamı bir cür, birtəhər olur. Hamı özünü itirir və eyni zamanda, səsin səmtini müəyyən etmək, səsin "sahibini" (belə demək olarsa) görmək istəyir, hamı (RXMŞ müdirləri) pərtdir, yəni nazirə qarşı bu nə ədəbsizlikdir? Kişinin sözünü belə həyasızlıqla kəsməkmi olar? Bu nəinki ictimai, hətta siyasi xuliqanlıqdır! Bəs, birdən kişinin ağlına gəlməzmi ki, onun sözünü ağzında qoyub banlayan elə bu kollegiyada iştirak edənlərdən biridir? Səsi boğazda qaynadıb-qaynadıb dəyişməyə nə var?

...Lakin... məhz nazir – təkcə o, həmən səsi eşitmir. Ona görə adi vəziyyətində – dəmində, tovunda, havasında, ovqatında qalan da məhz nazirdir. O, adamların birdən-birə dəyişən sifətinə baxıb təəccüblə soruşur:

– Nə oldu, yoldaşlar, qaşla göz arasında rəng-ruyiniz niyə dəyişdi? Hamınız da eyni halda. Eyni xörəkdən, eyni vaxtda, eyni dərəcədə zəhərlənənlər kimi...

RXMŞ müdirləri (xorla):

– Xeyr, xeyr, heç bir şey olmadı, yoldaş nazir müəllim, buyurun, buyurun, sözünüzə davam edin, eşidirik sizi.

(Hamı bir-bir öz ürəyində: "Eyni vaxtda, eyni xörəkdən eyni dərəcədə zəhərlənmək" – nə deməkdir, nəyə işarədir, bəlkə kişi bilir. Bilir ki...)

Nazir:

– Hə, yoldaşlar, siz yerlərdəki akademiyaların prezidentlərisiniz. Məlum həqiqətləri, aksiomaları təkrar etməklə vaxtınızı almaq istəmirəm. Söhbətimiz bir barədədir: müəllim kadrlarının düzgün yerləşdirilməsi! Təcrübələr, müşahidələr, ərizə-şikayətlər, raportlar göstərir ki, həmişə bu sahədə ciddi nöqsanlara, səhvlərə, əyinti və tələsikliyə, haqsızlığa, xüsusən kənd müəllimlərinin təsərrüfat, nəqliyyat və yaşayış şəraitini nəzərə almamaq hallarına yol verilir. Kadrların nəinki qəsəbə-qəsəbə, kənd-kənd, məktəb-məktəb, hətta sinif-sinif, cədvəl-cədvəl, saat-saat bölüşdürülməsində irili-xırdalı bütün detallar, cəhətlər, xüsusiyyətlər nəzərə alınmalıdır. Həftə səkkiz, mən doqquz yer dəyişmək, müəllimin iş şəraitini sün`i surətdə ağırlaşdırmaq, əsəblərlə oynamaq, subyektiv mülahizəylə, lazım gəlməyə-gəlməyə dərs saatlarını azaltmaq – bir kəlmə, cinayətdir! İmkan olan yerdə müəllimin eviylə məktəb arasındakı məsafəni də, dərs növbələri nizamlananda, saatlar arasındakı "okno"da ana olmağa hazırlaşanları, gənc anaları (söhbət müəllimdən gedir), təqaüd vaxtına lap azca qalmış ağbircək və ağsaqqalları nəzərə almaq lazımdır. Bu imkan və şəraiti mümkün olan yerdə yaratmamaq, müəllimin boynuna çox böyük minnət qoya-qoya yaratmaq, onu yalvar-yaxara məcbur etmək yenə cinayətdir! Müəllimin beyninin içindən

tutmuş, ürəyinin içindən tutmuş, ev-eşiyinin, ailəsinin içinə kimi hər şeyi nəzərə almaq lazımdır. Kadrların yerləşdirilməsinə, bir sözlə, vicdanla yanaşılmalıdır, yoldaş maarif şöbəsi müdirləri! Bu, çox nazik məsələdir, elə hər şey də nazik yerindən qırılır.

...Açıq nəfəsliklərin (fortoçka) hansı birindənsə, bəlkə elə hamısından yenə də məchul bir səs içəri dolub nazirin sözlərinə müdaxilə edir. Bu səfər həmən səsi təkcə nazir eşidir, RXMŞ müdirləri yox.

Səs:

– Ey təmiz, gözəl insan, ey hamını öz arşını ilə ölçən. Ey hamının köksündə öz ürəyi kimi bir ürəyin çırpındığını yəqin edən! Ey nazir səlahiyyətindən daha çox müəllim qüdsiyyətiylə, köhnə ziyalı sadəlövhlüyüylə nəfəs alan ixtiyarlı, rəsmi şəxs! Sən nə qoyub, nə axtarırsan? “Şərait belə gəldi”, “vəziyyət elə getdi”, “nazik məsələ”, “yoğun məsələ”...

...Bu zaman efir həmən məchul səsin özünü batırır:

– Danışır Bakı. Cəbrayıl rayonunun heyvandarları üçün konsertimizə başlayırıq. “Mehriban olaq”. Bu mahnıya filan, filan, filankəslər qulaq asmağı arzu etmişlər. Oxuyur...

Nazir “Cəbrayıl rayonu” sözlərini eşidəndə, sanki məchul səsin vəhmindən xilas olur. Xəyalı uzaq-uzaq, acılı-şirinli uşaqlıq illərinə, indi bir yaxın qohumu da qalmayan, çoxdan gedib-gəlmədiyinə görə yadlaşan doğma yerlərə qanadlanır. Lakin “xəyala dalmaq” söhbəti az çəkir.

Məchul səs efiri üstələyir. Səs:

– Elə həmən nazik məsələ hesabına bu tiplər yoğunlayıblar də. Kadrların düzgün yerləşdirilməsi! Anası ölsün kadrların. Kadrları düzgün yerləşdirsələr bəs onda bu “mirzələr” necə yaşayar? Məsələn, RXMŞ müdiri yapışır Ağköynəkli kənd orta məktəbinin dərs hissə müdirinin yaxasından ki, səni keçirirəm Qaraköynəkli orta məktəbinə eyni işə. Orada təlim-

tərbiyə, dərsin təşkili və sair bərbaddır, dərs hissə müdiri öz üzərində çalışmır, geri qalır və sair.

Həmən sözləri eyniylə Qaraköynəkli kənd məktəbinin dərs hissə müdirinə də deyir. Əlbəttə, ayrı-ayrılıqda deyir, hər birinə də eşitdirir ki, öz aramızda. Bu yazıqlar da biri-birindən xəbərsiz düşürlər RXMŞ müdirinin əl-ayağına ki, "amandır, bizi yerimizdən eləmə. Burada (işlədikləri kənddə) evimiz-eşiyimiz, həyətyanımız, arımız, heyvanımız, bir sözlə, dirriyimiz, təsərrüfatımız var. Məni niyə öz kəndimdən, tanıdığım şagirdlərimdən, isinişdiyim müəllim yoldaşlarımdan ayırırsan? Üstəlik istidə, soyuqda, küləkdə, yağışda-qarda on beş kilometr o yana, on beş də bu yana. Mənə dəymə, nə deyirsən, bax, bu gözüm üstdə". Müdir də deyir: "Başa düşdüm, göz üstdə, olsun göz üstdə". Yoldaş nazir, bu saat bu şəkildə rüşvət almaq üsulu özü də köhnəlib, primitivləşib. Ancaq xətasız üsuldur... Belə haqq-hesabları (yerdəyişmə) müdirlər nazirliksiz (onlara verilən rəsmi ixtiyara görə) özləri yerlərdə... həll edirlər. Bu heç, daha mürəkkəb, daha başqa əhvalatlar var. Ağıllı, tamahını, nəfsini cilovlaya bilən müdirlər təkcə kadrların "yerdəyişdirilməsi" məsələsiylə kifayətlənirlər. Axı, ay yoldaş nazir, əyri oturub, düz danışaq də. Bəs bu müdirlər başlarına haranın külünü töksünlər? Bilirsinizmi onların nə qədər çıxarı var? Bilirsinizmi bu dinamit qaytanı haradan haraya uzanır? Əlbəttə, yalnız sizə gəlib çatmır o qaytanın ucu. "Çatmır" deyəndə ki, istəsəydiniz çatardı. Ancaq siz istəməmisiniz, istəmirsiniz, istəməyəcəksiniz. Yox, yox!

Məchul səsin "yox, yox"u qəfil ruhi həyəcana düşən nazirin "yox, yox" kəlmələriylə birləşir. Nazir üzünü səsin səmtinə tutub kiminləsə danışırmış kimi:

– Yox, yox, ola bilməz, sus, şərəfsiz böhtançı, gül kimi ziyalılarımızı, maarif cəbhəsinin fədailərini ləkələmək istəyən qaragüruh! Səni siyasi rəng ilə maarif sistemimizin kökünə

balta vuran cani kimi antisovet təbliğatı üstündə cəzalandırmaq lazımdır.

Nazirin birdən-birə belə çılğınlaşıb, təbii ki, öz-özüylə danışdığını görən müdirlər hövlnak ayağa qalxır. Hamı özündən şübhəli... səksəkəli... təmkinləri zahiridir. Bir də axı onlar nazirlə məchul səs arasındakı dialoqdan xəbərsizdilər...

Birinci müdir (nazirə):

– Sizə nə oldu?

İkinci müdir:

– Bu sözləri kimə deyirsiniz?

Üçüncü müdir:

– Sizi təzəcə dinləyirik. Birdən-birə nə üçün bizə qəzəbiniz tutdu?

Dördüncü müdir:

– Belə çıxır ki, kabinetinizdə bizdən başqa, gözəgörünməz adam var, siz də onunla həsb-hal edirsiniz.

Nazir yuxudan ayılmış kimi çeşməyini gözündən çıxarıb şüşələrini qar kimi dəsmalla silir, gözünə taxır.

Nazir:

– Yox, yoldaşlar, nə qəzəb, nə qilü-qal? Mənə də heç nə olmayıb. Ancaq elə bil qulağıma səs gəldi... Axı, lap bir az əvvəl siz özünüz də qəflətən birtəhər oldunuz.

Müdirlər (səs eşitdiklərini danaraq xorla):

– Xeyr, xeyr, bir az əvvəl də biz elə bu cür idik.

Nazir:

– Nə isə... Müəllim kadrlarının düzgün yerləşdirilməsi təlim-tərbiyənin keyfiyyətinə mütləq müsbət təsir göstərməlidir və göstərir, yoldaşlar!

...Nazirin sözü ağzında qalır. Qapılar-pəncərələr çırpılır, hətta şüşə də qırılır. Qəfil xəzri kabinetə hücum çəkir. Otaqda vərəqlər uçuşur. Üzərində üç həb şəkli və "ÖMÜR HƏBLƏRİ" sözü olan kağızlar nazirin, kollegiya üzvlərinin və RMXŞ müdirlərinin çiyin-başına qonur. Nazir:

– Təzə söhbət, gülməli sensasiya. Yəni bu həblər beş, on, on beş il ömür uzadır? Yəni uzadılmış ömrün müddətində adama heç nə olmur?

Bu səfər hamının eyni vaxtda, eyni aşkarlıqla eşitdiyi səs:

– Bəli, bəli, məhz adama heç nə olmur, təkrar edirəm: Adama.

Müdirlər (xorla):

– Bə biz adam deyilik? Bu nə vurğudur, ay səs-səda, ay hava, ay yel yoldaş, adam, adam...

Səs:

– Bəli, daha doğrusu, xeyr, siz adam deyilsiniz. Siz ancaq şəklən, cismən (qismən yox ha) adamsınız. Sizin içinizdə (kollegiya üzvləri də əsasən daxil olmaqla, yəni kollegiya üzvləri də əsasən sizin eyninizdir) ancaq bir nəfər adam var: Nazir! Vəssalam! Nə isə... sizinlə efirdə bir də görüşəcəyik, daha doğrusu, səsləşəcəyik. Yoldaş nazir, üzr istəyirəm sizdən.

Nazir:

– Yoldaşlar, bizi qara basır, nədir? Mən sizin hamınızdan məchul səsin əvəzinə üzr istəyirəm. Necə yəni "siz adam deyilsiniz".

Müdirlər:

– Ayıb şeydir, yoldaş nazir, bir gözbağlıcaya görə siz niyə bizdən üzr istəməlisiniz ki...

Bağ rayon xalq maarif şöbəsinin müdiri:

– Ay-hay, bir səs, bir yel, Füzuli demişkən, bir hübab (köpük) deyəcək ki, "siz adam deyilsiniz", biz də o dəqiqə dönüb olacağıq heyvan? Ay-hay!

Dərə rayon xalq maarif şöbəsinin müdiri:

– Xalxı günün günorta çağı cinayət başında, məsələn, əlində bir dəstə pul yaxalayırlar, qızıl-qırmızı dirənir ki, mənə dəxli yoxdur. Biz də durub bu səsin hökmüylə adamlıqdan çıxaq?

Nazir:

– Elədir, yoldaşlar. Nə isə... Kadrların düzgün yerləşdirilməsi çox mühüm bir məsələdir ki, bu işdə əyintiyə qətiyyən yol vermək olmaz.

Ömür həblərinin reklam vərəqləri kabinetdə uçuşur.

Bağ RXMŞ müdiri Dağ RXMŞ müdirinə pıçıldayır:

– Sən ölmüyəsən, adam bu ömür həblərindən hər il müəllim günündə rayonun qabaqcıl, dəridən-qabıqdan çıxan, çox baş aparan müəllimlərinə verə ki...

Nazir bu sözləri (“çox baş aparan”dan başqa) eşidir və müdaxilə edir.

Nazir:

– Siz rayonun, bir rayonun qabaqcıllarını, mən isə bütün respublikanın fədakar müəllimlərini nəzərdə tuturam. Doğrudan da, nə qədər “Qabaqcıl maarif xadimi” döş nişanı paylamaq olar? Bu nişanla alim də, şair də, neftçi də, kimyaçı da, bəstəkar da, rəssam da təltif olunur. Ya mən, ya nazirliyin başqa nümayəndəsi hər hansı yubilyarı təbrik edəndən sonra yaxasına “Qabaqcıl maarif xadimi” döş nişanı taxıram, taxır. Olmaz ki, kollegiyanın qərarı ilə ən layiqli şəxsləri, müəllimləri, sənətkarları, istehsalat və xalq təsərrüfatı ulduzlarını – gənc nəslin təlim-tərbiyəsində, ya birbaşa, ya dolayısı ilə çox əsaslı rol oynayanları ömür həbləri ilə mükafatlandıraq?! Bundan da gözəl həvəsləndirici, həm də maddi maraq oyadan hədiyyə olar?

Təpə RXMŞ müdiri:

– Yoldaş nazir, tamamilə düz və orijinal təklifdir. Fəqət, hanı bu ömür həbləri? Nədi bu ömür həbləri? Kimdədi bu ömür həbləri? Pulludumu, məccanidimi bu ömür həbləri?

Səs:

– Möhtərəm nazir, ömür həbləri bütün kollegiyaların qərarı fövqündədir, nəqd qızıla verilir. Cingiltili, parıltılı. Evlərinizə, mehmanxanadakı nömrələrinizə gedib çatandan

sonra, ola bilsin ki, sizi ömür həbləri almağa dəvət edən səs eşitdiniz.

* * *

Maarif naziri Mərkəzi Komitənin əlaqədar şöbəsindədir. Maarif şöbəsi müdirləri təzə "İnturist" mehmanxanasında, öz nömrələrindədir. Kadrlar...

Birinci kadr:

Dağ RXMŞ müdiri üzünü qırxır, saata baxır:

– Səkkizinci mikrorayona çatmaq asandır. Ancaq binalar biri-birinə yaman oxşayır. Qorxuram çaşdıram. "Baharın on yeddi anı" filmindəki professor Pleşnerin Berndə çaşdığı kimi. Yox, əlaməti olacaq: pəncərədə qırmızı qərənfil. Yəni, "gəl, təkəm... səni gözləyirəm, dediyimi gətirməmiş olma".

Müdir ürəyində söylədiklərinə ürəyində də qadın dilindən cavab verir: "Almışam, hazırdır". Cibindən brilliant qaşlı üzüyü çıxarıb bərqinə tamaşa edir, Haqverdiyevin "Qiraət" hekayəsini xatırlayıb gülümsəyir.

İkinci kadr:

Aran rayon xalq maarifi şöbəsinin müdiri vanna otağındadır. Silgi ilə bərk-bərk vannanı silir, ətrafda səliqə yaradır, mələfəni, dəsmalları, ətir, şampun, krem, sabun və sairəni diqqətlə nəzərdən keçirir və yenə girişir vannanı sürtməyə. O, vannaya baxınca döşlərinə qədər sabun köpüyünə qərq olmuş çəhrayı qadın bədəni görünür və yox olur. Müdir lüks qonaq otağındakı əlvan, dəm-dəsgahlı süfrənin başına bəh-bəhlə, yarpaq kimi əsə-əsə dolanır, zümzümə edir:

Yar bizə qonaq gələcək,
Bilmirəm havaxt gələcək...

Üçüncü kadr:

Dərə rayon xalq maarif şöbəsinin müdirinin nömrəsi. O, tez-tez saata baxır, elə güman edir ki, saatı düz işləmir. Əvvəl radionu xəttə qoşur və dərhal ayırır. Sonra televizoru xəttə qoşur, əl dəymir, ekran işıqlanır, diktor:

– Hörmətli tamaşaçılar, "İnsan və qanun" verilişinə başlayırıq. Verilişi aparır hüquq elmləri...........

Müdir baxır, canından üşütmə keçir, öz-özünə: "Zəhləm gedir bu kişinin sifətindən. Hakimlikdən, prokurorluqdan qovulanın biri indi gəlib ən azı üç milyon adama vələzzalin oxuyur – düzlükdən, təmizlikdən. Yaman əti acı adama oxşayır, boğazın keçməsin beləsinin əlinə. Keçməz, inşallah. Bir də ki, harda qırıldı qırıldı." Qapı döyülür.

– Buyurun!

– Salam, yoldaş Dərə.

Dərə RXMŞ müdiri:

– Əleyküməssalam. Gətirdin? Danışmışam, düzəlib. Olursan həmən kənddə məktəbin direktoru.

– Bəs direktor?

– İndi neynəyək? Bir məktəbdə iki direktor olsun? Yoxsa vicdan əzabı çəkirsən? Səməd Vurğun deyib:

Vicdan! O nə səndə var, nə məndə...

Şair "məndə" deyərkən Qacarı nəzərdə tutub. Ver görüm! Lap istəyir özü daxil olmaqla hər kimi nəzərdə tutur-tutsun, tez elə!

Gələn adam açıq-aşkar pulları stolun üstünə qoyur və:

– Bəs qorxmursan?

– Yox!

– Nə əcəb? Ehtiyat igidin yaraşığı döymü?

– İgidin hə, bizim yox. Eşitməmisən ki, sıfır sıfrı, mənfi mənfini inkar edir, mənfi üstəgəl mənfi, eliyər mənfi? Sənin

nəyindən qorxacağam, qulağının dibinnən də türmə iyi gəlir. Tez ol, can gözləyirəm.

Dördüncü kadr:

Bağ RXMŞ müdiri İçərişəhərin dolam-dolaşıq dar küçələriylə gedir. Gedir, gedir, sağa burulur, sola burulur, alçaq, ora-burası çürüyüb deşik-deşik olmuş taxta qapını döyür. Qapı açılır. Altmış iki-altmış üç yaşlı gümrah, keyfi kök bir kişi RXMŞ müdirini qarşılayır:

– Xoş gördük, Bağ müəllim, həmişə sən gələsən.

– Xoş gününə gələk, Sələm müəllim.

Səlim:

– Olmadı ki, yenə adımı səhv dedin. Sələm yox ey, Sələm də ad olar? Səlim! Sələmlə Səlimi qarışdırma.

– Qarışdırıb eləmirəm. Gəncəlilər demişkən, eləcənə, qəsdən deyirəm. Adın olub qırx ilin müəllimi, özün olmusan qırx ilin qızıla həris siçovulu. Qızıl, qaş-daş alverçisi, qansız sələmçi. Sələmçilik Qur`ani-şərifdə də ağır cinayət, yuyulmaz günah, föhş sayılır.

– Ay Bağ müəllim, olmadı ki... məni ifşa eləməyə gəlmisən? Bəlkə Maarif nazirliyi sistemindən Komitəyə... keçəsən, hə?! Açma ağzımı də. Tanıyıram səni də. Balam, onluq almağa gəlməmisən? Düz, təmiz, halal köpəkoğlu da həftə səkkiz, mən doqquz qızıl almağa gələr?

– Yaxşı, baş aparma!

– Ədəbli danış, meyidini bir il axtararlar, tapılmaz... Çıx get, yoxumdu, vermirəm sənə heç nə. Olmasın Bağ RXMŞ müdiri, olsun Yaylağ RXMŞ müdiri. Hamınız bir deyilsiniz? Sələmçiliyi başıma qaxmağına bax mının (bakılılar demişkən). Guya rüşvət, vasitəçilik, dəllallıq icazəliymiş. Tula itdən murdar. Bas bayıra, yoxdu heç nə.

– Əşşi, yaxşı də, bağışla. Üzr istəyirəm. Sən verməzsən, gedib başqasından alaram. İntəhası, bir az vaxt itirərəm, bir az risk eliyərəm. Ancaq bizim aramızda etibar var axı! Dostuq,

sirdaşıq – bəs bunları neynəyək. Keç təqsirimdən, söz ağzımdan köntöy çıxdığına görə, Səlim kişi!

Səlim:

– Yaxşı. Neçə "sarı" istəyirsən?

– Filan qədər.

– Gəl görüm. ("Gəl", yəni ver).

RXMŞ müdiri pulları sayıb verir, qızıl onluqları alır. Səlimdən soruşur:

– O biri həriflər də gəlmişdilər yanına "sarı" üçün?

– Gəlmişdilər. Dağ, Dərə, Aran, Yaylaq və s... Hamısı da apardı, getdi. Ancaq, ancaq başqa-başqa vaxtlarda. Qalmışam "sarı"sız. Axırıncıları sənə verdim. Gərək özümü vurum dəryayi-ləşkərə. Bağ müəllim, sizə böblə (lənkəranlılar demişkən, yəni bir belə, bu qədər) rüşvət verən adamlar bəs özləri böblə pulu haradan alırlar? Bir də onu fikirləşirəm ki, siz qurd ürəyi yemisiniz. Hamınız biri-birinizin sirrini bilirsiniz.

Bağ RXMŞ müdiri:

– Harda qırıldı qırıldı.

* * *

Nəcə ki, qəfil yağan şıdırğı yağış adamları eyni vaxtda yaxalayır, lakin müxtəlif şəraitdə, vəziyyətdə yaxalayır, eləcə də məchul, amiranə, hökmlü, qətiyyətli Səs maarif şöbəsi müdirlərinin qulağına eyni anda, cürbəcür şəraitdə, vəziyyətdə çatır. Məsələn: biri bu səsi qadınla vanna otağına girəndə eşidir. (qadın eşitmir) Digəri nömrənin açarını mərtəbə növbətçisinə təhvil verib mehmanxanadan çıxar-çıxmazda eşidir. Üçüncüsü rüşvət gətirən adamı ötürüb, pulları arxayın-arxayın sayaraq təqibdən, xata-baladan uzaq olduğuna görə özüyçün fit çalarkən eşidir. Dördüncüsü hal-hazırda təqaüdçü

müəllim – sələmçi, dəllal, qızıl və qaş-daş alverçisi Səlimə "harda qırıldı qırıldı" deyəndən bir neçə saniyə sonra eşidir.

Səs:

– Saatına bax, saat neçədir?

Cavab:

– Doqquza işləyir on dəqiqə.

Səs:

– Düz doqquz tamamda Gülən qayalarda olmalısan. Sənə ömür həbi satılacaq. Qızılların üstündə olsun, heç kimə bir kəlmə də!

Cavab:

– Bu kimin səsidir? Gülən qayalar hardadır? Necə yəni "Gülən qayalar", qaya da gülərmi? Nə ömür həbi? Qızıl nədir, zad nədir?

Səs:

– Hər şey sənə aydın olacaq, təşkil ediləcək. Sənin ki, müdir müəllim, "təşkil" sözündən xoşun gəlir. "Çay təşkil et", "Su təşkil et", "Badalaq təşkil et" və hakəza.

Cavab:

– Ey səs! Haradan gəlirsən, ey səs!?

Səs:

– Ey quş, haradan gəlirsən, ey quş?! Bu ki, lap mərsiyə oldu. Sinə vurmağımız qalsın Gülən qayalara.

* * *

Sahil... Gecə... Qapqara dəniz... Dəniz aysız-ulduzsuz gecələrdə hətta sakit, dalğasız, ləpəsiz olanda belə, qayalar çöhrəsində vahiməli, məkrli görünür. Necə yəni gülən qayalar? Su zaman-zaman bu qayalarda elə oyuqlar, elə şırımlar açıb ki, elə cizgilər əmələ gətirib ki, onlara diqqətlə baxanda, təsəvvür edə-edə baxanda, həmən qayalar məhz gözləri yı-

ğıla-yığıla, ağzı qulağının dibinə gedə-gedə, eybəcər-eybəcər gülən adamlara oxşayır. Adam ürəkdən güləndə gözləri yaşardığıtək qayaların da gözündən duzlu dəniz suyu axır. Bu "göz yaşı" – qayaların çopur-çopur oyuğuna dolan sular xırdaca bir mehdən (meh həmişə olur) çalxanır, qayanın başından oyuqdan-oyuğa süzülərək axır. RXMŞ müdirlərini görəndə qayalar daha bərkdən qəhqəhə çəkir. Hər qayadan başsız-bədənsiz iki əl – vəl boyda kişi əlləri müdirlərə sarı uzanır. Açıq ovuclarda həb. Dənizdən səs gəlir. Bu, deyəsən, Süleyman Sani Axundovun səsidir. Bəlkə general Tərlan Əlyarbəyovun səsidir? Bəlkə Cəmo Cəbrayılbəylinin səsidir? Bəlkə Ağabəy İsrafilbəylinin səsidir? Bəlkə Əliməmməd Mustafayevin səsidir? Bəlkə Mirzə Cavad Bağırovun səsidir? Bəlkə köhnə cəbhəçi, SSRİ Pedaqoji Elmlər Akademiyasının akademiki Mehdi Mehdizadənin səsidir? Dənizdən səs gəlir – elm, maarif, müqəddəslik, paklıq fanatiklərinin səsi! Dənizdən səs gəlir – peyğəmbər müəllimlərimizin səsi! Onlar tək-tək deyildi, çox-çox idi... İndi isə çoxluq – tərəzinin ağır gözü pis, pozğun, iki eşşəyin arpasını bölə bilməyən müəllimlərdən, kəmsavad, əliəyri, anasının əmcəyini kəsən maarif dəllallarından, məktəb parazitlərindən, universitet, institut, texnikum canavarlarından ibarətdir. Vaxtilə çoxluğu təşkil edən nurani (qoca mənasında yox) peyğəmbər müəllimlərimizin Sovet hökumətinin lap cavan, təzə, sütül vaxtında, tufanlı illərdə banditlə də, qolçomaqla da, mollayla da, nadanla da, faşistlə də döyüşə-döyüşə Bakıda və ən ucqar guşələrdə maarifin – Sovet maarif sisteminin, məktəbin, təzə məktəbin, əxlaqın, təzə əxlaqın, təzə dünyagörüşünün, Sovet hökumətinə rəğbət və inamın məş`əllərini yandırdılar, bu məş`əlləri uca tutdular, bu məş`əlləri sönməyə, söndürülməyə qoymadılar. Bəs indi? Bəs indikilər? Dənizdən səs gəlir, qayalardan əllər uzanır.

Səs:

– Qorxmayın, utanmayın, yaxın gəlin, yoldaşlar! Bu ovcuma qızıl qoyun, o ovcumdan ömür həbini götürün. Hərəniz on il də ölümsüz, itkisiz əlavə yaşayın, heç kimdən, heç nədən qorxub-çəkinmədən rüşvətxorluqla, dələduzluqla, Sovet hökumətinin gül kimi qanunlarnı pozmaqla, varlanmaq ehtirası, tamah ucundan nalayiq, zay müəllimlərə meydan verməklə, ağıldan, bilikdən kəm olan, vətən eşqindən bixəbər şagirdlər yetişdirməklə məşğul olun. Yaxın gəlin, müdirlər!

Müdirlər:

– Bu nə deməkdir, biz nə eşidirik, bura haradır? Bu nə mühakimədir? İns-cins olmayan bu qorxunc, kimsəsiz sahilə biz necə, nə cür gəlmişik? Nə üçün çıxıb getmirik? Nə ömür həbi? Nə qızıl? Gəlin birtəhər maşın yoluna çıxaq.

Dönüb getmək istəyirlər, dönə bilmirlər. Dəniz qəflətən elə gülür ki, sıra-sıra ağ dişləri görünür. Gülən qayalar şaqqanaq çəkir.

Səs:

– Ay müdirlər, hamınız dil-ədəbiyyat və ya filoloji fakültəni bitirməsəniz də, ixtisasınızdan asılı olub-olmayaraq "Ölülər" pyesindən xəbərdarsınız. Beləliklə, Kefli İsgəndər demişkən, lotusunuz, vurun bura! "İnımi slovami – raskoşelıvaytes!" Qızılları qoyun bura!

Qayalardan müdirlərə uzanan əllər böyüyüb addımlayan ekskavatorun çömçəsinə çevrilir. Müdirlər ciblərinin astarını da çevirərək qızılları növbəylə "ekskavatorun çömçəsinə" boşaldırlar.

Pıçıltılar:

– Əə, bu nə məsələdi, əə?

– Cibinin küncündə-bucağında bir-iki "sarı" saxla, səfeh.

– Hə də, cibimizi axtarmayacaqlar ki...

– Adə, hani pəs (bəs) bu ömür həbi?

– Qağa , qorx hələ bizi çəkib dənizdə qanımızı batırmayalar.

– Hökumətimiz terrorun, özbaşına məhkəmənin və icranın əleyhinədir. Məhkəmənin qərarı, prokurorun sanksiyası olmadan heç kəs vətəndaşa toxuna bilməz.

– Düzdür, hökumət belə deyir.

– Ancaq bəla burasındadır ki, bizi bura hökumət gətirməyib.

– Bəs kim  gətirib?

Səs:

– Sizi bura mən gətirmişəm. Nərimanların, Firudin və Üzeyir bəylərin, adları tariximizdə qalan-qalmayan işıqlı şəxsiyyətlər – oğul və qızlar nəslinin pak, rəncidə, qəzəbnak ruhu! Siz o qədər rəzil, o qədər yırtıcı, vətən, xalq, ziyalı, müəllim adını o qədər batıranlarsınız ki və ən dəhşətlisi – o qədər kütləvisiniz ki, siz bişərəfləri açıq-aşkar ifşa etmək, partiya biletinizi ucdantutma tutub almaq, sizi cismən məhv etmək heç bu hökumətin özünə də sərfəli deyil...

* * *

Maarif naziri görünür. O da sehrli qüvvənin cazibəsiylə bura – Gülən qayalara ömür həbi almağa çağrılmışdır. Bura biri-birindən xəbərsiz gətirilən adamlar görüşür.

Nazir qayibanə səsə:

– Biz heç bir qeyri-real varlığa, sehrə, qara qüvvəyə inanmırıq. Lakin bir anlığa tutaq ki, inanırıq. İnanırıq ki, bu səs xalq üçün, vətən üçün, balalarımız üçün, hətta fənalıqlarımız, çirkinliklərimiz üçün ürəyi od tutub yanan, yanğısını söndürmək üçün, qəzəbini yatırmaq üçün dənizdə məskən salan kapitan Nemonun, yəni bizim Nemolarımızın, ideal şəxsiyyətlərimizin simvolik vahid səsidir. Biz bu səsi eşidə-eşidə min dəfə ölüb-dirilirik. Vahimədənmi? Xeyr! Vicdan xəcalətindən.

Lakin hər şeyin üstündən qara kömürlə xətt çəkmək, pisi də, yaxşını da ayırd etmədən bir çuvala doldurmaq, ümumi bir nəticəyə gəlmək ki, bütün maarif şöbəsi müdirləri bişərəfdir, natəmizdir – olmaz!

Səs:

– Bəlkə də. Ancaq faciə burasındadır ki, "Ümumiləşdirmək olmaz!" – deyə-deyə gəlib ümumi bəlaya düçar olmuşuq. Bir nəfər pisi görüb susmuşuq. İki nəfər pisi görüb özümüzü görməməzliyə vurmuşuq. Üç nəfər pisi görüb baş qoşmamışıq. Dörd nəfər pisi görüb "görməmiş" olmuşuq. Beş nəfər pisi görüb "dəryada damcıdır" demişik. Demişik ki, ümumiləşdirmək olmaz. Demişik ki, tipik deyil. Demişik ki, bu Birlər, İkilər, Üçlər, Dördlər, Beşlər... əsl Sovet müəlliminin (şübhəsiz, ancaq Azərbaycan SSR nəzərdə tutulur) maarif xadiminin siması timsalı ola bilməz. Ancaq olub axı... olub axı... olub axı. Uşaq bağçasından, ibtidai məktəbdən başlanan rüşvət aspiranturayadək, lap hələ o yana gedib çıxır. Biz də, daha doğrusu, siz də deyirsiniz, ümumiləşdirmək olmaz. Əlbəttə, yoluxucu mikroblar yüz adamın qanına, canına birdən-birə daraşmır. O, əvvəl düşür birinə, sonra keçir yüz birinə. Belə halda medisina, təbabət ciddi, təcili "blokada tədbiri" görmək əvəzinə, durub desin ki, mikrob bir adama, hətta bir məntəqəyə düşüb də... onu ümumiləşdirmək olmaz. Xeyr, yoldaş nazir! Balıq başdan iylənir. Biz də deyirik: "Ay haray, ümumiləşdirmək olmaz". Nazir müəllim, yaxın gəlin, götürün bu həblərdən birini. Məsələn, bunu – on illik ömür həbini. Səksəni haqlamısınız, əlavə on il də ölüm-itimsiz, hətta zökəmsiz ömür! Sizin yaşamağınız lazımdır. Siz ideal, nöqsansız deyilsiniz. Haradasa, haçansa quru da, formalist də, səbirsiz də, əsassız da, laqeyd də, qorxaq da olmusunuz. Ancaq halal adam olmusunuz və halalsınız da! 1937-ci ilin gedər-gəlməzi, təqibləri unudulduqca, müharibənin yaraları sağaldıqca, qa-

rınlar, gözlər çörəkdən doyduqca, əyin-başlar paltarlandıqca, bolluq, firavanlıq artdıqca, yaşamaq asanlaşdıqca – arzusuzluq, məsləksizlik, idealsızlıq əmələ gəldi, əxlaqda, şüurda, düşüncədə deformasiya əmələ gəldi. Az bir qism dəyişmədi, mayeyi-cövhərindəki xalisliyi hifz etdi. Siz bu az qismə daxilsiniz. Döyüşən ordudan tərxis olunmuş ali məktəb müəllimi, namizəd, doktor, nazir, hökumət üzvü, akademik! Siz ömrünüzün bütün pillələrində haramdan, rüşvətdən uzaq olmusunuz və uzaqsınız. Götürün ömür həbini. On il siz fövqəladə, fövqəlbəşər ömür sürəcəksiniz. Kollegiya iclaslarında hər növ nadürüstü kəsə, qısa yolla ifşa edəcəksiniz.

Nazir:

– Başa düşdüm. Etimadınıza görə sağ olun!

Səs:

– "Etimad" sözünü başqa yerdə, başqa münasibətlə deyərsiniz. Rəsmi təltif zamanı və sairə... Bu yer, bu məkan başqa söhbətdir. Bura, bu haqq-hesab can yanğısının tüstüləri içində yaranmış xəyali bir aləmdir. Nə etimad, nə "sağ ol"?

Nazir:

– Məndə qızıl yoxdur. Şərtə görə axı ömür həbləri qızıla satılır.

Səs:

– Bu şərt sizə aid deyil.

Gülən qayaların üstünə dənizdən şövq düşür. Bu şövq qocaman rus dili müəllimi Əliməmməd Mustafayevin üzünün nurudur. Nur surətə çevrilir. Ağsaçlı müəllim görünür. Ovcundakı mavi həb sübhün toranında dənizin tünd mavisiylə qovuşur.

Əliməmməd müəllim:

– Oğul, götür bu ömür həbini. Tilova keçirmək üçün qumu eşib bircə qurd axtaranda, birinin əvəzinə milyardı daraşır adama. Bu adam-qurdlar da belədir. Onlara qarşı amansız ol! (Nazir həbi udur)

Gülən qayaların üstünə qapqara bir zolaq düşür. Zolağın içindən bu yaxınlarda ürəyi partlamış nazir müavininin boğuq sifəti görünür. Ölüm onun qanının arasına yaman girdi. Yoxsa, rüşvət üstündə tutub damlayacaqdılar. Nazir müavininin teyfi Dağ, Bağ, Yaylaq, Qışlaq, Şəhər kənarı, Şəhər dairəsi və sair RXMŞ müdirlərini bir-bir yanına çağırır:

– Tez olun, amma basabas salmayın, qızılları dənizə tökməyin, gəlin ömür həbinizi alın.

Müdirlər:

– Siz ölüsünüz, bizdən də natəmizsiniz. Siz vəzifəli, partiya və hökumətin etibarını tapdalamış zirehli rüşvətxorsunuz. Siz hansı mənəvi ixtiyarla bizə ömür həbi təklif edirsiniz? Hardan keçib əlinizə sehrli həblər? Soruşmaq ayıb olmasın, bəs özünüz bu həbdən niyə birini atıb həbsdən, ölümdən xilas ola bilmədiniz? Əksinə, sizi prokuror, müstəntiq əlindən, kameradan xilas edən ömür həbi yox, ölüm həbi oldu. Həmi?

RXMŞ müdirləri teyfə yaxınlaşarkən nazir müavininin surəti nazirin öz surətiylə əvəz olunur. Müdirlər növbə ilə qızılları Gülən qayaların oyuqlarına boşaldırlar. Qızıl cingintiləri dəhşətlə sahilləri başına götürür. Dənizin içindən qayalara, sahilə uzanan əllər müdirləri dərinliklərə çəkir... Tükürpərdici bağırtılar yavaş-yavaş kəsilir...

* * *

Nazirin kabineti. Telefon aparatları hey səslənir. Nazir mat-məəttəldir. Kollegiya iclasının şirin yerində maarif müdirləri ilim-ilim itib, qeybə çəkilib. Nazir sanki yuxu içindədir. Deyəsən, onun özü də qeybə çəkilmişdi, təzədən peyda olub. Telefon zəngləri müxtəlif yerlərdəndir. Mehmanxanalardan, xanımlardan, işgüzar adamlardan, rayon mərkəzlərindən, əlaqədar təşkilatlardan, milisdən, təcili yardımdan,

xəstəxanadan, suda boğulanları xilasetmə idarəsindən, ayıltma məntəqəsindən, morqlardan (ölüxanalardan), cinayət axtarış şöbələrindən, DTK aparatından...

Nazir zənglərə cavab verdikcə, daha doğrusu, cavab verə-verə özü də tələbkarcasına müdirlərin yerini soruşur.

Nazir:

– Mən tələb edirəm ki, ciddi axtarış aparılsın. Necə yəni "müdirlər necə oldu?" Bu sualı siz mənə yox, mən sizə verirəm. Kollegiya iclasının şirin yerində onlar birdən-birə yoxa çıxdılar. Yoxsa...

...Nazirin gözləri qarşısında nazirliyin bir çox məs`ul işçilərinin və bəzi rayon partiya komitələri birinci katiblərinin surətləri canlanır, səsləri eşidilir. Bir səs danışıq səsindən çox diş şaqqıltısı, diş qıcıltısına oxşayır.

Səslər:

– Möhtərəm nazir, eşitmiş olarsınız. Günlərin bir günü iki nəfər şəkili gedir hamama. Camadar, hamamçı hər ikisini maafi qaydayla qarşılayır, onlara fitə, sabun, can-kisə verib ötürür içəri. Bir müddət sonra şəkilinin biri buğlana-buğlana çıxır, hamamçı tez onun çiyninə saçaqlı qətfə salıb soruşur: "Bəs yoldaşın hanı?" Şəkili: "Ha yoldaşım çirkə çıxdı". Hamamçı: "Necə yəni çirkə çıxdı?" Şəkili: "Ha kisəçi yoldaşımı kisələdikcə bir də baxıb gördü ki, o, tamam piltə-piltə tökülüb yox oldu, axdı getdi qanova". İndi, şəkilinin sözü olmasın, kollegiyadakı RXMŞ müdirləri çirkə çıxdı. Neynirsiniz o murdarları?! Sizin təsdiqinizə elə kadrlar tapıb göndərəcəyik ki, lap əliyyül ə`la. Təcrübəli.

Nazirə tanış gələn bir surət, bir səs:

– Təcrübəli kadrlar. Nə təcrübəbazlıqdır? Kimə lazımdır onların təcrübəsi? Üzr istəyirəm, yoldaş nazir, məkr, fəsad, hiylə, fitva medalın bir üzüdürsə, sadəlövhlük, ultra-mədənilik, hamıya uşaq kimi inanmaq, hamını özü kimi düz və təmiz

bilmək, aldadılıb ələ salınmaq isə medalın o biri üzüdür.

Nazir diqqətlə baxır. O:

– Tanıdım, Azərbaycanın məşhur astro-fiziki. Nəinki təkcə Azərbaycanın... Fəxrimiz! Səlahiyyəti, imkanları çox, iddiası yox bir insan. Bu mühitin fonunda muzey eksponatı... Çox şadam, çox məmnunam. Ancaq, burda ataların bir sözü yadıma düşdü: "Kor kora "kor" deməsə, bağrı çatlar." Sizcə, əgər mən medalın ikinci – o biri üzüyəmsə və tutaq ki, belədir. Bəs siz necə? Siz çox mübarizsiniz? Çox ayıq, sərt, amansız, dönməzsiniz? Ətrafınız ulduzlar kimi nurlu adamlarla doludur və siz də buna inanırsınız?

* * *

Nazirin kabinetinə kimlərsə daxil olur. Deyəsən, inzibati yerdəndilər, aralarında bir nəfər ağ xalatlı adam var. Nazirdən ömür həbləri barədə söz xəbər alırlar. O, başına gələnləri yuxu kimi xatırlayıb nəql edir. Kiminsə əlindən hardasa, kimsəsiz bir yerdə həb alıb udduğunu söyləyir. Ağ xalatlı adam xəlvəti nazirin qoluna bıçaq sancır. Lakin nazir hiss eləmir. Ağ xalatlı adam nazirin o biri qoluna bıçağı daha dərin yeridir. Bu an adamın zikkəsi göyə çıxmalı, ayağının altında qan gölü yaranmalı idi. Fəqət nazir bədənində heç milçək təması da hiss etmir. Birdən ağ xalatlı adamın əlində qəribə aparat görünür.

Nazir ağ xalatlıya və kabinetə daxil olanlara:

– Siz kimsiniz, sizlər kimsiniz?

Vəsiqələr... Vəsiqələr...

– Biz Lazımi yerin xüsusi tibbi ekspert qruppasıyıq. Dünya tibb texnikasının son nailiyyəti hesab edilən bu yapon aparatıyla sizin qida borunuzu, mədə-bağırsağınızı müşahidə edəcəyik. Əziyyətsiz-filansız... və bircə dəqiqə.

Təsdiq və sübut edilir ki, nazir "ömür həbi" deyilən sehrli

həb udmuşdur. Bu həb orqanizmdəki maddələr mübadiləsinə, mədə şirəsinin həzm etmə, əritmə qüvvəsinə məruz qalmayacaq, təsir müddəti qurtarana qədər mədədə öz şəklini, rəngini saxlaya-saxlaya görünəcək. Bir də ki, ekspertin məqsədli bıçaq xəsarətinin nəticəsi... Köhnə arayışlarda yazıldığı kimi, bıçaq məzkura əsər eləmədi. Ekspertləri izahsız, təşbehsiz hiss-həyəcan bürüyür. Deməli, "ömür həbləri" şayiə deyilmiş, həqiqətmiş.

Vəsiqəlilər:

– Yoldaş nazir, hər halda maarif şöbəsi müdirləri harada olmuş olarlar, sizcə? Onların başına nə iş gəlmiş olar, sizcə?

Bu vaxt kabinetə məktəbli Ümid daxil olur.

Ümid:

– Vəsiqəli əmilər, dayılar, eşidin: maarif şöbəsi müdirləri əxlaqsızlıqlarına, rüşvətxorluqlarına görə, mövqelərinə, vəzifələrinə qətiyyən layiq olmadıqlarına görə, haram qızılları müsadirə edilməklə mühakimə olundular. Lakin bu məhkəmə prosesi bütün məlum prosessual qanunlara ziddən; Xəzərin dalğalı, qayalı, küləkli, coşğunluq, mərdlik və kişilik təlqin edən sahillərində keçdi. Bu məhkəmənin yalnız yerimi, məkanımı qeyri-adi idi? Yox. Onun həmçinin mahiyyəti də qeyri-adiydi. Bu məhkəmədəki müttəhimlər də, iştirakçılar da RXMŞ müdirləri özləri idi. Hakim qeyri-adi hakim idi – əlçatmaz ulduzlara çevrilmiş təmiz insanların, inqilab, partiya əqidəli xalq, vətən oğullarının səsi idi, ruhu idi, surəti idi! Prokuror hər kim idisə də hər halda Respublika Prokurorluğundan təyin edilməmişdi! Vəkil-məkil də yox idi.

Vəsiqəlilərdən biri özünü saxlaya bilməyib Ümidin üstünə yerimək, onu silkələyib hədələmək – atasının, anasının adını soruşmaq, hansı məktəbdə oxuduğunu bilmək, sinif rəhbərinin, direktorunun kim olduğunu öyrənmək, bu dilləri ona öyrədəni soraqlamaq istəyir. Lakin elə bil kişinin ayaqları

kosmik raket qurğusunda istifadə edilən yapışqanla parketə yapışdırılır. Digər vəsiqəlilər də o cür... Ümid onlara baxır, gülür və sözünə davam edir:

– Əgər adi məhkəmələrdə vəkili adam yerinə qoyan yoxdursa, bu qeyri-adi məhkəmədə o heç gərək deyil. Real vəkillərin ən bacarıqlısını, ən dilli-dilavərini iki qismə ayırmaq olar. Birincilər, yəni vasitəçilər – dəllallıqla bir şeyə nail olanlar. İkincilər daha bacarıqlılar – işin yenidən istintaqa qaytarılmasına müvəffəq olanlar. Bizim (ümumiyyətə qalanda) vəkillərin ən savadlısı, ən cəsarətlisi və ən yaxşı natiqi – tramvay-trolleybus kimi bir şeydir – başının üstündəki nazik cərəyan telindən asılısan. Vəssalam!

Vəsiqəlilər parketə kosmik yapışqanla yapışdıqlarını unudub Ümidin üstünə şığımaq, onu maşına basıb... aparmaq istəyirlər. Yox, istəməknən deyil ha! Və Ümidə müraciət edirlər:

– Axı, hər hansı cinayət əməli bütün istintaq mərhələlərindən sonra məhkəmədə araşdırılır. Əlbəttə, məhkəmə prosesi konkret məhkəmə salonunda keçməyə də bilər. Hər hansı ictimai binada da ola bilər. Ancaq maarif şöbəsi müdirləri prosessuala uyğun mühakimə edilməyiblər, fantastik şəraitdə amansızlıq və özbaşınalıqla, Sovet ədliyyə sisteminə, sosialist qanunçuluğuna protest ruhunda cəzalandırılıblar. Nə üçün belə?

Ümid:

– Çünki vəzifəli şəxslərin işinə heç kəs qarışmır. Çünki vəzifəli şəxslərin cinayətlərini müstəqil, göstərişsiz açmağa risk edilmir. Göstəriş isə iş-işdən keçəndən sonra və xozeyində yüz səksən dərəcə tərsinə, subyektiv münasibət yaranandan sonra verilir. Bu da olur sensasiya... adi, işgüzar məhkəmə olmur. Onda da tanıyan, tanımayan, bilən, bilməyən düşür həmin vəzifəli şəxsin üstünə. Müttəhimin illər boyu törətdiyi əsl cinayətlər qarışır yalançı şahidlərin yalan ifadələri əsasında

yapma, uydurma cinayətlərə. Hakim də, məhkəmə tərkibi də olur elə-belə icraçı. Bir məsələ də var: ifşa edilənin törətdiyi cinayətləri o tipli vəzifəli şəxslər məhkəmə gedə-gedə təkrar edir. Deməli, ləyaqətsiz adamların, partiyanın, hökumətin etibar və etimadını tapdalamış adamların qaldırılması da, endirilməsi də, öldürülməsi də qeyri-təbiidir. Belə karnaval məhkəmələr heç bir hakimə sərf eləmir. Rüşvət alan rüşvət ala bilmir. Tək-bir rüşvət almayan isə təmizliyini, müstəqilliyini sübut edə bilmir. Hər bir məhkəmə ibrət dərsi olmalıdır – Gülən qayalardakı məhkəməmiz kimi! Ömür həbi udmuş mənimtək adamların – Ölməz Kaşşeydən də ölməzlərin, yazıçı arzusuna, yazıçı fantaziyasına sığınmış adamların ifşa hədəfləri – Vaciblər! Əslində zibilin həyətlərdən vaxtında daşınması da çox vacibdir. Məsələn, kim sübut edər ki, hər cür azar-bezara səbəb olan zibilin vaxtında atılması pambıq yığımı kampaniyasından qeyri-vacibdir? Düşünmək lazımdır.

Birinci Vəsiqəli:

– Nəyi düşünmək, nə barədə düşünmək lazımdır?

İkinci Vəsiqəli hirslə yoldaşına:

– Nəyi düşünəcəksən, nə barədə düşünəcəksən, səhərdən antisovet zurnasını dirəyib qulağına, fülə ki, füləyəsən, sən də soruşursan "nəyi düşünmək, nə barədə düşünmək lazımdır?"

Üçüncü Vəsiqəli təmkinlə yoldaşlarına:

– Bəli, düşünmək lazımdır. Rüşvət aşağıdan yuxarı aləmi başına götürüb; özü də çox mühüm nöqtələrdə, pillələrdə, instansiyalarda. Məgər bu barədə danışmaq hökumətimizin əleyhinə çıxmaq deməkdir? Bizim inzibati orqanların çox böyük qüsuru, hətta cinayəti ondan ibarətdir ki, hər növ hadisənin, törənmişin, olub-qurtarmışın üstünü fövrən kəsdirməyə tələsirlər. Dəridən-qabıqdan çıxırlar ki, özlərini həlak edirlər ki, əllərində əşyayi-dəlil, birbaşa sübut olsun, daha çalışmırlar ki, hər fəna əhvalat heç baş verməsin. Mə-

sələn, bu yaxınlarda sükan arxasında gəlirdim. Qarşısı görünməyən korbucaqlı bir döngəyə yaxınlaşdım. Döngə eləydi ki, onun qövsü eləydi ki, hansı sürətlə gəlirdim o sürətlə də keçib gedə bilərdim. Ancaq sürəti azaltdım. Bu zaman...

Kadr:

Döngə qövsünün tən ortası... Avtomobil müfəttişi... Sarı, yüyürüksüz (lyulkasız) motosikl. Motosikl yanpörtü dayanacaq qarmağına söykənib, antenna yellənir, ratsiyadan səslər gəlir. İnspektora, dornadzora demək olmaz ki, o gizlənib, pusquda durub. O, yolun hər hansı hissəsində, nöqtəsində dayana da bilər, hər hansı istiqamətdə hərəkət edə də bilər, hara harda istəsə dönə də bilər. Bir şərtlə: buna operativ ehtiyac varsa. Ancaq bu yoldaş bu yolda daş marığa yatıb, pişik sərçəni marıtdayan kimi pusquda durub. Durub ki... dayanıb ki... Zolaq-zolaq ağac maşının burnuna toxunur. Maşını saxlayıram.

– Kiçik leytanant Qafarəliyev.

– Buyurun.

– Sənədlərinizi.

– Nə barədə?

– Sənədlərinizi.

– Sənədsizə oxşamıram mən. Ancaq hər halda bir bilək də...

– Sənədlərinizi!

– Axı, nə səbəbə məni yoldan eləmisiniz?

– Sənədlərinizi!

– Bəlkə mən bir yerə tələsirəm, kimsə mənim təxirsiz köməyimə möhtacdır.

– Sənədlərinizi!

– Buyurun, – deyə sürücülük vəsiqəmi, maşınının texniki pasportunu, texniki baxışdan keçmək barədə qəbzi inspektora – kiçik leytenanta təqdim edirəm. O nə mənə, nə sənə, izah-

sız-filansız talonda deşik açmaq istərkən, mən onun biləyindən yapışıb, bir növ, sambistlik edirəm, deşikaçan basma əlindən düşür, biləyinin ağrıdığını büruzə verməyib, sol əliylə belindəki qoburu əlləşdirir... və:

– Dövlət nümayəndəsinə müqavimət?!

Mən:

– Xeyr, bilə-bilə pusduqa duran, rəftarsız, təmənnalı dələduza müqavimət!

O:

– Dövlət Avtomobil Müfəttişliyi nümayəndəsinin, əməkdaşının şəxsiyyətini təhqir?!

Mən:

– Xeyr, bu ada, bu vəzifəyə layiq olmayan şəxsiyyətsizi şəxsi tənbeh! Əgər sən həqiqi DAM işçisi, cavan zabit, yol nəzarətçisisənsə, camaata ürəyin yanırsa, qəzaların qarşısını almaq, sayını azaltmaq niyyətindəsənsə, nə üçün yolun lap uzaqdan görünən açıq hərəkət hissəsində dayanmırsan? Heç olmasa ən məsuliyyətsiz sürücü belə, səni görüb, tutaq ki, lap elə qorxusundan özünü yığışdırsın. Nə üçün işarə etmirsən ki, "qabaqda korbucaqlı döngə var!" Nə üçün əhvalat vaqe olandan sonra ley kimi adamın başının üstünü alırsan? Sən Pribaltika respublikalarında olmusan?

O:

– Mən bu saat sənə "Pribaltika" göstərərəm.

Hərbi geyimdə şəklim olan xidmət vəsiqəmi göstərirəm. O, ayaqlarını cütləyib, farağat əlini gicgahına aparır:

– Üzr istəyirəm, yoldaş polpolkovnik! Buyurun sənədlərinizi. Olur də. Adamın alnına yazılmır ki...

Mən:

– Adamın vicdanına, şüur və səviyyəsinə, vəzifə səlahiyyətinə və göz bəbəklərinə yazılmalıdır. Yol-hərəkət qaydalarını pozmuş olsaydım, sən niyə məndən üzr istəməliydin,

sənədlərimi qaytarmalıydın? Kim olursan ol, sükan arxasında qanun hamıyçın birdir. Sən qorxundan üzr istəyirsən, sənin işin-gücün haqq-nahaq maşınları əylədib pul qoparmaqdır. Sovet hökumətinin əsl həyasız, dilənçi düşməni sənsən. Sən bütöv bir sistemi camaatın gözündən salıb ona qarşı nifrət oyadırsan. Halbuki, nəqliyyatı bir saat DAM-sız, nəzarətçisiz təsəvvür etsək, şəhərlərdə, yollarda görün nə olar. DAM lazımdır və DAM-a layiq adam lazımdır, sən lazım deyilsən, sənin kimilər lazım deyil. Motosikl qoy dursun burda, keç əyləş maşına.

O:

– Siz mənə heç nə sübut edə bilməzsiniz.

Mən:

– Əyləş maşına!

Kadr:

Maşında gedirik. Bir nəfər əl qaldırır. Saxlayıram.

Piyada:

– Xaloğlu, mən taksi şoferiyəm. Rotor sınıb, maşını qoymuşam dal döngəyə, mən ölüm at məni o profilaktoriyaya.

Mən:

– Əyləş.

Gedirik. Radionun "Araz" proqramını tuturam. Maraqlı xəbərlər. Diktor:

– San-Fransiskoda bir nəfər neçə min dollarıq şərtləşməyə əsasən yeddi il ərzində bütöv bir yük maşınını yeyib qurtarmışdır.

Bu dəm dal oturacaqda inspektorla yanaşı oturmuş taksi şoferindən bir şaqqanaq, qaqqanaq qopdu ki, az qaldı, sükan əlimdən çıxsın.

Taksi şoferi:

– Alə, o San-Fransiskolu burda olseydi, mən ölüm başına ikiəlli elə qapaz əndərərdim ki, gözləri təzə maşının faraları

kimi işıq salardı. Yeddi ilə bidana maşın yeyib, lap olsun qurzavoy. Hərifdü o San-Fransiskolu. Bizim taksimotor parkının direktoru gündə yüz maşın yiyir: yağından, benzinindən, pakrişkasından, zapçastından tutmuş şoferinəcən. Saxla, xalaoğlu, mən çatdım, çox sağ ol. (Əlini cibinə salmaq istəyir, qoymuram.)

– Ayıbdır, düş get.

* * *

Birinci Vəsiqəli:

– Bəs sən, podpolkovnik, nə düşündün? DAM əməkdaşını o cür ümumiləşmiş şəkildə rüsvay etmək, taksi şoferinin o cür ağzıboş danışığına bir vəsiqəli kimi dözmək düzgündürmü?

İkinci Vəsiqəli:

– Unutmayaq ki, biz biri-birimizin üstündə gözük.

Üçüncü Vəsiqəli:

– Bəli, gözük.

– Onda qulaq asın, ay "Gözlər"!

Bütün zəncirləri qəzəblə qırdıq,
Oraqlı-çəkicli bir aləm qurduq.
Çiləndi qanımız torpağımıza,
Qanımız çevrildi bayrağımıza,
İnqilab odunda bərkidik, bişdik,
Nazilib iynənin gözündən keçdik.
Ölüb-dirilsək də, dözdük hər şeyə,
– Səadət, həqiqət, ədalət, – deyə,
– Halal çörək, – deyə, Bir sifət, – deyə,
– Doğruluq, təmizlik, mərifət, – deyə.
Fəqət, düşünürəm gözlərimdə qəm.
Əksər partbiletli bu həşəratlar ,
Heç kimi saymayan bu mazaratlar.

Gül kimi saf qanı soran zəlilər,
Yurdumun qəsdinə duran zəlilər.
Nə şəkil törəyir, nə şəkil artır?
Fikri, qanaəti hayana dartır,
Altımış yaşı var dövranımızın,
Dünya hesablaşır qüdrətimizlə.
Gün kimi, Ay kimi vicdanımızın
Haqqı var fəxr edə Dövlətimizlə.
Ulduza uçuruq, Aya uçuruq,
Çətin düyünləri asan açırıq.
Bütün tarixləri varaqlayırıq,
Bütün yer üzünə gün ağlayırıq...
Fəqət, düşünürəm gözlərimdə qəm:
Qan içən, qan soran bu həşəratlar,
Heç kimi saymayan bu mazaratlar
Nə şəkil törəyir, nə şəkil artır?
Bu xalqı, milləti hayana dartır?

Birinciylə ikinci üçüncü Vəsiqəliyə:
– Bunu sən – Vəsiqəli podpolkovnik deyirsən?
– Bəli, bunu siz demirsiniz, mən deyirəm.

* * *

Gecə. Gecənin zülmətinə qızıl-qızıl düymələr düzülür. Kimdir bu dərzi? Kimdir bu düymələri düzən və tikən? Yanardağ! Yanardağın sehrli, yaraşıqlı alovları, od barmaqları! Üç nəfər Vəsiqəli Yanardağa yaxınlaşmaqdadır. Onlar iradələri fövqündə, özlərindən asılı olmayaraq bura gəlirlər, daha dəqiq, gətizdirilirlər. Yanardağ sağdan sola əlvan projektorlarla işıqlandırılmış teatr səhnəsinə oxşayır. Ancaq gecənin zülmətini Yanardağdan daha çox bir ovuc adamın işıqlı vicdanı işıqlandırır. Adətən, "bir ovuc adam" ifadəsi mənfi

mənada işlədilir: "bir ovuc əliəyri", "bir ovuc tüfeyli", "bir ovuc məsləksiz" və sairə. Burada isə "bir ovuc adam" yaxşı mənadadır. Yəni yaxşılar ovuca yerləşəcək dərəcədə azdır. Belə bir kəmiyyət-keyfiyyət tərs praporsiyası bütün formasiyalara aid olub, aiddir, aid olacaq. Belə əyyami-qadimdən yaxşı pisdən, qızıl misdən az olub. Yox, elə bir məqam çata bilər ki, bir qarış mis məftil üçün bir kisə qızılın ola-ola avara qalarsan. Qızılla misin müqayisəsi məcazidir. Yox, yenə olmadı. Nöşün ki, bir kisə qızılın olsa ekvator uzunluğunda mis məftil sürünə-sürünə gəlib qıvrılar ayaqlarının altında. Atalar həmişə deyib: "Dünya xali deyil, dünyada yaxşı adamlar da var".

Bəli... Yanardağda xeyli adam var. Vəsiqəlilər hay-huyla, qarışıq səslərlə qarşılanır. Qalayçı Əlbəndə görünür. O, daş üstündə əyləşib. Qıçlarının arasında təzəcə qalaylanmış, ay kimi şövq salan mis qazan var. O, qazanı nağara kimi çırtmalayır və arabir deyir:

– Həə, həə, həəəhəə, həə...

Alovlar içində bir dəstə adam rəqs edir, rəqs edə-edə yanıb kül olur, sonra yenidən canlanır və yana-yana rəqs edir. Kimdir bu adamlar?! Əməllərinə görə, törətdiklərinə görə cinayət məcəlləsiylə çox yüngül cəzalandırılmış və ya heç cəzalandırılmamış – sağ-salamat yaramazlıqlarını davam etdirənlər! Kimdir hakimlər? Bir ovuc təmiz adam. Kimdir konkret baş hakim? Çox tanış bir surət. Astro-fizik, Azərbaycan akademiki. Azərbaycan alimi. Bakının Şağan kəndində anadan olmuş Azərbaycan oğlu!

Belə bir özbaşına inkvizisiya həngaməsi qurmağı ona kim icazə verib? Ondan soruşmazlarmı ki, bu müdhiş rəqs ansamblını təşkil və idarə etməyi sənə kim həvalə edib? Təmiz, təvazökar olanda nə olar? Sən hansı dövrün adamısan? Şəxsən sənin özünü tutub belə "rəqsə" "dəvət" etməzlərmi? Qubadlılılar demişkən: "Hı, yoldaş astronom?!"

Astronom:

– Yox, etməzlər, edə bilməzlər.
Astronom özü də özündən xəbər alır: "Niyə, balam?"
Yanardağın dövrəsində xor başlanır – cin-şəyatin xoru:

Yar yaman aldatdı məni,
Məni, niyə, balam?
Aldadıb oynatdı məni,
Məni, niyə, balam?

Əzabkeşlər "niyə, balam" ritmində rəqs edir. Astronom öz-özündən bir də soruşur: "Niyə, balam? Niyə sənə heç nə etməzlər, etmək istəsələr, edə bilməzlər? Alimin qulağına səs gəlir:

– Ona görə ki, sənin ömür həbini ən uzaq bir ulduz, ən məchul bir planet göndərib. Çünki sən ömrün boyu dünya malına şövqün, hərisliyin, qənimətin, pis mənada, acgözlük mənasında "dal günün" (yoxsa dal günü düşünməyən səfehdir), lovğalıq və çəkişmənin, rüşvətin, riyakarlığın, mövqeyindən, nüfuzundan, vəzifəsindən sui və qeyri-sui istifadə etməyin nə olduğunu bilməmisən, Ayla, Günəşlə, ulduzlarla, bütöv qalaktika ilə pıçıldaşmısan, gözünün ağını-qarasını teleskop linzalarında qoymusan.

Astronomun, bu yaraşıqsız kişinin qarşısında boyu iki metr olan Afrodita, Venera, Mariya Maqdalina, Yelena, Brezeida, Xrezeida, Medeya, Tomris, Cülyetta, Dezdemona, Leyli, Şirin, Burla xatun, Banu Çiçək, Gülşa, Gülgəz, İzolda, Məhsəti, Natəvan, Lesya Ukrainka tipli bütün nadir mənəvi keyfiyyətləri və hüsnü-camal heyrətamizliyini özündə cəm edən ümumiləşmiş bir gənc qadın dayanır. O bizim planetin adamına oxşamır. O gənc qadın gecəyarı özgə, naməlum planetdən uçan nimçə ilə Yanardağın qənşərində yerə enmişdir. O qeyri-adi gənc qadın akademiklə üzbəüz dayanıb deyir:

– Baxın, sizin başınızın üstündəki o ulduz kürreyi-ərzin bütün qaş-daşlarından, brilyantlarından müqayisəsiz dərəcədə qiymətlidir, böyükdür. Həmən ulduz sizin həb payınızı mənim ovcuma qoyub göndərib. Bu ömür həbi zaman məhdudiyyəti fövqündədir. Bu ömür həbinin haqqını allah və qalaktika dərgahında həmən ulduz ödəyib. Bu ömür həbindən sizin iradə və istəyinizlə neçə-neçə beş illik, on illik, on beş illik həb törəyə bilər. Bəli, ey müqəddəs astronom, kimə, kimə olmasa da, sizə məlum olmamış deyil ki, süni peyklər, lunaxodlar, vımpellər, raketlər, kontinental stansiyalar və sair qanadlı əhvalatlar – hansılar ki, insan əqliylə, insan əliylə ixtira edilib və insana tabedir – bax, onlar istisna edilərsə, heç bir təbii səma cismi çörəyi burnuna yemir... Başda Günəş, Ay, gözlə və aparatla görünən ulduzlar olmaqla – bütün təbii səma cisimləri Yer planetindəki adamların həm batinini, həm zahirini çox əla görür. Bəli, möhtərəm astronom, başınızın üstündə bərq vuran həmən ulduz da məhz sizi çox əla müşahidə edib. Elə bilirsiniz sizin müşahidə etdikləriniz qayıdıb sizi müşahidə edə bilməz?

Gənc qadın ovcunu açır... astro-fizik əbədiyyət müddətli ömür həbini götürür.

* * *

Yanardağın alovları ilan kimi qıvrılır, fışıldayır, xışıldayır. Baş hakimin sağında Sərhəd Qoşunlarında xidmət edən yüksək rütbəli zabit, solunda az tapılan, defisit sayılan, nadir muzey eksponatına dönmüş, hər cəhətdən təmiz, layiqli orta məktəb müəllimi. Yəni bu üçlük – astronom, sərhədçi, müəllim idealdır, tam qüsursuzdur? Xeyr, çünki xalis, tam qüsursuz anlayışı olmayıb, yoxdur, olmayacaq. Bu üçlük böyük və nazik nisbiliklə qüsursuzdur.

Hakim:

– Vəsiqəli Zəliyev, irəli gəlin!

Sağdış hakimin qulağına pıçıldayır ki, Zəliyev yox, Ənzəliyev.

Vəsiqəli:

– Mənim familim Ənzəliyevdir, təhrif etməyin.

Hakim:

– Üzr istəyirəm. Yaxşı, Ənzəliyev, niyə mülki paltardasınız? Çekist təvazökarlığı, çekist gözəgörünməzliyi mənasında, eləmi?

Vəsiqəli:

– Bunun sizə nə dəxli? Siz niyə mənə istehza edirsiniz? Və ümumiyyətlə bu nə teatrdır?

O, əlini silaha atır, barmaqları plastilinə dönmüş tapançanın dəstəsinə yapışır, qopmur.

Hakim:

– Hə, Ənzəliyev. Bilirsiniz biz kimik? Ürəkdən tikan çıxaranlar. Sən və sənin kimilər cəmiyyətimizin ürəyinə batan tikandır. Yanındakı o mülki paltarlı da sənin tayın. Partiya hələ o zaman QPU, ÇK dövründə kadrların yetişdirilmədiyi, çatışmadığı bir dövrdə inqilabın, onun nailiyyətlərinin, gənc Sovet Hökumətinin keşiyində dayanan bu orqanın vəzifəsini səhv başa düşənləri, başa düşmək istəməyənləri cəzalandırırdı.

Vəsiqəli:

– Mənim konkret günahım? Bilmək istəyirəm, bilmək...

Hakim:

– Açıq başla fikirləşənləri, qüsur və kəsirlərimiz barədə düşünənləri düşmən, əleyhdar etməkdir – sizin günahınız. Mən “siz” sözünü cəm, iki nəfər olduğunuz üçün işlədirəm, hörmət mənasında yox.

Vəsiqəli:

– Hörmətiniz qalsın özünüzə. Ancaq biz üç nəfərik.

Hakim:

– Üçüncü nəfər sizə qatılmır. O elə istənilən, arzu ediləndir ki, var. Sizin istehzanıza "məruz qalıb", hələ forma da geyib.

Hakim sağına və soluna müraciətlə:

– İki nəfərin cəzası nə olsun?

Müəllim:

– Vəsiqələrini təhvil verib getsinlər.

Sərhədçi:

– Silahlarını təhvil verib getsinlər.

Tərksilah və tərksənədlər qaranlıqda yoxa çıxırlar.

Sehrin qüdrətiylə plastilinə çevrilmiş silahlar sehrin qüdrətiylə əsl tapançalara dönür. (Hakimlərin əlində)

Müəllim:

– Möhtərəm hakim, bir az amansızlıq eləmədik ki?

– Xeyr, eləmədik, ona qalsa, məndən yumşaq, kövrək, güzəştli adam yoxdur. Lakin bunlar çox kəmfürsət adamlardır. Kəmfürsətə qarşı həmişə amansız olmaq lazımdır.

Kəmfürsət əlinə düşəndə fürsət,
Sərin meh istəsən, qış gətirər o.
Birinin börkünə etsən işarət,
Börk ilə bərabər baş gətirər o.

Əlbət ki, Vəsiqəlilərin hamısı belə deyil. Milis işçilərinin hamısı belə deyil. Hakimlərin, Xalq iclasçılarının hamısı belə deyil. RXMŞ müdirlərinin hamısı belə deyil. Əlbəttə, dünya pislərdən ibarət deyil. Başdan-başa qaranlıq və ümidsizilik yoxdur! Bunun tam əksi də yoxdur! İdeal cəmiyyət – hədyandır, xülyadır, əfsanədir! Cəmiyyət – cəm – insanların cəmi deməkdir. Bütün insanlar isə xalis cins və xalis nacins ola bilməz. Ancaq nə var?! Daş-tərəzi var, tərəzinin yüngül və ağır gözü var. Pisin yaxşıya, yaxşının pisə nisbəti var.

Hakim üçüncü Vəsiqəlini – rəsmi hərbi paltarda olan podpolkovniki görür.

Hakim:

– Alın, udun bu on beş illik yaşıl ömür həbini. Yaşıl yaşıllıqdır, canlı təbiətdir, floradır, ilk və son bahardır, müqəddəs, toxunulmaz sərhədlərimizin rəmzi, sərhədçi furajkalarının rəngidir. Yaşıllıq müdriklik və dərinlikdir. Dənizin ən dərin yerinə küləksiz havada sahildən diqqət yetirsəniz, o sizə yaşıl görünər. Yaşıllıq tüstüsüz-qurumsuz alovdur.

Birdən hakimlər və Vəsiqəli podpolkovnik Yanardağa baxırlar. Yaşıl alovlar zülmətin köynəyini dəlib çıxır. Yaşıl alovlar yaşıl güllərdir, çiçəklərdir.

HakimVəsiqəli podpolkovnikə:

– Siz on beş il hər cür cismani və ruhani müdaxilədən azadsınız. İnsaniyyətinizi, şüurunuzu əldə məş`əl edib lap Feliks Edmundoviçin özü kimi, özündən də artıq cəsarətlə əsl inqilab cəngavəri kimi hərəkət edin! Siz bədəninizdə əriyib qanınıza, bütün hüceyrələrinizə qarışmış bu kimyanın, bu sehrin gücünə arxalanıb hər şəkildə, hər şəraitdə hər nadürüstlə, haqsızla, təhlükəli, iftiraçı, təhrifçi demaqoqla açıq-aşkar döyüşə girişəcəksiniz. Həmişə mütləq qalib gələcəksiniz. Tribunalarda, daha doğrusu, yüksək tribunalı böyük, nüfuzlu yığıncaqlarda, bütün ictimai yerlərdə ürəklərdə paqqıldaya-paqqıldaya sönən vulkanları siz, siz, siz təlatümə, tüğyana gətirəcəksiniz. Xüsusən Vəsiqəlilər arasındakı təsadüfləri, qansız, sadist yekəbaşları, yaramazları siz mənən və cismən məhv edəcəksiniz. Sizin barənizdəki bütün hökmlər, sanksiyalar, töhmətlər, tədbirlər, əmrlər, əgər qərəzli, subyektiv isə, təsirsiz qalacaq. Yox, əgər ömür həbindən istifadə edib haqsızlığa yol vermiş olsanız, onda həmən kimya qaşla-göz arasında haqq-hesabı çürüdən zəhərə çevriləcək. Bir gül ilə bahar olmasa da, hər halda bir gül baharın əlamətidir. Gülə baxar,

güllər açılar, güllərə baxar, könüllər açılar, könüllərə baxar, dillər açılar, dillərə baxar, əllər açılar. Udun ömür həbini!

Podpolkovnik həbi udur. Hakim – Azərbaycan SSR Elmlər Akademiyasının akademiki, astronom baxır və gözünə inanmır. Bu ki, onunla yanaşı əyləşən sərhədçi zabitdir. Bir adam – iki adam? İkiləşmək? Yox, ikiləşmək yox, eyniləşmək, ümumiləşmək!

* * *

Addım səsləri... Qaranlıqda, Yanardağın alovları fonunda işıqlı surətlər görünür. Bunlar sualtı gəmilərin komandirləridir, poladəridənlərdir, körpüsalanlar, tunel çəkənlərdir, şaxtaçılardır, neftçilərdir, pambıqçılardır, kosmonavtlardır, sağ ikən adı, famili, ünvanı bildirilməyən – mühüm dövlət sirrinə çevrilən ixtiraçı alimlərdir, sərt Uzaq Şimal ekspedisiyaçılarıdır, insan ömrünü istər-istəməz kəm eləyən zərərli sahələrdə çalışanlardır.

Hakim:

– Gəlin, yoldaşlar! Sizi qeyri-adi təlqin siqnalları ilə mən çağırmışam. Buyurun, alın bu ömür həblərini!

Müəllim (üç hakimdən biri) soldış hakimin qulağına pıçıldayır:

– Xasiyyətinə, mənəviyyatına bələd olmadığımız adamlara, özü də kütləvi şəkildə ömür həbi bəxş etmək olar? Hələ onu demirəm ki, müftə müsəlləm. Bəs bunun qızılını kim ödəyəcək?

Hakim:

– Əvvəla, bu adamlar kütlə deyil. İkincisi, bu adamlar zəhmətin, çətinliyin, fədakarlığın, ölüm təhlükəsinin son həddində, ön səddində dayananlardır. Onların coşğun və yorğun qəlbində, konservləşmiş etiqadında məkrə, hiyləyə, tamaha, satqınlığa, boşboğazlığa, namərdliyə yer ola bilməz. Bu adamlar məhdud,

hardasa birtərəfli ola bilərlər, ancaq natəmiz, dələduz, inamsız ola bilməzlər, romantikasız ola bilməzlər. Razısınız?

Müəllim:

– Razıyam.

Hakim:

– O ki, qaldı "ömür həblərinin qızılını kim ödəyəcək?" məsələsinə – onu ödəyəcək natəmizlərdən müsadirə edilmiş və ediləsi qızıllar!

* * *

Ayın nuru get-gedə çoxalır. Çünki Ay bədirlənir. Gümüş şəfəqlər Yanardağın qızıl alovlarına qarışır. Baş hakimin dəvət etdiyi həmən adamlar əl-üzünü bu qızıl-gümüş suyunda yuyub və bir daha pak edib, növbə ilə on beş illik yaşıl ömür həbini alıb udurlar.

Bu zaman ətrafı tükürpərdici, qulaqbatırıcı zəlzələ uğultusu bürüyür. Müxtəlif qiyafəli, müxtəlif biçimli adamlar astronomun, sərhədçinin, orta məktəb müəlliminin – məhkəmənin üstünə sellənirlər. Onlar porsuq, köstəbək, kaftar, siçovul, çaqqal, tülkü, canavar şəklindədirlər və hamı adi insan səsiylə, adam kimi danışır. Hamı kişi xeylağıdır. Ancaq "xeylağı" – vəssalam!

Sərhədçi baş hakimə pıçıldayır:

– Bu nə məsələdir, bunlar bura necə gəliblər, nə üçün gəliblər? Bunları Yanardağa kim gətirib çıxardı? Qorxunc axındır, iyrənc seldir. Bəlkə müdafiə üçün bir tədbir görək? Ehtiyat igidin yaraşığıdır.

Hakim:

– Sən unudursan ki, biz – hər üçümüz qeyri-adi fizioloji, psixoloji vəziyyətdəyik. Cismani və mənəvi toxunulmazlıq amanındayıq. Hətta tək-tək hüceyrələrimiz belə, qeyri-adi

zireh içindədir. Bəs söhbət də elə burasındadır də. Bu idbarları, yassarları, kifirləri bura mən yönəltmişəm, mən çağırmışam. Qulaqları mənim dəvətimi alıb gəliblər. Əllərindəki balaca torbalara fikir ver, torbalar qızılla doludur. "Kişilər" ömür həbi almağa gəlir. Qoy gəlsinlər.

* * *

Porsuq-adam:

– Bu mənim haqqım. (Qızıl torbasını qırmızı örtüklü stolun üstünə boşaldır)

Sual:

– Vəzifən?

Cavab:

– Ən yağlı yerin müdiri.

Sual:

– Nə istəyirsən?

Cavab

– Ömür həbi.

Sual:

– Nə üçün?

Cavab:

– Darvinizmin əsaslarını əməlli-başlı öyrənməkçün. Rəhmətliyin nəvəsi! Nə üçün istəyəcəyəm? Bir az da arxayın, bir az da rahat yaşamaq üçün, tülkünün, çaqqalın, canavarın dişindən-caynağından qorxmamaq üçün. Nə üçün? Nə üçün? Fələstin ərəblərinin taleyini düşünmək üçün. "Nə üçün? Nə üçün?"

– Yaxşı, çəkilin durun qıraqda.

Köstəbək-adam:

– Bu mənim haqqım. (Qızıl torbasını qırmızı örtüklü stolun üstünə boşaldır)

Sual:

– Vəzifən?

Cavab:

– Zirzəmilərdə (podvallarda) yerləşən bütün anbarların müdiri.

Sual:

– Nə istəyirsən?

Cavab:

– Ömür həbi.

Sual:

– Nə üçün?

Cavab:

– Efiopiyanın Müvəqqəti İnqilab Hökumətinin sədri, podpolkovnik Mengistə Haylo Mariamın canına dua etmək üçün. Mən bu köstəbək vücudum, köstəbək sir-sifətimlə ondan min dəfə yaraşıqlıyam. Heç rəvadır ki, bu boyda hökumətin ağsaqqal rəhbərləri biri onun sağında, biri onun solunda aerodromda üç qoşun növündən ibarət fəxri qarovul önündən keçsinlər?!

Raport:

– Tovariş predsedatel Vremennoe Revolyutsionnoe Pravitelstvo, v çest vaşeqo priezda v stolitsu Soyuza Sovetskix Sosialistiçeskix Respublik, qoroda-qeroya Moskvu (e, ı, a) voyska Moskovskovo qarnizona postroena. Naçalnik poçetnovo karaula mayor Makarov.

Deyəcəksiniz, diplomatiya xatirinədədir, sülh, sosializm cəbhəsinin möhkəmlənməsi naminədir bu tamaşa! Lap yaxşı.

Müəllim (öz-özünə): Pah atonnan, ürəyi doluymuş ki, bu köstəbəyin. Akademik Saxarov bu köstəbəyin yanında yalanmış ki.

Hakim (köstəbək-adama):

– Yaxşı, çəkil dur kənarda.

Siçovul-adam:

– Bu mənim haqqım. (Qızıl torbasını qırmızı örtüklü stolun üstünə boşaldır):

– Qatarların tamburlarında, təyyarələrin dəlmə-deşiyində, gəmi anbarlarında, yük maşınlarının kuzovunda, səyyar səhra mətbəxləri karvanında Uzaq Çindən qaçıb gəlmişəm. Orada məndən ağlasığmaz, baxıla bilməz işgəncə aləti, işgəncə vasitəsi kimi istifadə edirdilər. Təhlükəsizlik və digər inzibati orqanların cəllad müstəntiqləri mənə insan bədəni yedizdirirdilər. Məni ac saxlayıb günahını boynuna almayan əli-qolu bağlı adamın lüt canına salışdırırdılar. Əksəriyyətin elə o saniyə ürəyi partlayırdı. Dözə bilməyib qaçdım. Əvvəla, mən sırf zooloji-fauna anlayışında siçovul yox, Siçovul-adamam – rəmzəm. İkincisi, hiss etdim ki, bu həriflər mənim özümü daha qüvvətli siçovula yedizdirmək istəyirlər. Mən sizdən ömür həbi ummuram. İstəyirəm siçovulluğumu yox edəsiniz, adamlığım qalsın. Bu qızıllar rüşvət deyil. Onları siçovulun qızıla hərisliyi ilə toplamışam, oğurluq deyil. Alın, məni xalis adam eyləyin!

Hakim:

– Hə, Siçovul-adam, sənin xahişin müşkül xahişdir. Bizim sehrimizin təsir qüvvəsindən xaricdir. Sən başqalarının əlində alətə çevrilən, həyatda öz yerini tapa bilməyən bədbəxtlərdənsən. Sənə ömür həbi düşmür. Nə satmaq olar, nə bağışlamaq. Qızıllarını müsadirə etmək də olmaz. Bəla burasındadır ki, səni xalis, başdan-ayağa siçovul şəklinə salmaq da mümkün deyil.

Siçovul-adam:

– Bəs mənim yolum?... Bildim, tanıdım, gördüm, – deyə özü də cavab verir və Yanardağın alovları qoynuna addımlayırmı, sürünürmü, şütüyürmü deyək... Alovlar onu ikrahla rədd edir. Bəli, Siçovul-adam bu aralarda vurnuxacaq, özündən asılı olmayaraq xəlvət məqamlarda tək-tənha adamların gözünə görünəcək, qeyri-ixtiyari ziyankarlıq edəcək.

* * *

Tülkü-adam:

– Bu mənim haqqım. (Qızıl torbasını qırmızı örtüklü stolun üstünə boşaldır)

Hakim:

– Vəzifən?

Tülkü-adam:

– Vəzifəm yoxdur.

Hakim:

– İşin, peşən, sənətin?

Tülkü-adam:

– Mən, demək olar ki, şüurlu həyatıma qədəm qoyduğum gündən multfilmlərdə tülkü rolunda çəkilmişəm... Tülkü kimi səsləndirilmiş, danışdırılmışam. Şərti. Şərtilik qalsın şərtiliyində. Atın, itin, pişiyin, eşşəyin, canavarın və başqalarının konkret səsi, ulartısı, nərəsi və sairə dili var. Ancaq tülkünün yoxdur. Nə isə, mən sifətimə tülkü yaltaqlığı, tülkü bicliyi, tülkü hiyləgərliyi verdim, tülkü üçün səs, dil, səs vibrasiyası, ifadə tərzi yaratdım ki, gəl görəsən – aləm! Bəli, tülküləşdim, nə tülküləşdim. Çörəyim çıxdı tülküləşməkdən. Adətən, nağıl-filmlərdə, multfilmlərdə tülkü qadın ədası ilə təsvir edilir, qadın səsiylə danışdırılır. Beləliklə, mən tülküləşməklə bərabər zahiri kişilik cizgilərimi də itirdim. Vərdiş də ki, bilirsiniz, ikinci xarakterdir. Hərdənbir tanışlar, dostlar, qonum-qonşu, evdə arvad-uşaq mənə xatırladırdılar ki, ay kişi, öz təbii halına düş də, öz səsinlə danış də! Nə olub axı, bu saat filmə çəkilirsən məgər? Nə isə, vərdiş ikinci xasiyyətdir. Nə idi qəbahətim, cinayətim? İncəsənətə xidmət etmirdimmi? Radio-televiziya verilişlərinə, səhərciklərə, yolka şənliklərinə dönə-dönə dəvət edilirdim. Pul sel kimi gəlirdi. Tərtəmiz, ana südü kimi halal qazanc – minlərlə uşağın qönçə ürəyini sevinclə, gülüşlə, ma-

raqla, heyrətlə dolduran aktyor-tülkünün qazancı. Lakin bir səhər yuxudan oyanıb güzgüyə baxanda dəhşətə gəldim. Mən sapsarı Şələquyruq olmuşdum. Necə ki, indi görürsünüz.

Hakim:

– İndi nə istəyirsən?

Tülkü-adam:

– İstəyirəm ki, bu tülkü sifətimin yerinə əvvəlki adam sifətim olsun.

Hakim:

– Bu məsələ sehrimizin xaricindədir. Gücümüz çatmaz.

Tülkü-adam:

– Bir torba halal qızılım sehrinizin ağzını bəriyə döndərə bilməz?

Müəllim:

– Pul çox şeyi həll edir, hər şeyi yox!

Tülkü-adam:

– Çox şey elə hər şeyin qardaşıdır. "Hər şey" deyəndə, əgər siz ölümü nəzərdə tutursunuzsa, boş sözdür. Ölüm labüddür, ya zəlzələdən, ya vəlvələdən. Bir var heç kəsin xəbəri olmadan üçüncü dərəcəli bir xəstəxana küncündə baxımsız-filansız zarıya-zarıya öləsən, bir də var qayğılar, "qurban olum"lar, naz-nemətlər, qar kimi yorğan-döşəklər, paltarlar içində, ən nadir, ən bahalı dərmanlar gücünə ruhun incimədən quş kimi gedəsən. Hə, torpağın altında siz deyəndir; orada pul pəs.

Sərhədçi zabit:

– İndiyə kimi dinlədiyimiz Porsuq-adamın da, Köstəbək-adamın da, Siçovul-adamın da, sən – Tülkü adamın da (Canavar-adama növbə çatmayıb) ən işıqlı, ən mərdanə cəhəti onların açıq, tərəddüdsüz, səmimi etirafındadır. Bu saat açıq danışan adam, ürəyinin sözünü, sözünün duzunu, canını konkret söyləyən şəxs, lap əclaf da olsa, nadirdir, orijinaldır. (Heç

bir ironiyaya yol vermədən) Böyük şair Səməd Vurğun demişkən, "bu saat, bu dəm" əclaflığını, həyasızlığını açıq-aşkar heç kəsdən qorxub çəkinmədən nümayiş etdirən, əsaslandıra-əsaslandıra nümayiş etdirən adamlar spirt, parafin, kamfora (istir-kafir), mumiya içində ağzı kip bağlı qablarda müvafiq muzeylərdə gələcək üçün saxlanılmalıdır. Ona görə ki, camaatı uzunqulaq, qoyun yerinə qoyub, açıq kartını aralı barmaqları altında "gizlədən", günün günorta çağı əclafanə əməllərini o üz-bu üz görünən tənziflə sarıyan, iri süzgəcli aşsüzən altında "pünhanlayan" adamlar daha iyrənc, daha Əksdir. Əks!

Tülkü-adam:

– Mənim taleyimi həll edin, tülkülükdən qurtarın. (Üzünü baş hakim – astronoma tutub ağlayır)

Hakim:

– Tilsim bax, elə sənin bu göz yaşlarınla qırılmağa başlayır. Bu göz yaşları sənin özcə təbiiliyinə qayıtmağına dəlalət edir. Artıq sən multfilmdə, karnavalda yox, rolda yox, həyatda, öz içindən ağlayırsan. Pul – xaltura xatirinə hönkürüb, hönkürtünlə təlxəklik, tülkülük etmək üçün ağlamırsan. Sənin tülkülükdən xilasının çarəsi öz əlindədir. "Meymunun insanlaşmasında əməyin rolu" söhbəti hələ qüvvədə qalır. Əlbəttə, bu söhbət mənim ağlıma (ağlım kəsəndən bəri) batmır. Heç kəs meymuna demir ki, adamlıq eləmə. Hamı adama deyir "meymunluq eləmə"! "Meymunun insanlaşmasında zəhmətin rolu" elmi qənaətdən daha çox obrazlı ifadədir – zəhmətin qüdrətinə inam deməkdir. Ey Tülkü-adam, sən belə bir iş gör: götür bu qızıllarını, qaytar tök o torbana, düz get Metro tikintisinin kadrlar şöbəsinə, de ki, məni yer altında qazma işində sıravi, ixtisassız (raznoraboçiy) fəhləliyə qəbul edin! Rüşvət filan təklif eləmə, eləsən iksir batil olacaq, özün də daşa dönəcəksən. Sənin ehtiyac, güzəran dərdin olmayacaq, yatırın var. Yoxdur?

Tüklü-adam (gözünün yaşını silə-silə):

– Var, var.

Hakim:

– Ay sağ ol. Səhərdən axşama kimi işləyəcəksən. Tülkülüyünü nümayiş etdirməyə ehtiyac, səbəb, şərait olmayacaq. Ehtiyac olmadığı üçün də... bütün tülkülük komponentlərin – dəm-dəsgahın yavaş-yavaş əriyib yoxa çıxacaq və günlərin bir günü görəcəksən ki, olmusan gül kimi adam. İşdi, şayəd metronun növbəti stansiyalarından birinin açılışı münasibətilə sənə Sosialist Əməyi Qəhrəmanı adı verilsə, onda bizi yaddan çıxarma. Get!

Tülkü-adam gözdən itir.

* * *

Baş hakim göyə baxır, ətrafa baxır. Nə Ay, nə ulduzlar. Necə də sonsuz bir gecə. Sanki bu gecənin heç bir vaxt sübhü açılmayacaq, üfüqləri qızarmayacaq. Nə yaxşı ki, yanar ürək kimi Yanardağ var. Onun saysız-hesabsız qəndilləri sanki göydən asılıb.

Astronom – baş hakim (hakimlərdən birinə – müəllimə):

– Çox qəribədi bu yer. Xalis Guşeyi-vəhdət. Əbülqasim Nəbati necə deyib?

Guşeyi-vəhdət nə əcəb ca (yer) imiş,
Sirri-nihan onda hüveyda[1] imiş.
Anladım indi ki, Ənəlhəq deyən
Şeyx də ki, rəbbiəl əla imiş.

Yoldaş ədəbiyyat müəllimi! Elə bilmə ki, mən ancaq münəcciməm. Nəsimi olmasaydı, Nəbati misilsiz idi. Başqa sənətkarların və çox-çox səma cisimlərinin də taleyi belədir.

[1] Hüveyda – aşkar.

Kim kimdən sonra, kim kimin kölgəsində, kim kimin, lap qüvvətli də olsa, təkrarı məsələsi.

Qaranlıqda Canavar-adamın gözləri parıldayır.

Sərhədçi zabit:

– Özü də bu "müştərinin" hər iki əlində torba ağarır. Şu hərif iki qat qızıl gətirir, deyəsən, təmənnası daha böyük, umacağı daha çoxdur.

Canavar-adam qırmızı örtüklü stola yaxınlaşır. Həyasızcasına, saymazyana əda ilə hər iki torbanı başı aşağı tutur, qızılları boşaldandan sonra az qalır ki, boş torbaları hakimlərin sifətinə çırpsın... Sehrli baxışların zəhmindən, təmkinindən özünü yığışdırır. O zorbadır, tövşüyür, göbəyinin altına sürüşmüş ağır, bürünc toqqalı enli qayışı biləsən-bilməyəsən, qalxıb enir. İdbar sifəti uzunsovdur, qıpqırmızı dili ağzından sallanır, az qala şəhadət barmağı boyda dişləri qaranlıqda göz qamaşdırır.

Canavar-adam:

– Vaxtınız xeyir. Sizin qulağıma çatan səsin-siqnalın cazibəsiylə işimdən-gücümdən avara olub əli dolu, qoburu boş... mən qulluğunuzda hazır. (belindəki boş qoburu göstərir) Sizdən ömür həbi-məbi istəmirəm. İstəsəm də, satın almaq istəsəm də, verməyəcəksiniz. Günlərin bir günü rusla gürcü yol gedirmiş, yolda azuqələri qurtarır. Heç diş qurdalamağa da bir zadları qalmır. Gedirlər... gedirlər. Birdən yol gedə-gedə gürcü keçir rusun qabağına, dayanır.

Rus:

– V çem delo?

Gürcü:

– Konfet xoçeş?

Rus:

– Xoçu?

Gürcü:

– Netu.

İndi sizin də məni bura çağırmağınız gürcünün rusa olmayan konfet təklif etməsi kimi bir şeydir. Heç sizdən onu da istəmirəm ki, məni yarımcanavarlıqdan xalis adamlığa qaytarasınız. Bəs sizdən nə istəyirəm? Özümə qalsa, heç nə. Siz məni bura zorla dartıb gətirmisiniz ki, zorla mənə bir şey istədəsiniz, verməyəsiniz, "ifşa" deyilən çərənləməklə başbeynimi aparıb qızıllarımı müsadirə edəsiniz, sonra da başıma, allah bilir, nə gətirəsiniz... Ax, sizi nə yeyərdim, lap paltarlı-paltarlı, düymələrinizi də günəbaxan dənələrinin qabığı kimi tüpürərdim. Neynəyim? Sizə nə qərar, nə qərardat, nə sanksiya, nə təşkil edilmiş avtomobil qəzası, nə deputatlıqdan geri çağrılmaq, nə fəxri adlardan məhrum edilmək, nə şəxsi işinə yazılmaqla şiddətli partiya töhməti, nə lazer şüası, nə qeyri-lazer şüası, nə neytron bombası təsir eləyir. Rus demişkən, çert vozmi, ni çto, ni çeqo, ni kto vas ne beret. Ancaq mən sizdən istədiyimi istəyəcəyəm.

Müəllim (sərhədçiyə):

– Əşşi, vallah, bayaqdan baxıram, bu Canavar-adam mənə tanış gəlir, illah səsi, bədəni, boy-buxunu, çallaşmağa başlayan saçları, belinin enli qayısı... Dayan, dayan, yadıma düşür. Məktəbimizə yuxarı sinif şagirdləri və müəllimləri üçün hüquqdan, Sovet ədliyyə orqanlarının fəaliyyətindən mühazirə oxumağa gəlmişdi. Bir də mən onu bir nəfər tanışımın şahid kimi iştirak etdiyi uzun çəkən, hay-küylü məhkəmə prosesində görmüşəm. İttihamçı idi o.

Sərhədçi diqqətlə Canavar-adama baxır. Akademik diqqətlə Canavar-adama baxır. Hər üç hakim:

– Bəli, tanıdıq. Bu, otuz il respublika prokurorluğunda çox mühüm vəzifə tutan Harun Fir`onoviçdir.

Canavar-adam:

– Bəli, səhv etmirsiniz. Mən həmən adamam, həmən də vəzifədəyəm. Nə olsun? Həmişə ən çətin, ən dolaşıq cinayətlərin açılmasında iştirak edir, məhkəməsində prokuror kimi

çıxış edirəm. Nə olsun? Nə qədər müstəqil olsam da, böyüklərimin direktiv və göstərişlərindən kənara çıxmıram. Yeri gələndə maddənin, məcəllənin, şahid ifadəsinin ziddinə olaraq, əvvəlcədən aldığım tapşırıqla məhkuma cəza tələb edirəm. Əvvəlcədən aldığım tapşırıq isə heç də kiminsə kimdənsə şəxsi qisas almağı kimi yox, böyük dövlət və xalq mənafeyi kimi qiymətləndirilməlidir. Qanunlar elastik də olur, çuqun, polad, qranit, bazalt da olur – baxır cinayətə, onun səbəbinə, xarakterinə, baxır onu törədənin şəxsiyyətinə, baxır şəxsiyyətin qabiliyyətinə, qanacağına, baxır şəxsiyyət ətrafında gedən söz-söhbətə, baxır prokurorun, hakimin (iclasçılar heç) ədalətinə, vicdanına. Nə olsun? Bunlar təzə söhbətdir? Siz də öz sahənizdə beləsiniz də. Əks-halda, xüsusən müstəqillik eşqinə düşəndə, adamın qulağından yapışıb atarlar bayıra. Beləliklə, sizin mənə əyri-əyri və məxsusi diqqətlə baxmağa əsasınız yoxdur. Bir də nə qədər, necə istəyirsiniz baxın. Təki lazımi baxışlarda təsdiq və razılıq görüm. Yox, əgər siz o fikirdəsiniz ki, mənə haçansa nəsə olacaq, olsun də. Hamıya haçansa nəsə olacaq də. Nə olsun?

Müəllim:

– Sən qəddarsan, kəmfürsətsən.

Canavar-adam:

– Belə keyfiyyətlərə görə adamı tutmurlar. Nə olsun? Təkcə SSRİ-də yox, bütün dünyada adamı “pis adam” olduğuna görə tutmurlar.

Sərhədçi zabit:

– Təəssüflər!

Canavar-adam:

– Akademikdən və müəllimdən fərqli olaraq, axı siz hüquqşünassınız, yoldaş podpolkovnik. Hər halda biz həmkarıq, necə yəni “təəssüflər”? Konkret deyə bilərsinizmi ki, mənə qarşı ikrahınızın səbəbi nədir? Mən bütün inzibati orqanların fəaliyyətinə dövlət nəzarətçisiyəm, mənim prokuror kimi mü-

şavirlik dərəcəm hərbidə general-mayor rütbəsinə bərabərdir. Mən ədliyyə generalıyam. Mən heç bir vətəndaşın həbsinə heç bir vaxt gözüyumulu sanksiya verməmişəm. Gözyumulu şey olmaz ki... Hətta, bəzən göstərişlə, sifarişlə, təzyiqlə, ya elə-belə öz qəzəbimlə verdiyim ən ədalətsiz sanksiyalarımı da üç qat hüquqi, məcəlləvi məntiqlə əsaslandırmışam. Adam damlamaq halva deyil. Məncə, ən daşürəkli prokuror da hər dəfə, hər dəfə olmasa da, çox vaxt sanksiya imzalayanda əzab çəkir. Jurnalistlər demişkən, otuz ildir ki, mən bu şərəfli işdəyəm. Mən havadan adam tutmuş olsaydım otuz dəfə gözümü çıxardardılar. Buna Sovet Hökuməti deyərlər. Aydındır?

Müəllim:

– Elə isə bəs nə üçün sifətin canavar sifətinə dönüb. Sifət yox ey, rus demişkən "morda".

Sərhədçi:

– Maraqlıdır.

Astronom:

– Hər heyvanın həyat uğrunda mübarizə üçün bir əlamətdar xüsusiyyəti, keyfiyyəti olur. Əgər bilsəniz canavarın xas-xüsusiyyəti nədir? Cavab verin də, möhtərəm iclasçılar – hakimlər!

Sükut... sükut... sükut... Sükutu Yanardağın hənirtisi pozur. Yox, sükutu baş hakim – astronom pozur:

– Kəmfürsətlik! Bax, siz otuz ilin prokuroru kəmfürsətlikdən canavar sifətinə düşmüsünüz.

Canavar-adam:

– Qanun dəftər-kitabında kəmfürsətlik üstündə cəza nəzərdə tutulmur.

Hakim (akademik):

– İki cür qanun var; yazılmış qanun, yazılmamış qanun. Yazılmamış qanuna riayət tərbiyədən, fitrətdən, ana südündən gəlir, cövhərdən, zati-pakdan gəlir. Siz otuz ilin ən azı

iyirmi beş ilini (beş ilini lap cavan olmusunuz, təcrübəsiz olmusunuz, insan olmusunuz, müsahidəçi olmusunuz, üzünüzdə nurani hüquqşünas müəllimlərinizin nurani baxışları, qəlbinizdə tələbə (student) cəsarətinin, tələbə üsyankarlığının, gənclik stixiyasının tufanlı, təmiz ab-havası qalmışdı) Azərbaycan SSR Cinayət Məcəlləsinin maddələrini və kütləyə məlum olmayan maddələri (neoqlaşennıe statyi) üzünüzə qalxan tutub, əlinizdə dəstavuz edib, adamlar, Sovet adamlarına divan tutmusunuz, tutursunuz və bu saniyədən etibarən tuta bilməyəcəksiniz. Siz onlara onların ciblərini, boğazlarını kəsə-kəsə divan tutmusunuz. Həmişə də əvvəlcədən hazırlanmış işin, məhkəmə prosesinin mahiyyətindən doğmayan hazır ittihamnamə üzrə. Hüquqşünas vicdanından, hüquqşünas yaradıcılığından, müstəntiq kəşfindən, axtarış və inadından çox-çox uzaq, standart, məlum, tramvay-trolleybus xətti üzrə hərəkət etmisiniz, həmişə, həmişə, həmişə! Cinayət törətməyib, sadəcə olaraq əlindən, dilindən xəta çıxan adamların başını küt bıçaqla kəsmisiniz. Hətta daxilən bir adamın, vətəndaşın təqsirkar olmadığına inana-inana, siz, Harun Fir`onoviç, onun – o vətəndaşın taleyi uğrunda nə özünüzdən kiçiklə, nə öz səviyyənizdə olanla, nə özünüzdən böyüklə yaxşı mənada, kişilik, cəsarət mənasında konfliktə girməmisiniz. Şüarınız bu olub: “Bas getsin! Bas getsin!”

Canavar-adam həm adam kimi bağırır, həm canavar kimi ulayır, dişlərini şaqqıldadır:

– Bəsdir, kifayətdir!?

Müəllim-hakim:

– Kifayət deyil. Amma indi xoşuma gəlirsiniz, əsl sifətinizdəsiniz, həyəcan keçirirsiniz. Yox, səhv edirəm. Sizin əsl simanız elə həmən haylı-küylü məhkəmə prosesinin gedişi boyu aşkar idi. Hətta mahiyyət etibariylə sizdən heç də fərqli olmayan birinci instansiya – məhkəmə kollegiyasının sədri də

sizə qarşı qəzəb və ikrah dolu antipatiyasını gizlədə bilmirdi. Siz onsuz da praktik əhəmiyyəti, rolu, kəsəri, nüfuzu, səlahiyyəti olmayan vəkillərin sözünü kəsir, ifadə verən məhkumları çaşdırır, onların şəxsiyyətinə toxunur, zaldakıları qeyri-insani – məhz indiki canavar baxışlarınızla süzür, hətta hakimin sözünə müdaxilə edirdiniz. Sizin gözlərinizdən qorxaqlıqdan tutmuş amansızlığa kimi hər şey yağırdı. Elə bilirdiniz ki, kimsə sizə atəş açacaq zaldan. Hətta konvoylardan da şübhələnirdiniz. Nə tutardınız on səkkiz-on doqquz yaşlı bu konvoy əsgər uşaqları! Sizin ən müdhiş vicdansızlığınız, ən namərd kəmfürsətliyiniz bilirsinizmi nədədir?

Canavar-adam:

– Nədədir? Nədədir? Nədədir?

Sərhədçi-zabit:

– Yoldaş ədliyyə generalı, prokuror Harun Fir`onoviç, asta!

Müəllim (zabitə):

– De də!

Baş hakim – astronom:

– Sizin bir insan kimi yazılmamış qanun məcəlləsi, maddəsi, primi üzrə ən böyük cinayətiniz ondadır ki, siz illər boyu “dost” dediyiniz, “qardaş” dediyiniz adamın, adamların ilişməsinə, haqlı-haqsız, lap elə haqlı dolaşmasına amadə imiş kimi, onların məhkəməsində ittiham nitqi söyləməyə xüsusi canfəşanlıq göstərmisiniz. Heç kəs sizdən cinayətkara havadar çıxmağı tələb etməyib. Heç kəs deməyib ki, “əgər dostun, qardaşın cinayət törədibsə, onu ört-basdır elə”. Ancaq heç kəs də sizin boynunuzun sapından yapışıb dostunuzun, min dəfə duz-çörək kəsdiyiniz adamın mühakimə olunduğu salona prokuror kimi itələməyib. Siz belə proseslərdən ürəyi yana-yana, sadəcə olaraq bir insan kimi, bir bəhanəylə (nə çox prokuror) boyun qaçırmaq əvəzinə... daha da əksinə...

Canavar-adam:

– Evimizi elə dostbazlıq yıxmırmı?

Astronom:

– Dostbazlıq ha! Dostluq yox. İsmin bütün hallarında zırramanı "dost" deyibən ora-bura dürtmək, layiqli, istedadlı, bacarıqlı adamı guya dostbazlıqdan qorxaraq kölgədə buraxmaq – bunların hər ikisi eyni dərəcədə cinayətdir və ən incəsi, illər boyu "can" deyib, "can" eşitdiyin, evinin süfrəsinin yuxarı başında əyləşdiyin, adından-sanından istifadə etdiyin, ictimai, rəsmi dairələrdə nüfuzuna, səlahiyyətinə arxalandığın dost adamın qara günündə qara geyinmək əvəzinə, əli qılınclı qırmızı libasda meydana çıxasan, camaatın gözündən pərdə asasan və sübut edəsən ki, qanun və həqiqət naminə Mən görün necə obyektivəm ki, dost-most bilmirəm. Ey rəsmi dairələr, görün mən necə prokuroram, necə adamam! Bəli, siz, Harun Fir`onoviç, belə adamsınız. Və sizi görməyənlər, görə bilməyənlər, görmək istəməyənlər, tanımayanlar, tanıya bilməyənlər, tanımaq istəməyənlər, ancaq sizin kimi kəmfürsət canavarların pəncəsinə, dişlərinə keçəndə ayılacaqlar. Onda da gec olacaq, gec. Söz yox ki, hər üzünə cinayətkar olan, partiyanın yüksək, böyük etibarını, inamını ayaqlayan bu adamlar üçün siz qurğu, tələ qurmamışsınız.

Canavar-adam:

– Tamamilə düz. Nə olsun?

Sərhədçi:

– Düz olmayan odur ki, siz illər boyu həmin adamların əməllərindən xəbərdar ola-ola, həmin adamlardan yazanların, şikayətçilərin ağızlarından vurub qaytara-qaytara onları müdafiə etmiş, onların aldıqları rüşvətdən pay (dolya) almısınız. Sizli-onlarlı əlbir neçə-neçə cinayət ört-basdır edilib, neçə qan batırılıb. Axırda da ki, fələyin çərxi tərsinə, əslində düzünə fırlananda, təpiyinizi onların ikiqat olmuş kürəyinə

qoyub, ağzınız köpüklənə-köpüklənə ittiham nitqi söyləmisiniz. Budur sizin yazılmış və yazılmamış qanunlar ziddinə olan cinayətiniz, kəmfürsət canavarlığınız. Təəssüf ki, o cür katiblər və sizin kimi prokurorlar – canavar-adamlar hələ də var.

Canavar-adam:

– Geniş, dərin fikirləşin, incə-incə götür-qoy edin. Səbəb səbəbdən doğur... Nə isə, mən kəmfürsət, Canavar-adam. Razıyam. Xalx bir torba qızıl gətirib töküb o qırmızı örtüklü stolun üstünə, mən iki torba. Bir xahişim var. Məni xalis canavara döndərin, dad yarımçıq əlindən! Hayıf deyil xalislik, bütövlük?

Astro-fizik, sərhədçi zabit, orta məktəbin ədəbiyyat müəllimi – hakimlər biri-birinin üzünə baxır... Ətrafdakı əcaib-qəraib məxluq da – Porsuq-adamdan tutmuş Çaqqal-adama kimi – bu ağla, təxəyyülə sığmaz səhnənin iştirakçıları dairəni daraldıb heyrətlə Canavar-adama baxırlar, qulaqlarına inanmır və xorla deyirlər:

– Bu dəli olub, nədir? Bunun başına hava gəlib, nədir? Bu səhər-səhər qatıq içib, nədir?

Yanardağın alovları içindən bir sürü heyvan yana-yana, ütülə-ütülə, tüstülənə-tüstülənə dairəyə – qırmızı örtüklü, üstü qızıl dolu stolun ətrafında sıxlaşan dairəyə yaxınlaşır və yaxınlaşdıqca məlum olur ki, bu heyvanlar canavarlardır.

Canavarlar:

– Etiraz edirik. Qəzəbimizdən yana-yana, tüstülənə-tüstülənə etiraz edirik! Bizi yandıran Yanardağın alovları deyil, prokuror – Canavar-adamın tələbidir. Biz – təbii, anadangəlmə canavarlar, təbiətin, canlılar aləminin qanunlarına müvafiq yaşayırıq. Biz lazımıq. Biz özümüzdən gücsüz xəstə heyvanları yeməsək, yoluxucu xəstəliklər dünyanı başına götürər. Məgər canavarlaşmış prokuror-adam xalis canavara çevrilib bizə qoşulandan sonra bizim kimi xəstə siçan, kərtənkələ, dovşan yeyəcək? Xeyr, biz istəmirik ki, o özünün dürəng,

murdar sümüyünü bizim xas, təmiz canavar sümüyümüzə calasın. Bizim qoyun-quzuyla heç bir ata-baba düşmənçiliyimiz yoxdur; necə ki, dovşanın kələmlə. Bizim yırtıcılığımızı əxlaqi, ictimai səbəblər doğurmur, o, bioloji söhbətdir. Biz də "Qırmızı kitab"dayıq.

Canavarlar ulaya-ulaya, dişlərini şaqqıldada-şaqqıldada dağılışıb gözdən itirlər.

Canavar-adam:

– Möhtərəm hakimlər, canavarlar bir şeyi çox düz qeyd etdilər və bir məsələni mənim yadıma saldılar. Doğrudan da, indi qüvvətli yırtıcıların hamısı qırmızı siyahıda, "Qırmızı kitab"dadır, nomenklaturadadır. Hökumət, alimlər, mütəxəssislər, statistiklər görə-görə ki, bilə-bilə ki, sən canavarsan, yırtıcısan, söküb-dağıdansan, salır səni qırmızı, toxunulmaz siyahıya. Mən xalis canavar olmaq istəyirəm. Heç kəs mənə toxunmasın.

Sərhədçi:

– Canavar olsan, kiçik qoburlu, iri, bürünc toqqalı bu enli qayışı harana bağlayacaqsan? Yaraşıqlı, zəhmli prokuror formanı hansı bədəninə, cəmdəyinə yaraşdıracaqsan?

Canavar-adam:

– Vətəndaşın şəxsiyyətini təhqir üstündə mən sizə göstərərəm.

Müəllim:

– Əşşi, nə "vətəndaş", "vətəndaş" salmısan? Yeyib-içib doyubsan, əzizlərin yadına düşüb? Sən vətəndaş deyilsən, canavarsan, xalis canavar və öz arzunla, tələbinlə.

Göydən bədənnüma güzgü paraşüt ahəstəliyilə enir. Qaranlığa şəfəq saçır. Yanardağ bütün odları-alovlarıyla, zərif-zərif şamlarıyla, mavi-od bənövşələriylə əlvan bayram xonçası kimi güzgüdə əks olunur. Canavar-adam bu güzgüdə özünü xalis canavar görüncə – boz, zorba bir canavar görüncə, deyəsən, peşman olub dəhşətə gəlir və müdhiş bağırtıyla,

(yox) ulartıyla hakimlərin üstünə atılır. Lakin, stop-kadr! Havada donub qalır. "Nu poqodi!" yada düşür. Yavaş-yavaş o özünə gəlir və deyir:

– Mən sizə göstərərəm.

Müəllim:

– Bizə heç nə göstərə bilməzsən, ictimaiyyətə heç nə edə bilməzsən. Ancaq xəlvət yerlərdə, əsəbləri zəiflərin, arvad-uşağın zəhrini yara bilərsən ki, bunun da kütləyə prinsip etibariylə dəxli yoxdur. Sənin kitabın bağlandı. Bu sir-sifətlə səni heç Mırtı sovetliyinə sahə müvəkkili də göndərməzlər. İndi sən canavarlığından maskasız, bioloji tələbatına görə istifadə edə bilərsən.

Baş hakim – akademik nəsə demək istəyir, müəllim üzr istəyib onun sözünü kəsməyə cəhd göstərir, alim sözünə başlayır, sözünü deyir:

– Deyirəm, gəlin, güzgüdə əks kimi yox, real şəkildə Canavar-adamın arzusunu yerinə yetirib onu xalis canavara döndərək. Ancaq insan səsində, insan lisanında, insan ləfzində qalmaq şərtiylə. Bir də yüksək rütbəli ədliyyə nişanlarını – ulduzlu yaxalıqlarını taxmaq şərtiylə. Bir də ona ən azı beş illik ömür həbi vermək şərtiylə. Haqqını artıqlaması ilə ödəyib. İki torba qızılla zarafat olmaz.

Müəllim:

– Möhtərəm münəccim, məndən çox yaşayacaqsınız. Elə bunu düşünürdüm, bunu demək istəyirdim.

Sərhədçi zabit:

– Başa düşmürəm: Canavar-adama və ya canavara ömür həbi?

Astronom:

– Bəli, qoy o özündən asılı olmayaraq diri qalsın, yaşasın. Azadlıqda, cəmiyyət içində gəzib dolansın. Nə öz-özünü öldürə bilsin, nə başqası tərəfindən öldürülə bilsin. Nə qəzaya

düşə bilsin, nə tabe edilə bilsin. Nə də casus zəhəri ilə bir anda canını qurtara bilsin bu canavar.

Sərhədçi:

– Bəs onda müsadirə edilmiş qızılları neynəyək, hara sərf edək?

Müəllim:

– Həmən qızılları lombarda keçirməli! Malının, qiymətli bir şeyinin girov haqqını nə vaxtında, nə vaxtı keçəndən sonra ödəyə bilməyən, hökumət tarifi ilə olsa da, sələm faizləri altında əzab çəkən vətəndaşların, həyatın, yaşamağın ən zəruri ehtiyacından alnıaçıq, üzüqara, qanıqara vətəndaşların, yanan barmağını ağzına təpən vətəndaşların dadına çatmaq lazımdır! Onların olan-qalanını hərracdan (qanuni) xilas etmək lazımdır!

Baş hakim:

– Doğrudur, çox əla fikirdir.

Hakim sərhədçi zabit:

– Bəs bu fikri, ideyanı necə, nə cür həyata keçirməli? Elan vermək olmaz, bir-bir camaatın qapısını döyüb "sənin lombardda malın var, ya yox, batır, ya yox" soruşmaq olmaz.

Astronom:

– Bəli, çətin məsələdir. Əsrin, qərinənin, kvartalın (rübün), ilin, ayın, həftənin, günün, saatın, dəqiqənin, saniyənin bu vaxtı Şah Abbas cənnətməkan kimi təğyiri-libas olub xalqın içində gəzmək də hədərdir, gülüncdür. Qardaş, dayan! Niyə hədərdi, niyə gülüncdü? Mərsiyələrinmi, qəsidələrinmi birində deyilir:

Müşgülgüşasan, ya Əli!

Elə sən də çətinliklərə çarə tapan bir adamsan – sərhədçi zabitsən, çekistsən, təcrübən, əsgər dəyanətin gözəl insaniyyətliyin öz yerində, oxuyub başa vurmadığın hərbi kurs, məktəb, ali məktəb, akademiya qalmayıb. Bir də unutma

ki, biz ömür həbi udmuş qeyri-adilərik. Əlimizdə sehrin böyük, hətta intəhasız imkanları var. Bu imkanlardan istifadə etməklə bu iş sənə tapşırılır.

Zabit:

– Oldu!

Sərhədçinin "oldu!" deməsiylə bir axın adamın həndəvərdə görünməsi eyni ana, saniyəyə, dəqiqəyə düşür.

* * *

Yanardağın şölələri böyüyür, böyüyür. Adamların üzünü işıqlandırır. Burada arvad, kişi, qız, gəlin, qoca, cavan: kim deyirsən var. Sehrin qüdrətiylə lap üç addımlıqda dayanmış Porsuq-adam, Köstəbək-adam, Siçovul-adam, Tülkü-adam, öz arzusu ilə xalis canavara çevrilmiş prokuror, hələ dindirilməmiş, qızıllarını təslim etməmiş Çaqqal-adam üç nəfərdən başqa heç kimin gözünə görünmür. Bu gecə vaxtı camaatın nə üçün zəhri yarılsın?

Baş hakim:

– Camaat, bizə diqqətlə qulaq asın, bu qeyri-adi görüşün, simpoziumun, qeyri-adi şəraitin detallarını sonra götür-qoy edərsiniz. Məsələnin mahiyyəti isə qısaca olaraq belədir. Biz qeyri-adi adamlarıq və qeyri-adi iş görürük. Ömür uzadırıq, insan bədənini qeyri-adi zirehə bürüyürük. Lazım biləndə sehrli həbləri havayı veririk, lazım biləndə qızılını da əlindən almaq şərtiylə, ömür həbi də verməmək şərtiylə – ya məhv edir, ya da eybəcər şəklə salırıq.

Camaat:

– Nə, nə? Necə, necə?

Astronom – baş hakim:

– Heyrət etmək olmaz, sual vermək olmaz! Sualı ancaq biz verəcəyik.

Qırmızı örtüklü stolun üstündəki qızıl topalarına gözü sataşan izdiham istər-istəməz hakimlərə həmlə etmək, bu bərribiyabanda xapaxap salmaq istəyir. Lakin sehr hamını ram edir. Adamlar elə bil qəflətdən ayılıb barmağını dişləyir. Yalnız səsdən ayırd eləmək olur ki, kim qadındır, kim kişi.

Baş hakim:

– Sakitliyə riayət edin. Sualı eşidin, başa düşün. Tək-tək cavab verin. Biri-birinizin sözünü kəsib, səsini batırmayın. Bu, mitinq deyil, keçici bayraq verilən ümumi, təntənəli yığıncaq deyil. Burada siz konkret maddi yardım alacaqsınız. Heç bir "atalıq qayğısına" minnətdarlıq bildirmədən, daha yaxşı işləyəcəyinizə söz vermədən, geri qaytarmamaq şərtiylə maddi yardım! Ovcunuza cingilti ilə qızıl sayılacaq.

Sual:

– Nə üçün malınızı lombarda qoymusunuz? Nə üçün girov faizini ödəyib geri götürmürsünüz?

Cavab (ancaq səs eşidilir, üz seçilmir):

– İki uşağı eyni vaxtda uşaq bağçasına düzəltmək lazım idi. Lap evimizə yapışıqlı uşaq bağçası vardı və var. Uşaqları bağçaya yazdıra bilməsəydim gərək işdən çıxaydım. Rüşvət istədilər. Qaçdım lombarda. Dedim üzüqara oluramsa, qoy elə hökumətin yanında üzüqara olum. Sonra da bir şey saldıra bilmədim ki, gedib malımı çıxardım. Yazıq canım, sən demə, o qızıl qolbağ mənim biləyim üçün yox, lombard mücrülərinin, seyf və oda dözümlü sandıqlarının küncüyçünmüş. Eh, cəhənnəmə ki, yüz elə qolbağ qurban olsun Ədiləyə, Cəmiləyə.

Hıçqırıq eşidilir. Səs, nitq kəsilir. İzdiham uğuldayır.

Sual: (sual təkrar edilir)

Cavab:

– Doğum evində yatmalıydım. Dedilər yaxın adamlarından biri hökmən qan verməlidir ki, səni doğum evində yatırdaq. Budur, oxu: əmr var, rəsmi göstəriş var. Dedim, axı,

ölkəmizdə çox şərəfli iş, fədakarlıq sayılan donorluq tam könüllüdür. Dedilər, leksiya oxuma! "İli-ili", ya-ya! Heç kimə gümanım gəlmədi. Pul deyildi ki, gedib borc alım. Kişiyə də qıymadım: fəhlə babadır, canı zəifdir, ayaqqabı fabrikində maşına tullantı yükləyir. Elə hey dediyi də budur ki, allah övlad verirsə, ruzusunu da yetirəcək.

Hirsimdən dilim tutuldu, gözüm doldu. Bu zaman ağ xalatlı bir qadın çox mehribanlıqla mənə yanaşdı, qoluma girdi və qulağıma SÖZ pıçıldadı... İnanın ki, sevindim, dedim, cəhənnəmə ki... kişiyə heç nə bildirmədim. Çıxartdım barmağımdan üzüyümü. Yaxşı brilliant qaşı vardı. İstədim satam, gedərdi pula. Ürəyim gəlmədi. Bəxt üzüyümdü axı. Xalxın barmaqları alışıb yanır, mən götürüm bəxt üzüyümü satım? Lombard yadıma düşdü, rəhmətlik anam yadıma düşdü: yuxu kimi xatırlayıram, bəlkə bir az da aydın. Anam tez-tez atama evdə lambarıt deyərdi. Lambarıt, lambarıt. Həyətimizdə Ambarsum adlı erməni kişi olurdu. Elə bilirdim, lambarıt da adam adıdır. Sonra başa düşdüm nə məsələdir... Lombarda gedib üzüyü girov qoyanda yalvardım ki, çox pul yazın, lazımdır. Dedilər bu girova minnətsiz də çox pul düşür, verrik. Ancaq geri götürəndə əziyyət çəkəcəksən, rus demişkən, "pri vıkupe". Düz demişdilər, üzük hələ də ordadır, faizini ödəyə bilmirəm, batır...

Sual: (təkrar olunur)

– Nəvəm əsgərliyini çəkib gəlmişdi. Tək idim, evimin sahəsi də babat idi. Yox, lənət şeytana, qız nəvəm də yanımda idi, mənimlə olurdu. İkimizdən – qız nəvəmlə məndən başqa, mənzilimə sahəsinə görə ən azı iki nəfər də yazıla bilərdi. Qəribbala dedi ki, ay baba, gəl heç Gülsüm əmiqızını kəndə qoymayaq gedə, yazdıraq bura, qalsın şəhərdə, ya oxuyar, ya da işləyər. Sənə də həyan olar. Dedim ki, düz deyirsən, Qəribbala. Ay başınıza dönüm, "propiska"ya görə qaldım "upravdom"la milisin – pasportstolun arasında. Səksən küçə açıb səksən

qulp qoydular bu işə. Gah biri dedi, olar, o biri dedi, olmaz, gah birlikdə dedilər, olmaz. Qəribbala dedi ki, "baba, qoy gedim "upravdom"u döyüm, milisi söyüm, şikayət eləyim, ərizə yazım". Əlimi də yellədim, başımı da. Xülasə, nəvəmi evə yazdırdım; nə döyməklə, nə söyməklə, nə ərizə-şikayətlə. Bəs nəylə? Rüşvətlə. Üçqapaqlı, musiqili qızıl cib saatımı atdım lombarda, elə oradaca qalandır ki, qalıb. Bəlkə köməkləşib şişmiş girov faizini ödəyib atamdan yadigar əntiqəni evə qaytara bildik. Vay iki ayağı bir başmağa soxulurkən, heç nəyə gümanı gəlməyənin halına. Eləsindən allah da bezardır.

Sual: (təkrar olunur)

Cavab:

– İçərişəhərdə atamın babasından qalma bir mülkümüz vardı. "Mülk" deyəndə ki, siçan-pişik yuvası olan bu dam-daş atamın vəfatından sonra lap yaman günə qalmışdı. Təkcə tez-tez dama qır döşətdirməkdən zinhara gəlmişdim. Başqa əngəlləri demirəm. Hərəsindən ayda on beş manat aldığım iki kirayənişini demirəm. Onların bu otuz manat müqabilində tələbləri lap məni çərrədirdi. Məsələn, deyirdilər: – Xozeyin, (xozeyin a?!) zibil niyə daşınmır, su niyə kəsilib, pilləkən niyə laxlayır, həyət qapısı niyə cırıldayır, niyə yaxşı örtülmür, siçan-pişik idarəsindən gəlib niyə dəlmə-deşiyə dərman səpmirlər, kanalizasiya niyə tez-tez tutulur? Öldük ki, xozeyin, belə olmaz a! Bunlara da dözərdim. Sahə milis müvəkkilinə də, rayon və şəhər soveti əlaqədar şöbələrinin işçilərinə də, sığorta, sanepidem stansiya, yanğınsöndürən inspektorlarına da dözərdim. Hər dəfə kirayənişinlərim və yaxamı tanıyan ac həriflər mənə "xozeyin" deyə müraciət edəndə qeyri-ciddi, zarafatyana olsa da, xoş bir hisslə özümü dartar, tox tutardım. Rəhmətlik atam, dənizçi Məşədi Muxtar kişinin keçmişdən saldığı söhbətləri, əsl xozeyinlik zamanından söylədiyi xatirələri, xozeyinliyindən heç kəsə ziyan gəlməyən

səxavətli, abırlı, mərd, ağır oturub batman gələn kişiləri köks ötürə-ötürə yada salmağı göz önümə gəlirdi. Xozeyinlər barədə yox, halal-xoş, yaxşı adamlar haqqında fikirləşərdim. Yaxşı adamlar xozeyin olsa da, olmasa da, həmişə olub, var, olacaq da! Günlərin bir günü qardaşım oğlu, biz bakiliyik, qərdeşim oğlu əsgərrikdən gəldi. Biz, iki təmiz, heç kəsə dəyib-dolaşmayan mehriban insan, doğma qardaşıq. Baxıb gördüm ki, qardaşım günü-gündən məndən soyuyur. Qardaşoğlu məndən ağızucu salam alır, qardaşarvadı da o qardaşarvadı deyil. Məlum oldu bu soyuqluq "mülk" üstündə imiş. Guya "mülk"ün birinci mərtəbəsi (əşşi, nə mərtəbə) vərəsəliklə qardaşıma düşür və aldığım otuz manat kirayə haqqı da qardaşıma çatasıdır. Bunu eşidən kimi dedim: "Qurban olsun yüz belə "barigah", yüz belə "mülk", yüz belə "otuz manat" qardaşlığımıza, atam Məşədi Muxtarın böyük oğluna. Doğrusu, qardaşımdan yox, qardaşım oğlundan, o cavan uşaqdan incimişdim. Bir gör nəyin üstündə əmisindən küsür. Getdim "mülk"ü öz adımdan çıxarıb keçirim qardaşımın adına. Özü də elə etmək istəyirdim ki, qardaşım bilməsin. Bu onun üçün sürpriz olsun. O mülkü adımdan çıxarmaq üçün ayağıma dəmir çarıx geyib, əlimə dəmir əsa götürməli oldum. İdarələr arasında vurnuxmaqdan az qaldı ürəyim partlasın. Məni soğan kimi soydular. Qabağıma o qədər "küçə" açdılar ki, İçərişəhərin küçələri, dalanları yalan oldu. İnanırsınız inanın, inanmırsınız inanmayın. "Mülk"ü adımdan çıxarıb qardaşımın adına saldırmaq üçün axırda lombard qapısına getməli oldum. Bir şey tapıb girov qoydum, elə girov da rəhmətlik Məşədi Muxtar kişidən qalmışdı. İndi gücüm, maddi imkanım çatmır ki, atamın yadigarını geri qaytarım.

Sual: (təkrar olunur)

Cavab:

– Məhkəmə içraçısı qardaşımın müsadirə edilmiş əmla-

kını siyahı üzrə yoxlayıb məhkəmənin hökmünü icra etmək istəyirdi. Rəngli televizora gələndə dedim, “dayan!” Dedi “niyə?” Dedim “dayan də!” Dedim ki, mən ölüm, onun üstündən keç. Qardaşım onu özünün də, uşaqlarının da boğazından kəsib kreditə alıb. Qardaşım rüşvət üstündə, haram və əliəyrilik üstündə getməyib. Dedi ki, bəs nə təhər eləyim axı? Dedim ki, nə təhər eləyirsən elə, televizoru tərpətmə, uşaqların başını qarışdıran elə odur. Mən çox dedim, icraçı az eşitdi. O çox dedi, mən az eşitdim. Xülasə, razılaşdıq. Gümanım heç yerə, heç kimə gəlmədiyi üçün evdən yeganə qiymətli şey tapıb, üz qoydum lombarda. Gətirib məhkəmə icraçısının haqqını verdim, üstəlik ona “çox sağ ol” da dedim. Mənimlə əlaqədar məsələdə onu günahkar hesab etmək olmaz, əksinə... Nə isə, indiyə kimi düşüb tilsimə, əmanətimi lombarddan götürə bilmirəm. Malım göz görəsi batır. Eh, qardaş, qardaş, elə deyirdim, elə yalvarırdım ki, dilinin altına qənd qoy, dilini farağat saxla, “derji yazık za zubami, ne yazvi, ne zadevay”. Düppədüz, ağappaq divarı qaşıyıb oradan qıpqırmızı qan çıxarma! Mən dedim, mən eşitdim. Təmizliyi gözə soxmazlar ki? Təmizə, kasıba, səlahiyyətsizə kim ixtiyar verir ki, elə nənəm dedi – kor dedi... gicitkan kimi camaatın ağız-burnunu dalasın? Odey... basdılar, getdi çala-çala, dərdi də töküldü üstümə.

Sual: (təkrar edilir)

Cavab:

– Adicə, qanuni bir arayışı vaxtında alıb lazımi yerinə çatdırmaq üçün qaçdım lombarda.

Sual:

– ...

Cavab:

– Zaçot yazdırmaq üçün qaçdım lombarda.

Sual:

– ...

Cavab:

– Bir həftənin içində dörd yerə toya çağrıldığım üçün (dördü də vacib idi, həmişə toy olsun, bayram olsun) lombardlıq oldum.

Sual:

– ...

Cavab:

– Üç gün dalbadal evə, uşaqların yanına əlim ətəyimdən uzun gəlirdim. Uşaqlar balacadır. Dördüncü günü dözmədim, lombarda yüyürdüm.

Sual:

– ...

Cavab:

– Ən əziz, çoxdan izini-tozunu itirdiyimiz bir qohumumuz bir aylığa xaricdən qonaq gəlmişdi. Qonağımızı növbə ilə qonaq edirdik. Növbə mənə çatanda qaçdım lombarda.

Sual:

– ...

Cavab:

– Belə axı sizə nə var ki, lombarda niyə getmişdim. Axı siz kimsiniz, bizi bu çölli-biyabana niyə yığıbsınız? Camaata ürəyi yananlar tapılıb...

* * *

Bir halda ki, şəhər elə şəhərdi, elə isə heç söz-söhbətsiz, sensasiyasız şəhərmi olar? Bəli, "ömür həbləri" şəhəri duman kimi bürüyüb, başına alıb... Daha doğrusu, "ömür həbləri"nin reaksiyası, təsiri. Qeyri-adiliklər camaatı, idarə və təşkilatları, inzibati və tibb orqanlarını biri-birinə qatıb. Şəhərdə başı adam, bədəni heyvanlar görünür, şəhər ətrafında canlı skelet insanlar zühur edir. Bir dəstə adam harda gəldi, açıq-aşkar elə

sözlər, elə həqiqətlər danışır ki, eşidib düşünürsən: “Bunlar qurd ürəyi yeyib nədir?” Bir neçə şəxs peyda olub ki, onlara heç bir cismani, inzibati cəza təsir etmir. Bəzi vəzifəli şəxslər ilim-ilim itir, səbəbini heç kəs bilmir, amma deyirlər: “Əcəb oldu”. Şəhər lombardında girov müddəti çatmış, komissiyon mağazalarında satışa qoyulası əmanətlərin haqqı qeyri-adi kanala, heç bir maliyyə əməliyyatına bənzəməyən yolla ödənilib, mallar sahiblərinin birbaşa evlərinin içinə gətizdirilib, toy-bayram olub. Yoxsa təzə Şah Abbas peyda olub? Yoxsa nağıllar dünyasındakı səxavət simvolu Hatəm zühur edib? Çox qəribədir, deyirlər ki, haramla yaşayanlar, zülmkarlar, qəddarlar, xalqın, hökümətin hesabına julik, qorxaq, oğraş milyonerlər, hakimlər, müstəntiqlər, doğum evlərində camaatı soyan sırtıq, sürtük, həyasız tibb işçiləri və bu kimi bir çox başqaları səksəkə içindədir... Deyirlər ki, vaxt-bivaxt bu müzürr ünsürlər tanış, qorxunc, cazibədar səslərlə harasa çağrılır və cəzalandırılır. Deyirlər ki, guya naməlum şəxslər naməlum yerlərdə “Ömür həbi” deyilən naməlum dərman satırlar. Kiminə satırlar (xalis qızıla), kiminə havayı verirlər, kiminin də qızıllarını, gözünə dönməlilər, əlindən alıb özünü də o söz. Hətta itə-pişiyə, siçovula-zada döndərib buraxırlar. Deyirlər, o gün küçələrin birində uşaqlar və böyüklər zorba, iyrənc, qanı axa-axa qaçan bir siçovulu qabaqlarına qatıb lap təntitmişdilər. Deyirlər ki, birdən siçovul geri çəkilib xalis insan səsiylə təmiz, müasir Azərbaycan dilində deyib: “Məndən nə istəyirsiniz? Bir belə adam suvaşmısınız yaralı canıma, insafsızlar”. Deyirlər ki, elə oradaca neçə adamın dili tutulub, ürəyi partlayıb...

* * *

Söz-söhbətlərdən:

– Ay filankəs, bu ömür həbinin mahiyyəti nədir?

– Ay bəhmankəs, deyilənə görə, ömür həbi Xızır peyğəm-

bərin kəşf etdiyi, İsgəndər Zülqərneynin zülmət dünyasında axtardığı və tapa bilmədiyi dirilik suyudur. Ömür həbini udan insan oğlu olur dəyib-toxunulmaz, güllə batmaz, süngü deşməz, qılınc kəsməs, od yandırmaz, su boğmaz.

– Ay filankəs, bir az da xırdala.

– Ay bəhmankəs, əlbəttə, üç badam, bir qoz üstündə yox, tale həll edən, həqiqət təsdiqləyən prinsip uğrunda döyüşə girəndə ömür həbi cismani və mənəvi zirehdir. Zirehsə cəngavərlər üçündür.

* * *

A rayon partiya komitəsi. Birinci katibin kabineti. Telefon səslənir. Katib özü dəstəyi götürür. Çünki katibə və başqa texniki işçilər çıxıb gedib. İş vaxtı qurtarıb.

– Allo, eşidirəm.

Telefon:

– Yoldaş ..... bu gün, bu axşam saat on tamamda vəzndə yüngül, qiymətdə ağır nəyiniz varsa, yığışdırın, orda-burda gizlətdiklərinizi, saxladıqlarınızı götürün, əmanət kassalarındakı... pullarınızın qədərini qeydə alın, partiya biletinizlə Sulu dərəyə gəlin! Hansı dişinizi hansı çöplə qurdalasanız teleekran göstərəcək. Siz məxsusi səs və qeyri-adi maqnit dalğalarıyla idarə olunacaq və müşayiət ediləcəksiniz. Bu məsələdə sizin qətiyyətinizin, iradənizin, Sulu dərəyə gedib-getməmək barədə götür-qoy etməyinizin heç zərrə qədər də əhəmiyyəti yoxdur. Heç bir "yuxarıya" və inzibati orqana xəbər verə bilməyəcəksiniz. Telefon dəstəyini aparatın üstünə qoyandan sonra siz, sehr mərkəzindən idarə edilən, proqramlanmış robota çevriləcəksiniz. Qabaqcadan məlumat və zəmanət veririk ki, başınızdan bir tük də əskik olmayacaq, bircə düyməniz də boşalmayacaq. Pencəyinizin yaxasına toz da qonmayacaq. Hə,

"pencək" dedim, yadıma düşdü: mütləq deputat nişanınızı taxın, Qızıl Ulduzunuz varsa... ta onu deməzlər ki... Şəxsən hələ sizin ulduzunuz yoxdur.

Katib çılğınlıqla dəstəyə çığırır:

– Allo, kimdir danışan, bu nə deməkdir, siz heç bilirsiniz hara və kimə zəng edirsiniz? Telefon xuliqanlığının dərəcəsinə bir bax! Kişiliyiniz çatırsa, adınızı, familiyanızı, atanızın adını, ünvanınızı deyin. Onsuz da sizi tapdıracağam, bunun üsulu və qaydası var; hətta telefon-avtomatdan zəng etmiş olsanız belə. Bu danışıq təkcə xuliqanlıq kimi qiymətləndirilməməlidir. Bu siyasi... bəli-bəli... allo, allo... necə yəni vəzndə yüngül, qiymətdə ağır nəyiniz varsa, gətirin, necə yəni partiya biletiniz cibinizdə olsun, necə yəni Sulu dərəyə gəlin. Sulu dərə nədi, Sulu dərə haradı? Raykomun birinci katibinə belə-belə anonim əmrlər vermək, MK üzvünü robota döndərmək, onu gecə saat on tamamda "proqram üzrə" dərəyə dartmaq... özü də dərənin sulusuna... Kişiliyiniz çatırsa...

Telefon:

– Ha-ha-ha! Kişilik, kişilik... Du-du-du-du...

* * *

Eyni vaxtda, məsələn, bir saatın içində A rayon partiya komitəsinin birinci katibi ....... yoldaşın telefonda eşitdiklərini B, V, Q, D, E, Ə, X, C, Ş, L, Y, İ, P, T, S, Z, G, M və sair rayon, şəhər partiya komitələrinin birinci katibləri də eşidir. Həmən telefon zəngi onların da kabinetində, qulağının, beyninin, ürəyinin içində səslənir. Eyni sözləri (nöqtəbənöqtə) eşidən eyni tip şəxslər... eyni həyəcanla, eyni çılğınlıq və hökmranlıqla, eyni qətiyyət və qəzəblə membrandan (dəstəkdən) kabinetlərə axıb dolan səsə etiraz edir, səsi, səs sahibini ən çox siyasi vurğu, siyasi intonasiya ilə hədələyirlər. Səs isə axır, ax-

dıqca selə çevrilir. Kabinetləri su basır, selektorlar, diktafonlar, şəhər telefonları, daxili telefonlar, hökumət telefonları, xudmani stolüstü kamutator aparatları, zəng düymələri iflic olur. Katiblər səsin qarasına:

– Kişisən adını, ünvanını de.

Telefon (iflic ona aid deyil):

– Kişi... kişi... ha-ha... kişiyə bax ey! Du... du... du...

* * *

Azərbaycan SSR ərazisinin sonuncu cənub nöqtələrindən birinə az qalmış, magistral şosedən dağlara yol ayrılır. Qalın, vahiməli, mənzərəli meşələrdən, sərt aşırımlardan, dibi görünməyən uçurumların qaşından, sükutu qulaq batıran cinli dərələrin içindən keçib, yanğınsöndürənlərin uca-uca nərdivanları kimi göylərə dirənən bu yol dağlar qoynundakı balaca qəsəbəyə gedir. Həmən yoldakı dərələrin ən dərini, ən uzunu, ən səssizi Sulu dərədir... Nə üçün Sulu dərə? Ona görə ki, bu dərədən həmişə su axır. Qışda buz altından şırıltı gəlir. Payız yelləri meşələrin qızıl, kəhrəba, mərcan rəngli yarpaqlarını qabağına qatıb bu dərəyə dolduranda xəzəllərin altından şırıltı gəlir. Yaz dumanı və yaz yağışları torpağı yaşıllaşdıranda və bu dərədə ot dizə çıxanda – nəhəng səməninin altından şırıltı gəlir. Yayın təndir zəbanəsində, dağ-daş qovrulub qovurğaya dönəndə, göylər ürəyinə daş bağlayıb gözündən bircə gilə yaş axıtmayanda bu dərədən yenə də şırıltı gəlir. Bütün dərələr arxı qurumuş dəyirmanlar kimi lal-kar olanda Sulu dərə səslənir. Göz yaşı kimi dağ suları burada cəmləşib, buradan dağılışdığı üçün hər küncü-bucağı, hər daşı, bülövü dönə-dönə yuyur, pak edir. Kəsafətsiz, üfunətsiz, bataqlıqsız, çınqılı almaz, qumu mirvari Sulu dərə! Deyirlər, hətta... otuzuncu illərin qaçaq-quldurları da Sulu dərədə adam qabağı kəsməz-

lərmiş. Deyirlər 1941-ci ildə cəbhəyə gedən uşaqları (onlara "cavan" demək tez idi) analar-bacılar üzlərini cıra-cıra Sulu dərəyəcən ötürər, burada cırmaq, dırnaq şırımlarından sızılan, nar gilələri boyda... damcılayan qanı yuyar, sakitləşib toxtar, balalarını xeyir-dua ilə, Vətən uğrunda döyüşə – ölüm-dirimə yola salardılar. Sulu dərə anaların-bacıların ovcuyla UŞAQLARIN dalınca su atardı...

* * *

Sulu dərə. Gecə saat on. Ətraf əsrarəngiz səslərlə doludur. Yarpaq, ot xışıltısından tutmuş, ara-sıra bülbül cəh-cəhindən, İsa-Musa quşlarının səsləşməsindən tutmuş, Morze aparatı kimi ağacdələn taqqıltısından tutmuş çaqqal-canavar ulartısından tülkü vaqqıltısınadək, it hürüşməsindən, mal böyürtüsündən tutmuş qaban xorultusuna, ayı donqultusuna, bəbir nərəsinədək... Sıldırımlı, dibsiz uçurumlarla şütüyən büllur, köpüklü dağ çayının şırıltısını və Sulu dərənin öz ahəngdar hənirtisini də bu səslər səltənətinə əlavə edək. Addım səsləri də eşidilir. Bir nəfərin yox, bir neçə nəfərin. Nə atdan, nə eşşəkdən, nə arabadan, nə furqondan, nə faytondan, nə avtomobildən əsər-əlamət var. Addım səsləri qəsəbə səmtindən gəlsəydi bir o qədər təəccüblü olmazdı, məsafə yaxındır. Lakin addım səsləri əks tərəfdən gəlir. Yəni əsrin, dövrün, zamanın, əqlin-şüurun bu vaxtında, hələ də cin-şəyatin var, hələ də ona inanmaq inandırıcıdır? Cin-şəyatinin əsrə, əqlə-kamala, texniki tərəqqiyə, real təfəkkür tərzinin, təfəkkür mərkəzinin pozulmağına, avamlığa, hərfən, cismən qorxaqlığa dəxli yoxdur. O, fərdiyyətlə, həssaslıqla, təsəvvür və təxəyyülün mübaliğə həddini aşmasıyla, özünütəlqinin iradi qüvvəni üstələməsiylə, bəlkə də izahedilməz mənəvi saflıq, mənəvi körpəliklə bağlıdır, bir sıra ruhi, psixoloji məqamlarla bağlıdır. Elə bil bütün

dünya inəklərinin əmcəyindən sağılan süd bu saat, bu dəm göylərin qaranlıqlarına fəvvarə vurur. Ətraf süd gölündədir. Ay da, ulduzlar da bütün dünya inəklərinin göylərə fəvvarə vuran südündən içməyə gəlirlər. Bu fonda Sulu dərəyə yaxınlaşan siluetlər çox-çox aydınlaşır və hətta siluetlərin yaxasındakı deputat nişanları, tək-tək Qızıl Ulduzlar[1] görünür. "Görünür" yox ey... əməlli-başlı bərq vurur, bərq...

* * *

Partiya komitələri birinci katiblərinin çox az bir qismi qadındır. Onlar öz kabinetlərindədir. Çox adi, sadə geyimli qadın rəhbərlərin üzündə həm işgüzarlıq, həm təvazö ilə pərdələnmiş əda... Katiblərin simasında məlahət deyilən şey görünmür. Məlahət cavabdehlik və məsuliyyət hissindənmi hürküb? Məlahət – təbii qadın məlahəti rəyasət ehtirasına, vəzifədən gələn qürura, amiranəliyə, səksəkəyəmi təslim olub? Bəlkə qadın hüsnü, məlahəti erkəkliyə qurban olub? Axı bu qadın "birincilərin" hüzurunda çox pəzəvəng kişi xeylağı tir-tir əsib, yoluq cücəyə dönüb. Bəlkə təqsirlərinə görə həmən kişi xeylaqlarını lap divara söykəmək lazım imiş. Söhbət onda deyil. Söhbət cücəyə dönməkdədir, cücəyə döndərməkdədir, cücəyə döndərə-döndərə kişi cinsinə xas olmalı olan mənliyi (istər haqlı, istər haqsız) tapdalaya-tapdalaya erkəkləşməkdədir! Onlar açıq-aşkar kosmetikadan istifadə etmirlər. Olmaz! Kənar yerdə, başqa şəhərdə bəlkə ayəndə-sayəndə. Onların manikürsüz çeçələ barmağından, demək olar ki, bərbər nəvazişi görməyən saçlarının hər bir telindən nər-nər, çal-çal kişilər asılıb, asılacaq. O nər-nər kişilər nə üçün asılır? İgid-igid, cavan-cavan oğlanlar, külfətlər, talelər. Ona görə ki...

[1]Qızıl Ulduz – Sosialist Əməyi Qəhrəmanı adının nişanı. (red.)

nə isə zəncirvari reaksiya... Qadın katiblər daha asan manevr edir, daha az risk eləyir, daha kəmfürsət və daha amansız olurlar. Çünki qadınlıq onların əynində zirehdir, üzündə qalxan! Bu zirehə, bu qalxana hər şeşpər, hər xəncər, hər nizə, hər imzalı-imzasız məktub, hər komissiya bata bilmir. Əlbəttə ki, insan insandır. Kişi və qadın katiblərin içində (xüsusən kişi) çox yaxşı, zərif, hərtərəfli, mədəni, vətənpərvər, vətəndaş, şeiri, sənəti, incəsənəti, sənətkarı sevən, xalqının tarixini bilən, rus və dünya incilərindən xəbərdar, bir neçə dildə natiq adamlar var. Necə ki, necə? Olmaya bilməz axı! Söhbət mikropadşahlıqdan və onun zəncirvari reaksiyasından gedir... sirayətedicilikdən gedir. Bu reaksiya ictimai işə, partiya işinə ilk irəli çəkilən yeniyetmələrdə nəyin hesabına olursa olsun... tezliklə, layiq oldu-olmadı birinci katib olmaq niyyəti, ehtirası yaradır – mikropadşahlıq idealı! Bəs niyə belə?!

* * *

...Qadın katiblərdən birinin kabinetində telefon səslənir. Katib telefon zəngini qəbul otağına keçirir. Çünki məşğuldur. "Məşğuldur" o demək deyil ki, kabinetində özündən başqa bir və ya on bir adam var. Katib tək olsa da düşünür, daşınır, götür-qoy edir, deməli, məşğuldur. Telefon yenə kabinetdə səslənir. Axı o, zəngi qəbul otağına ötürüb. Düyməni basır. Katibə qız nazsız-filansız hazır olur. Zərif məxluq ("nejnıy pol") biri-birinə nə naz satacaqmış ki?! Bir də qadın qadının, qız qızın naz-qəmzəsini, ədasını, əzilib-büzülməsini götürməz, götürə bilməz, qıcıqlanar, ikrahlanar, qəzəblənər. Onda ki, qaldı bu qadınlardan biri texniki işçi, nisbətən gənc, gözəl, o biri hökm-fərma... nisbətən yaşlı və yaraşıqsız (nisbətən!) ola...

Katib:

– Telefona niyə cavab vermirsən?

Katibə:

– Telefon qəbul otağında səslənmədiyinə görə.

Katib:

– Zəng qoşqusunu (“perevodnoy rıçaq”) çoxdan qəbul otağına keçirmişəm, gəl bax.

Katibə çəkinə-çəkinə baxıb görür ki, hökmlü stolun bir küncündə gizlənən çeçələ barmaq boyda qoşqunun səmti qəbul otağına tərəfdir. Katibə çiynini çəkir. Elə bu vaxt telefon yenə də qəbul otağında deyil, katibin şəxsən qulağının dibində səslənir. “Yəqin qoşqu xarab olub, ola bilər də...” hər ikisi – katib (xüsusən), katibə belə fikirləşir.

Yenə zəng. Katib dəstəyi qaldırır, ağır-ağır qulağına aparır.

– Allo, eşidirəm.

Telefon:

– ... rayon partiya komitəsinin birinci katibi yoldaş ...ovadır?

– Bəli.

Telefon:

– Mənə diqqətlə qulaq asın! Katib ...ova! (bəlkə də ...yeva, bəlkə də ...zadə, bəlkə də ...li)

– Buyurun, eşidirəm sizi, bağışlayın, haradandır, kimdir danışan?

Telefon:

– Qulaq asın. Bu gecə saat on tamamda Azərbaycanın cənub-şərq zonasındakı Sulu dərə adlı romantik və vahiməli yerdə rayon, şəhər partiya komitələri birinci katiblərinin eşidilməmiş, xüsusi, fövqəl`adə yığıncağı açılır. Gündəlikdə bir məsələ durur: Açıq etiraf və açıq etiraf cəsarətinin... mayeyi-cövhəri... baisi... sehrli ömür həblərinin paylanması. Əlbəttə, yığıncağın gedişi ilə əlaqədar başqa söhbətlər də ola bilər. “Ola bilər” deyirəm, çünki olmaya da bilər. Bu yığıncaq sizin və bizim adət etmədiyimiz, görmədiyimiz yığıncaqdır. Siz Sulu dərəyə toplaşanlardan nəinki heç fərqlənmirsiniz, hətta mahiyyət

etibarilə bir az da fənasız. Lakin birinci katib kimi sayca xeyli az olmağınızı, qadınlığınızı nəzərə alaraq sizi cismən, bilavasitə həmən yerə cəzb, məhz cəzb etməyi lazım bilmirik. Lakin nadir yığıncağı başdan axıradək siz bütün cikiylə-bikiylə öz gözlərinizlə görəcəksiniz. Kabinetinizin, kabinetlərinizin dörd divarı rəngli televizor ekranına çevriləcək. Sehrli kabellə, kanalla Sulu dərədən birbaşa translyasiya ediləcək. Bütün adi rabitə kommunikasiyaları translyasiya qurtarana qədər öləcək... Translyasiya qurtarana qədər siz özünüzdən asılı olmayaraq kabinetdən çıxa bilməyəcəksiniz: maqnit zonası! Özü də məlum fizika qanunlarının fövqündə duran maqnit zonası!

Katib:

– Allo, bu nə sayıqlamadır, nə Sulu dərə, nə maqnit, nə etiraf, nə rabitə, nə zabitə?

Dəstəyi aparata çırpır. Dəstək qalxıb katibin qulağına yapışır və deyir:

–Yoldaş ...ova, ...yeva, ...zadə, ...li! Bu sayıqlama qadın birinci katiblərin kabinetində baş verir.

Bu sayaq telefon əhvalatı nöqtə-vergülədək bütün qadın birinci katiblərin kabinetində baş verir.

* * *

Xüsusi ciddi, ağır rejimli həbsxana, lager, düşərgə, koloniya... rəisinin kabineti. Rəis nə Azərbaycan dilini yaxşı bilir, nə rus dilini, ancaq elə güman edir ki, rus dilində ona çatan olmaz. Telefon səslənir, rəis dəstəyi götürür:

–Naçalnik osoboqo obyekta polkovnik Naqdaliyev sluşaet.

Telefon:

–Tovariş naçalnik, u vas çası yest?

Nəqdəliyev:

–Nu?

Telefon:

– Kotorıy ças?

Nəqdəliyev:

– Bez çetverti devyat. İzvinite, kto eto, otkuda vı zvonite?

Telefon:

– Ne vajno.

Nəqdəliyev:

– Esli ne vajno to ne moroçte mne qolovu. A to ya vam po druqomu skaju kotorıy ças.

Və dəstəyi aparatın üsütünə qoyur. Çırpmır, qoyur...

Zəng:

– Allo, polkovnik, eta xna ne ta xna. Vot çto, v vaşem rasporyajenie odin ças pyatnadtsat minut.

Polkovnik hipnoz olub qulaq asır. Onun cavab vermək, danışığı kəsmək iqtidarı əlindən alınıb. O, yalnız və yalnız eşitməyə, dinləməyə qadirdir.

Telefon:

– U vas sidit kamernıx usloviyax bıvşiy otvetsvennıy, avtoritetnıy, doverennıy, bıvşiy kovaler samıx vısşix ordenov Rodinı, sarviqolova, lixoy, ljeorator partiynıy rabotnik. Tak vot, na ne dolqoe vremya liçno sami konvoiruya eqo, na slujebnom leqkovom maşine dostavte v Sulu dere! V toy promejutke vı lişenı pravom noşeniye orujie. Esli daje pistolet budet pri vas, vsyo rovno puli okajutsya zastoporennımi...

Nəqdəliyev dili tutula-tutula, səsi boğula-boğula sual vermək, etiraz etmək, söymək, danışanın kim olduğunu, məsələni... bilmək, tez, dəqiq bilmək istəyir...

Telefon:

– Qulaq asın, Nəqdəliyev, rus dilinin qol-qabırğasını sındıra-sındıra zarafat etdik – bəsdir. Arxayın olun, Sulu dərəyə gətirəcəyiniz, aparacağınız məhbusun başından bir tük də əskik olmayacaq. Ona görə ki, sizdən haqq-hesab çəkərlər, özü

də necə haqq-hesab! Bu barədən arxayın olun. Haqsızlığa, ədalətsizliyə, vəzifə həddini aşmağa, qəddarlığa, nadanlığa, rüşvətxorluğa qarşı mübarizə – quruluşumuzun, cəmiyyətimizin antipodlarına qarşı mübarizə təqsiri olmayan adamları durduğu yerdə bəlaya salmaqdan ibarət deyil. Artıq dərəcədə xahiş; narahat olmayın. "Əmanəti" gətirdiyiniz kimi də qaytarıb aparacaqsınız. Bu sizə ancaq hörmətdir. Çünki pis adam, natəmiz adam, fırıldaq deyilsiniz, işinizin, postunuzun fanatikisiniz... nə olar, eybi yox! Yol-məsafə uzunluğunun dəxli yoxdur. Maşınınız demək olar ki, göylə gedəcək. DAM-çıların gözünə görünməyəcək. Tez olun! Əgər nadzora əmr etməsəniz, gərək kamera qapısını şüa-açarla açaq – bu isə antihumanizmdir. Tez olun, vaxt azaldıqca, hərəkət sürətinizi şüa gücünə artırmalı olacağıq. Bu isə... toje ne qumanno...

* * *

Böyük şəhərin böyük qəbiristanı... gecə... Bir qəbrin yanında belli-külünglü iki nəfər milisioner dayanıb. Hər ikisi cavandır, cüssəlidir.

Birinci:

– Əllərim qabar oldu. Nə çox torpaq töküblər bu rəhmətliyin üstünə.

İkinci:

– Nə tez əlin incəldi, ə! Dünən-srağagünəcən işin-peşən torpaq qazıb kartof əkmək, torpaq qazıb kartof çıxarmaq döyüldümü? Gorunu eşdiyimiz bu kişi böyük, varlı bir rayonun birinci katibi olub. Əslində o elə ömrü boyu Birinci olub, böyük olub, kəsdiyi baş da sorğu-sualsız dığırlanıb... Axırda türmədə öldü. Yəqin fikirləşiblər ki, birdən xorttayıb qəbirdən çıxıb qaçar, gedib bəraət-filan alar... ona görə də üstünə bir maşın əvəzinə üç maşın torpaq töküblər. Qaz, bir az da qaz, ayrım balası!

Birinci:

– Ayə, belə mən hipnoz olmuşam ey. Bu qavrı biz nəyə görə açırıq? Kim əmr elədi? Kim bizi diviziondan ayırıb buraya gətti? Ayə, ayrım olanda nə olar? Mən bilmerəmmi ki, bu həngamənin adı ekzumasiyadır? Bu işdə prokuror, müstəntiq, məhkəmə-ekspertiza həkimi iştirak etməlidir?

İkinci:

– Ayə, biləndə nə olar, bilirsən bil də. Yorulufsansa elə dur, mən qazım. (qazır)

Qəbir açılan kimi kəfənə bürünmüş balaca boylu, qara kepkalı, gözü çeşməkli adam qırağa sıçrayır. Hər iki milis nəfəri vahimədən tapançaya əl atır.

Qəbirdən çıxan:

– Ex vı, trusişki, verzilı da i yeşşo duraki! Mne çto li boites. Xot çeqo nibud soobrajaete, Xankişişki!..

Hər iki milis nəfəri əlləri gicgahında, farağat...

– Xahiş də elləyirik (Şamxor aşıqları demişkən) sizi... yoldaş... narahat...

Qeybdən səs (məzardan sıçrayan çeşməkli, qara kepkalı adama amiranə xitabla):

– Qanadlanın Sulu dərəyə!

* * *

Dünya xali deyil. İctimai-siyasi quruluşlardan, formasiyalardan, dövlət aparatı və sistemlərindən, zamandan, dövrdən, tarixi şəraitdən, müharibədən, sülhdən, aclıqdan, toxluqdan, insanın insan tərəfindən istismarından və qeyri-istismarından asılı olmayaraq dünya heç vaxt yaxşı adamsız, gözəl insansız, nurlu şəxsiyyətsiz olmayıb. "Yaxşı adam" və "pis adam" deyəndə ancaq ixtiyarlı, səlahiyyətli, hökmlü şəxsləri göz qabağına gətirməli! İxtiyarsızın, vəzifəsizin yaxşılığı, pisliyi bilinməz. Bilinsə də nə yaxşılığından xeyir görərsən, nə

pisliyindən ziyan... Əlbəttə, xislət, xarakter, zati-cövhər mənasında ola bilər ki, ən zəlil, ən fağır, ən sayılmaz, ən qotur bir adam əclaf, ziyankar, bədxah olsun. Və həyatda faciələr də törətsin. Lakin bu, tipik deyil, əsas deyil, dəlil deyil.

Telefon YAXŞI adamların kabinetlərində səslənir. Yaxşı adamlar telefonun dediklərini eyni vaxtda eşidirlər.

Telefon:

– Möhtərəm yoldaşlar, heyrətinizi, sualınızı saxlayın sonraya. Siz qısa bir müddətdə Sulu dərədə olmalısınız. Heç bir şeydən ehtiyat etməyin. İmkanımız olsaydı, Sizləri – dövrümüzün, Azərbaycanımızın seyrək-seyrək YAXŞI adamlarını, DÜZ, TƏMİZ adamlarını diri-diri muzey eksponatına döndərərdik. Siz Sulu dərəyə məcburən gəlməlisiniz. Fəqət, bu sizə qarşı kobudluq, zorakılıq deyil. Bu, sehrli qüvvənin iş üsulundan doğan zəruri ehtiyacdır.

* * *

Sulu dərə... Burada hər cür zərbəyə, silkələnməyə, təkana, basabas təzyiqinə davamlı, güllə keçməz xüsusi şəffaf kütlədən, tutaq ki, şüşədən salon əmələ gəlmişdir. Cərgə-cərgə düzülmüş stullar da şəffafdır, lazımi yerlərə qoyulmuş kreslolar da şüşədəndir. Real assosiativ təsəvvür üçün desək, Rəyasət Hey`ətinin (Prezidiumun) uzun stolu da, sol tərəfdəki xitabət kürsüsü də şüşədəndir. Sağdan və soldan Rəyasət Heyətinə əlvan projektorlar tuşlanmışdır. Bu projektorlar xitabət kürsüsünə, bütün salona və tək-tək adama da yönəldilə bilər. Projektorlar hələ yanmır. Çünki hələ salon boşdur. Adamlar salonun girəcəyindəki meydandadır, meydan bəmbəyaz taladır. On dörd gecəlik gipgirdə Ay təklampalı avizə (lyustra) kimi talanın üstündən asılıb. Hamının gözü qara çeşməkli, qara kepkalı, ağ kəfənli skelet-adamdadır. Pıçıltılar, pıçıltılar...

* * *

Daxil İşlər Nazirliyi. Respublika torpağında yerləşən bütün islah-əmək düşərgələrinə, ağır, ciddi rejimli, kamera tipli təcridxanalara (spetsizolyatorı) nəzarət edən nazir müavininin kabineti. Sabiq nazir müavini ya zəlzələdən, ya vəlvələdən cəhənnəmə vasil olandan sonra, təzə müavin özündən asılı olmayaraq səksəkədədir. Bir tapança stolunun üstündəki qovluq altında hazır vəziyyətdədir, bir tapança da kitelinin sağ cibində ayaqdadır... Telefon səslənir.

– Allo, eşidirəm.

Telefon:

– Salam, yoldaş ..... Heç bir sual vermədən qulaq asın və deyilənlərə əməl edin! Əks halda stolunuzun üstündə qovluq altındakı və cibinizdəki tapançalardan avtomatik şəkildə özünüzə atəş açılacaq. Özünüz başda olmaqla bütün həbsxanaların rəislərini, rəis müavinlərini, operativ işçilərini, dəstə rəislərini, vətəndaşları məhkumlarla görüşə buraxan, görüşün qayda-qanununa, müddətinə, şəraitinə nəzarət edən daxili xidmət zabitlərini, praporşiklərini, vətəndaşlardan məhkumlar üçün (peredaça) ərzaq və sair qəbul edən növbətçiləri, həbsxana daxilindəki tibbi personalı (hərbçilərdən – çasovoy soldatlardan, soldat konvoylardan və onların komandirlərindən başqa, ümumən nazirliyə tabe olmayanlardan başqa) Sulu dərəyə gətirin!

* * *

Sulu dərə... Sehrli, şüşə salon ağzına qədər doludur. Göy qübbəsindən Ay, sağdan, soldan isə əlvan işıqlar səhnəni, (şərti...) qırmızı örtüklü stolu... həm də salondakıların üzünü işıqlandırır. Əksərən... bu sürtülmüş, maskalı... həyasız, əzazil... üzlər görmüş üzlərdə əsl insani bir iztirab görünür,

təbii, məhz təbii qorxu və həyəcan oxunur. Ömrü boyu və ya çox vaxt heç kəsi saymayan, heç kəsdən çəkinməyən, (lənkəranlılar demişkən, "adam-nəfərinə") haram var-dövlətinə güvənən (arxalanan yox, güvənən), lap bərkdə siçan deşiyi axtaran bu adamlar – bu üzdəniraq kommunist (əksərən) Sovet adamları... indi kiminsə, kimlərinsə ayaqlarına sərilmək istəyir. Bu adamlar başa düşür ki, nə bu torba o torbadır... nə bu pişik o pişikdir...

* * *

Qırmızı örtüklü stolun arxasında Aludə xanım, Sitarə (toxucu), qalayçı Əlbəndə, brakonyer balıqçılar, Raziyyə, sərhədçi zabit, maarif naziri – akademik, məktəbli Ümid, orta məktəbdə ədəbiyyat müəllimi, Ali məhkəməmizin Bir nömrəli işçisi və astronom-akademik görünür. Heç kəs əl çalmır, heç kim ayağa qalxmır... heç kəs yığıncağın fəxri Rəyasət Heyətini seçmək üçün təklif irəli sürmür. Salona iynə atsan, yerə düşməz... Aludə xanım məktəbli Ümidin qulağına nə isə pıçıldayır və onun ovcuna ən bahalı on beş illik ömür həbi qoyur. Uşaq həbi Ali Məhkəmənin Bir nömrəli səlahiyyət sahibinə verir. O da hipnoz edilmiş kimi lal-dinməz həbi alıb udur. Bu zaman keçmiş məşhur və məs`ul partiya işçisi – qara kepkalı skelet ayağa qalxır, başında qalmış havayla... saymazyanalıqla Ali Məhkəmənin Bir nömrəlisinə üz tutur. Projektorların vəziyyətə müvafiq işığı altında balaca boylu, qara kepkalı skelet həm gülünc, həm də qorxunc görünür. Qara kepkalı skelet:

– Möhtərəm yoldaş filankəs! Siz doğrudan da, tərtəmiz, gül kimi adamsınız, müəyyən mənada hətta idealsınız. Bu mövqedə dayanıb, milyonlar yığa biləcəyiniz halda, bir qara quruş rüşvət almamaq, haram yeməmək, doğrudan da, bu

saat qeyri-inandırıcı fədakarlıqdır! Lakin... Lakin... Lakin.... Sizin bu təmizliyiniz, müctəhidliyiniz kimə lazımdır, nəyə gərəkdir?! Sizin təmiz vicdanınızın arxasında müdhiş bir mənzərə açılır: Ali Məhkəmənin hər səhər ağzından araq iyi gələn qapıçısı alır. Vaxtilə min-min ev yıxıb, haqqı nahaqqa qatıb, yığdığını yığandan sonra yorğun, təcrübəli, şərəfli, qocaman hüquqşünas kimi indi Ali Məhkəmədə xidmət edən və edənlər alır. Ali Məhkəmənin texniki işçiləri, dəftərxanaçıları, məsləhətçilər, müşavirlər alır. Müavinlər və Ali Məhkəmənin üzvləri alır. Burada "alır" sözü çox yumşaq səslənir. Əşşi, ay kişilər, "alır" yox ey, "RÜŞVƏTXORDURLAR" deməliydim. Siz bütün bunları görürsünüz, bilirsiniz. Bunun üstündən kimə lazımdır, nəyə gərəkdir sizin təmizliyiniz?! Siz bu təmizliyinizlə kimin boynuna minnət qoya bilərsiniz? Sizdən çox üzr istəyirəm. Ey Ali Məhkəmənin Bir nömrəlisi, İxtiyarlısı, Siz bu təmizliyinizlə çoxbilmiş sürüşkən qadının sadəlövh, axmaq, noxtalı əri vəziyyətindəsiniz. Ayılın!

Qara kepkalı skelet sözünə davam edir:

– Mənə nə var ki... mən cansızam, skeletəm, ona görə də hər şeyi açıq deyirəm. Bir torba sür-sümüyün cəsarətli olmağına nə var ki... Lakin yox, "o net!" Mən sağlığımda da, yoldaş ...ov, ...yev, ...li, ...zadə, ...i olanda da kişi idim. Həbs edildim. Həbsxana, düşərgə qospitalında müalicə zamanı öldüm. Öldümmü? Nə isə... Məgər mən partiyamızın, hökumətimizin düşməni idim? Mənim düşmən olmağıma qalsa, onda bu qəribə salondakı adamların doxsan beş faizi məndən qat-qat qatı düşməndir. Məgər mən günahsız idimmi? O da yox! Məgər mən kristal, Lenin prinsipli partiya rəhbəriydimmi? Xeyr! Mən qudurdulmuş dəlisov idim. Evlər də yıxmışdım, günahsız kommunistlərin, səsi heç yerə çatmayan (tək-tük çatanı olurdu, o da çox yaşamırdı) kommunistlərin partbiletlərini də ləğv eləmişəm, şəxsiyyətlər də tapdalamışam, namus da ləkələmi-

şəm, keyf, damağ da satın almışam... rüşvət də sel kimi axıb ciblərimə... nə cib? Cib hara, sel hara? Gözdən elə güllə deşməz pərdələr asmışam ki... gəl görəsən. Bir də təkrar edirəm: "Məgər mən partiyamızın, hökumətimizin düşməni idim?" Bütün bu öz dilimlə deyə-deyə, etiraf edə-edə saydığım sifətlərimə görə, əlbəttə düşmən idim. Lakin mən adi, xaric, ən`ənəvi, sinfi, antaqonist düşmən deyildim. Mən daha pis idimmi? Yox, "pis", "daha pis" "ne to slovo". Mən faciə idim! Mən ana bətnində eybəcər idim. Mən al qırmızı, lənkəranlılar demişkən, saf-sadığ, şəhdi-şəkər almanın içində qıvrılmış dipdiri, buğum-buğum qurd idim. "Almanın" öz hüceyrəsindən, öz kütləsindən, öz mahiyyətindən törənmiş parazit idim. Qılıncımın dalı da, qabağı da kəsəndə, haqqımda MK-dan tutmuş bütün instansiyalara siqnallar, imzalı-imzasız məktublar gedəndə, mən camaatla istədiyim kimi rəftar edəndə, partiya rəhbərliyində Lenin prinsipiallığını, kollegiallığını, demokratiyasını nəinki pozanda, heç yaxın buraxmayanda... sinəmi orden üstündən orden bəzəyirdi... Kimin həddi vardı mənə yaxın dura? Özümə inandığıma görə, iddiama görə, rəsmi dairələrin mənə etibarına görə və mənim rəsmi dairələrə inamıma görə! Bir dəfə, bir mühüm yığıncaqda Böyüyün, özü də təzə Böyüyün sözünün üstündən söz dedim. Söz güləşdirmək, cavab qaytarmaq mənasında yox. Cəsarətlə həqiqət danışdım. Ömrümdə beş, on, on beş dəqiqə əsl kommunist oldum. Və həbs edildim. Mən cinayətlərimə görə tutulmadım ki. Eşidin, ey bu salondakılar, ey mənim kimilər! Ne isklyuçeno çto rano ili posdno i Vas ojidaet takoy isxod, takoy udel. Esli Qlava etoqo zaxoçet. Mejdu proçem Qlava Vas do kostey na perebor znaet. Vse vı obluplennıe. O, hamınızı dişinə vurub. Ancaq hamınızı mənim günümə salmaq olmaz. Bumeranq təhlükəsi yarana bilər.Yoxsa o, hansı katibdir ki, ətəyində namaz qılınsın? Doğrudan, yoldaşlar, sizi bura niyə yığıblar? Məni bəs niyə gorbagor ediblər?

* * *

Kameradan birbaşa Nəqdəliyevin gətirdiyi sabiq, məşhur, adlı-sanlı birinci katib ayağa qalxır:

– Onsuz da mənə olan olub, heç kəsdən qorxmuram. Yox, səhv elədim, qorxuram, çünki çıxmayan cana ümid çoxdur.

Ədəbiyyat müəllimi:

– Çıxmayan cana ümid çoxdur. Ancaq bu məsəlin sənə dəxli yoxdur. Nahaq yerə o fikirlə yaşayırsan ki, respublika rəhbərliyinin tərkibində təzələşmə olarsa, Təzə və təzələr səni açıb buraxacaq... Qətiyyən! Hökumət hökumətliyində, partiya partiyalığında, qanun və hökm öz qüvvəsində qalacaq. Bir də axı hansı ağılsız rüşvətxora bəraət qazandırar?

Rüşvətxor nakişiliyini, şərəfsizliyini, namussuzluğunu başqalarının gözünə kül üfürməklə pərdələyir, ədalətsizlikdən, haqsızlıqdan uzun-uzadı şikayətləriylə ört-basdır edir. Fəqət edə bilmir. Rüşvətxor qüruru, rüşvətxor ədası, rüşvətxor hücumu sabun köpüyüdür. Rüşvətxorluğa qarşı Səlib yürüşü elan etmək, rüşvətxorlarla orta əsrlər inkvizisiyasının dili ilə danışmaq lazımdır. Mövcud tədbirlər, söz-söhbətlər, yazılar, açıq ədalət məhkəmələri praktiki olaraq gücsüzdür, azdır. Azərbaycanda Sovet hakimiyyətini yıxsa-yıxsa... RÜŞVƏT yıxacaq. Bəli, bəli!

Məhbus – sabiq Birinci katib:

– Müəllim, avazınız yaxşı gəlir, oxuduğunuz Qur`an olsa. Rüşvətdən, rüşvətxorluqdan danışanda məgər adam ağzını Allah yoluna qoyar? Əvvəla, bu sözlərinizə görə sizin başınıza əndərbala gətirərlər... İkincisi də, bu söhbəti bizim sensor, mətbuat yaxın qoymaz...

Ədəbiyyat müəllimi:

– "Bizim" deyəndə sən kimi nəzərdə tutursan? "Bizim" sözü, yəni şəxsən sənə aiddir?

Sabiq birinci katib:

– Bəli, mənə də aiddir, bu əcaib-qəraib məkanda, salonda, yığıncaqda, plenumda, aktivdə əyləşənlərin hamısına da aiddir... Nə üçün aid olmamalıdır? Məgər biz importuq, xaricdə əkilib-doğulub, bələkdə, beşikdə paraşüt desantı kimi Sovet Azərbaycanına atılmışıq? Biz məgər Monte-Karlo qumarxanalarında, Kasablanka kefxanalarında, Nyu-York Nayt klublarında, Türkiyənin, Misirin, İranın, Küveytin və əlqissə, Şərqin, Qərbin başgicəlləndirici ekzotik mühitində, biznes, kapitalist aləmində dünyaya gəlib, boy atıb tərbiyə olunmuşuq? Caniyiksə də, aliyiksə də, balam, hər nəyiksə də, hər kimiksə də bu torpağın övladı, bu mühitin, bu quruluşun yetişdirmələriyik! Yoldaş müəllim, həbsdə olan sabiq katiblə əli-qolu açıq olan katiblərin iş üsulu, nəfsi, umacağı, mikroallahlığı arasında mahiyyət etibariylə, prinsipcə, allah haqqı, heç bir fərq yoxdur. Əlbəttə, konkret şəxsiyyət, şəxs, fərdi xarakter, xasiyyət mənasında fərq var. Mahiyyətcə fərq ola da bilməz. Çünki ayrı çıxış yolu yoxdur. Burada hər şey çox pis maskalanmış zorakılıqdan doğur. Yalvar-yaxarla, mənölümlə, qəzəl oxumaqla, mühazirəylə heç bir katib heç bir iş görə bilməz, heç bir plan, öhdəçilik yerinə yetirilməz. Yekun mitinqləri, təntənəli raportlar, məhsul bayramları məsələ həllinin kitabın son səhifəsindəki cavabına bərabər bir şeydir. Bəs məsələ hansı üsul və yolla həll edilib, kitabın son səhifəsindəki cavab hansı fəhmlə hasil olunub? Katibin rüşvətxorluğu da zorakılıqdan doğur və zorakılığın, göz odu almağın bir növüdür. Biz vəzifəcə bizə tabe olanları gözünün içinəcən yeddi mərtəbə təhqir edirik. Təhqir olunan da özündən kiçiyi (vəzifəcə) təhqir edir. Ancaq eşitdiyimə görə bir ləzgi qardaş Qutqaşen Rayon Partiya Komitəsinin Birinci katibinin əl-ayağını, baş-gözünü yarımxəncərlə doğrayıb. Bir az, iki-üç saniyə gec xəbər tutsaydılar, olardı fatihə! Nə üstündə? Təhqir, ana-bacı, arvad-uşaq söyüşü üstündə! Ləzgi heç. Ləzgi getdi... Bəs

katib? Onun günahı yoxdur? Bu dəqiqə buradakı katiblərin hər birinin qulağından yapışıb polkovnik Nəqdəliyevin ixtiyarına vermək olar. Nə üçün çoxu katib təhqirinə kişi kimi cavab vermir? Cavab versə, axı vəzifədə qalıb rüşvət ala bilməyəcək. Arvad-uşağını rüşvətlə dolandıranda nə kişilik?

Qırmızı örtüklü stol arxasından Raziyyə:

– Deməli, belə çıxır ki, sən də kişi deyilsən?

Məhbus... sabiq katib:

– Bəli, elədir ki, var. Mən özümü təmizə çıxarmıram. Mən deyirəm ki, məni həbs edənlər başa düşsünlər ki, həmən prinsiplə – qəsd qoymaq prinsipiylə bircə katib də salamat deyil; onu da deyirəm ki, azadlıqdakı katiblər özlərini nə mənim, nə məni tutduranın gözünə soxsunlar.

Sərhədçi zabit (salona):

– Münasibətiniz, bu sözlərə münasibətiniz?

Salon (əksəriyyətlə):

– Böhtandır, iftiradır!

Qalayçı Əlbəndə:

– Yəni lap böhtandır?

Orta cərgələrdən bir nəfər – sifəti, boy-buxunu hamıya çox tanış gələn bir nəfər ayağa qalxır. Qırmızı örtüklü stol arxasında əyləşənlər o saniyə başa düşürlər ki, həmən adam bura sehrlə yox, öz real qüdrəti ilə, varlığı ilə gəlib. Adamlar ona baxdıqca tanıyır. Tanıdıqca tanıdıqlarına inana bilmirlər. Axı, bu ola bilməz. Necə yəni, necə yəni...

Həmən adam:

– Böhtan olmağına lap böhtandır. Bütün quruluşumuza böhtandır.

Astronom:

– Yəni lap böhtandır?

Həmən adam:

– Lap böhtandır. Azərbaycanımıza böhtandır, alnında tər,

əlində qabar zəhmət fədakarlarımıza böhtandır. Bayraqlarımıza böhtandır.

Brakonyerlərdən biri:

– Qədeş, bağışla, iş gör necə gətirib ki, sən zalda, mən səhnədə oturmuşam. Adını bilmirəm, ancaq üzdən çox tanış gəlirsən hamımıza... Qədeş, Azərbaycanımıza da, bayraqlarımıza da, zəhmətkeşlərimizə də, quruluşumuza da qurban olum. Bu quruluşdan Urusyetdə, Belorusiyada, Moldaviyada, Pribaltikada, Leninqradda yoxdur? Söhbət həbs edilmiş katibin həbs edilməmiş onlarla sol tayından gedir. Kişidürlər, durub boyunlarına alsınlar. Belədi, ya qeyri-belədi. Söhbət qara kepkalı skeletin sağ-salamat qalan sağ tayından gedir. Duxları var, durub desinlər, belədi, ya qeyri-belədi.

Həmən adam:

– Dəxli yoxdu, böhtandı. Ancaq Hüseyn Cavid əfəndi deyir:

Şübhədir hər həqiqətin atası,
Şübhədir hər həqiqətin anası.

Yəni, şübhələnmək səni məcbur, vadar, təhrik edir ki, həqiqəti axtarıb tapasan. Böhtan da belə bir şeydir. Adam tanıdığı adama böhtan atar, adam heç vaxt qeyri-mövcudata, anlaşılmazlığa, mücərrədliyə, ağlasığmayana böhtan atmaz. Böhtan "hiddət" və "hədə" sözündəndir. Hiddət, hədə, böhtan göz görüb, ağıl kəsəndə meydana gəlir. Bu barədə siz haqlısınız. Bütün bunları mən sizdən min dəfə yaxşı bilirəm.

Sərhədçi zabit:

– Elə isə qoy salondakılar etiraf etsinlər.

Həmən adam:

– Buyursunlar, bura Sulu dərədir. Buranın bütün ab-havası sehrin əlindədir, məndən başqa.

Akademik – Maarif naziri:

– Bəli, sizdən başqa.

Məktəbli Ümid:

– Bəli, sizdən başqa. Sizin nöqsanlarınızın xarakteri tamam başqadır.

Həmən adam:

– Uşağa bax ey! Slovom, pojaluysta, pust priznayutsya. Yesli çestnıe. İzvinite, yesli podlıye.

Səslər:

A:

– Qorxuram.

B:

– "Pasadyat".

V:

– Partiya biletim gedər.

Q:

– Vəzifəm gedər.

D:

– Özüm öz dilimlə?

* * *

SSRİ Ali Sovetinin deputatı Aludə xanım qırmızı örtüklü stolun arxasından ayağa qalxır. O:

– Ey yoldaş olmayan (bu sözlər çox azlığa aid deyil) yoldaşlar, vətəndaş olmayan vətəndaşlar, kommunist olmayan partbiletli müzürr ünsürlər! Buradakıların çox az bir qismi yaxşı adam, təmiz adam, vəzifəsi, imkanı ola-ola rüşvət almayan (yerdə qalan fənalıqlar rüşvətdən gəlir: qudurmaq, böyük-kiçik bilməmək, zəhməti və zəhmətkeşi ələ salmaq, təmiz adamı özünə tay etmək, içki içməyi, ictimai xarakterli yerlərdə özünü aparmağı bacarmamaq, yalançı cəsarət, pozğunluq, qorxaqlıq, qısqanclıq, məsləksizlik, mühakiməsizlik,

boş butulkaya çevrilmək və sair) adam sifətiylə çağırılıb. Şübhəsiz, sehrin qüdrətiylə. Yalnız bir şəxs öz iradəsiylə sehrsiz gəlib, gəlib – xoş gəlib. Biz ona heç bir pislik etmərik, çünki biz pislərə – onun özü demişkən, antipodlara qarşı köklənmişik. O da bizə öz növbəsində – xüsusən bu şəraitdə heç nə edə bilməz və etmək də istəməz. Çünki biz onun ürəyindən xəbər verən, (əslində!) onun ürəyindən tikan çıxardan müasir nağıl qəhrəmanlarıyıq. Biz bir növ meydanda tək qalıb, döyüşüb, yorulub tilsimli bir xərabədə ürəyinə heç bir şey gətirmədən yuxuya getmiş qüvvətli, təmiz, mərd bir cəngavərin başı üstündə biri-biriylə söhbət edən göyərçinlərə oxşayırıq.

– Bacılı-bacılı.

– Can bacılı.

– Bilirsən bu kişi kimdir?

– Bilirəm. Deyim?

– Susss!

– Bəs, o dili-qafil oyanan kimi neynəsin?

– Qoy fikirləşək.

– Bacılı-bacılı.

– Can bacılı.

Əslində bu salondakı az bir qism yaxşılarla, bu qırmızı örtüklü stolun arxasında əyləşənlərlə o tək, gözəgəlimli, adam arasına çıxarılası, bitməz-tükənməz enerji sahibinin, nitq sahibinin, özü də necə nitq sahibinin arasında nəinki uçurum, əksinə, vəhdət və eyniyyət var.

Aludə xanım sözünə davamla:

– Əsasən və əksərən ey qeyri-əzizlər, qeyri-möhtərəmlər, qeyri-yoldaşlar, qeyri-vətəndaşlar, partiya biletli qeyri-kommunistlər! Bəs onda kimlər? Faktik mənada müasirlərimiz! Qulaq asın! Ömür həbləri nədir, nə üçündür? Daha doğrusu, nə idi, nə üçün idi? Əvvəla, təmiz, layiqli, kişi adamları, cəsurları əlavə ömürlə mükafatlandırmaq üçün idi. İkincisi, oğ-

rularda ("oğru" deyəndə vəzifəli quldurlar, ictimai banditlər, rüşvətxorlar nəzərdə tutulur), juliklərdə yatıb qalan qızılı, qaş-daşı ümumi dövriyyəyə qoşmaq üçün idi. Üçüncüsü, iyrənc, dözülməz dələduzları, qəddarları şəxsən üzə çıxarıb ifşa edib fiziki cəzalandırmaq üçün idi. Dördüncüsü, İnsanı fantastik müddətdə olsa da, ucuz, təsadüfi xəsarətdən, şikəstlikdən, ölümdən qorumaq, xilas etmək üçün idi. İndi – hadisələrin gedişindən doğaraq ömür həblərinin qarşısında duran həmən dörd proqramlaşdırılmış vəzifə qalır kənarda. İndi bu Sulu dərəyə, bu əfsanəvi şüşə salona yığdığımız (təkrar edirəm, öz iradəsiylə gələn bir nəfərdən başqa və çox az bir qism təmizlərdən, paklardan, xalislərdən başqa) Birincilərə, məs`ullara, həyasız, qorxaq, ikiüzlü, yekəbaş, qansız, antipod adamlara bu vicdan, bu üsyan, bu məhşər, bu arzu məhkəməsində düz, açıq danışmaq üçün, onlara səmimi etiraf cəsarəti təlqin etmək üçün hamıya, hamılıqla ömür həblərini havayı paylayacağıq.

* * *

Sehrin qüdrətiylə camaatın ağzı quş dimdiyi kimi açılı qalır. Aludə xanım məktəbli Ümidə işarə edir. Ümid qırmızı örtüklü stolun arxasına keçib səhnənin tən ortasında dayanır. Və üç rəngli əlvan ömür həblərini şabaş kimi sovurur. Həblər düz gəlib adamların açıq ağzına düşür və boğazının yolundan üzü mədəyə sürüşür. Bir öz iradəsiylə gələn adama, bir həbsxanadan gətizdirilmiş sabiq birinci katibə və bir də qara kepkalı, qara çeşməkli, ağ kəfənli skeletə ömür həblərinin dəxli olmur. Sifətlərdə, gözlərdə, əl-qol hərəkətlərində, xüsusən əhvali-ruhiyyələrdə əmələ gələn kəskin dəyişikliyi müşahidə edən qırmızı örtüklü stol arxasındakılardan astrofizik-akademik üzünü salona tutur:

– Ömür həbləri sizin hamınıza sərbəstlik, fiziki toxunulmazlıq, vəzifənizi, rütbənizi, paqonlarınızı, partiya biletləri-

nizi, orden-medallarınızı, elmi dərəcələrinizi, fəxri adlarınızı itirməmək zəmanəti verib. Beləliklə, etiraf edin.

Polkovnik Nəqdəliyev:

– Moya sovest, duşa çista kak rodnikovaya voda. Moyi ruki ne zapaçkanı. Moyo zvanie ne po vnutrennoy slujbe. Ya armeyskiy, kadrovıy ofitser – vospitannik Sovetskoy Armii. Vot moy ispoved!

Başqa bir düşərgə (məhbəs) rəisi və bu cür obyektlərin məs`ul işçiləri:

– Biz məhbusların və onların sahiblərinin, adamlarının, onlara ürəyi yananların hesabına yaşayırıq. Rüşvət üstündə yatanlardan min bir oyunla addımbaşı rüşvət alırıq. Başqa məhbuslar hələ dursun. Ancaq bu haram bir barədən bizə halaldır ki, biz həmən rüşvətin müqabilində həbsxana rejimini əvvəl öz mənafeyimizə görə, sonra camaata yazığımız gəldiyinə görə pozuruq. Camaata da Nəqdəliyevlər yox, Bizlər lazımıq. Bəli!

Sağdan və soldan salona düşən projektorlar onların, yəni etiraf edənlərin sir-sifətini əcaib şəkillərə salır...

Rəyasət Hey`əti, yəni qırmızı örtüklü stol arxasındakı ədəbiyyat müəllimi:

– Lətifəsi sizdən uzaq – Füzuli deyib:

Canını canana verməkdir kamalı eşqin,
Verməyən can etiraf etsin gərək nöqsanını.

Etiraf edin, etiraf, etiraf.

Salon səslənir:

– Biz hamımız məhbus, sabiq birinci katibin bu və ya digər dərəcədə eyniyik, onun davamıyıq. Ondan bir az da pisik. Çünki arxayınıq ki, böyüyün hirsi yatdı, çıxan çıxdı, batan batdı...

Etiraf çıxışları davam etdikcə salona projektorlardan bəmbəyaz və qan-qırmızı işıq düşür. Ətraf süd və qan qarışıq gölə çevrilir. Göl səslənir:

– Süd ana deməkdir. Qan Ana Vətən yolunda candan keçmək deməkdir.

Göldən atlant-atlant oğullar çıxır:

– Mən milis nəfəriyəm, mənim ömür həbim öz vicdanımdır.

– Dövlət ittihamçısıyam.

– Mən xalq hakimiyəm.

– Mən milis mayoruyam.

– Mən SƏDM əməkdaşıyam.

– Mən ali məktəb müəllimiyəm.

– Mən raykom katibiyəm, birinci katibəm.

– Mən cinayət axtarış şöbəsinin operativ zabiti, kapitan filankəsəm.

Ömür həbi bizim öz vicdanımızdır. Əgər biz yoxuqsa (natəmizlik yoxluq deməkdir), onda bəs kim var? Onda bu eli-obanı kim dolandırır, kim-kimə qulaq asır, kim-kimə hörmət edir, kim-kimə tabe olur, kim-kimə şikayətə gedir, kim haqqı nahaqdan ayırır, kim-kimi dərdin-bəlanın, caninin əlindən qurtarır?

Projektorlar Sulu dərədəki bu yığıncağa öz iradəsiylə gələn adamı həmən-həmən elə işıqlandırır ki, onun üzündə xəfif bir təbəssüm, gözlərində kölgələnmiş bir işartı görünür. O necə gəlmişdisə, eləcə də özündən tam asılı olaraq salonu tərk edir, çöldə "Pobeda" markalı (köhnə, qəhvəyi rənginin şövqü getmiş) şəxsi maşınının sükanı arxasında əyləşir...

* * *

Süd və qan qarışığından əmələ gəlmiş göl ləpələndikcə Rəyasət Hey`ətinin qırmızı örtüklü stolu avarlı qayığa çevrilir. Avarçılar stol arxasında əyləşənlərdir. Qızıl qalstuklu məktəbli Ümid qayığın burnunda dayanıb oxuyur:

Gəliniz yaxın,
Gəliniz bəri.
Burda paylanır
Ömür həbləri.
Müftə paylanır
Ömür həbləri.

Nə qızıl-filan,
Nə lə`l gərəkdir.
Nə də xeyirxah
Əməl gərəkdir.
Müftə paylanır
Ömür həbləri.
Süftə paylanır
Ömür həbləri.

Bu zəmanədə
Ürək bir ayrı,
Dil bir ayrıdır.
Görkəm bir ayrı...
Fe`l[1] bir ayrıdır.
Bu ayrılığı
Yığışdıracaq
Ömür həbləri,
Ürəklə dili,
Görkəmlə fe`li
Barışdıracaq
Ömür həbləri.

[1]İş, əməl, məzmun, əsil.

Daha satılmır
Qızıl çervona
Ömür həbləri.
Yalnız ömür yox...
Mərdlik bəxş edir
Hər bir insana
Ömür həbləri.
Ürək sözünü
Ağır məqamda
Üzə deyənə
Bir zəmanətdir
Ömür həbləri.
Qorxu-hürküsüz...
Xəta-bəlasız
Bir cəsarətdir
Ömür həbləri.
Müftə paylanır
Ömür həbləri.

Süd və qan qarışığından yaranmış göl birdən-birə tərtəmiz, büllur kimi, mavi, əlvan, əngin üfüqlü sahilsiz ümmana çevrilir. Qırmızı örtüklü stoldan əmələ gələn avarlı qayıq da bu sahilsiz ümmanda dönüb olur ağ gəmi! Bu ağ gəmi o qədər ağdır ki, adam baxanda gözü qamaşır. Gəminin lap burnunda dayanan məktəbli Ümidin boynundakı pioner qalstuku böyüyür, böyüyür və ağ gəminin al qırmızı yelkəninə çevrilir. Balaca Ümid balanın özü isə qədim dəniz cəngavərlərini, "Min bir gecə" Sindibadını xatırladan qorxulu və uzaq səfərlər kapitanına çevrilir. Gəmi yavaş-yavaş üzür. Xüsusi qurğular yaşayış məntəqələrinə ömür həbləri səpələyir. Əlvan ömür həblərini təbii ki, uşaqlar, yeniyetmələr, cavanlar daha fövrən qapırlar. Qocalara da, ahıllara da, şikəstlərə də pay düşür.

Ömür həbləri birinci növbədə rüşvət epidemiyasının qarşısını alacaq. İkiüzlülüyün, acıdilliyin, yaltaqlığın, namərdliyin, hərfi mənada arxadan vurulan zərbənin qarşısını xeyli və xeyli alacaq. Təhlükəsizlik və digər inzibati orqanların, dövlət və xalq nəzarətinin işini yüngülləşdirəcək, onları daha doğru, daha düzgün, daha adil istiqamətə yönəldəcək.

Kapitan Ümid al yelkənli ağ gəmisini ümidlə sürür. O, istiqaməti – kursu dəyişib, Vətən sularından – Azərbaycan və SSRİ hüdudlarından bir mil də kənara çıxmaq fikrində deyil. Elə şeymi olar? (Qazaxlılar demişkən) Nöşün ki... Azərbaycan Sovet Sosialist Müttəfiq Respublikasının qüsuru da Ümid balanındır, qüruru da! Bala da heç anadan üz döndərər? O hansı övladdır ki, anaya naxələf çıxıb və üzü gülüb?!.

* * *

Ucsuz-bucaqsız, tərtəmiz bir ümmanda al qırmızı yelkənli ağ gəmi üzür – sahil boyu Vətən torpaqlarına əlvan-əlvan ömür həbləri səpələyə-səpələyə üzür. Azərbaycanın minlərlə, on minlərlə oğul və qızı bu gəmini, bu nağılı, bu əfsanəvi cahcəlalı seyr etmək üçün əfsanəvi ümmanın sahillərinə can atır...

**1975-1980**

# MƏQALƏLƏR

# NEYLƏMƏLİ, GÖZ GÖRÜR, ƏQLİM KƏSİR...

## Mirzə Ələkbər Sabirə Açıq məktub

Salam olsun, Sizlərə, ey misli, bərabəri olmayan, arizi-qəmlər əlindən ürəyi şişən Sabirimiz! "Siz" kəlməsində ehtiramla bərabər rəsmiyyət də var. Dönə-dönə icazə istəyirəm, icazə verin, Sizə böyük hərflə "Sən" deyə müraciət edim. Bu "sən" o "sən"dən deyil...

Ey Vətəndaş vacibliyinə görə, içimizi də, çölümüzü də yandıran dərdi-sərimizdən barmaqlarını saya-saya danışdığına görə lap Nizami kimi, lap Füzuli kimi böyük olan Sabir!

Səs salma, yatanlar ayılar, qoy hələ yatsın,
Yatmışları razı deyiləm kimsə oyatsın.
Tək-tək ayılan varsa da, haqq dadına çatsın...
Mən salim olum, cümlə-cahan batsa da batsın.
Millət necə tarac olur olsun, nə işim var,
Düşmənlərə möhtac olur olsun, nə işim var.

Düzdür ki, dahiləri müqayisə etməzlər, düzdür ki, hərəsinin öz yeri, öz zirvəsi, öz dövrü, öz tarixi şəraiti, mühiti var. Heç mən də Səni heç kimlə müqayisə etmək fikrində deyiləm. Fəqət, ona görə yox ki, Sənin də öz yerin var. Ona görə ki, sən

məzmununa görə heç kimlə müqayisəyə gəlmirsən. Təkcə az-çox həmyerlin İmadəddin Nəsimi ilə. O da ki, onun cismani müsibətinə görə. Həm də həlak olanda ikiniz də təxminən bir yaşdaydınız. İkiniz də qaragüruhla, ehkam və kor-koranəliklə döyüşdə tək idiniz. İkiniz də xalis Məhəmməd hümməti, xalis müsəlman idiniz. İkiniz də Qur`anı əzbər bilir, müqəddəs sayır, mənəvi etalon, meyar hesab edirdiniz – şəkk-şübhəsiz...

Nəsimi demirdi ki, Allah yoxdur, peyğəmbər yoxdur, Qur`an yoxdur. Deyirdi ki, Həq mənəm, həq məndədir...

Sən demirdin ki, Müsaviyəm, İsaviyəm, xaçpərəstəm, bütpərəstəm. Deyirdin ki, Köhnə müsəlmanam, a şirvanlılar...

Nəsimini Misir məmlüklərinin, yəni hərbi feodal zümrənin fitvasıyla Hələb cəlladları qətlə yetirdi. Səni də evinin-eşiyinin içində, his çəkmiş sabun tiyanının altındakı ocağın şöləsində (əlbəttə, hərfən yox) həmən şirvanlılar...

Mənə bəd keçdi şəhri-Şirvanda,
Mərəzim şiddət etdi hər yanda.
Bir tərəfdən təvərrümi ciyərim,
Bir tərəfdən ürəkdəki kədərim.

və ya:

Yaşadıqca xərabə Şirvanda,
Bir səfa görmədim o viranda.
Yaşadıqca əzaba düşdü tənim,
Mənə zindan kəsildi öz Vətənim.

Ustad, yazırsan ki, "Nə yazım?". Baş mövzun, sonrakı mövzun, vacib söhbətin, ötəri mətləbin yoxdur. Şe`rlərin dərəcələrə, səviyyələrə bölünmür.

Şe`rə məşğul edərək xatiri qəmmailimi,
Qoyuram qənşərimə kağizimi, çernilimi.

Axı, daha nə yazmadın ki, necə yazmadın ki, kimdən, nədən yazmadın ki?!

Bir balaca dişli danışan kimi, cəsarətvari söz deyən kimi gözümüz qalır əllərdə, ağızlarda.

Millət necə tarac olur olsun, nə işim var?!

Sənin vulkanının krateri budur! Əziz Mirəhmədov bu sözləri yaxşı deyib: "Sabir adı dillərdə, eşqi ürəklərdə yaşayan böyük xalq şairi, dünənin, bugünün, sabahın şairidir". "Sabah" deyəndə bir nöqtə də görünür. Sən sabahların şairisən. Ey müasirliyin də sərhədlərini aşıb keçən Sabir! Səni kimlə müqayisə etməli, nə üçün etməli? Deyirlər Sabir olmasaydı Mirzə Əli Möcüz Şəbüstəri aləm olardı. O, Sabirli də, Sabirsiz də qüdrətlidir, aləmdir. Amma, Sabir deyil...

Mən Sənin min bir çalarlı yeddi cilvəli sənətkarlıq xüsusiyyətlərindən danışıb özünü özünə tanıtdırmaq fikrində deyiləm və buna gücüm də, səbrim də çatmaz. Bircə onu deyə bilərəm ki, yetmişinci illərdə "Ədəbiyyat və incəsənət" qəzetində şe`r şö`bəsinin müdiri işləyirdim. Professor Abbas Zamanovun məqalələrindən birində Sənin şe`r haqqında fikirlərinə rast gəldim. Onları nömrələdim, on iki maddəyə böldüm, iri, qırmızı şriftlərlə rəssama yazdırdım. Başımın üstünə – divara işıq çəkdirib ikiyüzlük lampa yandırdım. Lampanın altından asdım Sənin şəklini, şəklinin də altından gülmıxla divara vurdum Sənin şe`r haqqında fikirlərini, hansı maddəsə dəqiq yadımdadır: "Şe`r yadda qalmalıdır, şe`r əzbərlənməlidir".

Bu üsulla mən redaksiyaya gələn lüzumsuz axının qabağını alır, Sənin şe`r haqqındakı fikirlərini "müştərilərə" məcburi oxutdurur, beləliklə, şe`r xəstələrinin, qrafomanların əlindən canımı qurtarırdım. Heç kim dinə bilmirdi. Sənə görə!

Ustad, sənin kəlamında dünənimizlə bügünümüzün arasında sərhəd, riz, mərz yoxdur. 1911-ci ildən bu saata kimi əfsuslar olsun ki, əxlaqımızda, şüurumuzda, məcazımızda, zövqümüzdə, zehnimizdə, milli qeyrət və səviyyəmizdə, sə`y və davranışımızda, bir-birimizlə rəftarımızda, nəfsimizdə zahirən olsa da, cövhərən ya heç, ya da ki, əsaslı dönüş, dəyişiklik yoxdur.

Məgər dirilib gəlsəydin, sevinərdin ki, həmən həmənik?! Yox, tazədən vərəmlərdin. "Üzü qara ciyərin" tazədən başlardı şişməyə. Necə qoyub getmişdin eləyik. Elə olduqca da beləyik.

– Şəhri mə`lumunuzun vəz`ü qərarı necədir?
– Həmdülillah, necə görmüşdüsə Nuh, oyləcədir!

Lap qısası: Əvvəl nə idiksə, yenə biz şimdi hamanız. Bu misra da başqa bir püskürtünün məşhur, ironiyalı "Fəxriyyə"nin leytmotivi, məğzidir:

Zülmətsevər insanlarıq üç-beş yaşımızdan,
Fitnə göyərir torpağımızdan, daşımızdan,
Tarac edərik, bac alırız qardaşımızdan,
Çıxmaz, çıxa bilməz də bu adət başımızdan.

Yalandır? Bu günümüzə, bu saatımıza, bu dəqiqəmizə, bu saniyəmizə böhtandır?! Çox şeyimiz dəyişməyinə dəyişib, tazələnib. Məişətimiz, geyimimiz, miniyimiz, təhsil formamız. Qadağanlar götürülüb, yollar açılıb, ziyarətə – ibadət və e`tiqadgahlara uğurlu yol verilib, menecer peşəsinə rəvac verilib, Azərbaycan biznesmenləri yetişdirilir. Bizi hər cümə axşamı paklığa çağırırlar. Çox şükür ki, saflıq ocaqlarımız, Allah evlərimiz – məscidlərimiz səliqə-sahmana salınıb, abadlaşıb,

xəli-xəlçələrlə bəzənib, qəndillərlə, müasir büllur şamdanlarla şəfəqlənib, az qala hər kənddə təzə məscidlər inşa edilir, camaatın hesabına minarələr ucaldılır. İfadələrimdə zərrə qədər istehza yoxdur. Bunlar dövrün-zamanın hökmüylə olan şeylərdir. Lakin, ay ustad, sən ki, yana-yana:

İş bilməyən ancaq, yemək-içməkdən əlavə,
Bu canlı dəyirmanlarına şükür, Xudaya! –

deyirsən ha... bax, söhbət bundadır. Bax, bu canlı dəyirmanlar indi də əvvəldəkindən daha arxayın, daha asudə, daha tükürpərdən xırçıltıyla hərlənir. Məsciddə, məktəbdə, mətbuatda, radioda, televiziyada, partiya, dövlət aparatının, hüquq-mühafizə orqanlarının, ticarət şəbəkələrinin hamısında yuxarıdan aşağı, aşağıdan yuxarı hərlənir, milləti millət edən hər şeyi – ən müqəddəsdən ən adiyə kimi hər şeyi üyüdüb məhv edir. O ki, qaldı "canlı dəyirmanlar" ifadəsinə – bunun bircə adı var. Dahiyanə kəşf. Vətəndaş şair – Sabir kəşfi. Əliül ə`la!

"Canlı dəyirmanlar" obrazından ürəyimə bir xal düşür, böyük Sabir! Biz səni küllən, qlobal şəkildə – "A başı bəlalı fə`lə"dən tutmuş "Bəhri-təvil"lərədək, "Çatlayır Xanbacı"dan tutmuş, "Gəl, gəl, a yaz günləri", "Ağacların bəhsi"nədək tanıyırıq, ancaq inceliklərinə qədər – sənətkarlıq xüsusiyyətləri deyilən bir nazik mənada tanımırıq. "Hophopnamə"ni hər mənada, hər məqsədlə misra-misra, kəlmə-kəlmə təzədən oxumaq lazımdır. Canlı dəyirmanlar deyir:

Millət necə tarac olur olsun, nə işim var?!
Düşmənlərə möhtac olur olsun, nə işim var?!
Qoy mən tox olum, özgələr ilə nədi karım,
Dünyavü cahan ac olur olsun, nə işim var?!

Sonra deyirsən:

Yatmışları razı deyiləm kimsə oyatsın,
Tək-tək oyanan varsa da həq dadıma çatsın.

Doğrudan da, səsini ucaldanların başına nələr gətirilməyib, gətirilmir. Nəfs, rəyasət, tamah, lovğalıq, ətalət, hazıryeyənlik, – xalqı şəhvətə, şöhrətə qurban vermək – bəli, bunlar – ey ustad, yenə də varlığımıza, şüurumuza hakim kəsilməkdədir. Misal gətirəcəyəm, deyəcəksən ki, özümü özümə tanıtdırırsan? Yox! Təkrar edirəm, ay Azərbaycan xalqı! Sabiri təzədən oxu!

Şe`r güzgünü yaşı qurumuş kirpiklərimlə silib, bugünümüzün əyri-üyrülərini onların özünə göstərmək istəyirəm, ustad!

Niyə bəs böylə bərəldirsən, a qare, gözünü,
Yoxsa bu ayinədə əyri görürsən özünü?

Nə bu xitab, nə bu müraciət təzə üsuldur, nə də "Hophopnamə"dən gətirdiyim beytlər, bəndlər ətrafındakı fikirlərim, düşüncələrim təzədir. Təzə – bizim Azərbaycan mühitindən ibarət olan cəmiyyətimizin heç vaxt köz bağlayıb sağalmayan, həmişə qan verən yaralarıdır.

Öylə zəhləm gedir allah da bilir millətdən,
Oluram süst, adı gəlcək dönürəm daşə-ətə.

Millətdən zəhləsi gedən bu adamlar xalqın heç bir ərizəsini oxumur, heç bir xahişini, tələbini yerinə yetirmir, heç bir şikayətinə qulaq asmır. Bu adamlar həm də millətdən bərk qorxurlar. Hərbi rejim, silahlı keşikçi dəstələri gücünə hökm-

ranlıq edirlər. Ya rəbbim, görəsən analar Mirzə Ələkbər Sabirdən bir də doğacaqmı?

Mən fəqət öz əmrimi samanlaram,
Xeyrim üçün aləmi viranlaram.
Mən nə cəmaət, nə vətən anlaram,
Yansa vətən, batsa cəmaət belə.

Ustad, elə bil sən bu saat bazar-dükanı gəzirsən: od tutub yanan ətin, yağın, pal-paltarın – hər şeyin qiymətləri üz-gözünü qarsıyır.

Nə eşq, nə aşiq, nə gül, nə bülbül? Onlar da pulnandır – sərbəst bazar qiymətlərinə alınıb-satılır. İxtiyar sahibləri öz işindədir...

Təzə yaralarımızın üstündən hər gün təzə yaralar vururlar. Kimlər? Özümüzkülər! Bizim özgəyə ehtiyacımız yoxdur. Balta da özümüzündür, sapı da... Belə bir əfsanəni bəlkə sənə ilk dəfə böyük müəllimin, ustadın Seyid Əzim danışıb.

Əşşi, necə yə`ni inqilabi satirik şair?! İlk kütləvi erməni-müsəlman qırğınını fəryadla qarşılayan, ermənilərlə azərbaycanlıları biri-birinin qanına qəltan edən rus siyasətini – onun iç üzünü də, çöl üzünü də görən – bu saat bizim gördüyümüzdən də yaxşı görən bir şairin ilahi vergisinə, bəsirət gözünə eşq olsun!

Fitneyi iblisi məl`un oldu nagah aşikar,
Haqqı xalqa bildirib dəf`i-zəlalət etməli.
Sabira! Beynəlmiləl tədbiri ülfət etməli.

Sabira! Sən Azərbaycan xalqının, bütün müsəlman dünyasının əbədi Vətəndaş mərsiyəxanı, sinə vurub nohə deyənisən. Sən göz yaşları içində qəhqəhəsən. Sənin misrala-

rın qıpqırmızı köz üstündə, yaşıla çalan iti-iti şüşə qırıqları üstündə ayaqyalın gəzir. Taziyanələrin, çağırışların, qamçıların elə şaqqıldayıb ki, elə şaqqıldayır ki, elə şaqqıldayacaq ki... şimşəklər, ildırımlar susacaq, sönəcək.

Sevdayi məvəddətdən,
Xali görünür başlar,
Biganə bilir yeksər,
Qardaşları qardaşlar.
Gözlər dəxi qan saçsın,
Bitsin saçılan yaşlar,
Ağlar bizə torpaqlar,
Dağlar, dərələr, daşlar.
Zinhar, edəlim xidmət,
İnsanlığa, yoldaşlar!
Qeyrət, a vətəndaşlar,
Hümmət, a vətəndaşlar!

Bilirəm, sən ibarəni, sün`i, gurultulu, bərbəzəkli təşbehləri, şit bənzətmələri qələminin yaxınlığına da buraxmamısan. Sən sədəf dəstəli, ovuc içində yerləşən tapanca (o da silahdır) deyilsən, uzaq vuran, uzun, qara lüləli, qundağı bəzəksiz, çaxmağı ayaqda tüfəngsən!

Əvvəlcə verirlər sizə hürriyyəti əfkar,
Yə`ni danışıb fikrinizi eyləyin izhar.
Vəqta ki, danışdız, vüzəra oldu xəbərdar,
Mütləq görəcəklər ki, cibişdana zərər var.
Hər fənnilə olsa, qovacaqlar sizi naçar,
Çünki bu yığıncaqda olur haqqınız inkar.

Ali Sovetin sessiyalarında demokratik blokdan, həqiqət, haqq-ədalət cəbhəsindən olan, azlıq təşkil edən, həyasız, fit-

valı, göstərişli hücumlara mə`ruz qalan xalq deputatlarını və onlara qarşı duran qoluzorlu çoxluq təşkil edən partokratiya təmsilçilərini gözümüzün qabağına gətirmirikmi?!

Bimərhəmət ə`yanlarına şükür, xudaya!
Bu sahibi milyonlarına şükür, xudaya!
Xassə Bakı şəhrində, o şöhrətli məkanda,
Dəryatək axan qanlarına şükür, xudaya!
Sakit oturan böylə cinayətlərə qarşı,
Bu sahibi vicdanlarına şükür, xudaya!

Pah atonnan, daha sözüm yoxdur, Sabir! Sən ki, daş heykəlindən silkələnib Şəhidlər xiyabanına gəlmisən ki... İlahi!

Ey xalqımın, millətimin, bağrıyanıq torpağımın, varlı, bərəkətli, duz-çörəkli torpağımın əmrsiz, qərarsız, fərmansız, möhürsüz Xalq şairi! Kim səni tanımır, oxumur, əzbər demir? Hamı, hamı! Sənin fərqinə varan da, vara bilməyən də Səni sevir. Sən özünə qədərki klassik ən`ənəvi şe`rimizin cazibə qatlarını qırdın. Yeni ifadənin, yeni məzmunun, təzə boyaların açıq kosmosuna çıxdın.

Çırmanırıq keçməyə çay gəlməmiş,
Başlayırıq qızmağa yay gəlməmiş.

Kəmhövsələlik, ölçüb-biçməmək, vaxtsız banlamaq, özündən çıxmaq Bizlərə xas deyilsə də bəs kimə xasdır? Kim bunları zərbi-məsələ dönmüş belə bir dahiyanə, əyani xəlqiliklə ifadə edə bilərdi. Heç kim. Səndən başqa heç kim.

Tacirlərimiz Sonyalara bənd olacaqmış,
Bədbəxt Tükəzbanları neynərdin, ilahi?!

Böyük şair! Yadıma Səməndər quşu əfsanəsi düşdü. Deyəcəksən ki, bu beytin Səməndər quşuna nə dəxli var? Var! Bəs sən özün Səməndər quşu deyilsən? Səməndər quşu ölmür. Sən də ölməmisən. Sənə “ölməz” demirəm. “Ölməz” ölüyə (əlbəttə, hər ölüyə yox) deyərlər. Səməndər quşu oddan doğulur, odda yanıb kül olur. Yenə oddan doğulur. Sən də xalqın sinəsində qalanan odlardan doğulur, odlarda kül olur, odlardan qanadlanırsan. Bədbəxt Tükəzbanların halına yana-yana, onların səadətini oğurlayan Sonyalara qəzəbdən od tuta-tuta yandın, yana-yana dirilib gördün ki, əşşi, nə Sonyabazlıqdır? Sonyalar yalandır, Tükəzbanlar həqiqətdir. Gördün ki, o gəlmə Sonyalar bügünkü milli Tükəzbanlarımızın əlinə heç su tökməyə də layiq deyil. Bu gün müasir tacirlərimizin işi xeyli asandır. Nə qədər istəyirsən özü də, üzü də, gözü də açıq Tükəzbanlarımız var. Bəs necə? Qadınla kişi bir hüquqa bərabərdir. Rayonlardan, kəndlərdən şəhərə axışan, azadlığı, müstəqilliyi, sərbəstliyi – başlı-başınalıq, cilovsuzluq kimi başa düşən, qaş-göz arasında, məsləhətsiz, aqsaqqalsız, ağbirçəksiz, yağlı dil – aldanmış gözbağlıcasıyla nigah kəsdirən, nigah pozduran, dünyaya övlad gətirib ondan imtina edən, onu doğum evindəcə qoyub qaçan, divar dibinə, körpələr evinə, yetimxanalara atan Tükəzbanlarımızı görəndə yenə də yanırsan, yenə də kül olursan, yenə də dirilirsən.

Böyük Sabir, vallah mən “Dünyanın yeddi mö`cüzəsi” deyilən mö`cüzələrdən birini pozub yerinə Səni yazardım. Kaş ki, Sən balaca bir Avropa ölkəsinin, dövlətinin, millətinin, xalqının şairi olaydın – söykəndiyin divarı, ayaq basdığın yeri, əlin toxunan ağacı, xörək yediyin qab-qacağı qızıla tutardılar, abidəni lül qızıldan tökərdilər. Hələ şe`rin, sözün, ədəbi irsin qalsın bir qıraqda.

Ədəbi irs, ədəbi irs! Ən azı on ildən yuxarıdır ki, necə deyərlər başına and içdiyimiz “Hophopnamə” yoxdur, məmə

deyəndən pəpə yeyənədək hamımız partapart kitab çap etdiririk. Hanı ayinəmiz, bəsirət gözümüz, anlamaq dərdimizin həm təbibi, həm dərmanı “Hophopnamə”? Hanı lap çoxdan böyük xalq rəssamı Əzim Əzimzadənin şəkilləriylə bəzədilmiş, Abbas Səhhətin dost yanğısı, səliqə-səhmanı, sənin irsinə sədaqəti, həkim-ziyalı həssaslığı ilə tərtib edilmiş “Hophopnamə”? Hanı səhifələrindən Sənin öz hənirtin gələn, hanı səhifələrində “Molla Nəsirəddin” mühitinin mənzərəsi görünən, nəbzi vuran “Hophopnamə”? Hanı təhrifsiz, ixtirasız, senzor-qlavlit qadağanına mə`ruz qalmamış “Hophopnamə”? Bir də ay ustad

– Görmə! Başüstə, yumaram gözlərim,
– Dinmə! Mütləq kəsərəm sözlərim.
– Bir söz eşitmə! Qulağım bağlaram,
– Gülmə! Pəkey, şamü-səhər ağlaram.
– Qanma! – Bacarmam. Məni mə`zur tut,
Böyləcə təklifi məhalı unut!
Qabili-imkanmı olur qanmamaq,
Məcməri-nar içrə olub yanmamaq.
Eylə xəmuş atəşi-suzanını,
Qıl məni asudə, həm öz canını.

kimi bir şe`rin təmsil etdiyi kitabı, müqəddəs “Hophopnamə”ni təzədən, Allah qoysa çap edəndə, onu “Partiyamızın XIX qurultayında sovet ədəbiyyatı və incəsənətində satiranı qüvvətləndirmək vəzifəsinin qarşıya qoyulması ilə əlaqədar olaraq, bütün klassik satira irsi kimi Sabirin inqilabi satirası da aktual əhəmiyyətə malikdir. Sabir zəhmətkeş xalqların qanını soran feodal-kapitalist ağaların qənimi idi” – kimi bədnam, uydurma, qeyri-insani müqəddimələrdən xilas etmək lazımdır. Axı, ayıbdır! Necə bilirsən, ustad?! Fikrə gedirsən. Elə mən də fikrə gedirəm.

Belə snayper, belə söz nişançısı olar ki, bir gülləsi də, bir oxu da hədəfin, hədəflərin tən ortasından dəyməsin? Boşboğaz, qışqırıqçı qəzetçilərdən tutmuş əsil mollaya, həqiqi din xadiminə dəxli olmayan acgöz, savadsız mollacıqlaracan qırmızısaqqal uşaqbaz baqqallaracan, boynuna xaç salıb Omelyanov olanlaracan, Zilli Sultandan "Məmləkəti-Rey" satan Məmmədəlidən tutmuş, ətalət kəsafət yorğanına bürünmüş Fərhad kişilərəcən, Xan bacısına şikayətdən tutmuş, bayquş kimi vaqqıldayan dilənçiyəcən, Bakı qoçularından tutmuş Şamaxı müftisinəcən, yuxusunda darı görən "Ac toyuq"dan tutmuş Qurban bayramında barmağının kirini soran qonşuyacan, küçədə qoca sailə (dilənçiyə) qan qusduran yeniyetmə Feyzilərəcən, yeni məktəbi – təzə təlim üsulunu – üsuli-cədidi ələ salan nadandan tutmuş, başı bəlalı fəhləyədək, eh kimdən tutmuş kiməcən, nədən tutmuş nəyəcən – sənin qələmindən, "Hophopnamə"nin səhifələrindən gəlib keçməyib?

Ustad, buna görə də "Hophopnamə"nin hər səhifəsi ayrıca buklet – bukletlər şəklində, yenə də deyirəm Əzim Əzimzadənin və həmən stilli təzə, cavan rəssamlarımızın illüstrasiyaları ilə çox böyük nüsxələrlə çap edilməlidir. Nəinki filoloji, hətta bütün orta ixtisas, ali məktəb və universitetlərdə proqram üzrə Sabir kursu, Sabir mühazirələri, Sabir dərsi keçilməlidir. Hələ orta ümumtəhsil məktəblərini demirəm.

Ustad! Deyirlər Səni "Molla Nəsrəddin" jurnalı, Molla Nəsrəddin, yə`ni Cəlil Məmmədquluzadə ədəbi mühiti yetişdirib. Nə olar etiraz etmirəm. Ancaq, bu da bəsdir! Bəsdir ona görə ki, qulağımız dəng olub. Səni gətirən gətirib, yetirən yetirib. Səni, əyninə zorla geyindirilmiş feodal-burjua, kapitalist-istismarçı, mürtəce və sairə soxalardan – ölü paltarlarından xilas etmək lazımdır. Məsələn, dünya ədəbiyyatında, dünya ədəbiyyatşünaslığında heç yazıblar ki, Danteni, Şekspiri, Firdovsini, Hüqonu, Füzulini, Puşkini, Lermontovu filankəs, filan mətbuat, filan mühit, şərait yetişdirib?!

Respublikada Nizami Gəncəvinin 840 illik yubileyinə qızğın hazırlıq ərəfəsində Heydər Əliyevin qəbulunda olan hansısa bir Moskva müxbiri xəbər alır: – Heydər Əliyeviç, axı 840 il bütöv, yuvarlaq tarix deyil. Bu nə yubiley vaxtıdır, axı?

Cavab: – Nizami Gəncəvi elə bir dahidir ki, hər gün onun yubileyini keçirmək olar.

Böyük Sabir, bu qısa söz eynilə məhz sənə aiddir. Sən mövsümsüz, mərasimsiz, təqvimsiz, münasibətsiz-filansız hər gün anılmalısan və anılırsan da. Ey cəmi-cümlətanı beşcə ilin əbədi dahisi (1906-1911). Min-min cildlərə bərabər bircə "Hophopnamə" müəllifi Sabirimiz! Sənin obrazların, ifşa hədəflərin bu gün də cabəca sağ-salamatdır. Beləliklə, yubileyin, mövsümün, təqvimin, şe`r bayramının sənə dəxli yoxdur və olmayacaq. Sənin surətlərinin bir dişi də laxlamayıb, hamısı da hərəkətdədir. Tirdə donuq fiqur da var, hərəkət edən fiqur da. Hərəkət edən fiqurları hər adam düzgün nişan ala bilmir. Çünki, bundan ötrü yalnız görmək azdır. Əlbəttə, görmək birinci şərtdir. Yəni ustad, Sənin fitri, qeyri-adi istedadın birinci şərtdir. Bəs daha nə lazımdır? Hesablamaq, ölçüb-biçmək, fiziki, riyazi təxmin, hədəfin hərəkət sür`əti, güllənin sür`əti, qövsü, trayektoriyası, havanın müqaviməti. Gör ki... Sən səksən beş illik bir zaman məsafəsindən bu gün, bu saat hərəkətdə olan fiqurları – tipləri nə cür sərrast nişan alıbsan, nə cür gözündən vurubsan:

**Vəkil:**
Haqsıza haqlı deyib bir çox günaha batmışam.
**Həkim:**
Dərdi təşxis etməyib, qövm-əqraba ağlatmışam.
**Tacir:**
Mən halal ilə həramı bir-birinə qatmışam.
**Rövzəxan:**
Ümmətin pulun alıb, mən gözlərin islatmışam.

**Dərviş:**
Nerdə bulsam soq açıb, min-min yalan söz satmışam.
**Molla:**
Gündə bir fitva verib, məxluqu çox aldatmışam.
**Elm:**
Qət`i-ümmid etmişəm, yeksər bu qövmü atmışam.
**Cəhl:**
Ortada keyf eyləyib, mən hər mərama çatmışam.
**Şair:**
Bülbülə, eşqə, gülə dair yalan fırlatmışam.
**Əvam:**
Anlamam, hərgiz cəhalət bəstərində yatmışam.
**Qəzetçi:**
Mən çəridəm dolmaq üçün mətləbi uzatmışam.

Xaqanini, Nizamini, Nəsimini, Füzulini, Xətaini, Məsihini, Saib Təbrizini, Nəvaini və bu qismdən olan böyük sənətkarları, klassikləri – Sənin öz müəllimin Seyid Əzim Şirvanini, Sənin öz müasirin Məhəmməd Hadini yaxşı-yaxşı başa düşmək üçün adi, sıravi oxucu olmaq az idi və azdır da. Onların oxucusu Tövratı, İncili, Qur`anı, əsatir və hədisləri, şəriət risalələrini müxtəlif mə`xəz və mənbələri, əbcəd hesabını, me`marlığı, nücum (astronomiya) elmini, ərəb-fars tərkiblərini, əruz bəhrlərini, onun imalə və izafətlə (saitləri ahəngə görə uzadıb yığmaq) oxumaq qaydalarını bilməli idi və bilməlidir.

Məsələn: Füzulişünas deyəndə – gözümüzün qarşısında ömrünü Füzulinin sənətinə, kəlamına həsr etmiş konkret ixtisas sahibi – mütəxəssis alim canlanır. Füzulişünaslıq deyəndə isə sistemli bir təlim, filologiya elmi canlanır. Məni düz başa düş, ustad, demək istəyirəm ki, Sabirşünas və sabirşünaslıq deyəndə mənə bir təhər gəlir. Çünki bütün xalq sinədəftər Sabirşünasdır.

Bir bölük boşboğazıq – heyvərəlik adətimiz,
Doludur lə`nət ilə, qeybət ilə söhbətimiz.

və ya

Yaşamaq istərisək dəhrdə əmniyyət ilə,
Elmə, fənnə, üdəbaya baxalım nifrət ilə.
Uyalım fitnələrə eldəki vəhşiyyət ilə,
Yatalım bəstəri qəflətdə uzun müddət ilə.
Püxtəlikdən nə yetər, biz hələ xam olmalıyıq.
Yaşamaq istərisək – sırf əvam olmalıyıq.

Ustad! Sənin bu tərsinə sillənə, adamın gözündə çaxmaq çaldıran naqolay sillənə, axı nə Sabirşünaslıq?! Sənin də vaxtında, dövründə ədəbi mühit vardı, şairlər vardı – Hadilər, Səhhətlər, Qəmküsarlar vardı. Ancaq Başqaları da vardı, sillən onları da tutub ey... Deyəsən bu cür söz dəllalları səni lap çox yandırıb:

Pula sitayiş edən şairin bu qəhbəliyi,
Nəhayət, əqbəh olan bir əda deyil də nədir?

Abidənin başına dolana-dolana Sabir bağında gəzirəm. Bundan əvvəlki heykəlin mənə daha çox xoş gəlirdi. Çünki o heykəl zərif idi. Hüzünlü idi. Tə`nə, təhdid oxlarına tuş gələn, şam kimi əriyən, təvazə, dözüm, dəyanət mücəssəməsi idi. Ancaq nə dəxli, heykəl daşdır. Yox, Sabir, Sənin heykəlin daş deyil. Sənin məzarın da milyon qəbirdən biri deyil. Onlar sənin şərti nişangahların, ünvanların, koordinatlarındır. "Koordinat" lap müasir səsləndi axı. "Səsləndi"yə bax ey... Ustad, bir var bir ifadəni, bir sözü hansı məqsədləsə yürütdüyün, təbliğ etdiyin bir fikrə uyğunlaşdırasan, bir də var ki, "Hophopnamə"nin başdan-ayağa bütün misraları bu günün

sözü-söhbəti ola, bu saat qübar etmiş ürəyimizdən irinli-qanlı tikan çıxara...

Mənəm-mənəm deyənlərin inanma çox da qövlünə,
Gərəkli gündə onların qıçındakı fərarı gör.

Deputat mandatı alıb vəzifəsini, mövqeyini qorumaq üçün, qılıncını sıyırıb camaatın canına daha arxayın, amansızlıqla düşmək üçün dil töküb xalqa yalvaran, qapı-qapı gəzib adi dolanış, məişət ehtiyaclarından sui-istifadə edən, rüşvət təklif edən, yağ, ət, yumurta, kolbasa paylayan... məqsədinə çatandan sonra heç kəsi, heç kimi tanımaq belə istəməyən müəyyən parlament üzvləri göz önündə canlanır.

Sən demədinmi Dumada rəf olur ehtiyacımız,
Mən demədimmi çox yemə, tez pozular məcazımız.
Qara buludlar oynaşır, indi nədir əlacımız,
Çulğalayır bizi duman, mən deyən oldu-olmadı.

Buyur də! Bu fikir, qənaət Azərbaycan Respublikasının bügünkü ictimai-siyasi, iqtisadi-mənəvi vəziyyətiylə, elan edilməmiş müharibə içində, fövqəl`adə vəziyyətin tüfəng lülələri altında çalışmağımızla, yaşamağımızla yox, yaşaya bilməməyimizlə, piştaxtaları, boş taxtları od tutub yanan bazar-dükanımızla lap mikromillimetrinəcən üst-üstə düşür ya düşmür?

Sanma bir məsləki-təqib ilə möhkəm qalaram,
Əlli arxın suyunu gündə bir arxa calaram.
Kefimin gəlməsinə bax, nə gərək yaxşı-yaman,
Mən gəhi mixi, gəhi nəli döyüb tapdalaram.

Bəli, ustad, Sənin bu sözlərin tərəddüd və qorxaqlıqdan xəyanətə, satqınlığa gedib çıxan üzdəniraq ziyalılara, mühüm

nöqtələri, yerləri tutanlara necə də aiddir! Sən həmişə "intiligent"in yaxasından bərk yapışmısan. Düz eləmisən. Çünki, ziyalı cəmiyyətin dirijorudur. Sən bu dirijorun əlindəki çubuğun bircə titrəyişini belə gözdən qoymamısan. Ona görə də Sən Azərbaycanın şe`r qalaktikasında əvəzsiz, müqayisəsiz, təktənhasan, Sabir!

Hər gün genəldi daireyi hörmətin sənin,
El uğradıqca fəqrə, şişib sərvətin sənin.
Millət arıqladıqca kökəldi ətin sənin,
Rüşvət haramdır dedin: aldın, utanmadın.

Bu xalq, bu millət xüsusilə, təzə nəsil Səni təzədən, yaxşı-yaxşı, bugünün gözüylə oxumalıdır. Yoxsa ki, "Sabirin təsvirində kapitalist son dərəcə həyasızlaşmış yekəbaşdır" deməklə həm səni təhqir edir, həm təhrif edir, həm də Tağıyevlərin işıqlı ruhuna ədəbsizlik edirik.

Kim nə deyər bizdə olan qeyrətə,
Qeyrətimiz bəllidir hər millətə.

Belə olduğu üçün də belə düşünüb belə qələmə vermişik Səni, Sabir! Belə olduğu üçün də Füzulinin – Yarəb, bəlayi eşq ilə qıl aşina məni – misrasındakı "Yarəb" sözünü "Yoldaş" sözüylə əvəz etmişik, bizi allahsızlar cəmiyyətindən çıxardardılar axı. "Yeni yol" qəzetini bağlayardılar axı...

Yoldaş, bəlayi eşq ilə qıl aşina məni,
Bir dəm bəlayi eşqdən etmə cuda məni.
(Məcnunun dilindən)

“Azərbaycan ədəbiyyatı tarixi” kitabından: “Sabiri xarakterizə edən başlıca xüsusiyyət onun bir sıra məsələlərdə pro-

letar məfkurəsinə yaxınlaşması idi. Realist satirasının ən yaxşı ideya xüsusiyyətlərilə Sabir, dövrünün M.Qorki, Yan Raynis, A.Sereteli kimi məşhur inqilabçıları, yazıçıları ilə bir cərgədə durmuşdur".

Səni indiyə kimi rəsmi ədəbiyyatşünaslıq və tənqid belə qiymətləndirib. Xüsusən, dərsliklərdə zaman-zaman düzgün təhlil və tənqid edilməmisən.

Azərbaycan Sovet Ensiklopediyasından: "Sosializm idealları Sabir üçün böyük ilham mənbəyi idi".

Sənin barəndəki yazıların hamısının yönü, canı, fikri, təmayülü belədir: ...inqilabi satiranın banisi, fəhlə-kəndli şairi, beynəlxalq irticanı, boynuyoğunları, mollaları qamçılayan, dövrünü-zəmanəsini ifşa edən və sairə... Bunların hamısı sün`i, sosialoji, tendensiyalı, böyük şair, sənin heç yuxuna da girməyən təyinatlardır, söhbətlərdir, hər işdəki kor-koranəliyimizdən, saxtakarlığımızdan biridir. O ki, qaldı "öz dövrünün ifşası" məsələsinə ki, bunu Sənin məziyyətin kimi qeyd ediblər – əslində Sənin bu ifşana, bu atəşlərinə bizim bu günümüz, bu saatımız – Azərbaycanımızın hal-hazırı daha düzgün seçilmiş hədəfdir! Bax mən buna deyərdim ki, bütün şablonlardan, zoran təfəkkür tərzindən, Sabirdən yapışıb dünənimizə tüpürmək şakərindən tamamilə uzaq, kənar, təzə, açıqgözlü Sabirşünaslığın vaxtı, zərurəti gəlib çatıb.

Gopnan əməl aşmaz, işə qeyrət gərək olsun,
Millət düyünün açmağa himmət gərək olsun.
Min elm deməkdənsə, həmiyyət gərək olsun,
Sözdən nə bitər, işdə həqiqət gərək olsun.

Böyük ustad! Təzə Sabirşünaslığın işi çox və çox çətin olacaq. O Sənin təhlilinə, təbliğinə tamamilə SIFIRDAN başlamalıdır. Sənin yaradıcılığının əsas qayəsini, cövhərini, mayəsini

dinin, boynuyoğunun, feodalın, kapitalistin ifşası anlayışından xilas etmək lazımdır. Xüsusən gənc nəslə başa salmaq lazımdır ki, Sən nə burjuaziya bilmisən, nə sinfilik-qeyri sinfilik bilmisən, nə siyasət adamı olmusan, nə inqilabçı, nə də demokrat olmusan. Sən ilahidən gələn bir vergi, bir fəhmlə, sehrli bir bəsirət gözüylə, bir ülvi, bir əlçatmaz istedadla milli bəlalarımızı, bu gün daha çox tuyğan edən fitri nanəcibliyimizi açıb tökmüsən. Sənin realizminin heç təşbehə də, bənzətməyə də, istiarəyə də ehtiyacı olmayıb.

Əqrəb kimi neştər gücü var dırnağımızda,
Hər küncdə min tülkü yatıb çardağımızda,
Min hiylə qurub rüşvəti ikram alırız biz.

Bu lap iri planlı, panoram ifşadı. İnan ki, bu misralardan ÇOXUMUZUN xəbəri yoxdur. Dərs kitablarından hansı şe`rini oxumuşuqsa elə yadımızda da o qalıb. "A başı bəlalı fə`lə" şe`ri sənin tacındır! Ancaq yaqutsuz-lə`lsiz, gövhərsiz tac olmur axı, Sabira! Təfriqə – ayrıseçkilik, nifaq, həmrəy olmamaq, bir-birini eşidə bilməmək, birləşə bilməmək, hətta Qur`anın, peyğəmbərin çağırışına məhəl qoymamaq, içəridən parçalanmaq, sökülüb dağılmaq, nəinki Azərbaycan xalqının, bütün müsəlman dünyasının əbədi-əzəli faciəsidir! Sünni-şiə məzhəbləri də, yerliçilik də, məhəlli lovğalıq da, pirimitiv əyalət ədabazlığı da, Fələstin müsibəti də, İran körfəzindəki məğlubiyyət də buradan doğur, bu faciənin acı bəhrələridir.

Da`i bə üxüvvət olurikən bizə qur`an,
Əmr eylər ikən birliyə peyğəmbəri zişan.
Tapmazsan iki müttəfiqürrəy müsəlman,
Qafqazda olan bir neçə milyon arasında.

"Qur`an" dedim, bir incə mətləbə toxunmaq, bir cəhəti aydınlaşdırmaq istədim. Axı, ay ustad, Sən dindarsan, oruc tutan, namaz qılan, ağzı dualı müsəlmansan. İslam tarixinə, ilahiyyata (elm kimi) şəriətə bələd ziyalısan. Qur`ani-şərifi ayələrinəcən, surələrinəcən əzbər bilən – mə`naları ilə birgə, yozumuyla bahəm əzbər bilən e`tiqad sahibisən. Bizə gəlib çatmasa da, itib-batsa da nohələrin, mərsiyələrin, müqəddəslərin şə`ninə qəsidələrin olub.

Bəs elə isə nə üçün hələ Sənin kimi molla, zahid, axund, müfti, mərsiyəxan düşməni tanımır bu Azərbaycan ədəbiyyatı?! Sən cəmiyyətin bütün bəlalarını – avamlığın, geriliyin, əxlaqsızlığın, riyakarlığın, məsləksizliyin, qəddarlığın, əsrlə ayaqlaşa bilməməyin səbəbini din xadimlərində görürsən? Onda belə çıxır ki, bizim dinə bügünkü münasibətimizlə Sənin dinə ogünkü münasibətin düz gəlmir. Səsini eşidirəm:

– Yox, elə deyil! Heç bir ağıllı şəxsin və mənim heç bir sələfimin dində, e`tiqadda işi olmayıb. "İşi olmayıb" azdır. O, hansı böyük şairdir ki, sözünün, kəlamının, beytinin, dastanının əvvəli də, axırı da Allah, Məhəmməd, Qur`an olmasın. Hələ mən qeyri-dinlərə, qeyri-müqəddəslərə ehtiramı, hətta vaqif (bələd) olmağı bir yana qoyuram.

Mən dini-imanı quldurçuluq-qarətçilik tüfənginə, yasin surəsini pul tələsinə çevirən, təsbehi, papağı, qurşağı, hənalı saqqalı, namazı camaatın gözünə soxan lotuların, din pərdəsinə bürünmüş lotuların, ürəyində "şəriət avamlar üçündür" deyib milləti ələ salanların düşməniyəm:

Aldanmaram ki, doğrudur ayinin, ey əmu!
Kəssin məni həqiqi isə dinin, ey əmu!
İmanına qəsəmlə çapırsan cəmaəti,
Quldurçuluq tüfəngimidir dinin, ey əmu?!

Mən bozbaş kasasından, plov sinisindən tutmuş gözə, beyinə, ürəyə soxulan ədəbaz nadanların, özünü məclislərdə dartıb hamıdan ağıllı sayan çərənçilərin, batini bir cür, zahiri başqa cür olanların qənimiyəm.

Ey xacə, çalış surəti zahirdə qəşəng ol,
İstərsən özün surəti mə`nidə çəfəng ol.

və ya:

Deyilik naşı bu işdə, ağarıbdır yalımız,
Bilirik dini müsəlmanı bu gün öz yolumuz.

və ya:

Allahu peyğəmbər imam,
Həm də ziyarətgah tamam.
Mollaya mal olmuş, balam,
Yox gözləyən irzü ədəb,
Mollalar olmuş pul tələb.

Mən paklığın, amalın, dərin e`tiqadın, öz dinimin səcdəsindəyəm. Mən ulu babam Nəsiminin səsinə səs verib deyirəm. Mən haqqam, haqqın da tərəfdarıyam. Nə o cür sünniyəm, nə bu cür şiəyəm:

Əşhədü billahi əliyyül əzim,
Sahibi imanam, a Şirvanlılar!
Yox yeni bir dinə yəqinim mənim,
Köhnə müsəlmanam, a Şirvanlılar!
Şiəyəm, əmma nə bu əşkalidən,
Sünniyəm, amma nə bu əmsalidən.
Sufiyəm, əmma nə bu əbdalidən,
Haqsevən insanam, a Şirvanlılar!

Küfrümə hökm eyləməyin zur ilə,
Qaili Qur`anam, a Şirvanlılar!

Heç kəs məni zorla kafər, dinsiz elan etməsin. O ki, qaldı Vətənimdə dinin, dindarın, mollanın, şeyxin, müftinin, axundun bügünkü mərtəbəsinə – yenə həmən həməndir. Var əsil din xadimi, var ikiüzlü, siyasət oyunbazı, rəsmi dairələrin əlində alət, ağzında zurna təbliğat vasitəsi ki, onlar indi də mənim ifşa və nifrət hədəfimdir.

Əlhəzər qoyma baxa əksimə zahid ki, onun,
Nuri haq dideyi xudbininə zülmət görünür.
Qoy bu ayinəyə ol pak nəzər baxsın ki,
Bütün əşyadə ona nuri həqiqət görünür.

Aydındır, ustad! Bilirəm, az qala deyəcəksən ki, əşşi, bəsdir də özümü özümə tanıdırsan. Bəsdir yazdıqlarımı üzümə oxudun.

Sabira! Əvvəla, Səni üç-dörd şe`rini, iki bəhri təvilini məhdud müntəxəbat çərçivəsindən xilas etmək, "Hophopnamə"-nin dərin qatlarına, ümman genişliyinə baş vurmaq lazımdır. "Fəhlə"ni də, "Xanbacı"nı da yeni gözlə təhlil etmək lazımdır. "Oxutmuram, əl çəkin" şe`rini axı nə qədər Sənin dilinlə, əlinlə camaatın, xalqın başına vurmaq olar? Axı nə qədər yanıqlı olsan da, öz xalqını heç də ümumən savad, təhsil əleyhdarı kimi damğalamaq istəməmisən. Sən üsuli-cədidi – yeni təhsili, yeni məktəbi çaşğınlıqla qarşılayan, ürəyi təmiz, sadə, sıravi həmvətənlərinin heyrətini, qaragüruhdan qorxmağını təsvir etmisən:

Gərci bu bədbəxt özü elmə həvəskar idi,
Kəsbi kamal etməyə sə`yi dəxi var idi.

Fikir verin. “Sə`yi dəxi var idi”. Bir var oxumaqdan qaçmaq, bir də var qorxudan oxumağa baş qoşmamaq. Bu nüansları açmağın səni saxta, standart yozumların əlindən, daha doğrusu, yozanların əlindən xilas etməyin vaxtıdır, ustad!

Ustad! Cəsarət eləyib məktubumda bir nazik telə də toxunmaq istəyirəm. Ağlımız kəsəndən bəri oxumuşuq ki, bizə öyrədiblər ki, Sabir bütün mənfi tiplərini onların öz dili ilə danışdırır. Yəni fəhləni ələ salan, (əslində ona sözün düzünü deyən) əkinçini hədələyən, dilənçini qapıdan qovan tiplər deyir həmən sözləri. Heç Sabir də fəhləyə deyər ki:

Fə`lə, özünü sən də bir insanmı sanırsan?
Pulsuz kişi, insanlığı asanmı sanırsan?
İnsan olanın cahü-cəlalı gərək olsun,
İnsan olanın dövləti-malı gərək olsun.
Alçaq, ufacıq daxmanı samanmı sanırsan?
Axmaq kişi, insanlığı asanmı sanırsan?

Niyə axı? İnsanın rifahı, xoş güzəranı, ruzusu, pulu-parası, ev-eşiyi olar də, nə mənfi tipbazlıqdır?

Rədd ol qapıdan, ağlama zar-zar, dilənçi!
Vaqqıldama bayquş kimi, idbar dilənçi.

Hər məqamda, hər mühitdə, hər şəraitdə dilənçilik ləyaqətsizlikdir. Kim qapıya gələn dilənçini qucaqlayıb bağrına basıb, o üzündən, bu üzündən öpüb? Heç kim. Nə mənfi axı?

Adəmi adəm eyləyən paradır,
Parasız adəmin üzü qaradır.

Bu sözü sırf – yaşayış, dolanmaq, maddi həyat kredosu, meyarı kimi hamımız, hər yerdə, həmişə demirikmi? Bunu nə üçün, ancaq mənfi tip deməlidir?

Rus imperiyasının əsarəti, məişətimizə, adət-ənənələrimizə müdaxiləsi, rus çinovlikliyi, rus dəftərxana idarə üsulu, rus senzoru, rus xəfiyyəsi, rus danosu, əyalətlərdə çarizmin ruslaşdırma siyasəti Sənin nəzərindən necə yayına bilərdi, böyük sənətkar?! Elə isə bu şe`r nə üçün mənfi tipin, avamın dilindən deyilməliydi?

Neynəyim, ey vay, bu urus başdılar,
Bilməyirəm hardan aşıb daşdılar?
Ölkədə gündən-günə çoxlaşdılar,
Hər əmələ, hər işə çulğaşdılar.
Qoymayın, ay köhnələr, ay yaşdılar,
Heyvərələr hər yerə dırmaşdılar.

Vallah, billah, ay ustad, Sənin o "Bu boyda-bu boyda" çox geniş yayılmış şe`rin var ha:

Əyinlərində buluz, başlarında baftalı şapka,
Alınlarında urus tək nişan bu boyda-bu boyda.
Məgər bular deyil övladi-paki dindaran,
Tuturlar uşqulalarda məkan bu boyda-bu boyda.

Heç o da mənfi tipin dilindən deyil. Bu əsərdə heyrətindən ağzı açıla qalmış bir adamın, nə olar lap olsun yeniliyi, tərəqqini birdən-birə dərk eləyə bilməyən bir sadəlövhün, lap bir avamın səmimi, təəccüb dolu sualları var. Sözümün canı budur ki, sənin əlvan, dadlı-duzlu, canlı-canlı obrazlarını, xalq həyatının tam əksi olan surətlərini (tip sözünü də bir qırağa tullamaq lazımdır) eyni damğa ilə damğalamaq və ümumiy-

yətlə damğalamaq, illər boyu sənin yaradıcılığını dayaz, bəsit sün`i sosioloji təhlilin – bədnam, uydurma proletar baxımından təhlilin predmetinə çevirmək heç cür bağışlana bilməz bir iş, bir cinayətdir. Sənə özcə canlı gözümüzlə yox, marksizm-leninizm təlimi, sinifli cəmiyyət, sinifli ədəbiyyat gözüylə, ölçüsüylə baxmışıq. Bəsdir, daha belə baxmayaq sənə, Sabira!

Şiddəti-seylan ilə baran tökür,
Bir koma yox, daldalana bilmirəm.

deyə-deyə yenə də sənin o ağlar, o nurlu, o dərin gözlərin, o iti baxışların zülmətlər içində, zalimlər içində, harınlar içində, yekəqarınlar içində, həpəndlər içində, saqqallılar, qurşaqlılar, zahidlər, heyvərələr içində, papağını kəc qoyan bəylər içində Səttar xanları da, Bağır xanları da, Şeyx Məhəmməd Xiyabaniləri də, Mirzə Əli Mö`cüzləri də görürdü. Həsən bəy Zərdabiləri də, Firudin bəyləri də, Ağəli bəy Nasehləri də, Abdulla bəy Cövdətləri də görürdü. Soltan Məcid, Hacı Məcid, Qafur Rəşad əfəndiləri də, Cövdət, Üzeyir və Nəcəf bəyləri də, Səhhətləri də, Hadiləri də, Əliqulu Qəmküsarları da görürdü. Mirzə Cəlil, Ömər Faiq Nemanzadələri, Həmidə xanımları, Orucov qardaşlarını da, cavan Süleyman Saniləri, Cəmo bəyləri, Bədəl bəyləri, Abdulla Şaiqləri də, Əzim Əzimzadələri də görürdü.

Viranə Şamaxıda mənə gənc tapılmaz –

deyə-deyə, yəni viranə olan yerdə mütləq dəfinə, xəzinə olmalı ikən; bu xəzinəsiz viranədə yenə də Sən özünü mənən, ruhən ülvi hesab edirdin:

Ruhum, ey şahibazi-ülviyyət,
Uç, uç, övci səmada pərvaz et.

Mən gedərsəm var olsun amalım,
Yaşasın şəhriyari hürriyyət!
Mən gedərsəm var olsun amalım.

Özün də yaşayırsan, sözün də yaşayır. Yox, bu şüar deyil, həqiqətdir. Böyük Sabir! Heç bir okeanşünas, heç bir qəvvas, heç bir akvalanq, hətta nəsilbənəsil okeanı – bəhri mühiti, onun sirlərini, dürlərini, canlı aləmini öyrənib qurtara bilməz. Bu sözlər Sənə də şamildir, Sənə də yaraşır, ey bircə "Hophopnamə"nin sahilsiz okean şairi!

1967-ci ildən bəri Sabir poeziya günləri keçirməyə başlamışıq. İyirmi dörd ildir ki, qədim Şirvan yollarıyla Bakıdan Şamaxıya bir maşın karvanı, şe`r, şair, əhli-qələm karvanı gedir. Bu karvanın ilk saribanı sənin – sənə layiq oğullarından biri, bizim dövrün Xalq şairi Rəsul Rza idi. Allah ona rəhmət eləsin! Bu karvan sənin yanar ürəyinin, əcəldən də naz çəkən taleyinin Vətəndaş şe`rinin işığına, məş`əlinə həmişə gələcək.

Lakin indi bu karvan sənin beşiyin qədim Şamaxıya, müqəddəs məzarının başına lap asta-asta gəlir. Çünki, bu karvanın yükü çox ağırdır. Bu – qeyrət, namus, təəssüb, kişilik yüküdür. Biz çoxuq – yenə də təngiyirik, töyşüyürük. Sən isə bu yükü o cüssəsiz vücudunla təkbaşına, tək-tənha, çöllərdə payi-piyada, qulibiyabanlar arasında daşımısan.

Sabir köhnəliyin vəlvələsiydi,
Milli idrakımın zəlzələsiydi.
Vətən fəxr etsə də şairləri ilə,
Sabir tək başına xalqın bəsiydi.

Salamat qal, böyük Sabir! Ruhun şad olsun!

**24 may 1991**

# MƏŞƏDİ İBAD MƏNFİ SURƏTDİRMİ?!

(Mülahizələr)

– Xeyr!

Görürsən ki, bəzi tamaşalarda dramatik vəziyyətə görə, hadisələrin gedişinə görə, ya quruluşçu rejissorun verdiyi mizana görə aktyor necə deyərlər, məclisin şirin yerində səhnədən düşüb zala girir, cərgələrin arasıyla keçib gedir və ya əvvəlcədən boş qoyulmuş hər hansı bir kresloda, hər hansı bir tamaşaçınınsa yanında saymazyana əyləşir. Bəzən də tərsinə olur. Aktyor və hətta aktyorlar foyedən girib bütün salon boyu addımlayaraq, qrimi, rekviziti, xülasə bütün dəmdəsgahıyla, nə mənə-nə sənə səhnəyə qalxır. Buna deyirlər tamaşayla tamaşaçının canlı təması, əlaqəsi, bir-birinə qaynayıb-qarışması. Bir də belə mizanların simvolik mənası, əslində elə əsl mənası budur ki, hər şeyin başlanğıcı, mənbəyi, mayeyi-cövhəri həyatdır. Sözümün canı bir qədər başqadır. Səhnə-mizan söhbəti saldım ki, mətləbə qaranəfəs, hövlnak yox, ustufca – televiziya-kino operatorları demişkən "plavnı" keçim.

Az qala yüz ilə yaxındır ki, Məşədi İbadın adı, sözü-söhbəti, məzəli, rişxəndli, ibrətli zərbi-məsəlləri, canlı bənzətmələri, heç vaxt yersiz, köhnəlmiş görünməyən kəlamları dilimizin əzbəridir. Görəsən, bu ölməz, əvəzsiz, dadlı-duzlu surət həyatdan Üzeyir sənətinə gəlib? Yoxsa onun söz və saz (saz musiqi mənasında) çarpazlaşmasından doğulub dünyaya atılıb? Bunu necə ayırmaq olar? Heç necə! Heç bir böyük sənətkar (hələ böyüklük qalsın bir qıraqda) barmağını sora-

sora əsər yaratmayıb, Üzeyir bəy də Məşədi İbadı uydurmayıb, quraşdırmayıb, heç bir sənətkar surətçi, surətçıxaran olmayıb. Həyatdan aldığını, götürdüyünü öz istəyincə, qayəsincə bəzəyib-düzəldib. Üzeyir bəy də həmçinin – dühasının nadir fırçası, musiqisinin nadir ecazı ilə həyatdan aldığı Məşədi İbadı bir şəkildə, elə bir nəfəsdə, elə bir əlvanlıqda həyatın özünə qaytarıb, qovuşdurub ki, di buyur baş tap – Məşədi İbad həyatdan əsərə gəlib, yoxsa əsərdən həyata?!

Şəxsən mən, əsəri səhnədə (müəyyən parçaları, epizodları, səhnəcikləri, konsert, yumor proqramlarına daxil edilmiş nömrələri istisna etməklə) professional səviyyədə, sənətkar, peşəkar, aktyor ifasında görüb-görməməyimi yaxşı xatırlamıram. Bunu ümumiləşdirməsəm də, hər halda ömrünün yeddinci onluğunu xırdalayan böyük bir nəsil bu zövq-səfadan məhrum olub.

Məşədi İbadı biz əsasən, fitri, dahi komik aktyorumuz Mirzağa Əliyevin iştirakıyla lentə alınmış radio-tamaşadan, bir də yazıçı-dramaturq Sabit Rəhmanın ssenarisi əsasında çəkilmiş "Məşədi İbad" ("O olmasın, bu olsun") filmindən tanıyırıq. Bu saat ssenarini təhlil etmək, ona qiymət vermək fikrində olmasam da, onu deyə bilərəm ki, Sabit Rəhman hətta heç bir şey yazmamış olsaydı belə, təkcə bu əsəriylə öz adını filmin titrinə yox, xalqımızın yaddaşına yazmış olardı və yazdı da!

Mən də çox-çox kinoya baxmış, əlvan-əlvan, növbənöv filmlər, ekran şedevrləri, təkrarsız, misilsiz aktyor oyunları, operator tapıntıları, müşahidələri, rejissura zirvələri görmüşəm. Ancaq Məşədi İbad bunların heç birinə bənzəməz. Saymamışam, mübaliğəsiz deyə bilərəm ki, "N" qədər baxmışam. Həmişə də təzə, təravətli, dadlı-duzlu, müdrik, könülaçan, dövr, mühit və  zaman panoramlı və bunların hamısından əfzəl, öncə kaloritli, doğma, səmimi, inandırıcı və bir az xəyala dalıb, dərinə gedəndə,  düşündürücü...

Bütün nəhrlərin, böyüklü-kiçikli, dərinli-dayazlı, köpüklü, lal axarlı çayların mənbəyi var. Mənbə Üzeyir Hacıbəyovun "Məşədi İbad" musiqili komediyasıdır. "Musiqili komediya" sözləri janr və forma cəhətdən yaraşsa da, vallah, nə deyim, saymaqla, sadalamaqla, açıqlamaqla bitib-tükənməyən səbəb, cəhət və min bir bədii möcüzə, tapıntı və ümumiləşdirmələrinə görə, zahirən aldadıcı, asan görünən (yəni bunu yazmağa, deməyə, quraşdırmağa nə var ki...) dahiyanə bayatı sadəliyinə görə "Məşədi İbad" hara, musiqili komediya hara? Xüsusilə də srağagünkü, dünənki, bugünkü musiqili komediyalarımızın hələ lap yaxşılarını gözümüzün qabağına gətirəndə!

Uzatmaq istəmirəm. Hər şey, hər gediş, hər hərəkət, hər jest, hər monoloq, dialoq, duet, solo, kütləvi səhnə, konflikt, zərbi-məsəllər, atmacalar, sözdən yox, hərəkətdən doğan, əhvalatdan yaranan gülməli, təəssüflü vəziyyətlər nə qədər təbii, yerli-yerindədir. Bütün bunları müşayiət edən, əzbər bildiyin musiqi:

Mən nə qədər, nə qədər qoca...
Ey, kimsən orda...
Hamamın içində...
İçində və çölündə...
Mən qalmışam bu tayda, hambal ilə...
Bə mənim bir abbasım hara getdi?..
Qoca kaftar sənə on beş
Yaşında qız nə gərək?
Məşədi İbad, sən bizə
Xoş gəlib, bizi yad elədin...
Sən qızı mənə verginən,
Gör səni necə şad edərəm...

və sairə. Bu sətirlərlə mən musiqini yada salıram. Hesab edin ki, bunlar not işarələridir.

Sabit Rəhmanın ssenarisi mənbəyə sadiq qalıb, ona şor qatmayıb. Çünki, mərhum ədibimiz başa düşmüşdü ki, bala şəkər qatmazlar, onu yaraşıqlı qablarda, yaraşıq və zövqlə süfrələrə düzərlər ki, camaat nuş edib feyziyab olsun. Sabit müəllim kinonun geniş imkanlarından istifadə edərək, “Məşədi İbad”ın kütləvi ekran taleyini, ekran ifadəsini yaratdı. Yuxarıda dediyim kimi, bu, çox böyük iş idi. Ssenari müəllifinin bir-iki yerdə gətirdiyi əlavə xırda-xuruş detalların, səhnələrin (xüsusən “Molla Nəsrəddin” jurnalı redaksiyasındakı ziyalı görüşləri) özü də mənə təbii görünür. Məşədi İbadın düşdüyü vəziyyət nifrət, kin, qəzəb yox, əksinə, təəssüfedici gülüş doğurur. Həmin əlavələr guya sağlam, mütərəqqi mühitin ştrixləri, abi-havası kimi verilib, nə olar ki, əgər hər kəsə zəif, qondarma, yamaq kimi görünürsə, bu da təbiidir. Çünki, ideal bəyazlıqda ağ da ağ kimi görünməyə bilir. İdeal bəyazlıq Üzeyir bəyin istedadıdır. Ona qalsa, əsl gülüş hədəfi bir az da dərinə getsək rəzil, həqir adam, müflis düşmüş, qumarda əli gətirməyən, bircə qızı Gülnazı Məşədi İbada satan, bəli, sözün hərfi mənasında satan

Gəl sənə mən qız verim,
Nə işin vardır dul ilən –

deyən Rüstəm bəydir. Ancaq, heç adam onun özünə də nifrət edə bilmir. Nəinki Rüstəm bəyə, yəni əsərin ikinci qəhrəmanına, ümumən Məşədi İbadı əhatə edən tiplərin, adamların, personajların heç birinə adam nifrət eləmir. Əşşi, siz nə danışırsınız? Adam da heç Qoçu Əsgərə, hambala, qulluqçuya, hamamçıya, qəzetçi Rza bəyə, nə bilim daha kimə, kimə kin-küdurət bəsləyə bilər?

Bəs onda Məşədinin özü? Özü deyir ki, bir eybim var, o da eyibsizliyimdir. Doğrudan da onun eybi nə idi? Eyib bizimki idi. Eyib bizim buxovlanmış, damğalanmış, axtalanmış düşüncəmizdə, təfəkkürümüzdə idi. Bizim beynimizə, qanımıza, canımıza, iliyimizə, sümüyümüzə bütöv bir sistem, təlim şəklində yeritmişdilər ki, "bəy oğlusan, köpək oğlusan". Bunun əksinə, adamlar, övladlar babalarının, atalarının, əmilərinin, dayılarının, uzaqlı-yaxınlı qohum-əqrabalarının kasıblığıyla, yoxsulluğuyla, dilənçiliyi ilə, çobanlığıyla, hamballığıyla, ələbaxanlığıyla, ac-yalavaclığıyla az qala fəxr etməyə başlamışdılar. Bayram Bayramov "Üzlü-astarlı dünya" adlı tərcümeyi-hal romanında ac-yalavaclığı ilə qürrələnən, cır-cındırını gözə soxanlardan elə lap yerində söz açmışdır. Səxavətli, çörəkli, fərasətli, işgüzar, qazanan adamları qolçomaq adıyla məhv etmək kampaniyası göydən düşməmişdi. Bəy, xan, tacir, üləma, axund, molla, ağa, seyid, dərviş, baqqal, hətta falçı, rövzəxan, mərsiyəxan, hətta qüdrətli mərsiyə şairləri düşmən idilər, vəssalam! Mətbuat tariximizin təməl daşı, ictimai demokratik və xəlqi fikrimizin qaranquşu hesab edilən "Molla Nəsrəddin" jurnalının səhifələrindəki karikaturalar da bu işdə – Məşədi İbadlara verilən qiymət işində az mənfi rol oynamamışdır. Ola bilər, mən haqsızam, zamanı, tarixi şəraiti, dövrü nəzərə ala bilmirəm. Ola bilər. Buradaca soruşa bilərsiniz ki, bəs "Hophopnamə", bəs dahi Sabirimiz və onun canlı, ölməz tipləri?! Sabir başqa. O, konkret adamların konkret eybəcərliklərini, konkret detallarla ifşa edirdi, necə deyərlər adını qoyurdu. Sabir otuzuncu illərdə, bəlkə də bir az əvvəl başlamış qan qoxulu, qandal cingiltili, barmaq çərçivəli süni, ictimai-sosioloji ucdantutma ümumiləşdirmə, qarayaxma, məhkəməsiz-filansız divara söykəmək yoluyla getmirdi. Sabir öz şəxsində sübut etmişdi ki, adam dindar ola-ola, namaz qıla-qıla, xalqın böyük, işıqlı, ziyalı... vətəndaş oğlu ola bilər. Axı böyük şair dindar idi.

Yox bir dinə yəqinim mənim,
Qaili qur`anam, a şirvanlılar!

Elə böyük Mirzə Cəlilin – Cəlil Məmmədquluzadənin özü də. Bir də gördü ki, ona Allahsızlar cəmiyyətinin üzvü olmağı təklif edirlər. Dedi ki, mən axı belə deməmişdim və çox çəkmədi ki, kişinin ürəyi partladı. Nə isə.

Nə qədər ki, yadımdan çıxmayıb sizə – əziz oxucular, kövrək, incə bir mətləbi xatırlatmaq istəyirəm. Heç ağlınıza gəlirdimi ki, "Məşədi İbad" filmi təxminən qırx ilə yaxın bir vaxt ərzində xalqımızın, elimizin-obamızın, camaatımızın nisgil, qubar dolu ürəyində, həsrət dolu intizar gözlərində sanki zülmət içində yeganə şüaya çevrilmişdi? Necə yəni? "Necə yəni"si budur ki, Bakıda televiziya işə düşəndən bəri o zamanlar ki, nəinki Novruz bayramı, heç bahar bayramı da demək mümkün deyildi efirdə, ekranda, mətbuatda. Novruza cüzicə bir işarə etmək də qadağan idi. Bəli, bax onda, hər il martın 20-si, ya da 21-i axşamı televiziyada "Məşədi İbad" göstərilirdi. Bu zamanın Novruz salamı idi – "Bayramınız mübarək!". Bu, millətə şən, şux, xoş ovqat, əlvan bayram sovqatı idi. Məşədi İbadın yandırdığı şamlar... xalqın yandıra bilmədiyi bayram şamları idi... Mərhum dostum Teymur Məmmədov köks ötürə-ötürə, kövrələ-kövrələ deyərdi:

– Neyləsinlər, necə eləsinlər, ayrı əlacımız yoxdur, bu əziz günlərdə gücləri "Məşədi İbad"a çatır. Onu göstərməklə elə bil vicdan əzabından xilas olurlar.

"Gücləri Məşədi İbada çatır" sözləri fikrimi-düşüncəmi bir az da körükləməyə, qığılcımlandırmağa səbəb oldu. Nə qorxulu, düşər-düşməzli şeymiş ki... Məşədi İbaddı də... onu istəməmək də olar, rəğbətləmək, halına qalmaq da olar. Şamaxılılar demişkən, araya qoyub lağ etmək, istehza etmək, lap antipod kimi ifşa etmək də olar. Bunlardan ötrü əsərdə – lap

Üzeyir bəyin müəllif mətnində zahirən tutarlı dəlillər, lap ilişkilər və ya ilişmələr, bəhanələr çoxdur.

Məşədi İbada qarşı xoş, xəlqi münasibətlə yanaşı, onun sözünün-söhbətinin, zərbi məsəllərinin ("heç hənanın yeridir", "papağımı elə qoysam, belə qoysam" və s.) dillərdə gəzməsiylə yanaşı, dövrün canlı, ala-bəzək mənzərəsinin tən ortasında dayanmış Məşədi İbada qarşı kütləvi hüsn-rəğbətlə yanaşı, yazılmamış stereotip münasibət də var idi... bəlkə də var. Bu ikinci münasibətin isə birinci əlaməti yenə də camaatın içində gəzən "Məşədi İbad kimi nə özündən çıxırsan?" ifadəsidir. Səmimiyyəti, ümumiləşməsi, canlılığı ilə surət, obraz çərçivəsindən çıxıb həmişə aramızda olan bu adama köhnəliyin, geriliyin, feodalizmin, dindarlığın nümayəndəsi kimi istehza etmək səhv yox, günahdır. Onu avamlıqda, məişət pozğunluğunda, ömrünün bu sinnində eşqə düşməkdə, puluna-malına güvənib, namaz qılıb, dua edə-edə, hamballara, zəhmətkeşlərə, aclara, yalavaclara, kimsəsizlərə həqir baxmaqda, acizin zalımı olmaqda günahlandırmaq səhv yox, böyük insafsızlıqdır, ədalətsizlikdir.

Gəlin bir anlığa müasir, bugünkü, bu saatkı şərəfsizləri, pozğunları, haram milyonerləri, rüşvətxorları, nə babasını, nə atasını, nə anasını, nə xalqını, nə dinini, nə dilini tanımayan, İsmayıl Şıxlı demişkən "sapı özümüzdən olan baltaları" və onlarla yanaşı Məşədi İbadı gözümüzün qabağına gətirək. Əli Kərim demişkən "Daha heç nə demirəm, nöqtə, nöqtə və nöqtə". Doğrudan da bu barədə bəlkə heç fikirləşən olmayıb. Bu saat Məşədi İbad vaxtıdır? Özü demişkən, heç hənanın yeridir?

– Yox, yeridir! Elə Məşədi İbadlarımıza olan münasibətdən doğub Tağıyevlərə, Nağıyevlərə münasibətimiz.

İnanın ki, məni çoxdan bir məsələ, bir sual, zahirən bir az da gülməli, qeyri-ciddi görünən bir sual düşündürürdü: bu yazıq – əslində mərd, qürurlu, bütün varını-yoxunu zövq-

səfası yolunda, mənliyi, şəxsiyyəti, ləyaqəti yolunda hamının başına (hambaldan başqa, bu da elə-belə deyil) şabaş kimi səpələyən Məşədi İbadın günahı nə idi? Cavan qız almaq sevdasına düşməyimi?! Pah atonnan, nə böyük qəbahət imiş bu.

1975-79-cu illərdə "Azərbaycan" jurnalı redaksiyasında əməkdaşlıq edirdim. Yazıçı İsi Məlikzadə də nəsr şöbəsinin müdiri işləyirdi. Söhbətimiz tuturdu, indi də tutur və o bizim təzə qonşumuzdur. Elə müqəddiməsiz-filansız soruşdum:

– Ay İsi, Məşədi İbad mənfi surətdirmi?

– Qabil müəllim, bizim Məşədi İbadı deyirsiz?

– Hə də.

– Vallah yox, necə bəyəm?

– Elə belə soruşuram də.

– Yox, Siz elə-belə soruşmazsınız. Ancaq arxayın olun ki, Məşədi İbad halal, təmiz, gül kimi adam, əsl kişidir. Siz sözlü adama oxşayırsınız.

Bəli, ədib dostum düz deyirdi, mən sözlü idim və illər boyu ürəyimdə, fikrimdə gəzdirdiyim bu sözü, bu qənaəti bu gün, bu saat nəhayət, kağıza köçürməyi lazım bildim. Axı ömür də keçir, şair də ki, əla deyib: "Söz qəlbdə, gül qönçədə, mey şişədə qalmaz".

Məşədi İbad tacirdir. Etibarsızdan, hələm-qələmdən, səbirsizdən, dəlibaşdan və dələduzdan tacir olmaz. Məşədi İbad halal adamdır, qazancı sələm faizindən gəlmir, sərmayəsindən gəlir. Keçmişdə yüz manat pulu olanın, özü də halal pulu olan adamın boynuna ziyarət düşərmiş. Məşədinin isə minləri var. Ziyarəti qəbuldur, batil deyil.

Məşədi İbad dindardır, namaz qılandır, ağzı dualıdı, nəinki şəriətlə qadağan edilmiş şərab içmir, heç şərab içənlərlə məcburən bir məclisə düşsə də bir cərgədə oturmur, onların əlini çuxasının ətəyiylə, iyrənə-iyrənə, ikrahla sıxır.

Məşədi İbad xalq adamıdır. O, canlı danışıq dilindən savayı heç bir qatqarışıq, əllaməli, ibarəli nitqləri, yad ləhcələri,

öyrəşmədiyi ifadə tərzini, danışıq ədasını qəbul etmir. Nəinki qəbul etmir, hətta ələ sala-sala deyir:

– Ay Rza bəy, ay rəhmətliyin oğlu, mən "Tarix Nadir"i yarıyacan oxumuşam, yenə səni başa düşmürəm. Bu zavallılar neynəsin?

Burada yadıma Mirzə Cəlilin "Anamın kitabı" pyesi və Gülbaharın qardaşlarına xitabı düşdü.

Məşədi İbad əlli yaşında dul kişidir. Özü demişkən, onun harası qocadır. "Qoca ona deyərlər ki... mən ki, namxuda, maşallah..." O, nə zorakıdır, nə şarlatandır, nə indiki dilnən desək məişət pozğunudur, nə də aciz, xəyalpərvərdir. "Yox, mən o məcnunlardan deyiləm, bu saat gedib qoçuları yığacam bura". Söhbət təkcə onda deyil ki, Məşədi İbad qoçulara haqq verir, bu öz yerində. Söhbət ondadır ki, Üzeyir bəy onu mühitinə, mühitini də ona qarşı qoymur, əksinə onlar bir-birini tamamlayır. Məşədi İbad Rza, Həsənqulu bəylərə, Qoçu Əsgər və Baloğlanlara gülür və onlar da Məşədi İbada gülür, bu gülüşdə nifrət yoxdur, rəğbət var. Qızın ikinci namizədi Sərvər peyda olanda həmin mühit xorla deyir:

– Axı, belə olmaz, bu kişinin həm pulu getsin, həm də el içində rüsvay olsun. Gedək Rüstəm bəylə haqq-hesab çəkək.

Ey, kimsən orda, aç qapını,
Aç qapını gələk səni öldürək.

Burada – sözlərdə böyük zarafat, doğmalıq və insafın-mürvətin səsi-sədası var. Məşədi İbad əllərini bir-birinə sürtüb müştəri gözüylə qulluqçu Sənəmə baxıb, "Dəli şeytan deyir ki..." Elə bil kişinin ürəyinə damıbmış ki, axırda "razıyam, razıyam" deyib Sənəmi alacaq:

Gedin, gedin, qazıya deyin,
Qoy kəbini kəssin.

Ancaq o, realistdir. Rüstəm bəy “Məşədi, istəyirsən bir min də ver, elə Sənəmi də verim sənə” deyəndə Məşədi “Yox, o sonranın işidir” cavabını verir. Sözə fikir verin, demir ki, istəmirəm, əlyeri qoyub deyir: “o sonranın işidir”.

Deyirlər ki, Üzeyir bəy əlli yaşına qədəm qoyanda: özözünə təəssüflə məzəmmətləyib ki, bəs nə üçün Məşədi İbadı bu yaşda eşqə düşdüyünə görə dilə-dişə salmışdır.

Yenə də Məşədinin ən çətin, ümidsiz bir məqamda sərvaxt olmağına, hadisələrə açıq gözlə baxmağına bir misal: Əvvəlcə hamıya səxavətlə, hətta saymazyana pul paylayan Məşədi İbad, “gəlin kişi çıxandan sonra” təzədən onu dilə tutub, heç olmasa az da olsa pul qoparmaq istəyən həmən tiplərə başının işarəsiylə rədd cavabı verir. O ki, qaldı hambalın bir abbası da istəməsinə... “Məşədi, belimi şikəst eləmisən, bir abbası da verəcəksən” və cavabında yediyi qapaz, “mən nə haydayam, sən nə haydasan” eşitməyi... bu da çox təbiidir. Bunun xəsisliyə, istismarçı sinfin nümayəndəsi olmağa dəxli yoxdur. Bu həm yumor idi, həm İrandan, xüsusən Cənubi Azərbaycandan bir tikə çörək dalınca Bakıya gələn qardaşlarımıza kütləvi şəkil almış həqir münasibətə yanıqlı işarə idi. Məşhur “Məktub yetişmədi” hekayəsini yadınıza salın. Mərhum yazıçımız Ənvər Yusifoğlunun çox maraqlı “Hamballar” povestini varaqlayın və s. Bir də bədii, dramatik kontrast məsələsi də var axı. Mərhum professor Əli Sultanlı bizə Molyerin yaradıcılığından, onun “Tartüf” əsərindən mühazirə oxuyanda deyərdi ki, ən səxavətli adamda da xəsislik var, ən xəsis adamda da səxavət var.

“Qız qarıyanda dayısına qismət olar” məsələni nahaq yerə belə yozurlar ki, guya qızı heç kəs almayanda məcbur olub dayısı alır. Əşşi, belə də şey olar. “Qız qalası” əfsanəsini yozanlar kimi xalqın da adına belə ləkə vurmaq olar. “Qız qarıyanda dayısına qismət olar və ya dayısına çatar” o deməkdir ki, qız evdə qalıb qarıdıqca, dərdi-bəlası dayısının üstünə

düşür. Axı söhbət doğma bacı balasından gedir. Eləcə də Məşədi İbad deyəndə ki, başılovlu haray salanda ki, "gəlin kişi çıxdı, o da qaçdı" bunu onun ayağına iyrənc bir pozğunluq, çirkinlik adıyla yazanlar səhv edirlər və daha böyük səhvə onda yol verirlər ki, bunu Məşədinin – lap obraz da olsa şəxsində ümumiləşdirib keçmişimizə, namuslu-qeyrətli ata-babalarımıza ləkə vururlar. Deyə bilərsiniz bəs Sabirin

Ay nənə, bır qırmızı saqqal kişi,
Ağzı dualı qoca baqqal kişi,
Gah başımı, gah üzümü əlləyir,
Gah budumu, gah dizimi əlləyir.

sözlərini hara yazaq?! Sabir konkret şəraitdən, konkret hadisədən – balaca müştəridən – baqqal dükanına gələn oğlan uşağından və qoca baqqaldan danışırdı. Heç insafdırmı ki, o boyda xərc töküb,  o boyda dəm-dəsgahla, vurçatlasınla toy edən, təkcə elə bəylik hamamında bir ətək pul tökən, qol qaldırıb öz toyunda şahanə bir əda ilə süzən, gərdəkdəki gəlinin – madmuazel Gülnaz xanımın önündə şam yandıran, qüsl namazı qılan, dua oxuyub əsl müsəlman kimi vird edən Məşədi İbadı baqqal dükanının xəlvətində oğurluqla uşaq sığallayan qırmızısaqqalla müqayisə edək?!

Məşədi İbad ona yanıb tökülürdü ki, əgər "bu kişi çıxan gəlin" qaçmasaydı, heç olmasa onun yaxasından yapışıb haqq-hesab çəkər, başına gətirilən bu məhkəmənin nə demək olduğunu, pulunun, malının nə üçün hədər getdiyini kişidən kişi kimi də xəbər alardı.

Gəl, gülüm, gəl yanıma
Gəl, a quzum, gəl yanıma.
Qurban edərəm mən canana,
Malımı, pulumu, canımı mən.

deyən bir adam haqqında ayrı cür əttökən fikrə düşmək olmaz!

Əsərin bütün ruhunda xalqa, onun adət və ənənələrinə, zövq-səfasına həm böyük və həm də incə bir ehtiram var. Özü də bu ehtiram, bu incəlik ziddiyyətli, kontrastlı situasiyalar fonunda verilmişdir. İki kadrı yadınıza salmaq istəyirəm: Məşədi İbad Gülnaz xanımı ilk dəfə görməyə gəlib, Gülnaz onu görən kimi yanındakı Sənəmə deyir:

– Mən bu kişidən qorxuram.

Sənəm ağzını büzməklə, qaş-gözünü oynatmaqla, iki əlli "kül başına" deməklə Məşədi İbadı ələ salır və hər ikisi oxuyur:

Qoca kaftar sənə on beş yaşı olan
Qız nə gərək,
Qorxmayırsan, axırda gələ başa kələk?!

Və bu zaman ki, birdən məşhur həna söhbəti başlayır və Məşədi İbad deyir ki, elə ki, hənanın vaxtı keçərdi, mənim rəhmətlik anamın başı ağrıyardı. "Rəhmətlik anam" sözünü eşidən kimi Məşədi İbada gülən xanımlar adi, ehtiram əlaməti olaraq ayağa qalxıb, "Allah rəhmət eləsin" deyirlər. Bu çox kövrək səhnədir – adam adam olar,– deməkdir.

İkinci epizod: Rüstəm bəyin evi, Məşədi İbadın şərəfinə məşhur, axırı mərəkəylə qurtaran ziyafət səhnəsi. Elə bu ziyafətə adam dəvət etmək əhvalatları da dəsgahdır. Ümumiyyətlə, əsərdə məşhur olmayan səhnə, lövhə, hadisə yoxdur, hamısı məşhur, hamısı biri-birindən canlı. Sözümün canı başqadır.

Deməli, məclisin şirin yeridir, hamı yeyib-içir, keyf üstündədir. Məşədi İbad da kənarda əyləşib çay içir. Birdən musiqi dillənir, xanəndə oxumağa başlayır. Hamı əlini süfrədən çəkib musiqiyə qulaq asır, xəyala dalır. Təkcə Qoçu Əsgərin qulbeçəsi Baloğlan öz işindədir, yəni qarnının hayın-

dadır. İri bir toyuq budunu da qapıb dişinə çəkən yerdə qoçu Əsgər dözmür, nəsihətamiz bir sərtliklə budu Baloğlanın əlindən dartıb atır və onu dümsükləyib musiqiçiləri göstərir və sözsüz deyir: Az tıx də, ruhun olsun də.

Məşədi İbad da, onun dövrəsindəki adamlar da qəti surətdə sırf mənfi, sırf karikatura deyildilər. Onlar canlı, təbii, inandırıcıdırlar. Axar suda ləkə qalmaz. Kiçicik bir sünilik, yersizlik, lazımsızlıq ünsürü, bu əsərə düşmüş olsaydı, nə Məşədi İbad öz ətrafındakıları, nə də əlvan tiplər Məşədi İbadı başa düşə bilərdi, nə xalq əsəri – Məşədi İbadı bu qədər sevərdi, nə də Məşədi İbad nəsilbənəsil ürəklərdə yaşayar, dillərdə, ağızlarda gəzərdi.

Belə çıxır ki, Məşədi İbada bu saat, bu dəm kimsə, kimlərsə hücum edir. Mən də onu kimdənsə, kimlərdənsə müdafiə edirəm. Yox, mən ürəyimi boşaltdım. Neçə illərdir ki, hər dəfə Məşədi İbadla görüşəndə utanır, özümü o kişiyə borclu bilirdim.

Deyəsən, bir az yüngülləşdim axı... Bir-iki təklifim də var. Məşədi İbad ("O olmasın, bu olsun") filmində, yəni ssenari mətnində ixtisarlar gedib, bəzi kadrlar kəsilib atılıb. Texniki cəhətdən mümkünsə, onları hökmən bərpa etmək lazımdır. Bu klassikadır, Qızıl Fonddur.

Üzeyir Hacıbəyovun qələmindən çıxan mətn əsasında heç bir redaktəsiz, müdaxiləsiz, senzorsuz "Məşədi İbad"ı tamaşaya qoymaq və tamaşanı ekranlaşdırmaq lazımdır. Beləliklə, camaat istər teatra gələr, istər film-tamaşaya baxar.

– Məşədi İbad mənfi surətdirmi?

– Xeyr.

**1991**

# BİZİ DEYİB GƏLƏNLƏRLƏ GÖRÜŞ

Cəlil Məmmədquluzadə ilə ilk "görüşüm", birinci "tanışlığım" beşinci sinifdə "Buz" hekayəsindən başlandı və təbii ki, o zamanın, 1937-38-ci illərin mən yaşda məktəblilərinin çoxu da böyük ədibi birinci dəfə belə tanıyıb – dərs kitabındakı şəklindən, müxtəsər tərcümeyi-halından, gülməli-ağlamalı "Buz" hekayəsindən. "Nə qədər ki, uşaq idim, yadıma düşməzdi: elə ki, yekəlib ağlım kəsdi, buz əhvalatı mənə hər bir yeri düşəndə dərd olur". Əgər bu sözləri deyən uşaq müəllif özü idisə, onda həmən "buz əhvalatı" onun sinəsində, ürəyində, səsində, təmkin və sakitanəliyində, hər bir kəlamında və bütün yaradıcılığında və son nəfəsinədək Vətənin, millətin, xalqın, qara çadralı, Kərbala həsrətli, Allahu Əkbərli Azərbaycan matəmgahının yandırıb-yaxıcı dərdinə, qübarına çevrildi. Bu dərd, bu qübar isə mübarizə şimşəklərinə dönüb cəhalət, nadanlıq, qaranlıqlar dünyasının üstünə yeriyən yeni, cəsur addımlı "Molla Nəsrəddin"in səhifələrində parıldadı, guruldadı.

Ədəbiyyat, mətbuat, mədəniyyət, ictimai fikir tariximizə qızılla və vətəndaş qəlbinin qanıyla yazılmış qətiyyət və inam dolu çağırış – 1906-cı ildə "Molla Nəsrəddin"in ilk çağırışı: "Sizi deyib gəlmişəm!"

1982-ci ilin bu yaz günlərində bizim Bakının – günəşli, işıqlı, sinəsi ordenlər və bayraqlarla bəzənmiş respublika paytaxtımızın küçə və meydanlarında təzə bir teatr afişası görür və oxuyuruq: "ANAR. SİZİ DEYİB GƏLMİŞƏM".

Qəribə deyilmi? Əlbəttə, ilk baxışda. Əgər bu həmən çağırış, həmən müraciətdirsə, bəs onda nə üçün Anar? Anarın

dramaturq kimi burada müəllifliyi nədən ibarətdir? Tələsməyək!

Böyük ədibin həyatı, çoxcəhətli, misilsiz fəaliyyəti, müdrik və mətin, eyhamlı, yanıqlı və sarkazmlı mühərrirliyi ilə, "Çay dəsgahı" alleqoriyasından tutmuş "Ölülər" şedevrinədək, "Danabaş kəndinin əhvalatları"ndan tutmuş "Bəlkə də qaytardılar"adək, "Kamança"dan tutmuş "Zırrama"yadək bütün əsərləriylə ali məktəbdə sistemlə, ədəbiyyatşünaslıq elmi səviyyəsində tanış oldum. Unudulmaz müəllimim professor Cəfər Xəndanın Cəlil Məmmədquluzadə barəsindəki ixtisas kursu üzrə düz bir il davam edən silsilə mühazirələri! Aydın ifadə tərzinə malik, bu uzaqlarda qalmış mühazirələrin, təhlillərin çox cazibədar, əyanilik, göstərmək, göz qabağına gətirmək, canlandırmaq qüvvəsi var idi. Cəfər Xəndan aydın diksiya, rəvan və dolu səslə, heç bir kağıza, dəftərə baxmadan gəzişə-gəzişə mövzuya, məzmuna münasib əhvali-ruhiyə yaradan baxışlarını üzümüzdə dolandıra-dolandıra auditoriyada mühazirələr səhnəsi açır, mühazirələr tamaşası göstərir. Və biz özümüzü ixtiyarsız Mirzə Cəlil dövründə, onun obrazlarının əhatəsində, əsərlərindəki situasiyaların mərkəzində görürdük, görürdük, sanki Mirzə Cəlilin özünü görürdük.

Bu günlərdə istedadlı nasir, publisist, daramaturq, ssenarist və kinorejissor Anarın "Sizi deyib gəlmişəm" adlı pyesinə – gənc və emosional aktyor kollektivinin ifasında bu böyük və incə mətləblər dramına – anlayanlar və anlamayanlar cəbhəsinin mübarizəsinə tamaşa edə-edə iyirmi-iyirmi bir yaşımda eşitdiyim mühazirələri indiki ağlımla yada salıram. Müəllimimiz Cəfər Xəndan "Danabaş kəndinin əhvalatları" povestini Mirzə Cəlilin bütün yaradıcılığının leytmotivi kimi götürüb bu əsəri ədibin digər qələm xariqələri, bədii möcüzələriylə bağlı, əlaqəli şəkildə təhlil edir. Bircə hüceyrəsində də insanlıq əlaməti qalmayan Xudayar bəy xəttinə Şeyx Nəsrul-

lahlar, Qurbanəli bəylər, Zırramalar kimi qara-qara milçəklər qonub.

Məmmədhəsən əmidən gələn tellərə Novruzəlilərin, Zeynəblərin, Gülbaharların, Fatma-Tükəzbanların göz yaşları düzülüb.

Yaxşı, bəs Fatma-Tükəzban ki, "Hophopnamə"dədir, Sabirin şeirindədir? Bu adları Mirzə Cəlil surətlərinə qatmaq olarmı? Olar! Xalqımızın bu iki böyük oğlu, böyük Mirzəsi arasındakı fərq xətti məslək və amal mənasında gözəgörünməzdir.

Cəlil Məmmədquluzadə dövründə bu dövrün özünün yaratdığı möhtəşəm və təhrifsiz xalq güzgüsü "Molla Nəsrəddin"dən, onun açıq imzalı baş redaktorunun mühərrirlik dühasından söhbət açanda isə müəllimimiz deyirdi ki, Sabiri "Molla Nəsrəddin" jurnalı, onun ab-havası yetişdirdi, meydana çıxartdı. "Molla Nəsrəddin"i də böyük və ölməz Sabirin – Hop-Hopun şeirləri bəzədi, ovxarladı, ona mübariz inqilabi ruh verdi.

Bu fikirlər kəşf deyil, şərh imiş. Yaxşı, inandırıcı şərhə isə həmişə ehtiyac var. Mirzə Cəlil yaradıcılığının, onun sənət və dünyasının şərhini sinif otaqlarının, auditoriyaların çərçivəsindən, mühazirə saatlarının zəng müddətindən xrestomatiya, dərslik, monoqrafiyaların çap vərəqi həcmindən, ölçüsündən çıxarıb (bunlar hamısı öz vacibliyində qalır) daha canlı, kütləvi şəkildə sənətin sintezi sayılan dramatik lövhələrdə, vəziyyətlərdə aktyor və aktrisa deyilən səhnə pərvanələrinin çırpıntısında, nitqində, dilində, hərəkətində, üzünün ifadələrində, iztirab və həyəcanlarında əyan və bəyan etmək yazıçı Anarın qəlbində, fikrində zərurətə çevrilib, "Sizi deyib gəlmişəm"də səhnə ifasını, təcəssümünü tapdı.

Cəlil Məmmədquluzadə və Ələkbər Sabir konkret olaraq Azərbaycan mühiti, torpağı və xalqı üçün əvəzsiz və müqəddəsdir. Onlar bugünkü günlərin ardıcıl, orijinal, həsrətli, heç

bir tarixi şəraitin əsiri olmayan, doğmaca ana dilli tərənnümçüləridir. Ancaq, bu tərənnüm göz yaşları içində idi.

Bu iki böyük Mirzəni nəsilbənəsil, zaman-zaman təzələnən yeniyetmələrimizə, gənclərimizə, ömür boyu stolundan, rəyasətindən başqa, şəxsi mənafeyindən başqa heç bir şey görməyən, güdməyən bəzi fərdi pensionerlərə tanıtmaq, xatırlamaq vacibdir. Anarın müəllifliyi bu zərurəti hiss edib, buna cavab vermək üçün ifadə vasitəsi kəşf etməsindədir. Çox təəssüf ki, Xudayar bəylər bu gün də var, məhkəmələrə, cari mətbuata müraciət edən, yaxası nankorlar və bürokratlar əlində qalan, ümidini fəqət və fəqət ədalət bayraqlı cəmiyyətimizə və tarixi həqiqətimizə bağlayan Məhəmmədhəsən əmilər, gözüyaşlı, itkin eşşəyini axtaran, ürəyini atasının belinə minməklə soyudan balaca Əhmədlər, boynuna çatı salınıb istəmədiyi adamın, vəhşi və nadanın mağarasına sürüdülən Zeynəblər, nankor, şərəfsiz övlad olan dəyyus Vəliqululular bu gün də var. Bəli, "Sizi deyib gəlmişəm" belə deyir, bunu təlqin edir tamaşaçı kütləsinə!

Elə bil ki, Anar tək bircə dəfə fürsət tapıb rejissorun gözündən yayınaraq səhnəyə qalxır, ilk dəfə bədii, (əgər bu söz yerinə düşərsə) ardıcıl, mütəşəkkil surət kimi gördüyümüz Mirzə Cəlilə (gözəl mənəviyyatlı, vüqarlı, təmkinli aktyorumuz Həsən Turabova) yanaşıb onun qulağına pıçıldayır:

– Böyük ustadım, cəfakeş və qeyrətli Cəlil babam, üzr istəyirəm, "Sizi deyib gəlmişəm" yalnız o dövrdə qalan keçəl-küçəl qardaşlarına aid deyil. Həmən çağırış bugünün geyimli-keçimli, yarlı-yaraşıqlı, lakin mənən, daxilən, əxlaq və əqlən keçəl-küçəllərinə də aiddir. Mirzə, ancaq bir məsələ var ki, o keçəl-küçəllərlə sən təkbaşına və ya Sabirin dühası "Molla Nəsrəddin"in çırağına toplaşan beş-on nəfər ziyalıyla mübarizə aparırdınsa, bu keçəl-küçəllərlə ədalətin zəfər bayrağı altında bütün xalq, bütün gənclik mübarizə aparır. Elə buna

görə də, elə bunu hiss etdiyiniz üçün də "Sizi deyib gəlmişəm" bugünkü millətinin, xalqının şuralaşdığını, özün demişkən, "ölməyib gördüyün" Azərbaycanın şərəfinə qürurla səslənir. Xoş gəlmisən!

"Danabaş kəndinin əhvalatları" əsasən və bir az da "Danabaş kəndinin məktəbi" povest və hekayələrinin sujeti, həmən faciənin məhvəridir. Rejissor sənətində, axtarış və tapıntılarında öz ifadəsini tapmış mizanlar fonunda yerdə qalan bütün əhvalatlar bu məhvərin ətrafında fırlanır. Millətimizin əsgərliyə layiq görülməməsi və avam camaatın buna şükür etməsi, "uşkol" (məktəb) vahiməsi, bir ucu "Məktub yetişmədi" hekayəsindəki fəhləyə gedib çıxan (o fəhlə deyirdi ki, biri ölməsə biri dirilməz) karvansaraçı Həzrətqulunun, kapitalizmin ilk rüşeymlərindən olan bu nacins sələmçinin hərəkətləri, sinəsinə döyən yalançı millətçilərin küçə xoru, Fatma-Tükəzbanları ac-yalavac, ağlar qoyub Sonyalarla, Manyalarla mazaqlaşan biqeyrətlərin işrət lövhələri, Mirzə Sabirə (gənc, alovlu aktyor Mikayıl Mirzəyev) qarşı cahad edən cahil və qorxunc dindarların həmlə dalğası və başqa əhvalatlar süjetdən doğub süjetə də qovuşur.

Anarın ağlı, hissiyyatı və ən vacibi – yazıçı fəhmi onun ürəyinə, məhz ürəyinə pıçıldamışdı ki, qafil olma! Sən tariximizin o qaranlıq, dolaşıq dövrünü, zülmət səltənətini səhnələşdirərkən və bu zülmət səltənətinə od saçan iki böyük, ulu Mirzəni, iki Səməndəri surət kimi yaradarkən məbada özündən söz uydur, hətta nadir sözlər tapsan belə, yenə də onların kəlamının yanında sönük olacaq. "Sönük" yerinə düşmədi, onların kəlamının xüsusi çəkisinə uyğun gəlməyəcək. Mirzələri öz dilləriylə, öz hökmanə replikaları, eyhamları, cümlələri, şeirləriylə danışdır!

Anarın müəllifliyi orasındadır ki, o, tədqiqatçı səbriylə Mirzə Cəlil və Ələkbər Sabir ədəbi irsini, o dövrün mətbuatını,

mənbələrini, məxəzlərini, xatirələri, salnamələri, yazılı hər nə varsa bittə-bittə axtarıb tapmış, zərgər incəliyi və kimyagər dəqiqliyi ilə yeri düşdükcə, vəziyyətlər diqtə etdikcə surətlərin dilinə verir, yaraşdırır, paylaşdırır. Bu nə montajdır, nə də orkestrovkadır. Bu orijinal bədii açıqlamadır. Mirzə Cəlilin də, Sabirin də əlində əl ağacı var. Bu əl ağacları hərfi və fiziki mənadan daha çox rəmzi məna daşıyır. Onlar şəhadət barmaqlarıdır. Bu barmaqlar fikrə şərik axtararkən, açıq həqiqətləri, inamı, qətiyyəti, amalı təsdiqləmək istəyərkən tamaşa zalına uzanır, qəzəb, nifrət, döyüş, cəsurluq, dönməzlik məqamında isə istər tək-tək, istər bütün qaragüruhun sinəsinə dirənib, gözünə sancılır, həm də aləmi, torpağımızı, açıq fikirliləri Danabaş kəndindən, Zeynəblərin gözündən axıb gələn qanlı yaşların, Məhəmmədhəsən əmi və körpə Əhmədlər fəryadının şahidliyinə çağırır.

Hadisələrin emosional təsirini qüvvətləndirən əsərin ruhundan doğan yanıqlı musiqi, mahnılar! Anar həmən mahnıların sözlərini də adı kütlələrə az məlum və ya naməlum – inqilabdan əvvəl yazıb-yaratmış, könlü qəm-qüssəli şairlərimizin qoşma bayatı və sair növlü kövrək şeirlərindən götürmüşdür. Bu, hisslərlə oynamaq, ekzotik effekt yaratmaq üçün yox, o dövrdəki Azərbaycan matəmgahının ümumi mənzərəsini tamamlamaq üçündü.

"O olmasın bu olsun" (Məşədi İbad) filminin lap əvvəlindəki yamaq kimi görünən bir epizod nəzərə alınmazsa, biz tamaşaçılar böyük Sabirin bədii surətini ilk dəfə "Sizi deyib gəlmişəm"də görürük. Sabir əruzu aktyor Mikayıl Mirzəyevin ifasında canlı, aydın, ahəngdar səslənir.

Əsərə ictimai baxışdan sonra geniş müzakirədə pyesə, tamaşaya, rejissor, rəssam işinə, bəstəkara, aktyor kollektivinə, xüsusən Həsən Turabovun Mirzə Cəlil, Səməndər Rzayevin Xudayar bəy, Vəfa Fətullayevanın yaratdıqları Zeynəb surət-

lərinə verilən yüksək qiymətlə yanaşı, yekdil də bir tənqidi mülahizə qeyd edildi:

Cəlil Məmmədquluzadənin ömür-gün yoldaşı, döyüş silahdaşı, yeri gələndə əli silahlı ərinin keşiyində duran Həmidə xanım surəti həddindən artıq sentimental və lirik planda verilib ki, bu da Həmidə xanım üçün səciyyəvi deyil. Bunun əsas səbəbi həmin rolda çıxış edən aktrisanın səsinin nazikliyində, lirik-zərif planda oynamasında axtarıldı. Mənə görə isə məsələ nə lirik planda, nə də səs tembrindədir. Bəlkə elə Həmidə xanımın səsi nazik olub? Liriklik və zəriflik isə bir qadın kimi Həmidə xanımda ola bilməzdimi?

Məsələ ondadır ki, Həmidə xanım səhnədə gərək aparıcı diktor kimi yox, aparıcı surət kimi, sözü, mətləbi, rolu olan obraz kimi görünəydi. Finalda da bəzi dəqiqləşdirmələrə ehtiyac duyulduğu söylənildi.

Əgər müşahidə eləyib fikir vermişsinizsə, adətən qatara təzə minən sərnişinlər vurnuxur, deyinir, biri-birini sıxışdırır və sairə. Ancaq elə ki, qatar yerindən tərpənir, bir az gedir və getdikcə də hər şey öz qaydasına düşür, hamı öz yerində rahatlanır. Səhnə əsəri də belədir: tamaşadan-tamaşaya öz təbii halında qaydasına düşür və düşməlidir.

"Şəhərin yay günləri" kimi gözəl, mahiyyətcə, incəliklə haradasa "Sizi deyib gəlmişəm"lə səsləşən səhnə əsərinə görə Azərbaycan SSR Dövlət Mükafatına layiq görülmüş Anar, ömrünün, enerjisinin, ilhamının və ağlının baharını yaşayır. O, sinəsi sözlə dolu qeyrət damarlı yazıçımız, ayıq və sayıq gözlü ziyalımızdır. Mən bu qənaətimi Anarın "Azərbaycan", bir az sonra isə "Novıy Mir" jurnalında həmən Cəlil Məmmədquluzadə haqqında çap etdirdiyi "Anlamaq dərdi" adlı portret məqaləsini oxuyandan sonra bir daha təsdiq etdim.

**1982**

# FÜZULİ YADİGARI

**"Vahid, sevin ki, xalq özü qiymət verir sənə"**
**Əliağa Vahid**

Ədəbi şəxsiyyət kimi Vahidi tanımayan, onun qəzəllərini oxumayan bir azərbaycanlı təsəvvür etmək çətindir. Əlbəttə, aydın məsələdir ki, ədəbiyyatımızın böyük yolunu, istiqamətini bu gün qəzəl janrı tə`yin etmir və edə də bilməz. Lakin biz qəzələ – poeziyamızın Füzuli, Seyid Əzim yadigarına dərin ehtiram göstəririk. Bu gün isə qocaman şairimiz Vahidin sadə, canlı, oynaq bir dildə yazdığı yeni ruhlu, əlvan qəzəllərini mütaliə etmək, onlara xanəndələrimizin məlahətli ifasında qulaq asmaq hamıya xoşdur.

Deyərdim, əhli qələm, Vahid, əfv edərsə məni,
Böyük Füzulimizin yadigarı mən özüməm.

Vahidin mövzu dairəsi, təsvir və tərənnüm obyekti, ifadə tərzindəki şirinlik, aydınlıq, sadəlik onu ədəbiyyata dəstə-dəstə gəlib-getmiş qəzəlxanların səviyyəsindən çox yüksəyə qaldırmışdır. O, qəzəllərində orijinaldır. Qəzəli şe`r növü kimi müasirləşdirən, canlı xalq dilində onun gözəl nümunələrini yaratmağa nail olan Vahid haqlı olaraq Azərbaycan sovet şe`rinin qabaqcıl sıra nəfərləri ilə bir cərgədə addımlayır.

Müharibənin ilk günləri yaxşı yadımdadır. Səməd Vurğun yazırdı:

Bilsin ana torpaq, eşitsin Vətən...

Vahid dedi:

Çıx, ey qan içən yırtıcı, çıx torpağımızdan!

İnamla, böyük əzəmətlə səslənən bu sözlər ildırım sür`əti ilə Azərbaycan torpağına yayıldı. Atalar, analar, bacılar, qardaşlar hərbi məntəqələrdə, vağzallarda, ayrılıq konsertləri verən xanəndələr, artistlər, cəbhəyə yola düşən ilk eşelonların təkərləri bu sözləri oxudular.

Öz bədii təfəkkürünün məhsulunu ortaya çıxarmaq üçün forma seçməkdə hər bir sənətkar azaddır. Yarım əsrdən artıqdır ki, Vahid lirik şe`rin qəzəl formasında yazıb-yaradır. Onun aşiqanə, həkimanə, ibrətamiz qəzəlləri, yüksək tərbiyəvi, əxlaqi əhəmiyyətə malik olan qoşmaları, dilimizdən düşməyən misraları, hətta rədifləri bizim üçün əzizdir, doğmadır.

Bütün bunları mən, bir münasibətlə, bu yaxınlarda Vahidin "Qəzəllər" kitabının çapdan çıxması ilə əlaqədar olaraq xatırlayıram. Şairin böyük kütləvi tirajla nəşr edilən hər kitabı oxucularımız, muğamat həvəskarlarımız, xanəndələrimiz üçün dəyərli hədiyyədir. Vahid şe`rinin çox geniş auditoriyaya malik olan təbliğatçıları – musiqi xadimlərimiz, xanəndələrimizdir. Nə üçün müasir xanəndələr çox vaxt Vahidin sözlərinə müraciət edirlər? Ona görə ki, onun qəzəllərinin dili çox sadədir, anlaşıqlıdır, tez yadda qalandır, adi söhbət, adi danışıq tərzindədir.

Mən istəyən gözəlin saçları ipək kimidir,
Üzü çəməndə açılmış qızıl çiçək kimidir.

Görürsünüz, artıq söz, yersiz təşbeh, qəliz ibarə yoxdur. Sadəlik var, adi bir gəncin öz sevgisinin gözəlliyi haqqında real təsəvvürü var. Bu elə sadəlikdir ki, (məsələn, bayatıları-

mızda olduğu kimi) ilk baxışda fikirləşirsən: mən də yaza bilərəm. Ancaq, sonra görürsən ki, çətindir.

Bə`zən deyirlər ki, guya qəzəl formasının özü, əruz vəzninin öz ahəngi istər-istəməz şairi qəliz yazmağa, çətin başa düşülən ərəb-fars tərkibləri işlətməyə vadar edir. Əslində belə deyildir. Burada heç bir "məcburiyyət", "istər-istəməzlik" yoxdur. Bu, sadəcə olaraq şairin bacarığından, arzu və iradəsindən asılıdır.

Vahid qəzəlləri ilə camaat arasındakı yaxınlığın, ünsiyyətin səbəblərindən biri də məhz ondadır ki, şair formal əruzçuluq, qəzəlçilik etmir. O, poetik bir fikri, əhval-ruhiyyəni hamıya çatdırmaq üçün əruzun daha canlı, daha oynaq bəhrlərini seçir.

Mən bir vəfalı aşiqəm, ölsəm də eşqdə,
Örtər çiçəklə, güllə gözəllər məzarımı.

Bəhrin rəvanlığından, oynaqlığından əlavə sözlərin münasib düzülüşü, səslərin ahəngdarlığı, uzlaşması da beytlərini misal çəkdiyim qəzələ şirinlik, səmimilik, yadda qalan musiqi gətirir.

Qəzəlin tə`sirliliyində, yadda qalmasında, onun beytləri arasında fikirdən doğan vəhdətdə, məntiqi bağlılıqda rədifin poetik ünsür kimi əhəmiyyəti var. Qafiyəni müşayiət edən, misralardakı fikrin məzmunundan çıxaraq bədii vurğunu daha da gücləndirən rədif şe`rin, xüsusən qəzəlin yaraşığıdır. Bu cəhətdən Vahid qəzəllərinin rədifləri maraqlıdır. Bu rədiflər canlı xalq ifadələrindən, tez-tez işlətdiyimiz duzlu, məzəli sözlərdən, adi dialoq və sual-cavab zamanı işlənən kəlmələrdən ibarətdir. Məsələn: "mən deməzdim, sən dedin", "hərdən bir", "nə xəbər var", "heç kim bilməsin", "çıxsın getsin", "bəs indi necə olsun", "özü bilsin", "kim görüb, o desin" və s.

Rədif Vahid qəzəllərinə xoş, nikbin, ərkyana bir əhval-ruhiyyə verir – həyata, insana, onun məhəbbətinə real, canlı, şairanə münasibətdən doğan bir əhval-ruhiyyə!

Vahid qəzəllərinə muğamatda qulaq asarkən bədbinliyə, ümidsizliyə qapılmırsan. Bu qəzəllər xanəndəni inildəməyə, sızıldamağa qoymur, dinləyəni düşündürür, ona sevgidə, məhəbbətdə dəyanət, sədaqət təlqin edir, fikri xəyalı qanadlandırır.

Vahidin poeziyası öz imkanları daxilində günün tələblərinə cavab verir. Bütün ədəbi-bədii əsərlərimizin mövzusu olan vətənpərvərliyi, böyük nailiyyətlərimizi, sülhə rəğbət, müharibəyə nifrətimizi, ədəbi irsimizə, doğma Azərbaycanımıza hədsiz hörmət və məhəbbətimizi Vahid özünəməxsus bir şəkildə tərənnüm edir. Doğruluq, düzlük, həqiqi sevgi, xoşbəxt ailə həyatı, xalq, Vətən naminə nəcib əməllərə həsr edilmiş mə`nalı ömür, təmiz, təvazökar, vüqarlı şəxsiyyət Vahid qəzəllərinin təsvir obyektidir.

Cahan işıqlanacaq sülh ilə, səadət ilə,
Bizim üfüqdə zəfər nuru payidar olacaq...
Bizim diyar verir qədrü-qiymət insanə,
Bütün cahanə nümunə bizim diyar olacaq.
Bu gün sən ölkənə, Vahid, nə xidmət eylərsən,
Bu şanlı iş gələcək nəslə yadigar olacaq.

Vahid fitri iste`dada malik sənətkardır, xalqımızın şöhrətli şairidir, yüz illərdən bəri davam edib gələn Füzuli ədəbi məktəbinin ləyaqətli şagirdidir. Müasir Azərbaycan şe`rinin təzə, əlvan boyalarla, möhkəm qanadlarla çox geniş üfüqlərə ucaldığı bir dövrdə Vahid öz ən`ənəvi, orijinal qəzəllərini yazmaqda davam edir. Sənətkarlıq – obrazlılıq, fikir aydınlığı və bütövlüyü, müdrikliyi, güclü bədii məntiq, sözlərin yerli-

yerində işlədilməsi, səlislik, mə`na və bədii ümumiləşdirmə cəhətdən Vahidin elə qəzəlləri var ki, onlar şe`r xəzinəmizin qiymətli inciləri sayıla bilər.

Vahid şe`rimizin mö`təbər ağsaqqalarından biridir. Vahid qəzəllərinin şöhrəti bu gün Sovet Şərqinə, Pakistana, Cənubi Azərbaycana, Ərəb ölkələrinə yayılmışdır. Vahid klassik şe`r ən`ənələrimizin novator davamçısı, Səməd Vurğun demişkən, "anadangəlmə şair", Şərqin böyük şe`r dühalarının gözəl mütərcimi, Aşıq Ələsgər ruhlu qoşmalar müəllifidir.

Vahid, bu qədər səndə ki, var eşq-məhəbbət,
Dünya qocalıb getsə, çətin sən qocalasan.

Vahid həqiqətən çətin qocalsın. Onun şəxsində şe`rimizin şeyda bülbülü olan qəzəl həmişə cəh-cəh vuracaq, yaşayacaq.

Bağların-bağçaların arası ilə dumduru, haysız-küysüz bir çay axır. Yayda onun suyu azalsa da axır, payızda sinəsinə qızılı xəzəllər düzülsə də axır, qışda səthi buz bağlasa da axır... Qırılmaz, pozulmaz bir ahənglə, əbədi musiqi ilə axır... axır... Axdıqca ətrafında çəmənliklər əmələ gəlir, təravətli, əlvan güllər-çiçəklər sayrışır. O çayın axarı Vahidin sözlərini belə pıçıldayır:

Həmişə mən varam aləmdə, ölmərəm, Vahid,
Əsər ki, qaldı cahanda o, ölməmək kimidir.

**1965**

# YAZIBLAR, YAZIRLAR, YAZACAQLAR

Atalar deyib: "Allah, sən məni dostumdan qoru, düşmənimlə özüm bacararam".

Füzuli deyib:

Hər kimə dust dedim düşməni can oldu mənə,
Düşmən öz bəxtim imiş indi əyan oldu mənə.

Sabir deyib:

Öz tiğimiz öz rişəmizi
Kəsdi sərəpa...

Bu barədə müdrik kəlam çoxdur. Atalar sözü, zərbi-məsəl, hələ hekayətlər, rəvayətlər, əfsanələr.

Əfsanə: "Birdən meşənin dərinliyindən indiyə qədər qoca palıdın eşitmədiyi qəribə bir səs gəldi. Bu səs boğuq idi. Nə insan səsinə bənzəyirdi, nə də heyvan. Səs gələn tərəfə çaparlar göndərdi.

– Baba palıd, meşəni qırırlar.

– Kim?

– Balta.

– Balta nədir?

– Əl boyda bir dəmir parçasıdır, par-par parıldayır, almaz kimi iti ağzı var. Qabağına nə keçirsə doğrayıb-tökür.

– Bu əl boyda dəmir parçası ağacı necə kəsir axı?

– Onun uzun sapı var.

Qoca palıdın səsi titrədi və təşvişlə soruşdu:
– Baltanın sapı nədəndir?
– Ağacdan.
– Onda bizi qıracaqlar.
– Niyə?
– Çünki sapı özümüzdəndir.

Əfsanəni dilləndirib danışdıran ustad ədib İsmayıl Şıxlıdır, onun qüdrətli, sərrast qələmidir. Əfsanə qədim əfsanədir. Ulu folklorumuzun ibrətli səhifələrindən biridir. Fəqət, yazıçı "Sapı özümüzdəndir" hekayəsini yazmasaydı, çıxış, mə`ruzə, publisistik yazılarında, özünün yetmişillik yubiley təntənəsindəki cəsarətli, açıq, səmimi, dolğun və parlaq və çox həyəcanlı nitqində həmən ifadəni leytmotivə, vicdan və vətəndaş bayrağına çevirməsəydi... əfsanə əfsanə olaraq qalacaq, mamırlı-yosunlu, qıpqırmızı pas çökmüş kitabələrin daş yuxusundan ayılmayacaqdı...

Əgər yazıçı bu əfsanəni müasir, bugünkü, busaatkı həyat kitabımızın kontekstinə bağlamasaydı, həyat, yaşayış, lap gündəlik məişət tərzimizin ahənginə qoşmasaydı, öz içimizdəki, öz aramızdakı, necə deyərlər, dili dilimizdən, qanı qanımızdan, canı canımızdan olan öz doğmaca satqınlarımızın, xainlərimizin, naxələf və nadanlarımızın ifşasına yönəltməsəydi, tuşlamasaydı, "Sapı özümüzdəndir" sözləri xalq, camaat, cəmiyyət, rəsmi, formal, qeyri-formal dairələr içində tamamilə yeni, kəskin ironiyalı mə`nada belə səslənərdimi, belə geniş yayılardımı, bu cür ibrətli bir zərbi-məsələ çevrilə bilərdimi?!

Heç bir şey nə göydən düşür, nə yerdən çıxır...

Hətta dahi Sabirin də tamamilə yeni, orijinal poeziyası formaca, ahəngcə başdan-ayağa klassik, ən`ənəvi şe`rimizdir, əruz və əruzun heca vəzninə yaxın bəhrlərindədir. Firdovsi "Şahnamə"sinin, Xəyyam rübailərinin, Nizami "Xəmsə"sinin,

başda Füzuli olmaqla Şərqin böyük şairlərinin ölməz əsəri "Leyli Məcnun"un, Şekspir faciələrinin və sairənin kökü, mənbəyi, rişəsi əsatirlər, rəvayətlər, əfsanələr deyilmi?!

Əlbəttə, konkret mühitdən, şəraitdən, tarixi əhvalatdan, hadisədən, müasir həyatın diqtəsindən doğan yazıçı-yaradıcı təxəyyülüylə yaranan, ətə-qana dolan süjetlər də var. Elə "Dəli Kür" romanını buna misal göstərmək olar.

İste`dad iste`daddır. O, rəvayətə üz tutar, uydurmadansa qaçar.

Uydurmayla rəvayəti qarışdırma. Yadımdadır, İsmayıl müəllimin silsilə rəvayət-hekayələri bir-birinin ardınca mətbuatda görünəndə bə`zi qələm yoldaşlarımızdan eşidirdim:

– Əşşi, bu kişinin də deyəsən sözü qurtarıb axı. Götürsün "Azərbaycan nağılları" kitabını, üstündə yazsın İsmayıl Şıxlı – vəssalam!

Ölməz "Xəzan yarpaqları" hekayəsinin müəllifi Salam Qədirzadənin Cəfər Cabbarlının xatirəsinə həsr edilmiş "Sənətkardan əsər qalar" adlı bir hekayəsi var ki, elə təkcə sərlövhəsi nəyə desən dəyər... Doğrudan da, sənətkardan əsər qalar də, həcm, say, çap vərəqi qalmaz ki...

Nə Kür axıb qurtarandır... nə İsmayıl Şıxlının sözü tükənəndir. Onun lap son vaxtlarda yazdığı "Təyyarə gecikir", "Namərd gülləsi", "Qətl", "Deputat", "Aşığın yubileyi", xüsusilə "Məleykə xala", "Mənimlə getməlisən", "Ölüləri qəbiristanda basdırırlar", "Aktyorun son monoloqu" adlı dərin psixoloji, canlı, rəvan oxunaqlı hekayələri hər biri ayrı-ayrılıqda mənim fikrimcə kamil sənət əsəridir, tənqidin, təhlilin mövzusudur.

Bu məqamda şair Əliağa Kürçaylının bir fikri yadıma düşdü. O deyirdi: "Bə`zən yazıçını, onun təzə yazılarını rədd etmək, gözdən-nəzərdən salmaq üçün, həmən müəllifin məşhur bir əsərini qalxana çevirir, qılınca əl atırlar".

Bunu sözgəlişi dedim. Künc-bucaqdakı pıçıltıları deyə bilmərəm. Ədəbi mühitdə heç kim ona hücum çəkməyib, çəkə də bilməzdi. İsmayıl Şıxlının özü də, sözü də nüfuz, hörmət-ehtiram, sənətkarlıq me`yarıdır, ehtiram, hesablaşma ölçüsüdür.

Sənətkarlar həmişə axtarışdadır. Axtarış yazıçını ömrünün dolğun çay kimi axan, ləngərlə axan bu çağında, yetkin, sabit, gözü-könlü tox məqamında gətirib xalqın lə`l-cəvahir dolu xəzinəsinin üstünə çıxarır. Ədib özünü itirmir. Görməmiş kimi qaş-daşları, zər-zibanı ucdantutma qamarlayıb ciblərinə doldurmur, ətəyinə yığmır. O, lə`li, gövhəri, zümrüdü, yaqutu, almazı bircə-bircə götürür, ehmalca üfürür, gözlüyünün şüşələrini silmək üçün məxsusi saxladığı qar kimi ağappaq dəsmalla silir, ürəyinin işığına tutur, zövqünün, qayəsinin, idrakının məhək daşına çəkir, seçib ayırır, sonra ictimai mühitimizin bazarına çıxarır, sərraf müştəri gözləyir. Yoxsa

Mətahın atma bazara,
Xiridar olmayan yerdə. (Füzuli)

"Sapı özümüzdəndir" kitabındakı hekayələr rəvayət və əfsanələr əsasında yazılmışdır. Yadıma "Kəlilə və Dimnə", "Qabusnamə" kimi ölməz incilər, yaddaşımızda beşikdən qəbrəcən bizimlə yoldaş olan əlvan nağıllarımız düşür. Axı, İsmayıl Şıxlı həm də sözün əsil mə`nasında müəllimdir. Professor Əli Sultanlının, Mikayıl Rəfilinin, Feyzulla Qasımzadənin, Cavad Bağırovun, Əbdüləzəl Dəmirçizadənin, Əhməd Seyidovun, Cəfər Xəndanın yetirməsidir. Xüsusən Əli Sultanlının qədim Yunan və Qərb ədəbiyyatından oxuduğu canlı, heyrətli, sinədəftər mühazirələr indi də bizim nəslin qulağında səslənir:

– Ey bəd ağızlı Kolxas, sən mənə ömründə bir şad xəbər vermədin.

– Aqamemnonun gərdunəsi silkələndikcə elə bil zəlzələ qopurdu.

Əli müəllim özündən heç nə demir, heç nə yaratmırdı. O, dərs yaradırdı. Mühazirələrinə səhnə əyaniliyi verirdi. Əli müəllim danışdıqca özümüzü Troya müharibələrinin qanlı meydanlarında hiss edirdik.

Əyanilik müəllim sənətində birinci şərtdir. Bu keyfiyyət ədibin yaradıcılığında aydın görünür. Mirvari kimi seçilib, sonalanıb sapa düzülmüş "Sapı özümüzdəndir" kitabındakı hekayələrin əyaniliyi, rəssam təsvirli dili, canlı təhkiyəsi, təzadlı lövhələri oxucunu elə bil ki, sehrli güzgülü otağa salıb...

"Xasiyyətimdir" hekayəsində yamanlıqdan, namərdlikdən zövq alan, mayeyi-cövhəri fitnə-fəsadla yoğrulmuş xəbislərin yaxşılığa yamanlığı təsvir edilir (əqrəblə çanağlıbağanın təsvirində).

Bu öz yerində. Siz dilə, ifadəyə, təbiət təsvirindəki detallara baxın: "Sular göz yaşı kimi dumduru idi. Çayın dibindəki bülöv daşları aydınca görünürdü. Bu daşların üstüylə sürüşən bıçqıbalığı sürüsü gah suyun üzünə qalxır, gah da küyülləşib çay aşağı şütüyürdü. Hava aydın və tərtəmiz idi. Təkəmseyrək gözə dəyən ağ buludların kölgəsi suyun üzündə ağ ləkə kimi axırdı. Sahilboyu uzanmış meşənin əksi isə suyun dərinliyindən adamın üzünə boylanırdı. Lal axan çayın suyu qırçın ləpələrdən qaysaq bağlamışdı".

Tofiq Bayram demişkən, yadıma dilsiz şairlər, dilə sün`i təbiilik bəlası gətirən əli mikrofonlu radio-televiziya jurnalistləri düşür. İslam Səfərli belə yerdə zarafatla deyərdi ki, məsələ aydın olduğu üçün üstü basdırılsın. Nə isə.

Təklif vermək, fikir yürütmək, məsələ qoymaq, iş buyurmaq asandır, yerinə yetirmək çətin. “Zınqırovu kim asacaq?” (Pişiyin boynundan).

Vicdanını, insafını, mürvətini itirdinmi – vəssalam! Nəinki dünyanı itirəcəksən, hətta, onu xaraba qoyacaqsan.

"Məni itirməyin" – bu hekayədə küləyin, odun, suyun, ayrı-ayrılıqda mənəm-mənəmliyindən və bunun dəhşətli ziyanından, əksinə hər birinin yerinə, məqamına görə misilsiz faydasından danışılır.

Bu saat nədən istəyirsən danış, necə istəyirsən danış, hansı sandığı açırsan aç, hansı pambığı tökürsən tök, kimə, nəyə istəyirsən inan, kimə, nəyə istəyirsən inanma, kimi istəyirsən tənqid elə, lap söy də (söyüş ədəbsizlik olsa da...).

Qardaş, axı belə deyildi. Axı uzun illər boyu səhrada dilimiz-dodağımız yana-yana, ürəyimiz-ciyərimiz bişə-bişə, beynimiz qaynaya-qaynaya "kommunizm" deyilən büllur çeşməli, zümrüd yaşıllıqlı, cənnət meyvəli – axar-baxarlı bir VAHƏYƏ can atmışıq. Getmişik... getmişik... sərab... sərab... sərab... əlimiz havada qalıb... "İlğım" hekayəsinin axır cümlələrindən: "Birdən dəhşət içində dayandı. Gördü ki, gözəl diyarın üstünə narın bir kölgə düşür. Keçən dəfə də belə olmuşdu. Əvvəlcə xəfif duman tül pərdə kimi hər yeri bürümüşdü. Azacıq sonra isə bu gözəl diyarın özü kölgəyə bürünüb görünməz olmuşdu. O, qorxdu, yerindən tərpənə bilmədi. Dizi üstə qumluğa çökdü. Əllərini göyə qaldırdı. Bu dəfə dua üçün yox, fəryad üçün. Əli göydə, gözü üfüqdə, dizi üstə quruyub qaldı".

İsmayıl müəllim mənə bir sirr açdı. Dedi ki, əfsanələrin bə`zi yerlərini, bə`zi məqamlarını qayəmə, fikrimə, məqsədimə uyğun özüm düzəltmişəm, daha doğrusu özümdən yazmışam. Bəli, xalq deyiminin təbii axarından seçilməyən yazıçı müdaxiləsi görün nə qədər təbii, inandırıcı olmalıdır ki, yamaq olmasın.

"Bir ölkədə ki, müəzzin çaqqal ola, münəccim də ki, boz kəpək, mən belə məmləkətdə peyğəmbərlik eləyə bilmərəm". Çox böyük kinayə, sarkazm, çox müasir ümumiləşmədir. Gözümüzün qabağına SSRİ-dəki qarmaqarışıqlığı, hərc-mərcliyi, yerinə yetirilməyən fərman və fərman sahiblərini gətirmirikmi?! Diqqətinizi "Bir məmləkətdə" adlı hekayə-əfsanəyə

cəlb etmək istəyirəm. Şıxlı qələmə almasaydı, belə bir ibrətli rəvayətdən az adamın xəbəri olardı?!

Hamı kimi mən də lap uşaqlıqdan nağıllarımızdan bilirəm ki, Şah Abbas cənnətməkan tez-tez təğyiri-libas olub ölkəsini gəzər, camaatın iş-gücü, dolanışığı ilə maraqlanardı.

Şah belə gəzməklərin birində adam kəsib, adam əti satanların əlinə düşür. Sevgilisinin – çoban qızının inadı və tə`kidi ilə öyrənib yiyələndiyi keçəçilik ("Keçəçi") ölüm ayağında onun dadına çatır. Təkcə onun yox – minlərin... Vəzifəyə, taxtitaca yox, sənətə arxalan! Sənət əbədidir, o birilər gəldi-gedər.

Biz hər şeyi və hər kəsi öz yaşımızla, biliyimizlə ölçməməliyik. Axı obrazlı desək, Şah Abbası bəşər övladı nəsilbənəsil tanımalıdır. 1980-ci ildə on yaşında olan uşaq, 1991-ci ildə iyirmi bir yaşlı gəncdir. Onsuz da qarışıq-bulaşıq zəmanəmizdə onlara öyüd-nəsihət vermək, özü də bu şəkildə... lazımdır, yoxsa yox?!

Yelkəni al qırmızı ağ gəmiyə dolaq biz,
Tanınmaz bir adanın sakinləri olaq biz,
Bu qarışıq-bulaşıq, bu dolaşıq dünyadan,
Dumduru sabahlara bir yadigar qalaq biz.

"Sapı özümüzdəndir" kitabı bayatılarımız kimi sadədir. Bu sadəlik çoxunu aldadır. Çoxu elə bilir ki, bayatı yazmağa nə var ki... mən də yaza bilərəm. Yaz görək də...

Göy üzü damar-damar,
Göydən yerə nur damar,
Qəlb dediyin şişədir –
Sən sındırsan, kim yamar?!

Əziz oxucu, onsuz da həcmcə çox yığcam, biri-birindən qısa olan bu əfsanə novellaları oxu! Xüsusən "Ruzu" hekayə-

sini. Müəllif təlqin edir ki, oğruluq cinayətdirsə, qismətdən, ruzudan qaçmaq da cinayətdir.

“Kişi tanıdı. Bu həmən canavar idi:

– Allahı tapa bildinmi?

– Tapdım.

– Nə dedi?

– Dedi ki, ağılsız insanları sənə yem verir.

– Onda mənim yemim sənsən...

Kişi təəccübləndi:

– Niyə?

– Ona görə ki, ağılsızsan. Ağılsız olmasaydın qızılları bölər, ya da oğlan paltarı geymiş qız – padşahı alıb yağ-bal içində yaşayardın.

Kişinin boğazı qurudu. Bir-iki dəfə udqunub geri çəkildi.

– Sən bunları haradan bilirsən?

– Sən Allahla yox, mənimlə danışırdın.

– Yalan deyirsən. Mən Allahın səsini öz qulaqlarımla eşitdim. O mənim ruzumu verdi.

– Verdi, amma sən qanmadın.

Canavar qabaq ayaqlarını kişinin çiyninə qoydu...”

Xoruzbeçə (“Xoruzbeçə”) damın üstündə ədalı bir ehtiyatla ayağının altına baxa-baxa yeriyir ki, birdən dam onun ağırlığına tab gətirməz. Bəli, qardaş, özündən bədgüman olub, var və olacaq. İnsan mə`nəviyyatı – onun sirli-sehrli min bir aləmi ədəbiyyatın əzəli-əbədi mövzusudur. İsmayıl Şıxlının bu əl boyda kitabındakı mətləblər də həmən mövzulara həsr edilmişdir. Nəsillər, fəsillər təzələndikcə bu haqda, bu mətləblərdən yazıblar, yazırlar, yazacaqlar... Şəfai təxəllüslü bir Bakı şairinin bu beyti yadıma düşdü:

Bivəfalıq köhnədən qalmış bir adətdir, vəli,
Tazələndikcə gözəllər bivəfalar tazədir.

**1991**

# EL ŞAİRİNİN SURƏTİ

Mən 1958-ci il sentyabrın lap əvvəlində Basarkeçərdən ötüb, enişli-yoxuşlu yollarla məşhur İstisu çanağına endim... İşıqlar yananda Kəlbəcər qəsəbəsinə çatdım.

Tez-tez duman yolu kəsir, "Moskviç"in şüşəsi qırov bağlayırdı. Dayan-dayana, şüşənin qırovunu, alnımın tərini silə-silə gedirdim.

Bir topa alaçığın yanından ötəndə boyu kapot bərabəri itlər az qaldı şinləri gəmirsin. Saxladım. Adamlar gəldi. Buz baltası kimi sağlam, gül kimi təravətli uşaqlar maşını dövrəyə aldı. Heç bilmədim ki, yerə haçan düşdüm. Adını bilmədiyim güllərin, çiçəklərin, otların ətri məni bihuş etmişdi.

60-65 yaşlı bir kişi: – Oğul, sən bu mahala xoş gəlmisən, – dedi, – ancaq bu yerlər, bu yollar "Zimbala"nın xörəyi deyil. Gedək alaçığa, dincəl, gecəni qal. Ələsgərin doğulduğu, gəzib-dolaşdığı bu yerlərdən, onu dilə gətirən, onun sazında-sözündə dillənən bu dağ-daşdan, bu mənzərələrdən, olub-keçənlərdən sənə əhvalatlar danışım.

Üzr istədim:

– Çox sağ ol, əmi, yolçu yolda gərək, sağlıq olsun.

– Neynək, bala. Onda...

Aralığa quzu soyutması, qoyun qatığı, yumru-yumru nehrə yağı, pendir, nazik isti lavaş gəldi... Süfrə açıldı...

İndi, şair İslam Səfərlinin "Ələsgər" poemasını oxuduqca həmin yerlər gözümün qabağına gəlir. Fikrim-xəyalım o yolların üzərindən ötüb Dəlidağın dövrəsində gəzir:

Quzeydə qar qaldı, güneydə nanə,
Yarpızlı bulaqlar axdı-nə axdı.
Otların telinə yel çəkdi şanə,
Kəkliklər daşlara xınamı yaxdı?

Baxdıqca insanı aparır xəyal.
Duman niyə keçdi, çən niyə keçdi?
Yol üstə otlayan o qərib maral,
Deyən, ovçu görüb çənniyə keçdi.

Elə bil ki, bu sətirlər mənə, ustad aşıq Ələsgərdən, onun taleyi, bu yerlərin tarixi ilə bağlı hekayətlər danışmaq istəyən həmin sadə, mehriban kişinin dilindən yazılmışdır. Demək istəyirəm ki, əsər, xalq ruhunda, canlı, sadə dillə, doğma şe`rimizin qırılmaz, pozulmaz ahəngində yazılmışdır. Buradakı əksər ifadələrdə, obraz və təşbehlərdə oxucuda konkret təsəvvür yarada bilən bir əyanilik vardır.

Ələsgərim diyar-diyar,
Oba-oba gəzər oldu.
Göz yaşları Göyçə gölü,
Dərya eşqi Xəzər oldu.

Məsələn, şair əsərin bir yerində Pullu Məhərrəmin səfərdən evinə qayıtdığı zaman qulluqçu və nökərlərin təşvişini, təlaşını belə təsvir edir:

O, evə çatmamış qulluqçu-nökər,
Dəydi bir-birinə mis qazan kimi.

Mən, yerli-yerində deyilmiş "mis qazan kimi" ifadəsini ixtira hesab edirəm. Çünki,  bu təşbeh müəyyən bir əhval-ruhiyyəni oxucunun gözü qarşısına gətirə bilər. Əgər müəllif

yazsaydı ki, nökərlər bir-birinin əl-ayağına dolaşdı, onun dirsəyi bunun böyrünü deşdi, it yiyəsini tanımadı və s., onda buna ixtira demək olmazdı.

Vəznə, qafiyəyə, ahəngdarlığa xor baxmaq meyllərinin təzahür etdiyi, forma oyunbazlığı, mövzu və təşbehlərdə mücərrədçilik hallarının meydana çıxdığı bir vaxtda "Ələsgər" poemasının həmin məziyyətini qeyd etmək xüsusilə vacibdir.

Adı ölməz Azərbaycan şairlərilə yanaşı çəkilən böyük söz ustası Ələsgərin bədii surətini yaratmaq üçün müəllif, yüzillik bir ömür kitabının bə`zi səhifələrini varaqlayır. Xarakter epizodlar seçir.

Ehtiyac üzündən Kəblə Qurbana nökərçilik edən yeniyetmə Ələsgər...

Ağa qızı Səhnəbanunun eşqiylə yaşayan cavan Ələsgər...

Epizodlar bir-birini əvəz dir. Ələsgərin sazı-sözü getdikcə Göyçə mahalını, bütün Azərbaycanı bürüyür.

Saz necə dilləndi gör sinəsində,
Güldü, telli sazın telləri güldü,
Aşıq Ələsgərin zəngulәsində,
Sanki Azərbaycan elləri güldü.

Mənə elə gəlir ki, misralarda poemanın əsas ideyası ifadə olunmuşdur. Özü də müasir nöqteyi-nəzərdən. O da bundan ibarətdir ki, xalqın ürəyindən qopub gələn zəngulələr, qoşmalar həmişə bizə gərəkdir, təzədir. Onları ifadə edən sənətkarlar isə əbədi yaşayır.

Xeyirdə-şərdə xalqa yuxarıdan aşağı baxan təsbehli hacılarla, havalı bəylərlə, haçasaqqal pristavlarla üz-üzə gələn, onları sözün qüdrəti ilə həcv, ifşa edən Ələsgər...

Gərək şair poemada aşıq Ələsgərin kamilləşmiş dövrünü, zamanın keşməkeşlərindən çıxmış qocaman müğənnini,

böyük şairi – xalq arasında Bəhlul Danəndə, Molla Nəsrəddin qədər məşhur olan, haqqında rəvayətlər söylənən Ələsgəri konkret lövhələrlə, yadda qalan əlvan boyalarla təsvir edəydi. Çünki, onun bu dövrü daha maraqlı, ictimai-bədii mötivlərlə daha zəngin olmuşdur. Müəllif burada sadəcə olaraq Ələsgərin haraları gəzdiyini sözlə sadalayır:

Gah "Əyricə" yaylağından
Düşdü Şərur ellərinə.
Xan Arazdan əsən külək
Şanə çəkdi tellərinə.

Sonra:

Ələsgərin söz-söhbəti,
Əzbər oldu ağızlarda.
Söz ürəyə yazılanda,
Az görünər kağızlarda.

Bu misralar nə qədər rəvan olsa da, ümumi sözdür.

Müəllif Ələsgərin tərcümeyi-halının, xronoloji mə`nada, əsiri olmamışdır. Bu, yaxşıdır. Lakin, orası pisdir ki, poemanın lap əvvəlindəki iki bəndlə "qaraca bir oğlan dünyaya gəldi" – deyə qəhrəmanın körpəliyi təsvir edilir, ondan azca sonrakı bəndlərdə isə birdən-birə "Onun səsi tutdu evi-eşiyi", "Axdı Ələsgərin, axdı gur səsi", "Tayalar səsləndi, dağlar oynadı" – deyə gənc, məşhurlaşmış aşıqdan söhbət gedir. Zənnimcə, poemanı elə buradan – Ələsgərin gəncliyindən başlamaq lazım idi.

Ustad aşığın qoşmalarına bələd olanlar bilir ki, o, çox yerdə "qul" sözü işlədir. Özünü qul adlandırır. "Ölsün Ələsgərtək qulların, dağlar" misrası dillər əzbəridir. Böyük sənətkar bu sözlə həmişə xalqın xidmətində durduğunu, özünü xalqdan yüksək, ayrı hesab etmədiyini bildirir. Doğma Azərbaycanın əlvan, e`cazkar təbiətinə heyranlığını, qənirsiz

gözəllərimizin pərəstişkarı olduğunu söyləyir. Yüz il ömür sürmüş bu adamın həyatı məhdud, şəxsi çərçivədə qalmayıb, zəhmətkeş kütlələrin ictimai həyatı ilə qaynayıb qarışmışdır.

İslam Səfərli əsərinə daha güclü ictimai motivlər gətirmək, əsas obrazı daha dolğun göstərmək məqsədilə həmin "qul" sözündən məharətlə istifadə edə bilərdi, el içərisindən çıxan bu nadir iste`dadlı adamın mə`nəvi aləmini bu günün mövqeyindən işıqlandıra bilərdi. Təəssüf ki, şair bu kəlmədən məhz bir kəlmə kimi istifadə etmişdir, özü də yerli-yersiz: "Sazı basıb sol döşünə, xas söz desin qul Ələsgər", "Baxdı Səhnəbanu qul Ələsgərə", "Bu gözəllik ilahəsi Ələsgəri qul eylədi" və s.

Ələsgər cinaslarının birində deyir:

Var olsun Qarabağ, əcəb səfadı,
Başa Xaçın axar, ayağa Qarqar.
Göyçə qar əlindən zara gəlibdi,
Muğan həsrət çəkir: a yağa qar, qar.

Böyük aşıq, hələ keçən əsrdə Azərbaycan torpaqlarının sudan çəkdiyi korluğa işarə vurur. Başqa cür də ola bilməzdi. Ələsgər kimi şəxsiyyət xalqın çox böyük maddi-mənəvi ehtiyaclarına biganə qala bilərdimi? Əlbəttə yox. İslam Səfərli bu cəhətlərə fikir verməliydi.

Şair yeri gəldikcə bilavasitə Aşıq Ələsgərin öz kəlamına da müraciət edir. Onun qoşmalarından yerli-yerində və xəsisliklə istifadə dir. Dırnaqlar, mö`tərizələr az açılıb-bağlanır.

İddia edənlər var ki, bədii əsərin qüvvətli tə`sirə malik olması, nəql edilən əhvalatın, təsvir edilən hadisənin özü-özlüyündə tə`sirli olmasından asılıdır. Doğru deyil, məsələ necə yazmaqdadır. Poemadakı iki epizoda müraciət edək. Birincidə Ələsgərlə Səhnəbanunun təbiətin azad qoynunda ilk, asudə, arxayın görüşü, ikincidə Səhnəbanunun gəlin kö-

çərkən namərdcəsinə öldürülməsi təsvir edilir. Hər iki hadisəni elə-belə sözlə danışsan, adama tə`sir edər.

İslam əvvəlincini bədii yüksəkliyə qaldıra bilmişdir. Şairin ifadə vasitələri də, təbiət təsvirləri də həmin vəziyyətlə səsləşir:

Ay nanələr, nanələr,
Dağa ətir paylayın...

deyən şair, bütün təbiəti bu vüsal münasibətilə ətirlənməyə, bəzənib-düzənməyə, bu məhəbbət təntənəsini alqışlamağa çağırır. İkinci epizodda isə oxuyuruq:

Dəyirmandan aşağı
Birdən Səhnəbanunu
Vurdu zalım uşağı,
Qız: – Bağrım yandı, – deyib,
Səriləndə torpağa;
Atlarının başını
Düşmən çevirdi dağa.

Bu, faktın sadəcə qeydə alınması kimi bir şeydir. Filan yerdə filan hadisə oldu. Vəssalam. Şair nakam məhəbbətin, nakam ölümün faciəsindən daxilən sarsılmadığı üçündür ki, qatillərin ünvanına çox şit və yersiz bir söz göndərir: "Zalım uşağı!". Guya ərk edir, ya zarafatlaşır. Deməli, sənətkarlıq məs`uliyyəti, yaradıcılıq ehtirası olmayanda tə`sirli hadisə müəllifin köməyinə gəlmir.

Poemada əsas surətlərdən biri Dəli Alıdır. Əgər Ələsgər xalqın incə zövqünü, söz və musiqisini təmsil edirsə, Dəli Alı onun vuran qolunu, haqq-ədalət yolunda hər cür vuruşa qadir olduğunu göstərir.

İslam Səfərlinin oxucuları, qələm yoldaşları onun rəvan təbə malik olduğunu bilirlər. Bu rəvanlıq bütünlükdə "Ələsgər" poemasına aiddir. Dolğun misralar, orijinal təşbehlər, yadda qalan, aydın təsəvvür verən ifadələr əsərdə çoxdur.

Göz danışdı, qaş danışdı,
Söz qurudu dil üstündə.
Ələsgərin əli gəzdi
Saz üstündə, tel üstündə...

Nəğməli dodağı, qoşmalı könlü
Susdu səsə həsrət bir sükut kimi.
Sinə dəftəri də qaldı bükülü,
Qaraldı sifəti bir bulud kimi.

Misal gətirdiyimiz uğurlu parçaların sayını artırmaq olardı.

Əsərdə elə yerlər də var ki, oxuyursan, təəccüb edirsən. İlk baxışda axıcılıq səni aldadır. Diqqət yetirəndə görürsən, burada nəinki bədiilik, heç adi məntiq yoxdur.

İllər sarı sapa döndü,
İncəlib bir ipə döndü.

Xalq deyirsə ki, "incəlib sapa döndüm", "saralıb çöpə döndüm", bu da mə`lumdur. Bəs illərin sapa, özü də sarı sapa dönməsi nə deməkdir? Necə olur ki, sap da incəlib ipə dönür?! İp sapdan yoğundur, incələn şey yoğunlayarmı?

Hər gün söz qoşduqca gülə-çiçəyə,
Ona öz meylini saldı qonşular,
Alməmməd bu sirri bilməsin deyə.
Uşağa bir saz da aldı qonşular.

Əgər qonşular Ələsgərin söz qoşub saz çalmaq məharətini onun atası Alməmməddən "sirr" saxlamaq istəyirlərsə, daha nə üçün ona saz alırlar? Hələ orasını soruşmuruq ki, bu niyə sirr olmalıdır? Əsərdə təhrif olunmuş sözlər, ifadələr də var:

Düşərsən əmimin intiqamına,
Camalın gizləyib möhnətə batma.

Yaxud bu misraya diqqət edin:

Qoy Allah güldürsün gül baxtınızı.

Əvvala gül baxt deyilməz. İkincisi, əgər "baxt" sözünün əvvəlində gül yazılırsa, bunun bir mə`nası var: Xoşbəxt! Xoşbəxt adama isə "Allah baxtını güldürsün" deyə müraciət etmək lüzumsuzdur.

Söz də var, səsində kaman inləyir.

Sözün tə`siri olar, mə`nası, qədir-qiyməti, kəsəri və s. olar. Ancaq səsi olmaz.

Dildə təbii novatorluq yaxşıdır. Əgər sənətkar xalqın əsas ifadə tərzindən çıxış edərək əsərində yeni-yeni ifadələr, bənzətmələr işlədirsə, bu, alqışa layiqdir. Yox, əgər

Harın qalmış dul qadınlar
Min büsatla düzəndilər.

yazırsa, bu, dilə e`tinasızlıqdır. Mən bunları xırda nöqsan sayıram.

Çeşmə gileyləndi, süzülüb axdı,
Bilmirəm çox dedi, yoxsa az dedi.
Durna qanadından lələk buraxdı,
Elə bil: – Dərdini, oğlan, yaz! – dedi, –

kimi gözəl, aydın, hər sözü yerli-yerində misralar yazmağı bacaran bir şair üçün bunlar kiçik qüsur deyil.

Poemanın lap axırındakı dörd bənd zəifdir. Əsərin ümumi ruhundan, ahəngindən, şe`riyyətindən doğmur.

İslam Səfərlinin bu təzə əsəri ilhamlı, səmərəli zəhmətin məhsuludur. Zəhmət, iş, axtarış olan yerdə nöqsan da olar. Amma əsərdən əsərə bu nöqsanların sayını azaltmaq mümkündür. Mümkün olan şeyi həyata keçirmək uğrunda isə çalışmaq lazımdır.

**1963**

# ÖZ DİLİMİZDƏ OXUYARKƏN

"Sakit Don", "Oyanmış torpaq", "Hərb və sülh", "Hacı Murad", "Səfillər", "93-cü ildə", "Don Kixot", "Ovod", "Robinzon Kruzo", "Kapitan Qrantın uşaqları", "Zəmanəmizin qəhrəmanı" və bu qəbildən olan ölməz əsərləri Azərbaycan xalqı nəsil-nəsil öz ana dilində oxumuş, oxuyur və oxuyacaq. Mən hələ poeziya və dramaturgiya nümunələrindən söhbət açıb elə təkcə Abbas Səhhət, Səməd Vurğun, Cəfər Cabbarlının tərcümə incilərindən danışmıram.

Tərcümə ədəbiyyatımızın, bədii tərcümə tariximizin Qızıl fonduna daxil edilmiş dünya, rus və qardaş xalqların məşhur əsərləri sanki elə başdan-binadan Azərbaycan dilində yazılmışdır. Buna görəsə biz konkret yaradıcı şəxslərə – tərcüməçilərə minnətdarıq. Bu yaradıcı, məhz yaradıcı tərcüməçilərin heç kimin tərtib etmədiyi, heç yerdə nəşr edilməyən, satılmayan bir sehrli lüğət kitabı var – hissiyyat və fəhm kitabı, min bir çalarlı dil incəliklərinin duyum kitabı. Bu lüğət kitabının şifrlərini ancaq və ancaq iste`dad açıb oxuya bilər.

Həmkarımız, qələm dostumuz İshaq İbrahimov belə mütərcimlərdən biridir, lap elə birincisidir. Və bura zəhmətkeşliyi, iradəni də əlavə etmək lazımdır. Tərcüməçilik İshaq müəllimin ədəbi pasportu, yaradıcılıq taleyidir. Ədəbi ictimaiyyət, oxucular onu 48-50-ci illərdə Abxaz yazıçısı Georgi Quliyanın "Sakenda bahar" povestinin tərcüməçisi kimi tanımışdı. Aradan çox illər keçdi və İshaq da çox roman, povest, hekayə, pyes, kinossenari tərcümə etdi. Nəhayət İshaq İbrahimov ədəbi fəaliyyətinin ən parlaq dan ulduzu göründü, zirvə nöqtəsi gəlib çatdı.

Zəmanəmizin nadir yazıçısı Çingiz Aytmatovun "Gün var əsrə bərabər" romanının tərcüməsi! Mütərcimin adını əsərin sonunda, axırıncı səhifədə görməyə adət etmişik. "Azərbaycan" jurnalında İshaqın adı əsərin sərlövhəsi altında müəllifin imzasına müvazi – paralel verilmişdir. Fikirləşdim ki, bu adicə e`tikadır, tanınmış tərcüməçiyə, qələm yoldaşımıza, köhnə cəbhəçiyə redaksiyanın oxucuları adından hörmət və ehtiramdır.

Aytmatovun bütün əsərlərini rus dilində oxumuşam. Bu romanı nədənsə indiyə kimi oxumadığım üçün, Azərbaycan dilində tərcümə və özü də İshaq İbrahimovun tərcüməsi əlimə göydən düşdü, başladım oxumağa. Oxuduqca – "oxuduqca" demək azdır, qeyri-dəqiqdir – əsərin mə`na, mahiyyət, dil, ifadə, təhkiyə, üfüq genişliyinə gedib qovuşan məzmun, çalar, cilvə, əlvanlıq sehrinə, tilsiminə düşdükcə və tam müvazi şəkildə, eyni vaxt və məqamda mütərcimin qüdrətinə – xüsusilə bu tərcümədəki iste`dadına heyran qaldıqca, ümumiyyətlə, bu romanın, sanki, bizim dilimizdə yazıldığına inandıqca, dedim:

– Yox – bu sadəcə hörmət, etika deyil. Belə əsərin, belə mütərcimin adı lap formal olsa da, heç cür son səhifədə yazıla bilməzdi. Bu mənim emosional, şairanə qənaətimdir.

Xəyalıma dəmir yolunu, polad relslərlə şütüyən qatarları gətirdim. Hərçənd ki, romanda da tez-tez oxuyurduq bu leytmotivi: "Qatarlar bu yerlərdə şərqdən qərbə, qərbdən də şərqə gedirdilər. Bu yerlərdə dəmir yolunun hər iki tərəfilə intəhasız sarı torpaq çöllərinin göbəyi hesab edilən Sarı Özək düzləri uzanıb gedir". Lakin, buna görə yox, başqa mülahizə və analogiyaya görə mən dəmir yolunu xəyalıma gətirdim.

...Avtomobil və qoşqu, yedək növlü bütün nəqliyyat vasitələri yoldan, yol örtüyündən, yol əyrisindən asılı deyil. Sükan sürücünün, cilov cilovdarın əlindədir. İstədiyi vaxt yoldan yola keçə bilər: sağa dönər, kəsə gedər, düz gedər, maili-köndələn gedə bilər və sairə.

Qatarınsa... qatarı dartıb aparan paravozunsa, teplovozunsa, elektrovozunsa sükanı yoxdur. Təkərlər relslərə, relslərin əyilmə qövsünə tabe edilmişdir. Relslər də çuqun təkərlərin quruluşuna, şəklinə uyğunlaşdırılmışdır. Bir sözlə relslər də həmən təkərlər üçündür... ancaq və ancaq!

Dəmir yolu deyəndə bomboş, parıldaya-parıldaya uzanıb gedən relslər yox, calaqlarda çaqqıldayan təkərlər, haylı-küylü, ildırım sür`ətli, ağır ləngərli qatarlar gəlib gözümüzün qabağından keçir.

"Gün var əsrə bərabər"in müəllifi ilə mütərciminin, orijinalıyla tərcüməsinin biri-birinə bağlılığını, yaraşmasını, biri-birinə üzvi hüceyrəvi tabeliyini çuqun təkərlər və polad relslərin nisbətiylə müqayisə etmək olar.

Fəhmli tərcüməçi gözlərinin nuruyla əsərin bütün nöqtə və cizgilərinin, ştrix və detallarının, sözaltı mə`nalarının, incə mətləblərinin, koloritinin, dadının-duzunun, daxili aləm naxışlarının, heyrətamiz bir təbiiliklə Azərbaycan dilində işıqlandırılmasını yalnız və yalnız polad relslərlə çuqun təkərlərin biri-birinə bağlılığıyla müqayisə etmək olar.

Ağlını, huşunu, əslini, nəslini itirmiş, manqurt olmuş oğluna oxşama tutub ağı deyəndə Nayman – Ana:

"Yaddaşını qoparanda, başın qoztək kəlbətinə salınanda, balam ey, o dəvənin dərisinə gün dəydikcə buğurqattək sıxılanda, balam ey, o görünməz çənbər sənin gözlərini qanlı yaşla dolduranda, balam ey, gözlərinin kökü qopub çanağından pırtlayanda, balam ey, Sarı Özək istisinin tüstü verməz ocağında sən yananda, balam ey, bir damcı da düşmədi ki, dodağının közün basa, can bala, yer üzünə həyat verən Günəşə sən küfr etdinmi, can bala, onda Günə işıqların ən qarası söylədinmi, can bala? Əzabların əzabından şikəst beyni toran salan, balam ey, keçənlərin xatirəsi yaddaşında solan zaman, balam ey, çabalaya-çabalaya öz ananı unudanda, balam ey,

yay günləri dağ döşündə oynadığın çayın səsi qulağında yoxa çıxıb batıxanda, balam ey, öz adını, atan adın bərbad olmuş yaddaşından salanda, balam ey, baxıb sənə həya ilə gülümsünən o qızın, balam ey, qohum qardaş, dost-yoldaşın pozulanda surəti, qarğıdınmı bu gün üçün səni doğan anaya, can bala".

Bu və bu kimi gətirə biləcəyim nümunələr, sitatlar və mübaliğəsiz və istisnasız olaraq bütün əsər sübut edir ki, əsil aktyor rola necə girirsə – tərcüməçi də müəllifin ruhuna, qayəsinə eləcə nüfuz edir, onun sarı simdə toxunduğu, yandırıb yaxa-yaxa açdığı mətləbləri dərk edib öz ana dilində tam bir zəmanətlə səsləndirir!

Adətən, tərcümədən danışanda söhbət orijinala (bə`zən hətta sətri tərcüməyə) sadiq qalıb-qalmamaqdan gedir.

"Gün var əsrə bərabər"in tərcüməsi fövqəl vüs`ətə, rəvanlığa malik olduğu üçün, burada söz, cümlə, ideomatik ifadə, bütöv mətn müqayisələrinə ehtiyac qalmır, tərcümənin təbii axarı adamı alıb aparır. Tərcüməçi əhvali-ruhiyyəni, ovqatı, fikirlər, düşüncələr silsiləsini, obrazların psixologiyasını Azərbaycan dilində səsləndirmişdir.

"– Hə, ayrılıq saatı gəlib çatdı, – deyə Yedigey Qazanqapı torpağın dərinliyindəki əbədi yatağına uzadaraq fikirləşdi, – Bağışla ki, yerini rahatlamağımız uzun çəkdi. Səhərdən dartırıq ora-bura. Neyləmək, iş belə gətirdi. Səni Ana-Beyitdə basdırmadığımızın günahını bizdə görmə. Amma, elə bilmə ki, mən bu işi belə qoyacağam. Haracan lazım olsa gedəcəyəm. Nə qədər sağam, susmayacağam. Özüm bilirəm onlara nələr deyəcəyəm! Sən öz yerində rahat yat. Belə çıxır ki, bu gen, bu intəhasız dünyada üç arşınlıq yer sənin payına burada ayrılıbmış. Sən burada tək qalmayacaqsan. Tezliklə mən də gələcəyəm yanına, Qazanqap, heç şübhə etmə. Bir bəla-zad baş verməsə, öz əcəlimlə ölsəm, mən də bura gələcəyəm, yenə

də bir yerdə olacağıq. Qarışacağıq səninlə Sarı Özək torpağına. İntəhası özümüzün xəbərimiz olmayacaq. Bunu ancaq, diri olanda bilmək olar. Elə bununçün də səninlə danışsam da bu sözləri özümə deyirəm. Axı, sən nə idin, indi o deyilsən. Beləcə, biz varlıqdan yoxluğa gedəcəyik. Amma, qatarlar yenə də Sarı Özək torpaqlarında əvvəlki kimi hərəkət eləyəcək, bizim əvəzimizə də başqaları gələcək...”

Xeyr, burada “ruscasında belədir”, “azərbaycancasında belədir” səviyyəsinə enmək olmaz. Burada tərcüməçinin iki ana dilini, iki xalq ruhunu biri-birinə hissiyat və duyğu qaynaqlarıyla calamaq məharətindən danışmaq lazımdır! Dildən çevirdiyin dilimi bilmək vacibdir? Yoxsa dilə çevirdiyin dili?! Hər ikisi. Ancaq bir vacib də var: ilham qanadlarında cövlana qalxa bilmək!

Əsil-nəcabətin tərənnümünə həsr edilmiş bu, sarı-simdə səslənən ibrətamiz və müdrik hekayəti mənə öz dilimizdə oxutduran, məmnuniyyətlə oxutduran İshaq İbrahimov kimi mütərcimə eşq olsun!

“Gün var əsrə bərabər” romanının sujet xətti budur ki, Qazanqap adlı veteran, namuslu-qeyrətli sadə xalq adamı olan köhnə dəmiryolçu vəfat edib və onu aparırlar (öz vəsiyyətinə görə) qədim Ana-Beyit qəbiristanlığında dəfn etməyə. Kiçik bir dəstədən ibarət olan dəfn mərasiminə Qazanqapın yetişdirməsi, həmkarı olan cəbhəçi, dəmiryolçu, Boranlı razyezdinin fəhləsi Boranlı Yedigey başçılıq edir. Lakin onların yolunu kəsirlər ki, Ana-Beyit qadağan zonasıdır, burada ölü-zad basdırmaq olmaz. Qazanqapı, Yedigeyin tə`kidiylə (çünki, buna e`tiraz edənlər var idi) Sarı Özəyin başqa bir guşəsində torpağa tapşırırlar. Vəssalam! Sujet budur. Əsərin sxemi budur.

Lakin, heç bir sxemə sığışmayan, hər fəslində süjetlər şaxələnən bu ləyaqət, kök-əcdad, Vətən dastanı, sehrli

planetlərdən fantastik xəbərlər verən idrak və zəka dastanı, bütün mə`nəvi və hətta cismani eybəcərliklərin ən eybəcəri olan manqurtluğa öldürücü, ibrətamiz atəş DASTANI Çingiz Aytmatovun sinəsindən birnəfəsə, bədahətən axıb gəlmiş və böyük, dərin, incə mə`nalar kəsb etmişdir.

İshaq İbrahimov da bu birnəfəsə axarın nəbzini, ritmini tutmuş və bu axara qoşulub “Gün var əsrə bərabər”in (belə demək olarsa) Azərbaycan nüsxəsini yaratmışdır. Bəli, məhz yaratmışdır.

Ümumiyyətlə, bu əsərin ruhunda bizə milli doğmalıq var. Adam, yer adları, dəvə, at, adət və mərasimlər və sairə. Bəlkə bu da tərcüməçiyə kömək edib? Bəlkə bu da tərcüməçiyə kömək edib ki, Sabitcan kimi manqurtlar bizim də milli heysiyyətimizə ləkədir. Biz də manqurtlaşa bilərik və ayıq-sayıq olmalıyıq ki, manqurtlaşmayaq.

Bəlkə bu da mütərcimə kömək edib ki, Zərifə də, Abutalıb da, Boranlı Yedigey də, Ukubala da, Caydaq Ədilbəy də öz düşüncə, təfəkkür, tərziylə bizə yaxındır, bizim milli-psixoloji, kolorit, əxlaq incəliklərimizlə düz gəlir. Çox güman... Lakin, “bəlkə”siz, “güman”sız bir məsələ, bir nöqtə var: o da iste`daddır, iste`dadın sövq-təbii axarıdır, stixiyasıdır. İshaq iste`dadının səmt küləyi ilə gedir. Həmən səmt küləyi onun qələminə qüdrət və cəsarət verir, ona səbr-qərar təlqin edir. Bir kəlməlik cümlədən tutmuş, yarım səhifəlik cümləni, dialoqu, monoloqu qırmadan, parçalamadan bütün sintaktik, morfoloji tərkibi, uzlaşması, dadı-duzuyla, təbii, ağlabatan, koloritli müqabilləriylə tərcümə etmək azabına qatlaşmaq səbri!

“Bir də ölənlərin ruhunun başqa canlılara keçməsi doğrudursa, onda mən qarışqa niyə olum, istərdim ki, ağquyruq çalağana çevrilim, mən də o göydə uçan çalağan kimi Sarı Özəyin üstündə süzüb, o ucalıqdan doğma yerlərimi seyr edim, seyr etdikcə də doymayım. Vəssalam”.

Çingiz Aytmatov bu gün dünyada ən çox nəşr edilən, oxunan və sevilən yazıçılardandır. Belə yüksək səviyyəli sənətkarın əsərlərinin tərcüməsi İshaq İbrahimov kimi ustad, mahir tərcüməçiyə yaraşır.

"Gün var əsrə bərabər" romanının azərbaycancası bir daha göstərir ki, tərcüməçi sadəcə dil bilən peşəkar, vərdişkar yox, yalnız və yalnız yaradıcı şəxsiyyət olmalıdır.

**1987**

# "İNAMIM, ƏQİDƏM"

Şe`r məclislərində, görüş gecələrində, xoş, fərəhli münasibətlərlə verilən ziyafətlərdə şair Tofiq Bayram iştirak edirsə, hökmən ondan xahiş edirlər:

– "Valokardin" şe`rini oxu!

– "Qadın ürəyi"ni dinləmək istəyirik.

– "Mənim partbiletim" yadında qalıbsa...

– "Ay keçmiş cəbhəçi!".

Başqalarını deyə bilmərəm, ancaq, mənim aləmimdə bu sifarişlər və ya xahişlər şairin-sənətkarın mükafatıdır – oxucudan, dinləyicidən aldığı əsil mükafat! Ağıllı, səviyyəli, incə zövqlü, müasir duyğulu oxucu hansı şəraitdə olur-olsun, hər gəlişi gözəl sözə əl çalmaz, ucuz alqışlardan başı dumanlanan qafiyəpərdazı, zorla, vəzifəylə şair olmaq istəyənləri yaxşı tanıyır.

Qalın-qalın kitablar,
Hələ sənət deyildir.
Ucuz alqış səsləri
Əbədiyyət deyildir.
Deyimmi ki, ilhamı
Vəzifəylə almazsan.
Zorla Allah olarsan,
Zorla şair olmazsan.

("Zorla şair olmazsan" şe`rindən)

"Qızıl sətirlər üçün gümüşləşən saçların" nə demək olduğunu dərk edən, yaradıcılıq əzabının daşyonan və poladəri-

dən zəhmətindən heç də az olmadığını hərarət və səmimiyyətlə iddia edən şair Tofiq Bayram, bu fikir və e`tiqadına "İnamım, əqidəm" kitabına cəm etdiyi bir sıra şe`rlərlə, necə deyərlər, canlı nümunə göstərir. Mövzuya qalsa burada elə bir eşidilməmiş, ümumiyyətlə toxunulmamış, fövqəl`adə mövzu yoxdur. Vətənə, xalqa sədaqət, Azərbaycan torpağının, adlı-sanlı sənətkarlarımızın vəsfi Tofiq misralarının əhatə dairəsidir. Gənclik eşqi, ailə məhəbbəti, insan vüqarı, vətəndaşlıq vicdanı, hər şeyə – işıqlı dünyamıza, xoşbəxt, zəhmətkeş adamlarımıza qarayaxanların, qorxaq, yaltaq və ikiüzlülərin ifşası və sairə "İnamım, əqidəm"in əsas mövzusunu təşkil edir.

Tofiq Bayramın şair kimi orijinallığı orasındadır ki, o, toxunduğu hər bir məsələnin bədii həlli üçün balaca-balaca kəşflər edir, özünün ifadə tərzini tapır, misralarını öz təravətli nəfəsilə isidir. "Balaca-balaca" sözünü təsadüfi işlətmirəm. Doğrudan da hər bir sənət əsərində, o cümlədən lap bircə beytdə kəşf olmadı, onda heç. Elə buna görə də bə`zən ömründə bir şe`r yazmış, bədahətən bir beyt demiş şəxslərin adı, xalis müdrik kəlamı dillərdə gəzir. Hələ müntəzəm yazıb-yaradanları, taleyini bu fədakarlığa həsr edənləri demirəm. Heç bir sözaltı, sözüstü mə`na yozumuna, üç nöqtəyə ehtiyacı olmayan, şair qəlbindən camaat qəlbinə birbaşa nüfuz edən "Valokardin", "Gərək elə yanım", "Ay keçmiş cəbhəçi", "Mənim partbiletim", "Sən niyə doğulmusan" şe`rləri məhz şairin həmin yuxarıda dediyim "balaca-balaca" kəşfləridir. "Valokardin" və "Bala, dərdin" sözləri sadəcə olaraq bədii, müqəyyəd, yaraşıqlı qafiyələr deyil. Xeyr! Açardır, mövzunun açarıdır. Şairin kəşfi buradan başlanır. Bəlkə də heç şe`r meydanda yox ikən, təəssürat və sonluq aydın olmamışdan xeyli əvvəl "Valokardin" və "Bala, dərdin" qafiyələri şairin dilində, xəyalında hey dolanırdı. Cavan oğlunun ürək ağrılarından təşvişə düşmüş sadəlövh ananın həyəcanları:

Qurban olum, at bir yolluq
O zəhrimar papirosu.
Qurban olum, o masanın
Üstündəki yazı-pozu
Qoy yarımçıq qalır qalsın.

Lakin ana bilmir ki, təsəvvürünə gətirmir ki, oğlunun ürək ağrılarına səbəb bu deyil.

O nə bilsin ürəyimi
Nə ağrıdır, nə göynədir.
Sevincimdən xəbəri var,
Xəbəri yox dərdim nədir.

“Dərdim nədir?” sualına cavab verən məntiq və bədii tə`sir gücünə malik yanıqlı e`tirafdan inanırıq ki, hər cür ruhi həyəcanlara, əzab-əziyyətə, “ata silləsinə”, “dostun söz gülləsinə” dözə bilən şair ürəyi, vətəndaş ürəyi valokardinə möhtac deyil. Onsuz da:

Bir ürək ki, əzab çəkmir,
Ürək deyil, ürək deyil.

Ürəyi tabdan, vurğudan, ahəngdən salan bəs nədir? Bütün dövrlərdə, bütün bəşəriyyətə dərd olan və xüsusən bizim işıqlı dünyamızın qurub-yaradan cəsur adamlarına yaraşmayan simasızlıq! Bilə-bilə özünü ikiləyənlər, həm “diplomat”, həm sənətkar olanlar, hiyləni, riyanı görə-görə susanlar, diliylə ürəyinin arasına sədd çəkənlərdir ürək ağrısına səbəb!

Öz cəzamdır!
Bu ağrıya,
Bu əzaba gərək düşəm.

Mən dilimlə ürəyimin
Arasına sədd çəkmişəm.

Şairin öz-özünə və anasına dediyi bu sözlər çox geniş, bədii ümumiləşmə qüvvəsi kəsb edir:

Hər ürəyim ağrıyanda
Demə nədir, bala, dərdin.
Valokardin gətir, ana, valokardin!

Sağlam mövqedən, yanar qəlbilə yazılmış bu şe`r ibrətamizdir, tərbiyəvidir, hər cür ölü, quru didaktikadan uzaqdır, emosionaldır. Ümumiyyətlə, şair üçün xoşbəxtlik sayılan emosiya, təbii coşğunluq Tofiq Bayramın şe`rlərini həmişə müşayiət edir.

Kitabdakı yaxşılı-zəifli bütün şe`rlərdən ayrı-ayrı danışmaq, onları tək-tək təhlil etmək nə mümkündür, nə də lazımdır. Yalnız müəyyən mülahizələrlə əlaqədar olaraq bə`zi şe`rlərə müraciət etmək istərdim.

Mə`lumdur ki, qələm sahibləri, söz ustaları sərrast fikir ifadə etmək, tə`sirli lövhə yaratmaq, yaddaqalan, canlı, əlvan təsvir vermək məqsədilə bədii təzaddan istifadə edirlər və ya onu sadəcə olaraq yaradırlar. Təzadı "işıq", "qaranlıq" kəlmələrini qarşılaşdırmaq kimi başa düşənlər də var, daha geniş mə`nada düşünənlər də... Şair od tutub yanır, ağlasığmaz, insanı eybəcərləşdirən, dünənin şərəfli bir ömür yoluna bu gün gözgörəsi şərəfsizlik gətirən bir təzada üsyan edir:

Sən ona yaralı köksünü göstər,
Görsün kimdir layiq ada, şöhrətə.
Səngərə şir kimi atılan əsgər,
Quzutək girirsən bu kabinetə.
Ən böyük rəisin, komandanın da,
Adını böyüdən əməldir, işdir.

Əsgəri iltizam böyük yanında
Sənə kiçilməkçün verilməmişdir.
(“Ay keçmiş cəbhəçi” şe`rindən)

“Dünən qoruduğumuz dövləti-varı bu gün yağlı quyruq kimi ötürənlərə, kiməsə dişi ilişdiyindən qanunu pozanlara mat-mat baxan“ dost – keçmiş cəbhəçi cəmiyyətimizin, həyatımızın inkişafına mane olan təzaddır.

İllərdən bəri oxuyub öyrəndiklərimdən və az-çox öz qələm təcrübəmdən bir şeyi bilirəm ki, şe`ri şe`r edən, hətta onun vəzninə də, qafiyəsinə də, dilinə də rövnəq verən mətləbdir. Mətləb – özü də aydın, böyük, ictimai rezonansa malik mətləb olmadı, nə sujet, nə qeyri süjet, nə vəzn nə qeyri-vəzn köməyə gəlməyəcək. Bu sınaqdan çıxmış mə`lum həqiqətdir. Ruhu və qafiyəsi e`tibarı ilə “Valokardin”in və “Ay keçmiş cəbhəçi”nin davamı olan (təkrarı yox!) “Gərək elə yanım” şe`ri bir növ ritorikdir. Lakin bu “ritorika”dan bənd qoparmağa, hansı parçanısa ixtisar etməyə əl gəlmir. “Böyük-kiçik tanımaq”, “yersiz coşmağın xeyirsiz olduğunu sübut etmək”, “guya dosta qayğıkeşlik pərdəsi altında gəncliyi, müstəqilliyi, vüqar və cəsarəti, yaradıcılıq təxəyyülünü boğmağa, müt`iləşməyə cəhd edən bir iblis məkrli adama bu bədii ittiham ürəkdən tikan çıxaran əsil şe`rdir:

İblis məhəbbətin özünə qalsın,
Mən sənə bənzəsəm min günah olar.
Yaltaq istəyər ki, sayı çoxalsın,
Pələngsiz meşədə tülkü şah olar.

Kitabda “Çadra” adlı bir süjetli şe`r var. Sənətkarlıq cəhətdən mən onu yuxarıdakı odlu-alovlu şe`rdən heç də əskik hesab etmirəm. Böyük sənətkar Cəfər Cabbarlının qadın azadlığı idealı doğma Azərbaycanımızda çoxdan həqiqətə

çevrilmişdir. Tofiq Bayram bu məsələni novellik şəkildə təsvir edir. Kənd səhnəsində "Sevil" göstərilir. Sevil başından çadranı deyil, adi örpəyi açıb atır.

Axı belə yazmayıbdır böyük sənətkar,
Sevil örpək örtməyibdir yaranışından.

Rejissorun iftixar hissilə verdiyi cavabdan mə`lum olur ki, hətta səhnədə istifadə üçün belə, kənddə çadra tapılmayıb.

Ümumiyyətlə, Tofiqin yaradıcılığında ictimai motiv, böyük insanpərvərlik duyğularının tərənnümü güclüdür. Sevgi sətirləri bölməsində toplanan şe`rlər içərisində "Qadın ürəyi" gözəl bir şe`r incisi kimi parlayır. (Təəssüf ki, o birilər həmin parlaqlığın nisbətində sönük, tə`siriz görünür). Baxın, bu şe`rin də mövzusu, məzmunu təzə deyil. Kim qadın azadlığına, qadın, ana, ömür-həyat yoldaşının müqəddəs ləyaqətinə əsər həsr etməyib? Bəs Tofiq Bayramın orijinallığı nədədir? Burada şair dünyasının izah edilməz sirləri pıçıldayır ki, şe`rin özünə müraciət elə, vəssalam:

Bir namərd əlindən zəhər içəndə,
Keçirər ömrünü o yas içində.
Bə`zən ən qiymətli libas içində
Nalədir, fəğandır qadın ürəyi.
Ömrə zinət verən, səadət quran,
Kişi ürəyini nurla dolduran,
İsməti bir nəsli göyə qaldıran,
Eşqə hökmrandır qadın ürəyi.

Mövzuya bu günün tələblərilə yanaşmaq, quru, ümumi şüarçılığı qəbul etməmək, idealımızı gündəlik işimizdə, biri-birimizə münasibətdə, əxlaq və həyat tərzimizdə, yüksək şüurumuzda, Vətən və xalq qarşısındakı xidmətlərimizdə

görmək, duymaq, bədii təfəkkür süzgəcindən keçirmək fəhmi Tofiqin ictimai-siyasi lirikasını oxuculara sevdirir.

Kitabda həcmcə nisbətən iri, necə deyərlər, gözünə yumor qatılmış "Dağlar və şairlər" adlı maraqlı bir şe`r var! Şe`rin, sənətin sirlərindən xəbərsiz adamlar, canlı, əlvan həyatımızdan uzaq kəslər, yeknəsək qoşmaçılar, beş-altı qafiyəni, rədifi yerli-yersiz elə hey çeynəyənlər bu şe`rdə çox haqlı olaraq tənqid edilir. Lakin bu mövzudan bəhs açan bozumtul qoşmaçılıq axınına sinə gərən şair görək öz kitabına "Dağlar" adlı zəif, məhz qoşmaçı qoşmasını daxil etməyəydi.

Qoynuna güllərdən xalı düzülmüş,
Yaşılı düzülmüş, alı düzülmüş.

"Dağlar və şairlər" şe`rindəki fikir "Gəlin açıq danışaq" sərlövhəli şe`rdə daha kəskin qoyulur. Söhbət burada ədəbiyyatımızın, şe`rimizin taleyindən gedir. Söhbət ondan gedir ki... "Nə üçün Moskvada – dünyanın mərkəzində":

Rustaveliylə birgə,
Nizami ucalmasın?

Bir tərəfdən də şairlə bəhsə girib oxucu şairləşir, bəli, bu təhlükədir:

Şe`r xurcunla gəlir,
Şe`r zənbillə gəlir,
Redaktorun yanına
Hərə bir dillə gəlir.

Lakin "Qızıla tutulmalı şairlərimiz" var. Bəs nəyimiz çatmır:

Vətəndaş ürəyimiz,
Qayğıkeş ürəyimiz.

Bir qədər sərt, həyəcanlı səslənən, təşviş doğuran bu sətirlərdə şe`rimizin ancaq və ancaq daha uğurlu gələcəyi arzu edilir. Bu ədəbiyyatımızın taleyini düşünənlərin, onu yaradanların ürəyindədir.

"Türk müğənnisi Sevda Aydana", "Gözəllik aşiqi" (Səttar Bəhlulzadəyə ithaf edilib), "Azərbaycan dünya gəzir" (Niyaziyə ithaf edilib), "Sən özünü düşünürsən", "Şair haqqında düşüncələr" (uzunluğunu qeyd etmək şərtilə), xüsusilə "Sən niyə doğulmusan" şe`rləri "İnamım, əqidəm" kitabının bədii dəyərini artıran əsərlərdir. "Cavanşirin nəğmələri" başlığı altında gedən şe`rlər ("Günəş yatır dənizdə" şe`ri istisna edilərsə), bə`zi tə`sirli bəndlərinə baxmayaraq "Təbrik çiçəkləri" poeması müəllifin sənətkarlıq səviyyəsindən aşağıdır. Şe`rlərin dilində cüz`i dil-ifadə xətalarına, tək-tük yerinə düşməyən sözlərə, təşbehlərə təsadüf edilir ki, bunların tənqidini müəllifin öz ixtiyarına buraxmaq da olar. Mən istəməzdim ki, Tofiq bu dəyərli kitabına yaxşı-yamanlığından asılı olmayaraq hər hansı tərcümə daxil etsin. Əvvəla, tez-tez belə kitab nəşr etdirmək bizlərçün çətin məsələdir, buna görə də hər səhifədən səmərəli istifadə etmək lazımdır. İkincisi isə oxucuya indi Tofiq Bayramın orijinal şe`rlərilə tanışlıq daha vacibdir. Tərcüməçilik isə sonranın işidir.

İnamsız nə ürək, inamsız nə səs,
İnam ürəyimdə dəniz olmalı.
Kim isə mənimçün ülvi, müqəddəs,
Dünyada hamıdan təmiz olmalı.

("İnamım, əqidəm" şe`rindən)

Qoy ilhamlı şairimiz Tofiq Bayramı yaradıcılıq yollarında inam, əqidə, müqəddəs ideal heç vaxt tərk etməsin.

**1970**

# ŞAİR VÜSƏTİ

Bilirsən nədədir sənin şərəfin?
Zəhmət çılğınlığın, söz atəşində!
Bilirsən nədədir sənin şərəfin,
Bütün düşmənlərə düz atəşində!

Həmən misralar mənim əziz dostum, şe`r-sənət aşiqlərinin qəlbində layiqli yeri olan bənzərsiz şairimiz Xəlil Rzaya həsr etdiyim şe`rdəndir.

Klassikləri demirəm, gözəl şairlərimiz olub, var, həmişə də olacaq. Hüseyn Arif demişkən "necə ki, həyat var, şe`r də vardır".

Lakin, Xəlil Rza xasiyyətindəki, ovqatındakı, zəhmətindəki, ilhamındakı çılğınlıq onu başqa, lap layiqli, lap qiymətli qələm yoldaşlarından fərqləndirir.

Çılğınlıq amalın, məslək və məqsədin, ağıl və iradənin qaynaqlarından, mənbəyindən gəlirsə – çox şərəfli mə`nəvi keyfiyyətdir və məhz bu – Xəlil Rza poeziyasının, onun hətta tədqiqatçılıq, tərcüməçilik fəaliyyətinin bariz cəhəti, aparıcı qüvvəsi kimi həm oxucular, həm ədəbi ictimaiyyət tərəfindən təsdiq edilib, edilməkdədir.

Çılğınlıq özünə inam, zəhmətə vurğunluqdur. O, ritorika, hay-küy, hündür yerdən dığırlanan boş çəllək danqıltısı deyil. Dağ çayıdır, şəlalədir.

İlham namərdlik edib üz döndərəndə məndən,
Mən ayrıla bilmirəm yenə inan ki, səndən.

Kürsülərə sığmayan cəsur şe`rim, ər şe`rim!
Təpədən-dırnağacan silahlı əsgər şe`rim!

Şəxsən mən, ədəbi mühitimizin meydanında, mübaliğəsiz, hər an fəaliyyətdə olan, ilhamın nazıyla oynamadan, qəzetə, jurnala bir şe`r, məqalə, tərcümə verib əlləri qoynunda, oturub onun çapını gözləməyən bu ədəbi şəxsiyyətə həmişə qibtə etmişəm. Ona bu qibtəmi bildirəndə isə təvazələ deyib və deyir:

– Yox, igid! ("igid" sözünü o tez-tez işlədir) Mən elə hər nə gəldi yazıram, yaza bilməyəndə köhnə şe`rlərimi tə`mir edirəm, qarmağıma nə ilişdi dənizdən çəkib çıxarıram. Sən isə ancaq qızıl balıq gözləyirsən.

Xəlil Rzanın insaniyyəti, səmimiyyəti, kiçik qardaşlıq ləyaqəti, münasibəti, sözün böyük mə`nasında qulluqda durmağı siz deməyin məni çaşdırmışdı. Sən demə bu gün əlli yaşı tamam olan Xəlil bəy (mən ona həmişə belə müraciət edirəm və xahiş edirəm redaksiya bu sözə toxunmasın) cəmicümlətanı məndən yeddi yaş kiçik imiş. Yox, bu "elə bilirdim ki"nin daha uzaq bir şahidliklə bağlı səbəbi də var. 1948-ci il idi. Xalq yazıçımız, Sosialist Əməyi Qəhrəmanı Mirzə İbrahimovun təşkil və rəhbərlik etdiyi məşhur "Gənclər günü"nün növbəti məşğələlərinin birində gördüm ki, mərhum şairimiz Əliağa Kürçaylının yanında bir oğlan var – od parçası kimi. O, Xəlil idi, Xəlil Xəlilov, Səlyandan gəlmişdi. Bəlkə də uzaqlarda qalan Xəlil Xəlilovun canlı şəkli qoymur ki, Xəlil Rzanı əllini haqlamış hesab edim.

Bəri başdan deyim, sonra yadımdan çıxar. Bu sətirlərin müəllifi söhbət açdığı şəxs barədə heç bir mübaliğəyə, şişirtməyə yol vermir, əlli yaşın kövrək məqamı xətrinə baş sığallamır – buna qətiyyən ehtiyac yoxdur.

Xəlildə həm insan kimi, həm şair kimi tanıdığım uzun illərdən bəri istər onun yazısında, istər məişətində, istər adam-

larla adicə münasibətində, yolda, səfərdə, müzakirələrdə, ikilikdə, böyük məclislərdə heç vaxt, heç bir xırdalıq, sısqalıq, dargözlük görməmişəm. Çünki onun mə`nəvi dünyası bir xalq mahnısında deyildiyitək gecə yağan qar kimidir – saf, təmiz, ləkəsiz.

Nə gülləm, nə tüfəngim var, mən xoşbaxtam,
Nə rütbəm, nə çələngim var, mən xoşbaxtam.
Heç bir zaman nifrətimi qısmamışam,
Heç bir kəsin qarşısında susmamışam.
Nə kurortda dincəlirəm, nə həyatda,
Sal qayalar balıncımdır başım altda.

Mən-Mən deməyin üstündə Xəlili danlayanlar olub, vaxtilə mən də... Bu barədə bir redaksiya və yaxud nəşriyyat işçisinin dilindən şair özü deyir:

Hansı şe`rə baxıram, elə “mən”, “mən” deyirsən.
Vallah, qardaş, elə sən öz içini yeyirsən.
İnsaf da yaxşı şeydir, axı el var, elat var,
Xalqı atıb nə qədər özündən demək olar?!

Elə bu “mən” məhz özündən demək, xudbinlik “mən”i yox, xalqın “mən”idir, ümumiləşdirmə vasitəsidir, qlobal təfəkkürün qanadlanma nöqtəsidir. Uzağa getməyək, bircə misal: Eduardtes Mejelaytisin “mən”i kimi. Görəsən ona da deyən olub ki, “adam nə qədər “mən, mən” deyər?” İnanmıram!

Dağları çiynimdə daşıyıram mən,
Nə çiynim əyilər, nə belim sınar.
Ancaq, bircə yalan çıxsa dilimdən,
Dilim kabab olar, sümüyüm yanar.

İrili-xırdalı bütün əsərlərində, bütün ədəbi fəaliyyətində fəal həyat mövqeyində durmaq, bu gün baş verən bütün əhvalatlara, həyata, xüsusən gəncliyə – onun işinə-gücünə, əxlaqına, mə`nəvi təkamülünə və geriliyinə, zövqünə, hissiyyatına müdaxilə və münasibət Xəlil Rza üçün aparıcı qüvvədir, proqramdır.

– Məni işə düzəldin – deyir bir tanış cavan.
Ancaq, bir az yaxşı iş, donluğu çox, yükü az.
Gözlərinin içinə baxdım, dedim astadan,
– Neftçilər arasında sən deyən iş tapılmaz.

Yubiley münasibətilə deyilən fikirləri, yazılan yazıları bə`ziləri əldə piyalə, deyilən sağlıqlara oxşadırlar. Lap yaxşı eləyirlər, lap əcəb eləyirlər ki, oxşadırlar. Mən də sağlıq deyirəm. Lakin, bu saat – bu dəm əlimdə piyalə yox, möhtərəm şairimizin kitablarıdır. Bu kitablardan gətirdiyim nümunələr nisbidir. Yə`ni bu sətirlərin əvəzinə bəlkə də daha qüvvətli, daha tutarlı sətirlər, misallar gətirə bilərdim. Lakin, sitat ümumiyyətlə, daha doğrusu, xüsusiyyətlə şairin qüdrətini təsdiq üçün yox, oxucunu izə salmaq, istiqamətləndirmək üçündür.

Yaradıcılıq ilkin ürəkdən su içir. Bu mənim köhnə, möhkəm, qət`i qənaətimdir. Xəlil Rza fitrətən, sözün hərfi mə`nasında gözü-könlü tox, qəlbi geniş adamları sevindirmək, ruhlandırmaq eşqiylə çırpınır, istər həyatda, istər sənətdə.

Mənim günəş qəlbim öz kürəsində
Əridib nə qədər dərdi, qubarı.
Qarşıma o qədər yaxşılıq çıxıb,
Puç edib gördüyüm yamanlıqları.

Hər qış Bakıya qar düşəndə mən Xəlilə zəng çalır, onu az qala beş ildə bir yağan qar sevincimə, bəyaz uşaq sevincimə şərik olmağa çağırardım və çağıracağam. Yenə qar yağmışdı... yenə çovğun idi, yenə çəpəki, qupquru saçma kimi qar ələnirdi... yenə Xəlilgilə zəng çaldım... dedilər ki, evdə yoxdur, gedib çimərliyə... ("çimərlik" sözü dilimizdə Xəlil Rzadan yadigardır). Təsəvvür edirsinizmi... belə hava! Çimərlik!

Axşam qaranlıq düşəndə qapımız döyüldü. Xəlil bəy idi gələn. Üz-gözü şaxtadan od tutub yanan, çovğun nəfəsli, qar şəfəqli, saçları buz ərintiləriylə, qar ulduzlarla bərq vuran şair qardaşım! Onun qələm çalan, quyu qazan, bağ belləyən sərt, həm də isti və yumşaq ovcunda bir quş cikkildəyir, bir quş çırpınırdı...

– Salam, Qabilimiz, hanı Mahir? (Bu gün ali məktəbə gedən oğlumun o nurlu şəfəqli qış axşamında beş yaşı vardı). Mən bu quşcuğazı tufanın, çovğunun, dalğaların əlindən xilas etdim və Mahirə bəxşiş gətirdim.

Bu, şairin həyat eşqi, könül sevindirmək ehtirası idi və ehtirasıdır, poetik aləminin quş kimi kiçicik, çırpıntılı bir detalıdır, əlamətidir.

Yüz yol eşitmisən, bir də qulaq as,
İnsanı yaşadan ürək odudur.
Kimin ki, qanında coşmur ehtiras,
Onun öz bədəni öz tabutudur.

Xəlil Rza qəlbi saf, geniş, sadə, səmimi, daima düşünən, axtaran, şe`rimizin, filologiyamızın mühüm problemləri barədə düşünən, haqlı qüruru, toxunulmaz ləyaqəti tərənnüm edən, əyani, inandırıcı təşbeh, metafora və boyalarla tərənnüm edən şairdir. Prinsipial, əsaslı məsələlərdə güzəştə getməyən, paxılları, dargözləri, xəbisləri, qorxaqları, vəzifəpərəstləri,

şöhrət ölülərini yadda qalan orijinal bədii ifadə vasitələriylə ifşa edən, odlu-alovlu şairdir.

Sən kimsən? Qafiyə – vəzn köləsi –
Qəlbində xalqının qanı axmasa,
Min-min dərd odunun barı, bircəsi
Səni yandırmasa, səni yaxmasa.

Xəlil Rzanın bədii təxəyyülündə, düşüncə tərzində, müqayisələrində, mübaliğələrində və kiçiltmələrində, təşbeh, bənzətmə, istiarə, anafora (cavabı mə`lum sual) və sair bədii ifadə vasitələrində – obrazlar sistemində qloballıq, kosmik genişlik, ənginlik var. Bu təsadüfi deyil, oturub baş sındırmaqla deyil. Bu mətləbdən, məzmundan, tərənnüm və təsvir obyektindən, ilhamın gur, köpüklü, ahəngdar axarından, şairin poetik vüs`ətindən irəli gəlir.

Söz kürsüsü ya Savalan, ya da Şahdağ,
Mən çağırdım yüz-yüz, min-min sütül gənci
Elbrusdan uca duran bir amala.

Xəlil Rza müasirlərimizi, gəncliyi mə`nəvi kamilliyə, mütəşəkkilliyə səfərbər edən nəğməkarımızdır. Onun odlu, alovlu, rəvan, axıcı poeziyası oxucunu mə`nəvi saflığa, ayıq-sayıq olmağa, qeyrət və əzm, hünər və zəhmət meydanına çağırır, qorxaqlara, yaltaqlara, milli şüursuzlara, qınına çəkilənlərə nifrət, amansızlıq təlqin edir, onu da təlqin edir ki, təmizliyin, məhəbbətin, ləyaqətin sehriylə pisləri, yamanları da yaxşı etmək olar.

Uzaq və yaxın keçmişimiz, inqilabımız, bu günümüz, fəhlə və kəndli həyatı, beynəlxalq aləm, dünyanın dərdi-səri, uzaq uşaqlıq xatirələri, büllur kimi məhəbbət silsiləsi, Göygöl,

Xəzər, Mil, Muğan, Abşeron, şairin dilindən düşməyən Türkan, Zaqatala, Masallı, Naxçıvan, Dəlidağ – təbiət, təbiət! Təxminən Xəlil Rza şe`rinin mövzular siyahısı belədir.

Lakin, onun bir baş mövzusu, bir leytmotivi, bir təkriri, bir nəqarəti var ki, bu da Vətəndir, Vətən eşqidir, vətəndaşlıqdır! Hansı şair iste`dadının dərəcəsindən asılı olub-olmayaraq Vətəni tərənnüm etməyib?! Hamı!

Ancaq, Xəlilin Vətən məhəbbəti, Vətən təsəvvürü daha çoşğun – daha genişdir. Xəlil Rza üçün Vətən hər şeyin başlanğıcı, hər ucalığın zirvəsi, əridilib, döyülüb, bərkiyib mətinləşən iradə, qeyrət sınağı, bütün mö`cüzələrin ən real, yeganə, e`tibarlı dayaq nöqtəsidir. Bu Vətən xətti, qırılmaz qırmızı şərid, şairin müxtəlif, əlvan mövzulu əsərlərini üzvi şəkildə biri-birinə bağlayır. Mənə elə gəlir ki, şairin Vətəndən ayrı, Vətənsiz çırpınan bir misrası belə yoxdur.

Vətəndaşlıq ləyaqəti, məs`uliyyəti – bir qarışqa yuvasının dağıdılmamasından, bir kirpinin tələf olmamasından tutmuş qadın hesabına yaşayan kişilərin xəcalət yükünü çəkməyədək – müasir imperializmin, neofaşizmin bəşəriyyətin başı üstündə qara buluda, təhlükəyə çevrilməsinədək – hər şey Xəlil Rzanın qəlbinin nüfuz dairəsində, cazibə zonasında, müşahidəçi şair gözlərinin yayınmaz diqqətindədir. Xəlil Rza üçün Vətən yalnız və yalnız Azərbaycanın coğrafi hüdudlarından ibarət deyil. Gözü yaşlı, dili dustaq Təbriz, me`marlar yuvası, mö`cüzəli, iki min yaşlı Səmərqənd, Musa Cəlil yurdu qədim Qazan – bütün vətənimizdir şairin Vətəni. Özbəkistan şe`rindən:

Öz balanam, ana yurdun o başında doğulmuşam.
Dənizlərdən, dənizlərə qanad gərən qızıl quşam.
İldırımı ötüb keçən sür`ətinə vurulmuşam,
Torpağına Ceyhun kimi, Seyhun kimi sarılmışam.

Xəlil deyir ki, mən redaktorlardan, naşirlərdən həm razıyam, həm narazıyam. Razıyam ona görə ki, onlar məni imkanları daxilində çap edirlər, şikayətlənə bilmərəm, müəllif tək mən deyiləm ki... Narazıyam ona görə ki, yox, deyəsən narazılığımın naşirlərə, redaksiyalara heç dəxli yoxdur. Onlar neyləsinlər ki, mən çox işləyirəm, çox yazıram, onlar neyləsinlər ki, mən aysberqəm, çoxum sudadır, azım görünür. Bu sözlərdə nə lovğalıq, təkəbbür, nə yalançı təvazö var. Şe`rimizin əli qabarlı şairinin məhsuldarlığı, istər-istəməz çap orqanlarına tez-tez müraciət etməsi təbiidir.

Xəlil Rza fərdi yaradıcılıq çərçivəsinə sığmır, o, demək olar ki, bütün qardaş xalqlar poeziyasına müraciət edir. Hər cəhətdən öz ruhuna, stil və üslubuna, poetik qayə və qənaətinə uyar nümunələri böyük həvəs və məs`uliyyətlə dilimizə tərcümə edir, ədəbiyyatlarımız arasında bilavasitə canlı körpü yaradır. Musa Cəlilin "Moabit dəftəri", İlya Selvinskinin mənzum "Babək" pyesi, Robert Rojdestvenskinin "XX əsrə məktub" poeması, Şevçenko, Puşkin, Şəhriyar, Lermontov, İvan Franko, Lesya Ukrainka, necə deyərlər, tatar şe`rinin Sabiri Abdulla Tukay, Qafur Qulam, Maqsud Şeyxzadə, Yevtuşenko, M.Rılski və onlarca başqalarının söz incisi, söz sərvəti Xəlil Rzanın tərcüməsində söz, fikir, bədii təfəkkür xəzinəmizi xeyli zənginləşdirib. Üstündə "Özbək şairləri", "Tatar şairləri", "Fars-tacik poeziyası" və sair... və sair... yazılmış qalaq-qalaq qovluqlar şairin evdə Babək qalasına bənzətdiyi yazı stolunun üstündə növbə gözləyir. Nizamidən, Şəhriyardan orijinaldan tərcümələr! Bəli, sevdiyi sənətkarların əsərlərindən tərcümə etmək üçün Xəlil, onların (əsərlərin) yarandığı dilləri öyrənməyi qarşısına məqsəd qoyub və iradəli şagird-tələbə inadıyla buna nail olur, orijinaldan tərcümə edir. Şairin tərcümələri sətrilikdən, lüğətçilikdən (orijinaldan uzaqlaşmamaq şərtiylə) uzaqdır, ana

dilimizdə rəvan, təbii səslənir, öz şe`rləri kimi hərarərtlidir, səmimidir. Burada bir şeyi qeyd etməyi vacib hesab edirəm, daha doğrusu, iki şeyi: könüllülüyü, təmənnasızlığı!

Yanılıramsa, Xəlil Rzanın xasiyyətinə, ümumi əhval-ruhiyyəsinə, həyata, insanlara münasibətinə, sənətkar idealına bələd olan oxucular, ədəbi mühit və ictimaiyyət onun bu sözlərini təsdiq edər:

Dənizə, bahara, Günəşə bənzə!
Heç kəsdən mükafat umma, könül, sən.
Sənin öz varlığın mükafatındır,
Əgər dəniz kimi yaşaya bilsən,
Əgər bahar kimi yaşaya bilsən,
Əgər Günəş kimi yaşaya bilsən!

Bəli, sənətkarın gözü-könlü tox, mə`nəvi aləmi dopdolu olanda, tə`rif umacağına, təltif intizarına lüzum qalmır. Ürək telləri daha tə`sirli, daha ahəngdar səslənir, qəlbin çeşməsi daha rəvan çağlayır. Şair öz şe`riylə xalqının başına pərvanə kimi dönüb-dolanmaqdan, lap oda tutulmaqdan, yanıb kül olmaqdan usanmır.

Təmizlik təmənnasızlığın güzgüsüdür. Xəlil Rzanın bəlkə də çoxlarının diqqətini cəlb etməyən “Hüsnxət dəftəri” adlı bir şe`ri var. Söhbət təmizlikdən, saflıqdan gedir. Şagird dəftərinin, bu dəftərdə ilk nurlu xətt salan, ilk şəfəqli yol açan, dəftər milləri arasında “lalə sifət beşlərə” qanadlanan uşaq qüdsiyyətinin vəsfi.

Göylərə bənzər bu cocuq dəftəri,
Bəlkə şüadır uzanan milləri,
Hüsnünə bax, dəftərinin hüsnünə,
Günmü doğur dan yerinin üstünə.

Müəllimimiz deyərdi ki, uşaqlar, kimin xətti necədir, ürəyi də, dərsə, işə, tapşırığa həvəsi də elədir, xətt ürəkdən başlanır...

Xəlil Rzanın poemaları üslub, ruh və poetik vüs`ət e`tibarilə şe`rlərinin davamıdır, başqa variantıdır, onlarda hadisəçiliyi, süjetçiliyi ricətlər, xitablar, bədii ümumiləşdirmələr, Vətən torpağının, Azərbaycan təbiətinin insan ovqatı, düşüncəsi təxəyyülü fonunda geniş, əlvan təsvirləri əvəz edir. Bütün yaradıcılığında hadisələrə cavabdehlik və məs`uliyyət hissi bəsləyən, gül yarpağı kimi zərif, antipodların, simasız və bayağıların başında şimşəyə dönən vətəndaş şair Xəlil Rzanın sağlam bədii mövqeyi göz qabağındadır.

Nikbinlik, həyat eşqi, xalqa, Vətənə, humanizmə arxalanıb dəlibaş müqavimətləri işıqlı baş, sağlam düşüncə, sarsılmaz iradə, ilham və əməksevərliklə qırmaq, sün`i sədləri, maneələri bitməz-tükənməz enerji, yaradıcılıq əzabları və sevincləriylə qırmaq qüdrəti şairin qibtə ediləsi xoşbəxtliyi deyilmi?!

İlhamımı daş-dırnaqla qorumuşam güvələrdən,
Zövq almışam içərimdə dənizləşən qüvvələrdən.
Poladdırsa bu gün alnım – bərkdən çıxıb, boşdan çıxıb,
Şairliyin hər çınqısı mənim üçün daşdan çıxıb.

Xəlil özü demişkən, ilham ləngiyəndə, boş vaxtlarında uzun illərdən bəridir ki, gündəlik yazır. Bu gün iki yüz cildə çatan bu gündəliklərə mən belə ad verərdim: “Hadisələr, insanlar, görüşlər”. İndi şairin kitabları, qovluqları arasında cürbəcür mətbu-qeyri-mətbu əl yazıları içində uyuyan: cildxanada cildlənmiş bu gündəliklər vaxtı çatanda oyanacaq, dillənəcək, əvəzsiz canlı bir şahid kimi çox şeydən söhbət açacaq.

Xəlil Rza çoxdan filoloji elmlər namizədidir. Baş qoşmadığı üçün, məxsusi vaxt ayırmadığı üçün doktorluq müdafiəsi bu qədər yubanıb. Məhz yubanıb, yoxsa işi çoxdan hazırdır.

O deyir ki, elə bu iş mənim üçün ayrıca, elmi dərəcə naminə təcrid edilmiş bir məsələ yox, ümumi fəaliyyətimin, axtarışlarımın bir yarpağıdır. Bu "yarpaq" isə gərgin elmi axtarış və tədqiqatın, nəzəri və təcrübi vəhdətin məhsulu olan çoxsəhifəlik "Maqsud Şeyxzadənin yaradıcılığı və Azərbaycan-Özbək ədəbi əlaqələri" adlı sanballı monoqrafiyadır.

Dünya şöhrətli Sovet yazıçısı Çingiz Aytmatov "Azərbaycan gəncləri" qəzetində bizim Bəxtiyar Vahabzadə haqqında çap etdirdiyi Essedə deyir ki, klassikləri həmişə keçmişdə axtarmaq lazım deyil... Əlbəttə , bu gün nə Bəxtiyar klassikdir, nə də Xəlil Rza. Bu qiymətli, düşündürücü fikrin, mülahizənin, qənaətin canı bundan ibarətdir ki, biz öz ətrafımıza yaxşı-yaxşı diqqətlə baxmalıyıq. Gözümüzdə adiləşən, hər gün və ya tez-tez görüşdüyümüz, söhbət etdiyimiz, yanaşı addımladığımız, yeyib-içdiyimiz, mübahisəyə girişdiyimiz, küsüb-barışdığımız sənət adamlarımızı, qələm dostlarımızı kəşf etməliyik! Adilik, təmas, yaxınlıq gözümüzdə pərdəyə çevrilib, münasibətimizdə saymamazlığa çevrilib, iste`dadı görüb qiymətləndirməkdə bizə mane olmamalıdır. Budur Aytmatovun sözünün cövhəri!

Qədim, əzəmətli binaların girəcəyində qüvvətli, əzələləri gərilmiş, enli qurşaqlı, donuq, daş gözləri nüfuzedici, beli sanki ağırlıq altında bükülmüş azman atlant heykəllər durur. Elə bil onlar çiyinlərini tərpətsələr, sütunlar yerindən oynar, bina uçulub tökülər. Təmənnasız dözüm, mətanət, qüdrət və cəfakeşlik simvolları – atlantlar! İstərdim ki, Xəlil Rzanı atlantlara bənzədim, bir fərqlə dizi qatlanmayan, beli bükülməyən, baxışları donmayan, lal durmayan qanadlı poeziya atlantlarına.

Maskaları cıra-cıra, zəncirləri qıra-qıra,
Cəbhələri yara-yara, çoxlarını yora-yora,
Ekvatoru quca-quca mən uçuram ürəyimin arxasınca.

Səbatsızlar səbat alsın... mən uçuram,
Qanadsızlar qanad alsın... mən uçuram.
Kimliyimi soran olsa, nə Günəşəm, nə də Ayam.
Günəşdən də ucadayam,
Fələkdən də ucadayam,
Mən uçuram.

**1982**

# İKİ ŞEİRİN MÜƏLLİFİNƏ

Möhtərəm Allahverdi müəllim (Allahverdi Tağızadə ali məktəb müəllimidir), "Ədəbiyyat və incəsənət" qəzetinin 9 dekabr 1983-cü il tarixli nömrəsində şe`rlərini oxudum. Mütəəssir oldum, kövrəldim, sevindim. "Uşaqların kölgəsində" və "Dünya" şe`rləri!

Mövzu tapmaq – xüsusən də ki, balaca, lirik şe`r üçün mövzu tapmaq o qədər də böyük şərt deyil. Bir kəlmə söz, kiçicik bir detal əlbəttə, sənətkar qələmində dildə-ağızda gəzən şe`rə çevrilir. Şərt mövzunun ifadə tərzini bütün poetik komponentləriylə birlikdə kəşf etməkdədir. Yoxsa, o qədər gözəl mövzular, diş vurulmuş alma kimi qabaqdan qalmışa döndərilib ki...

Ümumiyyətlə, məzmun, mövzu həmişə öz ifadə tərzini özüylə gətirir...

Doğrudan da bə`zi adamlardan müxtəlif münasibətlə – xüsusən gərgin əsəbi hallarda, açıq mübarizə, aydın mövqe, açıq səs, açıq söz tələb edilən və məhz hökmən tələb edilən məqamlar belə sözlər eşidirik:

– Tək başım olaydı, onda görərdiz...

– Sabah başıma bir iş gəlsə, balalarımı kim dolandıracaq?

– Dilimi kəsən uşaqlarımdır.

– Uşaqlarımın xətrinə və sair...

Əhsən sənin şair hissiyatına, Allahverdi müəllim! Özü-özlüyündə inandırıcı, adamı yumşaldan, tərksilah eləyən, doğrudan da dəmir kimi məntiqi olan bu həyat həqiqətinin çox nazik və çox sürüşkən yerindən nə yapışmısan?!

Uşaqlar üçündür bu işlər – demə
Sən öz dostlarınla görüşlərində,
Fağır uşaqları bayraq eləmə,
Özünün vəzifə yürüşlərində.

Bəli, dost səndən imdad istəyir, səni harayına çağırır, sənin bir sözün tale həll eləməlidir – sənsə gül kimi uşaqlarını simasız sifətinə, antipod, riyakar xislətinə qalxan edib öz xeyrinə meydandan qaçır, sudan quru çıxırsan. Neyləsinlər, inananlar da inanır, kişinin uşaqları var.

– Bircə uşaqların xətrinə görə
Dünyada hər şeyə dözürəm – dedin.
– Ən pis adama da gündə yüz kərə,
Gedib baş əyməyə hazıram – dedin.

Allahverdi müəllim, bu sözlərə sənin şair vicdanın inanmadı. Həmən şe`ri yazarkən ehtiras və riqqətlə dolu qələmin uşaq paklığına bürünmüş bu çirkin, bu çirkinlərin maskasını doğradı:

Getdikcə çoxaldı çörək pulun da,
Bəs o yetişdiyin mənsəb nə imiş?
Biz sonra bildik ki, mənsəb yolunda,
Uşaq da, çörək də bəhanə imiş.

Şair vicdanı mənim aləmimdə şair iste`dadı deməkdir. Vicdan təmizlik, düzlük, zəriflik, inandırıcılıq, zövq, həssaslıq etalonudur – poetik vicdan iste`dad bəhrəsini verməlidir.

"Uşaqların kölgəsində" adlı şe`rində artıq, yerinə düşməyən sözə, quru nəsihətə, əlaqəsiz, məntiqsiz misralara rast gəlmədim, dil səlisdir, rəvandır, qəzəb, coşğunluq şe`rin canında,

ruhundadır. Bənddən bəndə inkişaf edən, kəskinləşən bədii fikir son dörd misrada yüksək, ümumiləşdirilmiş məqama çatır:

Sənin balaların diribaş, qoçaq,
Sənsiz də bir yana çıxacaq onlar.
Bir vaxt dostlarının üzünə ancaq,
Utana-utana baxacaq onlar.

Oxucular elə güman etməsin ki, mən şe`r görməmişiyəm, mübaliğəyə yol verir, aludəçiliyə, hissə qapılıram. Əksinə, sən də, bütün sənətsevərlər də yaxşı bilir ki, yazı-pozuyla məşğul olan adamı hər şeylə həyəcanlandırmaq, yerindən tərpətmək çətin olur, nadir hallarda olur.

Təəssüf ki, istisnalarla hər cəhətdən əsil şe`rə az-az rast gəlirik. Bu həqiqətdir. Bu da həqiqətdir ki, əsil şe`r həmişə az-az yaranıb, həmişə də az-az yaranacaq, kiminsə, kimlərinsə nəzər diqqətini isə hökmən cəlb edəcək.

Allahverdi müəllim, deyəsən ikinci "Dünya" şe`rin üçün sözüm tükəndi axı... Xeyr. İnsan yaranandan bəri, şüur, bədii təfəkkür formalaşandan bəri bu mövzu, bu motiv əbədi, əzəli mövzu olub və olaraq da qalır. Lakin, söhbət baxımda, gözdə, təzə münasibətdə, dörd milyard bəşəriyyətin tükdən asılı taleyinin orijinal, əyani, bədii təsvirindədir.

Fayda  yox kəsərsiz sözdən, diləkdən,
Yayda yağan qardan, qışda küləkdən.
Düşüb itə bilər asılıb tükdən,
Dilbər kainatın tanası dünya.

Sən özün ədəbiyatçısan, dilçisən, zövq əhlisən, məni başa düşərsən ki, mənimlə şərik olarsan ki, adam bə`zən zəif və yaxşı şe`rin zəifliyinin, yaxşılığının məhz nədən ibarət oldu-

ğunu izah edə bilmir. Birinci şe`rin kimi bu şe`rinin də nə üçün yaxşı olduğunu izah edə bilmirəm. Ancaq, aşkar görürəm ki, duyuram ki, şe`r belə olar, xoşuma gəlir. Vəssalam! Dilimi, rəvanlığımı, sözlərin təlqinedici tə`sirimi, dünyanın əlvanlığını, ziddiyyətini, əzabkeş bəşər taleyinin müxtəlifliyini təsvir üçün tapılan bənzətmələr, təşbehlər, boyalarmı, arzuların, əməllərin yarımçıq qalmaması üçün həzin çırpıntılarmı?!

Hardasa bir əlin qanlı qabarı,
Hardasa bir əlin xınası dünya.

Nə deyim, bəlkə də qüsurlu, kələ-kötür, duyumsuz, cansız dillə, naşı qələmlə yazılmış yazılar çox oxuduğumuza görə adam belə şe`rə rast gələndə lap hissə də qapılır, lap ona tutiya kimi də baxır. Amma, öz aramızdır, şe`r belə olar də, əşşi, ay qardaş, şe`rin mö`cüzəlisi, dahiyanəsi yox ey, elə adisi belə olar də.

Allahverdi müəllim, səni çoxdan təvazökar, iste`dadlı, az yazan, redaksiyalara az gəlib-gedən yoldaş kimi tanıyıram. "Ədəbiyyat və incəsənət" qəzetində, "Azərbaycan" jurnalında yaxşı şe`rlərinin güzəştsiz-filansız çapına kömək etmişəm. Sözümün canı budur ki, nə sən mənim üçün təsadüfi müəllifsən, nə də şe`rlərin göydəndüşmədir.

Yadıma 1947-ci ildə gənc yazıçıların birinci respublika konfransından bir əhvalat düşdü.

Böyük şair Səməd Vurğun rəyasət hey`ətində əyləşmişdi dağ kimi. Sədrlik edirdi. Mə`ruzələr, çıxışlar qurtardı. Başlandı şe`r oxumaq. O, bir-bir iştirakçılara, yə`ni gənc şairlərə söz verir və son dərəcə diqqətlə qulaq asırdı.

Kürsüyə Tibb İnstitutunun tələbəsi Mə`bud Əsgərov adlı bəstəboy bir oğlan çıxdı və üç bənddən ibarət "Sərçələr" adlı şe`r oxudu. Şe`r yadımda qalmayıb, amma dəqiq məzmunu belə idi:

"Mən harda quş yuvası görürdüm, onu daşa basırdım, həmişə də ana sərçəni nişan alardım. Daşım hədəfə dəyən kimi ana quş ölər, ətcə balalar pərən-pərən düşüb cikkildəşər və bu mənə ləzzət verərdi. Günlərin bir günü anam öldü". Şe`rin son misrası yadımdadır.

...Düşündürdü yetim qalan sərçələr məni.

Səməd Vurğun qaşlarını çatdı, əliylə oğlanı göstərib, Natəvan klubunun ağzınacan dolu zalına üz tutdu:

– Mən bilmirəm, bu uşaq ədəbiyyatda qalacaq-qalmayacaq, yazacaq-yazmayacaq, indi oxuduğunun dalı gələcək-gəlməyəcək, ancaq indi, bu saat, burada oxuduğu əsil şe`rdir.

İndi, Allahverdi müəllim, o böyük ustadın sözü olmasın, bilmirəm sən belə şe`rlərdən, onlardan da yaxşısını yazacaqsan-yazmayacaqsan, ancaq bu saat, bu gün "Uşaqların kölgəsində" və "Dünya" şe`rlərinə görə sağ ol.

**1983**

# ÜMİD... İNAM

“Gənc şairin ilk kitabı” seriyasından buraxılan şe`r kitabçalarından birinin adı “Ümid”dir. Onun müəllifi hələ çoxunun tanımadığı, mətbuat səhifələrində təkəm-seyrək şe`rləri görünən Ağa Laçınlı adlı bir gəncdir.

Durmuşam buludlar qaynaşan yerdə,
Döyür alaçalpo üzümə mənim.
Qışda qurşağıma qar çıxan yerdə,
Yazda gül çıxacaq dizimə mənim...

Burada təbiətin qanunauyğunluğu, ahəngdarlığı insanın sabaha olan inamı, ümidi şəklində çox səmimi təsvir edilmişdir. Təmiz duyğuları, səmimi hissləri, incə müşahidələri təbii dillə qələmə almaq bacarığı şair üçün xoşbəxtlikdir. Adam bir balaca əlini boş qoysa, bu bir bənddəki fikri bənd-bənd uzada bilər. Lakin, müəllif həmin dörd sətrin ikisində lövhə təsvir etmiş:

Durmuşam buludlar qaynaşan yerdə,
Döyür alaçalpo üzümə mənim.

Bir şeyə də diqqət yetirək ki, burada qar baharın səbəbkarı kimi təsvir edilir. Gənc şair baharla qışın şablon, sürtülmüş müqayisəsindən qaçaraq təbiətin vahid axarını göstərmişdir.

Deyirlər ki, guya hər sənətkarın sevimli mövzusu olur.

Biri dənizdən çox yazır, biri istehsalatdan ayrılmır, birini məhəbbət motivləri, birini meşələr, dağlar cəlb edir və s. Mən bunu ancaq şərti başa düşürəm. Dənizin bütün aləmini, təfərrüatını, dalğasını, zərrəsini görən göz meşəni də, dağı da görər. Hələ iş bunda deyil. Hər şeyin mərkəzində insan durur. Dəniz də, yarpaq da, dan yeri də, şimşəyin qızıl xətləri də, suların nəğməsi də, köçəri quşlar da, oturaq sərçələr də insanla – insan sifətiylə, insan xasiyyətiylə, insan hissləriylə müqayisə edilir. İnsan qəlbinə nüfuz edə bilən sənətkar üçün mövzu çərçivəsi, sərhədi yoxdur? Bəs nə var? Fon var. Mə`dən fonunda, dəniz fonunda, qarlı dağlar fonunda, ildırımlı göylər fonunda, meşələr... nələr... nələr fonunda insan!

"Ümid" kitabçasındakı şe`rlərin ən yaxşılarından belə mə`lum olur ki, hələlik Ağa Laçınlı üçün fon təbiətdir. Dağlı-dərəli, bağlı-meşəli, çaylı-dənizli təbiət. "Sibir çayları" adlı üç bəndlik şe`rin səkkiz misrasında həyatımız kimi, xalqımız kimi qaynar, coşğun Sibir çaylarının mənzərəsi verilir. Axırıncı sətirlərdə isə insanın ən müqəddəs kədəri olan ikiyə bölünmüş Vətən həsrəti qəlbi göynədir:

Arazın dərdi
Dünya qədərdi.
Nə bəxtəvərdir,
Sibir çayları.

Görürsünüzmü? Çayların fonunda dönə-dönə qələmə alınmış bir mövzu necə orijinal, təbii, hay-küysüz səslənir. "Qırx qız yaylağında" şe`rindən gətirdiyim ayrı-ayrı parçalara diqqət edin:

Zirvədən yuxarı boylanan qaya,
Qüllədə dayanmış əsgərə bənzər.

xx

Gündoğan – döyünən, çarpan ürəkdir,
Dayanmır heç zaman damarında qan.

xx

Naxışlı təpələr, məxmər yamaclar
Bir böyük dumanın balıncıdırmı?
Öz torpaq qınından sivrilən daşlar
İgid babaların qılıncıdırmı?

Təbiətin ən güclü təşbehi insandır. Onun hər mənzərəsi, hər cizgisi insanla müqayisə edilir. Müqayisələrdə şairin bədii təfəkkürünün səviyyəsi, obrazlar seçmək qabiliyyəti aşkara çıxır.

Məsələn, bir var yazasan ki, (lap vəznli-qafiyəli) əsil, böyük insanın kini də, qəzəbi də, nifrəti də böyük olur, e`tirazı, üsyanı amansız olur və... Bu fikirlərin doğruluğunu, dürüstlüyünü hamı təsdiq edər. Bədiiliyini heç kəs. Ağa Laçınlı həmin mülahizəni mə`lum təbiət hadisəsinin ümumiləşdirici tə`siri ilə bədii söz – şe`r səviyyəsinə qaldıra bilmişdir.

İldırım vuranda elə vurur ki,
Vurduğu bir daha qalxmır yerindən.

Mən Ağanı tamam-kamal söz ustası kimi qələmə vermək fikrində deyiləm. Hələ çox tezdir. Beş-altı yaxşı şe`rə arxayın olub bu xəyala düşmək olmaz. Ancaq görürəm ki, o, yaxşı şair ola bilər. Onda fitri iste`dad var. Bunu deməyə qorxmuram.

Təbiət cəsarətlə
Dəyişir fəsilləri.

Cəsarət azad etmiş
Qul olan nəsilləri.

Cəsarət anlayışı həm məcazi, həm də mə`lum mə`nada inandırıcılıqla, məntiqlə, bədii məntiqlə səslənir. Ancaq hər şe`rdə belə deyil:

Yenə dost-tanışın əlini sıxdım,
Yetişdim qohuma-qardaşa dağlar.

Bu misralar sürtülmüş, çox geyilmiş pencək qoluna oxşayır. Mən demirəm ki, pencək oğurluqdur. Xeyr, özünündür, əyninə lap yaxşı gəlir. Ancaq köhnədir də, qardaş, görmürsən, işım-işım işıldayır.

"Çiçək" şe`ri də xoşuma gəlmədi. Zəifdir, kəşfsizdir. Məqsədsiz yazılıb. Səkkiz misralıq bu yazıda yığcamlıq yoxdur – mə`na yığcamlığı! Bə`zən elə olur ki, həcmcə kiçik mənzum parçanın, nəsrlə yazılmış yazının, səhnə üçün nəzərdə tutulan bir əhvalatın sənətkarlıq cəhətdən zaylığı, qüsuru, naqisliyi "kiçik şe`r", "mənsur şe`r", "etüd", "miniatür", "lövhə", "fraqment", "lirik poema", "bir pərdəli pyes" və s. adlarla örtbasdır edilir. Gənc şair bu incə mətləbləri indidən bilməli, qələmini ləyaqətlə tərbiyə etməlidir.

Təkrar biliyin anasıdır, yaradıcılığın düşməni!
Su axıb ən dərin qatda durur ki,
Cücərib boy atsın bir toxum, bir dən.

Başqa şe`rdə isə:

Sular var ki,
Yerə hopur,

Bircə dəni
Bitirməyə.

Belə "düşmənlə" indidən mübarizə aparılmasa, axırda görərsiniz, bütün yaradıcılığımız olub "Çevir tatı vur tatı!".

Mə`lum qaydanı pozub tənqiddən sonra yenə tə`rifə keçirəm. "Torpaq", "Əllər", "Balta", "Şəlalə" nəcib insani hisslər tərənnüm edən şirin şe`rlərdir. Aydınlıq, sadəlik, obrazlılıq onların mə`ziyyətidir. Bu günün ruhu, zamanın nəbzi səmimi sətirlərdə aşkar duyulur. Azəri torpağı, doğma təbiət, ulu dağlarımız əbədi mahnı bəstələyib:

Qıy vurub oyatdı çölü-gədiyi,
Dinləyən duyar ki, nədir dediyi.
Dağların yazdığı, bəstələdiyi,
Bir coşğun nəğmədi, sözdü şəlalə.

"Ümid" kitabçasındakı şe`rlərdə sırf tənqidi nöqteyi-nəzərindən xeyli nöqsan tapmaq olar və bundan müəllifin sabahkı şe`rləri ancaq xeyir görər. Lakin qoy bu nöqsanları Ağa Laçınlı özü tapsın, görsün ilk "Ümid" müəllifinə ümidi var, inamı da var.

**1966**

# POEZİYA – QƏHRƏMANLIQ

Bəlkə də elə oxucu tapılar ki, o, Xəlil Rzanın qırmızı cildli "Krasnodon qartalları" adlı təzə kitabını soyuqqanlı qarşılasın, hətta onu açıb vərəqləməyə həvəs göstərməsin. Çünki, bütün dünyada şöhrət qazanmış "Gənc qvardiya" təşkilatı, Aleksandr Fadeyevin ölməz "Gənc qvardiya" romanı, Krasnodon faciəsinə həsr edilmiş müxtəlif janrlı bədii, sənədli əsərlər və ümumiyyətlə tanış, zahirən köhnəlmiş müharibə motivləri – bütün bunlar iste`dadlı şairimizin bu təzə əsərini ilk baxışda hövsələsiz oxucunun nəzərində kölgələyə bilər.

Poemanı maraqla oxudum, oxuduqca gördüm ki, xeyr, burada fikir şablonundan, guya mövzunun "çəkib gətirdiyi" qəliblənmiş, sürtülmüş ifadə tərzindən heç bir əlamət yoxdur. İfadə tərzi deyəndə mən təşbeh, bənzətmə, istiarə və digər bədii təsvir vasitələrini əsərdən təcrid edilmiş şəkildə nəzərdə tutmuram. Çünki əsil şair üçün, əsil şe`r üçün bunlar əlifbadır, ilk zərurətdir. Söhbət bugünkü arzuların, fikir və düşüncələrin bədii ümumiləşməsindən – onların cəsarətlə, vətəndaşlıq qüruru ilə orijinal səslənməsindən gedir.

Poema ayrı-ayrı döyüş epizodlarını, qəhrəmanların gizli fəaliyyətini göstərən təfərrüatlı hadisələrin təsviri prinsipində yazılmamışdır. Burada insanın yaşamaq və yaratmaq əzmi tərənnüm olunur. Bu əzm, bu eşq Böyük Vətən müharibəsinin ağır, dəhşətli sınaqlarından şərəflə çıxıb, məktəb skamyalarından döyüşlərə atılan gənclərimizi əbədiyyətə qovuşdurub.

Dava silkələyir bəşəriyyəti,
Sınayır qüdrəti, iqtidarı da.
Ölkələr, dövlətlər qalsın bir yana,
Tanıdır sıravi adamları da.

Belə sıravilərdən biri də həmyerlimiz – azərbaycanlı, Gənc qvardiyanın əfsanəvi qəhrəmanlarından olan Əli Əsədulla oğlu Dadaşovdur.

Böyük Fadeyevin kitabına da
Leonid Dadışev adıyla düşdüm.

Çalışmaq lazımdır ki, məşhur romanın gələcək nəşrlərində bu ad... düz yazılsın.

Xalq şairi Süleyman Rüstəm kitaba yazdığı yığcam, səmimi müqəddimədə deyir: "Krasnodon" qartalları" qəhrəmanlıq ruhu ilə dolu bir əsərdir. Xəlil Rzanın başqa əsərlərindəki tribunluq və lirizm bu poemada xüsusilə özünü göstərir". Tamamilə doğrudur! Lakin bu qəhrəmanlıq ruhu, bu tribunluq hay-küydən, faşizmin ünvanına yağdırılan çılpaq söyüşdən, gözü-qulağı yoran ritorikadan ibarət deyil.

Xəlil Rza qəhrəmanlığı poetik mə`nada çox geniş, çox əzəli və əbədi təsəvvür edir. Müəllifə görə bu müqəddəs keyfiyyət nəinki bir dəstə fədakarın, hətta bir neçə qoşun hissəsinin fəaliyyəti, igidliyi ilə məhdudlaşa bilməz. Şair, qəhrəmanlığı bütün kainatın ahəngində, qanunauyğunluğunda, insandan tutmuş qarışqayadək bütün canlıların fitrətində və cövhərində görür.

Qəhrəman deyilmi bu yer kürəsi,
Qanında dəryalar, çaylar çağlayır.
Min ildir, bəlkə də milyon ildir o,
Bəşəriyyət boyda külfət saxlayır.

Şair deyir ki, hər gün qaranlığı boğub, od qılıncını al şəfəqli dağların üstünə qoyan Günəş qəhrəmandır. Qəhrəmanlıq ruhu tufanları, səmum küləklərini eyninə almayan cəsarətdə, dağları, mağaraları əyninə geyən pələngin ehtirasında, özündən beş dəfə ağır yük aparan qarışqanın dəyanətində, zəhmət və həyat eşqindədir. Bu, həyat fəlsəfəsinin bədii əksidir.

Faşizm yerlərin, göylərin vahid ahəngində xaric səsdir, insanlığın boğazında xərçəngdir, aclıq, səfalət, qan-qadadır. Onu məhv etmək üçün qəhrəmanlıq ruhu bütün dünyaya sahib olmalıdır. Hitler Almaniyasının faşist ordularını geniş cəbhələrdə, açıq döyüş meydanlarında darmadağın etmişiksə də, faşizm hələ yaşayır. Faşitlər arzuları, əməlləri alt-üst edir, yeni qırğınlara rəvac verir.

Hələ yer üzündə nə qədər işlər,
Nə qədər arzular ələk-vələkdir.
Neft ilə, pambıqla, çörəklə birgə
Dünyaya qəhrəman ruhu gərəkdir.

Lakin, ürəyi qəhrəmanlıq ruhuyla çırpınan mərd igidlər yetişdirmək Vətən, xalq, cəmiyyət üçün o qədər də asan başa gəlmir. Xalq belə oğulların qartal uçuşunu seyr edəndə nə qədər sevinirsə, onları qəflətən itirəndə müqəddəs kədərə qərq olur. Vacib deyil ki, belə oğullar ancaq müharibədə hünər göstərsinlər. Böyük əməllər uğrundakı mübarizənin məkanı, zamanı, şəkli dəyişə bilər, məqsəd və mahiyyəti yox.

"Çinarla ikinci söhbət" fəslində Xəlil Rza həmin fikirlərin bədii məntiqindən çıxaraq təbii və tə`sirli şəkildə vaxtsız vəfat etmiş cəbhəçi, görkəmli partiya və dövlət xadimi, alim, dramaturq Şıxəli Qurbanovu xatırlayır. Elə buna və bu kimi mötivlərə görə mən həmin əsəri tarixin qızıl vərəqlərində qalmış müharibə illərindən daha artıq indiyə, indinin fikir və

düşüncələrinə, qarşıda duran böyük problemlərin həlli məsələsinə aid edirəm.

Hələ gör nə qədər dərmansız dərdlər,
Mümkünmü sanamaq dərdləri bir-bir.
Göydə ulduzlara yol açan bəşər,
Yerdə bir yanğını söndürə bilmir.

"Krosnodon qartalları" məhdud mə`nada müharibədən danışmır. Əsərin məzmunundakı dinamika, ruhundakı aparıcı qüvvə zaman və məkan çərçivəsinə sığmır.

Müəllif oxucunu 1941-45 hüdudunda saxlamır. Gənc qvardiya qəhrəmanları xalqımızın qələbəsi naminə canlarını qurban verdilər. Lakin, hələ bəşəriyyətin irili-xırdalı düşmənləri çoxdur. Müəllif göstərir ki, xırda "gözəgörünməz" düşmənlər daha təhlükəlidir. Çünki, onları görmək, tanımaq çətindir. Hökmən deyil ki, bu "xırdalar"ın qolunda faşist nişanı olsun. Xəbislər, dargözlər, qorxaqlar, vəzifə düşkünləri, milli vüqar və milli şüurunu itirmiş bu adamlar faşist qədər iyrəncdir. Bu fikirlər poemada poetik vüs`ətə qaldırılmış, gəlişi gözəl sözlər kimi havadan asılıb qalmamışdır. Əli Dadaşovu, Sergey Tülenini, Lyubov Şevtsovanı, Ulyana Qromovanı, Filipp Lyutikovu, İvan Zemnuxovu və adını bilmədiyimiz neçə-neçə qəhrəmanı müharibə illərində düşmənin qanlı pəncəsinə təslim edən, qələbəmizi gecikdirən, lüzumsuz qurbanlara bais olan kimlər idi? Həmin xırda hesab etdiyimiz düşmənlər – asanlıqla rəsmi faşistə, aşikar cəllada çevrilənlər! Poemanın qəzəblə yazılmış "Xain" və "Qorxaqlıqdan satqınlığa" fəsillərində bu məsələ kəskin şəkildə qoyulur.

Xain! El xaini, Vətən xaini,
Axı hələ dünən vətəndaşdı o.

Daha sonra:

Bu bəlkə tarixdə ən ağır bir an,
Bəlkə ən dəhşətli bir məqam idi.
Bir qorxağın əli yetmiş cəsurun
Ömrünə-gününə qələm çəkirdi.

Şair gənc qvardiyaçılara dünyanın bugünkü mənzərəsini xatırladır, vətənimizin böyük nailiyyətlərinə işarə edir. Burada qeyd etmək istərdim ki, Xəlil Rza bütün əsər boyu sün`i, quru müqayisədən qaçmağa sə`y etmiş, "biz yaxşıyıq, düşmən pisdir" fikrini bədii boyalar və detallarla ifadə etmişdir.

Dünyanın köksündə yaralı Vyetnam,
Axır neçə ildir qan sinəsindən.
Qlezos bu qana zindandan baxır,
Qaqarin işıqlı göy qübbəsindən.

Şair düşünür, nə qədər ki, dünyanın seyrələn gülüstanları hərbi zavodlardan şikayətçidir, nə qədər ki, ən böyük məqsədlər bir yana, ən kiçik məqsədə çata bilmirik, nə qədər ki, Xirosimaya qırmızı qar yağır, hava da, su da zəhərlənir, biz bir cərgədə dayanmalıyıq, birgə mübarizə etməliyik, ey gənc qvardiyaçılar! Sizin şəklinizi yalnız muzeylərdən asmaq, adınızı əsərlərdə çəkmək azdır.

Yox, səndən ayrıla bilməyəcəyəm,
Sən mənə gərəksən, qardaşım Əli.
Düşmən qabağında alov şö`ləsi,
Sərt, ayıq gözlərin gərəkdir mənə.

Bəli, buna görə də:

Görünür, bəşərin öz sayı qədər
Qəhrəman gərəkdir bəşəriyyətə.

Əsərdə beynəlxalq kommunist hərəkatının şanlı bayraqdarlarına, şəhid oğullarına həsr edilmiş misralar, böyük ricətlər Gənc qvardiyaçıların taleyi və amalı ilə, məqsəd və mübarizəsilə nə qədər həmahəng səslənir. Onlar Gənc qvardiyaçıların qardaşı, davamı, əks-sədasıdır.

Poemada istər Əliyə müraciətlə, istərsə də onun dilindən yazılmış ilhamlı sətirlər, qüvvətli parçalar, Odlar yurdu, doğma Azərbaycana həsr edilmişdir. Xalqımızın qəhrəmanlıqla dolu şərəfli tarixi, igid oğulları, ölməz simaları yada düşür. Şair Azərbaycan torpağı ilə bağlı hiss və duyğularını, düşüncələrini əsərin ümumi ruhundan, fikirlər sujetindən təcrid edilmiş şəkildə qələmə almır.

Xalqlarımızın biri-birilə səsləşən qəhrəmanlıq dastanları, Krasnodon qartallarını birləşdirən böyük, ülvi dostluq bu əsərdə şairanə əksini tapmışdır. Körpünün partladılıb, düşmən qatarının məhv edildiyi lövhədə qəhrəmanların qələbədən doğan ümumi sevinci, birgə fərəhi belə göstərilir:

Alovda görünür xalqın qüdrəti,
Alovda Vətənin igidlik tacı.
Babəkin günəşə qalxan köhləni,
Xmelnitskinin şimşək qılıncı.
Sanki bir silahın yüz tətiyi var,
Birdən yüz tətiyi sıxır intiqam.

"Krasnodon qartalları" böyük cəsarət və iradənin, Vətənə müqəddəs sədaqətin tərənnümünə həsr edilmiş, yüksək, coşğun əhvali-ruhiyyəli, səmimi, yanğılı şe`r nümunəsidir. Burada hadisəçilik yoxdur. Elə bil şair hiss etmişdir ki, bu yol

onu maraqsız təkrarlarla gətirib çıxara bilər. Onsuz da istər-istəməz qələmə alınmış (başqa cür ola da bilməzdi) körpü əhvalatı da, Renatusun Gənc qvardiyaçıları bir-bir dindirməsi də, onlara verilən dəhşətli əzab-işgəncə faktı da mə`lumdur və bu mə`nada lap ola bilsin ki, maraqsızdır. Lakin, oxucunu cəlb edən, onu həyacanlandıran şairin alovlu, bədii ifadəli, sadə, aydın, canlı şe`r dilidir. Biz bunu Əli Dadaşovun cəllad Renatusa dediyi sözlərdə görürük. Biz bunu fasişt obrazının nifrətlə dolu təsvirində görürük.

Faşistlər rəssamlıq eləyə bilməz!

Ukraynanın sinəsindən Şevçenko, Franko sərvətlərini qoparanlar fırça tuta bilərmi? Luvra, Ermitaja bomba salanlar, Peterqof, Krım, Odessa, Poltava incilərini talan edənlər hara, sənət hara?! Biz bunu eynəyinin şüşəsilə gözləri çıxarılmış Vanyanın qanlı dodaqlarından eşidirik. Biz bunu sinəsi yanar şişlə dağlanmış, qolları elektrik məftili ilə sarınmış Volodyanın təsvirində oxuyuruq:

Baxışları bir cüt güllə,
Qolsuz belə döyüşdü o.
Qana batmış ağ köynəkdə,
Sanki qızıl günəşdi o.

Biz bunu Lyubanın ölüm ayağında, işgəncələr altında oxuduğu "Suliko" mahnısının titrəyişində görürük. Ulyana Qromova şe`rin diliylə dünyanın bütün xainlərini hərbi səhra məhkəməsinə çəkir, onlara ölüm hökmü oxuyur.

Şair elə bil bu unudulmaz, qanlı hadisələrin bilavasitə şahidi olmuş, bütün dəhşətləri gözüylə görmüşdü.

O kimdir darağı qarın üstündə,
Küləkdə yellənir ipək yaylığı.
Bağlayır açılmış düymələrini
Qızmış avtomatın qəfil yaylımı.

Şair üzünü bütün bəşəriyyətə tutub deyir ki, bu qanlı və qansız cinayətə baxın, ibrət götürün. Bu cinayətin rəngi də, həddi-hüdudu da bilinmir və ona qarşı olan qəzəbin də, intiqam hissinin də sahilləri, ölçüsü yoxdur və heç vaxt olmayacaq.

Poemada qələbə gününü təsvir edən sətirləri həyəcansız oxumaq mümkün deyil. Dərdli, qubarlı göz yaşlarına qərq olmuş qələbə! Biz onu sinəmizdə yara, alnımızda vüqar qarşıladıq. Lakin kədərimiz müqəddəsdir, böyükdür, əbədidir. Gedənləri geri qaytarmaq olmaz. Qar üstünə səpələnmiş əlvan-əlvan, tək-tük muncuq dənələri muncuq-muncuq göz yaşlarına çevrilib axır... axır... Anaların göz yaşları!

Toplar, ağır toplar, qüdrətli toplar,
Elə bil and içdi o tək məzara.
Toplar igidlərin ölməz ruhunu
Səsində qaldırdı asimanlara.

“Krasnodon qartalları” həqiqi şair ilhamının məhsuludur. Xüsusən gəncliyə nəcib duyğular, vətəndaşlıq qüruru, xalq məhəbbəti təlqin edən bu əsər gözəl vətənpərvərlik dastanı, qəhrəmanlıq, sülh, səadət nəğməsidir. E`tiraf edirəm ki, qələm dostum Xəlil Rzanın “Krasnodon qartalları” poemasına ümumi münasibətim, əsərdən aldığım təəssürat mənə burada nöqsan axtarmağa imkan vermədi. Eybi yoxdur. Onsuz da ədəbi tənqid və yüksək zövqlü oxucular tələbkardır...

“Gənclik” nəşriyyatı poemanı kitab halında çap edərkən gərək onun tərtibatına zövqlə yanaşaydı. Üz qabığına çəkilən

şəkil məzmunla səsləşmir. Cildin rəngi qırmızı olmaya da bilərdi.

"Krasnodon qartalları" sözü nə üçün qara lövhədə yazılıb? Azərbaycanlı Əli Dadaşovun igidliyi, döyüş yolu təsvir edilən həmin kitabı milli ornamentlərlə bəzəmək olmazdımı?

Nəşriyyat belə kitabların yaxşı çıxmasına, geniş oxucu kütləsinin diqqətini cəlb etməsinə sə`y göstərsə yaxşı olar.

**15 fevral 1968**

# ŞAİR HAQQINDA SÖZ

İsa İsmayılzadənin şair tərcümeyi-halı mənim gözümün qabağında, yə`ni mənim yaşıdım olan ədəbi nəslin önündə yazılıb, vərəqlənib, vərəqlənir. Poetik tərcümeyi-hal əsərlər düzümü, obrazlar tapıntısı, yaradıcılıq pillələri deməkdir. Müşahidə və qənaətimə görə İsa hətta ilk qələm təcrübələrindən şüarçılıq, sözçülük, nəzmçilik kimi ən uğursuz, saxta yoldan nəinki qaçmış, heç bu səmtə qədəm də qoymamışdır.

Tellənə-tellənə dinirdi arzu,
Güllənə-güllənə dinirdi arzu.
Hərdən bir ümidə söykənməyəndə,
Titrəyə-titrəyə sönürdü arzu.

(“Xalçaçı qızlar” şeirindən)

Bu isə, yə`ni əvvəl başdan qələmi, qəlbi, hissi, duyğunu, lap ilhamın özünü, “təbii vergi deyilən” stixiyanın özünü hər cür xaric notlardan qoruyub düzgün, təbii axara istiqamətləndirmək sənətkar üçün çox zəruri şərtdir, təməl daşıdır.

Hamımız kimi İsa İsmayılzadə də axtarışdadır. Uğurlu axtarışlar onu altmışıncı illərin poeziya sıralarına gətirib qoşdu. Ağıl və düşüncənin, müasir səviyyə və müasirlik duyğusunun, nasiranə assosiasiyalı müşahidə və şair fəhminin obrazlı təfəkkürlə vəhdəti bu şairi şe`rdən şe`rə təsdiqləyir, irəli aparır. Bütün artıq-əskiyiylə irəliləyiş, irəliləyişdir.

Doğulduğum tarixə
Hamıdan çox yanıram.
Qara haşiyə geymiş
Şəkildən utanıram.

Müəllifinə bəlkə də ilk şairlik vəsiqəsi verən bu şe`rdən keçən on doqquz il ərzində İsa çox şe`r – silsilə şe`rlər, poemalar yazıb. Bunların hamısından danışa bilmərəm. Ancaq, onu deyə bilərəm və deyirəm ki, vətəndaşlıq qüruru, reallıq, axıcılıq, bədii məntiq, düşündürücü, tapılmış sonluqlar, Füzuli kədərinə bu günün oduyla yanmaq, bəsitlikdən uzaq, sadə obrazlı dil, orijinal ifadə, şairin bütün nəğmələrini eyni nöqtədə birləşdirir, əlbəttə, ən yaxşılarını.

İsanın şe`rləri doğma heca vəznimizin ən kütləvi bölgüləri, taktları üstündə köklənib. Sui-istifadə etməmək şərtiylə lazım gələndə bir misranı dörd pillə də etmək olar.

Doğuldun,
        xoş gəldin,
        adın var olsun.
Özünü, qonşunu isindirməyə
Odun olacaqsa,
                Odun
                    var olsun.

Söhbət Azadlıq adasından gedir. Sözümün canı ondan ibarətdir ki, İsa İsmayılzadəni pis mə`nada "sərbəstçi" hesab edən varsa, olmasın. Yoxsa... lap yaxşı. O, ştampın, qəlibin, traforetin, təkrarçılığın ziddi mə`nasında sərbəstdir. Bütün əsil şairlərimiz kimi. Bütün vəznlərdə danış – ancaq şe`r və şair diliylə!

İsa İsmayılzadənin mövzuları az qala adlarını əzbər bildiyimiz adi, gündəlik mövzulardır. Dünya, sülh, səadət, Vətən,

məhəbbət, tariximiz, tələbəlik, Cənub həsrəti, antipodlar və s. Məsələ mövzunu necə qələmə almaqdadır. O demir ki, "Ey Vətən uğrunda həlak olanlar, Siz ölməzsiniz!" O deyir:

Mayın doqquzuna uzanan yolla,
Evin doqqazına uzanan yolla,
Xəyal geyimində qayıtdı onlar,
Əsgər paltarında gəldi şəkillər,
Böyüdülmüş baxışların altında,
Şəkillərin nənələri iynə saplayırdı.
Böyüdülmüş şəkillərin altında
Şəkillərin nəvələri kitab oxuyurdu.

Böyük adamların, məşhur simaların adını sadalayıb Babəkdən üzü bəri uzun bir siyahı tutmaq və bu "siyahını", "səliqə ilə" qafiyələndirmək hələ bu adamlar haqqında nə ümumiyyətlə, nə xüsusiyyətlə poetik söz demək deyil.

"Çay daşları" şe`rində İsa məhz obrazlı yolla getmiş – adi çay daşlarından sənət korifeylərimizin surətini yaradan, şəklini, portretini düzəldən bir şəxsin təsviri fonunda həm Vətəni, həm Vətən rəmzi olan Vətən övladlarını tərənnüm etmişdir:

Oğullara dönə bilər
Vətən daşı.
Analara dönə bilər
Vətən daşı.
Nəsimitək, Füzulitək,
Xətaitək,
Əsrlərdən-əsrlərə
haraylana-haraylana,
Yana-yana dinə bilər
Vətən daşı.

Özünə qarşı tələbkarlıq, daxili, dəruni yığcamlıq, ölçü hissi, sözü israfla, yersiz səpələyib ucuzlaşdırmamaq iste`dadının dərəcəsindən, üslub və stilindən asılı olmayaraq şairin xoşbəxtliyidir, hörmət və nüfuzudur.

İllərlə "qəlbində söz böyüdən" misraları yol yoldaşına çevirən İsa İsmayılzadəni mən belə şairlərdən hesab dirəm.

**1992**

# NƏĞMƏKAR HAQQINDA NƏĞMƏLİ HEKAYƏT

İste`dad varsa, hər yerdə, hər işdə və hər şəkildə özünü göstərəcək: kiçik bir mahnıda, lirik bir romansda, böyük bir operada, mürəkkəb bir simfoniyada, əl boyda natürmortda, genişplanlı, dipdiri rənglər aləmində, stolüstü büstdə, əzəmətli abidədə, bir müxtəsər resenziyada, məqalədə, bir sanballı elmi araşdırmada, monoqrafiyada, bir mənsur şe`rdə, bir romanda, tək bircə beytdəki mə`na dəyərində –

Əfsus ki, yarım gecə gəldi, gecə getdi;
Heç bilmədim ömrüm necə gəldi, necə getdi...

– bir böyük dastandakı fikirlər, düşüncələr, əhvalatlar, talelər karvanının siqlətli, ahəngdar yerişində, tamaşalı, qırılmaz düzümündə. Bəli, nəyə çevrildiyindən asılı olmayaraq iste`dad həmişə görünüb, görünür, görünməlidir. İrili-xırdalı vulkanlar kimi, damcılı, şırranlı bulaqlar kimi.

İste`dada tale də demək olar. Tale-iste`dad ömrün, həyat yolunun min bir sınağından, imtahanından çıxıb təsdiqlənir, təsdiqləndikcə də cilalanıb bərq vurur, qanadlanıb pərvaz edir. Köhnə dostum, qələm yoldaşım, mənim mənsub olduğum ədəbi nəslin adlı-sanlı nümayəndəsi Nəbi Xəzrinin şair iste`dadı, şair taleyi gözümüz qarşısındadır. Özü də təkcə bizim, Azərbaycan oxucularının, şe`r aşiqlərinin gözü qarşısında yox.

Bəs nəsrlə yazılmış bu kitab nə deyir? Nədən danışır? Kimdən, kimlərdən, hansı əyyamdan söhbət açır? Və ən maraqlısı, hanı oxucuların adət etdiyi beyt-beyt, bənd-bənd, pillə-pillə, sütun-sütun şe`r misraları? Şair poeziyadan, onu böyük mərtəbələrə qaldıran poetik taleyindən üzmü döndərib? Ömrü boyu vəznin, qafiyənin, bölgü və ahəngin çərçivəsinə dözməkdən təngəmi gəlib? Xeyr.

Yazda dağ çayları ram olub eyni ölçülü-biçili məcraya sığışa bilmədiyi kimi, bədii təfəkkür də həmişə eyni janra, eyni janrın formalarına sığışa bilmir. Əsərinin şirəsini arı kimi çiçəklərdən toplamış, onu ürəyinin kürəsində döyüb hazırlamış, bulud kimi dolmuş müəllifin iradəsindən, götür-qoyundan asılı olmayaraq bir də gördün təbii bir axın baş verir və bu axın əsərin tale yelkənini qanadlandırır. Lakin, bu təbii selləmə, müəllifin ilham mayəsini, obraz sistemini, onun yaradıcılıq aləminin komponentlərini dəyişmir, təhrif etmir.

Nəbi Xəzri poeziyasına məxsus olan zəriflik, rəvanlıq, aydın dil, həzin, lirik təhkiyə, təbiətə, insanlara işıqlı inam, böyük arzularla çırpınan ürəklərin nəbzini tutmaq, müasir qəhrəmanlarımızın, əmək adamlarımızın səsinə həssas şair əks-sədası ilə səs vermək və bəlkə də sayılmağa ehtiyac olmayan başqa cəhətlər "Heykəlsiz abidə" əsərində eynilə qüvvədə qalır. Bura, sənətkar üçün çox böyük məziyyət sayılan yığcamlığı hökmən əlavə edək. Məhz Nəbinin lirik şe`r və poemalarındakı yığcamlıq, ölçü hissi həmən nəsr əsərində də görünür.

"Heykəlsiz abidə" həm qeyri-adi, həm də obrazlı sərlövhədir. Yüz əlli il özündən uzaq düşüb yad ellərdə dərd biləni, dil anlayanı tapılmayan, hücrələr küncündə keçən təvazölü, kimsəsiz, faciəli həyatı, ölməz məhəbbət və əbədiyyət nəğmələri Mirzə Şəfinin abidəsinə çevrildi. Şairin özü üçün acı olan taleyi xalqımızın, işıqlı ideallarımızın uğurlu taleyinə döndü. Görünür, abidə yalnız və yalnız daşdan, gildən, tunc-

dan, qranitdən, mərmərdən olmur. Gözündən heç bir şey yayınmayan ağsaçlı tarix Mirzə Şəfi Vazehə mə`nəvi abidə ucaltdı. Nəbi Xəzri də bu abidəyə bir çələng hördü, bir çələng yaraşdırdı. Mənsur poema çələngi. Yolub-yoluşdurulmuşdan çələng olmaz. Çələng bircə-bircə, əsib titrəyə-titrəyə seçilmişdən, dərilmişdən olar. Çələngin ətri həzin olar, çələng xışıldayar, çələng çiçəklərinin ləçəkləri pıçıldaşar, hekayət danışar – həzin, yanıqlı hekayət...

Nağıl və dastanlarımızda nəsrlə şe`r, hekayətlə nəğmə bir vəhdətdə olub, biri-birinə qaynayıb-qarışdığı kimi bu əsərdə də şair fəhmi, yuxarıda dediyim yaradıcılıq stixiyası, proza və poeziya qanada çevrilmişdir.

Mirzə Şəfi Vazeh bütün nəğmələrini Züleyxa adı ilə istəklisi Pakizəyə həsr etmişdi.

Pakizənin dilindən: – Deyirlər suya edilən dua tez eşidilir. Mən büllur, sonsuz, nəhayətsiz sularıyla ürəkləri sərinlədən, insanlara həyat verən müqəddəs bulağa öz duamı pıçıldayıram.

Bulaq, bulaq, ayna bulaq,
Çağla bulaq, qayna bulaq,
Sal qayadan çıxan bulaq,
Ömür kimi axan bulaq,
Yalvarıram sənə, bulaq,
Səadət ver mənə, bulaq,
Gənc ömrümə qıyma, bulaq,
Məni mə`yus qoyma, bulaq.

Bir-birindən doğan bu nəsr və şe`r parçası yuxarıdakı fikrimə misaldır.

Sənədli ric`ət! Müəllif çox müxtəsər xronoloji mə`lumat fonunda yeri gəldikcə ric`ətə çıxır və şairanə, düşündürücü,

umumiləşdirici ric`ətlər vasitəsiylə həm o dövrün parlaq tarixi şəxsiyyətlərinin taleyindən danışır, həm onların tərcümeyi-halının məğziylə oxucunu tanış edir. Həm Mirzə Şəfi Vazeh müasirlərini əsərdə canlandırır, həm hadisələr, epizodlar arasında körpü salır, həm də əsərini uzunçuluqdan, artıq yük və təsvirçilkdən xilas edir.

Mirzə Şəfi təkcə bir əməliylə də tariximizin, xalqımızın yadında qala bilərdi. Böyük Mirzə Fətəlini ürfan yoluna də`vət etməsilə, gözündən qəflət pərdəsini götürməsilə. Bir sözlə M.F.Axundovun nəcib müəllimi, ilk yol göstərəni, misilsiz ustadı kimi. Lakin böyük şəxsiyyətlərin həyatı qırıq-qırıq şüa qövslərinə yox, bütöv bir Günəş haləsinə bənzəyir. "Heykəlsiz abidə"də həmən Günəş – Vazeh ömrünün, Vətən taleyinin hər səhifəsində görünür.

Gənc oxucu üçün Vazehin tərzindən irəli gələn suallara Nəbi Xəzri dürüst, obyektiv cavab verir. Vazehin xarakterini, mə`nəvi aləmini düzgün dərk etməkdə gəncliyə kömək edir.

Mirzə Şəfi Vazeh eşq macəraları axtaran bir hərcayidirmi? Xeyr. O, xan qızı Simuzərin müəllimidir, zəhməti müqabilində əmək haqqı alır. Simuzərin eşqini cavabsız buraxmamağa görə gərək saraya köçə, asılı ola. Misal:

– Əziz müəllimim, onu da sən demirdinmi ki, insanlar da dağlar kimidir. Arxasız insanlar məhv olar?

– Hə, Simuzər, insanlar dağlardan da ucadır.

– Bəs onda sən mənim dağ vüqarımı niyə belə asanlıqla tapdalayırsan?

– Yox, tapdalamıram, Simuzər, öz vüqarımı qorumaq istəyirəm.

– Nədən?

– Satılmaqdan.

– Nəyə?

– Var-dövlətə.

– Kimin var-dövlətinə?

– Xan qızının.

Mirzə Şəfi, öz doğma qızının məhəbbətinə, yə`ni Simuzərin Vazehə olan məhəbbətinə qısqanan Zibeydə xanımın eşqini necə qəbul edə bilərdi? Şair, ana-qız konfliktinə bais ola bilərdimi? Misal:

– Mən səni... Mən səni ona qısqanıram.

– Məni qısqanmaq?

Mirzə Şəfi güldü, amma səsi çıxmadı.

– Bu gülünc deyilmi, Zibeydə xanım?

– Burada gülünc nə ola bilər ki?

– Axı sizin...

– Nə sizin?

– Axı sizin buna nə haqqınız var?

– Qısqanclıq, əfsus ki, cavan oğlan, haqq və hüquqa baxmır. O, insan iradəsindən kənardır.

Vazeh əgər uzun müddət Şah Abbas məscidinin bir hücrəsində, cansıxıcı bir mühitdə yaşayırsa və ümumən "cəmiyyətin gözünə az görünürsə" bu heç də onun tərkidünyalığına, zahidliyinə dəlalət etmir. Bu suala da müəllif, qəhrəmanın diliylə belə cavab verir:

– Fətəli, əzizim, sən fikirləşə bilərsən ki, Mirzə Şəfi çox gurultulu, dəbdəbəli sözlər deyir. Özünün isə həyatda qazandığı yalnız bu kiçik hücrədir. Düzdür, əgər mən nadanlıqla barışa bilsəydim, mənim hər şeyim olardı. Əgər mən hazır saray istəsəydim, köçüb yaşayardım. Onda mən – "mən" olmazdım. Dönüb olardım başqa bir adam. Əsrini yüz il qabaqlayanları heç vaxt əsr başa düşmür. Vəhşiləşən nadanlarla, nadanlaşan dindarlarla ünsiyyətdə ola bilmirəm. Ona görə də yeganə rahatlığımı bu kiçik hücrədə tapıram...

"Şərq divanı"nın (Vazehin divanı) ilham çeşməsi Pakizəni – Züleyxanı Mirzənin əlindən alan Qurbanqulular mühiti adı

tariximizdə qızıl hərflərlə qalan neçə-neçə Mirzəmizin taleyini qaranlıqlara bürüyüb zülmətlərə qərq etdi. Lakin, bu qaranlıqları əridən, bu zülmətlə döyüşən işıqlı qüvvə – xalq, onun əzmi, onun iradəsi heç vaxt kölgədə qalmayıb. Əsərdəki Hacı Əsədulla və xüsusilə faytonçu Məşədi Qulam Vazehin iki qolu, iki gözüdür. Biri alim, müəllimdir, yol göstərəndir, biri də dadlı-duzlu, xoş əhvallı, cəsur qollu, qüvvətli haqq adamı, arxa və köməkdir. Məşədi Qulamla, Hacı Əsədulla ilə bağlı əhvalatlar, "Məzar başında" adlı fəsil, "Çəhrayı çiçəkli dünya", "Qara dərili sandıqça" fəsilləri, Mirzə Fətəliylə görüş səhnəsi əsərin ən tə`sirli səhifələrindəndir.

Avropa, Rus və Azərbaycan ədəbi fikrini zaman-zaman məşğul edən, həm guya çox mə`lum, həm əslində heç mə`lum olmayan bir məsələni, Vazeh-Bodenştedt məsələsini Nəbi Xəzri həm tədqiqatçı kimi, həm də mənsur poemanın bütün ruhuna xas olan yanğıyla, təmkinlə və şairanə şərh edir: "Tarixi bir səhv – bəlkə də tarixi bir xidmətə çevrildi. O, (yə`ni Bodenştedt) Mirzə Şəfi dühasının parlaq günəş şəfəqlərini bütün yer üzünə səpələdi". Bodenştedtin təkzibsiz mə`nəvi qəbahəti "Mirzə Şəfinin nəğmələri"ni bütün Avropa dillərində dönə-dönə səsləndirdi. 1892-ci ildə ölmüş Bodenştedtin vəsiyyətinə görə Mirzə Şəfinin əlyazmaları saxlanan sandıqca 1992-ci ildə açılmalıdır. Beləliklə, on ildən sonra çox müəmmalar aydınlaşacaq. Ancaq bir şey çoxdan aydındır, ay kimi, gün kimi aşkardır: xalqımızın Mirzə Şəfi Vazeh adlı işıqlı, ulu bir nəğməkarı olub, var.

Nəbinin "Səssiz fəryadlar" adlı bir nəsr əsəri də var. Povest Almaniya Federativ Respublikasının müxtəlif şəhərlərinə tək-tək də olsa səpələnmiş, ürəyi Vətən həsrətiylə daima yanan qərib həmyerlilərimizin acı taleyindən, ağır güzəranından danışır. Əsərdə ibrətli bir ifadə var: "Bir anın iradəsizliyi". Bəlkə Vazehin qərib düşmüş şair şöhrətinə də, onun əl yazıla-

rının belə qəribə taleyinə də, özünün özünə qarşı inamlı arxayınlığı, laqeydliyi, alman səyyahına Şərqli e`tibarı səbəb olmuşdur. Min cür divanın, dibaçənin, cüngün və sair kitabın üzünü köçürən Mirzə Şəfi nə üçün yazılarının üzünü köçürməmişdi. Müəmma, müəmma.

Nəbi Xəzrinin "Heykəlsiz abidə" mənsur poeması Mirzə Şəfi Vazehə onun övlad və varislərinin kövrək və böyük ehtiramının ifadəsidir.

**1982**

# NƏ XALİS YAXŞI VAR... NƏ XALİS YAMAN

**Milyon baş kəsənin bir quşa rəhmi.**
*Müəllif*

Belə rəvayət edirdilər ki, insan kəllələrindən qalalar, ehramlar ucaldan Teymurləngin də ürəyində nazikcə bir tel varmış və bir dəfə bu tel titrəyib ehtizaza gəlib. Hərbi yürüşlərin birində qoşun-ləşkərə məskənlərini dəyişmək əmri verilir. Çadırlar sökülüb atlara, dəvələrə, qatırlara yüklənir. Bir çadırdan başqa. Onu – lə`l-cəvahirlə, yeddi iqlimin xalı-xalçasıyla bəzənmiş, yeddi ölkənin bac-xəracından yeddi dəfə qiymətli çadırı sökmək üçün yalnız və yalnız Əmir Teymurun öz dilindən razılıq, icazə alınmalıydı, eşidilməliydi.

Baş sərkərdə:

– Qibleyi-aləm, yola hazırıq, bütün çadırlar sökülüb.

Teymur:

– Sökün mənim çadırımı da.

Sərkərdə udqunur. Teymur şübhəyə düşür:

– Nə olub ki?

– Qibleyi-aləm, Sizin çadırınızın üstündə bir quş yuva hörüb balalayıb.

– Quşun yuvasını dağıtmaq günahdır. Çadıra toxunmayın.

Bu yazının müəllifi "Nəsimi" dastanında bütün bu əhvalata bircə misra həsr edib:

Milyon baş kəsənin bir quşa rəhmi.

Yə`ni ən qəddar, qansız, amansız adam da adamdır. Daş qəlbin çırpıntısı daha təəccüblü, daha dəhşətlidir.

Öz doğma xalqının qənimi, məhkəmədə özünün dediyi kimi, məhz öz xalqının – Sovet hökumətinin deyil, öz xalqının düşməni olan, özünün şaqqalanmağa layiq olduğunu gec... çox gec e`tiraf edən Mir Cəfər Bağırov. Azərbaycanın ən seçmə övladlarının qətlinə fərman imzalayan Mir Cəfər. Məşhur "Qızıl gül olmayaydı" poemasında Rəsul Rzanın "Mir Cəllad" adlandırdığı Mir Cəfər...

Belə çıxır ki, Teymurlənglə Mir Cəfəri müqayisə edirəm? Gərək ki, çıxmasın də. Bəs onda nə çıxsın? O çıxsın ki, insan mənfi-müsbət elektrik naqili deyil. Az nisbət var, çox az nisbət, böyük nisbət var, çox böyük nisbət var. Beləliklə "Kişi" deyə çağırılan Mir Cəfər Bağırovun bə`zi kişilikləri barədə eşitdiklərimdən necə eşitmişəmsə, necə yadımda qalıbsa, elə də yazıram:

## O, LAP UŞAQ İDİ AXI...

Qanlı-qadalı, gedər-gəlməzli 1937-ci il arxada qalandan bir qədər sonra, necə deyərlər, iş-işdən keçəndən sonra hansı bir görüşdəsə, məclisdə, yığıncaqda, şəxsi qəbulda, söhbətdəsə guya Bağırovla Məmməd Səid Ordubadi arasında belə bir dialoq olur:

– Məmməd Səid, bir cavan vardı, odlu-alovlu qara oğlan, şair.

– Mikayıl Müşfiqi deyirsən, Mir Cəfər?!

– Hə. O da getdi?

– O hamıdan əvvəl getdi ki...

– Ondan mənim xəbərim olmayıb, ay Səid, öz yoldaşları güdaza verdilər onu. Müşfiqi xilas etmək olardı... o, lap uşaq idi axı...

## SÖYDÜM SÖYÜLDÜM

Bu, müharibədən əvvəlin əhvalatıdır, 1950-ci ildə yay mövsümündə Quba ikiillik müəlimlər institutunda qiyabiçilərə saathesabı dərs deyəndə həmən, müharibədən əvvəlki əhvalatı mənə institutun yerli, qocaman müəllimlərindən biri danışdı. Yəqin ki, çoxdan ölüb-getmiş o kişinin adı heyf... heyflər... yadımda qalmayıb. Nə isə.

Günlərin bir günü Bağırov hansı vacib bir məsələylə əlaqədar Qubaya – özünün dədə-baba yurduna gəlir.

Hansı bir məqamdasa NKVD-nin (XDİK – Xalq Daxili İşlər Komissarlığı) Quba rayon şö`bə rəisinin (milliyətcə ləzginin) hərəkətimi, tərpənişimi, danışığımı kişinin xoşuna gəlmir və o, həmən şəxsi, yə`ni rəisi söyür:

– Köpək oğlu!

Ləzgi də dərhal cavab qaytarır:

– Kopəq uğli üzünsən!

Heç kəs gözünə-qulağına inanmır, ayaqlarının altından yer qaçır. Bağırov heyrətamiz sükutla üzünü ayrı səmtə çevirib müstəntiq diliylə demiş olsaq “hadisə yerindən” uzaqlaşar-uzaqlaşmaz dərhal rayon rəhbərinin, başqa məs`ul şəxslərin işarəsiylə həmən adam tərkisilah edilir, aşırma qayışları dartışdırılıb qırdırılır, köynəyinin hərbi rütbə nişanlı yaxalıqları qopardılır, qolları arxaya qanırılıb, döyülə-döyülə aparılır.

Bu əhvalatdan bir neçə ay sonra Bakıda Mərkəzi Komitənin plenumlarının birində ya tənəffüsdə, ya xudmani, az adam də`vət edilən qəbulda Qubanın raykom katibi və rayon prokuroru utana-utana, xəcalət içində əsib titrəyə-titrəyə Mir Cəfərə yaxınlaşırlar:

– Yoldaş Bağırov, yanınızda üzüqarayıq.

– Nə üçün?

– O alçağa, tərbiyəsizə, cinayətkar, maskalanmış düşmənə görə.

– Başa düşmədim.

– Yoldaş Bağırov, rayonda sizə söyüşlə cavab qaytaran NKVD rəisini deyirik. Basdıq getdi, ancaq...

– Ancağı budur ki...

– Bəli, bəli, gərək onu Sizin gözünüzün qabağında güllələyəydik.

– Yox, bilmədiniz. Ancağı o deyil, ancağı odur ki, axı bu söyüşün sizə nə dəxli. Mən onu söydüm, o da kişi kimi qayıdıb məni söydü. Bu saat gedin onu həbsdən azad edin, üzr istəyin, itirilmiş əmək haqqını ödəyin, vəzifəsinə bərpa edin, silahını, rütbəsini qaytarın. Bu nə özbaşınalıqdır, söydüm söyüldüm.

Hə, əziz oxucu, əhvalatı mənə nəql edən kişinin adı bu dəqiqə yadıma düşdü: Xalidşah müəllim.

## MƏN ADİCƏ VALİDEYNƏM

Bağırovun oğlu Volodya cəbhədə həlak olur. Ata onun cənazəsinin Bakıya gətirilməsinə razılıq vermir:

– Mənim balam heç kimin balasından, əzizindən, doğmasından artıq deyil. Harada canını tapşırıb, orada da torpağa tapşırılsın.

M.S.Ordubadinin tə`kidi və məsləhətilə Mir Cəfər öz evində çox məhdud, əgər belə demək mümkünsə, qapalı hüzr məclisi təşkil edir. Volodyanın anası ruslaşmış Avropa yəhudisi olduğuna görə məclis bir növ dini yox, kompaniya şəklində keçib və əlbəttə müsəlmansayağı, içkisiz və ümumiyyətlə Bağırov meyə meylli adam deyildi. Həmən məclisdə yeganə müsəlman ağsaqqalı olan Məmməd Səid Ordubadi bir növ mollalıq edir, qorxa-qorxa dodaqaltı virdilə (pıçıltıyla) dua oxuyur, ara-sıra ahəstə-ahəstə fatihə verirdi. Bu söhbəti də Süleyman Rüstəmdən eşitmişəm. Süleyman Rüstəm tez-

tez şair-tərcüməçi Vladimir Qafarova sataşıb deyərdi: "Qəlbel Volod".

Bir dəfə xəbər aldım ki, bəs, ay Süleyman müəllim, bu "Qəlbel Volod" nə məsələdir?

O:

– Həmən məclisdə bərk kövrələn Ordubadi istəyir desin ki, mən Volodyanın beşiyini yırğalamışam. Ancaq rus dilini çox pis bildiyindən "Volodin kolıbel" əvəzinə – qəlbel Volod – deyir.

Mir Cəfər də gülməyinimi, hirsinimi boğmaq üçün dodaqlarını bir-birinə sıxıb astaca:

– Nu ladno, starik – deyir.

Həmən Volodya şagird olanda məktəbdə özünü pis aparır. Lovğa-lovğa gəzir, papiros çəkir, əlləri pulla oynayır, ona-buna sataşır, dərs oxumur, müəllimlərin sözünə baxmır, məktəbə maşında gəlir. Ancaq onu intizama də`vət etməyə, barəsində pedaqoji-tərbiyəvi tədbir görməyə, valideyninə xəbər eləməyə heç kəsin cəsarəti çatmırdı. Necə yə`ni, Mir Cəfər Bağırova söz demək olardı?  Ona uşağından şikayət eləmək olardı? Nəhayət onu – Azərbaycan bolşeviklərinin rəhbərini, Azərbaycanda banditizmin kökünü kəsmiş zəhmli çekisti, Stalin yoldaşın yaxın silahdaşını adicə bir məktəbə bir valideyn sifətilə çağırmaq olardı?

Günlərin bir günü səbir kasası daşmış müəllimə – sinif rəhbəri uşaqların arasında, hamının gözü qabağında:

– Volodya, qalx ayağa, sabah səhər valideyninlə gəlməsən, səni dərsə-sinfə buraxmayacağam. Eşitdin!

Qulaqlarına inanmayan bu ərköyün, ipə-sapa yatmayan uşaq yavaşdan dedi:

– Bəli eşitdim.

Sabahı gün... Məktəb direktorunun otağının qapısı astaca döyülür.

– Buyurun.

Çeşməyinin şüşələri bərq vuran Bağırovu bir addımlıqda oğlu Volodyanın əlindən tutaraq onun qarşısında adi, mülayim görkəmdə dayandığını görən direktor istədi yerindən qalxsın, qalxa bilmədi, istədi danışsın, danışa bilmədi.

Bağırov:

– Müəllim, mən də müəllim olmuşam, narahat olmayın, özünüzə gəlin. Sizin qarşınızda sizin yüzlərlə şagirdinizdən birinin – əlindən tutduğum bu uşağın atasıdır dayanan, mən sadəcə adicə bir valideynəm. Volodyanın sinif rəhbəri məni çağırtdırıb.

Hannan-hana özünə gələn direktor:

– Axı, o nə cəsarətlə, yoldaş Bağırov, belə dəhşətli özbaşınalığa yol verib, yoldaş Bağırov, indi bir nəfərin ucbatından hamımız...

Bağırov:

– Xeyr, əksinə. Sizə təşəkkür edirəm ki, məni xəbərdar etmisiniz, ailəmizdən övlad faciəsini uzaqlaşdırmısınız. Xahiş edirəm sinif rəhbərini bura də`vət edin.

Sinif rəhbəri belə görüşə daxilən hazır olduğu üçün özünü itirmədi, ancaq, hər halda vücudundan xəfif bir üşütmə keçdi. Zarafat deyil... olmadı elə, oldu belə.

– Yoldaş Bağırov, Sizdən çox-çox üzr istəyirəm, söz tapa bilmirəm, direktorumuzdan, dərs hissə müdirimizdən, müəllim kollektivindən üzr istəyirəm – onlarla məsləhətləşmədiyimə görə. Axı, kim sizi bura çağırmağı mənə məsləhət görərdi ki, yoldaş Bağırov, ayrı əlacım yox idi, Volodya əldən gedirdi.

Bağırov:

– Aydındır, müəllimə, çox sağ olun. Görünür cəsarət, kişilik nəinki ölkə rəhbərinə – hətta, yox, "hətta" nə üçün, hökmən sinif rəhbərinə də lazımmış.

O vaxtdan Volodya məktəbə maşınsız, pulsuz, iddiasız,

hamı kimi əlində – çiynində şagird çantası, quzu kimi gedib-gəlirdi. Volodyanın qəlbini bir iftixar hissi də bürümüşdü. Onun sinif rəhbəri məktəbin direktoru olmuşdu...

## 5000 NƏFƏR KÖNÜLLÜ

1941-ci il. Müharibənin başlanmasından bir neçə ay sonra Moskvada – Kremldə Azərbaycan xalqının başına gətiriləcək növbəti, dəhşətli, təhqirli, ağlasığmaz fəlakətin planı çəkilmiş, qərarı hazırlanmışdı. Mikoyanın, Beriyanın, Mexlisin hazırladığı bu qərar – e`timadsızlıq, e`tibarsızlıq adıyla Bakı əhalisini Qazaxıstana sürgün etmək qərarı Stalinin imzasını gözləyirdi. Bu barədə Mir Cəfər Bağırova xəbər çatmışdı.

Ağəmi İsmayılov əsil köhnə bakılı idi. Div kimi nəhəng adam idi. Əllinci illərin axırlarınacan yaşadı. Ömrünün son aylarında da qədd-qamətini itirməmişdi. Astma – sinəgir, təngnəfəs xəstəliyindən öldü. Qızının adı Lalə idi, Lola deyirdilər. Oğlunun adı Tarix idi.

İndi kağıza köçürdüyüm bu söhbəti həmişə hərbi qiyafədə – komandir görkəmində gördüyüm Ağəmi İsmayılovdan eşitmişəm:

“Polkovnik rütbəsində Respublikanın Hərbi Komissarı idim. Müharibə gündən-günə qızışırdı. Bakını qan, dərman iyi, yaralı iniltiləri bürüyürdü. Bütün məktəblər qospitallara dönmüşdü. Həftələrlə ev üzü görmür, harda gəldi gözümüzün acısını alırdıq. Mərkəzi Komitə, bütün dövlət aparatı saat kimi işləyirdi. Söz söz idi, göstəriş göstəriş idi, əmr əmr idi, qanun qanun idi. Aşağıdan yuxarı qeydsiz-şərtsiz dəmir tabeçilik, saniyəsinə qədər dəqiq icra...

Hərbi komissarla Bağırovu – MK aparatı, Xalq Komissarları Soveti öz yerində – məhz Bağırovu birləşdirən telefon səsləndi.

Ayağa qalxıb dəstəyi götürdüm. Telefonda onunla heç kim oturan yerdə danışmazdı, danışmağa cəsarət də etməzdi.

– Eşidirəm, yoldaş Bağırov.

– Ağəmi?!

Qulağıma inanmadım. Bağırov tək-tük adamdan başqa hamını çılğın, əsəbi, eləcə, quruca familiyası ilə çağırardı. Məni adımla, tay-tuş kimi çağırdı. Bu "Ağəmi" sözünün deyişində əmrdən çox ərk, dilim-ağzım qurusun, şeytan qulağı kar... lap elə bil yalvarış vardı.

– Bəli, yoldaş Bağırov.

– Ağəmi, yoldaş vaxtı, Bağırov vaxtı deyil, tez bura gəl.

Elə bil maşın yerimirdi, istəyirdim sürücüyə, adyutanta, qoruyucu zabitə deyim ki, düşün maşını itələyək.

Ayaqlarımı cütləyib, əlimi gicgahıma aparıb hərbi tə`zim etdim. Müharibə şəraitində bütün müttəfiq respublika MK Birinci katibləri (Bağırov həm də Xalq Komissarları Şürasının sədri və həm də Zaqafqaziya hərbi dairəsi hərbi şurasının üzvi idi) general-polkovnik rüstbəsindəydilər. Əlbəttə, mən ömrümdə bircə dəfə də olsun onu hərbi paltarda görmədim.

– Ağəmi, əyləş. Evimiz yıxılıb.

İlk dəfə qeyri-ixtiyari mən də onu adıyla çağırdım.

– Nə olub, Mir Cəfər?!

– Mikoyanın, Beriyanın, Mexlisin təklifiylə qərar hazırlanıb ki, Bakını – Bakı camaatını e`timadsız və e`tibarsız kimi Qazaxıstana sürgün etsinlər. Ümid ancaq Stalin yoldaşa qalıb.

Mən çaşmışdım, vahimələnmişdim, heyrət və təəccüb içindəydim. Bu işdə hərbi komissar kimi, Bağırovun əlində, hökmündə, itaətində olan Azərbaycanın bir zərrəsi kimi konkret neyləməliydim, neyləyə bilərdim. Olmaya Bağırov məni Moskvaya – Kremlə Stalinlə danışığa göndərmək istəyir? Yooxx...

– Ağəmi?

– Eşidirəm, yoldaş Bağırov.

– Ağəmi, hər gün ki, cəbhəyə ümumi-tə`cili səfərbərlik qanuniylə əsgər dolu eşelonlar gedir aa.. bax bu eşelonlardan əlavə səhər mənimçün Biləcəri məntəqəsinə povestkasız, rəsmi çağırışsız, hərbi komissarlıqların heç birində qeydə almadan 5000 nəfər seçmə oğlan yığa bilərsən?! Məqsədim var, Ağəmi, yığa bilərsən?

– Yoldaş Bağırov, Sizin hər sözünüz...

– Get, vaxt itirmə... Söz işə dönsün! Əfəlləri, sısqaları, arıqları, füləsən yerə yıxılanları istəmirəm. Hamısı boylu-buxunlu, yarlı-yaraşıqlı... şairlər tez-tez deyir, ey, Azərbaycan, Azərbaycan... bax, Azərbaycanın seçmə oğulları olsun.

Mən xahiş şəklində bu əmri, şəxsi haqq-hesaba, şəxsi mənafeyə, mənəm-mənəmliyə yox, xalqın taleyinə, ölümdiriminə xidmət edən bu müqəddəs əmri necə eşqlə, müqəddəs məs`uliyyətlə yerinə yetirdim – onu Allah bilir. Ancaq, Bağırovun bu beş min uşaqla nə iş görəcəyini düzü başa düşə bilmirdim. Onları da adi qaydada vaqonlara doldurub qeydsiz, dəftər-kitabsız cəbhəyə göndərəcəkmi, ya sürgün əməliyyatı başlananda şəhərdə, körpülərdə, gəmilərdə qayda-qanuna nəzarət üçün istifadə edəcəkdi? Bilmirdim. Soruşmağa da cəsarət etmirdim.

Səhəri gün... Biləcəri... Müxbirlər, fotomüxbirlər, jurnalistlər. Yaşıl işığın himinə, semaforların açılmasına bənd eşelonlar, yük qatarları, sisternlər...

Böyük bir meydanda 5000 nəfər povestkasız oğlan.

– Yoldaş Bağırov, əmriniz yerinə yetirildi, uşaqlar hazırdır!

Mir Cəfər uşaqlara baxanda mən də ona baxdım. Göy üzü tərtəmiz idi. Ancaq, Mir Cəfər Bağırovun çeşməyinin bərq vuran şüşələrinə elə bil seyrək yağış damcıları düşmüşdü...

Silahlı əsgərlərlə dövrələnmiş xüsusi rabitə məntəqəsinə daxil olduq. Bağırov telefon aparatlarından birinin dəstəyini qaldırdı.

– İosif Vissarionoviç, salam.

– Salam, Mir Cəfər, vəziyyət necədir?

– Bakıdan arxayın olun. Hər neçə saatdan bir cəbhəyə yanacaq və eşelon dalınca eşelon gedir. Bu eşelonlardan əlavə bu saat Biləcəriyə 5000 nəfər könüllü gəlib cəbhəyə getmək üçün, heç birinin də çağırış vərəqəsi, povestkası yoxdur. İosif Vissarionoviç, necə bilirsiz, belə uşaqların xalqına, Vətəninə, Azərbaycanın paytaxtı neft Bakısına, Sizin fəhlə şəhərinizə faşizmlə ölüm-dirim müharibəsində e`timadsızlıq, e`tibarsızlıq göstərmək, onu Qazaxıstan səhralarına sürgün etmək nə dərəcədə düzgündür?

Sükut... sükut...

– Mir Cəfər, məsələ aydındır. Narahat olmayın. Kompozitor Üzeyir Hacıbəyov, Koroğlu-Bülbül, şair Səməd Vurğun Vəkilov yoldaş necədir?

– Çox sağ olun, yaxşıdırlar, İosif Vissarionoviç.

Bağırov çeşməyini çıxarıb şüşələrini qar kimi ağappaq dəsmala silir, çeşməksiz üzümə baxır.

– Ağəmi, Stalin bilirsən məndən kimləri xəbər aldı? Üzeyiri, Səməd Vurğunu, Bülbülü. O, demək istəyirdi ki, nəinki 5000 nəfər könüllüsü olan xalqı, təkcə belə dahilər yetişdirən xalqı xəyanətlə damğalamaq cinayətdir. Ağəmi, uşaqlara de, çox sağ olsunlar, haçan qanuni növbələri, çağırış vaxtları çatar, onda gələrlər.

## QOCA, BU AĞ OLDU

Xanəndə Haşım Kələntərlinin Yetim segahından olmazdı. Haşımın Yetim segahına dağ-daş dözməzdi, o ki, qaldı adam ola; hünərin var kövrəlmə, görüm necə kövrəlmirsən, ağlama görüm necə ağlamırsan, lap toyda, qonaqlıqda, konsertdə, radioda – dünyanın lap düz vaxtında. Vay onda ki...

1942-ci il, müharibə... Vaxtaşırı şairlər, yazıçılar, xüsusilə musiqi xadimləri – çalanlar, oxuyanlar, estrada ustaları, qüdrətli səhnə ulduzları, aktyorlar, məzhəkəçilər cəbhələrə, ön atəş xəttinə yaxın yerlərə gedir, döyüşçülər qarşısında çıxış edirdilər. Belə briqadalar, eyni zamanda, ayrı-ayrı səfərbərlik – yolasalma məntəqələrinə, hərbi komissarlıqların, məktəblərin, kolxoz-sovxoz idarələrinin həyətlərinə – bir sözlə cəbhəyə getmək üçün toplaşanların xidmətinə, hüzuruna da lap tez-tez göndərilirdi.

Haşım Kələntərlinin başçılığı ilə bir dəstə də Nardaran kəndinə göndərilir. Hər xanəndə Nardarana getmirdi, bu gün də getmir. Haşım özünə arxayın idi. Bəhram Mansurov, Teyyub Dəmirov, dəfçi Əzizağa Nəcəfov (xanəndinin dəfi öz yerində) rəsmi göstərişlə gedirlər Nardarana ki, cəbhəyə yola düşən uşaqlar üçün, görüşü Allaha qalan, ayrılıqlar odunda yanıb-qovrulan ata-analar, xala-bacılar, babalar, nənələr üçün çalıb-oxusunlar, bu məqamda onların könlünü şad etsinlər, ürək-dirək versinlər. Ancaq, iş tərsinə olur. Yüngülvari diringədən sonra Haşım Kələntərli dəfi qulağının dibinə qoyub başlayır Yetim segaha, başlayır nə başlayır, deyilənə görə burada, bu məntəqədə, bu yola salhasalda – ölümə gedənlər, ölümə yola salanlar içində bir ağlaşma, bir şivən, bir vaveyla qopur ki, dönüb olur xalis Aşura – səsi-sədası da qaşla-göz arasında, simsiz teleqrafla gedib çatır Bağırova.

Mərkəzi Komitə. Bağırovun kabineti. Gözlər hədəqədən çıxıb. Karandaşlar şaq-şaqqıldayır. Məmməd Səid Ordubadi lap qabaqda, daha doğrusu kişinin sağında əyləşib. Mirzə İbrahimov və başqa əlaqədar birinci məs`ul şəxslər və təbii ki, günahkar – əsas günahkar xanəndə və sazandalar da buradadır. Sükut... heç kəs çınqırını çəkmir. Mir Cəfər Bağırov üzünü Haşım Kələntərliyə tutub qəzəblə onun gözünün içinə baxa-baxa yarı rus, yarı azərbaycanca:

– Da tı je nastoyaşiy vraq naroda. Osobenno v takiye vremena.

Haşım qımıldanmaq istəyəndə:

– Molçat! Səni, sənin bu quyruqlarını camaatı ruhlandırmağa, ürəkləndirməyə göndərmişdik, yoxsa sinə vurdurub ağlatmağa, əl-qolunu yanına saldırmağa, cəbhədən qorxuzub qaçırmağa. Nu otveçay! Otveçayte vse.

Haşım Kələntərli Lənkəran ləhcəsilə – Mir Cəfər dadaş, – deyəndə kişini lap od götürdü, xanəndəni boğmaq dərəcəsinə gəldi.

– Sən xanəndəsən, yoxsa bayquş, sən səfərbərlik məntəqəsinə oxumağa getmişdin, yoxsa ulamağa?!

Kimin haqqı-hünəri vardı dinib-danışa; nəinki günahkarlar, hətta bilavasitə dəxli olmayanlar da yerindəcə qurumuşdu.

Bağırov birdən üzünü Ordubadiyə tutur:

– Nu starik, tı bı im kakoye nakazaniye naznaçil bı, a?

– Yoldaş Bağırov, hamısını güllələmək!

Bu sözdən sonra Haşım Kələntərligil səndələdi, üzlərinə meyit rəngi çökdü. Zarafat deyil, güllələdi, güllələdi də... ürəklərində – bu Ordubadi nə qansız, nə qəddar adammış – dedilər.

Bağırov:

– Ay qoca, bu lap ağ oldu. Onlara belə cəza verək ki, bundan sonra heç bir konsertdə, heç bir ictimai yerdə, radioda-filanda çıxış etməsinlər, ta ağılları başlarına gəlincə. Gedə bilərsiniz.

Haşım Kələntərli ilə söhbətim, yaxınlığım olmayıb, Teyyub Dəmirov və Əzizağa Nəcəfovla da həmçinin. Ancaq Bəhram Mənsurovla küçədə, bazarda, başqa yerlərdə tez-tez görüşüb söhbətləşərdik. Axı, qocaman, ustad, müəllim tarzən cəmi iki-üç ildir ki, rəhmətə gedib. Allah ona rəhmət eləsin.

Bəhram Mənsurov deyirdi:

– Qan-tər içində kabineti tərk etdik – əjdaha ağzından, diri gözlü ölümdən qurtarmışdıq, ən yüngülü həbsdən qurtarmışdıq. Olaydı 37... Cəhənnəm olsun radio da, konsert də.

Elə bu dəm gördük ki, Ordubadi də çıxdı, lənkəranlılar demişkən, çıxcayın Haşım Kələntərli cumdu üstünə.

– Kişi, Məmməd Səid, ayıb deyil ki, saçının-saqqalının (Ordubadinin nə saçı vardı, nə saqqalı) bu vaxtında qətlimizə fitva verdin, necə qıydın, ürəyin daşdı məgər, yə`ni o kitabları sən yazmamısan?

– Gədə, az danış, get bir Lənkəran plovu bişitdir, bizi də çağır, dəfi götür, Nardarandakı Yetim segahı başla dəmdəsgahıyla. Güllələmək deməsəydim, hamınızı güllələyəcəkdi Mir Cəfər. O tərsi mənə tanıtdırırsınız?!

## NECƏ? NECƏ? MƏMMƏDƏMİNİN SAĞLIĞINA?!

Qocaman ədibimiz, mərhum Əli Vəliyev nəinki Xalq yazıçısı idi, bütün varlığıyla, başdan-ayağa xalq adamı idi. Əli müəllimi yaxından tanıyanlar onun bütövlüyünün, xalisliyinin, konkretliyinin, sözünə sahibliyinin, sözü adamın üzünə şax deməyinin, son nəfəsinə kimi dilinə yalan gətirməməyinin şahididirlər. Şahidlər deyəndə ki, şahidlər də bu saat bir o qədər qalmayıb... Ancaq, Əli müəllimin mərdliyi, xeyirxahlığı yazılı-şifahi xatirələrdə zaman-zaman yaşayacaq. Elə buna görə də Mir Cəfər Bağırov "muzdur" deyə çağırdığı Əli Vəliyevin xətrini istəyir, ona inanırdı. Bu da ki, bəzi rəhbər yoldaşları, böyük vəzifə sahiblərini qısqandırır, qıcıqlandırırdı. İndi yadigar üçün qələmə aldığım bu əhvalatı Əli Vəliyevin öz dilindən eşitmişəm. Yox, yox, az qala yadımdan çıxmışdı. Səməd Vurğunu millətçilik damğasıyla ləkələyib, Bağırovun gözündən salanlarla Əli Vəliyev açıq, amansız

mübarizə aparır, o, dəhşətli, ziddiyyətli, ipinin üstünə odun yığmaq olmayan adamla – respublikanın külli-ixtiyar sahibiylə böyük şair arasında canlı ünsiyyət körpüsünə çevrilirdi.

– Yoldaş Bağırov, Səməd Vurğun xalqımızın böyük şairidir.

– Bıl.

– Xeyr. Bıl də, yest də!

Bu gün səksəni haqlayan, Cəfər Cabbarlıdan sonra Azərbaycanın bir nömrəli dramaturqu hesab etdiyim, şairanə ədibimiz cavan İlyas Əfəndiyev üçün, onun çətin, ağır günlərində körpə balaları naminə, üzünə üz tutub Əli müəllimin Bağırovun hüzuruna minnətə getməyini yaddan çıxarmaq yalnız bir ailənin yox, vallahi-billahi bir xalqın nankorluğu olardı. Çünki, hər sönən iste`dad xalqın cibindən gedirdi. Müharibə vaxtı rus generalını şəhərin mərkəzindəki evindən çıxarıb, onun mənzilini Əliağa Vahidə vermək bilirsiniz nə demək idi?!

Əli Vəliyevin qulağına dəqiq çatır ki, Respublika prokuroru Xəlil Əfəndiyev "Kommunist" qəzetinin barəsində onu heç oxumadan, əlinə götürmədən artıq-əskik danışır.

– Xəlil Əfəndiyev, Əli Vəliyevdir danışan. İki saat ərzində "Kommunist" qəzetinə şəxsən abunə qəbzini öz ayağınla gətirib öz əlinlə mənə göstərməsən, kişiyə deyəcəyəm ki, Xəlil Əfəndiyev "Kommunist" qəzetini saymır, oxumur.

– Ay Əli müəllim.

– Qurtardıq.

Hə, Əli Vəliyev danışırdı:

– ...1946-cı il idi. "Kommunist" qəzetinin redaktoruydum. O zaman xarici ölkələrlə əlaqə, xaricə gediş-gəliş nə gəzirdi? SSRİ Xarici İşlər Nazirliyinin hətta məhdud, zəruri əlaqələri belə çox məhdud idi. Hamı, hər şey dəmir pərdə dalındaydı. Türkiyəylə Azərbaycan söhbətindən hələ də qan iyi gəlirdi. Hələ də türk, "Türkiyə" deyənin, Məmməd Əminin – Rəsul-

zadə Məmməd Əminin – adının yanından keçənin dilini boğazından çəkib çıxardırdılar. Biz uşaqlar, necə deyərlər, yeniyetmələr, tələbələr Məmməd Əmini tanımırdıq. Yadımdadır ki, Məmməd dayım yana-yana elə hey "Məmməd Əmin, Məmməd Əmin" deyərdi, mən başa düşməzdim. 62 yaşlı Məmməd Əmin Ankarada sağ-salamat idi və onu tanıyanlar Bakıda sükutla buna şükr edirdilər...

Bəli, belə bir zamanda nə təhər olursa, hansı diplomatik mübadiləyə, danışığa görəsə, hansı diplomatik kanallasa Türkiyə həmkarlar təşkilatının balaca bir nümayəndə hey`əti – altı nəfər Moskvaya gəlir. O zaman respublika, vilayət, əyalət mərkəzlərinin özbaşına belə qonaq qəbul etməyə qətiyyən ixtiyarı yox idi. Yerinə düşməsə də deyim. Hələ Heydər Hüseynov faciəsi, suyu üfürə-üfürə içən Məmməd Arifin sən demə "Türk casusu" olmağı – Bağırovun Respublika fəalları yığıncağında bu "casusu" ifşa etməyi – 1950-ci il hələ qabaqdaydı. Siz biləni Məmməd Arif kimi kölgəsindən qorxan, liberal, cəsarətsiz bir adamı "Türk casusu" adlandıran Mir Cəfər Bağırovun Məmməd Əmin Rəsulzadə kimi bir nəhəngə, mühacirə, mücahidə münasibəti necə olmalıydı?

Moskvada iş nə təhər gətirmişdisə, nümayəndə hey`ətinin tə`kidlə xahişinə görəmi, diplomatik incəliyə, nəzakətə görəmi, ya hansı bir mülahizəyləsə həmən türk qonaqları Bakıya gətirdilər. Bu gəliş xalqa, ictimaiyyətə bildirilmədi, bu haqda nə yazıldı, nə deyildi. Ancaq fakt o idi ki, türklər Bakıdaydı və onların hər birinə bəlkə altı çekist – həm Moskvadan, həm Bakıdan nəzarət edirdi. Güman gəlməz yerdə, məhdud, məxfi ziyafətdə iştirak edən adamların biri də şəxsən Bağırovun göstərişiylə məndim. Bu məni gözügötürməyənlərə lap dağ çəkmişdi.

Hamı da bilir, Bağırov da bilirdi ki, mən içki içən adam deyiləm. Ancaq, məclisdə – belə bir məclisdə ələdüşməz bu

nağıl fürsətdə söz deməliydim. Gözümün qabağına Məmməd Əmin gəldi – bizim Məmməd Əmin... ey dadi-bidad, bu dirigözlü ölümə getmək olardı. Birdən yadıma bir Məmməd Əmin də düşdü – türk şairi Məmməd Əmin Yurdaqul. Beləliklə, mən Rəsulzadəni də, Yurdaqulu da bir kənara qoyub ürəyimdə, vicdanımda, yaralı yerimdə Məmmədəmin Rəsulzadə, dilimdə şair Məmməd Əmin, piyaləmi götürüb ayağa qalxdım, xalqın, millətin əziz oğlu, sözü-söhbəti dillərdə gəzən, arzuları ürəklərdə yaşayan Məmməd Əminin sağlığına ürəyimdən nə qədər xoş, həsrətli söz gəldi dedim. Dedim ki, Sizin – möhtərəm qonaqların şəxsində Məmməd Əminə Bakının, bütün Azərbaycan oxucularının salamını yetirin. Mən elə sözlər, elə ikimə`nalı sözlər seçirdim ki, məhşər ayağına çəkiləndə vəziyyətdən çıxa bilim. Məhşər ayağı nağd idi. Çıxış yolum da nağd idi.

Bəli, həmən-həmən Mir Cəfərə çatdırdılar ki, bəs bu da Sizin muzdurunuz, bu da Sizin Kommunist yazıçınız, bu da Sizin ərköyün uşağa döndərdiyiniz Əli Vəliyev ki, bəs, türklərin qabağında, Moskvadan gələnlərin qulağı eşidə-eşidə Musavat hökumətinin böyüyü, hal-hazırda Türkiyədə yaşayan, Azərbaycanı Sovet hökumətindən ayırmağa çalışan Məmməd Əminin şərəfinə dəm-dəsgahla sağlıq dedi.

Bəli, göy guruldadı, ildırım çaxdı. Mərkəzi Komitənin təbliğat-təşviqat üzrə katibi Həsən Həsənov (hər dövrün bir Həsəni olub) redaksiyaya zəng çaldı:

– Əli Qara oğlu, gəl görək, çağırır səni, işin şuluqdur.

– Həsən Həsənov, neynək, canın sağ olsun.

İçəri girdim. Bağırovun gözləri pələng gözləri kimi yanırdı.Üzünü tutdu əyləşənlərə.

– Posmotrite na neqo.

Sonra mənə:

– Sən muzdur deyilsən, müzürsən, düşmansan.

– Yoldaş Bağırov, mən düşman-zad deyiləm, düşman Sizin xəbərçilərinizdir, özü də savadsız xəbərçiləriniz.

– Kak tak?

– Aydınlaşdırın məsələni, günahım varsa...

– Sən Məmməd Əminin sağlığına nitq demisən.

– Bəli, yoldaş Bağırov, mən Türk xalqının sevimli şairi Məmməd Əminin – Məmmədəmin Yurdaqulun şərəfinə sağlıq demişəm, ona Azərbaycan oxucularının salamını göndərmişəm. Yoldaş Bağırov, mən günahkaram ki, bu yoldaşların dünyadan xəbəri yoxdur. Kimin ki, adı Məmməd Əmin oldu, deməli qurtardı getdi? Belə şey olar?

Mir Cəfər Bağırov sustaldı, əlindəki karandaşları stolun üstünə tökdü. Bu səfər istehzalı, sakitanə bir qəzəblə, nifrət və kinayəylə üzünü həmən Həsən Həsənova, Qafarzadəyə, Əlizadəyə, Teymur Quliyevə, Qəzənfər Məmmədova, Vitali Səmədova və başqalarına tutub dedi:

– Ay Azərbaycanın dahi rəhbərləri, qoysanız işləyək. Uxodite!

Mən də ayağa qalxanda

– Muzdur, sən qal, – dedi və zəngi basdı. Bildim ki, limonlu çay gələcək...

**22 iyul 1992**

# MƏN Kİ, GÖZƏL DEYİLDİM

Müharibədən danışan, onun tö`rətdiyi dəhşətləri, fəlakətləri göstərən filmlərə çox baxmışıq. Saysız-hesabsız kino kadrlarındakı kütləvi döyüş səhnələri, atəş nöqtələri, istehkamlar, səngərlər, tank nəriltiləri, bomba və top gurultuları, pulemyot qəhqəhələri, sarğısı qana boyanmış yaralılar gözümüzün önündədir. Qələbəyə inam eşqilə alışıb-yanan çoxmillətli Vətən torpağımızın ağır günləri, xalqımızın fədakarlığı, iradəsi kino sənətinin geniş, e`cazkar imkanları vasitəsilə gələcək nəsillər üçün yadigara çevrilmiş, tarix üçün əbədiləşdirilmişdir. Ssenarist, rejissor və operatorlar onu müxtəlif şəkildə açmağa, əks etdirməyə sə`y göstərmiş, axtarış və kəşflər yoluyla getmişlər.

Azərbaycanın dağ kəndlərindən birinin mənzərəsi. Yamaclardan, ətəklərdən keçən torpaq yol – kəndin cavanları, kişiləri bu yolla cəbhəyə gediblər. Müharibədir, ölüm-dirim məqamıdır. Ancaq, buraya sükut çöküb. Ekranda görünən qız da, kişi də bir müddət yalnız baxışları və hərəkətləriylə danışırlar. Bu sükutu uzaqlarda gedən qızğın döyüşlərin hayı-harayı, anaların və körpələrin fəryadı doğurur. Ukrayna kəndləri tarimar olmuş, Azərbaycan kəndləri isə sükuta qərq olmuşdur.

Bəli, müharibənin dəhşətini, sənət nöqteyi-nəzərindən top-tüfənglə ifadə etmək vacib deyil. Görkəmli yazıçımız Bayram Bayramovun eyni adlı povesti əsasında çəkilmiş (povestin müəllifi həm də ssenaristlərdən biridir) "Mən ki, gözəl

deyildim" məhz bu yolla yaradılıb. İlk kadrdan son kadradək qulağımıza güllə səsi gəlmir. Lakin, müharibədir. Araba təkərlərinin şırımladığı torpaq yol... Ekrandakı qızın adı Səidədir. O, atasını cəbhəyə yola salır. Sün`ilikdən uzaq bir səhnə. Hələ körpə ikən anasını itirmiş yeniyetmə övlad, atasını – yeganə pənahını, ümidini itirməkdən qorxmazmı?.. Nəvazişlər də, təbəssümlər də, ata əllərinin saçlarda gəzən sığalı da ayrılıq əzabını yüngülləşdirmir. Ayrılıq və vüsal, ümid və ümidsizlik, dözüm və mətanət surətlərin zahiri əlamət və hərəkətlərində deyil, əhvali-ruhiyyəsində, psixoloji vəziyyətlərindədir. Ümumiyyətlə, filmin yaradıcı kollektivi zahiri effekt və ritorikadan uzaq, insanların daxili aləmini, duyğu və düşüncələr dünyasını açıb göstərən ekran əsəri yaratmışdır.

Titr yazılarının kinonun əvvəlində, ortasında, yaxud axırında görünməsi kinonun bu günü üçün yeni, əhəmiyyətli bir şey, detal deyildir.

Lakin, bunun özünə də vəziyyətdən, məzmundan, ahəngdən doğan bir mə`na vermək olar. Kadr kadrı əvəz etdikcə müharibənin əks-sədası Səidəgilin kəndində dəqiqəbədəqiqə eşidilir.

Sovet mə`lumat bürosu xəbər verir ki, qoşunlarımız gərgin döyüşlərdən sonra filan şəhəri tərk etdilər. Vəziyyət ağırdır.

Cəbhəyə silah, ərzaq lazımdır. Balaca dağ kəndinin adamları qələbəni tə`min etmək, yaxınlaşdırmaq üçün fədakarlıq göstərir, müharibənin ağırlığını böyük təmkinlə öz çiyinlərində daşıyırlar. Bu gərginliyin fonunda oxuyuruq: "Mən ki, gözəl deyildim". Yox, sən gözəldin, Səidə! Yetimliyin yandırıb-yaxdığı uşaqlığın da, hər səhər, hər axşam ata həsrətilə dolan-boşalan gözlərin də, halın pərişan olanda dilində dolaşan "ata" sözü də, gözəldir!

Bəs əgər sənin arzu və əməllərin, cəmiyyət üçün faydalı olmaq həvəsin, əmi himayəsinin çərçivəsinə sığışa bilməyən,

minnət götürməyən həssas, incə qəlbin, ismət pərdəsinə bürünmüş qönçə məhəbbətin gözəl olmasaydı – filmdəki hadisələr sənin ətrafında cərəyan edə bilərdimi? Mühəndis Çingizin, şofer Məzahirin və səni əhatə edən bütün adamların taleyi səninlə bağlana bilərdimi?

Filmin mərkəzində, məğzində belə bir fikir durur ki, insanlar biri-birini başa düşməsələr – onların arasında qarşılıqlı əlaqə, mə`nəvi yaxınlıq olmasa, yaşamaq, yaratmaq, mübarizə aparmaq, böyük məqsədlərə çatmaq mümkün deyil, xüsusilə faşizm taununun bəşəriyyət üçün təhlükəyə, bəlaya çevrildiyi belə bir vaxtda!

Filmdə belə bir dialoq var:

– Faşizm bütün ölkələrə keçə bilərmi?

– O, insanlardan asılıdır!

Səidənin atası qızına cəbhədən göndərdiyi son məktubunda yazır ki, yer üzünün hər yerində ayrı-ayrı adamları və bütövlükdə bəşəriyyəti birləşdirən yollar və cığırlar var! Rejissorun verdiyi traktovka, mə`na, operator məharəti bu fikri ekranda əyaniləşdirə bilmişdir. Yollar... İnsanları yaxınlaşdıran, qovuşduran irili-xırdalı yollar, izlər...

Səidə yaddaqalan, son dərəcə təbiiliyi ilə nəzəri cəlb edən surətdir. Atasından yadigar qalan ərik ağacının əzilməsinə dözməyən, mühəndis Çingizin hədiyyəsini "mən qonaqdan zəhmət haqqı almıram" deyə geri qaytaran, əmisi arvadının ikibaşlı eyhamlarına səbr edən, xoş xəbərli, qara xəbərli məktubları nigaran-nigaran paylayan, mühəndisin çaldığı tara qulaq asa-asa gözlərində böyük, qaynar fəhlə qəsəbəsi canlanan Səidə tək-tənha deyil. O, özü kimi qayğıkeş, nəcib, fədakar insanların arasındadır. O, Çingizdən zəhmətlə, elmlə, biliklə həyatı daha da gözəlləşdirmək bacarığı öyrənir. Oğlundan qara xəbər gəlmiş dağ cüssəli Həmid kişidən təmkin və dözüm nümunəsi götürür.

Poçtalyon Rəşiddən insana, cəmiyyətə, el-obaya böyüklüyündən, kiçikliyindən asılı olmayaraq xidmət həvəsini, vətəndaşlıq borcunu əxz edir. Məzahirin sevgi e`tirafından xoş bir həyəcan keçirir. Əlbəttə, Səidənin əmisi və əmisi arvadı haqda, necə deyərlər, o qədər də ağız dolusu danışmaq olmur. Çünki, həmən adamların mə`nəvi aləmi yoxsuldur, əsas mühitlə həmahəng deyil. Yuxarıda dediyim kimi, xüsusilə Gözəl xalanın Səidəyə münasibəti bu fikri sübut edir. Əlbəttə, onlar filmdə həmən keyfiyyətləriylə də təbii tə`sir bağışlayırlar. Təbiilik deyəndə – heç vaxt unuda bilməyəcəyim detal, daha doğrusu, bir lövhə yadıma düşdü. Səidə lap əldən-ayaqdan düşmüş kor qocaya da üçkünc əsgər məktubu verir.

Kişi məktubu öpüb nursuz gözlərinin üstünə qoyur, sonra qıza qaytarıb deyir:

– Oxu.

Sükut...

– Oxu!

Qız axı bu ölüm xəbərli kağızı necə oxusun?! Bu zaman qoca titrək barmaqlarını Səidənin gözlərinin həlqəsində, üzündə gəzdirir. O, göz yaşı axtarır, göz yaşı! Və hər şeyi başa düşüb əllərini göylərə qaldırır.

– Ay adamlar, övladlarımızı əlimizdən alırlar! – deyə fəryad edir... Filmdə çəkilən bütün aktyorların oyunu yadda qalır. Hərəkətlər əsaslandırılır. Məsələn, ilk baxışda laübalı, məzəli, bir az da qeyri-ciddi görünən Məzahir bir məqamda əsil xasiyyətini göstərir və yadda qalır. Məktub paylamağın öhdəsindən asanlıqla gələ biləcəyini Səidəyə deyən şofer qara kağızı cibində saxlayıb sahibinə çatdırmır. Onun ürəyi daş deyil, adamların göz yaşına dözə bilmir.

Respublikamızın görkəmli səhnə ustaları İsmayıl Osmanlı, Rza Əfqanlı, Sadıq Hüseynov filmdə inandırıcı, canlı, təbii görünürlər. Böyük sənətkarlıq təcrübəsinə malik, uzun,

zəngin yaradıcılıq yolu keçmiş aktyor ansamblının içərisində filmin baş qəhrəmanı Səidə rolunda çıxış edən Xuraman Qasımovanın orijinal, mə`nalı, yanıqlı və səmimi oyunu xüsusi qeyd edilməlidir.

Böyük sadəlik, yüksək mədəni səviyyə, şəxsi, fitri cazibədarlıq hər gəncə qismət olmur. Səhnədə və ekranda rejissor müəllif fikrinin açılması, tamaşaçıya çatdırılması aktyordan asılıdır. Xuraman Qasımova burada öz yaradıcılıq vəzifəsini ilham və inamla yerinə yetirmişdir. Yazıçı ssenarist Bayram Bayramovun kino-dramaturgiya sahəsində iste`dadlı kinorejissor, Əməkdar İncəsənət xadimi Tofiq Tağızadə ilə ilk əməkdaşlığı gözəl bəhrə vermişdir.

Görkəmli, gözəl bəstəkarımız Fikrət Əmirovun filmə yazdığı musiqi məzmunla, hadisələrin dinamikasıyla, vəziyyət və əhvali-ruhiyyələrlə həmahəngdir. Yadınıza salın bir epizodu: Səidə məktub paylayır. Musiqi səslənir. Musiqi tələsik addım səsləridir, musiqi qapıları bir-bir döyür. Musiqi həyəcandan çırpınan, döyünən ürəkdir.

"Mən ki, gözəl deyildim" filmi Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının yaradıcılıq nailiyyətidir.

**2 may 1969**

# NƏBATİ YARADICILIĞI HAQQINDA TƏƏSSÜRATIM

*(Tələbəykən... 1947)*

XIX əsr Azərbaycan şe`rinin görkəmli nümayəndəsi Seyid Əbülqasım Nəbatinin yaradıcılığı mürəkkəb və orijinaldır. Qısa da olsa şairin ümumi yaradıcılıq yolunu nəzərdən keçirək: bir tərəfdən xalq ruhunda, nəcib hisslərlə dolu və insani məhəbbətin tərənnümünə həsr edilmiş aşiqanə-rübabi şe`rlər. Digər tərəfdən, İslam dininin ehkamlarına qarşı öz yeni məramnaməsi ilə çıxış edən sufi təriqətinin ideyalarına həsr edilmiş atəşin-fəlsəfi şe`rlər, əsl həyat və həqiqətin fəna mülkündə bulunduğunu təlqin edən şe`rlər. İlahi eşq və mücərrəd gözəli təmsil edən şe`rlər.

Nəhayət, aşiqi və məddahı olduğu bu məsələnin belə puçluğunu qət edən, onunla belə dünya sirrlərini öyrənə biləcəyini görən, hər şeyə şübhə edən və bunun nəticəsində "Nədir" və "Ləngəm" rədifli aqnostik və sintetik əsərlər yazan, tərəddüd və şübhələr içərisində çırpınan bir şair qəlbinin döyüntüləri. Əlbəttə, şair yaradıcılığındakı bu ziddiyyətli mərhələlərin əmələ gəlməsi əsassız və səbəbsiz deyildir. Həyatından mə`lum olduğu üzrə şair ömrünün müəyyən hissəsini, daha doğrusu, gənclik illərini Qaradağ, Üçtibin, Muğanda keçirmişdir. Bu dövrdə o, təbiətlə, xalqla, maddi həyatla sıx surətdə bağlı olmuş və bunun nəticəsində real, xalq ruhuna yaxın və həyati, eşqi tərənnüm edən bir sıra şe`rlər yazmışdır.

Yenə bahar oldu, açıldı güllər,
Bülbül naləsindən tutulur qulaq.
Gül gülə sarmaşıb, çiçək çiçəyə.
Lalə cami-cəmdən gətirir soraq.

və ya:

Yenə səba oldu çəmənlər,
Güldən bəzəndi gülşənlər,
Çıxmış seyrə gül bədənlər,
Hamı üzü sadə, sadə.

və ya:

Qəmzən oxu od vurubdur canıma,
Cəllad gözün su səpibdir qanıma.
Başına döndüyüm gəl bir yanıma,
Sərxoş incə belli, ay sənəm-sənəm.
(Ə.Nəbati. Seçilmiş əsərləri, Azərnəşr 1939.)

Sonralar şair yaşa dolub və kamilləşərək Qaradağda başına müridlər toplayır, sufi təriqətlərindən birinə başçılıq edir. Şair bu məslək vasitəsi ilə "həqqə", yə`ni allaha çatmaq və dünyanın sirlərinə vaqif olmaq istəyir. O, uzun müddət həqqin vüsalına yetişməyə can atır. Vaxtını "xəlvət"də e`tirafda keçirməklə məşğul olur. Onun fəlsəfi şe`rlərinin əksəriyyəti bu dövrün məhsuludur. Hicran dərdinə çarə tapmayan şair deyir:

Dərdi hicranə tapmadım çarə,
Künci-vəhdətdə bərqərar oldum.

Və ya şair "Guşeyi-vəhdət"i tə`rif edərək yazır:

Guşeyi vəhdət nə əcəb ca imiş
Sirri-pünhan onda hüveyda imiş.
Aşiqi-divanələrin mənzili,
Rütbəyə bax, ərşi-müəlla imiş.

Daha sonra:

Anladım indi ki, "ənəlhəq" deyən
Şeyxdəki rəbbiəl ə`la imiş – deyir.

Şairin bu dövrdəki şe`rlərində işlədilən "şərab", "saqi", "canan", "hicran", "vüsal" və bu kimi ifadələr heç şübhəsiz rəmzdir. Bütün bu obrazlar, yalnız "ona", allaha çatmaq üçün bir vasitə kimi işlədilmişdir. Məs:

Yox, yalan dedim, hərzə söylədim,
Vazihin deyim, doğru söyləyim.
Həqqə arifi vasil etməyə,
Bir dodaqları gül şəkər gərək.

Şairin rəmzi mə`nada işlətdiyi gözəl, bə`zən həqqin başqa formada təzahüründən ibarətdir ki, guya "sirri-vəhdət" onun çöhrəsində nəql edilmişdir. Məs:

Qoygilən qədəm deyrə, lacərəm,
Nəqşi-bütdə gör sirri-vəhdəti.
Bu çikunədən vaqif olmağa,
Bir cünuni-həq, mərdi-ər gərək.

Qeyd etdik ki, Nəbati şərabı da həqqə vasil olmaq üçün bir vasitə kimi işlətmişdir. "Künci-qəfəs"də oturmaqdan təngə

gələn şair, saqidən bir cam "badeyi-gülrəng" istəyir ki, onu içib ta "türfi-gülüstan"a balüpər açsın.

Saqi, bir əl at o badeyi gülrəngə,
Bir cam yetir bu mürğü xoş o ahəngə.
Ta türfi-gülüstanə açsın bir pərü bal,
Bu künci-qəfəs məni gətirdi təngə.

Nəbati eyni zamanda, ilahi eşqin tərənnümündən doymamış və qəlbən ona sarılmışdı. Dos. F.Qasımzadə yazır: "Nəbati, əsl zövq və nəş`əni, mənsəb və sərvət kimi maddiyyətdən uzaq, mə`nəviyyat aləmində tapmış və gözlərini ruhun və ruhaniyyətin gizli zövqlərinə çevirmişdi. İlahi, sufi eşqə vicdanı ilə və bütün qəlbi ilə sarılmışdı..." (Az. SSR Elmlər Akademiyasının xəbərləri N11, 1945-ci il səh.69)

Nəbatinin bu dövrdəki yaradıcılığında Böyük Füzulinin tə`siri hiss edilməyə bilməz. Füzulinin

Eylə sərməstəm ki, idrak etməzəm dünya nədir.
Mən kiməm, saqi olan kimdir, meyü-səhba nədir.

beyti ilə başlayan məşhur qəzəlinə Nəbati:

Öylə məstəm bilmərəm kim, mey nədir, mina nədir.
Gül nədir, bülbül nədir, sünbül nədir, səhra nədir.

beytilə başlanan qəzəlini nəzirə yazır. Qeyd etməliyik ki, bu təsadüfi və sadə nəzirəçilik deyildir. Ümumən Füzuli ənyari Nəbatinin ruhuna, daha doğrusu, onun yaradıcılığının ikinci və üçüncü mərhələsinə çox uyğundur. Məhz buna görə də Füzulinin Nəbatiyə tə`siri olmaya bilməzdi. Lakin bu heç də Nəbatinin qeyri-orijinallığına dəlalət etmir.

Ümumən nəzirə yazmaq ehtiyacı bu və ya başqa şairdə o zaman əmələ gələ bilər ki, əsərinə nəzirə yazmaq istədiyi şairin ideyası, qayəsi və həmən nəzirə yazılası əsərin ruhu nəzirə yazan şairin ruhuna tamamilə uyğun olsun.

Qeyd etdiyimiz bu hal isə nəzirə yazan şairin qeyri-orijinallığına dəlalət edə bilməz. Səhv etmirəmsə Nəbatini Füzuliyə bə`zən nəzirə yazmağa vadar edən məhz bu haldır. Yaradıcılıq aləmində elə hallar olur ki, eyni hissi, eyni fikri və formanı iki şair bir-birindən bixəbər olaraq işlədirlər. Bu isə iki şairin ayrı-ayrılıqda eyni daxili əhval-ruhiyyəni keçirməsi və eyni hissləri yaşaması ilə izah edilə bilər. Təsadüfi deyil ki, Nəbati də Füzuli kimi qəlb şairi adlandırılır. Uzun müddət öz məsləkinə sadiq qalan şair, nəhayət, "həqq"in hicrinə tab edə bilmir və öz sufi əqidəsindən əl çəkir. O, hər şeyə artıq şübhə edir, Allaha, təriqətlərə, dinə, ümumən hər şeyə, hətta "Nə mənəm, nə mən, mənəm mən hələ ləngü, ləngü, ləngəm" – deyə öz şəxsiyyətini belə şübhə altına alır. Bir sözlə alnotizmə, sinetizmə gəlib çıxır. Şair bu dövrdə fəlsəfi böhran keçirir. Onun skeptik dünyagörüşünü ifadə edən Füzuliyə nəzirə olaraq yazılmış "Nədir" rədifli qəzəl daha səciyyəvidir.

Öylə məstəm bilmərəm kim, mey nədir, mina nədir,
Gül nədir, bülbül nədir, sünbül nədir, səhra nədir.
Od tutub canım sərasər, yandı amma bilmədim,
Dil nədir, dilbər nədir, başımda bu sövda nədir.
Bilmədim ömrümdə heç bir küfrü iyman hansıdır,
Əhmədi Mahmud kimdir, Musiyu İsa nədir.

və sairə. Nəhayət:

Yetdi ömrün axirə, sən bir Nəbati bilmədin,
Kimdir bu gözdən baxan ya dildə bu guya nədir .

– deyir. Fəlsəfi düyümlər içərisində qalan şair bu zaman məşhur “Ləngəm” rədifli qəzəli yaradır.

Nə mərizu nə təbibəm, hələ ləng, ləng, ləngəm,
Nə həbibü nə rəqibəm, hələ ləng, ləng, ləngəm.
Nə münəddərəm nə şadəm, nə nihan nə aşikaram,
Nə zi xakəmu nə badəm, hələ ləng, ləng, ləngəm.
Nə su qönçə dər şüküstəm, nə iləm əm la şünüftəm,
Nə qəməş be dil nühuftəm, hələ ləng, ləng, ləngəm.

Nəbati bu qəzəlində özünə mə`lum olan bütün fəlsəfi baxışları, dini təriqətləri, legendar və müqəddəs şəxsiyyətləri şübhə altına alır və rədd edir. Artıq şair hamını bie`tibar görərək özünü heç kəsdən hesab etmir. Nəbati “dünya dərk edilməzdir” qərarına gəlir. “Çünki feodal ictimai münasibəti çərçivəsində özünə zəminə tapa bilməyən, heç bir mütərəqqi qida ilə tə`sirlənə bilməyən bir talant şübhəsiz belə çıxılmazlığa düçar olacaq. Dünyanı anlamaq e`tibarı ilə “ləng”liyini sağaltmağa dərman tapa bilməyəcəkdir”. (1935-ci ildə çıxan “Nəbati” kitabına yazılmış müqədimədən)

Doğrudan da nadir sənətkarlıq qüdrətinə və əsil poetik talanta malik olan şair Nəbatinin ilham çırağı zülmətlər içərisində çox da şö`lələnə bimədi. Məncə şairi yaşadan və əsərlərini indi də sevə-sevə oxudan bir qüvvə olmuşsa, o da xalqdır. Nəbati öz xalqına yaxın olmuşdur. Onun xalqla, maddi, insani həyatla, təbiətlə bağlı olan yaradıcılığı bizim üçün çox qiymətlidir ki, onun üzərində bir qədər ətraflı dayansaq, pis olmaz.

İlk dəfə Azərbaycan şe`r dilini yüksəklərə qaldıran, əksər əsərlərini heca vəznində yazan Vaqif olmuşdur. Lirik parçalarında ilk dəfə Şərq gözəlinin, daha konkret desək azərbaycanlı qızının bədii surətini bütün milli xüsusiyyətlərilə yaradan Vaqif olmuşdur. Vaqif ömrünü sarayda keçirmişdir. Lakin

buna baxmayaraq o, həmişə öz xalqı ilə sıx surətdə bağlı olmuşdur. Mə`nən və cismən xalqa bağlı olan sənətkarın yaradıcılığında xəlqilik, səmimilik, reallıq və təbiilik öz əksini bu və ya digər formada tapacaqdır. İlhamını xalqdan alan şairin, sevgilisini göylərdə deyil, hər gün görüb-danışdığı gözəllər arasında axtaran şairin səsi əlbəttə cavidani surətdə tutulmayacaqdır. Vaqif məhz belə şairdir.

Vaqif öz şe`rlərində real insani məhəbbəti və onun psixoloji anlarını təsvir etmişdir.

Dəhanın sədəfdir, dişlərin inci,
Sonasan ağzın püstədir, ay qız.
Xumar gözlərini sevəndən bəri,
Dərdə düşüb canım xəstədir, ay qız.

Sərasər əndamın tazə qar kimi,
Zülfün gərdənində şahimar kimi,
Rəngi bəyaz, özü xırda nar kimi,
Qoynundakı əcəb nəstədir, ay qız.

Niqab çəkib məndən yaşınma, zalım,
Pərişan olubdur mənim əhvalım.
Əqlü huşum, mənim fikri xəyalım,
Şux gözdə, qəmzədə bəstədir, ay qız.

Cəmalin günəşdir, qəmərdir üzün,
Şəkərdir dəhanın, şirindir sözün,
Yağdır müjganın, cadüdür gözün,
Cəllad kimi qəmzən qəsdədir, ay qız.

Vaqifəm, mən Məcnun, sən mənim Leylim,
Baxdıqca gözümdən tökürəm seylim.

Mən sənə mayiləm, səndədir meylim,
Demə, səndən qeyri nəsdədir, ay qız.

(Vaqif. Əsərləri. Azərnəşr 1937-ci il)

Haşiyə tərzində qeyd edək ki, Vaqif yaradıcılığına səthi də olsa toxunmaqda məqsəd, Nəbati yaradıcılığında xəlqilik və realizmdən bəhs edərkən bu hadisənin zəminəsiz olmadığını bildirməkdir. Vaqif hər şeyi, zövqü, nəş`əni, həyatın özünü, ümumən bütün ne`mətləri hər gün üz-üzə gəldiyi gözəlin varlığında görürdü. Vaqif üçün "vəhdət" deyilən məfhum da gözəlin simasında təzahür emişdir. O, heç ilahi gözəlin həsrətini çəkmir –

Vəhdətim xoş günüm, söhbətim dərdim,
Fəğfurum, qeysərim, cəmşidim, cəmim.
Xusrevim, Xaqanım, şahi ə`zəmim,
Padişahım, həm ə`la sultanım.

– deyir. Uzun ömür sürən Vaqif, həmişə həyata qarşı optimist olmuşdur. O, ilhamını xalqdan almış, xalqın ələm və nəş`əsinə şərik olmuşdur. O, xalq şe`rinin bütün formalarında əsərlər yazmışdır. Şübhəsiz ki, belə bir yaradıcılığa malik olan sənətkar özündən sonra gələn şair və yazıçılara az və ya çox dərəcədə tə`sir etməyə bilməzdi. Vaqifin Zakir üzərinə olan tə`siri buna nümunə ola bilər. Vaqifin Nəbati yaradıcılığına tə`siri olmuşdur. Nəbati bilavasitə Vaqif şe`rindən xəbərdar olmuşdurmu? Yə`ni onu oxumuşmu? Bu suallara biz, istər-istəməz mənfi cavab verməli oluruq. Hərgah Nəbati Vaqifi oxumuş olsaydı heç olmasa ona bir nəzirə yazar ya da əsərlərinin birində ona işarə edər, onun adını çəkərdi. Lakin belə hallara təsadüf etmirik. Bəs necə olmuşdur ki, Nəbati stil, üslub və ruhən

Vaqif şe`rlərindən çox çətin seçilə bilən şe`rlər yaratmışdır? Necə olmuşdur ki, Nəbati Vaqif şe`rlərinin kölgəsində qalmayan, bə`zən ondan da qüvvətli əsərlər yazmışdır? "Gəlsin, gəlməsin" Vaqifin hansı əsərindən əskikdir? Əlbəttə, mən bu iki sənətkarı müqayisə etmək fikrində deyiləm.

Yuxarıdakı suallara ancaq belə cavab vermək olar: çünki hər iki sənətkarın ilham mənbəyi eynidir. Yə`ni xalqdır. Çünki Nəbatinin də qəlbi Vaqif qəlbi kimi duya bilmiş və onun yaşadığı hissləri yaşamışdır. Nəbatinin, xalqdan almış olduğu ilhamın gücünə yazdığı şe`rlər o qədər orijinal, səmimi və səlisdir ki, onların mütaliəsindən doymaq olmur. Oxucu onlardan mə`nəvi qida alır. Nəbati şe`rləri o qədər təravətlidir ki, elə bilirsən indicə yazılıb və dil açıb səni dindirəcəkdir. Məsələn, onun dillər əzbəri olan məşhur "Gəlsin, gəlməsin" rədifli qoşmasını nəzərdən keçirək. Bu şe`rdə şair səbaya xitabən bülbülün, yə`ni özünün gülüstana, yəni cananının kuyinə gəlib-gəlməməyi, Gülüzarına söyləməyi xahiş edir. Hicran dərdinə düşərək, dəvasız qalan şair səba vasitəsilə yarından onun qapısına gəlib-gəlməməsi üçün izin istəyir.

Səba, məndən söylə ol gülüzarə,  
Bülbül gülüstana gəlsin, gəlməsin?!  
O hicran düşgünü, illər xəstəsi  
Qapına dərmana gəlsin, gəlməsin?!

Bütün şe`r boyu lirik qəhrəman, yə`ni şair məhbubəsini tə`rifləyir və belə bir gözəlin hicrindən yanıqlı-yanıqlı şikayət edərək səba yeli vasitəsilə cananından vüsal üçün izin istəyir.

Mən qurbanı olum ənbər tellərin,  
Qönçə dodaqların, püstə dillərin,  
O lalə rüxsarın, mişkin xalların  
Oduna pərvanə, gəlsin, gəlməsin?!

Dedik ki, şair səba yelinə hicran dərdini söyləyir. Lakin bu dərd Füzuli kədəri deyildir. Biz şe`ri oxuduqca oradakı hisslərlə yaşayırıq, qəhrəmana bağlanırıq. Lakin göz yaşı tökmürük. Biz aşiqin dərdinə ağlamasaq da ancaq onun keçirdiyi iztirabları və onun qeyri-mücərrəd bir vəslə yetməsini arzu edirik. "Gəlsin gəlməsin" sualına bilaixtiyar "gəlsin" deyə cavab veririk:

Gözüm çox həsrətdir xumar gözünə,
Günəş cəmalına, şəkər sözünə.
Utanıram necə deyim üzünə,
Dərdin xəstə cana gəlsin, gəlməsin.

Şair bu kiçik şe`rlə oxucunun qəlbini elə ələ almışdır ki, o, bütün şe`r boyu yaşadığı hissləri dübarə yaşayır və şairin vəslinə can atdığı gözəli bütün real cizgilərlə təsəvvür edir. Şair bu şe`rdə məhəbbətin şirinliyini və onun yolundakı cəfaları, əsil aşiqin psixologiyasını bədii surətdə elə vermişdir ki, bu şe`ri ən zövqsüz bir adam belə oxusa onun qəlbi ehtirasa gələcəkdir. Bu şe`r məhəbbətin ən səciyyəvi cəhətlərini özündə topladığı üçün, bədii ümumiləşməyə malik olduğu üçün, hamının və xüsusilə cavanların ürəyindən xəbər verir.

Dolaşdır boynuma şümşad qolunu,
Qucaqlayıb qucum incə belini,
Lə`li-ləbin əmim, sorum dilini,
İstər ölü cana gəlsin, gəlməsin.

Nəbati istəməz sənsiz dünyanı,
İzzəti, hörməti, şövkəti, şanı.
Bir zadə qalmayıb daha gümanı,
Bu baş o meydana gəlsin, gəlməsin.

Bu şe`r keçmiş və indiki el aşıqlarından tutmuş ziyalılarımızın və məktəbli gənclərimizin dilində belə əzbərdir. Şairin məhəbbət təranələri çalan rübabı özünəməxsus orijinallıqla səslənir. Şe`rdə ifadə yeniliyi dedikdə, bu o demək deyil ki, şair mütləq özündən yeni sözlər və s. icad etsin. Əlbəttə, bu olsa, daha yaxşı olar. Yenilik bəlkə odur ki, dəfələrlə çeynənmiş bir ifadəni, döyənək olmuş bir hiss və ruhu elə verəsən ki, onu elə ustalıqla işləyə biləsən ki, hamıya yeni görünsün. "Abi zəmzəm", "Bağrı yanıq lalə", "Leyli", "Məcnun", "gül", "bülbül", "şə`mə pərvanə", "şərab", "saqi", "sədparə könül" və s. bu qəbildən olan ifadələr bütün Şərq ədəbiyyatında yüz dəfələrlə işlədilmişdir. Lakin elə sənətkar var ki, o bu ifadələri dübarə işlətsə belə bizə çox yeni tə`sir bəxş edir. Məsələn Füzulinin bir beytini götürək:

Noldu gətirmədin ələ sədparə könlümü,
Vəhm eylədinmi əl kəsə bu şişə parəsi.

"Sədparə" də, "könül" də Füzuliyə qədər çox deyilmişdir. Lakin bu beytdəki obraz və ifadələr bizə yeni görünür. Bu beytdəki fikir də Füzuliyə qədər az deyilməmişdir. Lakin onun qələmində bu fikir özünün tam orijinal ifadəsini tapmışdır. (Niyə bu yüz yerə parçalanmış könlümü əlinə alıb ovutmadın? Qorxdun ki, bu şüşə parçaları əlini kəsər?) Doğrudan da biz bu beyti oxuyarkən elə bilirik ki, şe`r bu saat əlimizi doğrayacaqdır. Nəbati şe`rində də bu xüsusiyyət istər məzmun və istərsə də formaca vardır.

Gecələr sübhədək işim nalədir,
Ağlamaqdan gözüm qan piyalədir.
Canım bütün qara dağlı lalədir,
Yetirsin zəmzəmü səfayə məni.

Bu parçadakı ifadə və fikrin sadəcə təkrar olunduğu hiss edilmir. Nəbati həyata nikbin münasibət bəsləmişdir. O, sevmək, yaşamaq eşqiylə nəfəs almışdır. Şair özünü həmişə həyatda cavan və mərd görmək istəyir. Lakin qocalıq əlaməti onu bir az mə`yus edir. Şair qocalığında belə kədərlənməyərək həyatdan, gənclikdən geri qalmaq istəmir.

Mən dedim bəs, xançobanı cavandır,
Bir igid oğlandır, bəbri-bəyandır.
Demə kim qocalıb qəddi kamandır,
İndi gördüm saqqalının çalı var.

Əlbəttə, belə bir ruh onun əsərlərində öz əksini tapmışdır. Fikrimizi sübut etmək üçün onun məşhur "Olar" rədifli qoşmasını nəzərdən keçirək. Qısa desək, bu qoşmadakı ümumi fikir bundan ibarətdir. Həyatda kədərlənmə, həyata açıq üzlə bax, ümidini üzmə, yaman günün ömrü az olar. Bu fikir birinci bənddən sonuncu bəndə qədər bədii surətdə, obrazlı bir dillə ifadə edilmişdir. Bu fikir ətrafında dönüb-dolaşan şair bə`zən kiçik haşiyələrə çıxır. Qoşmanı təhlil edək:

Şeyda bülbül, fəqan etmə, qəm yemə,
Bu gün, sabah gül açılar, yaz olar.
Əziz saxla, qənimət bil vicudun,
Vəfası yox, gülün ömrü az olar.

Bu bəndin özü olduqca yığcam surətdə deyilmiş ayrıca şe`rdir. (Bülbül, qəm yemə, yenə güllər açılacaq, bahar olacaq, canına cəfa vermə, onsuz da gül vəfasızdır, onun ömrü azdır). Şair demək istəyir ki, can sağlığı hər şeyə dəyər. Can sağ olsa sən hər şeyə nail ola bilərsən. Əlbəttə, bu can sağlığı yalnız gigiyena nöqteyi-nəzərindən başa düşülməməlidir. Bu ayrıca

şe`r mövzusu deyilmi? Bu bənddəki gələcəyə ümid bağlamaq fikri ilə bahəm şair aşağıdakı bənddə başqa bir fikir deyir:

Degilən Fərhada, ey möhnət pişə,
Şirindən incimə, çal daşə tişə,
Aşiq-mə`şuq arasında həmişə.
İşvə olar, qəmzə olar, naz olar.

Aşiq, döz, dildarının cəfalarına incimədən döz. Çünki, məhəbbətin feyzi və mə`nası məhz onun qəlbə bəxş etdiyi iztirablardan ibarətdir. Vaxtilə Füzuli də

Ya rəbb, bəlayi-eşq ilə qıl aşinə məni,
Bir dəm bəlayi-eşqdən etmə cüda məni.

demişdir. Elə əsil məhəbbəti ani ehtiras və şəhvətdən ayıran bu cəhətdir. Aşiq, döz! Çünki:

Aşiq-mə`şuq arasında həmişə,
İşvə olar, qəmzə olar, naz olar.

Şair bu fikrini şe`rdəki ümumi fikirlə bağlayaraq aşağıdakı bəndlərdə tamamlayır:

Gedər candan çıxar daği-həsrətin,
Artar gündən-günə şanü şövkətin,
Sübhü-vəslə yetər şami-firqətin,
Diləyin, mətləbin hamı saz olar.
Xədəmələr durar sağü solunda,
Cəvahir bazubənd iki qolunda.
Fəvvarələr işlər daim gölündə,
Yaşılbaşlı ördək olar, qaz olar.

Nəhayət, şair özünə müraciətən aşiqin (məncə buradakı aşiq məfhumu məhdud mə`nada anlaşılmalıdır) qəlbində həmişə böyük arzular olmalı, o, gələcəyə ümidlə baxmalıdır:

Nəbati, sevmişəm bil dilistanı,
Bir sözü gülşəkər, qönçə dəhanı.
Daha faş eyləmə sirri-nihanı,
Aşiqin könlündə yüz min raz olar.

Nəbati xalq və aşıq ədəbiyyatında geniş yayılmış təcnis deyilən şe`r formasında bir neçə nümunələr yaratmışdır. Onun təcnislər silsiləsinin də əsas motivi, ruhu insani eşqin tərənnümü, onun ayrılıqlarından şikayət və real Şərq gözəlinin vəsfindən ibarətdir. Biz təcnislərdən şairin poetik xüsusiyyətlərindən bəhs edərkən danışacağıq. Nəbati şe`rimizə çarpara deyilən yeni bir şe`r forması gətirmişdir. Nəbatiyə qədər bu formada əsər heç bir şairdə təsadüf edilmir. Nəbatinin olduqca qüvvətli və dərin mə`nalı çarparaları vardır ki, bunlardan bir-neçəsini təhlil edək:

Get, dolanginən xamsən hənuz,
Püxtə olmağa çox səfər gərək.
Mürği-qafilə həmzəban olub,
Dövrə qılmağa balu pər gərək.

Bu bəndin birinci misrası xalqın malı olub, ağızlarda zərbi məsəl olmuşdur. Bə`ziləri bu bəndin mə`nasını şairin sufi vəslinə çatmaq üçün özünü təcrübəsizlikdə danlamağı kimi izah edir. Fəqət buradakı fikri belə məhdudlaşdırmaq düz deyil. Bəlkə şair hamıya həyatın və dünyanın sirrlərini öyrənmək üçün, həyatda məğlub olmamaq üçün, bacarıqlı, təcrübəli olmağı, dəfələrlə sınaqdan çıxıb püxtələşməyi tövsiyə

edir. Düzdür, çarparanın ümumi ideyası ilə bizim düz hesab etmədiyimiz fikir daha çox bağlıdır. Lakin mən “get dolanginən xamsən hənuz” ifadəsini xalq içərisində tamamilə başqa, yə`ni mənim dediyimə uyğun bir mə`na aldığına əsaslanaraq, yuxarıdakı fikrimizin üzərində dururam. Ola bilsin ki, şair həqiqətən bu bənddə sufilik məsələsindən danışmışdır. Lakin şe`r get-gedə öz mə`nasını dəyişərək həyati bir fikir doğurmuşdur. Yaradıcılıq aləmində belə hallar çox olur. Bə`zən əsərdə yazıçının yürütmək istədiyi bir fikir ondan asılı olmayaraq əks nəticə verir. “Get dolanginən xamsən hənuz” misrasıyla başlanan çarparanın sufilik ideyasını təlqin etdiyini bir anlığa qəbul edib çarparanı oxuyarkən, aşağıda belə bir bəndə rast gələcəyik:

Mən qılmayın çox da zahidi,
Üzrü var onun aşiq olmayıb,
O, əbəs yerə xəlq olunmayıb,
Bağibanə bir kəllə xər gərək.

Məncə bu misralarda heç bir sufilik ideyası yoxdur. Biz bu misralarda şairin zahidlərə açıqdan-açığa nifrət etdiyini görürük. Zövqsüz zahid həyatda bağibanə xər olmaqdan başqa bir şeyə yaramaz. Bu fikrin isə sufiliyə heç dəxli yoxdur. Böyük ateist Axundovda

Ey zahid, bizövq, bu məscid ki, sənin var,
Olsaydı mənim, mən onu meyxana edərdim.

deyə zahidlərə hücum edir. O ki sufi deyildi. Nəbati çarparalarında da biz xəlqiliyə və insani məhəbbət ideyalarının tərənnümünə rast gəlirik.

Dərdi hicridən hali zarımı,
İstəsən əyər kəhrəbayə bax.
Yoxlasan əyər zəfi cismimi,
Məndə nitq yox, yengi ayə bax.

Yenə də şair dildarına xitabən onun hicrindən nə halə düşdüyünü obrazlı bir dillə ifadə edir. Onun çarparalarında qəribə müəmmalı bəndlərə rast gəlirik:

Zahid, az danış, get gözümdən it,
Eşqdən məni çox da danlama,
Mən məyər əbəs olmuşam,
Bir mimu, dal, babu, rayə bax.

Bu bəndin son misralarındakı hərflərində bir obraz işlədilmiş və bu obrazda bir fikir gizlənmişdir. Dosent F.Qasımzadə bu hərfləri birləşdirib (müdəbbir) oxuyur və belə nəticəyə gəlir ki, müdəbbir – allah deməkdir. Nəbati də zahidə "həqqi" allahı göstərərək onun yolunda dəli olmasını deyir. F.Qasımzadə yazır: "Nəbati eşqinin "müdəbbir" tərəfindən tədbir olunduğuna işarə etmişdi..." (Azərbaycan SSR Elmlər Akademiyasının xəbərləri. N11 1945-cil il, səh. 68). Bu fikir çox da e`tibarlı deyildir.

Dərdi hicridən halı zarımı,
İstəsən əyər kəhrəbayə bax.
Yoxlasan əyər zəfi cismimi,
Məndə nitq yox, yengi ayə bax.

bəndilə başlanan çarparada qətiyyən belə bir fikir ifadə edən misra yoxdur. Doğrudur, həmin dörd hərfi birləşdirərkən "müdəbbir" sözü əmələ gəlir. Lakin bu hərfləri birləşdirib

"midbər" də oxumaq olar. Midbər isə həlqəyə deyilir. Özü də hər həlqəyə yox. Ancaq qoyunun boğazındakı ipə bağlanan həlqəyə deyilir. O həlqə ipi boş saxlayaraq heyvanı boğmağa qoymayır. Əcəba! Bu əşya ilə Nəbati kimi bir nəcabətli ağa-yana şəxsin nə əlaqəsi olmuşdur ki, bu gəlib şe`rdə öz əksini tapmışdır. Şair midbərə işarə etməklə nə demək istəmişdir? Mö`təbər şəxslərdən birinin verdiyi mə`lumata görə bu əlaqə belə olubdur: "Nəbati həmişə fəqir-füqəraya əl tutarmış. Bir gün özü elə bir vəziyyətə düşür ki, nə cibində pulu, nə də əynində yaxşı libası olur. Ərdəbil bazarlarının birisində şairə belə bir vəziyyətində bir dilənçi əl uzadıb sədəqə istəyir. Heç bir şeyə gümanı gəlməyən şair, bir özünə baxır, bir də dilənçiyə və deyir ki, ardımca gəl. O, dilənçini bazar darğasının qoçu bağlandığı yerə gətirir, dinməz-söyləməz qoçu açıb dilənçiyə verir və deyir: "Get". Bazar əhli bu işə çox təəccüb edir. Bazar darğasının qoçuna izinsiz əl vurmaqmı olar? Axı, o, adamın dərisinə saman təpər. Qoçu dilənçiyə verəndən sonra şair, heyvanın boynundakı həmən həlqəli ipi öz boynuna keçirib qoçun yerində əyləşir. Bir az sonra darğa gəlib qoçun necə olduğunu xəbər aldıqda, hamı boynu midbərli Nəbatini göstərir. Nəbati isə darğanı qabaqlayıb deyir ki, mən əbəs yerə, dəli olub boynuma midbər keçirməmişəm. Mən ona görə boynuma midbərli ipi keçirib dəli olmağı qəbul etmişəm ki, bir nəfər fəqir insan acından ölməsin. Mən sənin qoçunun yerində durmuşam. İxtiyar sahibisən, nə istəyirsən onu et. Bu sözlərin müqabilində cavabsız qalan darğa onu azad edir. İndi mühakimə edib görək bu hadisə inandırıcıdır, ya yox? Bəli, belə bir hadisə həqiqətə çox yaxındır. Nəbatini həmişə, hər yerdə sufi şair kimi qələmə vermək hissinə qapılanlar, bə`zən onun real hadisələrlə bağlı olan əsərlərini də sufi nöqteyi-nəzərindən təhlil edirlər.

Qeyd etmək lazımdır ki, istər cavan və istərsə də təcrübəli ədəbiyyatşünaslar bu sənətkarın yaradıcılığından bəhs

edərkən həmən sənətkarın xəstə cəhətlərini, bugünkü oxuculara pis tə`sir edə bilən ideyalarını deyil, onun müsbət cəhətlərini, dövrümüzlə səsləşə bilən əsərlərini gənc nəslə tanıtmalıdırlar.

Yuxarıda söylədiyimiz hadisədən mən nəticə çıxarıb "Yaşasın proletar şairi Nəbati" demək istəmirəm. Bunu söyləmək sadəcə savadsızlıq və demaqoqluq olardı. Ancaq rus demişkən, fakt, fakt olaraq qalır. Şair özünün xalqa yaxın olmaq faktını yuxarıdakı şe`rində çox yığcam surətdə ifadə etmişdir. Bəli, Nəbati xalqla, Vətənlə həmişə bağlı olmuşdur. O öz dövründə, Vətənində Çar Rusiyası tərəfindən tö`rədilən qanlı kəşməkəşlərin şahidi olmuşdur. Qaradağın Üçtibin mahalından, yə`ni Cənubi Azərbaycandan Muğana, Şimali Azərbaycana qonaq gələn şair Türkmənçay müqaviləsindən sonra bir daha Muğana gələ bilmir. Türkmənçay müqavilənaməsi nəticəsində şairin doğma Vətəni iki yerə parçalanır. Muğanda qanlar tökülür. Şair Muğana gələ bilmir. Şairin Vətənini iki yerə parçaladılar. Yə`ni onun qəlbini iki yerə prçaladılar. Şair Sara obrazı ilə öz Vətəninə işarə edərək, parçalanmış qəlbinin qanını göz yaşlarına qarışdırıb bu şe`ri yazmışdır:

Arpa çayı dərin olmaz.
İçmə, suyu sərin olmaz,
Sara kimi gəlin olmaz,
Apardı sellər Saranı,
Bir uca boylu balanı.

Arpa çayı aşdı-daşdı,
Sel Saranı alıb, qaçdı.
Sara gözəl, qələm qaşlı,
Apardı sellər Saranı,
Bir uca boylu balanı.

Gedin, deyin Xançobana,
Gəlməsin bu il Muğana,
Muğan batıbdır al qana,
Apardı sellər Saranı,
Bir uca boylu balanı.

Sonralar bu şe`r xalqın dilində əzbər olmuş və müxtəlif variantlarda deyilmişdir.

**1947**

# KARVAN YOLU... ÖMÜR YOLU... SƏNƏT YOLU...

"– Qırmızı Molla Nəsrəddinə hörməti özümüzə şərəf bilirik, – deyə komissar hər stəkana yarım fal lumu saldı... – Sergey Mironoviç Kirov yoldaş göstəriş verib ki, qırmızı "Molla Nəsrəddin" məcmuəsi inqilabın qələbəsinə xidmət eləyən sifətdə inşa buyursun.

– Molla Nəsrəddinin qırmızısı və yaxud yaşılı da mövcuddur? Anlamadım, yoldaş komissar".

Eyni adlı əsərdəki Karvan yolu, yəni əqidə, amal, həyat, tale, ictimai-siyasi fəaliyyət, mühərrirlik dönməzliyi böyük ədib Cəlil Məmmədquluzadəni iyirminci illərdə Arazın o tayına addadıb İrana və konkret demiş olsaq Azərbaycan şəhərlərinin anası olan Təbrizə apardı.

Lakin həmən ana Təbrizin rəsmi mühiti – bütün İran torpağının rəsmi mühiti içində, rəsmi ab-havası içində farsca danışırdı. Mirzə Cəlili Təbrizin hakimi, valisi, üləması qəbul edirdi. Bircə xahişləri, bircə təmənnaları vardı:

– "Molla Nəsrəddin" məcmuəsi fars dilində çıxsın.

Mirzə Cəlil bu təmənnanı çox diplomatik incəliklə, ədib nəzakətilə, Kefli İsgəndər istehzası ilə rədd edirdi.

Möhtərəm ədibimiz, xalq yazıçısı, neçə-neçə roman, povest, hekayələr müəllifi Bayram müəllim Mirzə Cəlil – Molla Nəsrəddin amalının, əqidəsinin dönməzliyinin bədii ifadəsini həm o mühitdə, həm qayıdıb gəlib qırmızı tələyə düşüb korpeşman və mə`yus olduğu bu mühitdə ustalıqla vermişdir.

Mirzə Cəlili İrandan Bakıya Xalq Maarif Komissarlığı, bəlkə də, şəxsən doktor Nərimanov də`vət eləmişdi. Hərçənd ki, Həmidə xanım bu qayıtmağın uğurlu olacağına arxayın deyildi. Ürəyinə danmışdı ki, yaxşı olmayacaq.

Haşiyə: Müəllif "təmənna" və "əlahiddə" sözlərini çox xoşlayır və bol-bol işlədir. Fəqət bu sözlər bə`zi hallarda mə`nasına görə yerinə düşmür. Nə olar... kiçicik bir məktubda da belə şeylər olur. Nə isə, keçək sözümüzə.

Bakıda Azərbaycanda Mirzə Cəlilin, ümumən "Axı biz belə deməmişdik" deyənlərin tarixi faciəsi başlanır. Müəllif bu faciəni emosional cümlələrlə, pafosla deyil, həm Mirzə Cəlilin oxuduqlarımızdan, eşitdiyimizdən öyrəndiyimiz təbiətinə, həm öz xasiyyətinə, yaradıcılıq, yazı tərzinə münasib, çox inandırıcı şəkildə göstərir.

– Bunlar məndən nə istəyir, nə tələb edir, Həmidə xanım? Sansor (senzor), qırmızı məcmuə, inqilabi ideyalar, inqilabi mətbuat, "doxsan beş faiz yalan olsa da, beş faiz doğrudursa kifayətdir" söhbəti, allahsızlar cəmiyyəti, hər addımda "urra, urra!" çığırıb, hər kəlməbaşı "urra yazmaq"... qadağanlar, icazələr, xahişlər... Həmidə xanım, adamın neçə böyüyü, neçə göstəriş, rüsxət verəni olar? O olmaz, bu olmaz, onu yazma, bunu yazma! Yoldaş Məmmədquluzadə, bu nə inək şəklidir? Bu nə Azneftdir? Bu sağıcı kimdir ki, Bakı neftini sağıb aparır? Rusiyamı? Biz axı istəmirik ki, sizinlə başqa idarə məşğul olsun. Axı sizə böyük hörmətimiz var. Yox belə hörmət olmaz!

Mirzə Cəlil üsyanının son həddinə fikir verin: O, Həmidəsinə yana-yana deyir ki, Təbrizdə "Molla Nəsrəddin"i fars dilində nəşr etməyə razılıq versəydim Ağayi Müxbirüssəltənə məni qızıla tutardı.

"Qızıla tutardı" sözüylə Mirzə Cəlil heç də o mühiti idealizə etmir. Xanların bir-biriylə çəkişmələrini, tayfa davaları, avamlıq, özbaşınalıq, mövhumat, xürafat... İranda ermə-

nilərin asudəliyi, ana dilimizin qadağanı, bu dildə mədrəsəmizin, məktəbimizin yoxluğu, əl boyda çərəkəmizin də çap edilməməsi...

Haşiyə: Mirzə Cəlil heç vaxt dinə, qur`ana, müqəddəslərə, övliyalara əl qatmamış, fərdin sirli-sehrli aləminə toxunmamışdır.

Yeri gəlmişkən, onu da deyim ki, Təbrizi ömründə görməyən Bayram müəllim, oxuduqlarının, eşitdiklərinin və hər şeydən əvvəl, Allah vergisi olan yazıçı təxəyyülünün, sənətkar təsəvvürünün qanadlarında Təbrizə təşrif gətirir. Onun qırmızı kərpic rənginə çalan torpağını, günəşin, yağışdan sonra isə qövsi-qüzehin yeddi cilvəsinə boyanmış Eynal-Zeynal dağının büllur buzlu zirvələrini, məhəlləsini, bazarını, meydanlarını – ümumən sözün geniş mə`nasında ab-havasını əliylə qoymuş kimi əyanilikIə təsvir etmişdir. Əlbəttə, gözlə görmək kimə qismətdirsə çox yaxşıdır. Ancaq bu şərt əsas götürülsəydi heç bir tarixi əsər yarana bilməzdi.

Yox, belə hörmət olmaz! Mirzəyə Bakıdakı münasibət faciədir. Bayram Bayramov, bu faciəni qüdrətli, ardıcıl, səbr və təmkinli, arzu və idealları səraba dönmüş kor-peşman Mirzə Cəlilin ömrünün həm təqvim, tarix mə`nasında sonu kimi, həm çaya oturmuş nəhəng gəminin əyilmiş dor ağacı kimi təsvir edir.

Yeganə bir dost, həmdəm, ürək qızdırılan bir adam, bir ixtiyar sahibi var ki, o da doktor Nərimandır. O özü də təkdir, o özü də nəzarətdədir. Bu çox böyük səlahiyyət sahibinin əli-qolu bağlıdır. Xalq Komissarları Soveti sədrinin öz də`vətilə qəbula gəlmiş Mirzə qəbul otağında, necə deyərlər, qapı dalında gözləməli olur, köməkçi onu içəri buraxmır.

– Növbə var.

Camaat:

– Heç bilirsən bu kişi kimdir?

Köməkçi:

– Növbə var.

Sonra handan-hana həmin köməkçi Mirzəyə deyir: doktor buyurur ki, axşam gəlsin. Sən demə Nəriman özü Mirzənin evinə – hüzuruna gələcək, gəlir də...

Ürəyində doktordan rəncidə olan Mirzə onu qarşısında görəndə heyrətdən çaşır və bu çaşqınlıq içində hər şey ona aydın olur.

Bayram bu görüşü, iki böyük şəxsiyyətin söhbətini çox canlı və yığcam verir. Yuxarıda dediyim faciə – ağıllı başların faciəsi bu səhnədə də davam edir:

– Mirzə, mən səninlə iş otağımda belə açıq-asudə söhbət edə bilməzdim. Yerin də, divarların da qulağı var. Firudin bəyin müsibəti məni bir an rahat buraxmır. Füzuli demişkən:

Olsaydı əgər öz ixtiyarım...

Haşiyə: İki qalın cildli, çox səhifəli "Karvan yolu" romanına iyirmi il ömür sərf edilmişdir, zəhməti iste`dadın bir qanadı hesab edən, yazı masasından qorxmayan ədib kitabın neçə-neçə fəslini hətta xəstəxanalarda yazmış, saysız-hesabsız makina səhifələrini səbr və səbatla, gözünün nuruyla işıqlandırmışdır.

İste`dadsız, qələm təcrübəsi olmayan adam, nəhayət, sözü olmayan adam çiynini belə ağır yükün altına verməzdi. "Karvan yolu" bədii dəyərinə, müxtəlif talelər, surətlər, hadisələr, keşməkeşlər təsvirinə görə, mətbuatımızın yaranmağını, Zərdabilər məktəbindən Ömər Faiqlərin meydana gəlməsini, fikir, ideya, qənaət, dünyaya, inqilaba, millətə münasibətlərdə müxalifətin, zidd və yaxın mövqelərin canlı lövhələrlə rəsminə görə yaxın keçmişimizə – əslində bugünün təməl daşlarına həsr edilmiş ən gözəl, oxunaqlı, maraqlı romandır.

Mirzə Cəlilin ömür-gün yoldaşı Həmidə xanım Cavanşir Azərbaycan romanında ilk zadəgan qadın obrazıdır. Mirzə Cəlildən iyirmi dörd il sonra, 1956-cı ildə vəfat etmiş Həmidə xanım Cavanşir gözəllik, qürur, ziya, elm-ürfan, sədaqət, cəsarət simvoludur. Mən ruslardan belə söz eşitmişəm – onlar öz arvadına "moya dobraya polovina" deyir. Yəni mənim tən yarım. Həmidə Cavanşir Cəlil Məmmədquluzadənin tən yarısıdır. Sitat gətirməyin, misal çəkməyin mə`nası yoxdur. Çünki əsər başdan-ayağa elə bu tən yarıya həsr edilib.

Karvan yolunu bir axar çaya bənzətsək, mənbəyini Kəhrizlidən, Əhməd bəy Cavanşirin mülkündən, torpaqlarından alan bu çayda bir qayıq üzür. Bu qayığın iki avarçısı var. Həmidə xanım, Mirzə Cəlil – iki dul. Biri atasız yetimlər anası, biri anasız yetimlər atası.

Müəllif haqlı olaraq Həmidə xanım Cavanşiri ön plana çəkib göstərsə də, Mirzə Cəlilin sakitanə əzəməti daha çox görünür. Buz kimi otaqlarda əlyazılarını sobaya atanda da, çəliyini yol kəsən sinələrə tuşlayanda da, Turşsu yaylağında müəllimlə lap müasir səslənən söhbətində də , "Anamın kitabı", və "Lal" pyeslərinin məşqində də, kamança çalanda da, "Axı biz belə deməmişdik" deyəndə də Mirzə əzəmətlidir. Yəni "Karvan yolu"nda bir bədii surət kimi əzəmətlidir. İstehzalarında, təsdiqlə başını tərpədəndə, qardaşı Mirzə Ələkbəri itirəndə, ultimatumlara, hədələrə, təhdidlərə mə`ruz qalanda da əzəmətlidir.

Yadıma Anarın çoxdan yazdığı, Mirzə Cəlildən danışan "Anlamaq dərdi" portret məqaləsi düşdü. Anlamaq dərdiylə xalqının, tarixinin, taleyinin məqsəd və amalının Karvan yoluna çıxmış Molla Nəsrəddin bayraqlı Cəlil Məmmədquluzadə.

Nöqsansız əsər yoxdur. Çünki nöqsansız adam yoxdur. Əsəri adam yazır, əsər adamdan, taledən bəhs edir.

Bu romanda da nöqsan yox deyildir. Yerinə düşməyən söz də – məsələn "cavab verdi" əvəzinə "cavab qaytardı", dilimiz-

də yerli-dibli heç olmayan sözlər də: "məktəbdarlıq", "şöhrətkar", "fəxrəndə hal", "əsəbani", "inkisari xəyal" və sairə də var. "Bir növ imkanlarının hələlik əllərində qaldığını yazırlar", "Oğlan cavabı sual eyləyən Sayad arvada deyil, Həmidə xanıma verməyi vacib bildi" kimi cümlələr də var.

Kaş ki, əsərdə sün`ilik, quramalıq olmasın. Qeyri-inandırıcılıq olmasın. "Karvan yolu" rəvandır, təbii axarla gedir. Ağbirçəyin dəfninə kombedin (kasıblar komitəsi sədri) nanəcib müdaxiləsindən, iyirminci illər Bakısının mənzərəsindən, Cavid, Şaiq əfəndi, cavan Üzeyir bəy, Süleyman Sani məclislərinin, görüşlərinin təsvirindən tutmuş NEP-in Azərbaycan – Bakı dalğasınacan, küçədə pəzəvəng aktyorun gənc Üzeyirlə şit, həm də səmimi zarafatınacan, papaqçılaracan– ÇK xəbərçilərinəcən hər şey təbii axarında yazılmışdır.

"Karvan yolu" istər fiziki, istər mə`nəvi cəhətdən ömrünün 76-cı ilinə qədəm qoyan bir qələm əhlinin ancaq və ancaq qələbəsidir.

Qələbə! Yeddi milyon Azərbaycanlının, bütün Türk dünyasının qəlbi qəddar düşmənə – erməni faşistlərinə, türkün qart, qəddar düşməninə zəfər çalmaq əzmiylə, eşqi və ruhuyla, həsrətiylə çırpınır.

Romanın lap sonuncu – on birinci fəsli və son söz əvəzi bir növ publisistikdir, bir növ sənədlidir. Bunun da mə`nası təbiilikdədir. Axı Mirzə Cəlil heç bir şeyi uydurmazdı, ritorikanı, sözçülüyü, çox danışmağı xoşlamazdı və belə şeylər onun məramına – böyük Molla Nəsrəddin kredosuna, mövqeyinə zidd idi... Sitat:

"– Haradasınız, ay Sabir, ay Mirzə Cəlil!

Əmin ola bilərlər ki, nəvələri, nəvələrinin də nəvənəticələri yer üzünün çox yerində kök salıblar. Bu köklər çox dərinlərə işləyiblər, işləyəcəklər".

**26 iyun 1993**

# BURASI ANKARA... SAYIN

Ağlım kəsəndən, anamın, xalalarımın, xüsusilə Məmməd dayımın, xalam oğlu Yusifin və digər çox yaxın qohumlarımın səksəkə, ehtiyat, qorxu içində İbrahim adını tez-tez dillərinə gətirməyi yadımdadır.

İbrahim ortancıl dayımdı. Mirzağa, İbrahim və Məmməd. İbrahim 1920-ci ildə, bəlkə də bir az da əvvəl Türklər Bakını – Azərbaycanı tərk edəndə onlara qoşulub gedibmiş.

Tilsim sınar-sınmaz, tarixin buzu əriyər-əriməz, yollar açılar-açılmaz xalam qızı Nərgizin də`vətiylə 1971-ci ildə 79 yaşlı İbrahim dayım bir aylığa Bakıya gəldi. "Dayım xoş gəldi" adlı bir şe`r yazdım:

Canı bizim canımızda,
Qanı bizim qanımızda,
Əlli üç il bizdən uzaq...
Bir ay bizim yanımızda
Dayım xoş gəldi, xoş gəldi.

Nə isə... Söhbət uzundur. Xalam Rübabənin başına "Dəniz qırağında" mühacir qardaşına görə lap altmışıncı illərəcən min bir bəla gətirmişdilər. Həmən Rübabə xalam Bakıdakı neçə-neçə əzizini, doğmasını güdaza verməmək üçün yanıb qovrula-qovrula doğma qardaşını danıb demişdi ki, o, atamın özgə arvadla qanunsuz nigahından tö`rəmədir, heç yadımıza da gəlib eləmir.

Dayım gəlib gedəndən bir neçə ay sonra qoca xalam bu vüsala bəndimiş kimi dünyadan getdi. Qardaşı İbrahim də İstanbula qayıdandan sonra çox yaşamadı. Mənim Türkiyəyə ailəvi səfərim baş tutmadı. Bu da bir türk həsrəti. Həsrət xalı, həsrət teli çoxdur.

Lap uşaqlığımdan İbrahim dayımın Türkiyədən göndərdiyi foto-şəkillərə heyrətlə, nağıl marağıyla və qorxa-qorxa baxırdım.

Eşitmişdim ki, Qubanın Alpan kəndində müəllimlik edən cavan, təzə evlənmiş xalam oğlu Ələsgəri – evindən bir türk jurnalının üz varağı və bir də İbrahim dayımın ona göndərdiyi məktub çıxdığına görə 1937-ci ildə elə kənddəncə... əlli-ayaqlı götürüb aparmışdılar.

Mənim xalam yol gözlədi bu minval ilə.
Beş il deyil, on il deyil, illərdən bəri.
Ürəyinə gətirmədi zərrəcən belə,
Ümidini zay edəcək bəd fikirləri.

Mən ilk dəfə radioqəbuledicini – (priyomniki) 1939-cu ildə qarlı-çovğunlu bir qış gecəsi 13 yaşımda Şüvəlanda görmüşəm. Yaz-qış kənddə yaşayan ana qohumlarım altıbarmaq Allahverdi kişinin və Səriyyə xalanın evində. T-6-nın harasınısa burdum, buran kimi də eşidib diksindim:

– Burası Ankara. Sayın...

Dəhşətə gəldim. Elə bildim ki... bütün Türkiyə o danışan solğun yaşıl rəngli yeşiyin içindədir. Bu İbrahim dayım həmən yeşiyin, qutunun uzunsov, dördkünc balaca işıqlı pəncərəsindən, gözlüyündən çıxıb otağa atılacaq və məni bağrına basıb qarlı-çovğunlu Şüvəlandan Ankaraya aparacaq. Sonra da "Dəniz qırağından" tökülüb gələcəklər bura, elə gecəynən Allahverdi kişini, Səriyyə xalanı, oğlanları

Həsənağanı, qızları Dilarə və Minəxanımı qara maşına basıb aparacaqlar...

Türk həsrəti, Türk intizarı, Türk məhəbbəti uşaq qəlbimdə beləcə közərməyə başladı.

1944-48-ci illərdə Türkün adını çəkmək, sözünü danışmaq, şe`rini, türküsünü kütləvi şəkildə, ictimai genişlikdə dilə gətirmək, təbliğ etmək nəinki qadağan, hətta cinayət idi. Bəli, bu qadağan da mənim həsrət hissimi alovlandırmışdı. Tələbəlik illərimdə bə`zi unudulmaz müəllimlərimin mənə e`tibar edib, ürək qızdırıb, Türk şe`rindən bə`zi nümunə yarpaqları pıçıltıyla əzbər söyləmələri və həmən şe`rləri sür`ətlə dəftərə köçürməyim də bu həsrəti, bu marağı yenə də alovlandırdı.

1946-cı ildə ilk dəfə tələbə dostlarım Baba və Soltanpaşa məni Şamaxıya – Əngəxəran kəndinə, evlərinə qonaq aparanda yolda – Acıdərədə Türkün tənha qəbrini, tək məzarını gördüm. Bu mənzərə də, bu məzar da ürəyimə od saldı. 44 il bu haqda yazmaq hissiylə, arzusuyla çırpındım. Necə yazaydım, necə mə`nalandıraydım, necə, harada çap etdirəydim. Sandıq ədəbiyyatımı?!.

Çox-çox sonra – icazələr dövrü gəlib yetişəndə "Türkün qəbri" poemasını yazdım. 1990-cı il yanvarın 15-də Qanlı Yanvara – işə baxın – 4 gün qalmış "Türkün qəbri"ni televiziyada oxudum. Həm onda, həm də həmən ilin 28 mayında Türkiyədə Qeysəriyyədə Ərciyəz Universitetinin böyük salonunda bu əsəri Türkün özünə oxuyanda qədim şairlər, aşıqlar demişkən, atəşlərə yandım. Türk eşqi, Türk yanğısı...

1986-cı ildə Ankaradan məktub aldım ki, respublikamızın rəsmi, böyük qəzetləri yazdılar ki, mən Atatürk Kültür, Dil və Tarix yüksək qurumunun üzvü seçilmişəm. Bəli, bu xəbərdən də həsrətimə – İbrahim dayımın tale həsrətindən gələn həsrətimə həm od ələndi, həm su çiləndi.

Yenə həmən Qeysəriyyədə 800 nəfərlik bir ictimai ziyafətdə əzbər dediyim Şəhidlər "Mərsiyə"sini eşidənlərin göz yaşları mənim həsrət tonqalımı daha da alovlandırdı və həm də bu tonqala yaz yağışı çilədi.

İbrahim dayımın şəxsində, onun ruhunun işığında mən bütün Türk aləmini dayım, yə`ni arxam, köməyim, ən real, ən yaxın pənahım hesab edirəm – ölkəmizin, Azərbaycanımızın pənahı! Öz milli heysiyyətimizi, məişət və davranış tərzimizi, qürur və ləyaqətimizi, Azərbaycanlıların danışdığı, yazıb-oxuduğu, yazıb-yaratdığı, çalıb-çağırdığı dilin misilsiz bənzərsizliyini, müstəqilliyini, təbii axarını qorumaq şərtilə! Və yenə də şərtilə! Başa düşənlər düşür, başa düşməyənlər də başa düşməlidirlər ki, bizə Türkdən – Türk xalqından, Türk hökumətindən, Türk qüdrətindən, Türk vəhdətindən irəli, əfzəl, e`tibarlı doğma bir qahmar, arxa yoxdur.

Mən Türkə, lağ ilə təzə Böyük qardaş deməyin də, Türkə yerli-yersiz hayıl-mayıl olmağın da – Türkləşməyin və Türkiyələşməyin də əleyhinəyəm. Türk həsrəti, türk eşqi, türk marağı bir də bilirsinizmi, mənim varlığımda haçan şö`ləndi? 1955-ci ildə Moskva yaxınlığındakı Peredelkinoda Maksim Qorki adına Ədəbiyyat institutunun yataqxanasında Böyük şair Nazim Hikmətlə görüş gecəsində. Sakit, romantik, qarlı-şaxtalı, bəmbəyaz, əsrarəngiz rus meşəsinin içində Nazim Hikməti ilk dəfə üç addımlıqda görəndə, onun səsini, nəfəsini eşidəndə, canlı Türkü birinci dəfə kəlmə-kəlmə eşidəndə.

Uzaq-uzaq tələbəlik illərində mühazirə dəftərlərimin saralmış varaqları arasında gizlənmiş Türk şe`rinin bə`zi həmişəbahar yaşıl yarpaqlarını bu gün əməkdaşlıq etdiyim "Oğuz eli" qəzetinin oxucularına təqdim edirəm. Bu nümunələrdən nə qədər çox adamın xəbəri olsa, bir o qədər yaxşıdır.

Bəlkə də həmən şe`rlər bu saat Türkiyədə bə`ziləri üçün çoxdan-çoxdan köhnəlmiş, dəbdən düşmüş hesab edilir. Əvvəla bu onların öz işidir, öz zövqüdür.

İkincisi, təəssüf olsun ki, belə zövq sahibləri, əslində qeyri-zövq sahibləri – inkarçılar, ağzı ətə çatmayanlar bizim indiki Azərbaycan ədəbi mühitində də var. Səməd Vurğun ə`la deyib:

Qananlar məclisindən keç ki,
Feyz al sözlə-söhbətdən.
Fəqət, qanmazlar ağzında
Düşər loğman da qiymətdən.

Tarix boyu bizim ziyalı oxucularımız Türk romanını, Türk şe`rini Türkün özündən çox istəyib. Çünki Türkün qəlbində bizim nisgilimiz olmayıb, bizim qəlbimizdə Türkün həsrəti, nisgili olub.

1939... Şüvəlan, qarlı-çovğunlu qış gecəsi... bir 13 yaşlı uşaq, bir otaqda T-6 radio qəbuledicisi.

Burası Ankara. Sayın...
Baxıram qəbrinə Türkün bayaqdan,
Sükuta bürünüb yerlər və göylər.
Dözməyib gəlmişdi bir yol uzaqdan,
Deyən yenə dözmür igid cəngavər.

**18 oktyabr 1992**

# HƏLƏ ÇOX İŞ GÖRƏ BİLƏR

Mən Əlisa Nicatı çoxdan tanıyıram. O, ədəbiyyata şair kimi gəlmişdi, yaxşı şe`rlər yazırdı. Bizim şəxsi dostluğumuz var. Böyük zəhmətkeşdi, iste`dadlıdır. Əlisa Şah İsmayıl Xətai haqqında böyük bir roman yazmışdı. O vaxt mən "Azərbaycan" jurnalında işləyirdim, onun o romanını kəlmə-kəlmə oxuyub redaktə eləmişəm, məsləhətlər vermişəm. Əlisanın o əsəri çox gözəl əsərdir. Sonra o yaxşı esselər, fəlsəfi düşüncələr müəllifidir. "Turan" jurnalının yaradıcısı olub. Öz evini satdı, Lənkəranda, yaşaya bilmədi, ona ədəbi mühit lazım idi. Onun yaxşı tərcümələri var. Bu yaxında onun "Dünya filosofları" adlı qalın bir kitabını görmüşəm. Çox zəhmətkeş, başıaşağı, təmiz bir oğuldur, dağlar oğludur. Mən onu belə tanıyıram, duz-çörək kəsmişəm onunla. Son vaxtlar az-az görüşsək də, mən onun xətrini çox istəyirəm və onun yaradıcılığını qiymətləndirirəm. Əlisa hələ çox iş görə bilər, çox yaza bilər. Onun Mirzə Şəfi haqqında gözəl bir əsəri var. Mirzə Şəfi haqqında başqa yazıçıların da əsərləri çap olunub. Əlisa Nicatın Mirzə Şəfisi isə müqayisə olunmaz dərəcədə gözəl bir əsərdir. Mən onun yaradıcılığını yüksək qiymətləndirirəm və ona can sağlığı arzu edirəm.

**1996**

# TƏBRİZ BAYRAQLI XƏLİL

Nəsimi, Musa Cəlil, Yulis Fuçik, Qarsiya Lorka... bəlkə də adını bilmədiyim, tanımadığım başqa qələm sahibləri. Sözüylə özü, diliylə ürəyi düz gələn şairlər, böyük qəhrəman şairlər! Şanlı əzabkeşlər və onların əbədiyyətə uzanıb gedən cərgəsində bizim Xəlil Rzamız.

Heç bir əndazəyə sığmayan poeziya şəlaləsi, coşğun bədii təfəkkür vulkanı. Ədəbiyyatımızın, bədii, ictimai, elmi fikrimizin Günəş kimi təmənnasız fəhləsi. Bir an belə, bekar qalmayan, ilham pərisinin naz-qəmzəsilə oturub-durmayan Xəlil Rza. Şan-şöhrət umacağından uzaq, maddi şirniksiz, müqaviləsiz-filansız on minlə klassikli-müasirli misraların dilimizə mütərcimi Xəlil Rza! “Ermənisiz Azərbaycan!” deyə-deyə iki milyonluq Bakı şəhərində iblis yuvalarını lərzəyə salan – bunun üstündə vəhşicəsinə zindanlara atılan Xəlil Rza.

Əsil alim, ədəbiyyatşünas, filologiya elmləri doktoru – alimliyi heç özünün də yadına düşməyən Xəlil Rza.

Vətəndaş şair! Bə`zən elə başa düşürlər ki, vətəndaş şairlik Vətən haqqında qanadlı, coşğun, şüarvari şe`rlər yazmaqdan ibarətdir.

Ağ kağızı qaraldan şair sözü ildırımdır! Vətəndaşlıq Xəlil Rza poeziyasının bütün hüceyrəsində, ətində-bətnindədir.

Mən gizlənə bilməzdim
Arvad-uşaq dalında.

Bu saat hamı hamıya “bəy” deyir. Tanıdı-tanımadı, “bəy” müraciətinə layiq oldu-olmadı. Mən isə Xəlil Rzaya bəlkə otuz ilə yaxındır ki, “Bəy” deyirəm. Cəsarətinə, qüruruna, hər cür məişət xırdalığından və xırdaçılığından uzaqlığına görə, böyük səmimiyyətinə, insana böyük ülvi məhəbbətinə görə, zəhmətkeşliyinə, səbatına, Vətənə, xalqa, azadlığa poetik və fanatik bağlılığına görə, qüdrətli konkret amallı şe`rinə və bu şe`rinə daha vüs`ət və yaraşıq verən təvazösünə görə və daha nələrə görə...

“Bəy” deyə-deyə onun haqqında ən çox yazanlardan, onun çılğın-çılğın, aşkarlığı çoxdan qabaqlamış aşkar çıxışlarına görə üzünü danlayanlardan, məzəmmətləyənlərdən biri də mən olmuşam.

Xəlilə heyfim gəldiyinə görə... Onun taleyi üçün əsib-titrədiyimiə görə. Elə hər görüşümüzdə, hər dəfə oturub-duranda, bir-birimizə şe`r oxuyanda, piyalə qaldıranda, bağda, dağda, evdə, ictimai yerlərdə ele hey deyirdim: – Ay Xəlil, elə eləmə, belə eləmə, elə demə, belə danışma. O da çox nəzakətlə, mülayim, sözə baxırmış kimi deyirdi: “İgid, başüstə”. Ancaq sən demə dəyirman öz işindəymiş: toyda da, vayda da, yolda da, qilu-qalda da, suda da, havada da, lap xəstəxanada da, lap iki daşın arasında da Xəlil Rza min-min rişxəndli, istehzalı, tə`nəli baxışlar altında heç kimi, heç nəyi vecinə almadan dizlərinin gözü qalın-qalın dəftərlərdən, cürbəcür çantalardan yazar ola-ola cild-cild gündəliklərini yazır, dövrümüzün, nəinki ədəbi-ictimai, hətta bütün mühitimizin canlı, misilsiz, nadirdən nadir, həqiqi, əlvan, təhrifsiz salnaməsini yaradırdı və mən bu sətirləri bu dəqiqə yaza-yaza da yaradır. Ay Allah, o gündəliklərdə kimlər, nələr yoxdur, təkcə bu işinə, bu eşqinə, bu əzabına görə Xəlil Rza misilsiz təqdirə və diqqətə layiqdir. Şair tarixçimiz, salnaməçimiz Xəlil Rza!

Dəyirman öz işindəymiş. Dəyirman hərləndikcə "Tikanlı məftillə sarınmış yaralar" qan verir, 37 davam edir, sərvətlərim, ne`mətlərim talan edilir, qızlarım, gəlinlərim, uşaqlarım eybəcərləşir, milli – öz manqurtlarım doğulur, ana dilim məhv olur, milli şüurum kütləşir.

Sən demə, Xəlil Rza bütün bunları çoxdan görür, yana-yana çox qələm sahibinin, çox iste`dadın əl-qolunu bağlayan, təfəkkürünü buxovlayan zəncirləri qıra-qıra bu günlərimizə addımlayırdı.

Bu sətirləri yaza-yaza yadıma bir əhvalat düşdü: Bakı şəhər kitabxanalarının birində Xəlil Rzayla görüş gecəsi keçirilirdi. Yığıncağı mən aparırdım. Zal Xəlil şe`rinin pərəştişkarlarıyla, əsasən, dəliqanlı cavanlarla doluydu. Bircə nəfər də adlı-sanlı şair, ədib, alim, mən biləni gözə görünmürdü. Qan iyi gələn belə yerdə kimin nə işi vardı axı...

Qulağıma pıçıldadılar ki, zalda DTK nəfərləri də var, ehtiyatlı olmaq, Xəlili qorumaq lazımdır. And olsun Allaha, Xəlil burada bir çıxış, məhz bir çıxış elədi ki, dedim: "Vəssalam!" Canımın dərdindən şairin çıxışının məğzini, canını ayrı səmtə döndərdim, başqa cür yozdum... Bu hərəkətimi dosta sədaqət, dost yolunda fədakarlıq hesab etdim. Çünki, Xəlili çox asanlıqla həməncə zaldan götürüb gedə bilərdilər.

Bəli, görünür ki, "götürüb getmək", "götürüb aparmaq" şairin alnına, tale kitabına yazılıbmış. Haçan, hardan, necə, nə şəkildə başlanırsa, başlansın – Azadlığa gedən yol hökmən zindanlardan, sürgünlərdən, e`dam meydanlarından keçməlidir.

Altmış il əvvəl Salyan qəzasının Pirəbbə kəndində dünyaya gəlmiş şair – inqilabçı şair Xəlil Rzanın həyat, sənət, amal, mübarizə və döyüş yolu Lefortovo zindanından gəlib keçdi.

Şairin tam bəraətlə, görünməmiş ictimai-kütləvi təntənəylə həbsdən azad edilməsi münasibətilə Salyanda, onun

ata-baba ocağında nağıllarda deyildiyi kimi üç gün üç gecə hatəm süfrəsi açıldı, el-obaya arzu-kam ziyarəti verildi. Şairin, sözün həqiqi mə`nasında, axın-axın ziyarətinə gələn camaat yedi-içdi, çaldı-çağırdı.

Mən o vaxt elə zifayətdəcə isti-isti məşhur "Davam edir "37" şe`rinə "Davam edir yemək-içmək" sərlövhəli zarafatyana bənzətmə yazdım. Ancaq tutmadı. Tutmazdı da. 37 hələ tam qutarmayıb. Hələ ayıq olmalıyıq. Silahı həm məcazi, həm də hərfən yerə qoymamalıyıq.

Xəlil Rza "Silahlan" şe`rini yazanda, xalqın – camaatın içində oxuyanda vahiməyə düşürdülər ki: bəs bu nə deyir? Nə deyəcək ki, "qan-qan" deyir. Yox, yox, çox tez, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakının küçələri qana boyananda başa düşdülər ki, şairin bu çağırışı, bu haray zəngləri əbəs deyilmiş...

Mən əziz, sevimli, qüdrətli Xalq şairimizin əsərlərindən misallar gətirə bilmirəm. Misal – seçmə deməkdir. Xəlil Rzanın bütün yaradıcılığı yaradıcılıqlar içində seçmə yaradıcılıqdır.

Xəlil Rza ömrün-günün bütün məqamlarında sınaqdan çıxmış şəxsiyyətdir. Xəlilin kişi sifəti, Milli Qəhrəmanımız Təbriz balasının güllü-çiçəkli əlvan tabutunu son mənzilə ötürərkən gözə görünməz göz yaşları, qaya dözümü, kişi əzmi, dərin dəryalar kimi müdhiş sakitliyi, bədii sözü – müdrik və mübarək kəlamı küll halında – bütün vəhdət vücuduyla onu sağ ikən, hələ inşallah çox-çox illər yaşaya-yaşaya xalqın, millətin gözündə ölməzləşdirib.

Yarlı-yaraqlı Xəlil,
Sinəsi dağlı Xəlil,
Vətən döyüşlərində
Təbriz bayraqlı Xəlil!

# QATARDA

...Qatardayıq... Hamımız ömür qatarının sərnişinləriyik... Bu qatar dolub, boşala-boşala boşalıb, dola-dola lap əbədiyyətin özündən də o yana gedir... Fəqət, biz sərnişinlərin tək-tək ömür yolu nəinki əbədidir, hətta əfsuslar ki, bə`zən lap qaşla-göz arasındadır, bə`zən də ara-sıra bir əsrə bərabərdir. Xülasə, hər bir sərnişinin sonuncu kilometri, axırıncı dayanacağı, gözəgörünməz qüdrətin, taleyin, qismətin hökmüylə, izniylə onun alnına yazılıb. Bu heç... bu mə`lum!.. Ömür qatarındakı sərnişinlərin heç biri yüksüz, bağlamasız – necə deyərlər – tərcüməyə gəlməyən "baqajsız" deyildir. Bu yük, bu baqaj kimin xalqa nə cür xidmət eləməyindən, bu xidmətin nəticəsindən, bəhrəsindən – barından ibarətdir. Bu xidmətin vasitələri çoxdur: çoban tütəyi, naxırçı çomağı, müğənni zənguləsi, cərrah bıçağı, alim zəkası, müəllim səbri , bənna malakeşi, rəssam fırçası, kimyagər fəhmi, dirijor çubuğu, yazıçı qələmi, əzablı yazıçı zəhməti...

Ömür qatarının sərnişinlərindən biri də yazıçı İsi Məlikzadədir!

Qatar gedir. Relslərin calağında təkərlər çaqqıldayır: çaqq-çuqq... Vaqonlar xəfifcə silkələnir. İsi müəllim kupelərin birindədir. Onu heç kim – kupedə heç kim görmür: nə yoldaş Dadaşov, nə sürücü ağsaqqal Qasım kişi, nə buyruq qulu Fatı, nə artist Sabit müəllim görür. Ancaq o hamını və hər şeyi görür, görür və göstərir. Eni-uzunu beş-altı qarış, qəbir kimi darısqal kupedə cürəbəcürə insanlar, xasiyyətlər, əks

qütblər – Dadaşovlar və Qasım kişilər... Sakit, məğrur artist Sabit müəllim və heç bir şeyə ixtiyarı çatmayan fağır, gözükölgəli vaqon bələdçisi...

Mən "Qatarda" teletamaşasının sujetini nəql etmək istəmirəm. Möhtərəm ədibimiz İsi Məlikzadəyə ümumi xalq şöhrəti və sevgiləri qazandırmış bu əsəri az adam tapılar ki, əzbər bilməsin.

– Fatı dur. Fatı otur.

– Sabit müəllim, nolasıdı ki, bəlkə bir şe`r deyəsən. Televiziyada oxuyursan ey...

Yenə o bağ olaydı,
Yemək-içmək olaydı.

Darısqal kupedə geniş əl-qol açan, meydan sulayan yoldaş Dadaşov bütün qatarı barmağına dolayır. Gözü çapıqlıq, natəmizlik, təqsirkarlıq üzündən dili gödəklik nə yaman dəhşət imiş! Heç təqsiri olmayan da xofludur. "Ay cəmiyyət belə gəldi", "ictimai quruluş elə getdi" dəxli yoxdur.

– Canları çıxsın düz yaşasınlar.

Bu pinəçi Dadaşovun sözləridir. Ömür qatarının balaca kupesi – həyatın təhrifsiz güzgüsü, rəngsiz, boyasız, haysız-küysüz təsviridir. Bir dənə artıq söz, detal, hərəkət yox, qeyri-inandırıcılıq, sün`ilik yox! Rejissor, operator işi nə qədər gözəl olsa da, mətn – qüdrətli sənətkar qələmindən çıxan mətn həll edir hər şeyi.

Sürücü – alnıaçıq Qasım kişi cəsarətiylə ürəyimizdən tikan çıxardır:

– Əə, neyləyəcəksən mənə axı?

"Qatarda" əsəri qüdrətli dramatizmə, zahirən sadə görünən, lakin çox mürəkkəb şaxəli pyeslərə məxsus dinamikaya malik, son dərəcə sadə, canlı bir dillə yazılmış qüdrətli,

qiymətli və nadir sənət nümunəsidir. İsi Məlikzadə heç bir şey yazmasaydı – təkcə "Qatarda"... bəsiydi.

İsi ədəbiyyatçı – filoloji təhsilli deyil, məşhur AZİ deyilən neft institutunu – bir qədər təntənəli səsləndirsək, neft-kimya akademiyasını bitirib – neftçi mühəndisdir, mavi yanacaq, qaz mütəxəssisidir. Əsil yaradıcılıq ilahidən, qismətdən gələn vergidirsə, İsini də yazıçı edən, onu ömürlük xoşbəxt yaradıcılıq əzablarına düçar edən elə bu vergidir ki, var.

Dedim ki, heç bir şey yazmasaydı da əxlaq, sima, köləlik-mütilik və kişilik simfoniyası – poeması olan "Qatarda" İsinin bəsiydi. Bu həm doğru sözdür, həm də şərti... Bəli, uzun illərdir eşidirəm: "...Təkcə "Karvan" simfonik poemasına görə bəstəkar Soltan Hacıbəyova abidə ucaltmaq olar, təkcə "Göy-göl" şe`ri Əhməd Cavadın bəsiydi". Böyük qiymətdir...

Bəs axı qatar yalnız bircə kupedən, sərnişinlər də birgə yığılmış beş-altı nəfərdən ibarət deyil... Ömür qatarının qatar-qatar pəncərələri həyatın sağına da, soluna da açılır. Ədib bu pəncərələrdən nəinki üzdə olanları – hətta insan aləminin dərin quyu dibindəki pünhan məqamlarını, nöqtələrini görür. "Quyu" povesti. Oğul anasının arzusu ilə həyətdə quyu qazdırır ki, ailəni büllur kimi saf su ilə sirab etsin. Lakin laybalay dərin qatlara endikcə, sudan daha əvvəl, lap su əvəzinə həmin ailənin kölgəli, qaranlıq tarixçəsi üzə çıxır, quyu qazdırmaqla öz günahını yumaq istəyən övladın mə`nəvi eybəcərliyi aşkar olur.

Pəncərələrdən kupeyə bir qədim xalq mahnısının sədaları dolur: Küçələrə su səpmişəm... Eyni adlı povest. Uşaqlıqda iki əmioğlu bir qıza aşiq olub onun eşqiylə bu mahnını birgə oxuyardılar. Elə bu mahnının, o müştərək məhəbbətin ucundan baş alıb gedən həyat sınağıyla (cəsarət, sədaqət, xəyanət, fədakarlıq) dolu əhvalatlar baş alıb gedir və maraq cazibəsiylə oxucunu ardınca aparır. "Küçələrə su

səpmişəm" əmioğlanlarının ilk gəncliyinin yadigarıdır...

O məsafələrdə ki, qatar sür`ətini artırır; mən də yazıçı müşahidələrinin məhsulu olan neçə-neçə əsərə ötəri nəzər sala bilirəm. Bacı-qardaş münasibətindən, bacı yolunda qardaş cəfakeşliyindən söz açan "Evin kişisi" povesti, avam, təmiz, türkəsaya bir kəndlinin Kislovodsk kurortunda lüt qızlar striptizini görüb sarsılıb da, dəhşətə gəlməsini Çexov ustalığıyla təsvir edən "Vareta" hekayəsi. Bu hekayəni Moskva mətbuatı sənətkarlıq ölçüləri mə`nasında Vasili Şukşinin hekayələriylə müqayisə edərək yüksək qiymətləndirib. Hələ "Mavi yuxu", "Durnalar qatar gedər" novellaları...

Qatar gedir... Birdən haradasa güllə açılır, yox bu güllə boşa getmədi, səsi boğuq çıxdı, deməli, adama dəydi. Kupedəkilər diksinib heyrətə büründü.

"Yaşıl gecə" hekayəsinin qəhrəmanına ağır xəstəlikdən xilas olmaq üçün Ağgölün sahilində yaşamağı məsləhət görürlər. O, sağaldıqca gölün, təbiətin – öz loğmanının könüllü keşikcisinə, qoruqçusuna çevrilir... brakonyerlərə, ekologiya düşmənlərinə, təbii sərvətlərimizin talançılarına qənim kəsilir. Aylı bir gecədə onu öldürürlər, can verəndə Ağgöl də, bəyaz gecə də onun gözlərində yaşıl rəngə – təbiətin şah rənginə boyanır...

Sırtıq nar satan oğlanın səsi vaqonu başına götürür:

– Nar, nar, xalis qlükoza, pramoy qana keçir... mən ölüm.

Pəncərədən qatara dolan başqa hay-küy, başqa çənə-boğaz, əlbəyaxaya çevrilən başqa həngamə... narsatanın səsini batırır:

İki nəfər sadəlövh, yeyib-içən, beyni-başı qan oğlan yolüstü yeməkxanaların birində toqqanın altını bərkidib, adama bir qab gillədəndən sonra beynəlxalq aləmə "müdaxilə" edib biri Səddam Hüseyn rolunda – Seyfulla Səddam, biri də Corc Buş rolunda – Beydulla Buş... biri-birinə girişir nə girişir. Krılov demişkən:

Çıxdı iş axır ölüb-öldürməyə...

Tə`sirli yumor, kəskin sarkazm, istehza, təəssüf... Və hər şeydən əvvəl bədii inandırıcılıq. Bəlkə elə heç nə yazmasaydı, bu hekayənin özü də İsi Məlikzadənin bəsiydi. Bəli, Çexov, Mirzə Cəlil, Haqverdiyev, Mir Cəlal sənətkarlığıyla – niyə axı... Lap elə İsinin öz sənətkarlığıyla qələmə alınmış "Beydulla Buş və Seyfulla Səddam" hekayəsi.

...Ömür qatarının dəhlizində Şaxta baba qiyafəsində bir nəfər görünür, özü də bu bürküdə... O, sifarişlə evlərə gedib ("Quşlar uçmayan yerdə" hekayəsi) şaxta baba rolunda uşaqları əyləndirib çörək pulu qazanırmış. Bir dəfə də elə yoxsul, elə yazıq, elə möhtac bir evə-ailəyə – "naxalstroy" deyilən bir daxmaya gəlib çıxır ki, sarsıntıdan az qalır ürəyi partlasın, baş götürüb özünü salır ömür qatarına... Allah bilir hansı dayanacaqda düşəcək...

Bədii dil! Ayrıca belə bir dil – dil qurumu, dil qrupu, dil kateqoriyası yoxdur. Bəs nə var? Təbiilik, aydınlıq, yığcamlıq, əyanilik var, məzmunun, mətləbin, təsvirin, dialoqun, monoloqun, təhkiyənin özündən doğan təşbehlər, bənzətmələr var – bayatı sadəliyi var... Yazıçının – hansı janrda yazırsa yazsın – xoşbəxtliyi, ustalığı birinci növbədə dilindədir. Bu barədən İsininki gətirib... Qatar gedir. Pəncərələrdən biri açılmır ki, açılmır, mıxlanıb deyəsən. Yoldaş Dadaşovun "Sabit müəllim" deyə çağırdığı aktyorun (mərhum artistimiz Həsən Əblüc) ürəyi bürküdən sıxılır... Pəncərənin birini açmaq istəyirlər, mıxlanıb... Dadaşovun əmriylə pəncərə açılır. Açılan kimi də içəri ağlaşma, türk ürpərdən kişi hönkürtüsü dolur... Sən demə Fəxri xiyabanda böyük bir adamı dəfn edirlər. Hamı nitq deyir... ancaq heç kəs ağlamır, heç kəsin gözündən bircə gilə yaş gəlmir. Bu zaman fəxri xiyabanda – qəbirlər arasında dolaşan səfil, yurdsuz-yuvasız, bu gün

nədənsə... tamamilə ayıq bir adam öz acı taleyini göz önünə gətirib bu yad adamın qəbri üstündə ağlayır. Hamı bir-birinin üzünə baxır: "Bu kimdir axı?" Milis gəlir... Hönkürən adam deyir: Axı, ölünün yaraşığı ağlamaqdır. Bəs adamı son mənzilə yola salanda ağlamazlar?

Yenə deyəcəyəm ki, təkcə bu "Fəxri xiyabanda" hekayəsi İsinin bəsiydi... güləcəksiniz. Eh... mə`nəvi aləmin o qədər pünhan məqamları, açılmamış səhifələri var ki... İş qalıb yazıçı hünərinə, iste`dadına.

Mən İsi Məlikzadəni ilk dəfə mərhum ədibimiz, uşaqlıq və gənclik dostum Salam Qədirzadənin üzünə tanımışam. Birinci kərə onu – otuz-otuz beş il bundan qabaq Bakının Vidadi küçəsində Nurəddin adlı bir nəfər cavan ədəbiyyat həvəskarının kirayə qaldığı evdə görmüşəm.

İsi böyük bir qədir-qiymətlə onun ilk yazılarının çapına kömək edən Salam müəllimi xatırlayır. Onu da köks ötürüb söyləyir ki, dünyadan vaxtsız getmiş gözəl şair Əliağa Kürçaylı oldu mənim əlimdən tutub ədəbi mühitə gətirən, ustad sənətkarlarla, məşhur qələm sahibləriylə tanış edən... Allah ona da min rəhmət eləsin. Bəli, atalar deyib ki, ustadına kəm baxanın gözlərinə qan damar.

Ömür qatarı sonsuzluğa gedir. Onun nə ibtidası var, nə intəhası... Kupedəki Qasım kişi (mərhum, qüdrətli aktyorumuz Hamlet Xanızadə) ədibin idealının, arzu və istəklərinin – bütün əsərlərinin tərcümanı, cövhəridir. Düzlük, təmizlik, saflıq, kişilik, gözükölgəsizlik, adamlıq, sadəlik, müdriklik.

Ömür qatarı gedir. Altmış rəqəmi yazılmış yol dirəyi arxada qalır... İrəlidə yetmiş, səksən, doxsan, yüzüncü və daha neçənci dirəklər görünür...

**1994**

# QANANLAR MƏCLİSİNDƏN KEÇ Kİ...

Uşalıq, ilk gənclik, ağır ehtiyac illərinin dostluğundan olmaz. Bakıda – yuxarı məhəllədə 136 nömrəli bir məktəb vardı. Çoxdan sökülüb. Ancaq Hüseynlə məktəbli xatiratımız qalıb, yaşayır... Tənəffüslərdə söhbətimiz, dəcəlliyimiz, məktəb olimpiadalarında iştirakımız, ayrı-ayrı müəllimləri xəlvəti müzakirə etməyimiz, təqlid etməyimiz...

Uzun Hüseyn hamımızdan seçilirdi. Məndən üç sinif yuxarıda oxuduğuna görə ona həsəd aparırdım. Mən yeddinciyə, Hüseyn onuncuya keçə-keçdə müharibə başlandı. Hər şey alt-üst oldu. Vüsalı Allaha qalan uzun ayrılıqdan sonra 1945-ci ilin sentyabr axşamlarının birində məşhur gül və kitab pasajlarının girəcəyi ilə üzbəüz əmanət kassasının qabağında ağ köynəkli, əl ağacına söykəndiyinə görə uca qaməti bir az əyilmiş, dili çətin söz tutan, cəbhədən təzə qayıtmış Hüseynlə görüşüm indi də gözümün qabağındadır.

Bu gün həmən əmanət kassası yerləşən bina qalmayıb. Bu gün mənim ədəbi nəslimin yaşıl yarpaqlarından biri, bu gün bizim cavanlıq, dostluq sarayımızın oddan çıxıb oda dözümlü qızıl kərpiclərindən biri qalıb. Ömrümüzün bu ahıllıq sərhədindəki nisbi rahatlığımızda, ad-sanımızın, yazı-pozumuzun nisbətən diqqətə, ehtirama layiq olduğu bu vaxtda yarıuçuq, yarızirzəmi mənzillərdə yaşamağımız yadımızdan çıxmayıb. Analarımız Umleyla və Suğranın qabağımıza gətirib qoyduqları çay-çörəyin dadı damağımızdan getməyib, duz-çörək adlı yaddaş təqvimimizdən silinməyib...

Bu yaddaş bütün məqamlarda, həyatın bütün dolaylarında, bütün vəziyyətlərdə, bütün münasibətlərdə bizim bir-birimizə andsız sədaqətin ifadəsidir. Əlbəttə ki, hamıya xoş gəlmək, hamıya yarınmaq, yaxşılıq etmək qeyri-mümkündür. Bununla bərabər axı bir yaxşı adam sözü də var, yoxsa yoxdur? Var! Hüseyn Abbaszadə yaxşı adamdır, təmiz adamdır. Heç kəsi incitməyib. Ancaq heç kəsi incitməməklə simasızlığı qarışdırmaq olmaz. Mən yeri gələndə Hüseynin dönməz tərs üzünü, kimə, kimlərəsə qətiyyətini – haqq naminə qətiyyətini görmüşəm. Uzun illər ədəbi mühitimizdə vəzifəli şəxs olan, bə`zilərinin rişxəndlə dediyi kimi “katiblik boyuna biçilən” Hüseynin konkret yaxşılıqlarını çox adam barmaqla saya bilər. İlk şe`rin, hekayənin, ilk məqalənin, ilk qonorarın, ilk müəlliflik, ilk kitab, ilk təzə mənzil sevinci, Yazıçılar Birliyinin üzvlüyünə ilk fərəhi... Bəli, Hüseyn müəllim mükün qədər heç kəsi nə iş yerindən, nə evindən naümid qaytarmayıb. Kara gəlib. “Kara gəlmək” atalarımızın-babalarımızın sözüdür.

Adam yolda, işdə, vəzifədə, bəd ayaqda sınanır. Bir dəfə səfərdən qayıdanda uzun, qorxulu, enişli-yoxuşlu ağır dağ yollarında qəflətən çox bərk xəstələnəndə... Hüseynin səbrini, dözümünü, nəvazişini və qayğısını gördüm.

Düz on il Hüseyn baş redaktoru olduğu “Ədəbiyyat və incəsənət” qəzetində şe`r şöbəsinin müdiri işləmişəm. Söz yox ki, cəsarət, tələbkarlıq, sözü sözdən seçə bilmək, sözü şax üzə demək, zövq-filan adamın öz canında gərək olsun. Ancaq, hər halda, nə üçün hər halda? Mütləq! Arxan, köməyin, müdafiə edənin, dayaq nöqtən olmasa olmaz. Mən də məhz redaktoruma arxalanıb, lap elə güvənib, qısa desək şe`rə-sənətə, mətbuata qrafoman axınıyla döş-döşə dayanır, əksinə, qəzetin səhifələrində əsil istedada, əsil şe`rə geniş meydan verirdim. Müəllifin heç bir müdaxiləsi olmadan

bəyəndiyim şe`ri çap etdirməyincə Hüseynin yaxasından əl çəkmirdim. Biz belə işləyirdik... Hörmətimiz də hörmət idi.

Heç yadımdan çıxmaz: 1969-cu il idi. "Səhv düşəndə yerimiz"i Yaltada Yaradıcılıq evində təzəcə yazıb gəlmişdim. İşlədiyim qəzetə verməyə utanır, bunu sui-istifadə hesab edirdim. Ancaq, di gəl ki, hara aparır, kimə təqdim edirdimsə bir ağızdan deyirdilər: "Gözəl şe`rdir, ancaq, çap eləmək olmaz. Partiya və hökumətimizin kadr siyasətinə balta çalırsan". Radio və televiziyadan heç söhbət gedə bilməzdi. Əlacsız qalıb baş redaktorumuz Hüseynə müraciət etdim. Hüseyn şe`rimi bəyəndi. Bəyənmək azdır. Bəyənən çox idi. O, şe`rimi cəsarət və səmimiyyətlə qarşıladı. "Səhv düşəndə yerimiz" yox, "Yerimiz" sərlövhəsiylə səhifəyə qoydu. İkimiz də "Ya Allah, ya qlavlit" çağırdıq. Hüseyn qəsdən məni həmən nömrənin mətbəədə növbətçilərindən biri tə`yin etdi. O gün qəzetin həmən nömrəsinin çapına Səbahəddin adlı müvəkkil icazə verməli, səhifələrə qol çəkib möhürləməliydi. Mən də tərs kimi bir neçə gün bundan qabaq redaksiyada həmən adamın şe`r olmayan şe`rlərini qaytarıb qoltuğuna vermişdim... Əhvalımı təsəvvür edin. Rəsmi növbətçiliyim çoxdan qurtarsa da, heç çıxıb gedə bilərdim?

Nabor – yə`ni yığma sexinin tən ortasında hisli-paslı qurşun tozlu şirist yeşiyinin qırağında oturmuşdum. Yay idi, isti idi. Ancaq, köynəyim istidən yox, intizardan, həyəcandan tər-su içindəydi.

...Hər şey yaxşı oldu. Çox şükür ki, şe`r çıxdı. Belə əhvalatı yaddan çıxarmaq olar? Belə şeyi də heç yaddan çıxarmaq olar ki, Hüseyn əmək haqqını yüz faiz saxlamaq, ödəmək şərtilə məni aylarla işdən buraxardı ki, "Bəs get, əsərini işlə". Onda da "Nəsimi"ni yazırdım. Buna e`tiraz edən bəzi qəlbiqara adamlara deyirdi: "Qabil şəxsi iş görmür, əsər yazmaq xalqa xidmət deməkdir".

Əməkdar İncəsənət xadimi, Respublika Dövlət mükafatı laureatı, Xalq yazıçımız, dostumuz Hüseyn Abbas oğlu Abbaszadə! Bu gün boğazdan yuxarı, qeyri-səmimi, nanəcibliklə, guya təzə iqtidarın xoşuna gəlmək üçün həmin fəxri adları nankorluqla gözdən salan bə`zi adamlar vaxtilə bu adları almaq üçün ilan dili çıxarıb, min cildə girib, min səlahiyyət sahibinə ağız açıb, ağız açdırıb. Ziyafətlər verib minnətdarlıq sağlıqları deyib.

Həmən fəxri adlar Hüseynə təşkilatın məsləhəti, siyasətindən asılı oldu-olmadı hökumətin qərarı, zamanın hökmüylə verilib, hər şeydən əvvəl sənətinə görə verilib. Hər adın müqabilində “Burulğanlar”, “Əlibalanın ağır səfəri” kimi romanlar, “Şokolad paylayan qız” və “Xahiş” kimi povestlər, “Gedənlər qayıtmır”, “Çənbərəkənd balladası” kimi hekayələr, Azərbaycan ədəbiyyatında demək olar ki, yeni janr sayılan “Portret cizgiləri” adlı sənədli hekayələr silsiləsi durur.

Yadımdadır ki, “Afişa” adlandırdığı məşhur, oxunaqlı romanın adını Hüseyn müəllim mənim məsləhətimlə dəyişib “Burulğanlar” qoydu. Ümumən Azərbaycanın, xüsusən Bakının – Abşeronun romantikası, mərd adamları, böyük tarixi, mərhələvi – məhz mərhələvi burulğanlı dövrünü bütün koloritiylə əhatə edən, hadisələr, talelər burulğanında əsərin əsas qəhrəmanı Həmidin keşməkeşli ömür-gün salnaməsi!..

Hüseyn yaradıcılığı haqqında çox yazılıb. Tənqidi də həm haqlı, həm haqsız az olmayıb. Bu əsərin sadəcə olaraq sərlövhələrini alt-alta yazsam – Hüseynin təzə bir “kitabı” da əmələ gələr. Şübhəsiz, həmən “kitabın” səhifələri eyni qiymətdə deyil. Hansımızın, kimimizin qələmindən çıxan hər şey yaxşı, ə`la olub?! Allah hərəmizə bir cür (eyni cür yox) iste`dad verib. Dahilik, böyüklük, nadirlik istisnadır. Vacib də deyil. Adamlıq, qədirşünaslıq, abırlı olmaq lazımdır. İn-

sanın, dostun-yoldaşın, xüsusilə sənət və qələm yoldaşının yuxusuz gecələrini göz qabağına gətirə bilmək bacarığı, təsəvvürü vacibdir.

Allaha and olsun ki, odlardan-alovlardan çıxıb, necə deyərlər qazanca qalmaq, başında-beynində min şaxəli sövdalı fikirlər, süjetlər, qəlbində Vətən, xalq, həyat eşqi, əlində qələm yazıb yarada-yarada yaşamaq, gəzib dolana-dolana, deyib danışa-danışa, yeyib içə-içə, heç bir xeyirdən-şərdən qalmaya-qalmaya ömür pilləkanının yetmiş birinci pilləsinə, maşallah, gümrah qədəm qoymaq özü qəhrəmanlıqdır.

Qoy belə adamlar, belə ömür sahibləri oxucu alqışlarından sarsılsın, oxucu gül dəstələrindən bihuş olsun, oxucu arzularından qanadlansın, ağıllı iradlardan, haqlı tələblərdən fikrə getsin...

Qoy Hüseyn müəllim kimi şəxsiyyətlərin qanını nadanların, xəbislərin atmacaları, cızmaqaraları qaraltmasın, qulağını milçək vızıltıları dəng etməsin. Burada böyük şair, ölməz Səməd Vurğunumuzun çox müdrik həkimanə kəlamı, qüvvətli bədii aforizmi yada düşdü, yerinə düşdü:

Qananlar məclisindən keç ki,
Feyz al sözlə-söhbətdən.
Fəqət, qanmazlar ağzında
Düşər loğman da qiymətdən.

**1993**

# BU KİTAB...

Əzizim Rəfail, salamlar, ehtiramlar, heyrət və təşəkkürlər.

Vətən və millət yolunda çalışmış, ömürləri mübarizələrlə dolu olmuş dəyərli insanlar haqqında düşüncələrdən ibarət, onların bir üzü acılı, bir üzü sevincli həyatlarının təsvirindən, tədqiqindən ibarət, xalqa təmənnasız xidmətlərinin dəyərindən ibarət, uzaq ulduzlar kimi əlimiz çatmayan əsrarəngliyinin açmasından ibarət – böyük və fədakar azərbaycanlılar haqqındakı "Millətin zərrəsi" kitabını (719 səhifə) başa çıxdım. Deyirlər həcm şərt deyil. O baxır həcmə, həcmin məzmununa, məzmunun dəyərinə. Nizami "Xəmsə"si də, Firdovsi "Şahnamə"si də, Xəyyam rübaisi də, Hafiz qəzəli də, Sabir "Hophopnamə"si də, hətta Vahid qəzəllərinin birində sitat kimi ilişib qalmış Gəncəli Şövqinin bir misrası da... həcmdir.

Söz qəlbdə... gül qönçədə... mey şişədə qalmaz.

Bəli , Rəfail, sənin kitabının həcmi doludur, məzmunludur, maraqlıdır, şirindir, həm də... həm də... yoxsa mən bu yaşımda, bu gözümlə, bu hövsələmlə onu oxuya bilməzdim. Oxuya bilməyimin bir başqa səbəbi də var: "Keçmiş zamanda bir baqqal varmış və bu baqqalın qəribə şakəri varmış. O, dükana gələn müştərilərlə xoş zarafatlaşar, onlara

yüngülvari sataşarmış da. Bir nəfər də deyir ki, bu baqqal haçanacan bizi dolayacaq. Bu səfər mən onu dolayacağam. Müştəri:

– Məşədi Qulambağır, Əssalamül əleyküm!
– Və əleyküməssalam.
– Bazar olsun.
– Çox sağ ol. Allah ağzından eşitsin.
– Məşədi, mürəbbəəə varundu?
– Var, ancaq elə qəlizinnən yoxdu".

Bu dəfə də müştərini sarıyan baqqalın sözü olmasın, mən latın əlifbası ilə, iri şriftli, xırda-xuruş yazıları, vacib məlumatları oxuya bilsəm də, o boyda kitabı latınca əlimə götürməzdim, onu su kimi içə bilməzdim, höccələyib qoyardım bir qırağa və sən də bir xiridar oxucunu itirə bilərdin. Bax, burda da ağıllısan, haqq-hesab bilənsən. Əlbəttə, nəsil dəyişdikcə, məktəblilər, yeniyetmələr, süd qoxulu balalarımız yaşa dola-dola vərdişləşdikcə əksinə kirildə heç nə oxuya bilməyəcəklər ki, bunun da başqa söhbəti olacaq. Şəxsən məndən ötrü əlifba gözünün alışdığı, qələminin yatdığı, fikri-düşüncəni kağıza köçürməkçin şərti işarədən başqa heç bir şey deyil. Onun dərrakəyə, milli şüura dəxli yoxdur. Lap elə "Millətin zərrəsi"nin timsalında.

Rəfail, sənin çox məşəqqətlər görmüş, zamanın çox sancılarına, illətli yaralarına tab gətirmiş Vətən övladlarından yazdığın kitabı oxuyub qurtarmaq yox – məhz başa çıxdım.

Çətin, ağır, qorxulu yolları, tilsimli, ovsunlu, əcinnəli yolları, satqınlı, üzəduranlı, xəfiyyəli, QPU-lu, NKVD-li, KQB-li, Xüsusi idarəli, gedər-gəlməzli yolları başa çıxarlar. Sən yaza-yaza çıxdın, mən oxuya-oxuya çıxdım. Qaranlıq, qap-qara bir səhra ilə yol gedirəm. Başımın üstündə – başımın yox – səhranın üstündə, briliant-briliant, yerdən hər biri nəlbəki boyda görünən ulduzlar. Qaranlıqlar fədakar, cəfakeş

və əzabkeş Vətən övladlarının qara bəxti, ulduzlar isə onların nurlu siması, şəfəqli amalıdır. Mənim "Ulduzlar" adlı bir şeirim var. Sonuncu bəndi:

Parıl-parıl ulduzlar, pərakəndə ulduzlar
Cahan dairəsində sayrışın siz, yanın siz,
Bir teleskop şüşəsi, bir də şair gözü var,
Hansına kefinizdir, ona da inanın siz.

Sən əzizim! Göylərdən yerə enib kitabının kəlmə, cümlə, abzas və səhifələrinə səpələnən ulduzlara həm teleskop, həm də şair gözüylə baxmısan.

Teleskop gözüylə Pepinovlar, Rasizadələr, Həsən bəy Ağayev sülalələrinin faktlar, rəqəmlər, təfərrüatlarla dolu faktik materiallarını, sənədlərini görüb üzə çıxarmısan, şair gözüylə San Sanıçın (Aleksandr Aleksandroviç Tuqanov) dünya muzeylərinin yaraşığı ola biləcək süfrəsinin Süleyman peyğəmbərin süfrəsi kimi möcüzəsinin təsvirini, həmin süfrəni imzalarla ilmələyən, naxışlayan qoca Tuqanovanın Semaşkoda tənha palatada kimsəsiz ölümünü təsvir etmisən.

Teleskop gözüylə "Yenə o bağ olaydı"nın necə yaranmağının, kimə həsr edilməyinin necə deyərlər "dibinə" getmisən, şair gözüylə Pirşağı bağlarının mavi romantikasını, bir il sonra pərən-pərən düşəcək durna qatarının səfini təsvir etmisən. 1936-cı ildə mənim 10 yaşım vardı. Bağ romanını oxuduqca Pirşağı bağlarımız, Ənvər Məmmədxanlı kimi qum təpəsinə bayraq sancan, mənimçün tez-tez çərpələng düzəldən rəssam qohumumuz Əhmədağa yadıma düşdü.

719 səhifənin hamısına səpələnmiş inadlı axtarışların bəhrəsi teleskop gözünün müşahidə dairəsindədir. "Qaragilə"nin – xüsusilə "Qaragilə"nin və başqa mahnı mətnlərinin təhrifli və təhrifsiz variantları, az məlum olan hadisələr,

şəxsiyyətlər, heç məlum olmayanlar... nə qədər böyük zəhmət, əzablı iş. Yox, Rəfail, sən düz demirsən. Bu əzablı yollarda sən yaşından qoca yox, başından uca görünürsən.

Nə qədər surətlərin, tanıdığım, tanımadığım, yuxuda da görmədiyim, bəzən gündə iki dəfə görüşdüyüm ustad Bəhram Mansurov kimi şəxsiyyətlərin həyat yolunun, insani keyfiyyətlərinin, ziddiyyətli səciyyələrinin dəqiq, şairanə təsviri, materialların yerli-yerində münasib, nadir fotolarla əyaniləşdirilməsi.

Elmi, publisistik, bədii, rəvan, müəyyən mənada cilalanmış aydın dil, qısa cümlələr. Canlı epizodlar, hadisələr – Lətif Səfərovun intiharı, Lütfəli Abdullayevin ölümqabağı Bəxtiyar Vahabzadəyə zəngi, Niyazinin ölümündən sonrakı faciəsi, Sevda Pepinovanın müsibətləri fəsil-fəsil oxucunu çəkib aparır.

Bugünkü Baş nazirimiz Artur Rasizadənin qəribə tərcümeyi-halı. Onun anası azərbaycanlı deyilmiş, erməni də deyilmiş. Amma Rasizadələrdən kiminsə qanında erməni qanı olub. Olub olub da... Əliheydər Qarayev xalis idi – şərəfsiz idi. Türkün, azərbaycanlının tarixi düşməni olan erməni oğlu Levon Mirzəyan dar ayaqda Əhməd bəy Pepinova kömək əlini uzatmışdı. Kitabında belə yazmısan, yazmısan ki, tarix tarixdir. Eşitdiyim, çox güman ki, olmuş bir əhvalat.

Həmən illər Bakıda təbii nifrətdən, qisasdan, qəzəbdən doğmuş erməni ovu başlanmışdı. İntiqam alovuyla yanan cavanlar, Vətən Məcnunu Xəlil Rza da ev-ev, həyət-həyət, zirzəmi-zirzəmi gəzib erməni axtarırlarmış. Nə cür olursa gəlib çıxırlar Maştağaya – bilə-bilə ki, məhz o kənddə, qəsəbədə erməni ya heç olmaya, ya çətin ola. Ancaq necədü səninçün, bir həyətdən azərbaycanca danışan yaşlı erməni qadınının səsi gəlir. Həyətə girib arvadı saçlayıb sürümək istəyəndə bir cavan kişi əlində qoşalülə, barmağı tətikdə çıxır "ovçuların" qabağına, tüfəngi tuşlayır üstlərinə.

– U (yəni "o") mənim anamdu, u məni doğub, gedüz atamnan haqq-hesab çekün. Çıxın, yoxsa doldurram qarnuvuzu.

Rəfail, bu söhbətin ona görə dəxli var ki, sən bir tədqiqatçı alim kimi imkanın daxilində, idrakın səviyyəsində əczaçı və zərgər tərəzisiylə işləmisən. Tale başqa şeydir, sən ki talelər salnaməçisisən. Sənin kitabını oxumamışkən elə bilirdim ki, Müşfiqə föhş oxuyan ancaq Məmməd Rahim olub. Sən demə 32-ci ildən bəri Mir Mehdi Seyidzadəyə qədər çox adam Müşfiqə (tutulmamışdan qabaq) qara yaxıb. Bu heç də Rahimin – xəcalətli və peşman Rahimin günahını yumur. Gülhüseyn Hüseynoğlu rəhmətliyə – üzünə nə lazımsa və ədəb dairəsində deyib.

Məmməd Rahim:

– Təkcə mən olmamışam, nə biləydim.

Gülhüseyn:

– Başqalarından birinin adını çəkin.

Məmməd Rahim:

– İstəyirsən bir də günah yiyəsi olum?!

Dəqiqlik naminə:

Məşhur şairin namusunu ləkələyən şərəfsizi məşhur şairin qəzəbi, hiddəti qovmadı. Bu namus ləkəsinə dözməyən Mircəfər Bağırov qovdu, iti qovan kimi. 45 və ya 46-cı illər olmasaydı lap güllələrdi, bir də istəmədi ki, məsələ geniş yayılıb bumeranq olsun. Onsuz da bilən bilirdi, məşhur şairin şöhrətinə nə sağlığında, nə ölümündən sonra əli çatmayıb paxıllıq edənlər doyunca kam aldılar... Gərək bu kitaba elə müzürrün adı, nə şəkli, nə heç nəyi düşməyəydi. Keçib. Yəqin, kitabın təkrar nəşri olacaq...

Ən gözəl, ən savadlı, işi-peşəsi sırf musiqi nəzəriyyəçiliyi olan şəxslər sənin bu kitabdakı musiqi tədqiqlərinə, təhlillərinə, xırdalama və açmalarına qibtə eləməlidirlər –

Zülfü Adıgözəlov, Şövkət Ələkbərova, Rübabə Muradova, Hacıbaba Hüseynov, Əli Səlimi, Yaqub Zurufçu, ustad Bəhram Mansurov haqqındakı yazılarından – "Qalada", "Ayrılıq", "Qoymadılar" mahnılarının tədqiqində səndən öyrənməlidirlər. Mən "sırf"ona görə dedim ki, axı sən "sırf" deyilsən. Bir yandan dərslik yazırsan, bir yandan Cavidlərin, Rəfibəylilərin, Məhsətilərin, Baba Tahirlərin taleyindən kitab bağlayırsan, bir yandan sənədli filmlər çəkirsən, bir yandan silsilə "Axşam görüşləri" radio verilişləri aparırsan, nə bilim muzeydə şöbə müdiri, müəllimlik, ali məktəbdə mühazirələr – ona görə də bu kitab nə göydən nazil olub, nə yerdən peyda olub. Yuxarıda saydıqlarım bu kitabın təməl daşlarıdır.

Deyəcəklər ki, bu qədər tərif olmaz. Yox, bu tərif deyil. Tərifi toyda bəy oğlana, bəydadaşa deyərlər. Bu, aralarında 29 yaş fərqi olan xalq şairinin xalqın müdrik oğluna verdiyi təmənnasız qiymətdir.

Bir var qanmaz, bir də var gözügötürməyən... Qanmaz qorxulu deyil, təki səni qanmaz bəyənməsin. Qanmazdan inciməyə dəyməz. Səməd Vurğun deyib:

Qananlar məclisindən keç ki,
Feyz al sözlə söhbətdən.
Fəqət qanmazlar ağzında,
Düşər loğman da qiymətdən.

Qorxulu gözügötürməzdir, paxıldır. Bir dəfə bir qanan adama sənin barəndə – hər şeydən əvvəl sənin zəhmətkeşliyin və şövqün barədə heyranlıqla söz dedim. Çox soyuqqanlıqla dedi:

– Bu onun işidir də, ay ustad! Açmasına ehtiyac varmı?!

Dönə-dönə yazırsan ki, haçanacan biz belə olacağıq, haçanacan biz biri-birimizi didəcəyik. Rəfail, həmişə! Elə bilirsən, bu mənada Mir Cəfər Bağırov tək idi?

Professor – dərsin, mühazirənin ustad yaradıcısı Əli Sultanlı Molyerin Xəsis obrazını təhlil edərkən deyirdi ki, xəsislik ancaq və ancaq insana məxsus keyfiyyətdir. İntəhası budur ki, səxavəti qoyursan tərəzinin bir gözünə, xəsisliyi də bir gözünə. Hansı göz ağır gəldi vəssalam!

Bağırov öz millətinin cəllad qənimi idi. Ancaq, həmən Bağırov Krım cəbhəsində "yoldaşı" deyib azərbaycanlı döyüşçüləri təhqir edən, arxadan güllələyən rus komandirlərini Zaqafqaziya Hərbi Şurasının üzvü kimi Krım cəbhəsində öz əliylə xalqlar dostluğunu sarsıdan Vətən xainləri kimi güllələmişdi.

Mən Ştemenkovun, Jukovun, Yakovlevin, Vasilevskinin kitablarında Mexlisin – çox böyük vəzifə sahibinin, Stalindən başqa heç kimi saymayanın alçaqlığı, qəddarlığı barədə çox oxumuşam. Müharibədən sonra Mexlisin başçılığı ilə Azərbaycana – Bakıya, necə deyərlər, hərtərəfli yoxlama üçün böyük komissiya gəlmişdi. Onların qısa müddətdə törətdikləri özbaşınalıq, namussuzluq, azğınlıq Bağırova çatır. O, Mexlisi çağırtdırmır... gətizdirir.

– Vot şto. Yesli vı teçeniye dvux çasov ne pokinite Baku... ya vsex vas pasaju! Von otsyuda!

Sonra da Stalinə bu barədə məlumat verir və "pravilno" cavabını alır.

Məşhur partizan generalı, respublikada – Bakıda özünü saymazyana – xüsusilə Bağırova qarşı saymazyana, kobud aparan Kovpakçını Bakıdan biabırcasına qovur. Kovpakçı Respublikanın xozeyinini öz qəbuluna çağırtdırıbmış. Bu söhbətlərin bu kitaba dəxli var? – Var! Neçin ki, bu kitab kimyagər kitabıdır. Qələvisi öz yerində, üzvüsü öz yerində, qeyri-üzvüsü öz yerində, aşqarları öz yerində.

Uyğun olsa da, olmasa da bir müvazilik (paralel) gətirmək istəyirəm. Rəfail! Sənin bu kitabın məşhur Mendeleyev cəd-

vəlinin tərtib prinsipiylə yazılıb. Mendeleyev cədvəlində elementlər, maddələr, zahiri görkəminə görə yox, şəklinə görə yox, daxili quruluşuna, daxili cövhərinə görə bir sıraya düzülüb. Fikir ver: Həsən bəy Ağayev hara, Lətif Səfərov, Sevda Pepinova hara... Nəzakət Ağazadə hara. Bəhram Mansurov hara, alim Turxan hara... Əhməd Pepinov, Zəki Pepinov hara, Lütfəli Abdullayev hara. Zülfi Adıgözəlov hara, Məmmədağa Soltanov hara... Anatoli Banişevski hara, Alim Qasımov hara. Xədicə xanım, Xurşid xanım hara (fədakar ziyalı xanımlar hara), ana bülbül Şövkət Ələkbərova hara və sairə. Bunların hamısı bir yerdə Azərbaycan xalqına xidmətdə birləşiblər. Bu xidməti kim nə cür bacarıb, o cür də edib. Bu xidmət sahiblərini xidmətləriylə bərabər iri, şaqqıltılı mərcan danələri kimi sapa sən düzmüsən, adını da qoymusan – "Millətin zərrəsi". Bu zərrənin yox, zərrələrin biri də bu qaranlıq səhranın səmasında bərq vuran ulduzların biri də sən özünsən, əziz dost! Xidmətin bir şəkli də belə kitablar yazmaqdır da...

Rəfail, Alim Qasımovun ünvanına, halal şərəfinə dediyin sözlərin səmtini sənə yönəldirəm: millətin Rəfail Hüseynovu olmaqçun Tanrının bağışladığı istedad bəs edən deyil. Rəfail Hüseynov olmağın uzun yolunda alın təri var, fəhlə əməyi var, gecə-gündüz usanmadan çalışmaq var.

Mübarəkə, təqdirə və təqdimə layiq bu kitabdakı avtoqrafında məni Azərbaycanın ən böyük şairlərindən biri və ürəyinin bir parçası hesab etdiyinçin sənə böyük təşəkkürümü bildirirəm.

Allah tarzən Salyanlı Şirinə rəhmət eləsin. Mətləbə dəxli olsa da, olmasa da. Onsuz da hər cümə axşamı pak ruhlar sənin işığının, ocağının başına yığılır, qoy onun da ruhu ocağına gəlsin.

**13.09.2001**

# BİR YARPAQ NİŞANƏ...

Hörmətli redaksiya, ədəbiyyatımıza yaxından bələd olan oxucular bilməmiş deyillər ki, bizim Bəbir Məmmədzadə adında çox rəvan təbli, əruz və heca vəznində lirik və satirik şeirlər yazan bir şairimiz olub.

Onun alman faşizmini, hitlerçiləri ifşa edən, xüsusən də ən çox "Ədəbiyyat qəzeti"ndə çıxan mənzum felyetonları dillər əzbəriydi. Könüllü surətdə cəbhəyə getmək üçün hərbi komissarlığa dönə-dönə, özü də şeirlə müraciət edən şairi gözləri zəif olduğuna görə səfərbər etməmişdilər. O, iri şüşəli eynəkdəydi – nə qədər görmüşdümsə...

Bəbir çox az yaşadı (1914-1942). İyirmi səkkiz yaşında Ordubadi, Səməd Vurğun, Süleyman Rüstəm kimi simaların çiynində, qarlı-çovğunlu bir gündə, doğulduğu bir məkanda – Bakının qədim Şağan kəndində torpağa tapşırıldı.

Bəbirin mənə bir az qohumluğu çatırdı. O mənim ilk dəfə üzbəsurət gördüyüm canlı şair idi. İlk dəfə şeirin əlifbasını ondan öyrəndim. Mənə o başa saldı ki, qafiyə nə deməkdir. Hansı söz hansı sözlə qafiyələnir və qafiyələnmir...

Çox-çox sonralar – 1958-ci ildə onun xatirəsinə "İlk qafiyələr" adlı şeir həsr elədim:

Dan sökülüb çəkiləndə üfüqdən toran,
Körpə quşlar pərvaz edib uçanda səhər
İxtiyarsız xatirimə gəlir bu zaman –
Bir o şair, bir də uzaq ilk qafiyələr.

Yaxınlıqda həzin-həzin səslənir dəniz,
Sahillərə qatar-qatar gəlir dalğalar.
Pozulmaz bir qafiyəylə əmr edirik biz, –
Yerlərin də, göylərin də qafiyəsi var.

Sözümün canı başqadır. Bu il – 2000-ci il yanvarın 13-də işə bax ki, məhz cümə axşamı, Yazıçılar Birliyinin məşhur məsləhətçilər otağında əzizimiz, möhtərəm Anar mənə bir saralmış vərəq göstərib dedi:

– Bu günlərdə atamın arxivini bir də gözdən keçirəndə "Ağla, sazım" sərlövhəli, makina yazısında 8 bənd şeirə rast gəldim. İmza: "M.Bəbir". Sənə də, mənə də, ədəbi mühitimizin, xüsusən də yaşlı və orta nəslinə də Bəbir, özü də M.Bəbir adlı ikinci şair, ümumiyyətlə ikinci hər hansı müəllif imzası məlum deyil. Qabil müəllim, sən biləni bu Bəbir Məmmədzadənin olmaz ki?!

Anar şeiri oxudu. Qulaq asıb tərəddüd elədim. Saz və Bəbir üslubu məni çaşdırdı. Şeirin ruhu da başqa idi. Fikirləşdim ki, Abbas Səhhətdən üzü bəri – o zamankı şairlərimizin, xüsusən Müşfiqin əsərlərində bir obraz, vasitə, poetik simvol kimi saza çox müraciət edilib. Şeirin bir bəndi şübhəmi, tərəddüdümü xeyli azaltdı:

Ağla, sazım, səsin bassın hər yanı,
Eşqim oldu ayrılığın qurbanı,
Mənə könül verən, mənə ruh verən
Bahar müjdəçisi Nərgizim hanı?!

Aşkar yadıma gəlir. Bəbirin Nərgiz adlı nişanlısı vardı... Buzovnalı qızı Nərgiz... Bəbirin bibisi gəlininin – mənim xalam qızının da adı Nərgiz idi. Bəbir tez-tez gülə-gülə deyərdi:

– Sağımda gəlinimiz Nərgiz, solumda nişanlım Nərgiz.

Beləliklə, çox ehtimal ki, sizə – oxuculara təqdim etdiyim bu saralmış vərəqdəki bir yarpaq şeir elə nakam şairimiz Bəbir Məmmədzadənindir. Məsələ şeirin bədii dəyərindən çox, yadigarsız şairin yadigarı olmağındadır, unudulmuş şairimizi yada salmağındadır.

Allah Xalq şairi Rəsul Rzaya bir də ona görə rəhmət eləsin ki, zəngin arxivinin bir qovluğunda bu titrək, kövrək sarı yarpağı qoruyub saxlayıb. Anarımıza bir də ona görə uzun ömür versin ki, xeyirxah işlərə-əməllərə vaxtı çatsın.

## AĞLA, SAZIM

Ağla, sazım, canım oda qalandı,
Ruhum uçdu, ömür bağım talandı.
Bar götürü seyrə çıxdım gülşənə,
Çəmən, çiçək, gül başıma dolandı.

Ağla, sazım, səsin bassın hər yanı,
Eşqim oldu ayrılığın qurbanı,
Mənə könül verən, mənə ruh verən
Bahar müjdəçisi Nərgizim hanı?!

Ağla, sazım, ürəyimdə sözüm var,
Bu ellərə gəlməyə nə üzüm var?
Hara getsəm yarın yeri görsənir,
Bir bülbüləm, gül dalınca gözüm var.

Ağla, sazım, od tökülsün telindən,
Nalə qopsun dodağından, dilindən;
Səhər-səhər yar yuxudan duranda,
Eşitsin səsini sabah yelindən.

Ağla, sazım, səni qəmgin etdilər,
Seyrağublar diləyinə yetdilər;
Yarı yardan, canı candan etdilər,
Apardılar nazlı yarı, getdilər.

Ağla, sazım, qəm başıma düzülmüş,
Dan ulduzum məhvərindən üzülmüş;
Dəli könül, nə yatmısan, dursana,
Xəbərin yox, əlim əldən üzülmüş.

Ağla, sazım, dərdlərimi sən andır,
Al canımı eşqin oduyla yandır;
Qat külümü küləklərin böyrünə,
Aparginən yar başına dolandır.

Ağla, sazım, ağlamağın dəmidir,
Sənin mahnın ürəyimin qəmidir;
Səhər-səhər gül üstünə düşən şeh,
Şeh deyildir, gözlərimin nəmidir.

**2000**

# SƏMƏD VURĞUN

Rübailərimin birində yazmışam:

Başı qarlı uca dağdır Səməd Vurğun,
Həm bayraqdar, həm bayraqdır Səməd Vurğun.
"Xalq şairi" – boyuk addır, bu adsız da...
Bu xalq, bu yurd, bu torpaqdır Səməd Vurğun.

Biz – müharibə illərində ədəbiyyata gələnlər, ağlımız kəsəndən, dilimiz söz tutandan dörd şairi tanımışıq – Səməd Vurğunu, Süleyman Rüstəmi, Rəsul Rzanı, Məmməd Rahimi... Əlimizə kitab götürəndən, müəllim qabağına çıxandan, illər boyu zaman-zaman bu dörd şair bizim sevimli şairlərimiz, ustadlarımız olub. Biz onlara fərq qoymamışıq. Ustadları bir-birilə müqayisə etməzlər, yer bölgüsündə, qiymətləndirmədə fərq qoymazlar.

Məsələn baxıb görürəm ki, Məmməd Rahimi az qala unudublar. "Leninqrad göylərində" poemasının, "İkiqat cinayət", "Vur, ölən faşistdir, insan deyildir!", "Şatır", "Terekin sularında", "Alapalazoğlu" kimi gözəl şeirlərin müəllifini unutmaq olarmı?

İndi sual verə bilərsiniz ki, o dövrdə bu ustadların bir–birinə münasibəti necə idi, indiki dövrdə olduğu kimi, ədəbi əxlaqdan kənar söz-söhbət olurdumu? İndiki kimi qəzet və jurnal səhifələrində bəzi-bəzi cavanların hədyanlarına, söyüşlərinə rast gəlirdikmi? Deyim ki, həmin dövrdə bütün

tanınmış sənətkarlar bir-birilə can deyib can eşidirdilər, bu, ağ yalan olar. Niyə gizlədim, Səmədi sevməyənlər az deyildi, onu qısqanırdılar da, amma bir-birinin uğurlarına sevinirdilər, kimsə kimsənin ünvanına nalayiq söz, kəlmə işlətmirdi. Hər hansı bir yaradıcılıq müşavirəsində kəskin ədəbi mübahisələr olurdu, amma müşavirə, yığıncaq qurtaran kimi o mübahisə edənlər gedirdilər yeyib-içməyə. Biz, yəni o zamanın ədəbi gəncliyi qətiyyən ədəb-ərkandan kənar çıxmazdıq, əgər Rəsul Rza ya Süleyman Rüstəmlə gündə on dəfə qarşılaşsaydıq da, yenə salam verərdik, baş əyərdik. Biz onların ədəbiyyatda yerini, mövqeyini dürüst anlayırdıq. İndi isə kim kimə istəyir sataşır, ələ salır, ağsaqqala hörmət azalıb. Mənim yadıma gəlir ki, Süleyman Rüstəmə Sosialist Əməyi Qəhrəmanı fəxri adı təqdim ediləndə mərhum Prezidentimiz Heydər Əliyev qarşısına qoyulmuş hazır yazıya baxdı, sonra onu bir kənara qoyub dedi ki, buna ehtiyac yoxdur, mən Süleyman Rüstəmin şeiriylə dil açmışam, başladı "Çapayev" şeirini əzbər deməyə.

Bax, adlarını çəkdiyim o dörd sənətkar müqəddəs adamlar idi, onlar ədəbiyyat üçün doğulmuşdular, bayaq dedim ki, bu sənətkarlar arasında yaradıcılıq qısqanclığını hiss edirdik. Bunu, ümumiyyətlə, çox normal və təbii qarşılamaq lazımdır. Əgər sənətkarlıq varsa, qısqanclıq da olmalıydı. Bir də ki, böyük sənətkarı qısqanarlar. Səməd Vurğun o dövrdə çox şöhrətli idi. Moskvada, SSRİ Yazıçılar İttifaqında dramaturgiya ilə bağlı keçirilən bir müşavirəni xatırlayıram. Mən o zaman Moskvada oxuyurdum, kursant idim, müşavirədə iştirak etməyə də Səməd Vurğun dəvət etmişdi. Rəyasət heyətində Fadeyev, Fedin, Şoloxov, K.Simonov, Arbuzov əyləşmişdilər. Birdən onlardan kimsə dedi "sədr kim olsun?" Fadeyev dedi ki, burada heç bir suala ehtiyac yoxdur, Səməd Vurğun buradadır. Səməd Vurğun rəyasət heyətinə keçdi.

Səməd Vurğunu tarixlərdə yaşadacaq əsərlərinin sayı çoxdur. Hansını deyim, "Vaqif" pyesinimi, bir-birindən seçilməyən lirik ya fəlsəfi şeirlərimi, ya "Komsomol", "Aygün", "Muğan" poemalarınımı? Amma mənim fikrimcə, Səməd Vurğunu tarixlərdə "Azərbaycan" şeiri daha çox yaşadacaq, çünki bu şeir yazıldığı gündən hər bir azərbaycanlının dilinin əzbəridir, onun duzuna və çörəyinə qarışıb, neçə nəsil gəlib keçir, amma "Azərbaycan" şeiri həmişə bizim mənəvi himnimizdir. Elə bir nümunə göstərin ki, bu şeiri əvəz edə bilsin.

Səməd Vurğunu ilk dəfə görəndə mənim on dörd yaşım vardı. Əynində qəhvəyi rəngdə pencək, əlində o rəngdə bir qovluq. O görüşdə Səməd Vurğunun "Nizami" şeirini oxuduğu yadımdadır. Sonra illər keçdi, zaman keçdi, mən ilk şeirlərimi çap etdirdim, gənc bir şair kimi adım çəkilməyə başladı və Səməd Vurğunu tez-tez görməyə başladım.

Yadımdadır: "Gəncliyin səsi" adlı bir almanax hazırlanırdı. Bu almanaxda 40-cı illərin gənc şair və nasirlərinin yazıları təqdim olunmalıydı. Belə almanaxları hazırlayandan sonra gətirib Səməd Vurğuna təqdim edirdilər. O da oxuyub tanış olur və çapına icazə verirdi. Bu almanax hazır olanda bizi yığdılar Səməd Vurğunun otağına. Mənim də orda üç şeirim vardı. Səməd Vurğun bircə-bircə hər bir gəncin yazıları haqqında öz fikrini bildirdi. Növbəm çatanda üzünü mənə tutub dedi: "Köpək oğlu, bu şeirləri sənmi yazmısan?" Söz mənə toxundu: "Səməd müəllim, ağzınızı təmiz saxlayın" dedim. Yanımda oturanlar ətəyimi dartdılar, "Utanmırsan Səməd Vurğuna cavab qaytarırsan" dedilər. Görüş başa çatdı, Səməd Vurğun məni dayandırdı, "Sən qal" dedi. Elə bildim ona cavab qaytardığım üçün məni döyməyə və ya ağır bir söz deməyə hazırlaşır.

Dedi "Ayə, aton durormu?" "Xeyr" dedim. "Köpək oğlu, bağışla". Gördüm gözləri yaşarır. Hiss elədim indi dediyi "Köpək oğlu" o köpək oğlundan deyil.

Daha bir xatirə: 1955–ci il idi. Moskvada idim. Rəhmətlik Qulu Xəlilovdan teleqram aldım ki, məni qarşıla, operasiyaya gəlirəm. Pulum yox, üstəlik qar-çovğun, birtəhər üz tutdum "Qazan" vağzalına. Həmin teleqramda nömrəsi göstərilən vaqonun gələcəyi yerdə dayandım. Gördüm ki, Səməd Vurğun çox pis, pəjmürdə halda, xəstə vəziyyətdə vaqondan düşdü. Məni görüb sevindi: "Ayə, sən, bakılı balası, hardan bilirdin mən gələcəyəm?" Mən ona demədim ki, sizi yox, Qulu Xəlilovu qarşılamağa gəlmişəm. Dedim "Səməd müəllim, Moskvada yaşayan bütün azərbaycanlılar bilir ki, siz gəlirsiniz".

Yenə bir xatirə: Moskvadaydıq. Bir gün Yusif Səmədoğlu dedi ki, mənim ad günümdür, gəlin bunu "Moskva" mehmanxanasında qeyd edək. Mən idim, Əliağa Kürçaylı idi, başqalarını xatırlaya bilmirəm, oturduq yeyib-içməyə. Məclisin şirin yerində Səməd Vurğun gəldi, hamımız ayağa durduq. Səməd müəllim üzünü Yusifə tutub dedi: "Ayə, pulun varmı bunları yığmısan bura?" Yusif dedi: "Var". "Ayə, qorxma, mən burdayam". Oturdu bizimlə. Söhbət ana dilindən, onun saflığından düşəndə mən Bəxtiyar Vahabzadənin "Ana dili" şeirini oxudum.

Ümumiyyətlə, Səməd Vurğun istedadlı gəncləri çox sevirdi, onıarın qayğısına qalırdı, yeri gəldikcə, bu gənclərin yaradıcılığı barədə mətbuatda öz ürək sözlərini də deyirdi. Məsələn, Əliağa Kürçaylının bir şair kimi yetişməsində Səməd Vurğunun böyük rolu olub. Əliağa Kürçaylı Salyanda adi bir mühasib idi. Gənc yazıçıların birinci respublika müşavirəsində iştirak etdi, şeir oxudu. O səhnə indi də xatirimdədir. Əliağa əvvəlcə "İlk bahar çiçəyi" adlı şeirini oxudu, Səməd Vurğunun xoşuna gəldiyindən bir şeir də oxumağı xahiş edir. Əliağa daha bir şeir oxudu. Bu şeiri oxuyub qurtaran kimi Səməd Vurğun ondan soruşdu:

– A bala harda oxuyursan?

– Oxumuram.
– Harda işləyirsən?
– Dəmir yolunda.
– Nə işində?
– Hesabdar.
Salondakılar gülüşür, Əliağa tez əlavə edir:
– Hesabdar idim, indi fəhlə işləyirəm.
– Gəl, səni düzəldim Universitetə.
– Götürməzlər.
– Niyə?
– Kamal attestatım yoxdur. Mən doqquzuncu sinfi bitirmişəm.
– Sən gəl, mən deyərəm götürərlər.

Səməd Vurğunun yaxından köməyi ilə Əliağa Bakıya köçür, burada fəhlə-gənclər məktəbinin son sinfini bitirir, sonra Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə daxil olur. Mən Səməd Vurğunun ədəbi gəncliyə qayğısı ilə bağlı belə misalların sayını istənilən qədər artıra bilərəm.

1946-cı il idi. Azərbaycan Pedaqoji İnstitutunun ikinci kursunda oxuyurdum. İyirmi yaşım vardı. Mətbuatda bir neçə şeirim çıxdığına görə tələbə yoldaşlarım, bəzi müəllimlərim mənə "şair" deyirdilər. Günlərin bir günü tənəffüsdə Əhməd Qəribov adlı bir aspirant məni səslədi: "Bura gəl, sənə Səməd Vurğunun heç yerdə çap olunmamış bir şeirini oxuyacam". Sakit bir yerə çəkildik. Əhməd Səməd Vurğunun əruz vəznində yazılmış "Olsun" rədifli həzin bir şeirini əzbər dedi. Ondan xahiş elədim, şeiri bir də aram-aram oxudu, kağıza köçürdüm. Elə həmin günün axşamı o şeirin məni sehrləyən qüvvəsi altında eyni rədifli şeirimi yazdım. Xeyli sonra – əllinci illərdə bir dəfə fürsət tapıb "Olsun" rədifli bənzətmə şeirimi Səməd Vurğuna oxudum. O, diqqətlə qulaq asıb dedi:

– Ayə, bakılı balası, sən məndən qəmgin yazmısan, təxəllüsünü də qoymusan "Nikbin" Sənin nəyin nikbin oldu?

Əgər səndən dönər isəm nəsibim ahu-zar olsun,
Baharım qar tökən qıştək açılmaz bir diyar olsun.
Cavan canım susuz bir qönçətək solsun da, xar olsun,
Libasım ağ kəfən, yurdum-yuvam sakit məzar olsun!

Xəzan gəldi, saralmış güllər üstə qan qus, ey bülbül!
Çax ey şimşək, qop, ey tufan, öt ey bayquş, sus ey bülbül!
Fərağın zindanındaməntək oldun məhbus, ey bülbül,
Gün olsun ki, üzün gülsün, çəmənlər laləzar olsun!

Mənimsə fəsli-gülzarım yetişməz, bülbülüm, bir də,
Açılmaz qəlbi-naşadım, üzüm gülməz bu yerlərdə
Riza qılmam ki, əğyarım da düşsün mən düşən dərdə
Nə qopsun sinəsindən ah, nə cismində şərar olsun.

...Sağ ol, ey bivəfa dünya, sağ ol, bimehr dildarım,
Yan, ey könlüm ki, son dəfə işıqlansın şəbitarım.
Yaz, ey Qabil, könüllər dağlayan bu məhzun əş`arım
Mənim naşad ruhumdan uğursuz yadigar olsun.

Vurğun Sabirdən sonra Azərbaycan şeirinin səmasında parlayan, parladıqca da işığı artan yeni bir ulduz oldu. Sabir şeirimizin həm məzmun, həm də formasının kamilləşməsində, poeziyanın xalqla bağlılığında necə böyük bir iş gördüsə, Səməd Vurğun da o vəzifəni sovet dövründə həyata keçirdi. Onun yaradıcılığı ilə şəxsiyyəti arasında heç bir uçurum, təzad yox idi. İnsan kimi də böyük idi, şair kimi də!

**2006**

# KOROĞLU ROMANDA...

Bu yazımı əsərin lap son cümlələrindən, mahiyyət etibarilə cövhər yekunundan başlamaq istəyirəm. "Ən əsası da hamı fəhm eləsin ki, nə Çənlibel ərşi-əladı, nə də Koroğlu Allahdı".

Jurnalı kənara qoyub, fikrimdə oxuduğumu götür-qoy edib huşa getdim. Elə bil qeybdən gələn səsə ayıldım:

– Əssəlamün əleyküm.

– Əleyküməssalam.

– Sən kimsən?

– Mən haqq şairiyəm.

– Mən Koroğluyam.

– Koroğlu?!

– Bəli, Koroğlu.

– Nağıllardakı, rəvayətlərdəki, dastanlardakı Koroğlu? Yeddi qazanın plovunu bir oturuma yeyən Koroğlu? Misri qılıncıyla bir qoşunu qırıb çatan Koroğlu? Hər dəlisi bir xan üstünə, özü də öz soydaşı Aslan üstünə nərəylə hücüm çəkən, nərəsindən yer, göy titrəyən Koroğlu? Keçəl Həmzənin xəyanətini ayrıca dastan qoluna çevirən, bütün keçəllərə bir xain damğası vuran Koroğlu?! Bəlkə, yoxsa mübaliğələrlə, şişirtmələrlə... əstafürullah...

– Xeyr! Ay haqq şairi! Mən o Koroğlu deyiləm. Oxuyub başa vurduğun həmən yazıdakı Koroğluyam. Mən adi Koroğlu, adam Koroğlu, Allah-təalanın xəlq etdiyi bəndələrdən biriyəm. (İlqar Fəhmi "Qarğa yuvası" yarım-tarixi roman

“Azərbaycan” jurnalı, nömrə 5, 6, 7 – 2005-ci il) Qolumun gücü də, ürəyimin teli də insana verilən hədd həddində, hədd əndazəsindədir. “Koroğlu” operasının musiqisi ilahi möcüzədir. Səs-səda, musiqi göylərə yazılır, eşitmişəm. Ancaq səhnədə Aslan paşanın qarasınca çəkdiyim nərə Çənlibeli lərzəyə salan Qara Mahmuddan vahimələnməyimi, dəliləri, başbilənləri, başı əmmaməli, ağzı dualı, əli təsbehli aqilləri həyacan və təmkin içində, xof içində tədbir tökməyə səsləməyimi gizlədə bilmir. Fövqəlbəşər ancaq Allahın özüdür.

Koroğlunun qeybdən gələn səsi elə qeybdə də yox oldu. Qaldı (mətləbə dəxli olmasa da) üzünü görmədiyim müəllifin əsərindəki Koroğlu. Koroğlunun dastanlardakı mübaliğəsiz bir cəhəti onun sazı və sözü idi, onun çalıb-çağıran haqq aşiqi olmağı idi. Elə buna görə də uzaq ərəb qəbilələrinə gedib çıxan, uzaq nəslini səhrada zəhərli sudan xilas etmiş qarğa nişanlı Qara Mahmud ilk müdhiş zərbəsini Çənlibelin məşhur aşığı Ceyhunun sazını təhqir etməklə, sinəsinə əcayib şəkilli dağ basmaqla vurur. Bu dağ Koroğlunun sinəsinə basılmış dağ idi. Buna real əhvalat kimi, düşmənsiz Koroğlu olmayıb kimi baxmaq lazımdır.

– Ə, götür o sazı, vur bunun təpəsinə. Yoxsa adam olası deyil. Bir də eşitsəm ki, mahalı gəzib Koroğlunu vəsf eləyirsən, sənin qulaqlarını kəsəcəyəm, bu bir. İkincisi də ağana deyərsən ki, Qara Mahmud bu tərəflərə qonaq gəlibdi. Bu vaxta kimi o, meydan sulayıb, indi növbə mənimdi. Həm də ona tapşır ki, məni axtarıb eləməsin. Xeyri yoxdur. Neçə illərdi ki, hamı məni axtarır. Fəqət heç kimi tapa bilmir.

Fəqət bu çağrılmamışın da çağrılmamışı qanlı-qadalı mehmanı, Vətən torpağımızın rəmzi olan Çənlibeldə at oynatmağa gəlmək istəyən, əslində gələn, törətdiyi əməllərin rəmzi işarəsi olan ölü qarğaları hər küncə-bucağa tullayan Qara Mahmudu heç kəs qarşılamaq istəmir. İstəmir azdır.

Bütün Çənlibel – saysız-hesabsız igidlər, dəlilər ayağa qalxır. Qara Mahmudun diyar-diyar izinə düşən dəlilər hoydu-hoyduyla, ağılla, fəhmlə, səbrlə, risklə, zəndlə, canından keçməklə, kitab açdırmaqla hərəkət edirlər. Dəlilər – Dəli, Həsənin, Toxmaqvuranın, Halayqıranın, İsabalının, Xan Eyvazın canlı, dadlı-duzlu, ağır məqamlarda təmkinli, tədbirli, zarafatından qalmayan surətləri oxucunun gözü önündə canlanır. Axtarış təsvirləri əsər boyunca tam nağıl stilində, nağıl diliylə qələmə alınır. Bu mənada, bu ruhda "Qarğa yuvası" mənə Elçinin məşhur "Mahmud və Məryəm" əsərini xatırladır. Qara Mahmud – Nurlu Mahmud.

Keçəl Həmzə, sədaqətli, cəsarətli Həmzə başda Qara Mahmud olmaqla bütün quldurları öz fərasətiylə tələyə salıb tutmağı vəd edir, vədini də yeddi cür fənd ilə, hoqqabazların özünə məxsusluqla yerinə yetirir. Əgər bu vəd yerinə yetirilməsə Koroğlu ərklə nəinki Həmzənin qulaqlarını kəsəcəyini söyləyir, atının quyruğunu kəsəcəyini, Misri qılıncını sındırıb Çənlibeldən baş götürüb gedəcəyini söyləyir. Bilmirəm hansı filosofun sözüdür ki, "Allah yoxdursa onu yaratmaq lazımdır". Deyirlər, Bəhlul Danəndə tarixi şəxsiyyət olub. O, Misir Fironu Harun ər-Rəşidin böyük qardaşı imiş.

Ancaq, nə Dədə Qorqud, nə Molla Nəsrəddin, nə Koroğlu tarixi şəxsiyyət olmayıblar. Çənlibel adlı konkret coğrafi məkan, yer məskən olmayıb. Yuxarıdakı həmən fikri təkrar edirəm: Allah yoxdursa, onu yaratmaq lazımdır. Xalq qəhrəmanını – öz qəhrəmanını yaratdı. Onun şərəfinə dastan bağladı, söz qoşdu, dəlilər peyda elədi, Çənlibel deyilən əfsanəvi igidlər məkanının sərhədlərini cızdı, hüdudlarını müəyyən etdi. Koroğlu ideallaşdı. Fikrimizdə, düşüncəmizdə yaşadı, yaşayır və yaşayacaq.

Xalqın bir adı da kütlədir. Kütlə isə bir yerə cəm olub nə nağıl, nə dastan, nə bayatı, nə ağı, nə mərsiyə yazıb. Bunların

hamısı hansısa bir adamın, bir nəfərin işi olub – sonralar da dönüb olub folklor. Necə ki, İlqar Fəhminin qələmində biz tamamilə başqa bir Koroğlunu görürük.

Koroğlu hara, onun hökmranlığına göz dikmək hara. Koroğlu hara, ona ultimatum vermək hara. Koroğlu hara, Misri qılıncı sıyırıb dağların, daşların, meşələrin canına düşüb quldur dəstəsinə olan qəzəbini çox təbii şəkildə fəvvarələndirmək hara. Koroğlu hara, düşmən əhatəsində Dəli Həsəni dardan qurtarmaq uğrunda ölüm-dirim meydanında ölümcül hala düşüb qan qusa-qusa aylarla yatağa düşmək hara?

Necə deyərlər, adını məşhur dəlilər siyahısında görmədiyimiz Çəpgöz Muradın düz görən, düz seçən gözü, Qara Mahmudla döyüşdə xüsusi taktikası, əlindən çox şey gələn, Koroğlunun mənəvi dayağı, müdrik Molla Həbib, Koroğlunu lap nağıllardakı kimi sağaldan təbib Molla Həbib, onun təsəvvür, xürafat, xof, vahimə barədə fikir və düşüncələri bütün sujet boyu, hadisələr fonunda, vəziyyətlər içində inandırıcı bədii təsvirlərlə verimişdir.

Əsərdə çox qəribə tarixi ekskurslar var. Düşməni axtarmaqda yüsür təsbeh dənələrinin şifrələri, yanmış karvansaranın izə düşmək mənasında müşahidəsi, at nallarının nə şəklə düşüb, nə şəkildə yeyilib sürtülməsi – bunların hamısı romanın naxışlarıdır. Qorxunc, girintili-çıxıntılı mağara labirintləri, qorxunc qəbristanlıqlar, dağıdılmış, quldurların Koroğluya göz dağı vermək, onun gözünün odunu almaq üçün təhqir edilmiş qəbirlər canlı-canlı lövhələr, mənzərələrdir. Heç şübhəsiz ki, bütün variantlarıyla, boyalarıyla, qollarıyla ölməz, əzəmətli "Koroğlu" dastanı, ölməz Üzeyir bəyin (liberettosu heç...) "Koroğlu" operası olmasaydı, "Qarğa yuvası" yazıla bilməzdi, Koroğlunun real insani obrazı yarana bilməzdi.

Sitat: "Yəni hər bir nur parçası mövcud olan yerdə o boyda da qaranlıq zühur eləyir ki, bu ilahi qanundu. Koroğ-

lunun özü də nurdu, işıqdı bizdən ötəri. Qara Mahmudsa qaranlıq, zülmət parçasıdı. Qaranlıqsız işıq mövcud olmadığı kimi Qara Mahmudsuz da Koroğlu olmaz".

Bəli, əyyami-qədimdən hamıya bəlli olan bu həyat fəlsəfəsini müəllif təkrar etmir, yada salır.

İri həcmli, bu oxunaqlı, maraqlı əsəri necə deyərlər "bittə-bittə" təhlil etmək olmaz və lazım da deyil. Bəs nə lazımdır: Götürüb oxumaq!

Bəlkə də fikrim sizə yersiz və gülməli görünəcək: "Qarğa yuvası" dəlibaşlığın, adamı adamlıqdan çıxardan mübaliğənin, şəxsiyyətə pərəstişin əleyhinə yazılıb. Redaktordan xahiş edirəm aşağıdakı cümlələri pozmasın. Mənim Əbdülhüseyn adlı bir qohumum vardı. Nərgiz xalam qızının qaynatasıydı, doxsandan yuxarı ömür sürdü. Ağzı dualı Allah adamıydı. Necə deyərlər, məxsusi dindar, din xadimi deyildi. Mollalar, xüsusən təziyə, hüzr məclislərinə dəvət edilən mollalar eşidib biləndə ki, Əbdülhüseyn kişi orada olacaq cin dəmirdən qorxan kimi qaçıb gizlənirdilər. Nə üçün?

Ərzaq mağazasında gecə gözətçisi işləyən Əbdülhüseyn kişi bir hüzr məclisinə gözlənilmədən gəlir. Yuxarı başda oturub onu görməyən molla Həzrət Əlinin şərəfinə vəz oxuyur.

– Qurbanı olduğum cənab Əli qılıncını çəkib girir bəni israil qoşununun içinə cəmi-cümləsini qırıb tökür. Bir dəfə də gözünə döndüyüm cənab Əli necə ki, cuşa gəlib sağ əlinin beş barmağını yeridir Xeybər qalasının divarına. Həmin qalın divarda o üz bu üz beş deşik açılır... Hə...

Əbdülhüseyn kişi dözmür:

– Əşşi, ay hərzə, nöşün bu camaatı, o cənabı ələ salırsan?! Bir adam da lap on Rüstəmi Zal gücündə olsun, on dəmirçi Gavə gücündə olsun, bir qoşunu qıra bilər? Öldürər, uzaqbaşı üçünü-dördünü. Heç insan da yalın barmaqlarıyla divar, hasar, lap nazik taxta hasar deşə bilər? O ki Xeybər qalası ola?! Gəl

sənə bir "Kazbek" qutusu verim, barmağınla deş görüm, necə deşirsən? Həm günahdır, həm ayıbdır. Heç kimi şişirtmək, ələ salmaq, gülünc bir hoqqabaza çevirmək olmaz. O ki qaldı Şahi şəhidan oğlu üzü nurlu, qolu zorlu, qılıncı kəsərli, təbi rəvan, ürəyi ipək, kəlamı dürr xəzinəsi Həzrət Əli əleyhissalam ola! Allah bütün peyğəmbərlərin sonbeşiyi Məhəmməd peyğəmbərə də ülvilik həddi, hökmrəvanlıq əndazəsi qoyub".

Sitat: "Keçəl Həmzə hündür bir yerdən Çənlibeli seyr etdikcə fikirləşdi ki, (at oğrusu, xain hesab etdiyimiz Həmzə) hərgah Koroğlu olmasaydı, bütün bunlar da olmazdı. Elə o səbəbdən də camaat onun xətrini bu qədər istəyir. Hamımızın gözündə o şahlardan da, sultanlardan da böyükdür. Elə bu dəm gözünün qabağına yenə ölü qarğalar gəldi. Əhvalı pozuldu, götür-qoy eləyib belə nəticə çıxardı ki, Allah insanın böyüklük imkanına da bir hədd qoyub, yalnız bu həddə qədər böyümək olar. Ondan yuxarı qalxmaq Adəm övladı üçün qadağandır. Bəlkə elə mahalda Qara Mahmudun peyda olmağının səbəbi elə o idi ki, Koroğlu xalqın nəzərində çox böyümüşdü, həddən ziyadə çox. Camaat belə xəyal eləyirdi ki, Koroğlu hər şeyə qadirdir, o hamıdan zorludu, heç kəsdən qorxmur, kimsə ona bata bilmir, bir növ Allahın bacısı oğludu (Keçəl Həmzə zarafatından, Koroğluya ərkyana sataşmağından da qalmır). Şəksiz bu düzgün deyildi. Belə şeylər o bir olan Allaha xoş getməz".

Necə dəmir məntiq, necə inandırıcı nəticə! Hökmən həddini aşanın qabağına onun yerini, həddini göstərmək istəyən, kürkünə pişik balası boyda birələr salan Qara Mahmudlar çıxmalıdır, necə ki, Koroğlunun qabağına çıxdı da.

Koroğlunun niyyəti bu idi ki, kimsə ondan qorxmasın, bütün mahal onun xətrini istəsin. Əsl padşah üçünsə xalqın onu istəməyinin heç bir əhəmiyyəti yoxdur. Bu, müəllifin sözləridir. Mən də əlavə edirəm ki, istər bir adam, istər bir

qəbilə, istər bir mahal xof, vahimə, ehtiyat hissindən xalidirsə, onun yaşamağı, vəziyyətdən çıxa bilməyi sual altındadır.

Koroğlu Qara Mahmudu basdı, bu belə də olmalıydı. Müəllif qələbəyə aparan bu yolun çox tilsimlərdən keçdiyini bədii lövhələrlə inandırıcı vəziyyətlərlə göstərdi. Koroğlu qalib gəldi. Bu, xalqın öz idealına – Koroğluya olan etiqadının qanuni nəticəsiydi.

Koroğlu qalib gəldi. Ancaq qəti surətdə təkbaşına yox. Bütün üsyan, qiyam, yürüş, hərəkat, tətil başçıları təkbaşına olduqları üçün məğlub olublar. Düzdür, təkbaşına olmayanlar da xəyanət ucundan məğlub olublar. Koroğlu qalib gəldi. Xalqın – Çənlibel əhlinin bütün zümrələrinin, ağıllı dəlilərin sədaqət deyilən bir müqəddəs inam və etiqadın gücünə.

“Koroğlu” operasında Çənlibel xoru deyilən məşhur musiqi şedevri (yəni bütün opera misilsiz şedevrdir) var ha, İlqar Fəhminin bu romanı həmən xorun əsl mətni, teksti, sözləridir.

“Koroğlu” qalib gəldi. O özü Qara Mahmudun quldur dəstəsiylə birgə mühasirəyə alınmasında iştirak etmədi də, bunun da öz mənası var. Çənlibelin qocalmış dəlilərindən biri nəql edir ki, Koroğlu Qıratın nalını qızdırıb Qara Mahmudun sinəsinə basdı və dedi: – “Göndərin bunu haradan gəlmişdi ora – Qəzvinə. Aşıq Ceyhunun da sinə dağı yerdə qalmadı”.

Son sitat: “Gərəkdi ki, hamımız papağımızı qabağımıza qoyub fikir eləyək bundan sonrakı əməllərimizi dürüst ölçüb biçək ki, mahalda təzə Qara Mahmudlar peyda olmasın”. Bu məğzdir. Əsərin mahiyyətidir, mənasıdır, müəllifin istedadının güzgüsüdür.

Mən bacardığımı, əsər haqqında isti-isti, necə deyərlər bir nəfəsə təəssüratımı yazdım. İstərdim ki, ədəbi tənqid də, ixtisas sahibi tənqidçilərimiz də “Qarğa yuvası” haqqında öz mötəbər sözlərini desinlər. “Azərbaycan” jurnalı romanın

kitab çapına kömək etsin, onu ölkəmizdə olan fondlu-fondsuz mümkün mükafatlardan birinə təqdim etsin.

Söylədiyim kimi, üzünü görmədiyim bu müəllifə bəlkə də rəğbətim ondan irəli gəlir ki, mənim də "Nəsimi"m elə bir növ yarım tarixi əsərdir. Mən öz "Nəsimi"mi belə təsəvvür edib yaratmışam. İlqar Fəhmi də öz Koroğlusunu elə təsəvvür edib yaradıb. Çox asan, rahat oxunan bu əsər yəqin ki, çox çətinliklə yazılıb. Məncə əslində əsər çətin yazılmalı, asan oxunmalıdır.

**8 avqust 2005**

# "DAĞLARDA ATILAN GÜLLƏ" VƏ YA

## "QEYRƏT, A VƏTƏNDAŞLAR!"

Mən müəllifin yerində olsaydım, bu əsəri Vətən namusu, bayrağımızın müqəddəsliyi üstündə, heysiyyətimizə toxunmaq üstündə erməni zabitini cəhənnəmə vasil edən Ramil Səfərova ithaf edərdim. (Hüseynbala Mirələmov "Dağlarda atılan güllə" Azərbaycan jurnalı, 7, 8. 2005) "Dağlarda atılan güllə" mənim ürəyimdən tikan çıxartdı. Dedi ki, bəsdir, yüz il əvvəl tarixçi Veliçkonun erməninin pisləməsindən təsəlli tapdınız, bəsdir bədnam, nankor, naxələf qonşu deyə-deyə odunuza su səpdiniz, bəsdir, "Dənizdəndənizə böyük Ermənistan" iddiasını ələ sala-sala qəzəbinizi soyutdunuz, bəsdir, "Lazım gəlsə" deyə-deyə işinizdə, gücünüzdə oldunuz, bəsdir, Şuşadan, Laçından, Kəlbəcərdən, hətta Xankəndindən hava məlumatı, havakabab məlumatı verə-verə ağzınız qulağınızın dibinə getdi, bəsdir. "Torpaqlarımızın iyirmi faizini verə-verə bir qarışını da verməyəcəyik" deyə-deyə ikrahla lovğalandınız, bəsdir düşməni ahu-naləylə qarşıladınız, söydünüz, bəsdir, gün o gün olsun deyə-deyə toylarda arsız-arsız "Laçın", "Şuşa" adlı bədnam – məhz bədnam, uydurma rəqslərə qol qaldırdınız.

"Dağlarda atılan güllə" – Hüseynbala müəllimin bu əsəri bütün məziyyətləri, sənətkarlıq naxışları, bəzəkləriylə bədii əsərdir. Yeri gəlmişkən, bunlardan danışacaq və misallar gətirəcəyəm. Lap elə gətirim də...

Bənövşə (elə əsərin canı bu surətdədir) öz dünyasına qapılmışdı. O dünyanın ki, dənizi qurumuşdu, sahillərinin kəhrəba qumları günəşin od nəfəsiylə qovrulub yanırdı, sonalar üzən göllərini yosun, çal-çayır bataqlığa çevirmişdi. Günəşi bozarmış çöllərini, qırov tutmuş meşələrini, qaş-qabağından zəhər tökülən dağlarını isitmək gücündə, qüdrətində deyildi.

Dağlarda atılan güllə əyin-başı şəlpə-şəlpə olmuş, kişilər qabağında, naməhrəmlər önündə yarı üryan Bənövşənin dünyasına, sinəsinə çəkilən dağlara, Vətən qaranlıqlarına atıldı, “Ayağa qalx!” startını verdi.

Xocalı qırğınından, donuz damlarında erməni əsirliyindən canını qurtarıb nisbətən salamat sayılan, gözdən-nəzərdən uzaq, xaraba dəyirmana sığınmış kişilərin içində yarım lütdü Bənövşə, onun cır-cındırı namus-qeyrət bayrağına, ilk dəfə olaraq bədii əsərlərimizdə ilk partizan addımları bayrağına çevrilir.

“Son vaxtlar Bəy Bənövşənin barəsində daha çox düşünürdü. Paltarının süzülüb əldən düşməsi, yaxasının, baldırlarının açıq qalması, bir təhər gəlirdi ona. Özünü, oğlu Bəxtiyarı, Mustafanı, Ötgəmi qınayırdı: – Biz də adımızı kişi qoymuşuq. Tutaq ki, Zakir qocadı. Bəs mən, bəs üç nəfər gözü qanlı cavan necə? Bənövşəni sıxıntıdan, əzab-əziyyətdən niyə qurtara bilmirik? Dörd-beş arşın parça dondan – tumandan bir şey tapmaq nə böyük işdi? Yox özüm gedəcəyəm, erməni kəndlərindən birində – yerin təkindən göyün yeddi qatından olsa da paltar tapıb gətirəcəyəm Bənövşəyə”.

Erməni kəndlərindən birinə getmək – gözlərini qan tutmuş faşist yuvasına girmək təkcə Bənövşə üçün pal-paltar yox, – Qarabağın xaraba dəyirmanının da yiyəsi var – deyə ora sığınanlar üçün ərzaq, silah, sursat, qənimət (məşhur “trofeya” sözü yadıma düşdü) gətirmək – ancaq və ancaq partizanlıq deməkdir. Hamımız bilirik ki, Böyük Vətən

müharibəsində rəsmi, nizami orduyla yanaşı partizan dəstələri, bölmələri, diviziyaları, tək-tək cəsur, əfsanəvi partizanlar düşmənin başına od yağdırırdı, od!

"Qatırın yükünü açdılar. Ötkəm gətirdiyi qəniməti içəri yığdı".

İlk dəfədir ki, bu əsərdə biz ermənidən qənimət götürür, erməni bizim qulağımızı yox, biz Vazgenin qulağını kəsir, Nersesin ulağını kilsədən götürdüyümüz silahlarla yükləyirik. İlk dəfədir ki, toran qovuşanda çardaqda ata ilə oğulun – Vahan ilə Haykın cəsədi yan-yana uzadılır, ilk dəfədir ki, ermənini qulağı ermənini qartmağlı pencəyinin cibinə qoyulur.

Bu vaxtadək yazılan əsərlərdə ermənilərin törətdikləri tükürpədici, ağlasığmaz vəhşiliklərini səhifə-səhifə, epizod-epizod oxuduqca bir vahimənin, ümidsizliyin, ruh düşgünlüyünün təlqininə məruz qalırdıqsa, Hüseynbala Mirələmovun "Dağlarda atılan güllə"si xalqı, xüsusən gəncliyi qisasa, müqəddəs intiqama səslədi – kəsilən başların, kəsilən döşlərin, dillərin, qulaqların, körpəli bətnlərin, diri-diri yandırılanların, xarabazara döndərilən şəhərlərimizin, kəndlərimizin, külə döndərilmiş malımızın, mülkümüzün, ev-eşiyimizin intiqamına səslədi.

Sənətkarlıq baxımından, bədii söz ustalığı baxımından xüsusilə epik əsərdə, dramatik əsərdə iştirak edən adamların obraz kimi, surət kimi bir-birindən fərqlənən konkret xarakterləri yadda qalan cizgilərlə, boyalarla, detallarla təsvir edilməmişdir. Kamran da, Zakir də, Süleyman müəllim də, Səlimoğlu da, Bəxtiyar da, Novruz da, Mustafa da, Ötkəm də, Sədəf xala da, Bənövşə də, Həsən də, Saleh kişi də, Təvəkkül, Abbasoğlu, Altay, Həmid kişi də, Eldar adlı polkovnik də, Qara Bəşir də, Bəbir kişi də bir vəhdətdə, bir amalda bir-birinə bağlıdırlar. Setrak kimi cəlladların tüfəngini əllərindən almaq, baltalanmış, yandırılıb külə dönmüş bağçala-

rımızın, tapdalanmış namusumuzun qisasını almaq – xalqı hərəkətə gətirmək. Axı Qarabağın qaçqını, köçkünü, didərgini o yerlərin hər qarışını, ermənininin yerini-yurdunu gözüyumulu tanıyıb bilir. Yəni yerdən Allahın bir daşını, kəsəyini götürüb bir erməni pəncərəsinin şüşəsini də sındıra bilməzdilər?! Yəni ermənininin bir toyuğuna da daş ata bilməzdilər. Söhbət tərpənişdən gedir, qisas ehtirasından gedir. "Dağlarda atılan güllə" deyir ki, yəni bunun üçün Ali Baş Komandanın əmri lazımdır? Yəni yuxarıda saydığım adamların əlində prezident fərmanı vardı? Yəni həyatda, əslində (əsər əsərliyində) düşmənin içinə girib – lap canından keçə-keçə onun canına vəlvələ salmaq olmazdımı, olmazmı? Başqa sözlə partizan olmaq olmazdımı, olmazmı?!

Əsir alınmış Vartanuş da, digər iki qoca erməni də həyatlarının son saniyələrini, dəqiqələrini yaşadıqlarını düşünüb bir-birinə qısıldılar – onların təsəllisi yalnız bu oldu ki, Türk qocalara, qadınlara, uşaqlara toxunmur. Ancaq bəsdir, səbr kasasının da daşmağı var. Bəli, əsir götürülmüş ermənilər əllərini hər şeydən üzəndən sonra şirin, yağlı dillərini işə salıb yalvara-yalvara (həm də düzünü) deyirlər ki, biz Qarabağda türklərlə bir ailə kimi yaşayırdıq. Bizi İrəvan yoldan çıxartdı, cavanlarımızın qanını, beynini İrəvan zəhərlədi. Dahi Cəfər Cabbarlının "1905-ci ildə" əsərindəki Salamovun dilindən söylədiyi məşhur kəlam yada düşür: "Ermənininin nə yaxşısı, nə pisi. Deyə bilərsən ki, bu erməni o ermənidən yaxşıdır. Yox ey, yox! Ermənininin pisinə də, yaxşısına da lənət!"

"Dağlarda atılan güllə" nalə, qarğış, lənət, söyüş deyil. Kiş-kişlə donuz darıdan çıxmaz. Zora zor, qana qan, partizan, partizan deməkdir bu güllənin əks-sədalı səsi. Ordu, rəsmi silahlı qüvvələr öz yerində. Bəli, onlar Ali Baş Komandanın əmrinə müntəzirdir. Hər yerdə, hər ölkədə olduğu kimi. Bir də var "Vuran oğul dayısına gənəşməz". Bu əsər

dayısına gənəşməyən oğulları səsləyir. "Dağlarda atılan güllə" qətiyyət siqnalıdır.

Əsərdən: Axşam düşəndə "Bulaqlı yatağı"nın yerini tapa bilməyənlər üçün, erməni əsirliyinə məruz qala bilənlər üçün... fanardan əlavə Süleyman döşək ağını da tən ortadan cırıb bağlamışdı ağacın ucuna. Doğrudur, dost-tanışlardan, hətta rayon rəhbərliyindən işarə vurub demişdilər ki, ağ bayraq təslim olmaq əlamətidi. Götür onu ağacın başından. Süelyman da cavab vermişdi ki, təslimçiliyin bundan da biabırçısı da varmı? Evimizi, kəndimizi, qəbirlərimizi, bulaqlarımızı, dağlarımızı yağıya qoyub gəlməkdən böyük təslimçilik yoxdur. Sözlərinə onu da əlavə eləmişdi ki, bu ağ parçanı öz qanıma bulayıb isladandan sonra zəfər bayrağı kimi qaldıracağam. Hələlik bu, ağ əski parçasıdı... və ümidsiz yolçuların bələdçisidir.

"Dağlarda atılan güllə" Süleymanların qanına boyanmış, boyanacaq qızıl zəfər bayraqlarının salyutudur, başını itirmiş ümidsiz yolçuların ümid siqnalı, ümid sədası, ümid çağırışıdır. Hər bir əsərin bədii dəyəri var. Bu romanın qayəsi onun bədii dəyərinə yaraşır və bədii dəyərindən üstündür. Müəllif erməni qanmazlığını da, dilbilməzliyini də müdrik xalq lətifələrimizlə də ələ salır. Mehtər Muxtarla Zinaverin at alveri epizodu:

Atı bazarda satıb, pulunu cibinə qoyandan sonra:

– Ay Zinaver kirvə, at yaxşı atdır, ancaq sürüşkəndir...

– Ha... palçıqda sürüşür?

– Yox ey, sürüşkəndir, yəni pozğundur, əxlaqsızdır.

– Ara, mən arvad almıram ki, at alıram da.

– Özün bil.

Bəli, sonra sürüşkən at Zinaverin başına oyun açdı, nə açdı?

Erməni həm axmaq, həm də amansız cəlladdır. On beş yaşlı Azərbaycanlı uşağı yerə yıxıb, dizini sinəsinin üstünə qoyub əlində xəncər boyda bıçaq:

– Ara, hanı bunun anası, kəsirəm gəlsin tamaşa eləsin.

"Dağlarda atılan güllə" analarımızı ayağa qaldıran, partizanlığa, müqəddəs intiqama çağıran güllədir. Açıq meydanda, üzbəüzdə, bərk ayaqda erməni həmişə fitrətən qorxaq olub.

Dilicançı Həsən adlı bir uzaq qohumumuz olub. Danışırdılar ki, çox zəhmli, əzazil bir adam olub. Həmən dilicançı Həsən Şüvəlanlı idi. Günlərin bir günü iki erməni ustanı çağırır ki, ev-eşiyini təmir etdirsin. Ustalar işlərini qurtarıb haqlarını istəyəndə Həsən əlini xəncərin qəbzəsinə atıb soruşur:

– Nə üçün, sizin o qara keşiş köpəyoğlu Əslini bizim Kərəmə vermədi?

Qorxudan tir-tir əsən ustalar başa düşdülər ki, bu "Əsli Kərəm söhbəti"ndən qan iyi gəlir. Dedilər:

– Qoy gedib öyrənək, gələk.

– Hə, gedin. – dedi.

Ustalar əlləri ətəklərindən uzun sağ-salamat qaldıqlarına şükür etdilər.

Xoznavarda kilsə gözətçisi Vanonun öldürülməsi, aradan bir qatır yükü silah-sursat, ərzaq aparılması, Xanəzən mağazasının qarəti, dörd yeniyetmə dığanın yoxa çıxması xəbəri ildırım sürətiylə qonşu kəndlərə, rayon mərkəzinə çatdı.

Bütün süjet boyu belə-belə intiqam, qisas lövhələri oxucunu – bizi ruhlandırır, yanğımıza su çiləyir, qana-qan, haqqın-ədalətin qisası. Bəli, indiyə qədər bu mövzudakı yazılarda belə söhbətlər yox idi. Dəxli yoxdur. Nədən danışırsa danışsın, bədii əsərin dili, ifadəsi, təsvirlərin, mənzərələrin incə müşahidə, dəqiq, obrazlı qələmə alınması bu bədii söz ustalığına dəlalət edir.

"Göyün üzünü seyrək buludlar alsa da, ay ətrafı işıqlandırmışdı. İndi Bəxtiyar əvvəlki kimi nə zümzümə edir, nə də qarşıdakı böyürtkən, itburnu kollarına ağac, daş parçası

atırdı. Gecənin ömrü yarıdan keçmişdi. Cüyürlərin suat yerlərinə gedən vaxtı idi. Quşlar pırıltı ilə budaqlardakı yuvalarından uçur, səhər nəğmələrini oxuyurdular. Yandırılmış evlər, qol-budaq edilmiş gilas, tut, alma bağları, Minkənd çayının övladları ölmüş ananın bayatısına, ağısına bənzəyən şırıltısı.

Xanəzənin köhnə qəbiristanlıq mənzərəsi, dörd erməni dığasının ardıc, zirinc kolları arasındakı cəsədi xeyli uzaqda qalmışdı. Çiçəklinin Dılidağa söykənən aşırımında oynaşan buludu səhərin sərin mehini qovub gözdən itirmişdi".

Nisbətən böyük, sitat olan bu parça "Dağlarda atılan güllə"nin bədii trayektoriyasıdır, yazıçı istedadının əl boyda güzgüsüdür. İnsafən Hüseynbala Mirələmov necə deyərlər, təbiət görməmişi, mənzərələr tamarzısı deyil. Allaha şükür hamı bilir ki, görür ki, təbiət Lənkəranı – Hüseynbalanın doğulduğu diyarı çox böyük səxavətlə mükafatlandırmışdır.

Ancaq o güllə ki, o dağlardan atılmışdır, o dağlar qana boyanmış dağlarımızdır. Cığırından, mağarasından tutmuş, gədiyindən, aşırımından tutmuş obalarından, kəndlərindən, gizli-gizli dolam dolaşıq yollarından, təbii səngərlərindən tutmuş bütün bu ətraflar – düşmən tapdağında qalan ətraflar... Ətraflar yox, Vətən torpaqları "Dağlarda atılan güllə"nin min-min şimşək parıltısından parıltılı olan işığında görünür. Bu yollarda – "Qeyrət, a Vətəndaşlar" – deyə-deyə partizanlar – Qarabağ partizanları irəliləyir.

**PS.** Hörmətli oxucular! Hüseynbala müəllim yalnız asudə-asudə əsərlərini yazmaqla, gəzib dolanıb incə – təfərrüatlı müşahidələr aparmaqla, bir qələm əhli kimi günün nəbzini tutub, onu bədii sözə çevirməklə məşğul olmur. Onun ikinci məsuliyyətli, çox məsuliyyətli bir "məşğuliyyəti" var. Əslində bu məşğuliyyət yox, işdir, ağır iş. Hüseynbala Mirələmov rəhbər işçidir, başçıdır. Bakı Qaz Emalı

Zavodunun yüksək ixtisaslı baş direktoru, altı yüz nəfər adamın çalışdığı təsərrüfat gəmisinin kapitanıdır.

"Gəmi" sözünü təsadüfi demədim. Emal edilən, xüsusi mürəkkəb müasir qurğularda saflaşdırılan, təmizlənən, istifadə üçün yararlı şəklə salınan lilli, qumlu, çirkli qaz – xam qaz dənizin dərinliklərindən çıxır.

Hüseynbala müəllim bu altı yüz adamın ailə vəziyyətindən, səhhətindən, maddi-mənəvi halından ("durum" sözündən xoşum gəlmir) həm xəbərdardır, həm də ailə başçısı kimi bütün bunlara cavabdehdir. Bu barədə yazıçı gözü, yazıçı duyumu, yazıçı həssaslığı ona çox-çox kömək edir.

**2005**

# YADIMDADIR O NADİR İNSAN

Ənvər Məmmədxanlı lirik-romantik bir yazıçı idi. "Bakı gecələri", "Əfsanəli dağlar", "Buz heykəl", "Karvan dayandı" əsərlərini az qala əzbər bilirdim. O, ailəsiz, azad, sərbəst, qürurlu, əyilməz, yaraşıqlı bir kişi idi. Geniş mütaliəsi vardı. Gözəl tərcüməçi idi. Bir məsəl var: "aldığım qiymətə satıram" – yəni eşitdiyimə görə Məmməd Səid Ordubadinin "Qılınc və qələm" romanının stilist redaktoru Ənvər Məmmədxanlı imiş. Mən Ənvəri ilk gəncliyimdən, uzaq tələbəlik illərimdən uzaqdan-uzağa tanıyırdım. Onun Buzovna qayalıqlarında (qohumu Rəsul Rzanın bağına tez-tez gələrdi) dənizə tilov atmağını da, hərbi geyimdə Yazıçılar İttifaqındakı tədbirlərə gəlməyini də görmüşdüm. Sonralar illər keçdikcə biz yaxınlaşdıq, çox ədəbi məclislərdə, yığıncaqlarda, mötəbər yemək-içmək süfrəsində bir yerdə olduq, çörək kəsdik. Yaxın idik, dost deyildik. Aramızda böyük-kiçiklik vardı, hörmət, abır-həya pərdəsi vardı. İndi dəbdə olan marça-març kişi öpüşündən Ənvər müəllimin zəhləsi gedərdi. Konkret olaraq bunu mən harda, necə bildim?

Günlərin bir günü səhər-səhər Dənizkənarı parkdan gəzintidən gəlirdim. Yolumu keçmiş Çkalov, indiki Niyazi küçəsindən salıb asta-asta üzü yuxarı Filarmoniyaya qalxırdım. Vaxtilə Mir Cəfər Bağırovun yaşadığı evin üzbəüzündə Ənvər müəllimlə rastlaşdım. O, əks istiqamətdə dənizə tərəf gedirdi. Ənvər müəllim dediyim kimi ağır təbiətli, az danışan, bir az da adama yovuşmaz idi. Bəlkə aramızdakı yaş

fərqinə görə, pilləyə görə mənə belə gəlirdi. Salamlaşdıq, əl verib görüşdük.

– Qabil, necəsən, nə var, nə yox?

– Çox sağ olun, Ənvər müəllim, səlamətlikdir. Nə yaxşı ki, sizinlə səhər-səhər görüşdük.

– Qabil, sənə bir şerini oxuyacağam, qulaq as.

Heyrət etdim: Ənvər Məmmədxanlı, küçənin ortasında özündən xeyli kiçik, cavan ("gənc şair" mənasında yox, mən o vaxt tanınmış şair idim.) şairə sinədən şeir deyəcək. Gör, bu necə xoşbəxt şair imiş ki, Ənvər kimi adamın əzbərindəymiş.

– Ənvər müəllim, buyurun, buyurun.

Ənvər:

"Mən səni görməyə adət etmişəm,
Adət məhəbbət deyil.
Səni görməyəndə xiffət etmişəm,
Xiffət məhəbbət deyil.
Sənə min ehtiram, hörmət etmişəm,
Hörmət məhəbbət deyil.
Gözündə çağlayan mehribanlığa
heyrət etmişəm,
Heyrət məhəbbət deyil.
Yalvarıram, sən
Məhəbbət umma məndən.
Hanı iqtidarım,
Məhəbbətin tufanına
Sinə gərən gəncliyimi
Sənə qurban vermək üçün
Geri qaytarım,
Geri qaytarım".

Utandığımdan, heyrət və fərəhimdən özümü itirmişdim.

– Qabil, bu şeirinə görə qürurum icazə versəydi səni öpərdim. Sağ ol.

O getdi. Mən arxasınca baxa-baxa qaldım.

1974-cü il idi. "Nəsimi"dən sonra yazı masasından, kağız-qələmdən, cürbəcür tənha guşələrdə, öz-özümlə danışmaqdan qorxub bezmişdim. Nədənsə, hardansa Cavad xan haqqında poema yazmaq fikri ağlıma gəldi. Mən deyərdim ki, bir nömrəli tarixi milli qəhrəmanımız olan Cavad xanın müqəddəs və mübarək adı indiki kimi kütləvi şəkildə dillərdə-ağızlarda gəzmirdi.

Ulu şəhidimizin soyadını da öyrənmişdim. Ziyadxanov. Yavaş-yavaş məlumat toplamaq, öyrənmək həvəsiylə tərpənirdim, ancaq qorxurdum. Təzə, böyük yaradıcılıq əzabından qorxurdum. "Nəsimi" gözümün odunu almışdı. Vaz keçmək üçün bəhanə axtarırdım.

Günlərin bir günü Yazıçılar İttifaqında məşhur məsləhətçilər otağında, adəti üzrə İttifaqa az gələn Ənvər müəllimlə görüşdüm. Ədəb, əndazə, baş-beyin aparmamaq şərtilə ordan-burdan söhbət əsnasında xəbər aldım ki, bəs ay Ənvər müəllim, Mirzə Fətəli romanınız nə vəziyyətdədir?

– Vəziyyəti yaxşıdır, əziyyəti yamandır. Tarixi əsər yazmaq çətindir, özü də ki, tanınmış konkret tarixi şəxsiyyət ola. – dedi.

– Ənvər müəllim.

– Bəli.

– Cavad xan haqqında poema yazmaq istəyirəm. Ancaq qorxuram.

– Qabil, yaradıcılıq əzabları yazıçının ömür-günüdür, taleyidir. Sən ayrı şeydən qorx! Qorx ki, yazdığın əlində qala, çap eləməyələr. Bir tərəfdə Sovet hegemoniyası, Rus hökmranlığı, xalq dostluğu şüarı və sairə və sairə ictimai-siyasi qa-

dağalar, maneələr, bir tərəfdə də Rus istilasına baş əyməyən, bütün Azərbaycan xanları, xanlıqları içində təkbaşına, əlbəttə oğluyla birlikdə millətin, xalqın, Vətənin, Gəncənin şanlı-qanlı bayrağına çevrilmiş Cavad xan. Bu gün 1974-cü ildir. Sənin fikrin Nəsimiyə getməsin. Bilirsənmi, indi də dahi klassiklərimizi (Mirzə Fətəlidən başqa) o cümlədən də Nəsimini dinsiz, Allahsız hesab edənlər var.

– Ənvər müəllim, sizə təşəkkür edirəm. Məni bu barədə tərəddüddən, əzabdan xilas etdiniz.

– Əşşi, yekə oğlansan, nə təşəkkür, nə əzab, nə bəhanə. Özün bil, iradən, səbrin, uzaq sabahlara ümidin varsa get yaz da.

Yazıçılar İttifaqının məşhur Natəvan klubunda Ənvər Məmmədxanlı ilə bağlı yığıncaq vardı. Nə münasibətlə olduğu yadımda deyil. Xitabət kürsüsünə qalxanlar Ənvər müəllim sənətkarlığından, yaradıcılığından danışır, əsərlərindən misallar gətirir, şəxsiyyəti barədə xoş sözlər deyirdilər.

Xitabət kürsüsündə görünən növbəti natiqlərdən biri çox məşhur tənqidçi-nəzəriyyəçi ədəbiyyatşünas şəxs (Ənvərdən bir il əvvəl dünyadan gedib, adını çəkmirəm, ruhu şad olsun) çox qeyz və qəzəblə dedi:

– Bəsdi də. Nə qədər bu adamı, bir belə tərifləmək olar? Yəni Ənvərin əsərlərində heç durğu işarəsi, nöqtə-vürgül xətası da yoxdur? Göyə qaldırdığınız Leyli Məcnun ssenarisinin birinci cümləsinə fikir verin: Yanıq səhra... Necə yəni yanıq səhra? Səhra taxıl zəmisidirmi, üzüm bağıdırmı, qarğıdalı tarlasıdırmı ki, yana yanıq ola. Səhra qumdur də qızmar günəş altında qızmar qum. Yox bir ütülmüş səhra?

Bu həyasız, yersiz, istehzalı dırnaqarası irada bir nəfər dözmədi. Şair Əliağa Kürçaylı. Onsuz da qırmızı olan bu adam az qala məşələ dönə-dönə dedi:

– Filan müəllim, sizə hörmətimiz var. Ancaq "Yanıq səhra" sözü bədii kəşfdir. Qədim ərəb əfsanəsindən törənib,

"Leyli Məcnun" adlı dahiyanə əsərlərin və Ənvər müəllim "Leyli Məcnun" kino ssenarisinin məğzini, cövhərini yanğı, yanıqlıq, eşq-məhəbbət yanğısı ifadə edir. Səhra da Məcnunun hicran dərdindən, ah-naləsindən yanıb oldu yanıq səhra.

Bir dəfə, təsadüfən Ənvər Məmmədxanlı, Bayram Bayramov və mən görüşüb getdik çörək yeməyə. İçəri şəhərdə, Qız qalasının lap həndəvərində açıq restoranda (bəlkə də kafe, qəlyanaltıxana idi). Əyləşdik. Yemək-içmək gələnə kimi, ordan-burdan söhbət düşdü. Ənvər müəllim dedi ki, mən də bir-iki dəfə Mir Cəfər Bağırovun qəbulunda olmuşam. Hiss eləmişəm ki, onun 37-dən salamat çıxan yazıçılara, əlbəttə, tanınmış, görkəmli məşhur yazıçılara gizli bir rəğbəti var.

Soruşdum:

– Ənvər müəllim, Bağırov dili bilirdi?

– Canlı danışıq dilini, lətifələri, zərbi məsəlləri, atalar sözlərini, hətta cürbəcür söyüşləri yaxşı bilirdi.

– Bəs ədəbi dili?

– Dedim də...

Bir yol – yəni bir dəfə Moskvadan Bakıya bir vaqonda gəlirdik. İnanın ki, Ənvər Məmmədxanlının və Sabit Rəhmanın başı Bakıyacan şahmat taxtasından yuxarı qalxmadı. Əlbəttə, bu mübaliğədir.

Mənbim fikrimi, sözümü oxuyurmuş kimi Bayram müəllim ərklə özünəməxsus əda ilə (Ənvər də ədalı idi – ancaq ağayana) soruşdu:

– Sən nə üçün şahmatın bu qədər leylacısan. Gül kimi vaxtını yazmağa sərf etməkdənsə...

– Ay Bayram, özün də yazıçısan. Yazmaq vaxtla, nərdlə, bilyardla, şahmatla, hətta qumarla da bağlı deyil. Məsələn Dostoyevski... Yazmaq gəlməklə, tapmaqla bağlıdır.

Ortaya yemək-içmək gəldi. Onlar içkiyə aludə olmadıqları üçün mən də hörmət-ehtiram naminə özümü saxladım.

Ənvər müəllim dedi:

– Bu şahmat məsələsi də bəlkə geniş mütaliə də, ay Bayram, ay Qabil, təkliklə, tənhalıqla bağlıdır.

Köks ötürdük, piyalə qaldırdıq. Ənvər dedi:

– Günlərin bir günü rəhmətlik Mikayıl Rzaquluzadə – bu çox səmimi, ziyalı insan, dostumuz xüsusən də ovçu dostumuz, qələm yoldaşımız məndən lap elə üzbəsurət soruşdu ki, ay Ənvər, sən bu təklikdə, yalqızlıqda necə yaşayırsan? Mən də dostumun sialına sualla cavab verdim:

– Ay Mikayıl, bəs sən o boyda ailənin, arvad-uşağın içində səs-küydə, hay-küydə necə yaşayırsan?

**2005**

# BÖYÜKAĞA QƏLBİMDƏDİR

İndiki Türk səfirliyinin memarlıq abidəsi olan görkəmli binası (indiki Bəstəkarlar İttifaqının binası – red.) müharibədən əvvəl, (1941-1945) sonralar da xeyli müddət Pionerlər evi olmuşdu. Burada müxtəlif peşə yönümlü dərnəklər vardı. O cümlədən də ədəbiyyat dərnəyi.

Bəxtiyar Vahabzadə, Hüseyn Abbaszadə, Çingiz Ələkbərzadə, Kamal Ağayev, İsmixan Rəhimov, mən və başqaları müharibəyə qədər həmin dərnəyin üzvləri olmuşduq.

Dərnəyin rəhbəri şair Ənvər Əlibəyli idi. Onun portreti, həyat yolu, cəbhə illəri yaradıcılığı, ədəbi-ictimai fəaliyyəti ayrıca mövzudur.

Pionerlər evi demək olar ki, Yazıçılar İttifaqının binasına bitişik idi. Ənvər dərnəyin bəzi məşğələlərində bizi Natəvan klubuna aparar, uşaq heyrətiylə adını eşidib üzünü görmədiyimiz yazıçılara, şairlərə tamaşa edərdik. Dərnəyin növbəti məşğələlərinin birində Ənvər dedi:

– Uşaqlar, gələn məşğələmizdə bizim hörmətli qonağımız – o mənim uşaqlıq, ilk gənclik dostum – şair Böyükağa Qasımzadə olacaq.

Sevindik və pıçıltıyla bir-birimizə dedik: "Şirin sözlər" kitabı, "Əziz ata" Stalin haqqında şeir, "Qarı səhəngini çırpdı daşlara" və sairə. Böyükağanın "Şirin sözlər" adlı ilk şeirlər kitabı – onun yaradıcılıq pasportu o zamankı gəncliyin arasında əl-əl gəzirdi. Bəli, mən Böyükağanı ilk dəfə Ənvər Əlibəylinin dəvət etdiyi dərnəkdə gördüm, son dəfə 1957-ci

ilin payızında tabutda. Gördüm ki, Ənvər – bu arıq, çəlimsiz, cəbhəçi kişi səkidə əyləşib hönkür-hönkür necə ağlayır. Əşi, indi bəlkə də belə göz yaşları çoxdan quruyub.

Böyükağa kim idi? Bakının xüsusi koloritli, özünəməxsus adəti, ənənəsi, əxlaq kodeksi, hətta hər məhəlləsinin qəbristanı olan Maştağa kəndində 1916-cı ildə anadan olmuşdu. Məndən on il böyük idi. Yox, Böyükağa məndən təkcə yaşına görə yox, bütün keyfiyyətlərinə görə böyük idi. İndi də böyük olaraq qalır.

Adı da özünə yaraşan addır – Böyükağa! Böyükağa az yazan lirik şair idi.

Bir ağac altında ay işığında
Ceyran sevgilimin nazı gözəldir.

Onun lap yeniyetmə vaxtında, ilk qələm təcrübəsi olan "Murad" adlı kitabçası, sonra yuxarıda dediyim kimi "Şirin sözlər", sonra və axırıncı dəfə "Anarsan məni" adlı şeirlər kitabı çıxmışdı.

Böyükağanın az yazmağı sısqalıq və tənbəllik deyildi. Müharibənin odları, alovları içində keçən ən ilhamlı gənclik illəri və qısa ömür – 41 yaş.

Yox, səbəb bu da, bunlar da deyildi. Böyükağa orijinal bədii yaradıcılığını – bədii tərcüməyə – özü də necə bədii tərcüməyə qurban verdi.

O vaxt AZİ deyilən sənaye institunun ikinci kurs tələbəsi Böyükağa Mirzə Fətəli Axundovun A.S.Puşkinin ölümünə yazdığı məşhur "Şərq poeması"nı fars dilindən dilimizə tərcümə etmişdi.

Bu elə-belə iş deyildi. Tərcümə üçün müsabiqə elan edilmişdi. Ortada iki iş, iki tərcümə vardı – münsiflər heyətinin seçiminə, qərarına müntəzir. Bir tərcümə o zamanın tanınmış

ədəbi siması, sonralar mənim müəllimim Cəfər Xəndanın, bir tərcümə də gənc şair Böyükağa Qasımzadənin idi.

Cəfər Xəndan poemanı təbii ki, çox ahəngdar, musiqi kimi rəvan əruz vəznində, Böyükağa isə heca vəznində tərcümə etmişdi. İkinci tərcümə orijinala – başqa sözlə, əslinə çox yaxın olduğuna görə təqdir edildi, mükafata layiq görüldü. Böyükağanı ədəbi aləmdə yaxşı tanıtdı.

Sonralar necə deyərlər nəhrin, selin qabağı açıldı: Füzulinin "Yeddi cam", Puşkinin "Kolomnadakı ev", Nekrasovun "Rus qadınları", Puşkinin "Taun zamanı işrət", Taras Şevçenkonun, İvan Frankonun, Musa Cəlilin şeirləri dilimizdə Böyükağanın klassik tərcümələrində səsləndi. Səsləndi və Böyükağaya halal ədəbi şöhrət gətirdi.

Böyükağa bir az vasvası, ancaq çox səliqəli adam idi. Ömrünün axırına qədər biz Böyükağayla onun sonuncu iş yeri – "Azərbaycan" jurnalında görüşürdük. İndi oğlu İntiqam bu jurnalımızın baş redaktorudur. Onda isə "Azərbaycan"ın baş redaktoru məşhur yazıçımız, qocaman, xeyirxah Əli Vəliyev idi. Bir dəfə Əli müəllim Böyükağadan soruşur:

– Bəri bax, Böyükağa, sən hər gün işə təzə kostyumda gəlirsən. Neçə kostyumun var ki?

– Əli müəllim, kasıbçılıqdı, bir kostyumum var, səliqə ilə geyinirəm.

Olmasın bir, olsun iki, lap üç kostyum. Hər halda o illərdə 1949-50-ci illərdə kasıbçılıq idi. Sözümün canı odur ki, Böyükağa bu tərcümə işinə, bu yaradıcılıq əzabına maddi ehtiyacdan girişmir, kasıbçılığa görə dözmürdü. Qalstukunu çiyninə atanda, saçlarını üzünə dağıdanda bilirdik ki, Böyükağanın keyfi kökdür. O, elə sən deyən içki içən də deyildi.

Əli Vəliyev jurnalda belə bir xoş, yaxşı qayda qoymuşdu. Qonorardan qonorara ya işçilərin ümumi hesabına, ya çoxlu qonoror alan hal əhli məhrəm müəllifin hesabına bulvardakı Cəlilin

kababxanasına yığışırdılar. Böyükağa konyak içərdi. Əndazəylə içərdi və dodaqaltı Vahidin bir beytini zümzümə edərdi:

Ölçüdən xaricə çıxma, yıxar axır səni mey,
Tutalım içkidə sən hamıdan möhkəmsən əgər.

Zümzümə dedim yadıma düşdü. O, Orucəli Həsənovun jurnala təqdim etdiyi "Azərbaycan ədəbiyyatında sosializm realizmi" məqaləsinin əl yazısını avazla Rast üstündə oxuyurdu. Yəni münasibətini bildirirdi...

Böyükağa gözütox adam idi. Ancaq içindəki yumor, ərki çatan adamlara yüngülcə sataşmaq şakəri də vardı.

Salam Qədirzadə "Azərbaycan" jurnalının məsul katibi idi. "Razmetka" deyilən bir iş vardı – materiallara keyfiyyətinə, tutumuna, həcminə görə, jurnalın ixtiyarında olan vəsaitinə görə pul – qonorar yazmaq. Bu iş – çox vacib iş Salamın vəzifə öhdəsindəydi. Ancaq Böyükağanın azarı, dilxoşluğu, xobbisi idi ki, hesablayıb görsün ki, kim, hansı müəllif yazısına görə nə qədər qonorar alacaq.

Tənbəllik eləməyib dübbə-dürüst hesablayıb adbaad, yanında da məbləğ qədəri siyahını məsul katibin qabağına qoyurdu. Salam gülümsəyə-gülümsəyə:

– Ay Böyükağa...

Salamla Böyükağanın – bu iki cəbhəçi yazıçınınki bir-biriylə tuturdu. Sadəlik, təbiilik.

Cəbhə, 1943-cü il... Böyükağanın cəbhə illəri – ön cəbhə, döyüşən ordu, sonra nisbətən arxa cəbhə, sonra İrana hərbi ezamiyyət, "Vətən yolu" qəzeti, bəlkə də ayrı iş.

Görüb bilmədiklərimdən xatirə yaza bilmərəm. Bütün bu əhvalatlardan mənə bir şey aydındır ki, Böyükağa oğullarından birinə – 1943-cü ildə anadan olmuş İntiqama faşizmdən intiqam almaq qəzəbiylə həmin adı verib.

1949-cu ildə "Ədəbiyyat" qəzetində şeir şöbəsinin müdiri Böyükağa (redaktor Ənvər Əlibəyi idi) mənim Abbasqulu ağa Bakıxanovla Aleksandr Puşkinin dostluğuna həsr edilmiş "Dostlar" poemamın redaktəsinə və çapına xüsuqi qayğı göstərdi.

Həmin vaxt hər yerdə Puşkinin anadan olmasının 150 illik yubiley təntənələri keçirilirdi. Bu münasibətlə tənqidçi Hidayət Əfəndiyev, Böyükağa Qasımzadə və mən Salyana ezam olunduq.

Bu çox qısa səfər müddətində mən Böyükağanın yaxşı, şirin, zarafatcıl, qayğıkeş bir insan olduğunu gördüm. Bəli o, şirin adam idi. Əli Kərimlə, Nəbi Xəzriylə, Əliağa Kürçaylıyla, Salam Qədirzadəylə, İsa Hüseynovla, mənimlə dost idi. Dost idi, ancaq aramızda pərdə də vardı.

1949-cu il. Bir dəfə məndən soruşdu ki, niyə heç yerdə işləmirsən? Yekə-yekə dedim ki, "Şair adamam da". Bildim ki, xoşuna gəlmədi – "şair adam".

Böyükağanın Hüseyn Cavadov adlı həmkəndlisi, cəbhəçi dostu vardı. Həmin adam çox böyük vəzifə sahibi idi. Milis komissarı, yəni indiki sözlə polis generalı idi. Böyükağa həm mənə görə, həm Kürçaylıya görə ondan təvəqqe etmişdi ki, bizə bir iş düzəltsin...

Nə isə.

Böyükağa bərkdən gülməz, rola girib, adamı asta-asta sarıyardı.

Hüsü Hacıyev küçəsindəki yazıçıların ilk 19 nömrəli yaşayış evi hazır idi. Hamı ev bölgüsünü gözləyirdi. Jurnalda işləyən Böyükağa da ev növbəsindəydi.

Təəssüf ki, vaxtsız ölüm qoymadı ki, təzə binada yaşamaq ona qismət olsun.

Qabağına bir ağappaq kağız qoymuşdu, kim gəlib xəbər alırdısa ki, bəs bu nədir? Böyükağa tez iki əliylə bu ağ varağı örtüb deyirdi: "Ev bölgüsünün siyahısıdır".

Mirmehdi Seyidzadə içəri girdi:

– Ay zalım, o nədir əlüvün altındakı kağız?

– Ağa, heç.

– Necə heç? De görüm, o nədir elə?

– Ağa, cəddindən qorxuram, qoy deyim. Ev, mənzil siyahısıdır.

– Bax gör mənim adım var?

Böyükağa bir balaca əlini yan eləyib, guya könülsüz, rəsmi, dodaqaltı deyir, – Var.

– Neçənci mərtəbə düşür mənə?

– Ağa, olmadı ki, bu sirdir. Mən məsuliyyət daşıyıram. (Əslində o özü də bu barədə heç kim idi, mənzil gözləyənlərdən biri idi)

– Sən Allah, bax de.

– Ağa, səs eləmə. Sən düşürsən 5-ci mərtəbəyə.

– Ay zalım, heç olmasa iki mərtəbə aşağı sal.

– Mümkün deyil, üz vurma.

Hirslənən Mirmehdi şikəst əlini-qolunu az qala Böyükağanın gözünə dürtsün:

– Ay zalım, görmürsən əlim şikəstdir?

– Ay ağa, ay cəddinə qurban olum, bəs sən pillələri begəm əlünnən çıxeceksən?

Bu "siyahı" üstündə bir dəfə Böyükağa az qalmışdı Gəray Fəzliylə əlbəyaxa olsun.

– Bəs görmürsən mən cəbhəçiyəm, boğazımı güllə deşib, səsim çıxmır?

– Mən də cəbhəçiyəm, ev bölgüsünə, mərtəbəyə səsin, boğazın nə dəxli?

Bir nəfər yazıçı Böyükağadan filan qədər borc alır, üstündən xeyli vaxt keçir, qaytarmaq bilmir... Böyükağa bir də görür ki, həmən adam Yazıçılar İttifaqının kassasının qabağındadır, pul alır, yanında da heç kəs yoxdur. Həyəcanla qalstukunu çiyninə atıb çağırır:

– Bura gəl!

– Mənmi?

– Səndən başqa orada adam var? Pulumu – borcunu qaytar.

– Al, ancaq mən səndən aldığım borc puldan heç xeyir görmədim.

– Mənə dəxli yoxdur, gördün-görmədin.

Qəribə əhvalatlar elə Böyükağaya rast gəlirmiş:

“Bir gün Axund hamamında, ümumi yerdə çimirdim. Sabun köpüyü içindəydim, heç gözümü aça bilmirdim. Bir nəfərin səsini eşitdim: “Böyükağa müəllim, icazə ver, sənə bir şeirimi oxuyum”.

Məni gülmək tutdu, ancaq ağzımı açsaydım, sabun köpüyü məni boğacaqdı:

– Oxu! – dedim.”

“Bir dəfə də lap qarlı-çovğunlu gün idi, evə gəlirdim. Qaranlıq idi, küçədə ins-cins yox idi. Gördüm bir uşaq əlində qartopu, soyuqdan dişi-dişinə dəyə-dəyə mənə yaxınlaşdı:

– Əmi, ay əmi! İcazə ver, bu qar gülləsini vurum sənin kürəyinə.

– Vur, get evə!”

Çox səliqə-səhmanlı, ailəsinə də, özünə də yaxşı baxan, vaxtlı-vaxtında kurortlara, müalicəyə gedən Böyükağanın ölümü ədəbi ictimaiyyətimizi, onu sevib tanıyanları, tanıyıb sevənləri yandırıb yaxdı.

Xatirə yazanda olan bir şeyi unutmaq olmaz. Böyükağanın dəfnində məşhur ağsaqqal bir yazıçı dedi:

– Necə deyərlər, elə burada Böyükağanın türbəsi – qəbri yanında gənclərimiz üçün də yer saxlayın.

Sözün düşər-düşməzi var ki, ağsaqqal sonralar sinəsinə oğul dağı çəkiləndə bunu başa düşdü.

Böyükağadan sonra çox itkilərimiz olub. Hər yaranın öz ağrısı, öz göynərtisi olur.

1958-ci ilin birinci günü bir dəstə gül alıb Böyükağanın ailəsinə başqa küçədə verilən mənzilə getdim.

Daşqın, Lalə, İntiqam lap yeniyetmə – lap elə uşaq idi. Mərhum Sona müəllimə – Böyükağanın “Ceyran” sevgilisi qollarını boynuma salıb dedi:

– Umub gözlədiklərimiz gəlmədi. Sən gəldin, ay Qabil!

**8 fevral 2006**

# HÖRMƏTLİ "ŞİRVANNƏŞR" VƏ ONUN NAŞİRİ QƏŞƏM İSABƏYLİ!

Sizin "Əziz oxucu! Bu kitab haqqında fikir və arzularınızı aşağıdakı ünvana yollaya bilərsiniz..." müraciətinizə cavabımı göndərirəm.

Teyyub Qurbanın "Düşmənlərindən güclü şəxsiyyət" kitabını (584 səhifə) əlimdən yerə qoymadan böyük maraqla oxudum. Hətta səhhətim pozuldu, gözlərim ağrıdı, qan təzyiqim kəlləçarxa vurdu. Şair Teyyub bakılı – həm də Bakı kəndlisi olduğu üçün "kəlləçarx"ın nə demək olduğunu bilər.

1. Kitab çox böyük həvəs, daxili vicdani zərurət və hər şeydən əvvəl təmənnasızlıqla yazılmışdır.

2. Kitab alim, tədqiqatçı səbriylə, arxiv sənədlərini ələk-vələk bacarığıyla yazılıb.

3. Mir Cəfər Bağırovun şəxsiyyətindən asılmış qərəz yarlıqlarını qırıb, qoparıb yerə tökmək ehtirasıyla yazılmışdır. Əlbəttə, Bağırov qərəzsiz də deyildi. Səməd Mənsur demişkən: "Biqərəz insan olur görmək fəqət tabutidə" .

4. Kitabdakı faktlar, sənədlər, epizodlar, xatirələr Bağırovun yaxşı işlərindən, əməllərindən, kişiliyindən danışır – bütün bu keyfiyyətlərin Azərbaycanımıza – xalqımıza xeyrindən danışır. Təkzibedilməz dəlillər adamı çox-çox məqamlarda Bağırovun mərdliyinə, fəhminə, qətiyyətinə inandırır. Bağırov Vətən yolunda canından keçən oğul atası olub.

5. İnandırır ki, Bağırov mədhiyyəni sevməyib (bu nisbi olsa da), bir cangüdənlə gəzib, sadə həyat tərzi yaşayıb, Rəfili

kimi dəyərli alimlərin xilaskarı, qayğıkeşi olub ("Azərbaycan" jurnalı 6, 7. 2006). Buna da inandırır ki, 42 yaşlı Heydər Hüseynovun qatili olub.

6. Məhkəməsində deyib: "Mne nado çetvertovat". Bəlkə də əllərindəki Müşfiqin və Müşfiqlərin qan ləkələrinə baxa-baxa deyib bu sözləri. Teyyub qədeş bilsin ki, yox bilir ki, yüz belə kitab bütün sübut və dəlilləriylə Bağırovun cinayətlərinə bəraət qazandıra bilməz. "Cinayət" sözünə görə müəllifdən üzr istəyərdim, fəqət Müşfiqin ruhu qoymur.

7. Bağırov (kitabdan) Səməd Vurğunu çağırıb stolunun üstündəki qalın qovluğu göstərib deyir: "Sənin barəndədir – mənim imzama, icazəmə bənddir. Get yaz, yarat". Buna görə Allah Mir Cəfərə rəhmət eləsin. Deməli, istəsəydi Müşfiqləri də xilas edə bilərdi.

8. Rusun, rus mühitinin, Moskva və Peterburqun Azərbaycan ziyalılarının qızıl nəslinin yetişməsində, təhsilində, dünyagörüşündə çox böyük rolu olub və olacaq. İstanbul da öz yerində, London da öz yerində. Ancaq xalqımızın çox böyük oğullarının, tarixi şəxsiyyətlərinin başını da ruslar yeyib. İbrahim xandan, Cavad xandan, Nərimanovdan, Şıxəli Qurbanovdan, Siyasi Bürodan, ali rütbələrdən kənar edilmiş Heydər Əliyevəcən.

Bağırovun məhkəməsi ibrət dərsi idi. Əşşi, nə Rudenko? Xalqın ibrət dərsi! Xalqın gözü və sözü arxiv sənədi deyil. Bağırovun günahı yox idi?! Tək-tük adamlara yaxşı münasibət (Əla!) hələ bütün xalqa gün ağlamaq deyildi.

9. Kitabda Teyyub tez-tez Heydər Əliyevin bostanına daş atır, onu ələ salır – "Xalq Heydər, Heydər xalq". Əslində Heydər Mircəfərin başqa məna və şəkildə davamı və fenomenidir. Azərbaycan ziyalılarına, yazıçılarına, dahi bəstəkar və rəssamlarına, ifaçılarına Heydərin azmı qayğısı olub?! Ruhu şad olsun ki, estafet oğlunun əlindədir. Bəs oğul atanın yolunu davam etdirməsə, ona abidələr ucaltmasa nə oğuldur?

O ki, qaldı işıqlı gələcəyə, daha işıqlı sabaha... Şair deyib: “Sabahın qeydinə qallıq sabah, inşallah”.

10. Allah qoysa, Teyyub kimi Femida tərəzili bir oğul da eləməyib tənbəllik, mədhiyyələrlə dolu, əlvan cildli, şəkilli-filanlı qalın kitabları bir yana qoyub Heydər Əliyev haqqında kitab yazazaq.

11. Böyük, uzun-uzadı ensiklopediyadan, onun ilk baş redaktorundan danışılır. Əşi, qardaşım Teyyub başa düşmür ki, ya zəlzələdən, ya vəlvələdən Rəsul müəllim ensiklopediyanı ortaya qoya bilmədi. Bilmədi də... Nə qədər pul getdi, nə qədər vaxt getdi. Yox, Rəsul Rza pul yemədi, “Bacarmadım da” demədi.

12. “Ensiklopediyanın səhifələri tarla qəhrəmanlarıyla, ermənilərlə doludur”. Bəli, dövr eləydi. Bəs bu 10 ədəd qalın-qalın cildlərin geniş əhatəli informasiyamıza heç bir faydası yoxdur?! Heç olmasa 2-ci cilddə mənim barəmdə verilən balaca məlumat qiymətləndiriləydi (zarafatla).

13. Ermənilər heç. Bəs Bəsti Bağırova, Şamama Həsənova, Vəsilə Zahidova, Sevil Qazıyeva, Fərman Salmanov, Rüstəm Rüstəmov, Sərdar İmrəliyev, Qurban Abbasov, Qüdrət Səmədov, Tərlan Musayeva, Ömər Ağayev, Ağa Nemətulla və başqaları?

Deyilən söz yadigardır. “Düşmənlərindən güclü şəxsiyyət” kitabı da şair – Tağıyevlər qədirşünası Teyyub Qurbandan nəsillərə qalacaq nadir yadigardır.

**Söz ardı:** Teyyub Qurbanın “Mikayıl Rəfili və Mir Cəfər Bağırov” sənədli əsəri ayrıca məqalənin, məktubun, resenziyanın mövzusudur. Bircə qeydim var. Müəllif yazır ki, Rəfili ərəb-fars dillərini bilirdi. Alimin ən bədxah, müzürr düşməni Mübariz Əlizadə məhz Rəfilinin fars dilini bilməməyindən, Nizamini orijinaldan oxuya bilməməyindən yapışırdı.

Mikayıl Rəfili və Mircəfər Bağırov münasibətləri də istər–istəməz Heydər Əliyevin söz-sənət, elm adamlarına qayğısıyla səsləşir. Kitabdakı bir təəssüf hissinə mən də şərikəm. Şərikəm və inanıram ki, əlahəzrət vaxt və zaman Musiqi Akademiyasına, Bakı Dövlət Universitetinə öz banilərinin adını qaytaracaqdır.

**2006**

# ÇİNAR NƏĞMƏLƏRİNDƏ...

Çinarlı, barlı-bəhərli Göyçay torpağının yetirdiyi Abdulla Faruqun uzaq-uşaq müasiri, böyük şairimiz Rəsul Rzanın, nadir şəxsiyyət, nadir yazıçımız Ənvər Məmmədxanlının həməsri, tez-tez yada saldığımız Əli Kərimin, İsgəndər Coşqunun tələbə yoldaşı, qardaşım, qələm dostum Əli Qafur oğlu Səmədli! Səhər sübhdən eşitdiyim ölüm xəbərin məni sarsıtdı. Ölçüb gördüm şəkərim göyün üzündədir. Xəstəxanadan müalicə həkimin zəng eləmişdi. Mən səni uzaqdan-uzağa lap çoxdan, yaxından-yaxına çoxdan tanıyırdım. Sən ədəbiyyatımızın qara fəhləsi idin. Adsız-sansız, imkansız. Kitablarını çətinliklə çap etdirirdin, nəşriyyatlara borclu da qalırdın. Dərdini-sərini mənə deyirdin. Əli, sən uşaq ədəbiyyatımızın görkəmli, məhsuldar nümayəndəsiydin. Uşaqlar üçün yazdığın, əksəriyyəti tamaşaya qoyulan səhnə əsərlərin, onların içində bədii sənətkarlıq dəyərinə görə fərqlənən "Meşədə konsert" pyesin sözümüzün-qələmimizin qızıl fonduna daxildir. Oxunaqlı pritçaların, "Ağ atlı oğlan" silsilə romantik novellaların, təmsil- hekayələrin sənin təkrarsız qələm məhsullarındır. Xüsusilə son vaxtlarda oxuduğum bir hekayən çox ibrətamiz, həkimanədir. İki itin taleyi – çobanın zülmündən qaçan, haqqı-sayı qiymətləndirilməyən, canavarlarla döyüşdə sinəsi parça-parça olan qoyun iti və şəhər evində yaşayan sinəsi sıra-sıra medallı buldok.

Heyvanın dili yoxdur ki, desin: taleyim var, yoxsa yox. Ancaq insanın taleyi var. Talesizliyin özü də taledir.

Belə vida sözlərinin gedənə dəxli yoxdur, qalana dəxli var.

Qalan bilsin ki, gedən kim olub. Qalan bilsin ki, sən əsl jurnalist-publisist qələm sahibi idin. Ayrı-ayrı ədəbi hadisələr, tədbirlər, əsərlər, şəxsiyyətlər və mənim barəmdə də dəyərli yazıların var.

Sənin müəllimliyin, pedoqoji fəaliyyətin – ali məktəbdə oxuduğun mühazirələr xüsusi qeyd edilməlidir. Bu sahədə sən Göyçayın məşhur ziyalısı, qocaman müəllim atan Qafur kişinin yolunun davamçısı olmusan. Doğulduğun kənddəki məktəb Qafur Səmədlinin adınadır.

"Çinarlı şəhərin generalları" sənədli filmin məşhurdur, kino tariximizdə yaşayacaq. Parlaq tarixi şəxsiyyət, xeyriyyəçi, hərbçi, ziyalı general Sadıqbəy Ağabəyzadə barəsində axtarışların, tədqiqatların onun həyat yolunu, fəaliyyətini işıqlandıran məlumatlı, həm də bədii yazıların sənin yazıçı istedadının geniş diapazonunu, əlvanlığını göstərir. Əli, sən ehtiyac içində ola-ola fitrətindən gələn xeyirxahlıq, xeyriyyəçilik eşqinə düşdün. Dişinlə-dırnağınla Göyçayda "Arvan" uşaq kitabxanası – uşaq kitab fondu yaratdın. Mədəniyyət Nazirliyindən oranın işçiləri üçün əmək haqqı təyin etdirdin. Əziz bayramlarda – xüsusən Novruz günləri qönçə ürəkli, gül balaları təbrik üçün, sevindirmək, necə deyərlər, sər-sovqatla Göyçaya yollanardın. Böyük Sabir demişkən, bu əməldən ucalardın, uçmağa qolun-qanadın olmazdı.

Sənin bu "Arvan" xeyriyyəçilik işin öz davamını, əksini Dərbənd şəhərində və Xəzərdə üzən hərbi gəmilərinin birində tapdı. Kitab, kitabxana, elm, maarif mədəniyyət, ədəbiyyatımızın təbliği.

Ay Əli, məni səninlə daha çox yaxın edən sənin Mərdəkandakı səliqə-səhmanlı, yamyaşıl bağın oldu. Bütün Abşeron bağları kimi, əncir-üzümlü, ağ tutlu, xar tutlu, suyu ipək

kimi axım-axım hovuzlu, külafirəngli bağ! Sən otuz beş il Mərdəkan camaatıyla salam-kəlam etdin, qonşuluq etdin, hörmətli-izzətli pərdəli dolandın.

Mən bir İmamverdi Əbilovun Neftçaladakı evini, bir də sənin bağını Bülbül yuvası adlandırmışam.

Sənin bağında kimlər olmayıb?! Balasadıq, Fikrət Sadıq, Yusif Həsənbəy, Abbas Abdulla, İbrahim Göyçaylı, xalam oğlu Rüfət, qaynım Rafiq, Ramiq Muxtar və başqaları, hələ tanımadıqlarımı demirəm. Manqalda kabab, dodaqda təbəssüm, əldə piyalə. Çox vaxt süfrəmizi lap ləpədöyənə aparırdıq. Kapotüstü süfrə. Külək bərk əsəndə piyalələrimizin içinə dolur, içindəkini boşaldırdı.

Adamı yandırıb-yaxan unudulmaz xatirələr: Martda soruşurdum:

– Əli Səmədli, tut, yetişib?

– Sən gəlsən, yetişər.– deyirdin.

Günlərin bir günü, necə deyərlər, əlim dinc durmadı. “Dənizin cazibəsi” adlı guya dramatik povest yazdım. Sən əl yazısını sözün hərfi mənasında əlimdən aldın, “səhnələşdirəcəyəm” dedin. Səhnələşdirdin, “Şübhəli əhvalat” adıyla tamaşaya qoydun. Məni müəllif kimi səhnəyə çıxartdın. Qurdumu öldürdüm. Dedim ki, mötərizədə yaz: “Səhnələşdirəni Əli Səmədli” Dedin:

– Ayıb deyil, böyük şairin adına şərik olum?

Nə kövrək təvazö, ay dost. Səndən də əvvəl dünyadan gedən Gənclər Teatrının bədii rəhbəri, rejissor Hüseynağa Atakişiyevə də Allah min rəhmət eləsin. Nə yaxşı ki, yetmiş beş yaşına həsr edilmiş geniş televeriliş qalıb. Oradakı bir kadr məni yaman kövrəltmişdi. Göyçayda başında təzə tikdirdiyin papaq, nəhəng, uca bir çinarı qucaqlamışdın, öpürdün, sığallayırdın. Elə bil ki, son dəfə görüşüb halallıq istəyirdin. Yox, elə doğrudan halallaşırdın.

Bir hüzür məclisində mənə bir zərf verdin. Evdə açıb gördüm ki, vəsiyyət yazmısan mənə... Münasibət bildirdim, cavab yazdım "Vəsiyyət yüngüllükdür" adlı şeirimlə. Səni həyata, yaşamağa səslədim. Eh, sən saydığını say...

Tez-tez xəstəxanaya düşürdün, ürəyindən şikayət eləyirdin. Mən də deyirdim:

– Ay rəhmətliyin oğlu, bu saat kimin ürəyi ağrımır ki, keçib gedər. Səninki bağdır, bülbül yuvasıdır, mənimlə, dostlarla bir yerdə.

Sədrimiz Anar müəllim səni bir neçə dəfə fərdi Prezident təqaüdünə təqdim etmişdi. Neynəməli, Füzuli demişkən, mən də deyil ixtiyari-bazar...

Səksən illiyimdə hörmətli Prezidentlə görüşüm olsa, ürəyimdə tutduğum siyahıda sənin adın başda idi.

Keçən il noyabrın otuzunda mən ölümcül halda xəstəxanaya düşdüm. Sənin hal-əhval tutan, təsəllili, qayğılı telefon zənglərin mənim şəfa verən dərmanlarım idi.

Ümumiyyətlə, son vaxtlar bir-birimizdən telefonla xəbər tuturduq. Sonuncu xəbər də elə xəstəxanadan telefondan gəldi.

Bəli... hamımız növbədəyik – gedər-gəlməz növbəsində.

Əli! Sənin əziz xatirən övladlarının, nəvələrinin, dostlarının qəlbində, Xəzərin qumlu sahillərində, Mərdəkanın abhavasında, səni ağuşuna alan Göyçayın çinar nəğmələrində yaşayacaq.

Gedənlərlə getmək olmaz,  
Qalanlarla qalaq biz.  
Gedənləri... köks ötürüb,  
Hərdən yada salaq biz.

**2006**

# ŞAİR ƏHMƏD CƏMİL YADIMA DÜŞDÜ

Eldar təklif etməsəydi mənə əgər,
Dillənməzdi bəlkə də bu xatirələr...

Lap bu yaxınlarda Respublika Əlyazmaları İnstitutunun elmi işçisi, şair Əhməd Cəmilin oğlu, onun ədəbi irsinin həssas, qədirli varisi Eldarla həyətdə rastlaşdıq. 1957-ci il dekabr ayının 28-dən biz Hüsü Hacıyev küçəsindəki 19 nömrəli evdə yaşayırıq. Unudulmaz şairimizi də elə həmən evin həyətindən 1977-ci ilin 24 sentyabrında 64 yaşında son mənzilə yola salmışdıq.

Eldar:

– Qabil müəllim, atam haqqında xatirələri toplayıb kitab buraxdırmaq istəyirəm. Bəlkə Sizin də xatirəniz, xatirələriniz olmuş ola? Əgər varsa...

– Əlbəttə ki, var. Biz ədəbi nəsil, mənim yaşıdım olan şairlər, ədiblər Əhməd müəllimin (əlbəttə, təkcə onun yox) gözünün qabağında ədəbiyyata gəlmişik, ondan şe`r-sənət dərsi almışıq, söz aləminin sehrini-sirrini öyrənmişik. Bu öz yerində. Xatirə başqa şeydir. Hər adamdan xatirə qalmır. Qalmayıbsa, gərək uydurmayasan. Yox, əgər qalıbsa, gərək düzünü yazasan.

– Əlbəttə, Qabil müəllim.

– Yazıb verəcəyəm sənə. Oxuyarsan. Harası ürəyinə yatmasa pozarıq.

* * *

Səməd Vurğun Əhməd Cəmilə qibtə edib deyərdi: "Kaş ki, "Can nənə, bir nağıl de", "Nişan üzüyü" şe`rləri mənim olaydı". Əlbəttə, bu da böyük şairin böyük təvazösü, böyük səxavəti, incə zövqü idi. O, Əliağa Vahidə də demişdi: "Əsl anadangəlmə şair sənsən".

Əhməd Cəmil qırxıncı illərdə şe`rimizdə tüğyan edən ritorikaya, şüarçılığa, sözçülüyə realizm gətirdi, hərəkət gətirdi, dialoq gətirdi, canlı-canlı lirik qəhrəmanlar gətirdi. Əyanilik, sujet, mənzərə, lövhə, təbii təsvir, təbii danışıq gətirdi.

Bəlkə çox şişirdirəm. Hər halda Əhməd Cəmilin şe`rimizə gətirdiyi abi-hava inkar edilməzdir. Bir vacib şeyi də qeyd eləyib keçim xatirələrə. Əhməd Cəmildə zəif, orta şe`r taparsan, ancaq o zəif, orta şe`rdə bircə dənə də yerinə düşməyən, təhrif olunmuş kələ-kötür söz, ifadə tapa bilməzsən. Əhməd Cəmil zərgər şair idi.

## SEVİNDİYİMDƏN... ÇAŞDIĞIMDAN...

1944-cü ilin mart ayı idi. Dörd bənddən ibarət "Gəl, baharım" adlı şe`rimi elə-belə, qarasına, ümidsiz (çünki hara nə aparırdım qaytarırdılar) götürüb apardım "Ədəbiyyat qəzeti"nə. Verdim cəbhədən təzə gəlmiş kontuziyalı şair Zeynal Cabbarzadəyə. Oxudu, özümə qaytarmadı. Güclə danışırdı. Dedi:

– Qalsın baxarıq, görək Əhməd Cəmil nə deyəcək?

İndi dəqiq xatırlaya bilmirəm ki, Əhməd Cəmil redaktor idimi, müavin, yoxsa məs`ul katib idimi? Hər halda belə başa düşdüm ki, böyük odur, söz onundur. Çap heç ağlıma da gəlmirdi. Elə bu mənə bəs idi ki, şe`rimi dərhal qoltuğuma verməmişdilər.

O zaman Azərbaycan Pedaqoji İnstitutunun nəzdində hazırlıq kursu vardı ki, mən də həmən kursun müdavimiydim. Kursu bitirənlər ancaq və ancaq həmin ali məktəbin istənilən fakültəsinə imtahansız qəbul edilirdilər. Biz APİ tələbəsi hesab edilirdik.

Həmin 1944-cü il aprel ayının 9-da səhər dərsə gedəndə köşkdən bir "Ədəbiyyat" qəzeti aldım. Dördüncü səhifədə şe`rimi gördüm, adımı gördüm. "Gəl, baharım". Qabil Nikbin. Adımın altında mö`tərizədə yazılmışdı: (APİ tələbəsi).

Gözümə inanmadım. Baxdım, oxudum, bir də, bir də baxdım, oxudum... Uçurdum. Yerişim dəyişmişdi. Elə bilirdim ki, hamı mənə baxır, hamı bilib ki, ilk şe`rim çıxıb... ilk şe`rim... zarafat deyil.

Nə dərs, nə kurs. Allah bilir, o qəzetdən neçəsini aldım, gəldim evə anama göstərdim. Sonra hövlnak cumdum redaksiyaya.

Əhməd Cəmil başıaşağı bərk məşğul idi, nəsə yazırdı. Zeynal Cabbarzadə gözümə dəymədi. Daha bilmədim ki, kim vardı, kim yoxdu. Mənə lazım olan əsas adam – Əhməd Cəmil burada idi, şe`rimin çapına o qol qoymuşdu. Sonra gəlib Zeynala da təşəkkür etmişdim. Bəs necə...

– Əhməd müəllim!

O, başını qaldırdı. Sakitcə üzümə baxdı. Bildim ki, məni üzdən tanımır. Lap olsun qiyabi – nə üçün tanımalıydı axı.

– Əhməd Cəmil müəllim, Sizi təbrik edirəm.

– Məni nə münasibətlə təbrik edirsən?

– Şe`rim çıxıb, şe`rimi Siz çap eləmisiz.

– Qabil Nikbin sənsən, deməli. Düzdür, yaxşı şe`rə görə elə hamı hamını təbrik etməlidir. Bəlkə sən təşəkkür demək istəyirsən.

Özümü lap itirdim, sevindiyimdən, çaşdığımdan kişiyə (onda həmin kişinin 31 yaşı vardı) təşəkkür əvəzinə, təbrik demişdim.

Əhməd Cəmil ayağa qalxdı, şe`rimə, imzama mübarək dedi, mənə ilk mətbuat vəsiqəsi verdi.

## DƏRKƏNAR

1946-cı il idi. Artıq az-az olsa, təkəm-seyrək də olsa, çap olunurdum. İndi çap olunmağa nə var ki... "Mənim romantikam" adlı bir şe`r yazmışdım. Özüm hiss edirdim ki, tutub. Yusif Əzimzadənin rəhbərlik etdiyi ədəbi yığıncaqda oxudum. Müzakirədə çıxış edən Cəmil Valeh, Pəncəli Saleh, Bəxtiyar Vahabzadə, Qasım Qasımzadə, Yusif Mehdizadə və axırda Yusif müəllim şe`rimi bəyəndi. Daha sonra əlimə fürsət düşdü, İlyas Əfəndiyevə də oxudum. Hələ o vaxt məşhur dramaturq olan, nə isə mənə rəğbət bəsləyən, bu saat və çoxdan köhnə dostum, köhnə qonşum İlyas müəllim məni lap ruhlandırdı. Dedi ki, apar ver çapa. Hətta bir misranı ayrıca, xüsusi vurğuyla tə`riflədi: "Füzulinin qəlbi kimi üfüqlər od tutub yanır".

Gəldim "Azərbaycan gəncləri"nə. Redaktor Mirpaşa Miriyev məni gülərüzlə, şirin ləhcəylə qarşıladı.

– Oxu, görüm nə yazmısan?

İyirmi yaşındaydım, şe`ri çox həvəs və həyəcanla oxudum.

– Təbrik edirəm, yaxşı yazmısan, sevindim. Amma...

Tutuldum.

– Amma get Yazıçılar İttifaqına, Əhməd Cəmil şe`rinin üstünə dərkənar qoysun – yazsın ki, çap eləmək olar, altından da qol çəksin, gətir verək lap sabahkı nömrədə. Çaşıb qaldım. Necə yə`ni? Şe`r ərizə-zaddır ki, ona dərkənar qoysunlar?

Mirpaşa müəllim ağzımı açmağa qoymadı:

– Qurtardıq!

Fikirləşirəm ki, ya rəbb, o nəydi?.. Bu saat – bu dəm söz aləmində, qələm aləmində bu hərc-mərclik, gündəlik mətbuatı, nəşriyyatları, efiri başına götürən savadsız, zövqsüz, məntiqsiz, məsuliyyətsiz, zəhərli, qərəzli, sabunlu... yiyəsiz, nəzarətsiz, nəzakətsiz yazılar, cızmaqaralar nədir?

Utana-utana gəldim Əhməd Cəmilin yanına. Səməd Vurğun Yazıçılar İttifaqının sədri, o da mə`sul katibi idi. İndi gülməli lətifə kimi görünən "dərkənar" – cavabdehliyə, tələbkarlığa, konkret bir meyara, nüfuzlu bir sənətkar sözünün qədir-qiymətinə və nəhayət şair Əhməd Cəmilin şe`r zövqünə inam və e`tibarın ifadəsi idi.

Məsələni ona danışdım. Aldı, oxudu, şe`rimi bəyəndi. Ancaq bir balaca əsəbi şəkildə:

– Apar ver, çap eləsinlər. Şe`rin də üstünü yazarlar?

– Əhməd müəllim!..

– Qoy zəng eləyim.

Dəstəyi qaldırdı:

– Salam, ay Mirpaşa, Qabil Nikbinin şe`ri mənim də xoşuma gəldi. Çap eləyib-eləməmək sizin öz işinizdir. Şe`r hara, dərkənar hara? Belə şey lazım deyil.

"Azərbaycan gəncləri"nin növbəti nömrəsində "Mənim romantikam" dərc edildi.

## EYBİ YOXDUR, ZƏHMƏT İTMİR

1947-ci ilin mart-aprel ayları idi. Müharibədən sonra gənc yazıçıların birinci respublika konfransı açıldı. Açıldı, özü də necə açıldı? Böyük təntənəylə, yüksək səviyyədə. Bütün görkəmli, məşhur yazıçılar, xüsusən, əstəğfurullah, Allah kimi baxdığımız Səməd Vurğun, həm konfransa başçılıq edir, həm də onun irili-xırdalı bütün əməli işlərində, tədbirlərində iştirak edirdilər. Bu konfransda neçə-neçə

iste`dad meydana çıxdı... Səməd Vurğun Səlyandan gəlmiş cavan dəmiryolçu oğlanı – mərhum iste`dadlı şairimiz Əliağa Kürçaylını kəşf etdi.

E`lan elədilər ki, ertəsi gün Yazıçılar İttifaqının bütün otaqlarında – sədrin və məs`ul katibin kabinetlərində də janrlar üzrə, tutaq ki, tənqid, publisistika, nəsr, şe`r, dramaturgiya üzrə seminar məşğələləri keçiriləcək. Burada təzə əsərlər oxunub müzakirə olunacaq, bəyənilənlər çapa tövsiyə ediləcək. Poeziya seminarını Əhməd Cəmil aparacaqdı.

Həzi Aslanov haqqında nə az nə çox, 2000 misradan ibarət bir poema yazmışdım. Əlbəttə, öz aləmimdə poema... Başlanğıcı yadımdadır:

Lənkəran şəhəri, dəniz kənarı,
Burda həyat gülür, təbiət gülür.
Süzdükcə Günəşin zər şüaları,
Elə bil sulara inci süzülür.

Mən nəinki müharibəni, o vaxta kimi heç Lənkəranın özünü görməmişdim. Nə isə, yazımı həvəslə, inamla və böyük iştahla (tələbəydim, fikirləşirdim ki, çap eləsələr xeyli pul alacağam) götürüb gəldim seminara. İndi mənim yaşıdım olan şairlərin çoxu oradaydı.

Əhməd Cəmil əlimdəki az qala kərpic boyda kağız qalağına yanakı nəzər salıb soruşdu:

– Bu nədir?

– Poemadır.

– Nə barədədir?

– Həzi Aslanova həsr eləmişəm.

– Nə böyükdür?!

Fağır-fağır susub üzünə baxdım.

Əhməd Cəmil hamıya müraciət elədi:

– Nə deyirsiniz, oxusunmu, qulaq asaqmı? Ancaq onda gərək başqa heç bir şey müzakirə etməyək, bütün bu seminar məşğələmizdə Qabilin poemasıyla məşğul olaq.

Təbii ki... kim e`tiraz edəcəkdi... Mən başladım. Oxuyub qurtardım. Dilim-dodağım qurumuşdu.

Əhməd Cəmil:

– Kim danışmaq istəyir?

Heç kəs dinmədi:

– Onda mən deyim. Qabil çox böyük zəhmət çəkib. İste`dadın bir qanadı ilhamdırsa, o biri qanadı zəhmətdir. Ancaq, təəssüf ki, müəllif sərkərdənin bədii surətini yarada bilməyib, sözçülük, uzunçuluq baş alıb gedir. Poema yazmaq asan şey deyil, onun sənətkarlıq cəhətdən çox böyük şərtləri, tələbləri var. Heç mənim poemam yoxdur... Həzi Aslanovun dəfnini təsvir edən misralarda az-çox təbiilik, səmimiyyət var, ürək çırpıntısı var. Çünki, Qabil hamımız kimi Həzi Aslanovun dəfn mərasimini görüb, orada iştirak edib, izdihamla bərabər Dağüstü parka addımlayıb. Bir də axı cəbhə görməyən adam hökmən qeyri-inandırıcı şeylər yazacaq, uydurmalara uyacaq. Tarixi əsər başqa şeydir. Orada müəllif güclü sənətkar təxəyyülü ilə tarixi görür, geniş, dərin mütaliəylə, fəhm və hissiyyatla tarixin dərinliklərinə nüfuz edir – bu tamamilə başqa söhbətdir.

Əhməd müəllim üzünü mənə tutub:

– Qabil, poemanı bəyənmədik, iradəni, zəhmətini bəyəndik. Eybi yoxdur. Sənin bu zəhmətin itməyəcək.

İllər keçdi... “Nəsimi”ni yazıb ortalığa çıxaranda Əhməd Cəmilin bu sözləri yadıma düşdü: “Eybi yoxdur, sənin bu zəhmətin itməyəcək”.

Bəli, Əhməd Cəmilin haqlı olaraq bəyənmədiyi “Həzi”ni yazmasaydım, “Nəsimi” əzabına on il qatlaşa bilməzdim... Hələ sənətkarlıq, iste`dadın dərəcəsi bir yana qalsın. Əhməd

Cəmil heç kimi, heç nəyi, heç haçan yalandan, boğazdan yuxarı tə`rifləməmişdi. Bədəbəddə susmuşdu:

Mən arğaçı yalan söz toxuya bilmirəm, dost!
Açıram kitabını, oxuya bilmirəm, dost!

## MƏN SƏNİ STALİNİN YUBİLEYİNƏ GÖNDƏRMİŞDİM?.. YOXSA?!..

1949-cu il. Bütün ölkə, bütün dünya Stalinin anadan olmasının yetmiş ilini qarşılamağa hazırlaşırdı. Bu barədə uzun-uzadı danışıb təfərrüata varmağın mə`nası yoxdur. Bütün yaradıcılıq təşkilatları, teatrlar, filarmoniya, radio, konsert birlikləri kimi Yazıçılar İttifaqının da rəhbərliyi qərara aldı ki, rayonlara yazıçı – xüsusən də şair dəstələri göndərilsin. (Yazıçılar İttifaqına lap təzəcə üzv qəbul edilmişdim, özü də birbaşa. O zaman üzvlüyə namizədlik müddəti də vardı.) Bu işlə Əhməd Cəmil məşğul olurdu. Həmən məs`ul, şərəfli məsələnin təşkilini ona təsadüfən tapşırmamışdılar.

Əhməd müəllim nə qədər incə, lirik şair idisə də... bir o qədər dəqiq, ağlı-huşu özündə olan, qanunpərəst bir adam idi... Dediyim kimi, həm də o, məs`ul katib idi. Nə isə, məni də çağırdılar. Əhməd Cəmil rayonların siyahısını, adamların adlarını oxuyub soruşdu:

– Hə, hansı rayona və kimlərlə getmək istəyirsən?

Elə bil kimsə qulağıma pıçıldadı: “Allahın verib, fürsətdi...”

– Əhməd müəllim, siyahıda nə üçün Yardımlı yoxdur? Onsuz da ora – o uzaq balaca dağ rayonuna, İran sərhədi həndəvərinə indiyə kimi bəlkə də bir nəfər yazıçı – şair ayağı

dəyməyib. Orada rəhbərin yubileyini elə bir təntənə ilə qeyd eləmək lazımdır ki, bu xalq bayramının səsi-sədası gedib İrana çatsın.

Əhməd müəllim təbəssüm və razılıqla:

– Düz deyirsən. O yerlər heç ağlıma gəlmirdi. Bəs sənin yadına haradan düşdü Yardımlı?

– Əhməd müəllim, axı institutu qurtaran kimi tə`yinatımı o rayona vermişdilər. Bir müddət o rayonda müəllimlik etmişəm.

– Hə, hə, yadıma düşdü. "Kənd müəlliməsi", "Mənim məktəb yoldaşım", "Odunçular" şe`rlərin...

Əhməd Cəmil haradan biləydi ki, həmən kənd müəlliməsi mənim nişanlım idi. Çoxdan görüşmürdük. Necə deyərlər:

Sən dağda, mən aranda.

O zaman Azərbaycanın sərhəd rayonlarına, illah da ki, Yardımlıya getmək bu saat hər hansı, təkrar edirəm, hər hansı xarici məmləkətə, ölkəyə getməkdən on dəfə, lap yüz dəfə çətin idi. Gərək Bakıdan bir neçə arayış, tə`liqə göndərəydin, getmək istədiyin rayonun – tutaq ki, Yardımlının İcraiyyə Komitəsindən, milis idarəsinin pasport şö`bəsindən viza gələydi (əgər gəlsəydi), həmən viza Bakı şəhəri milis idarəsinin xüsusi buraxılış şö`bəsində on gün – bir ay ərzində müzakirə ediləydi, zərrəbinlə baxılaydı – sonra ya hə, ya yox cavabı alaydın. Bu şişirtməsiz-filansız yüz faiz beləydi. Ancaq idarə xəttiylə, e`zamiyyə yoluyla, bir tədbirlə, hökumət işiylə əlaqədar olaraq bu məsələ çox tez, çox asan, çox rahat həll olunurdu. Hökumət işinə bax ey, tədbirə bax ey, nə, nə, Stalinin yubileyi!.. Burada deyiblər ki, ölmək istəyirsən get Mazandarana. Şair də yaxşı deyib:

Fürsəti foot eyləyən –
Aqil deyil, divanədir.

Əhməd Cəmil:

– Hə, Qabil, onda özün bir dəstə düzəlt, həmən adamların siyahısını tut, pasportlarını al, yığ, gətir bura. Əmrlə e`zamiyyə vərəqələri yazaq, möhürləyək, qol çəkim, apar ver milis idarəsinə. Səməd Vurğun yoldaşdan xahiş edərəm, o da rəisə zəng çalar. Di yubanma, get!

– Əhməd müəllim, dəstənin rəhbəri olsun Rəsul müəllim.

– Rəzul Rza?

– Bəli!

– Təklif elə, razı olsa, lap yaxşı.

– O, hər cəhətdən məsləhətdir, – dedim, – həm adlı-sanlı şair, həm də kəsərli, həm “Lenin” poemasının müəllifi, həm deputat, həm də xüsusi maşını var. Ə`la “Pobeda”, sürücüsü də öz qohumu Fikrət Ağazadə.

1949-cu ildə xüsusi maşını olan adamlar heç barmaqla da göstərilə bilməzdi. Xüsusi minik maşınında Yardımlının əlvan mənzərəli, qorxulu, uçqunlu, narahat, çətin yollarıyla dağlara getmək nağıl və əfsanə idi.

Elə birinci də... Rəsul müəllimgilin zənginin düyməsini basdım. Nigar xanım məni çox mehriban, gülərüzlə qarşıladı:

– A Rəsul, sənin Müşfiqə oxşatdığın cavan şair gəlib.

Məsələni Rəsul Rzaya həyəcanla danışdım. Rəsul Rza sorğu-sualsız, filansız o dəqiqə gətirib pasportunu verdi mənə. İnanın ki, sonra gedib pasportlarını aldığım o biri adamların heç birinin bu saat adı da, özü də, üzü də yadımda deyil.

Bəli, özümünküylə bərabər dörd pasportu gətirib verdim Əhməd Cəmilə. Hər birimiz üçün e`zamiyyə vərəqəsi yazıldı, ittifaqın adından xüsusi məktub tərtib edildi, hamısını dəstələyib cumdum... Bakı şəhəri milis idarəsinə. Dedilər:

– Günün axırında gəl, propuskaları apar.

Gəldim, hamının əvəzinə qol çəkib sənədləri aldım. Ancaq, gec idi. Saat dörddən sonra Yazıçılar İttifaqında heç kim qalmırdı... İndi də belədir...

Səhəri gəldim Əhməd müəllimin hüzuruna. Sevinə-sevinə sənədləri qoydum stolun üstünə. Bu dəm Əhməd Cəmilin üzündə məni şübhəyə salan bir ifadə gördüm. O:

– Qabil vəziyyət dəyişib. Nə Rəsul Rza, nə də başqa yoldaşlar Yardımlıya gedəsi olmadılar. Bakının özündə, ətraf fəhlə qəsəbələrində, Abşeron kəndlərində daha vacib işlər var, geniş tədbirlər keçirilməlidir. Həm də görkəmli yazıçılar bilavasitə Mərkəzi Komitənin sərəncamındadırlar, onlara Stalin yoldaşın yubileyi ilə əlaqədar daha mühüm tapşırıqlar verilib.

Ürəyim üzüldü. Öz-özümə dedim: "Sən saydığını say, gör fələk nələr sayır". Yəqin bu dəqiqə Əhməd müəllim deyəcək ki: bir halda ki, onlar getmir, daha sən hara gedirsən? Buralarda nə çox klub, mədəniyyət evi, kitabxana, fəhlə yataqxanaları, səni də qoşarıq dəstələrin birinə, gedib çıxış edərsən. Ancaq, Əhməd müəllim belə demədi.

– Ay Qabil, sən cavansan, Yazıçılar İttifaqının təzə üzvüsən. Stalin yoldaşın yetmiş illiyinə yaxşı bir şe`rin də var.

– Bəli, Əhməd müəllim. "And" şe`ri.

– Hə, bala, gərək Yardımlıya özün tək gedəsən. Orada keçirilən yubiley tədbirlərində bütün yazıçılarımızın adından və əvəzindən – eşidirsənmi?! Yubiley tədbirlərində fəal iştirak edərsən. Dörd günlük e`zamiyyə pulunu da get mühasibatdan al, elə günü bu gün də yola düş.

Son baharın yaşıllığına və payızın dumanına bürünmüş balaca Yardımlı qəsəbəsi öz sakitanə aləmindəydi, elə bil şirin bir mürgüdəydi. Yubiley əhval-ruhiyyəsi vardı, yubiley canfəşanlığı yoxdu. Bir də, axı mən kimdim ki, raykom, ic-

rakom, başqa təşkilatlar sözümlə iş görsünlər. Dərs dediyim məktəbə gəldim, müəllimlərlə, şagirdlərlə görüşdüm. On gün kənd müəlliməsigildə qonaq qaldım, yedim, içdim, gəzdim, dolandım.

Sən demə Bakıda kimsə, kimlərsə mənim Yardımlıya can atmağımın səbəbini Əhməd Cəmilin qulağına pıçıldayıbmış... Təbii ki, Bakıya qayıdan kimi, gəldim Yazıçılar İttifaqına. Məşhur işlər müdiri, çox abırlı, ləyaqətli Kübra xanım özünəməxsus rəsmiyyətlə:

– Qabil yoldaş, Əhməd yoldaş sizi axtarır.

İcazə alıb keçdim Əhməd Cəmilin otağına. O, üzümə tərs-tərs baxıb, qəzəblə soruşdu:

– Mən səni Stalinin yubileyinə göndərmişdim, yoxsa adaxlıbazlığa?!

## AY ƏHMƏD, SƏN DƏ...

1950-ci il idi. Mirzə İbrahimovun təşəbbüsü ilə yaranmış və onun başçılıq etdiyi məşhur, tarixi "Gənclər günü"nün növbəti yığıncağı idi.

Burada bəyənilən əsərlər, yazılar, tərcümələr, balaca şe`rdən tutmuş hekayə, yığcam povest, roman, hətta səhnə əsərinə qədər dərhal çapa verilir, tamaşaya qoyulmaq üçün tövsiyə olunurdu.

Əsasən gənc ədəbi qüvvələrlə məşğul olan, onların yazılarını dinləyib təhlil edən "Gənclər günü"ndə yaşlı, təcrübəli, tanınmış yazıçılar da iştirak edir və hətta ara-sıra onların da əsərləri öz arzularına görə həmən məclisdə eşidilib müzakirə edilirdi. Belə "ara-sıra"lardan birində indi Əhməd Cəmil kimi və neçə-neçə qələm yoldaşlarımız kimi aramızda olmayan, elə Əhməd müəllimlə həmyaş bir müəllif pyes oxumağa başladı.

Mirzənin sağında Əli Vəliyev, solunda Əhməd Cəmil əyləşmişdi. Vərəqlər çevrildikcə mənim fikrim Mirzədə, Əlidə və Əhməddə idi. Mirzə əsəbi-əsəbi qabağındakı kağıza nəsə cızır, nəsə yazırdı. Əli Vəliyev vəl boyda iri əlini üzünə dayayıb elə bil mürgüləyirdi. Həmişə iclaslarda, rəyasət hey`ətlərində dinməz-söyləməz, sakit oturan Əhməd Cəmil yerində qurcalanır, vurnuxur, müəmmalı-müəmmalı gah Mirzə İbrahimova, gah Əli Vəliyevə, gah da bizə – camaata baxırdı... Vərəqlər çevrilirdi...

Pyesdə Azərbaycandakı zərərverici həşaratlarla, Ermənistandakı zərərverici həşaratların müqayisəsindən və hansının daha çox ziyankarlığından söhbət gedirdi... Deyəsən, kənd təsərrüfatının o zaman üçün "daha vacib" problemlərinə" də – guya "problemlərinə" və guya "toxunulurdu". Bədiilikdən və dramaturgiyadan, inandırıcılıqdan və təbiilikdən başqa yazıda nə istəsəydin vardı.

Ümumiyyətlə, bu səpgili əsərlər o vaxtlar məşhur, bədnam konfliktsizlik nəzəriyyəsinin hökm sürdüyü ədəbi mühit üçün səciyyəvi idi, təkcə Azərbaycanda yox, bütün ölkədə.

Azacıq fasilədən sonra müəllif təzə pərdənin remarkasını oxudu. Remarkada yağış təsvir edilirdi, yağış yağırdı.

Əhməd Cəmil birdən sükutu pozdu... Müəllifin sözünü, oxumağını kəsdi... üzünü Mirzə müəllimə çevirdi... incə bir kinayə və istehza ilə, xalis Gəncə ləhcəsində soruşdu:

– Ay Mirzə, bu yağışı səhnədə nə təhər yağdırajaxlar?

Sən demə bayaqdan dolub dayanmış Mirzə İbrahimov Əhməd Cəmilin bu sualına bənd imiş...

Açıldı, nə açıldı:

– Bu cəfəngiyyat qoy hələ bir səhnə üzü görsün... qalsın yağışı... Ay Əhməd, sən də...

## AXI, SƏNİN KRANDA NƏ İŞİN VAR

Mənə deməyin ki, "birdir su, torpaq,
Harda üzün gülsə ora Vətəndir".
Yox dostlar, düşəndə Vətəndən iraq,
Heç üzüm gülməyir, bəs bu nədəndir?!
Vətənsiz yaşamaq deyildir asan!
Vətənsiz quş olmaz, nəinki insan!..

Bu misraları şairin kitablarından yox, hafizəmdən kağıza köçürürəm. Əhməd Cəmil, demək olar ki, şe`rlərinin hamısını bir-bir işığa tutub mirvari dənələri kimi sapa düzürdü. O, gür axmırdı, o, şəlalə, çağlayan deyildi! Yenə də Səməd Vurğunun sözləri yadıma düşdü: "Xarakter yaradıcılıqla, yaradıcılıq da xarakterlə bağlı söhbətdir". Təəssüf ki, Səməd Vurğuna ömür vəfa etmədi ki, bu damcıbulaq, lap sısqabulaq Əhməd Cəmilin tərcüməsində neçə min misra... "Faust"u oxuya bilsin.

Özünə də, özgələrə də tələbkarlıqdan, izafi məs`uliyyət hissindən gələn vasvasılıq, suyu üfürə-üfürə içmək Əhməd müəllimin xasiyyəti idi. Bunun oyan-buyanı yoxdur. Xasiyyət nöqsan deyil. Hər kəsin bir cürə xasiyyəti var, vəssalam.

Həmən bu xasiyyət Əhməd Cəmillə mənim aramda baş verən gülməli bir əhvalata səbəb olmuşdu. O, "Azərbaycan" jurnalının baş redaktoru idi. Onun tapşırığıyla poeziya şö`bəsi mənə bir əsərin tərcüməsini sifariş etmişdi. Bu da ibarət olmuşdu 37-də... güllələnmiş erməni şairi Yeqişe Çarensin "26-lar" adlı 220 misralıq lirik poemasından.

Mən elə özüm də özümə qarşı tələbkaram. Üstəlik də Əhməd Cəmili gözümün qabağına gətirib əsəri tərcümə elədim, aparıb verdim jurnala. Üstündən xeyli keçəndən sonra həyətdə Əhməd müəllimlə rastlaşdıq və o, dedi ki, tərcüməm xoşuna gəlib, yaxşıdır. Utandığımdan soruşa bilmədim ki, "bəs hansı nömrədə".

Yenə xeyli keçdi. 1968-ci ilin yay günlərindən biriydi, nəfəs almaq olmurdu. Camaat boğanağın, bürkünün əlindən Bakıdan qaçırdı – dağa, bağa, kurorta, uzaq-yaxın sahillərə – xülasə kim hara gəldi. Mən də ailəmlə Yardımlıya – o sərin, səfalı yerlərə getməyə hazırlaşırdım. Bütün lazımlı şeylərlə, yol azuqəsiylə yüklənmiş maşınım həyətdə, necə deyərlər, start vəziyyətində idi. Evdən lap çıxa-çıxda telefon zəng çaldı. Əhməd Cəmil idi.

– Qabil, salam, nə təhərsən?

– Yaxşıyam, Əhməd müəllim, çox sağ olun.

– Zəhmət çək, gəl redaksiyaya, tərcüməni mətbəəyə göndərirəm, bə`zi qeydlərim var, gəl, bərabər onlara baxaq.

– Başüstə, Əhməd müəllim, bu saat.

Ürəyimdə deyinə-deyinə... əşşi, heç hənanın yeridir. Bu cırhacırda nə qeydbazlıqdır ey, nə xoşuna gəlmirsə poz, yaz də, mən gəlib əlini tutacağam? Kimdir axı bir kəlmə sözə, bir vergülə fikir verən – özü də tərcümədə. Kişidə hövsələyə bax ey, cəhənnəm istisində oturub o quşxanada. Maşını sürdüm Yazıçılar İttifaqına, qalxdım üçüncü mərtəbəyə.

Əhməd Cəmil həmişəkitək, gül kimi geyimli-keçimli, ağ yay kostyumunda... əyləşmişdi. Onun stolunun, stulunun arxasında istilik sisteminin batareyası vardı. Stulun söykənəcəyi lap yapışmışdı dəmirə. Bəli, o misraları diqqətlə gözdən keçirir, işarə qoyduğu ifadələri mənə göstərir, birlikdə baxıb düzəldirdik. Nə deyirdisə təsdiq edib, razılaşırdım, təki tez çıxım gedim, evdə gözləyirlər, yol üstündəydik axı. Sağ əlimi redaktorun stoluna dayayıb ayaq üstündə yarı əyilmiş halda Əhməd Cəmilə qulaq asa-asa, qeydlərini düzəldə-düzəldə sol əlim qeyri-ixtiyari, özümdən xəbərsiz istilik batareyasının kranına ilişdi, başladım vintili elə-belə əlləşdirməyə. Onda gördüm ki, qışdan boruların yolunda, batareyanın tıxacına yığılıb qalmış qıpqırmızı paslı su... fışqırtıyla fəvvarə vurdu,

nə vurdu. Tez kağız-kuğuzu qamarladım. Ay Allah... Əhməd Cəmilin üst-başında, o gül kimi ağappaq kostyumunda sağ islahat qalmadı.

– Əşşi, yekə oğlansan, sənin o kranda nə işin var axı, uşaq-zadsan? Mən səninlə ciddi söhbət edirəm, sən də... kaş heç çağırmayaydım. Bəs indi mən evə necə gedim?

Mən həm xəcalətdən qızarıb pərt olmuş, həm də boğula-boğula özümü gülməkdən güclə saxlamışdım.

– Əhməd müəllim, siz Allah bağışlayın, maşınım qapıdadır, əyləşin, düz sürüm həyətə, blokun ağzına.

– Lazım deyil, gör hələ bir qəzaya salıb üstəlik qol-qabırğamı da...

Suyum süzülə-süzülə çıxıb fikirləşdim ki, tərcüməm batdı, ermənidən kim xeyir görüb. Əlimdən od götürən Əhməd Cəmil çətin ki, onu versin. Ancaq, jurnalın yaxın saylarının birində gördüm ki, zəhmətim hədər getməyib, yaxşı da qonorar aldım.

## BİR QONAQLIQ MƏNDƏ

Atlantik sularında üzür qara bir gəmi...
Yolu ölüm, fəlakət, yükü dünyanın qəmi!

Söhbət məzmundan getmir. Artıq mə`lum oldu ki, "Qara gəmi" – kapitalizm deyil, dağılıb məhv olmuş Sovet quruluşuymuş, fəlakət yolunun yolçusu da, dünyanın qəmiylə yüklənən də SSRİ imiş, onun başı bəlalı vətəndaşlarıymış, yə`ni Bizlərmişik. Bu heç... bu, müxtəlif şəkildə, eyni mahiyyətdə bütün əsərlərin məzmunuymuş – yüksək sənət əsərlərinin də, zəhlətökən qrafomaniyanın, yə`ni cızmaqaraların da.

Siz dilə baxın, ifadə tərzinə baxın, sözlərin düzümünə, əyaniliyinə, canlı təsəvvürə, qələmlə çəkilmiş tabloya, panoram mənzərəyə baxın!

Nə isə... bu misralar bilirsinizmi birdən-birə haradan yadıma düşdü? Sözümün canı var.

Yetmişinci illər idi. Yazıçılar İttifaqının Natəvan adına klubu ağzınacan doluydu. Tənqid müşavirəsiydi. Necə olmuşdusa, Salam Qədirzadə də, mən də həmən müşavirəyə gəlib çıxmışdıq.

Ön cərgələrin birində yanaşı əyləşmişdik. Birdən lap qabaq sırada Əhməd Cəmili gördüm. Salamın qulağına pıçıldadım:

– Heç Əhməd Cəmili yüngülvari də olsa, tənqid eləyən olub?

– Deyəsən, yox. Mənə rast gəlməyib, bilmirəm. Necə bəyəm?

– Tənqid müşavirəsidir də... yadıma düşdü.

– Nə üçün axı Əhməd Cəmil?

– Başqalarının hamısı az-çox, haqlı-haqsız tənqid olunub.

– Elədir...

– Ay Salam, Allah dağına baxıb, qarını yağdırıb. Əhməd xasiyyətli adam tənqidə dözə bilməzdi. Ona görə də tale ona başqa pərdədə, başqa kökdə, şüşə kimi, büllur kimi əl ilişməz, dırnaqtutmaz bir iste`dad verib...

Doğrudur ki, ilişməyə, ilişdirməyə qalsa, dünya ədəbiyyatının əjdahalarını divara dayayıblar. Görünür, ədəbi tənqidin ürəyi gəlməyib, insafı yol verməyib ki, kimə kimə, Əhmədə də bir selbə vursun, daş atsın. Şair ə`la deyib:

Əl vurma şişə könlümə sınmaq xəyalı var.
Sınsa kəsər o nazik əlin şişə parəsi...

İndi bu sətirləri yaza-yaza fikirləşirəm; mübaliğəli də olsa deyirəm ki, Əhməd Cəmilin haqqında onun şe`rlərinin sayı qədər məqalələr yazılıb, fikirlər deyilib. Hətta hadisəyə çevrilən tək-tək şe`ri haqqında da. Əhməd Cəmil sağlığında qiymətini – şe`r xiridarlarının, söz sərraflarının qiymətini almış şair idi, bu gün də qiymətlidir. Ölümün dəxli yoxdur.

Gec-tez bu iş hamının başına gələcəkdir,
Demə: bu vaxtsız əsən bir buludsuz küləkdir!

Əhməd Cəmilin poeziyası uşaq qəlbi kimi saf, tütək səsi kimi həzindir.

Gedir bağlar arasıyla
tütək çalan bir uşaq...

Tənqidçilərin müşavirəsi xoşuma gəlmədi. Salam Qədirzadəyə astadan:

– Salam, dur gedək.

– Hara?

– Zooparka.

– Tənqidçilərdən yaxşı deyil.

– Nə biləcəklər.

Həmən günün gecəsiysə biz – İslam Səfərli, Adil Babayev, Əlfi Qasımov, Salam və mən Naxçıvana – Mikayıl Müşfiqin yubileyinə gedəcəkdik. Sadəcə olaraq səfər üstündə vaxt öldürürdük.

Gəzib-dolanıb gəldik Salamgilə. Salam Qədirzadə Əhməd Cəmilin üçotaqlı mənzilinə, Əhməd Cəmil də dördotaqlı mənzilə köçmüşdü. Başladıq yeyib-içməyə. Birdən dedim:

– Salam, görəsən bax bu 250 qramlıq nazik-təraş stəkanı ağzınacan ləbələb doldurub Əhməd Cəmilə təklif etsən, alıb birnəfəsə başına çəkər?

– Sən nə danışırsan? O, heç o boyda limonadı içə bilməz birnəfəsə. Bir də, ay Qabil, belə maraqlanırsansa – sən məni də tərpətdin – Əhməd müəllimin özündən soruş.

– Ayıbdır, yaxşı deyil, axı. Pərdə məsələsi var axı. Əhməd Cəmil də özün bilirsən ki, şux adam, zarafatcıl adam deyil.

– Öz işindir. Əgər soruşsan, mən də bu soruşmağının şa-

hidi olsam, Əhməd müəllimin cavabını qulağımla eşitsəm, həmən saat harada istəsən, necə istəsən bir qonaqlıq məndə.

Bu döndü nağıllardakı şərtlərə...

Bu o qədər də asan iş deyil. Birincisi: gərək Əhməd Cəmillə təkbətək rastlaşaydım. İkincisi: həmən anda onun kefi, əhvalı, ovqatı yaxşı olmuş olaydı. Üçüncüsü: bu suala müəyyən bir giriş, məntiqli, ədəb-ərkanlı zəmin hazırlamalıydım. Yoxsa ki, Əhməd Cəmil kimi adamın birdən-birə qabağını kəsib göydəndüşmə söz soruşmaq, özü də elə söz soruşmaq nəzakətsizlik, hətta tərbiyəsizlikdən başqa bir şey olmazdı, ləzzətdən çıxar, böyük-kiçikliyi pozardı. Dördüncüsü – və ən vacibi – həmən anda, həmən məqamda mən Salam Qədirzadəni haradan tapaydım ki, üçümüz bir yerdə olaq.

Nağıllarımızdakı kimi bir xoş gündə, xoş saatda bu şərtlərin dördünə də əməl etməklə Əhməd Cəmilə o həmin sualı verməyə imkan tapıldı, fürsət düşdü. Bəli, bir dəfə Yazıçılar İttifaqının ikinci mərtəbəsində Salamla rastlaşdıq. Söhbət eləyə-eləyə öz adətimizlə keçib getdik məsləhətçilər otağına. Məsələhətçilər otağı məşhur idi. Yazıçılar İttifaqına gələn hər kəs işi oldu-olmadı, hökmən bu otağa baş çəkməliydi. Buradan söhbət, qeybət, laqqırtı, zarafat, anekdot və sairə əskik olmazdı.

Gözümüzə inanmadıq: otaqda ancaq Əhməd Cəmili gördük. O, bura çox az-az gələrdi. Telefonla danışırdı. Salam işarə elədi ki, məqamdır, soruş.

Əhməd Cəmil dəstəyi qoyub ayağa qalxdı, hər ikimizlə təbəssümlə salamlaşdı, hal-əhval soruşdu. Mən guya onun pencəyinə qonan “sapımı”, “tozumu”, “tükümü” ehmalca əlimlə götürdüm:

– Əhməd müəllim necəsiniz?

– Çox sağ ol.

– Əhməd müəllim, səhhətiniz?

– Belə pis döyüləm. Ancaq hərdən ürəyim ağrıyır.

– Nə üçün, ay Əhməd müəllim? Siz ki, özünüzə baxırsınız, papiros çəkmirsiniz, içki də ki, yəqin heç dilinizə dəymir.

Salam məni dürtmələdi, yə`ni, uzatma, tez ol, sualını ver, kənar adam-zad gələr.

– Əhməd müəllim, bəlkə hərdən-bir xəlvətə salıb evdə-zadda hərdən bir balaca...

– Yox, əşşi, sən nə danışırsan. 40-cı ildə bir unudulmaz məclisdə Səməd Vuğun mənə zorla iki piyalə "Sadıllı" şərabı içirtmişdi, iki gün başım ağrıdı.

Salam yenə məni dirsəklədi ki, keç mətləbə.

– Əhməd müəllim, (Əhməd Cəmil "Ulduz" jurnalının baş redaktoru idi) məsələn, işdən ki, çıxıb evə gedəndə, bu sosiska-xanaların, qəlyanaltıların qabağından keçəndə, ayaqüstü yeyib-içənləri görəndə meyliniz heç çəkmir, ürəyiniz bir şey istəmir?

Salam yenə işarə elədi: "Tez ol!"

– Əhməd müəllim, məsələn, hər dəm-dəsgahı, turşusu-filanı hazır olsa, bir dolu nazik stəkanla buz kimi 250 qramlıq arağı birnəfəsə içə bilərsinizmi?

Baxıb gördüm ki, deyəsən, kişinin rəngi dəyişdi, bir sözdən... içməyə-içməyə... Salam da, mən də birtəhər olduq.

Əhməd Cəmil:

– Ay uşaxlar, içsəm ölləm ki...

– Ay Əhməd müəllim, Allah eləməsin! İçmirsiz içməyin də! Ölsün düşməniniz.

Salam mənə göz vurdu, Əhməd müəllimdən təklifimə görə, sualıma görə üzr istədim, getdik özümüzçün...

## KƏHRƏBA SALXIMLI YAŞIL TƏNƏKLƏR ALTINDA

Vaxtında gəlmişik bu dünyaya biz,
Bu dünya yenidən qurulmalıydı,
Alovlar içində çalxanan dəniz,
Şəfəqlər qoynunda durulmalıydı.

Nə quruldu, nə duruldu... Kim bilirdi ki, Əhməd Cəmil də biləydi... Qurulmadı, dağıldı, durulmadı, bulandı... Kim demirdi ki, Səməd Vurğun da

Qızıl meydan, Qızıl meydan,
Söylə səndə nə sirr var.
Hardan uçsa könlüm quşu,
Gəlib səndə qərar tutar.

deməyəydi?..

Aləmi – Mənim, Bizim – Səməd Vurğunların, Rəsul Rzaların, Vahidlərin, Əhməd Cəmillərin aləmini – Azərbaycanımızı, qızıl qana qərq edən Qızıl meydan, Qızıl Moskva hələ bizdən ötəri "doğma", "əziz" idi, hələ Moskvanın "sayeyi mərhəməti" üstümüzdəydi, Moskvadan gələn müxtəlif səviyyəli nümayəndələrin, dəstə-dəstə, tək-tək qonaqların, müfəttişlərin, xüsusilə mərkəzi mətbuat nümayəndələrinin gözümüzün üstündə yeri vardı. Hələ çox qalmışdı, hələ 1975-ci ilin sentyabr ayının axırlarıydı, hələ Bakıda qanlı qərənfillərin fəryadına çox qalmışdı. Hələ köhnə bakılılar demişkən, Bakının yaxşı vaxtı – əncir-üzüm vaxtıydı.

"Sovetskiy Soyuz" jurnalının iki nəfər fotomüxbiri Bakıya gəlmişdi. Elə həmən jurnal, uşaqlar demişkən, şəkilli idi. Müxbirlər Mərkəzi Komitənin müəyyən elədiyi marşrutla respublikamızı gəzəcək, cürbəcür mövzuda şəkillər çəkəcək, fotoreportajlar hazırlayacaqlar. Jurnalın bütöv bir nömrəsi Azərbaycana həsr ediləcəkdi. Şəhərlər, kəndlər, yollar, mənzərələr, dağlar, bağlar, tarlalar, təsərrüfatlar, sənaye müəssisələri, tibb ocaqları, kitabxanalar, hökmən Neft daşları, Sumqayıt, Mingəçevir, Serebrovski adına mə`dən... hökmən Sosialist Əməyi Qəhrəmanları obyektivə düşməliydi. Amirlik dövründə nəyi istəyirdinsə, necə istəyirdinsə, hansı

səviyyədə, hansı miqyasda istəyirdinsə, "təşkil etmək" məsələsi asan idi. Bunun bircə mə`lum üsulu var idi – göstəriş – vəssalam! Hər şey yağ kimi gedirdi. Kimin ixtiyarı var idi ki, əmri yerinə yetirməyə. Bu pis idi? Ya indiki pisdir? Dünyada yüz faiz nə pis var, nə yaxşı. Ancaq, bu günün "pis"i belə qala bilməz, bu günün "pis"i yaxşılığa doğru gedir.

Əhməd Cəmilin onda, yə`ni 1975-ci ilin sentyabrın lap axırlarında "Ulduz"da işləyib-işləməməyi yadımda deyil. Elə xatirənin də ləzzəti bundadır də, yoxsa dəqiq öyrənib yazmağa nə var ki...

Mən "Azərbaycan" jurnalında işləyirdim. Yazıçılar İttifaqının birinci katibi, çox xeyirxah insan İmran Qasımov məni otağına çağırdı, gəldim gördüm Əhməd Cəmil burdadır.

İmran:

– Moskavadan gələn müxbirlər hər yeri gəziblər, nə lazımsa çəkib götürüblər. Qalıb onların axırıncı obyekti, Bakı şəhərinin əsas mərkəzi dairəsi, müəyyən qədər də yaxın ətrafı. Belə məsləhətləşmişik ki, bu marşrutda qonaqları Siz ikiniz müşayiət edəsiniz. Əhməd şe`rimizin canlı klassiki, sən də necə bir köhnə bakılı şair. Tak, (İmran Qasımovun sözarası rusca tez-tez "tak, tak" deməyi vardı) bütün bu işlərin təşkilat rəhbəri Aslan Aslanovdur. O, universitetin partiya təşkilatı katibidir. Sizi gözləyir, müxbirlər də yanındadır.

İmran Qasımov Aslan müəllimə zəng çalıb dedi ki, Əhməd Cəmillə Qabil bu saat gəlir.

Köhnə dostumuz, məşhur "Lalələr" şe`rinin müəllifi, gözəl tərcüməçi – şair, fəlsəfə professoru, daha sonra akademik Aslan Aslanov qonaqları bizə, bizi də onlara təqdim elədi. "Sovetskiy soyuz" jurnalının fotomüxbirləri – ucaboylu qadın və elə ona yaraşan, təxminən orta yaşlı bir kişi idi. Adları yadımda deyil. Aslan müəllim bizə qoşula bilməyəcəyinə görə dönə-dönə üzr istədi.

Maşınını və sürücüsünü bizim ixtiyarımıza verdi. Sonra ərklə, xəlvəti qulağıma pıçıldadı:

– Bəlkə puldan-zaddan?

– Sağ ol, var. Əhməd müəllim də ehtiyatlı kişidir. Bir də axı o... özün bilirsən də...

Bəli, başladıq jurnalistləri asta-asta, dayana-dayana, göstərə-göstərə gəzdirməyə. Gah mən, gah Əhməd Cəmil, gah da sürücümüz (heyf ki, onun da adı yadımda qalmayıb) mə`lumat verir, heykəllərin təmsil etdiyi şəxsiyyətlərdən danışır, bə`zən maşından lap uzaqlaşıb İçəri şəhərin labirint dərinliklərinə gedir, məscidlərə, muzeylərə, əlbəttə Xan sarayına daxil olurduq. Aparatlar çıq-çıq çıqqıldayır, bə`zi yerlərdə qığılcımlar göz qamaşdırırdı.

Hava mülayimdi. Üzü axşama gedirdi. Ətrafa yüngülcə, xoş sərinlik yayılırdı. Gəldik çıxdıq vağzal meydanına. Buranı da çəkməliydilər. Axı qədim camaat demişkən, Nikolaydan qalmış vağzal binasının bayır görkəmi – fasadı çox gözəl, orijinal me`marlıq əsəridir, qiyamətdir. Bəli, burada da ən təkmil, həssas fotoaparatlar axırıncı dəfə çaqqıldadı, bloknotlar axırıncı dəfə varaqlandı, qələmlər axırıncı dəfə yazdı.

Müxbirləri "Azərbaycan" mehmanxanasına aparıb xüdahafizləşməliydik, səhər uçub gedəcəkdilər. Birdən Əhməd Cəmil:

– Ay Qabil, axı yaxşı deyil.

– Hə? Əhməd müəllim!

– Bəs bunlara bir axşam yeməyi verməyək, sonra gedib bizim barəmizdə nə deyərlər...

Bu söz həm mənə təəccüblü gəldi, həm də məni açdı, həm də düzü kövrəltdi.

Söhbət Əhməd Cəmildən gedir. Şair elə şairdir, şair elə nazikdir...

– Əhməd müəllim, bu lap ə`la olar ki, məndə 250 manat

var, jurnaldan qonorarımı təzə almışam (250 manat indinin 3000 manatına bərabərdir).

Əhməd Cəmil:

– Darıxma, düzələr, – dedi və xoş bir ovqatla göz də vurdu, – Ancaq hara gedək ki, mənzərəli, səliqəli-sahmanlı olsun, yeməkləri də təmiz olsun?..

Sürücü:

– İcazə verin, Sizi lap belə ürəyiniz istəyən yerə aparım.

– Hara?

– Gedərik, görərsiz.

Gəldik Şıx çimərliyinə, oralar indi yaman gündədir, bütün sahili bir yandan su... bir yandan da baxımsızlıq başına götürüb. Nə restoran, nə yemək, nə təmizi, nə qeyri-təmizi?..

Gəldik gül kimi, əntiqə xudmani bir guşəyə. Əyləşdik kəhrəba salxımlı yaşıl tənəklərin altında. Dəniz ətirli, yosun ətirli meh əsirdi. Qonaqlarımızın birinci sözü bu oldu:

– Kakaya prelest...

Restorançı gəlib bizimlə çoxdanın dostu-tanışı kimi salamlaşdı... Sifariş qəbul etmək istəyəndə ona işarə elədim ki, keç o tərəfə, gəlirəm.

Restorançı:

– Nə ürəyiniz istəyir, varımızdır. Görürəm ağayana adamlarsız.

– Bəli, o kişi xalqımızın məşhur şairi Əhməd Cəmildir.

Restorançını heyrət bürüdü.

– Bəs onu 37-də tutub güllələməmişdilər?

O saniyə başa düşdüm ki, hərif Əhməd Cəmili Əhməd Cavad bildi. Ə`la! Heç belə şeyin üstünü vurarlar? Barmağımı dodaqlarımın üstünə gətirib işarə elədim ki, sus, yaxşı deyil.

Yazıq pıçıltıyla:

– O "Göy-göl" oxuyurlar ey, tez-tez:

Yorğanı buluddan,
Dağların maralı...

– Özüdü ki, var səs eləmə! O iki nəfər Moskvadan gəlib, müxbirlərdi, respublikadan, Bakıdan çoxlu şəkillər çəkiblər, aparıb dünyaya yayacaqlar. Mən də şö`bə müdiriyəm.

Fağır nə biləydi ki, mən "Azərbaycan" jurnalında şe`r şö`bəsinin müdiriyəm. Axı şö`bə müdiri... var, şö`bə müdiri var də...

– Əşşi, belə sizin hamınıza qurban olub, o gedər-gəlməzdən sağ-salamat qayıtmış şairimizə qurban olum. Keç əyləş.

Qaşla-göz arasında Əhməd Cəmilə işarə vurub qulağına pıçıldadım ki:

– Restorançı sizi Əhməd Cavad bilib, Siz Allah, üstünü vurmayın, ləzzəti qaçar.

Əhməd Cəmil təbəssümlə:

– Ay Qabil, bircə rola girməyim qalmışdı, onu da gətirdin başıma. Xülasə səninlə macərasız keçinmək mümkün deyil.

Güldük... Qonaqlar da nəzakət xatirinə bizə baxıb gülümsədi. Xudmani məclisimizin süfrəsi sehrli süfrə kimi bəzəndi... nə bəzəndi... Təsəvvür edin ki, bir bülbül dilindən lülə kabab, bir də quş südü yox idi, bir də Salam Qədirzadə burada – məhz belə yerdə, yanımızda yox idi...

Süfrədə soyuducudan təzə götürülmüş şüşəsi tərli... "döşü" medallı araqları görəndə yadıma istər-istəməz Salam... məsləhətçilər otağı... Əhməd Cəmilə təklif etdiyim xəyali araq düşdü...

Qonaqların ağlı başından getmişdi.

– Eto çudo, skazka...

İlk piyalələri qonaqların sağlığına qaldırdıq. Əhməd müəllim tost dedi: kəlmə-kəlmə... asta-asta... Özünün dediyinə görə, əsasən, yüngül pəhriz xörəklərinə adət etmiş bu kişi əməlli-başlı yeyib-içirdi. Mən ayağa qalxdım, piyaləmi

kəhrəba salxımlara qədər yuxarı qaldırdım, bütün söz ehtiyatımı səfərbər edib, Əhməd Cəmilin şərəfinə rus dilində sağlıq dedim: nejnıy, poryadoçnıy çelovek, tonkiy master slova, troqatelnıy lirik, jivoy klassik, poet-yuvelir, jurnalist, poet-frontovik və sairə və ilaxır... Əhməd Cəmil elə bil, huşa getmişdi. Onun uzaq cəbhə misraları yadıma düşür, bu xatirələri yaza-yaza:

Gecədir, qar yağır... səngərdəyik biz,
Qarşımız düşməndir, arxamız dəniz.

Eh...Əhməd müəllim, bu saat nəinki qarşımız, hər yanımız, içimiz də... düşməndir. Arxamdakı dəniz də siz görən dəniz deyil, o – təkcə bülbül dili çatışmayan süfrə də qeybə çəkilib, o gülərüzlü restorançı da o restorançı deyil... Nə Əhməd Cavad? Nə Əhməd Cəmil?! Bu saat onunçün...

Eh... Əhməd müəllim, yenə Sizin uzaq cəbhə şe`rlərinizdən misralar yadıma düşür:

Susma qatil! Danış bir-bir həqiqəti, gəl indi...
Söylə, hansı nişanlı qız, hansı bədbəxt gəlindi,
Bir üzükçün qılıncınla barmağını üzdüyün?
O ellərin nakam qızı yaşayırmı, de, bu gün?

Eh... Əhməd müəllim, sən deyən o qatil bütün bəşəriyyətin qatili idi. Bütün bəşəriyyət də onu məhv elədi. Ay mənim böyük qardaşım, şair qardaşım! İndi, bu dəqiqə öz torpağımızın, öz evimizin içində ermənilər uşaqlarımızı, qocalarımızı, nişanlı-nişansız qızlarımızı, uşaqlı-uşaqsız gəlinlərimizi diri-diri yandırırlar. Girovlarımızın üstünə benzin səpib başdan yox, ayaqdan od vururlar ki, alov ürəyə gəlib çatanacan əzabla qovrulsunlar...

Yox, Əhməd müəllim, sən dözməzdin. Nə yanvar şəhidlərinə, nə hər gün artıq adət elədiyimiz qırmızı tabutlara... nə qanı batmış, qanı gözgörəsi batırılmış Əsədovların, Qayıbovların, Vəlinin, Tofiqin, Alının, 21 yaşlı işıqçı Arifin müsibətinə tab edə bilməzdin.

Ancaq, Əhməd müəllim, bu gün biz bu qanlı-qadalı, şəhidli-qurbanlı yollarla hərc-mərclik içindən, tilsimindən keçə-keçə azadlığa, müstəqilliyə gəlib çıxmışıq. Fikrimiz-düşüncəmiz, mətbuatımız, məscidimiz buxovdan, qıfıldan azad olub. Biri-birinin ardınca ölkələr bizi, müstəqil Azərbaycan respublikasını tanıyır. Bilirsən necə sevinərdin, bilirsən bütün bu əhvalatlara necə şe`rlər yazardın?..

...Məclisimiz arəstə idi. Qonaqlar da, sürücümüz də sağlıq deyirdi. Əhməd Cəmil – nazik buz təbəqəsi ərimiş mavi dağ gölü kimi cilvələnirdi... elə hamımız. Onda videoaparat, kasset olsaydı. Əhməd:

– Ay Qabil, bu arax nə yaxşı şeymiş...

– Bəs nə? Üşümürsünüz ki?

– Vallah nə bilim.

Bu dəm restorançı əlində pencək gəlir, incə, titrək bir nəvazişlə pencəyi Əhməd Cəmilin – öz aləmində Əhməd Cavadın... çiyninə salır. Sonra əlini kəhrəba salxımlara uzadır:

– Dərin, yeyin də, pojaluysta, eto ne dlya ukraşeniya, nastoyaşiye Bakinski şanı. Dərin, siz Allah, onsuz da quşlar axırına çıxır.

Dənizdən xəfif yel əsir. Əhməd müəllimin çiyninə bir yarpaq qonur. Bu yarpaq unudulmaz şairimiz Əhməd Cəmil haqqında xatirələrimin son yarpağıdır.

**Dekabr 1991-Yanvar 1992**

# HAVALANSIN XANIN SƏSİ

Yer kürəsi fırlanır, zaman keçir, həyat öz axarıyla axıb gedir, səhifələrinin sonu görünməz tarix kitabı vərəqlənir, böyük şair Səməd Vurğun demişkən, fəsillər dalınca fəsillər gəlir, nəsillər davam edir. Bəli, məhz davam edir, biri-birini təkrar etmir. Çünki həyatın qanunu belədir – təkrar yaşamır, qalmır, gözdən-nəzərdən, yaddaşdan silinib gedir.

Ancaq, davam edən, dəyişə-dəyişə təzələnən, müasirləşən, əslinin-nəslinin bünövrəsində bərqərar olanlar qalır, yaşayır.

Tarixin yaşı, məsafəsi, müddəti ölçüsüylə götürəndə çox da uzaq, qədim olmayan mətbuat tariximizdə "Azərbaycan" adlı bir qəzetimiz olub – ilk, müstəqil, körpə ikən beşiyində boğulmuş Azərbaycan Demokratik Respublikasının orqanı! Bu gün sənə də "Azərbaycan" adını verdik. Daha doğrusu xalq verdi, şərait verdi, zamanın hökmü verdi.

Ay təzə qəzetimiz, qədəmlərin mübarək, nəşrin uğurlu olsun!

İncə nöqtələrdə, nazik mətləblərdə ürəkləri ehtizaza gətirən sarı simin, fikri-düşüncəni itiləşdirən kəlamın var olsun, zövq və əxlaqi keyfiyyətlər təlqin edən bədii sözünün təravəti solmasın, təkzibsiz, sübutlu-dəlilli hekayətlərin, faktların, xəbərlərin kəsərli olsun!

Düzdür, sən Qarabağa Xalq Yardımı Komitəsinin orqanısan. Bu sənin rəsmi ünvanın, rəsmi tanıtma nişanlarındır. Bu da düzdür ki, səni dünyaya gətirən də Qarabağ harayı,

Qarabağ yanğısı, Qarabağın qanlı əhvalatları oldu, oradakı (DQMV) Azərbaycan əhalisinin dərdi-səri, başına gətirilən min bir müsibət oldu. Təbii ki, həmin məsələlər sənin səhifələrində əsas gözəçarpan yeri tutacaq. Lakin, sən – mətbuatımızın göylərində parıldayan təzə ulduz, yazılı fikrimizin aynasına düşən təzə nur, adını şərəflə, ləyaqətlə daşıdığın Azərbaycana, onun hər guşəsinə, hər qayğısına aydınlıq saçacaqsan.

Aşkarlığın, həqiqətin, bütövlüyün, milli qeyrət və qürurun, milli heysiyyət və mə`suliyyətin aydınlığı!

Təzə qəzetimiz, səni təbrik edirəm, gəlişin gözəl, mübarək, qədəmlərin əziz! Hər dəfə yeddi gecə-gündüz yolunu intizarla gözləyəcəyik.

Ədalətin çırağında varaqlan,
Cümlə-cahan torpağında soraqlan.
Güllə batmaz, qılınc kəsməz, od almaz
Həqiqətlə zirehlənib yaraqlan!

Xəbərlərin qoy aləmə car olsun,
Fitvaçılar, fitnəkarlar xar olsun.
Ana yurdum "Azərbaycan" söyləyir
"Azərbaycan" qəzetimiz var olsun.

**1989**

# KİTABIN İÇİNDƏKİLƏR

ÖMÜR HƏBLƏRİ (roman) .......................................................7

## MƏQALƏLƏR

Neyləməli, göz görür, əqlim kəsir .......................................248
Məşədi İbad mənfi surətdirmi? ..........................................274
Bizi deyib gələnlərlə görüş .................................................287
Füzuli yadigarı .....................................................................294
Yazıblar, yazırlar, yazacaqlar ..............................................299
El şairinin surəti ..................................................................307
Öz dilimizdə oxuyarkən ......................................................316
"İnamım, əqidəm" ...............................................................323
Şair vüs`əti ..........................................................................331
İki şeirin müəllifinə ............................................................343
Ümid...İnam .........................................................................348
Poeziya – Qəhrəmanlıq .......................................................353
Şair haqqında söz ................................................................362
Nəğməkar haqqında nəğməli hekayət ................................366
Nə xalis yaxşı var, nə xalis yaman .......................................373
Mən ki, gözəl deyildim ........................................................390
Nəbati yaradıcılığı haqqında təəssüratım ..........................395
Karvan yolu... Ömür yolu... Sənət yolu... ..........................414
Burası Ankara... sayın ..........................................................420

Hələ çox iş görə bilər ....425
Təbriz bayraqlı Xəlil ....426
Qatarda... ....430
Qananlar məclisindən keç ki... ....436
Bu kitab ....441
Bir yarpaq nişanə... ....449
Səməd Vurğun....453
Koroğlu romanda... ....459
"Dağlarda atılan güllə" və ya... ....467
Yadımdadır o nadir insan....475
Böyükağa qəlbimdədir....481
"Şivannəşr"in naşiri Qəşəm İsabəyliyə ....489
Çinar nəğmələrində... ....493
Şair Əhməd Cəmil yadıma düşdü....497
Havalansın Xanın səsi ....524

# QABİL

## ƏSƏRLƏR
(YEDDİ CİLDDƏ)

## VI
## CİLD

Çapa imzalanmışdır: 18.09.2017
Formatı 60x90 1/16
Həcmi: 34 ç.v.
Sayı: 500
Sifariş: 142
Qiyməti müqavilə yolu ilə

«Adiloğlu Çap Evi»nin mətbəəsində
çap olunmuşdur.

Ünvan. Bakı şəh., Ə.Salamzadə 9c